**Ağarəhim**

# Əsərlər

## Povestlər

## IV

**Bakı - 2014**

**Redaktorlar:**
**Əlizadə Əsgərli**
**Təyyar Salamoğlu (Cavadov)**

**Ağarəhim.** Əsərlər. 20 clddə. IV cild (povestlər). Bakı, BQU nəşriyyatı, 2014, 494 s.

Yazıçı Ağarəhimin "General" povestində bir qrup fırıldaqçıların fitnəkarlıqları, törətdikləri cinayətlər ifşa edilir, cəmiyyətin onalara olan münasibətləri göstərilir.

"Tənha çinarın pıçıltıları" əsərində kimsəsiz, qayğıdan kənarda qalan uşaqların acınacaqlı, məşəqqətli həyatı və çevrələrindəki adamların onlara münasibətləri ifadə edilir.

"Bir ömrün akkordları" sənədli povestində isə bir şəxsin keçdiyi örnək ömür yolundan, elmi, ictimai və siyasi fəaliyyətindən, quruculuq işlərindən, el-obasına, xalqına və vətəninə məhəbbətindən bəhs olunur.

***BQU - 2014***



# General

O, qan-tər içindəydi. Tələm-tələsik kabinetə girib yumşaq kresloya yaxınlaşdı və arxasını ona çevirib özünü oturacağa buraxdı. Kreslo guppultuyla zavallını ağuşuna aldı. Ombası bərk ağrıdı. Ağrıyan yerinə sığal çəkdi. Az qala kişinin içi töküləcəkdi. Dərindən nəfəs alıb ehtiyatsızlığına görə özünü məzəmmətləməyə başladı:

— Adam kimi otursaydım, qiyamət qopardı? İçim tökülsəydi, o yan-bu yanı yoxiydi, əcəb işə düşəcəkdim. Mən boyda kişini bu heyvərəliyə — təchizat şöbəsinin müdirini Təcili Tibbi Yardıma basaraq aparıb yıxacaqdılar cərrahiyyə stoluna. Həkimlərin də gözlərinə dönüm, nə baş verdiyini bilmədən, mən ölüm, sən öl qanmadan, heç nəyi sonalamadan, köhnə, ya təzəliyinə fərq qoymadan hərə əyninə bir ağ xalat çəkərək əlinə qalperin bıçağı alıb müayinəsiz-filansız cumacaqdılar üstümə. Deyəcəkdilər tərpənmə. Tərpənsən, o tərəf-bu tərəfə çevrilsən işin bitəcək, görünür, anan namaz üstə olub. Qoymayıblar vaxt itirəsən, vaxtında səni bura gətiriblər. Yoxsa... Nə qədər gec deyil, əməliyyat olunmalısan... Zalım uşağı, görməzə-bilməzə elə diaqnoz qoyurlar ki, qorxudan adamın ürəyi çatlamasa yaxşıdı. Day demirlər, bu filankəsdi. Bir az da ölüvay olasan, başlarını yelləyə-yelləyə deyəcəklər: bağırsaq qırılıb; təzyiqdən mədəsi deşilib, qanaxma gedir; qara ciyəri partlayıb; öd kisəsi qara ciyərdən ayrılıb; qarında gedən proses bir azdan başa da təsirini göstərəcək; kalitin... fəsadları sağlamlığına təsir eləyib... Hər diaqnozun da öz məzənnəsi. Birini o birisiylə qarışdırmaq olmaz. Zəhmət haqqının üstünə iynə-dərmanları, gündəlik xərcləri də gəlsən,

gör hara vurur? Evdə də, çöldə də bir manata güman gəlmir. Əl tutacaq cəsarət sahibi, vicdanlı qohum-əqrəba da yox... Əynindəki koftasını aşağı, yubkasını yuxarı çəkişdirən katibə Xasayı diqqətlə dinlədi. Onun iyirmi üç-iyirmi dörd yaşı olardı. Saçlarına sarı rəng çəkmişdi. Yumru, ağ üzü, ona münasib də pənətə burnu, üçkünc çənəsi vardı. Badamı oynaq gözləri rənglənmiş qara kirpikləriylə haşiyələnmişdi. Gülümsər sifəti çox bilmişliyindən xəbər verirdi. Astadan dedi:

— Yaxşı qurtardın. Allahın sənə yazığı gəldi. Xəta baş versəydi, çətin ki, canın bu cəfadan qurtarardı. Düz-əməlli heç baxanın da olmayacaqdı. Adamın yazığı iş-gücdən gözləri açılmayan Gülçöhrəyə gəlir. Uşaqları ərindən sonra necə saxlayacaqdı? Cüzi məvacib alan bu adam döyəcəkdi baş-gözünə. Gücünü verəcəkdi gözlərinin yaşına. Gəl infartk olma görüm, necə olmursan. İndi elə dövrdü ki, halına acıyan, göz yaşlarını vecinə alan da yoxdu. Əlacı kəsilib başlayacaqdı o ki var kimlərinsə qarasınca söyməyə. Bircə əlac qalacaqdı arsız-arsız təskinliyə. Zeynəb qarı demişkən, xəta üz verəndə quymaq diş sındırar...

Kişi yöndəmsiz hərəkətindən peşmançılıq hissi keçirirdi ki, kabinetin qapısı balaca aralandı. Xadimənin pırpızlı başı içəri soxuldu. Kişi acınacaqlı hal doğuran düşüncələrindən ayrıldı. Ağır-ağır başını qaldırıb diqqətlə onun üzünə baxdı. Xadimənin qırx-qırx beş yaşı olardı. Bəstəboylu, sarıbəniz, gülərüz bu qadının qabartılı sinəsi, qabağa çıxmış qarnı vardı. Yeriyəndə ayaqlarını aralı qoyurdu. Ucadan danışırdı. Kimə gəldi ürəyindəkiləri açıb tökürdü. Onu görən Xasay Əlləşoviç ciddi görkəm aldı. Xadimə yenicə alınmış qaşlarını oynadıb naz-qəmzəylə soruşdu:

— Özünü necə hiss edirsən? Bu axşam yata bilmisənmi?

Xasay saymazyana cavab verdi:

— Necə bəyəm, ondan sənə...

— Xasay Əlləşoviç, bir dənə xoruzquyruğu çayla aran necədi? Təzə dəmləmişəm, ölü içsə dirilər.





— Əşi, saxla, əməlli-başlıca dəli olmaq ərəfəsindəyəm.

— Hə... Düz deyirsən, üz-gözündən zəhirmar yağır, Xasaycan, yenə sənə nə olub? Ağzıma daşlar, yoxsa, pişik asqırıb?

Xasay üz-gözünü əyişdirdi, əlini belinə qoydu:

— Nə olacaq? Adam kimi otursaydım, qiyamət qopardı?

Katibə ucadan güldü. Masanın üstündəki kağız-kuğuzu qaydaya sala-sala dedi:

— Öyrəncəlisən deyingənliyə.

— Canın üçün az qaldı içim tökülə. Tökülsəydi, əcəb günə qalacaqdım... Dönəcəkdim itin, qurdun ağzında saqqıza... Aç televizoru, görək orda nə var?

Elə bu vaxt xadimə əlində süpürgə kabinetə daxil oldu. Xasayla katibə təəccüblə ona baxdılar.

Xadimə o tərəf-bu tərəfə baxıb qımışdı:

— Siz mənə elə baxırsız, guya birinci dəfədi görürsüz. Nazır özü yaxşı kişidi, adam dəyərləndirəndi, ancaq, yan-yörəsindəkilər iti-qurda calayanlardılar... Bu kişi hara baxır bilmirəm.

Xasay dərhal atıldı:

— Ağzını yerə tut danış. Necə yəni hara baxır? Onun dərdisəri azdımı?

— Əşi, qələt eləyib bir söz demədim ki, elə qışqırdın, az qala əlimdən süpürgə düşəcəkdi. Həmişə özün demirsən ki, son vaxtlar nazirlik zir-zibillə dolub? Canın üçün, Əlləşoviç, onların hamısını süpürüb ataram zibilliyə. Əşi, çatmamış məni aldın sıxma-boğmaya. Deyəcəklərimi də az qala unudacaqdım. Əla darçın, quluncan, mixək var. Kəkotu da böyründə. İran malıdı, hərəsindən bir çimdik təşkil elərəm sənə. İçərsən, kefin kökələr.

— Narkotikayla qarışdırılıb?

— Əşi, yox... Saf, təmiz maldı. Keçiləsi şey deyil... Bəyəm mən narkotikayla oynayana oxşayıram? Lazımsa, get onu Fatmanisədən taparsan. Bu şərtlə Zeynəb qarı görməsin.

Katibə kinayəylə dilləndi:

— Narkotikayla oynayanın buynuzu da olur? Fatmanisə də, Qızbəs də sənin boyda, sənin ağılda adamdılar da.

Xadimə daxilən əsəbiləşsə də, bunu büruzə verməməyə çalışdı:

— Narkotikadan çox şeyin tərkibində var. Düz demirəm, Əlləşoviç? Katibən elə danışır, adam az qalır, onun ətəyində namaz qılsın. Elə bil alkaş Hümmətin qızı deyil: hi... hi... hi...

Katibə hirsləndi:

— Atamın adını tutma, ifritə.

Xasay qamətini düzəltdi. Bir az da qarnını irəli verdi:

— Narkotika axmaq şeydi, ancaq hərdən adamın meyli çəkir. Əlacsız qalıb... Darçınlı, quluncanlı, xüsusiylə mixəkli çay da pis deyil, xanım.

Xadimə məmnunluqla bildirdi:

— Mixəkli çay ürək, darçın, quluncanlı çay isə şəkər xəstəliyinə xeyirdi.

O, sonra katibəyə tərəf döndü:

— Xasay Əlləşoviç ayıq-sayıq kişi adamdı... Bu xarabada ondan savayı mənə xanım deyən gədə-güdə olmadı.

Katibə xadimənin nə demək istədiyini tutdu:

— Gədə-güdə nədi, aaz? Üzünə xoş baxan kimi yolunu azırsan. Canın üçün sənə bir törpü gələrəm, kim olduğunu da unudarsan. Çaşma...

Xadimə katibəyə:

— Adamın nəsli-zatı olar. Əlləşoviç əsilli-nəsilli adamdı. Allah onu yetirib sənə, ondan muğayat ol, qədrini bil. Bu saat kişi qəhətə çıxıb, dədənin-dədəmin goru haqqı, əli çıraqlı axtarsan, belənçiyini tapanmazsan.

Katibə dözmədi:

— Bas bayıra... Mənə göstəriş verənə bax... Guya mən heç nə qanmıram... Dərdim azıydı, bu da böyürdən çıxdı. Bircə xa-





dimə qalmışdı, mənə ağıl verməyə.

Xadimə kükrədi:

— Dəymədüşər olma, xanım. Yaradan elə yaradıb ki, heç kəs özündən ağıllı adam tanımır. Nəyə deyirsən and içim, hamını bircə-bircə əldən keçirmişəm. Bu nazirlikdə hamının ağlı da, hüququ da birdi. Gözətçinin də, nazirin də. Qaldı sənə, onu Əlləşoviç hamıdan yaxşı bilir. Atılıb-düşmə. Özünü yuyub...

Xasay dərhal xadiməyə qüsur tutdu:

— Çox dərinə getmə. Bir az üzdən elə. Gedərsən, bizi də zibilə salarsan. Sənin nəyin var: bir süpürgən. Gedəndə istəyərsən özünlə apararsan, istəməzsən dəhlizə atarsan. Dərd bizimki olacaq... Gəl get iş axtar tap. Hay tapdın ha.

Katibə bərk acıqlandı. Qalxıb xadimənin qolundan tutdu və itələyə-itələyə dedi:

— Çıx... Çıx... Çağıranda gələrsən. Xasaycan, bu boyda nazirliyə qiymət verənə bax... Yenə cənab nazirimiz dəyərləndirsəydi, dərd yarıydı. İtin qudursun, a belə dünya, hələ görəcəyimiz daldaymış.

Katibə Xasaya sarı döndü:

— Siz də özünüzü çox boş qoymayın. Hərənin ağzından bir avaz gəlir.

Xasay özünü heç bir şey olmamış kimi apardı:

— Özünü hər çırtı-pırtı şeydən ötrü üzmə. Dünya belə gəlib, belə də gedəcək, qadası.

"Qadası" sözü katibənin ürəyincə oldu. O, yüz səksən dərəcəlik bucaq altında döndü:

— Necə dedin, sənə qurban olaram, Xasaycan.

Xasay gülümsündü. Sonra heç bir şeylə maraqlanmırmış kimi astadan dedi:

— Əvvəl televizorun düyməsini bas, xəbərlərin vaxtıdı. Görək Sxenvalidən təzə nə xəbər var. Ruslar gürcülərlə atışaraq asetinlərə nə gün ağlayırlar? Qara Dəniz çalxalanmır ki?.. Eh...

Bu rusların da işindən keçmə, özünün, özgənin bilmir. Hara oldu pərçimləyir... Belə getsə, geci-tezi var... Bizim turbamıza da bir əngəl çıxmasa yaxşıdı... Ürəyimə damıb ki, dünya dağılacaq. Təhlükəli bir şey varsa, duraq, biz də başımıza bir çarə qılaq. Yox, həmişəki kimidisə, söz güləşdirirlərsə, vur-vurumdusa, Allah bundan betərindən saxlasın.

Katibə düyməni basdı. Ekranda multfilm nümayiş etdirilirdi. Xasay dərhal ondan soruşdu:

— Multfilmlə aran necədi?

— Uşaq vaxtlarımda baxırdım. İndi həvəsim yoxdu.

— Nahaq. Belə filmlərdə əvvəla əsl həyat göstərilir. Gərək ordakı ideyanı tuta bilsən. İkincisi də orda əsəb doğuran şey olmur. Üçüncüsü də orda təsvir olunan obrazların xarakteri, hadisələrə münasibəti qəlbimə çox yaxındı. Dördüncüsü də qarşılaşdığımız, əlaqədə olduğumuz adamlardan mən onlara çox dəyər verirəm.

— Sonuncu dediklərinlə lap ürəyimdən keçənləri təsvir elədin...

— Onda dur, çayını gətir, ləzzətlə içək. Sənin ondan başqa nə işin var?

Katibə gülümsündü. Ağ sədəf kimi üst dişiylə alt qalın dodağını dişlədi. Sonra cavab verdi:

— Var, müdir.

Elə bu vaxt cüültü eşidildi. Xasay:

— Nədi az, o?

— Nə olacaq? Telefon...

İlk dəfə görürmüş kimi Xasay Əlləşoviç katibəyə mənalı-mənalı baxdı:

— Öz işini əla bilirsən, qadası, bərəkallah səni doğan arvada. Arvad döör ey, mələkdi.

Anasının tərifi katibənin ürəyinə yağ kimi yayıldı. İstədi kişiyə desin ki, necə dedin, onu bir də təkrar elə, ancaq nəsə düşü-





nüb bu fikirdən vaz keçdi. Heç bir söz demədən televizorun düyməsini basdı. Ekranda qadın şou-biznes nümayəndələrinin ən çox soyunanlar üzrə müsabiqəsi nümayiş etdirilirdi. Bunu görən Xasay katibəyə xoş getsin deyə, guya zəhləsi gedirmiş kimi təkid elədi:

— Tez kanalı dəyiş, abrımız, həyamız getdi. Hansı kanalı açırsan, hansı qəzeti, jurnalı vərəqləyirsən qırılmışlardı. Nə böyük qanırlar, nə də kiçik. Özlərin qoyurlar çöldə. Elə bilirlər, soyunanda daha çox xal qazanırlar. Mən seksin əleyhinə döörəm. Məni elə dar düşüncəli də, həzsiz və zövqsüz də sanma. Ancaq söz öz aramızda, baxır harda... Yoxsa, televizorda, uşaqların gözlərinin qabağında?! Allah, daş yağdır, Allah!..

Müdirinin ustalıqla sarı simə vurduğunu başa düşən katibə gözlərini süzdürdü və kanalı dəyişdi.

* *
*

Ekranda aparıcı qız göründü:

— Hörmətli seyrçilər! Sağlamlıq böyük xoşbəxtlikdi. Sağlamlığınızın qayğısına qalmağı unutmayın. Səhhətinizə diqqətli olun. Vərəm, taun, sarılıq, qrip keçici xəstəliklər qrupuna daxildir. Ürək, qan-damar, şəkər, xərçəng xəstəlikləri keçici deyil. Ehtiyatlı olun, sayılmayan şey başa bəla gətirir... Ürək adamı birdən aparır. Sorğu-sual xoşlamır. Vəziyyətini öyrənməyə nəinki yaxınlarına, heç arvad-uşağına da imkan vermir. Bir də gördün şırt apardı. Mən ölüm-sən ölə də baxmır. Tutmasın, tutdu... O söz... Geriyə də yol qoymur. Bütün körpüləri dağıdır.

Katibə üşənə-üşənə:

— Bəs xərçəng?

Xasay bir an fikrə getdi. Nəsə özlüyündə götür-qoy elədi. Sonra özünü çəkib dedi:

— Xərçəngdən danışma. O, çox ağrılıdı. Adamı xeyli müddət yorğan-döşəyə salır. İnsafən, ürəkdən fərqlidi. O, dərdini açıb-söyləməyə imkan verəndi. Şəkərsə zəhlətökəndi. Adamı çərlədəndi. Ona mübtəla olan nə ürəkdən sevinə, nə də gülə bilir. Adamın ürəyində, ciyərində, gözlərində, ayaqlarında, böyrəklərində... harda, harda ağlagəlməz fəsadlar yaratsa da, yaddaşını zibilə döndərsə də, onu arsız-arsız həyat tərzi sananlar da tapılır. Adamı deyingən eləyir, onda nüfüz-müfüz qoymur qala. Hələ adamı xəcalətə salan spidi demirəm.

Xasay səsinə ara verdi. Sonra təəssüf hissiylə bildirdi:

— Hə... Dincəldik... Bu da həkim. Da hansı əzamız-filanımız qaldı ki, toxunmadığı? Bu şərhdən sonra həkimlərdən nə təmərzik umaq?.. Bizim zonada ağıllı kişilər buna deyirlər ki, nə qədər gec deyil, get ayağını uzat öl. Canın qorxunc xəstəliklərdən də qurtarsın, hələ onun fəsadlarından da.

Katibə heyrətləndi:

— Niyə ki, Xasaycan? Eşitdin, aparıcı nə dedi?

— Nə dedi?

— Şəkər həyat tərzidi. Pəhriz tələb eləyir. Həkim canıyanmış ta necə deməliydi ki?

— Spid necə? O da həyat tərzidi? Ürək, qan-damar necə? Mənim həkimimə bax. Axşam yatır, səhər durur, röyasını danışır. Əşi, qan-damarı ürəkdən niyə ayırırsan? Ürək çezsə, qan-damar neyləyəcək? Yaxud əksinə...

— Heç nə?

— Atana rəhmət... Xərçəng zəhrimardı. Onunla məzələnməzlər. Yaxşısı budu, ondan danışma. Ağıllı adamlar danışılan yerdən dalına baxmadan qaçarlar. Qaçmazsan, qulağın dolar, bir gün görərsən, səni də tutar. Onda da gəl qurtar, əclafın cəngindən.

— Ondan sən də deyəsən, üyüdürsən, Xasaycan.

Xasay dərindən kökçünü ötürdü:





— Ələyim ələnib, xəlbirim göydə fırlanıb... Həkim mənə bu yaşda ağılmı verəcək? Onuycan qanmıram?

Katibə:

— Nə xəlbir? Nə dəyirman? Canın hələ suludu. Elə deyib özünü gözümdən salma.

— Kişi qızısan... Qanansan...

Qapı bir balaca aralandı. Xadimə barmaqlarının ucunda kabinetə daxil oldu. Yavaş-yavaş Xasaya yaxınlaşdı. Pıçıltılı səslə dedi:

— Xasay Əlləşoviç, yaxşı balıq var: xəşəmi də, naxası da. Hələ üstəlik ilanbalığı da. Tanışlarım gətiriblər. Etibarlı adamdılar. Təzədi. Bilirsən, balıq şəkərə necə xeyirlidi? Gözə də yaxşı təsir eləyir. Nə qədər çox yesən, başın da yaxşı işləyər.

Xasay:

— Lazım deyil, rədd elə getsin. Balığa mən pul vermirəm. balıq özü mənim tərəfə gəlir. Balıq nədi ki, onun dalınca mən sürünəm.

Xadimə:

— Balığın dalınca sürünmürlər, Xasaycan, üzürlər.

— Mən deyən alahı balıqdı.

— Xasaycan, başı bağlı hiyləgərsən. Səni hələm-hələm tutmaq olmur. Elə danış, səni mən də anlayım.

Xasayı gülmək tutdu. O, güldükcə çiyinləri, bəri-bədəni silkələnirdi. Haçandan-haçana özünə gəldi:

— A kişinin qızı, ta mən deyəni sən göydə tutsaydın, mən sən deyən o başı bağlı hiyləgər Xasay olmazdım ki?

Katibə istədi tutub xadiməni ayaqlasın, saçlarını yolsun. Sonra düşündü ki, vurhavur, yolhayol gedib çatar nazirə. O da baxmaz ağına-qarasına, onu atar işdən. Hüzrü günahından betər olar. Ona görə də katibə məsələni sakitliklə yoluna qoymağa üstünlük verdi:

— Ağız, nə abırsız adamsan. Yenə başladın bizi bezikdirmə-

yə? Niyə yığışmırsan? Burdan başqa şöbə, Xasaydan savayı müdir yoxdu? Pay atonan, camaatın çiyninə bülbül qonur, mənimkinə bayquş.

Xadimənin sifəti bozardı:

— Abırsız özünsən. Sən guya abırlısan? Dəhlizdə hamı səndən danışır. Yadda saxla, müdir çoxdu. Xasay kimisi yoxdu. Ürəyimə damıb, onu bu yaxında böyüdəcəklər. Kişinin dili varsa, dilçəyi də var. Sən imkan verirsən ki, Əlləşoviçə girişim, onun işini düzəldim. Ay yazıq, vəzifəni elə-belə adama vermirlər ey. Gərək böyüklərə girişəsən, soxulasan.

Xadimə üzünü Xasaya çevirdi:

— Kişi, o şəkərdi, nə mənə şeydi, onu da çalış yoluna qoy. Sənə yaraşmır.

Xasay şəkəri olduğunu dəbbələdi:

— Mənim şəkərim-zadım yoxdu. Onu satırlar?

— Şəkərin yoxsa, Fatmanisənin xoruzu kimi niyə qızarmısan?

— Mən sizdən utanıram. Görünür ona görə də...

— Xasay, mənə yox da, şəkərin yoxsa, gözlərin niyə qıyılır? Üzündən yorğunluq yağır. Dodaqların quruyur. Ağzının qırağında da dabağ olmuş camış kimi ağ köpüklər duyulur. Elə bil səhər şor yemisən, ağzını da silməmisən.

Katibə yüksək tonla:

— Ay qız, kişini dəli eləyib yadına daş salma. Qoy işimizi görək. Sən öləsən, bir də qapını açıb içəri girsən, bu səhər polisdən çırpışdırdığım zopanı.... hi... hi... hi...

Xadimə deyəsən çəkindi:

— Da gör nə var? Hi... hi... hi... Onda polis də səni...

Xasay əsəbiləşdi:

— Axmaqlamayın, xanımlar, dinmirəm, danışmıram, səhərdən zıppatan atırsız. Mən olan yerdə polis kimdi?.. Bəyəm, mən polislərdən qabiliyyətsiz kişiyəm?





Katibə:

— Yox... Allah eləməsin, Xasaycan. Nə polis, nə zopa? Özüm bu ifritəni qorxutmaq üçün vid göstərirəm.

Xasay üzünü xadiməyə tutdu:

— Hə... Sən də şəkərdən az danış. Ayıbdı. Elə bilərlər, Şəkərlə oturub-duran adamam. Siz şəkər deyəndə mənim yadıma başqa xəstəliklər düşür. Bildiniz də hansıları deyirəm?

Xadimə əvvəl duruxdu. Sonra dedi:

— Xasaycan, sən kişisən, Kişilərin qəhətə çıxdığı bu zəmanədə ümidim sənədi.

Bu söz Xasayın xoşuna gəldi:

— Sağ ol, xanım, mən də elə düşünnəm.

Katibə Xasayın xadiməylə xoş danışdığını götürənməyib əsəbiləşdi:

— Ağız, nə həyasız, sıntarmış adamsan. Səni yuxuda da görəndə əsəbiləşirəm. Cini-şeytanlar səndən yüz dəfə istəməlidilər. İmkan ver, işimizi görək də. Gəlib-gedib əsəblərimlə oynayırsan...

Katibə Xasay tərəfə dönərək:

— Belə sıntarmışla haracan gedəcəksən? Nazir eşitşə ki, bəzi adamları qoyub xadiməylə ağız-ağıza verirsən, canın üçün sənə tüpürər. Ağız-ağıza verməyə bəyəm adam azlığıdı? A kişi, ondan nə təmərzik anlayırsan?

O, sonra üzünü xadiməyə tutdu:

— Rədd ol, gözlərimə görünmə. Yaxınlaşanda səndən dozanqurdu iyi gəlir.

Xadimə saymazyana bildirdi:

— Ay qız, məni Xasay Əlləşoviçə qısqanırsan? Nə qədər istəyirsən, qısqan. Onsuz da mən neyləsəm, sən öz fikrində qalacaqsan... Bir də ki Xasay Əlləşoviçdən gələn iyi mənə yaxma. Öyrəncəlisən şantaja, böhtana.

Xasay üz-gözünü turşudub yaxasını iyləməyə başladı və kati-

bədən soruşdu:

— Necədi, məndən dozanqurdu iyi gəlir?

Katibə Xasaya xoş getsin deyə, dərhal cavab verdi.

— Əşi, qələt eləyir. Xadimə nə qanır ki, səndən gələn nə iyidi?

— Nə iyidi?

— Kişi iyi. Dili qurumuş böhtan atır. O, nə qanır kişi iyini? Düzdü, bir az oxşarlığı var.

— Oxşarlıq nə deməkdi?

— Ayə, qışqırıb bağırma. Nənələrimiz deyənləri eşitməmisən?

— Nə deyiblər ki?

— Onu deyiblər ki, kişidən tər, bir də barıt iyi gələr. İki iy də birləşəndə dozanqurdu iyinə oxşayır... Doğrudu, ancaq bir az ondan fərqlənir.

Xadimə:

— Bayaqdan özünüzü cırıb-dağıdırsız. Elə mən də onu deyirəm də. Kimisə şeytanlamıram ki?

Katibə:

— Budu, deyirəm, Xasaycan, iy məsələsini əməkdaşlar eşitsə, sənə yaxın gələn olmayacaq. Əvvəllər biri vardı, ondan barıt qarışıq tər iyi gəlirdi. Burnunu tut qaçıydı. Adamlar o iyə dözmədilər, hay-küy qoparıb mitilini atdılar.

Xadimə:

— Atarlar da, indi hansı zəmanədi, çimməyəsən, yaxşı-yaxşı sabunlanmayasan, ətir-kirşan çəkməyəsən. Aseton iyi üfürə-üfürə gəzəsən.

Xasay xadiməyə narazı halda dedi:

— Yaxşı... Yaxşı... Saxla... Sən get, görək biz başımıza nə çarə qılırıq.

*   *
*





Xadimə pəncərə şüşəsinin tozunu silməyə başladı. Xasay masanın üstündəki bir neçə qovluğu ona verdi və xahiş elədi ki, aparıb həyətdəki zibil yeşiyinə atsın. Xadimə qapıdan çıxmışdı ki, katibə mızıldandı:

— Xasaycan, bu nə gündü sən düşmüsən? Əldən düşmüş otuz illik xadimə gör şöbə müdirinə nə deyir: səndən dozanqurdu iyi gəlir. Bir az da güzəştə getsəydin deyəcəkdi: "İt, pişik iyi verirsən..."

— Sən də ağ eləmə, onda o dux hardadı, mənə elə söz deməyə özündə cəsarət tapsın.

— Ağ eləyənin lap atasına lənət. Eşidib-bilənin hırıltısını kəsmək olar? Bilirsiz xadiməni neylərəm, Xasaycan?

Elə bu vaxt qapı açıldı. Ağakişi çəkinə-çəkinə kabinetə girdi. Salam vermişdi ki, Xasay dilləndi:

— Hə... Bircə sən çatışmırdın. Yaxşı oldu, gəlib çıxdın. Gəl otur, ayaq üstə qalma.

Ağakişi xışıltılı səsi əsə-əsə, dili-dodağı titrəyə-titrəyə, boğazı udquna-udquna yalvarmağa başladı:

— Ölmüşəm, məni yerdən götür. İlişmişəm, özü də lap çox.

Ağakişinin yalvarışları katibənin xoşuna gəlmədi:

— Özünü adam kimi apar, ilişmə. Xasaycan neyləsin? Üzünün suyunu kimə töksün? Siz də qəribə adamsız. Səhər şalvarın dalına çəkən yüyürür Xasayın üstə. Adə, fikirləşin, görün bu yazığın başının üstə neçə əl var. Hələ xadiməni demirəm.

Ağakişi bir katibəyə baxdı, bir də Xasaya. Başını yellədi:

— Dərdimizə bax... Xasaya söz demək üçün gərək katibədən izin alasan... Xasay, qardaş, məni balalarının başına dola.. Əvəzin çıxaram.

Xasay etinasız halda:

— Çox fərəzən gündəyəm. Sən hardan çıxdın?

— Liftlə, Xasaycan, liftlə. Necə bəyəm?

— Qapını duman-çən alıb. Canavarlar üstümüzə axışır. Hərə

də bir söz danışır.

Ağakişi çaşdı. Özünü itirdiyindən nə deyəcəyini bilmədi. Başladı hıqqıldamağa:

— Ayə, nə duman, nə çən? Kabinetdə nə canavar, nə filan? Onlar hara axışır dedin? Dədəm vay, hər günün öz xəbəri, öz vay-şüvəni var. Zırhazırdan başımızı götürüb hara qacaq? Deməzlər ki, Ağakişi dəli olub?

Katibənin əsəbdən bədəni od tutub elə bil yandı. Üz-gözü qızardı. Sinəsini açıb yelpəncləməyə başladı:

— Allah, ürəyim çatlayır. Məni əcəl təri basır. Kürəyimdən nırhanır tər axır. İşimizin axırı fıs çıxmasa yaxşıdı.

Katibənin sözündən çaş-baş qalan Ağakişi sakitcə dedi:

— Xanım, vallah siz deyənlərdən heç nə qanmadım.

Söz katibəyə toxundu:

— Qanmaq üçün ağıl lazımdı, ağıl. Ağılsız kişidən toyuq yaxşıdı... İndiki zəmanədə ən yaxşı xoşbəxtlik qanmazlıqdı. Dəli kimi, hara gəldi üzünü tut, get, sənə işi düşən də, söz deyən də olmasın.

Xasay səsini Ağakişiyə qaldırdı:

— Vay!.. Vay!.. Allah, amandı! Ayə, gəlmisən sözünü de də. Ürəyimi çatlatma, yanımdakı xanımdan ayıb elə.

Xasay sonra üzünü katibə tərəfə döndərdi:

— Oturduğumuz yerdə başımıza nə gəldi, əə? Ayə, canımı hara qoyum sənin əlindən, Ağakişi?

Ağakişi özünü batırmış uşaq kimi yazıq görkəm aldı:

— Axı nə olub? Hansı namərd ayağını tapdaladı? Böyrünə barmaq elədi, a Xasay?

Xasay üz-gözünü turşutdu:

— Böyrünə barmaq eləyənin... Qorxma... Çəkinmə... Vallabillah, sənin yolunda ölümə də gedərəm. Gəlişinin səbəbini aç de, mən də bilim. Görüm neyləyirəm.

Katibə qəsdən:





— Hamı elə deyir, ancaq lazım olanda sözünün üstə duran kişi tapılmır. Deyəsən, Xasaycan, biz xanımlar bəzi kişilərdən qeyrətliyik. Sözübütövük. Dediyimiz yerdən kəsənik. İş düzəldənik.

Xasay astadan:

— Hamısından yox... Arada-bərədə, bəzilərindən də de.

Ağakişi hirsləndi:

— Adə, bu katibənin sözüylə az otur-dur. Müdirin evin katibə yıxır. Sonra da çığır-bağırla, vurhavurla, emosiyayla işin başına çatı salmaq olmaz. İş ağılla görülər. Sənin oturduğun kabinetdi, görüb-danışdığın katibə. Hələ yaşayırsan, Xasay, canın üçün böyük şeydi.

*    *
*

Əlində bir dəstə kağız-kuğuz xadimə içəri girdi. Kağızları masanın üstə qoyub dibçəklərdəki çiçəklərin tozunu almağa başladı. Katibə dizlərinə döydü:

— Ağız, vurduğun od-alov sönməmiş, yenə gəldin. Sən məni çərlətdin. İnsafın olsun. Qoy özümə gəlim də.

Xadimə sakit tərzdə:

— Mən öz işimi görürəm, xanım.

O, sonra Xasaydan soruşdu:

— Özünüzü necə hiss eləyirsiz, Əlləşoviç?

Xasay gah Ağakişiyə, gah katibəyə, gah da xadiməyə baxdı. Acığını içində boğmağa çalışdı:

— Dəf kimi. Adam oğlu kimi.

Xadimə Xasayın acıq-giciklə danışdığını başa düşmürmüş kimi dedi:

— Lap yaxşı. Sizi incidən olsa, burdayam, qapının arxasında. Bircə fit çal, ya vızıv at, içəridə olacam: hi... hi... hi... Mənim də quşum sənə qonub, Əlləşoviç.

Katibə:

— Gözümüz aydın. İşimiz düzəldi. Ağakişidi-nədi, o bir yandan, bu da bir yandan. Nə olaydı, Xasaycan, yanan yerinə su səpəydilər, onda da canın dincələydi.

Katibə ayağa qalxdı. İtələyə-itələyə Xadiməni otaqdan çıxartdı. Sonra Ağakişiyə baxdı:

— Bayaqdan sən nə çalırsan, əə. Baş-qulağım getdi. Deyəsən, adamlığın da yoxdu. Mən ölüm-sən öl də qanmırsan. Sənə bir toy tutaram. Ayə, dur, sən də bas bayıra. Yoxsa, bura qan düşər, polis gələr.

— Gəlsin də...

— Ayə, oğraş, məni Xasayın gözləri qarşısında.

Xasay katibəyə:

— Ağız, dayan, görək nəyə gəlib?

Sonra da üzünü Ağakişiyə çevirdi:

— A yaramaz, niyə başa düşmürsən ki, mən vəzifə adamıyam. Arvad kimi ixtiyarım özgələrin əlindədi. Tez elə sözünü de, gedirəm, cənab nazir məni gözləyir.

Ağakişi axır ki, sözünü deməli oldu:

— Vergidən gəliblər. Bufetdə axtarış aparıb beş-altı samaqon araq, üç kiloqram da xaş-xaş aşkarlayıblar. Bilirsən də, onlara ilişmə, ilişdinsə, əl çəkməyəcəklər. Bəlkə böyüklərinə telefon açıb məni onlara tapşırasan.

Xasay dərhal:

— Çalış, onlarla özün dil tap. Mən danışsam, işlər korlanar. Onda sən öl, bir əvəzinə beş... Onların dabaqda gönlərinə bələdəm. Tutduqları yerdən kəsirlər... Dur get, xətanı məndən uzaq elə.

— Get deyirsən, gedim də. Ancaq adam kişi olar. Hər şey müvəqqətidi.

Ağakişi kor-peşman ayağa qalxıb, dalın-dalın kabinetdən çıxdı.





* *
*

Xasay kreslosundan ağır-ağır qalxıb otaqda var-gəl eləməyə başladı. Bu anda nazirliyin kiçik mütəxəssisi Gülnaz gəldi. Salam verib əyləşdi. Stolun üstündkəi jurnalı vərəqləməyə başladı. Xasay astadan özündən narazı halda, pıçıltılı səslə dedi:

— Boğuluram. Elə bil sinəmdən daş asılıb... İndiki zəmanədə həkimlər xatadı. Tanımadan onlara müraciət elədinsə, çox yox, üç aya işini bitirəcəklər.

Katibə eyni tövrlə cavab verdi:

— Eh... Onlardan danışma... Əllərinə girəvə keçdimi, ağınabozuna baxmadan öyrəniblər beş manat üçün atdı-tutduya. Sonra da sənə elə üz göstərirlər, sağalacağına da ümidin qalmır. Məcbur olursan, evini satıb yalvar-yaxarla onlara verməyə. Nə var, nə var, ölürəm, canımı bu bəladan qurtar.

Gülnaz dərhal başladı həkimlərdən deyinməyə:

— Həkimlərdən danışmayın. Təzəliykən bizim qonşunun yanından çiban çıxıb. Tutub yazığın böyrəyinin birini çıxarıblar. Beş min də pul alıblar. Evə gələn kimi xəstə canın tapşırıb. Soruşan da yoxdu ki, a bala, yandan çıxan çibanla böyrək arasında nə əlaqə var, axı bu vətəndaşın başına niyə daş saldız?

Bunu eşitcək sanki Xasayın gözləri böyüdü:

— Başqa xəstəliyi-zadı yoxıydı ki?

Gülnaz dərhal:

— Yoox!.. Nə xəstəlik-məstəlik? Top kimiydi. Gup-gup guppuldayırdı. Yerə vursaydın, yer yarılardı.

Katibə dərindən ah çəkdi:

— Qəribə işə düşmüşük. Nə həkimə etibar var, nə də yamaqçıya. Axşam yalvarıb-yaxarmışam ki, çəkmənin altı su verir, deşiyini tut, onun da gözlərinə dönüm, deşiyi tutub böyründən də bir deşik açıb.

Gülnaz təəccübləndi:
— Aa, demədin bu nədi?
Katibə:
— Dedim, niyə demədim? Sözü vecinə alan var ki?
Xasay dilləndi:
— Nə cavab verdi?
Katibə:
— Dedi, havası çıxsa yaxşıdı.
Gülnaz gülümsündü:
— Əcəb sözdü.
Xasay:
— Əşi, sən də dəli eləmə bizi. Hərə öz işini görür də. Bəlkə doğrudan da havası çıxsa yaxşıdı. Yamaqçının işi bekara şeydi. Əsas iş həkimindi, xəstənin canıdı.
Gülnaz özündən razı halda:
— Düzdü, həkim öz işini görməsə, Hippokrat andı ona qənim olar.
Katibə:
— Əşi, kimdi Hippokrat-mippokrat andına baxan. Xasaycan, həkimlərin əlindən adamların qarnı yırtılır. Ancaq açıb danışanmırlar. Bir də ki danışsalar, nə çıxacaq axı?
Xasay üzünü katibəyə tutdu:
— Sən də qarışqanı fil eləyənsən.

* *
*

Xadimə allı-güllü dar paltarda özünü yırğalaya-yırğalaya, haray-həşirlə içəri girdi. Hamı təəccüblə ona baxdı. O, kabinetin ortasında dayanıb dabanı üstə fırlandı:
— Necədi? Mənə yaraşır?.. Elə bil kişilərin çoxü qadın-madın görməyiblər. Hamısı ağzın ayırıb mənə baxır. Görmüş olarsız da, pişiyin ətə necə baxdığını?..
Katibə dərhal cavab verdi:
— A xanım, kişilər sənə yox, əynindəki yaşına uyğun olmayan pərçimlənmiş paltarına baxırlar. Ağıllı ol, nə qədər gec deyil, çıxart yandır onları.
Xadimə:
— Ay qız, sən kef dəlisisən... Dünyadan xəbərin yoxdu. Özün də məni götürmüsən puşkaya. Baş mütəxəssisin qarnı ağrıyırmış. Təcili tibbi yardım maşını çağırıblar. O da gəlib görüb iş-işdən keçib. Deyib, xəstəni aparmağın xeyri yoxdu, mənzil başına çatmayacaq. Yaxşısı budu, uzadın stolun üstünə, siz əl-ayağını bərk-bərk tutun, mən onun qarnını açım, kor bağırsağını kəsim.
Bunu eşidən Xasay başını tutdu:
— Vay dədəm, vay! Bu nə danışır, əə? Belə də həkimlik, belə də əməliyyat olar?
Xadimə:
— Niyə olmur? İşdi, necə tutsan, elə də gedər.
Gülnaz heyrət içərisində soruşdu:
— Özün gözlərinlə gördün? Yoxsa uydurursan?..
Katibə tərs-tərs xadiməyə baxdı:
— Dəqiq əməliyyat elədilər?
Xadimə əsəbiləşdi:
— Əşi, mən uşağam, o boyda şeyi qanmayam? Əməliyyat otağında bir fısqırıq qopdu, gəl görəsən... Zavallı xəstənin ata-anası müəllimlərmiş... Telefon açdılar. Valideynləri gəldilər... Onlar da razılaşdılar əməliyyata. Adın da qoydular "Gözlənilməz tufan" əməliyyatı.
Katibə:
— Niyə "Gözlənilməz tufan"?
Xadimə fikrə getdi. Sonra çiyinlərini çəkdi:
— Orasını deyənmərəm... Ancaq onu bilirəm ki, həkim beş

min manat istədi, onlar da dedilər minə gücümüz çatır. Mübahisə başladı, sonra şiddətləndi, axırı vur-vuruma qədər gedib çıxdılar. Xəstə qaldı ortada. Əlacı kəsildi xəstə sahiblərinin. Başladılar hədə-qorxuya. Atası dedi: həkimlər, siz mənimlə keçi alveri eləməyin. Mən Avropa Şurasına, ATƏT-ə şikayət eləyəcəm.

Katibə:

— Əla... Həkimlərə o da azdı.

Xasay:

— Bu, hər iki tərəfin nadanlığıdı. Gərək ikiylə-üçlə dil tapaydılar. Həkimlərimizi Avropayla bir eləməyəydilər. Məsələ ABŞ-a gedib çatsa gör senatorlar Azərbaycanda insan hüquqları pozulur — deyə nə hoqqa düzəldəcəklər.

Xadimə:

— Dil tapanmadılar.

Gülnaz təəssüf hissiylə soruşdu:

— Xəstənin halı necə oldu?

Xadimə yana-yana bildirdi:

— Necə olacaq? Yazıq ağrı-acıdan ilan kimi qıvrılırdı. Az qalırdı gənə kimi divara dırmaşa.

Gülnaz:

— Hərarəti, titrəməsi, üşütməsi-filanı vardımı?

Xadimə:

— Hə... Ona fikir vermədim.

Katibə:

— Öldü?

Xadimə:

— Yox... Əlacı kəsilən nazirin katibəsi kişi qızı kimi özü qalxdı ayağa, qollarını çırmalayıb məndən ucuzca aldığı darçını, quluncanı, mixəyi qarışdırdı bir-birinə, sonra da bir çaynik çay dəmlədi. Töküb stəkana öz əliylə içirtdi xəsitəyə. Dönüm xəstənin gözünə, “şup” eləyib qalxıb durdu ayağa. Heç elə bil ağrıdan bağıran, özünü yırtıb-dağıdan xəstə o döörmüş.





Gülnaz nəfəsi təngişmiş halda:

— Xəstə indi neyləyir?

Xadimə dərhal:

— Ağız neyləyəcək? Sappasağ ayaq üstədi. Gəzir otaqları. Canınız üçün fransız atlarından bir cüt lazımdı ona minib çapa. Biri yorulanda, qan tərə batanda o birini sürə. O da qan tərə batıb əldən düşəndə...

Xasay katibəyə:

— Elə də şey olar. Varam elə katibəyə.

Katibə:

— Ayə, niyə olmur?.. Sən öl, hə desələr, ürək, beyin əməliyyatına da girişərəm. Bəyəm, mən...

Xasay sözünə düzəliş verməyə çalışdı:

— Sən də yaxşısan. Allah var başımın üstə. Sənə pissən deyənmərəm.

Xadimə:

— Darçın, quluncan, mixək var, Əlləşoviç. Bəlkə siz də bir çimdik alasız. Ehtiyat yaman günün yaraşığıdı... Şöbədə saxlayasız. Şər deməsən, xeyir gəlməz...

Katibə Xasaya əsəbiləşdi:

— Əşi, sən nə qədər sadəlövhsən. Bir xadimənin əlində qalmısan gir-gic. Niyə başa düşmürsən ki, bu ifritənin məqsədi öz zir-zibilini sənə sırımaqdı. O deyənlərə inanarlarmı?

Katibə səsini yumşaltdı və sözünə davam elədi:

— Qaldı bizim həkimlərə, onlardan nə desəniz çıxar. Xasaycan, səni qorxutmaq istəmirəm. Görünür, bizim həkimlərin əlinə düşməmisən. Allah eləməsin də düşəsən, başlarını bulaya-bulaya deyəcəklər: bazarda kartof, soğan filan qiymətə; balalarım neçə vaxtdı ət üzünə həsrətdi; evdə pomidor, xiyar yoxdu; səhər evdən çıxanda göy-göyərti tapşırıblar... Yaxud filan qədər borcum var. Kirayə pulunu verməliyəm. Nələr, nələr... Elə ki,

bir şey qoparanmadılar, başlayırlar əcaib diaqnoz qoymağa: havada çox gəz; ayağını soyuq suya qoy; özünü tərlət... Guya bunları xəstə qanmır...

— Ürəyimi qırdın ki, sən katibəsən, yoxsa falçı — deyə Xasay güldü.

Gülnaz mızıldandı:

— Görəsən həkim deyilən şey olmasa, camaat qırılıb batar?.. Görəsən o dünyada da həkimə ehtiyac olacaq?

Gülnaz:

— Yox... O dünyanın öz loğmanları var. Arxeyin olun, onlar bizimkilərə bənzəmirlər.

Katibə gülümsədi:

— Şeyx Əl Qlaf Məddahi deyir ki, orda babasil, prostat, spid xəstəlikləri olmur. Sevindirici hal odur ki, kəllə-çarxa çıxan xərc də yoxdur.

Xasay təntimiş halda soruşdu:

— Ay qız, qurtardın?

Katibə suala sualla cavab verdi:

— Nəyi?

— Necə nəyi? Xəstəlikdən?

— Mən xəstələnməmişəm ki, Xasaycan.

— Yaxşı, olsun xəstəlikdən danışmanı.

— Hələ harasıdı? Vay o günə ki, evdə beş manata gümanın olmaya, narkoman oğlun ola. Arvadın da oğlunun tərəfində dayana. Kişisən gəl yaşa, ölmə.

Xasay matdım-matdım katibənin üzünə baxdı:

— Sən katibə döörsən ey, ayrı nüsxəsən. Səni mənə urcah eləyənin lap...

Gülnaz yastı-yastı dedi:

— Sən canın elə demə. Katibə görməmisən. Eləsi var, gündə bir bəhanəylə müdirini soyub-talayır, quru yurda qoyur. Bir sözlə, ölüsündən də əl çəkmir.





Katibə ağzını burcutdu. Sonra astadan dedi:

— Xasaycan, kişi dəymədüşər olmaz. Mən ehtimallar irəli sürürəm. Gərək hər şeyə ehtiyatla yanaşasan. Qəzavü-qədərin işini bilmək olmaz.

Xasay dizinə vuraraq:

— Əcəb işə düşdüm — dedi.

Katibə nazlana-nazlana bildirdi:

— Bəli! Bəli!.. Xasaycan... Zeynəb qarı demişkən, xəta üz verəndə quymaq diş sındırar... Yaxşı ki, bizdə müxalifət yoxdu.

Gülnaz təmkinlə:

— Xasay Əlləşoviç, indiki zəmanədə dəyyus, namərd, cibgir... filan yoxdu? Bəyəm burdakılar düz adamdılar? Ağzımız bir söz deyir, əlimiz tamam başqa iş görür. Elə biri götürək səni. Əzizim, sən oğurluq, dələduzluq üstə nə az, nə çox, üç il barmaqlıqlar arasında yatmamısan? Elə bilirsən, başını kolluğa soxanın dalı görünmür? Yox... Görünür. Hamı deyir, cənab nazirlə türmədə duz-çörək kəsmisiz. Yoxsa, burda səni it yerinə qoyan olmadı? Yox!.. A tövbə. Qarnını yerə sürtsəydin də üzünə tüpürən olmazdı.

Xasay bərk əsəbiləşdi:

— Aaz, bu nə dildi mənə çalırsan? Hansı namərd dedi, aaz, onu sənə. Adam çox şey eşidər. Eşitdiyini içində saxlamağı bacarar.

— Sənin keçdiyin yolu bilməyən varmı, bu nazirlikdə? Ağıllı ol, Xasay.

Katibə narazı halda:

— Xanımların işləri yox, gücləri yox. Axşamacan koridordadılar. Şələni şüləyə qatırlar. Çatana çatır, çatmayana şəbədə qoşurlar...

Üzünü Gülnaza tutdu:

— Bir də ki adama çox söz deyərlər. Kimdi onlar deyənə inanan?

Gülnaz:

— Mən də əvvəl-əvvəl onlara inanırdım. Elə yerli-yataqlı danışırdılar, ayaqlarım yerdən üzülürdü.

Xasaya Gülnazın sözünün təfavütü yoxmuş kimi astadan dedi:

— Türmələrdə az adam yatmır. Orda elə kişilər var, gəl görəsən: siyasi xadimlər; generallar, sərkərdələr...

Katibə təəccüblə:

— Gülnaz məni dəli elədi, sən doğrudan yatmısan, Xasaycan?

Gülnaz dərhal:

— Ay qız, doğrudan yatmısan nədi? Bəyəm mən yalançıya, böhtançıya oxşayıram? Şəxsən mən oğrulardan, dələduzlardan qorxuram.

Xasay gülə-gülə:

— O qədər qorxulası şeylər var, türmə onların yanında toya getməlidi. Sorşursuz deyim, bəli, etiraf eləyim ki, mən türmədə yatmışam. Özü də üç il sərasər. Ancaq oğurluq, dələduzluq üstə yox, tamam alahı şey üstə. Onun üçün də fəxr eləyirəm.

Katibə:

— Türmədə yatmaqla fəxr eləyərlər?

Gülnaz katibənin sözünə qüvvət verdi:

— Doğrudan ha... O, alahı şey nədi ki, ondan da fəxr eləyəsiz?

Xasay ani fikrə getdi. Sonra saymazyana dedi:

— Qız üstə.

Katibənin səsi gərildi:

— Necə yəni qız üstə?

Gülnaz ağzını büzdü:

— Qəribədi.

Xasay özündən razı halda katibənin sualını cavablandırdı:

— Bir qız vardı cavanlıqda... Mən onu sevirdim. Özü də lap





çox. Biz bulvarda qol-qola gəzəndə gözləri qızan bir oğlan mənim qızıma girişdi. Çox çalışdım ki, onu başa salım, dəyyus qızdan əl çəksin. O, başa düşmədi dediklərimi. İtələdim. O, tarap-patan dəydi yerə. Qıçları aşdı başından. Gədə məni söyüb, bıçağa əl atdı. Mən də uzun müddət karate üzrə idman klubuna gedib-gəlmiş adamam. Təsəvvür eləyin, onda nə fısqırıq qopar?..

Gülnaz:

— Ay aman! Vay, vay...

Katibə həyəcanlandı:

— Öldürdün?

Xasay sakitcə dedi:

— Yox... Hər çırtı-pırtı şeydən ötrü böyük intellekt sahibləri adam öldürüb qatı cinayətkar, qatil adını almazlar... Bıçağa əl atdığını görcək fənd işlətdim. Özü də nə fənd. Bir də gördüm, oğlan uçdu havada, bir neçə dəfə mayallaq vurub çırpıldı asfalta. Bıçaq da fır-fır fırlanır özüyçün göydə. Bıçağı göydəcə tutub oğlanın qulağının birini kəsdim.

Gülnaz dözənmədi:

— Xasaycan, canına and olsun, bədənim ürpəşdi.

— İnanın, o biri qulağını da dibindən sıyıracaqdım, sevdiyim qız qoymadı. Dedi: eləmə, dalı fıs çıxar.

Gülnaz özünü itirdi:

— Ooo... Bu ki vəhşilikdi, siz eləmisiz.

— Gərək adama yerini göstərəsən, Gülnaz xanım.

Nə deyəcəyini bilməyən katibə inamsız halda bildirdi:

— Bu dediklərini yuxuda görmüsən, yoxsa özündən uydurursan, Xasaycan?

Xasay:

— Xanımlar, nə yuxu, nə uydurma? Bəs günahsız qıza sataşmaq vəhşilik döör, nədi? O qızın yerinə siz olsaydız, neylərdiz? Deyirsiz, orda da mədəniyyət gözləyəydim? Hə, nə düşünürsüz, vəhşiyəm?

Katibənin üzündə təbəssüm yarandı:

— Düz eləmisən, qanmayanı qandırarlar, yolunu azanın yerini göstərərlər.

Gülnaz Xasayın sözlərinə şübhəylə yanaşdı:

— Onda bu oğurluq, dələduzluq maddələrini sənə niyə yapıblar?

Xasay hərəkətlərini əsaslandırmağa çalışdı:

— Mən istəmədim, sevdiyim qızın adına ləkə gəlsin. Oğlana dedim ki, qızın adını tutsa, qız da məhkəməyə gedib çıxacaq. Nə deyirsən, de, təkcə qızın adını tutma. O da kişilik elədi. Dedi ki, Xasay Əlləşoviç Mıxıyev cibimə girdi. Sonra da yıxıb yerə qulağımı kəsdi. Cibimdə yüz dollarım vardı, onu da götürdü. Gözünə döndüyüm müstəntiq də mənə yapdı oğurluq və dələduzluq damğalarını... Bir sözlə, xuliqanstvayla nə az-nə çox, üç il sərasər zıpladılar mənə.

Xasayın danışdıqları katibənin xoşuna gəldi:

— Xasaycan kişidi... Kişi... Belə kişidən harda var?.. Oğurluq, dələduzluq...

Gülnaz handan-hana bildirdi:

— Zato cinayət törətmisən.

Xasay sinəsini qabağa verdi:

— Törətmişəm... Boynuma da alıram. Ancaq təmiz məhəbbətim, saf eşqim naminə!

Gülnaz:

— İndi o qız hardadı? Salamatdımı?

Xasay yazıq görkəm aldı. Bir az da kövrəldi:

— Durur... Ərindən ayrılıb... Tək yaşayır...

Katibə qısqanclıqla soruşdu:

— Onunla görüşürsənmi, Xasaycan?

— Yox... Eşitdiyimə görə, bu yaxınlarda köçüb gedib Dubaya... Ancaq ona yazığım gəlir... Səxavətinə söz olanmazdı... Çox dərinə getdik... Xatirələr məni birtəhər elədi... Dəyişək





söhbəti...

* *
*

Xasay katibəyə dedi:

— Kanalı dəyiş.

Katibə kanalı dəyişmişdi ki, ekranda Ayıblı və Düdəməli kənd futbol komandalarının oyunu göstərilirdi. Oyun başlanan kimi Ayıblı futbol komandasının kapitanı Qoçu Qoçuyev qaydanı pozaraq Düdəməli futbol komandasının hücumçusu Çaşqın Fərəməzovu itələyib bir göz qırpımındaca yerə sərdi. Bunu görən Düdəməli futbolçuları meydanda vurhavura başladılar. Başı partlayıb al-qana boyanan kim, qol-qıçı sınan kim, yıxılıb göy otun üstündə qalan kim... Əlacsız qalan hakim iki fitlə polisləri meydançaya dəvət elədi. Əlbəyaxa döyüşə tab gətirməyən polislər dubinkaları atıb su şırnağına keçdilər. Futbolçulardan kimisi başını tutdu, kimisi də arxasını. Qaçan kim, qovan kim, ayaq altda qalan kim. Aləm qarışdı. Hay-qışqırıq, söyüş ərşə qalxdı. Daha kanalı çevirməyə ehtiyac olmadı. Studiyadan verilişi dayandırdılar. Xasay əsəbiləşdi:

— Hə... Bu da bizim futbolçuların intellekti. Bunlarla nəinki Banqladeşə, Dağıstana, heç Zərdaba da getmək olmaz. Biabır olarıq. Yaxşı ki, verilişi kəsdilər, görünür orda da ağıllı, savadlı adamlar varmış, dayanma, çöör o biri kanala.

Katibə kanalı dəyişdi. Ekranda ABŞ-la İraq arasındakı müharibədən kiçik fraqmentlər göstərilirdi. Sonra da diktor kamikadze qadının özünü partladaraq müttəfiq qoşunlardan səkkiz əsgəri və yerli günahsız adamlardan on yeddisinin öldüyünü, yüzdən artıq insanın yaralandığını bildirdi.

Katibə gözlənilmədən sual verdi:

— ABŞ-ın İraqda nə iti ölüb axı? Yıxılıb xarabasında oturanmazdımı?

— Neftini özününküləşdirir.

— Dədələrinin malıdı? Onda günahsız adamları niyə qırırlar?

— Qırmasalar, özününküləşdirə bilməzlər. İraqda ağıllı beş-üç adam qalıb. Onları da aradan götürsələr, öldürməyə adam tapanmayacaqlar. Tək-tük qalanlardan da qul kimi istifadə eləyəcəklər. Bunun nəyi pisdi ki? Sonra da amerikanlar dədələrinin malı kimi neftdən istifadə eləyəcəklər.

— Xasay Əlləşoviç, siz əməlli-başlı siyasətçisiz.

“Siyasətçisiz” sözü Xasayın ürəyinə yağ kimi yayıldı. O, sifətinə ciddi görkəm verdi. Bir balaca sinəsini də qabartdı. Astadan dedi:

— Xanım, mən siyasətin içində doğulmuşam. Öz xeyrinişərini bilməyən gədə-güdələrdən döörəm.

— Hə... Belə deyin... Yaxşı, onların Əfqanıstanda nə işi var?

— Əfqanıstan anaşa mənbəyidi. Dünya narkobizneslə məşğuldu. Əfqanlardan anaşanı zorla qoparırlar. Ordan İrana, İran da Azərbaycana, burdan da Orta Asiyaya, Avropaya, Qərbə “hədiyyə” eləyirlər. Azərbaycan da olur tranzit ölkə.

— Axı ABŞ-la İran qırhaqırdadı. ABŞ ordan... İnanmıram.

— Şeytan görmüsən?

— Yox!..

— Mən də görməmişəm. Heç kim görməyib. Görən də olmayacaq. Ancaq onun barmağı — hamının dalındadı, — deyirlər. O da helə... Günahsız uşaqlar məhv olur. Hər dəfə baxanda əsəbiləşirəm...

* *
*

Əlləşoviç istədi desin: uzatma qadası, çöör kanalı. Cavan diktor qız belə bir məlumat yaydı: “Axşam Dardanel boğazından Qara Dənizə keçən Amerika Birləşmiş Ştatlarının hərbi gəmisi





humanitar yardım adıyla Gürcüstanın Poti limanına yan aldı. Bundan təşvişə düşən rus ordusu söz güləşdirib muskul oynatmağa başladı... Canına vəlvələ düşən Avropanı haray-qışqırıq bürüməyə başladı... Bir sözlə, dünya çalxalanır... Belə bir zırhazırda hər kəsdən öz yerini tutmaq tələb olunur...”

— Hə... Bax, mən bunu gözləmirdim. Bu, alahı pazdı... Bəla Allahdan gəlirsə, nə yer tutmaq?! Harda olsaq, od yağacaq başımıza.

— Bu, birinci gəmi döör, Xasaycan!..

— Bilirəm... Uzatma... İçimdə tufan var. Sən atanın goru, çöör kanalı.

— Atam ölməyib, sağ-salamatdı.

— Tələsmə. Qaça-qaç döör ki. Geci-tezi var, o da öləcək. Dünya belə dünyadı: gətirir, zülmə salır, meymun kimi oynadır, sonra da gərəyi olmayanda dalına bir təpik çalır.

— Tez elə, saxlama, dəyiş dedim, dəyiş kanalı.

Katibə kanalı dəyişdi.

İqtidarla müxalifət nümayəndələri söz vuruşuna qalxıb bir-birilərini mühakimə eləyirdilər.

Müxalifət nümayəndəsi:

— İqtidar icazə versə də, verməsə də, qarşıdakı bazar günü mitinqə çıxacağıq.

— Onu bacarmayacaqsız. İcazəsiz mitinq hər vasitəylə dağıdılacaq.

— Mitinqçilərə əl qaldıracaqsız? Adamların baş-gözünü yardırıb qan tökəcəksiz? Hüquqlarını tapdayacaqsız?

— O vəziyyətdən asılı olacaq. Yaxşısı budu, özünüzü o yerə qoymayın.

— Biz azad söz, demokratiya uğrunda mübarizə aparırıq.

— Mübarizə sivil yolla aparılar. Qanunsuz hərəkət anarxiyadır. Dövlət çevrilişinə gedən yolun başlanğıcıdır. Dövlətin gücü də var, qüdrəti də. Aləmi qatıb, beyni qan cavanları küçəyə tök-

məyin. Təkrar eləyirəm, hər cür qanunsuzluğun qarşısı alınacaq.

— Onda biz bəyanat verəcəyik. Qoy Avropa Şurası, ATƏT bilsin ki, burda demokratiyaya qəsd var.

— O təşkilatlar hər şeyi sizdən yaxşı bilirlər. Bizdə müxalifət yoxdu. Sizsə donos verməyə öyrəncəlisiz...

Xasay:

— Bu müxalifət də qoymur rahat oturaq. Əl-ayağa dolaşa-dolaşa gəzirlər. Hansı tinə gedirsən onlardı. Belə də şey olar? Onlarla danışmağın bircə yolu var. Yığ hamısını bir gəmiyə, çək apar okeanın ortasına. Orda da gəmini batır. Biri də çıxanmasın. Hamısı balıqlara yem olsun. Yaxud gecələrin birində yığ tövləyə, benzini tök, odu vur, nə diş bilsin, nə dodaq?

Katibə:

— Elə də şey olar? Bəyəm, onların balaları yoxdu?

— Əşi, sən onları tanımırsan. Balaları da özləri kimi müxalifətdə olacaqlar. Gör-götür zəmanəsidi.

Gözlənilmədən ekran ağardı. Çox çəkmədi ki, ekranda diktor qız göründü. Qız elan elədi:

— Hörmətli tamaşaçılar! Xasay Əlləşoğlu Mıxıyevə general rütbəsi verilməsi haqqında...

Xasay atılddı:

— Nə? General? Oooyy...

*  *
*

Elə bu anda işıq söndü. Ekran qaraldı, səs kəsildi. Xasayla katibə yarımçıq elanı eşidib yerlərindəcə dondular. Nıqqıltı, mıqqıltı olmadı. Nə eləyəcəklərini bilməyib böyük intizar içərisində qaldılar. Bir-birilərinin üzlərinə baxdılar. Katibə hövsələsizlik eləyərək qucaqlayıb öpməsəydi, təbrik eləməsəydi, Xasay Əlləş oğlu Mıxıyev qulaqlarına inanmazdı. Elə bilərdi, bu,





bir xəyaldı. Hardansa başına qondu, indi də uçub getdi... Əslində Xasay qulaqlarına inanmaq istəmirdi. Hissləri korlaşmışdı. Nə elədiyini bilmirdi. Ağı qara görürdü. Qulaqlarında guyultu yaranırdı. O, katibənin sinəsindən geri itələyib çətinliklə də olsa özündən araladı:

— Əşi, tələsmə. Dayan görək, bu nə həngamədi? Mən nazirliyin adi təchizat şöbəsinin müdiriyəm. Mən hara, general hara? Cavanlıqda əsgərliyə də getməmişəm. Hüquq-mühafizə işçilərinin necə addım atdıqlarını da, nə təhər sıraya düzüldüklərini də, sağa-sola necə buruldduqlarını da bilmirəm. Bəlkə bu başqa adamdı. Nə olsun ki, familiyam, özümün və atamın adı düz gəlir. O qədər belə şeylər olur ki? Bəyəm, az eşitmisən?

— Eşitmişəm. Ancaq ürəyimə damıb, Xasaycan, yalan deyirəmsə bu canıma güllə dəysin. O, sizsiz. Siz balaca adam döyürsüz ki? Bir də ki kimdən əskiksiz? Maşallah, boy-buxununuz. Görən bir də görmək istəyir sizi. Bolluca ağlınız. Danışanda da ağzınızdan od-alov yağır, dürr tökülür. Zəhminiz də ki, o söz. Sizi görən özünü itirir.

Xasay özünü çəkərək:

— Deyirsən, mən olaram? Vallah, vur-öldür məni, inanmağım gəlmir. Yenə deyirəm, qız, nə çox Xasay Əlləş oğlu Mıxıyev.

— Sizsiz, kişi!.. Özünüzə inamınız olsun. Çaşmayın...

— Bu qətiliyə söz demə. Bir az sürüşkən ol. Baxaq görək dalı nə olur? Mənəmsə, bir azdan hay-küy götürəcək aləmi...

Katibə inamla sözünün üstündə dayandı. Dediyini deyirdi. Tutduğunu buraxmırdı. Xasay hələ də şübhəliydi. Katibə:

— Elə şey yoxdu, Xasaycan, söz verin ki, hara getsəniz, məni də özünüzlə aparacaqsız. Ayağım sizə düşdü. Biz nəsillikcə beləyik. Xalam da eləydi. Ayağı müdirinə düşdü. Xalamla birlikdə onu da böyütdülər.

— Xalan da cavandı?

— Cavandı.

— Təki elə olsun. Mən də kişiyəm, mənim də qeyrətim var. Səni itin-qurdun əlində qoymayacam ki?

* *
*

Yenidən işıq yandı. Televizor işə düşdü, ekran ağardı, səs eşidildi.

Texniki nasazlığa görə tamaşaçılardan üzr istəyirik. Elan təkrar oxundu: "Xasay Əlləş oğlu Mıxıyevə general rütbəsi verilsin. Müxalifət bazar günü ciddi-cəhdlə mitinq keçirməkdə israrlıdı. Üzvləri narkomanlardan, əyyaşlardan ibarət olan müxalifətçilər şəhərdə asayişi pozurlar. Şəhər sakinlərini narahat eləyirlər. İctimai binaların qapı-pəncərələrini sındırırlar. Şəxsi maşınları əzirlər. Mitinqin dağıdılması nazirliyin təchizat şöbəsinin sabiq müdiri, hazırkı mətin general Xasay Əlləş oğlu Mıxıyevə həvalə edilsin".

Katibə yenidən tullanıb qışqırdı:

— Gördüz? İnanmırdız mənə.

— Vay... Dədəm vay! Buna nə deyərlər, əə? Görmədiyim işə düşdüm. Pulsuz-mulsuz adama da bu boyda rütbə verərlər? Dayısız da adam yada düşər? Görəsən, işləyə, etimadı doğrulda biləcəyəmmi? Bəlkə bu da bir fırıldaqdı?

— Siz nədən çəkinirsiz? Təkcə əmr verəcəksiz, hər şey qurtarıb gedəcək...

— Müxalifət yolunu azmışdı. İndi baxarlar işlərinə. Görərlər, analar necə oğlan doğub.

— Siz də itlərdən istifadə eləyəcəksiz?.. Bunu gec-tez bir adam yoluna qoymalıydı. Görünür, o da sizin qismətinizə düşüb, Xasaycan.

— Əşi, bu çətin məsələdi. Mənim işim döör.





Katibə bir qədər də irəli çıxdı:

— Cənab genaral!

— Necə?!. Necə?!. General deyən dilinə qurban.

— Bəli!.. Bəli!.. Hamı belə deyəcək.

— Cənab general! Ah... Bu söz necə də gurultulu səslənir. Az qalır ürəyim yerindən qopa. Kaş otuz il əvvəl dünyasını dəyişən atam duraydı. Bu günümü görəydi. Sümüyü söyünəydi... İnanıram, sevindiyindən dili ağzına sığmazdı...

— Üzünə günəş doğub, yoldaş general.

Xasay bir an tutuldu. Sonra astadan dedi:

— "Yoldaş"ı o yana elə. O, köhnə dövrün — sovetlərin müraciətidi. İndi dəbdə ya "cənab"dı, ya da "əlahəzrət".

— Bağışlayın, Xasay müəllim, daa yoldaş deməröm. Axırıncı dəfə olar.

— "Müəllim"i də at getsin. O da bir şey döör. Cibləri boş, çənələri iti. Demoqoqdular. Hörmət eləyirsən, başa düşmürlər, gəlib səninlə elə danışırlar ki, elə bil dədələrinə də borcun var. Ağlamaq da əllərində. Belə də müəllim olar? Onlardan yenə həkimlər yaxşıdılar... Cənab general!.. Əlahəzrət!.. Bu sözləri eşidəndə ürəyim köksümə sığmır. Uçmaq istəyirəm. Ancaq...

— Nə ancaq, əlahəzrət?!

— Fikirləşirəm, valideynlərimin də başları xarabmış. Vaxtıyla nə iş tutduqlarını özləri də bilməyiblər.

Katibə təəccübləndi:

— Aa... Niyə elə deyirsiz? Az əvvəl atanızın sağlığını istəyirdiz. İndi valideynlərinizi başı xarab adlandırırsız. Onlar dünyanın ən xoşbəxtləridirlər. Sizin kimi oğul dünyaya gətirmək bəyəm asandı? Yox, elə demə, Xasaycan. Küçə-baca gədə-güdəylə, şırtı-pırtıyla doludu. Onlardan olsaydın, nə olardı. Elə bilirsiz, hər əyninə şalvar geyəndən kişi çıxır? Zeynəb qarı deyərdi: "Kişi olmağın da öz atributları var". Elə biri siz. Kimə oturduğu yerdə belə ad-san verərlər?

— Çox dərinə gedirsən. Elə olmaz. Mənim yerimdə başqası olsaydı, sən də belə dərinə birin soxsaydın, o səni qəzəbə düçar eləyərdi. Dəqiq bilmədiyin şeyi, əzizim, danışma... Xatirinə dəyməsin, gərək məni də düz başa düşəsən. Dərdim böyükdü. İçim özümü yandırır, çölüm özgəsini. Birini bilirsən, o birisini yox. Bax, elə götürək mənim adımı: "Xasay". Bəyəm, bu adam adıdı? O adı itə vermək daha yaxşı olardı, nəinki mənə. Açığını deyim, o adla çağrılanda xəcalət çəkirəm. Utandığımdan cavab vermək istəmirəm. Ancaq məcburam. Lap tutalım cavab vermədim, bir şey dəyişəcək? Yox... İndi bildin, mən nə çəkirəm?! Atamın adına fikir ver: "Əlləş". A kişinin qızı, vallah-billah bu da adam adı döör. Bir çox yerlərdə bu adı pullu adamlar itlərinə qoyurlar. Deməli, vaxtıyla babamın da başı o söz. Soyadıma bax: "Mıxı". Buna nə deyirsən? Bu da ulu babamın kəraməti. "Mıx" deyiləndə ürəyim qopur. Elə bilirəm, mənim soyadımı — babamın adını çəkəcəklər. Əşi, mən döörəm, sənsən, ya bir köpək oğludu. Ürəyinə yatar, desinlər: "Cənab genaral Mıxıyev", "Əlahəzrət general Əlləşoviç", ya "Cənab genaral Xasay". İnsafın olsun, bir fikirləş. Adam ət tökər-tökməz? Zeynəb qarı bunda deyirdi də: "Özgələr gedib bülbül gətirir, mənimkilər də bayquş".

— Cənab general, mən heç fikir verməmişəm. Doğrudan, xəcalət çəkiləsi şeydi. Ölüb yerə giriləsidi. Gərək uşaq vaxtı adınızı dəyişəydiz.

— Necə dəyişəydim? Hansını dəyişəydim? Qadası, axı üçünü də dəyişəmməzdim. Onda da olardım tamam başqa adam. Alçaqlar vəziyyəti başa düşüb məni ələ salacaqdılar.

— Necə?

— Necəsi budu ki, adımı qoyacaqdılar bicdən olma, zina. Atası bilinməyən bir adam. Kimi inandıracaqdım? Deyə bilərdimmi: — "Ay camaat, nəyə inanırsız and içim. Elə döör. Ürəyim istəyib familiyamı, öz adımı, atamın adını dəyişmişəm...".





Əşi, özgələr o yana dursun, özümünkülər bir vay-şivən qoparacaqdılar, gəl görəsən. Qanmazlıq pis şeydi. Qanmazla yaxınlıq eləyincə, itlə bir yorğan-döşəkdə yatmaq yüz min dəfə ondan yaxşıdı.

— Doğrudan ha...

— Ey... Hələ harasıdı. Bunlar azmış kimi mənim də başımı biqeyrət atam çöördü. Çox bilmiş kimi ölməmişdən vəsiyyət elədi: — "Oğlun olsa, ona mənim adımı qoyarsan". Guya çox fərli addı. Ondan keçmək olmazmış. Mən külbaş da yeganə oğluma onun adını qoydum. Uşağı da mən işə saldım. Geci-tezi var, görünür, o da gələcəkdə məni söyəcək.

— Aa... İşi tamam korlamısız ki. Bəlkə soyadınızı dəyişib arvadınızınkını götürəsiz?

— Arvadı dəyişim deyirsən?

— O da olar. Bəyəm elələri azdı?

— Dilləri qurdlamışlar onda da deyəcəklər, Xasay arvad hesabına kişidi. İndi də gəl buna cavab ver görüm, necə cavab verirsən?.. Bəyəm, mən arvad hesabına kişi olanlara oxşayıram?

— Yox... Mən elə demədim ki.

— Sən deməsən də, sözünun məntiqindən elə çıxır. Elə deyənlər tapılacaq.

— Düz deyirsiz. Adamlar birtəhər olublar ey. Oturan yerdə adama bir şəbədə qoşurlar, gəl görəsən. Odu ha, bizim qonşuluqda biri vardı, adı Nəcməddin... Kişinin altmışa yaxın yaşı vardı. Atası da bəlliydi. Hansı anasının əmcəyini kəsənsə, vaxtıyla bir dəfə deyib: balaca Nəcməddin atasından çox qonşuları Əzizağaya oxşayır. Düz əlli ildən artıqdı kişini hallandırırlar. Əzizağa neçə ildi ölüb. Onu görməyənlər də deyirlər: Nəcməddin eynən Əzizağaydı. Elə bil Əzizağanın başın kəsib Nəcməddinin çiyinlərinin üstünə qoymusan... Bax, beləcə yazıq kişinin nüfuzunu ayaqlayırlar, şəxsiyyətini xıncımlayırlar. Sizin belə vəziyyətə düşmənizə mən də razı olammaram.

—Yox, qadası, mən də az aşın duzu döörəm. İmkan verməm ki, atasından xəbərsiz adıyla məni dünyadan yola salalar. Elə olsa, dəyyuslar anamı da hallandırarlar. Yazığım oğlum Əlləşə gəlir. O, nə günah sahibidi, dılğır əsli-nəcabətinin xəcalətini çəkə. Hələ arvad başa düşmür. O, insialımın mənasını bilə ha, dünyanı dağıdar. İnanmıram mənə: — Ərim, — deyib üzümə baxa... Gorbagor dədəm məni əcəb işə salıb.

— Əşi, fikir eləmə. Rəhmətlik haranın itidi, qurdudu, dəxli yoxdu, dədən olub da. Adamları tanımırsan, hamısı məddahdı, sənə işləri düşəndə "cənab general", "əlahəzrət general"la kifayətlənəcəklər. Vəzifə olan yerdə elə çırtı-pırtı şeylər gözə görünmür. Görünsə də, elə mənalandırırlar, elə güman eləyirsən, bundan yaxşısı yoxmuş...

— Deyirsən, belə gedər?

* *
*

— Gedər... Özü də əla! Sözümüz sözdü də, cənab general. Sizdən xahişim budu, məni də özünüzlə dartıb aparın. Onsuz da burda əllisi əlli şəbədə qoşub adımıza... Nə qoşurlar-qoşsunlar... Mən elə şeylərdən qorxmuram. Şəxsən sizinlə fəxr eləyirəm, cənab general.

— Qorxuram, yenə deyirəm, general kimi etimadı doğruldanmayam. O sistemə nabələdəm.

— Qorxmayın, bacararsız. Bəyəm, mən ölmüşəm? Nə lazımdı eləyəcəm. Bir adam yanımda göz qırpammaz. Arxeyin ol.

— Nə eləyəcəksən?

— Gətir-götürü ki, bacararam.

— Əşi, onu mən özüm də eləyərəm. O qədər də ölü döörəm... Əsas məsələ qanunları, hüquqları bilməkdi. Çepe baş verər, mənim özümü də atarlar içəri. Dalımca gələnim də olmaz.





— Əvvəla, ölməmişəm mən... Məni o qədər də sədaqətsiz sanmayın, cənab general. İkincisi, orda işləyənlər də sizinkilərdi. Arxeyin olun. Orda nə qanun-qayda. Qanunların hamısı qara kütlə üçündü. Yadda saxlayın ki, aşağıdakıların bağırtıları yuxarılarda eşidilmir. Bilirsiz niyə? Eşidilsə, aşağıdakılar bit-birə kimi daraşacaqlar yuxarıdakıların canına. Onda da gəl canını qurtar, görüm, necə qurtarırsan. Siz də uzaqbaşı eşitməyəcəksiz.

— Yox, mən elə eləyənmərəm, əzizim.

"Əzizim" sözü katibənin ürəyincə oldu. O, bir qədər də irəli çıxdı.

— Budu deyirəm, onda işləyənməyəcəksiz. Zeynəb qarı demişkən: "Əl əli yuyar, əl də üzü".

Xasay təəccüblü halda başını yelləyib ağzını büzdü:

— Yenə deyirəm, xərcsiz-xəcalətsiz belə təyinatı təsəvvür eləmirdim. Ancaq indi şahidi oldum. Anası göyçəklər də, axmaq-axmaq nə olsa atırlar... Axı insaf da dinin yarısıdı...

— Narahat olmayın, siz işə girişin, bir az qan toplayın ki, damarlarınız şişsin. Özləri lazım olanda çağırıb, bəsdi deyincən çəkəcəklər.

— Elə danışırsan, lap görmüş adamlar kimi?

— Aa... Deyirsiz, bu cəmiyyətdə yaşamırıq? Gündə yanından ötüb keçdiklərimizdi də. Bəyəm, Zeynəb qarı demişkən, sizin xətti-xalınıza, gül camalınıza susayıblar? Dəli olmayın, əlahəzrət, bir az işləyin, hər şeyi hamıdan yaxşı bacaracaqsız. Bəyəm, bu boyda nazirliyin təchizat şöbəsində müdir işləmək balaca işdi? Hamı sizin əlinizdən cana gəlmişdi. Hətta, o boyda nazir də... Hamısını mən sizə başa salaram, gərək ayıq olasız. Sözdən söz çıxarmağı bacarasız. Yuxarıların öz dili var. Alver də ki öz yerində. Bacardız, hər şey yağ kimi gedəcək. Doğrudu, siftə-siftə bir az çətin olur. Elə ekstremal vəziyyətdə mən özüm də kömək eləyərəm. Hə... Bir də gərək ağzınız möhkəm ola. Diluzunluq eləməyəsiz... Eləsəz, zibili çıxacaq.

— Sən bilməyən iş yoxdu... Vallah katibə döörsən ey... Sənə katibə deyənin atasına lənət. İmkanım olsaydı, sənə mer vəzifəsini verərdim.

Katibə gülümsünərək qaşlarını oynatdı:

— Bəs nəyəm?

— Fillənmişsən.

— Aa... O sözdən lap uşaqlıqdan zəhləm gedir. Hələ məktəbdə oxuyanda, onda da altı yaşım vardı, rəfiqələrim o sözü mənə demişdilər. Onlardan küsüb-incidim. Hələ də danışmırıq. Xasiyyətim tünddür, cənab general. Bir adamdan küsməyim, elə ki, küsdüm, barışanmıram.

— Belə çıxır ki, səndə dəvə kini var.

— Hə... Düz tutmusuz, elədi ki, var. Bax, ehtiyatlı olun. Küsdürməyin məni. Xoş sözlə istəyirsiz, lap gəlib canımı da alın. Sizə müzayiqəsi olmayacaq. Təki ürəklər bir olsun. İstərdim, can deyib, can eşidək... Hə, cənab general, sizə bir-iki məsləhətim də var.

— Buyur, xanım. Eşidirəm.

— Adam içində özünüzü çox da sadə aparmayın. O saat düşünəcəklər ki, ya avamsız, ya pulunuz yoxdu, ya da adamınız — daldanız. Həmişə adamların başının üstündən irəli baxmağı bacarın. Ətrafınızdakılar elə bilsinlər, heç onları görmürsüz. Yaxud fikirləşsinlər ki, o qədər imkanlısız, onları adam saymırsız. Çalışın, dost-tanışdan uzaq olun. İmkan verməyin onlar sizə yaxınlaşmağa cəsarət eləsinlər. Yoxsa, hərəsi bir xahişlə, bir minnətlə baş-beyninizi aparacaq. Sizi yuxarıların yanında abırdan salacaqlar...

— Onları bilirəm.

— Bilirsən, lap yaxşı. Bir az da yalan danışmağı artırın. Yuxarılara yox ha, aşağılara... Çaşıb yuxarı da yalan deyərsiz, iki gündən sonra mitilinizi atarlar bayıra. Ya da salarlar içəri.

Katibənin ağzından söz qurtarmışdı ki, telefon zəng çaldı.





Xasay Əlləşoviç Mıxıyev bu dəfə dəstəyi özü götürdü. Zəng yuxarıdanıydı.

— Səni təbrik eləyirəm.

— Əlinizdən öpməyə hazıram.

Xasay dəstək əlində dəfələrlə əyilib düzəldi.

— General, gərək etimadı doğruldasan.

— Başımla!.. Siz ayağınızı qoyduğunuz yerə başımı qoyacam.

— Tapşırmışam, bir azdan sənə mundir gətirəcəklər. Gərək ki, razmerin qırx altıdı.

— Bəli!.. Bəli!.. Qırx altı.

— Mundirini geyin. Tapşırığı al. Planla tanış ol. Qorxma...

— Oldu.

* *
*

Qəlbinə günəş doğan Xasay bir anlığa hər şeyi unutdu. O, kreslodan qalxıb uşaq kimi sevincindən atılıb-düşməyə başladı. Katibə yenidən onu qucaqladı. İllərdən bəri balasına həsrət qalan pişik kimi Xasayın üz-gözünü yaladı. Handan-hana katibəni özündən aralayıb kreslosunda əyləşən general zəhləsi gedən müxalifətə necə divan tutacağı barədə düşündü... Bu dəfə aşağılardan zənglər gəlməyə başladı: təbriklər... təbriklər... təbriklər... Zəng ara vermişdi ki, katibə kabinetdən çıxdı və tez də geri qayıtdı:

— Cənab general, əlində nəsə bükülüsü olan bir kişi gəlib sizi görmək istəyir, kefi də çox kökdü.

— Nədən bildin?

— Gözləri gülür, hal-əhlinə oxşayır. Görünür, sizi təbrikə hədiyyəylə gəlib. Məncə belənçiyini qəbul eləmək lazımdı. Gəlsin, ya gəlməsin?!

— Məsləhətdi, gəlsin!

Katibə kabinetdən çıxan kimi ucaboy, qarnı xeyli qabağa çıxmış, qarayanız, dazbaş, lopa bığlı bir kişi içəri keçdi. Generalı qucaqlayıb üzünü üzünə vurdu. Öpüş götürürmüş kimi generalın qulağının dibində ağzını marçıldatdı. Sonra keçib divarın dibində sırayla düzülmüş stullardan birincisində oturdu. Əvvəl pəncərəyə tərəf baxdı. Sonra gülümsünərək dedi:

— Sizi təbrik eləyirəm, general. Böyük etimaddı. Çalışın, burdakı kimi necə gəldi işləməyin. Qadınlara meyilliliyi azaldın. Bu rübtə və tutduğunuz vəzifə alkoqollu içkilərə meyilliliyi, yüngül-düngül hərəkətləri sevmir. Küçəyə çıxan kimi hamının gözləri sizə dikiləcək. Müxalifət sizdə qəbahətlər axtaracaq. Alış-verişə hərisliyinizi azaldın.

General istədi desin ki, cənab, kimliyinizi bilmirəm, siz deyənlər məndə yoxdu. Naməlum adam ona imkan vermədi.

— Mundirinizi gətirmişəm, qalxın, geyinin. Uyğun gəlmirsə, dəyişək.

General dərhal ciddi görkəm aldı. Kreslodan ağır-ağır qalxdı. Əynindəki kostyumunu çıxarıb general mundirini geyindi. Elə bil mundir generalın üstünə yüz ölçülüb bir biçilmişdi. O, çıxardığı kostyumu səliqəylə büküb şkafa qoydu. Sonra keçib kreslosunda əyləşdi. Özünü saxlayanmayıb qımışdı və tez də özünü yığışdırdı. Naməlum adam dedi:

— Siz anadan general doğulmusuz, Xasay Əlləş oğlu Mıxıyev.

General inisialını eşitcək bir az duruxdu. Sifətində ötəri qızartı yarandı, ancaq tez də ötüb keçdi.

General üzünü naməlum adama tutaraq soruşdu:

— Axı mən sizin kimliyinizi bilmədim.

— Bilərsiz... Maşallah, tu... tu... göz dəyməsin, mundir sizə elə yaraşır, şeytana lənət yaraşan kimi.

Bu söz generala bərk təsir elədi. Ancaq müsahibinin kimliyini, vəzifəsini, rütbəsinin dərəcəsini bilmədiyindən ehtiyatlandı, dediklərini eşitməzliyə vurdu. Cavab vermək əvəzinə üzündə məcburiyyətdən doğan gülüş ifadəsi yaratdı.





Naməlum adam ayağa qalxdı. Arxaya çevrilib baxmadan getdi. Generalın baxışları onu qapıya qədər müşayət elədi. Adını bilmədiyi üçün təəssüfləndi. Katibə dərhal içəri girdi. Xasay Əlləş oğlu Mıxıyevi tamam başqa bir qiyafədə gördü. Onu az qala tanımayacaqdı. Zeynəb qarı demişkən, gözəllik ondu, doqquzu dondu. Katibə bir qədər tərifdən sonra əlavə elədi:

— Sizi təbrikə gələnlər var, nə deyirsiz, çağırım?

— Bir-bir burax gəlsin. Özlərinə də de, yuxarı getməliyəm, vaxt azdı, içəridə çox dayanmasınlar.

— Oldu, cənab general.

Katibə kabinetdən çıxan kimi, yekə baş, bakinbordları az qala çənəsinə qədər uzanmış, dombagöz, sırtıqsifət kişi içəri keçdi. Bu, Xasayın əsgər yoldaşı Göyüşiydi. O, generalı qucaqladı:

— Siz bizim fəxrimizsiz. Mən bilirdim ki, gec-tez səndən bir şey çıxacaq.

General iti nəzərlərlə Göyüşün gözlərinin içinə baxdı. Kişini generalın zəhmi basdı. O, səhvini anladı, çəkindi və dərhal sözünə düzəliş verdi:

— Böyük adam olacağınızı bilirdim. Ağlınızın bolluğu gözlərinizdən oxunurdu. Siz general olmağa layiqsiz. Axır ki, öz yerinizi tutduz. Nüfuz sahibinə çevrildiz... Sədaqətli adamsız. Əlləşin oğlu Əlləş də olmalıydı. Oldu da.

Atasının adını eşidən general istədi Göyüşü qovub kabinetindən çıxartsın. Nə fikirləşdisə, özünə toxtaqlıq verdi. Göyüş sözünə davam elədi:

— Güman eləyirəm, cənab general, bizi unutmayacaqsız.

Göyüşün üzünə baxmadan:

— Tez elə, növbədə adamlar var.

— Bir oğlum var, o da işsizdi. Onu götür yanına cangüdən.

General ağızucu:

— O sonranın işidi...

— Allah sizə versin, siz də bizə. Zeynəb qarının sözü olmasın: "Əl tutmaq Əlidən qalıb". Onun savabı bəsdi sizə, cənab general.

— Dur get.

Göyüş getdi, uzundraz, polisə daim işverən Talıb gəlib generalın əlindən öpdü:

— Siz Allahın nəzərindəsiz, Xasay müəllim.

— Ayə, yekə kişisən. Bir ayağın burda, o birisi gorda. Ömrü boyu qanmaz olmusan, qanmaz olaraq da qalacaqsan.

— Nöş, Xasay Əlləşoviç? Mən nə dedim ki? "Müəllimdən" yaxşı söz var?

— Ayə, dılğır oğlu dılğır, şor satana da müəllim, mənə də?.. Hərənin öz adı yoxdu?

— Sizə təkcə Xasay deyim?

— Rütbəmə nə olub? Dilin quruyar, rütbəmi desən? Burdan çıxanda da axmaq-axmaq ağzını qoyacaqsan Allah yoluna.

— Deyirsən, sadəcə general deyim?

— Sadəcə niyə? Paran boyda katibə "cənab general", "əlahəzrət" deyir, sənsə... Toyuqsan, toyuq...

— Ayə, niyə qışqırırsan, o deyər də. Onun bilmədiyi şeyə qurd düşər. De deyirsən, deyim də. "Cənab general"... Düz dedim?

— Hə... Qurtar, nəyə gəlmisən, sözünü de... Aç qulağını eşit, daha mən əvvəlki Xasay döörəm. Gəlib-gedib hərcayı-hərcayı danışmayın qulağımın dibində. Üz verəndə astar da istəyirsiz.

— Dəyişmisən, qağa.

— Evin yıxılsın, "qağa" nədi? Dedim, "Cənab general!"

— Bağışlayın, cənab əlahəzrət general, ağzım öyrəşməyib. Səhvə yol verirəm. Tezliklə düzələcək.

— Yaxşı saxla. Qanmaz. Ya cənab de ya da əlahəzrət. İkisi





birdən olmaz. Başqa nə sözün var, Talıb?

— Gəldim ki, sizdən xahiş eləyim, bəlkə mənim qızımı katibə götürəsiz yanınıza. Əlimiz aşağıdı. Heç olmasa, o özünü dolandırsın.. Mən də sizin qulluğunuzda hazır. Nə material deyirsiz məndə. Bu şəhərin cikinə də bələdəm, bikinə də. Evində kimin hansı üzdə yatdığını da deyim sizə.

— Yəqin orda katibə olmamış olmaz.

— Ora katibə çox lazım olacaq. Cavan adamsız, maşallah, özünüz də enerjili. Biri neyləyəcək ki?!.

— Ona baxarıq, dur get.

— Adını bir yerə yazmırsız?

— Sən yadımdasan.

Talıb içəridən çıxar-çıxmaz Cəbiş özünü tələm-tələsik generalın yanına saldı və dedi:

— Bu günü ömrüm boyu arzulamışam, qardaş. Axır ki, yuxarılarda bizim də dayağımız oldu. Sizin ətəyinizdən yapışa bilərik... Üz tutmağa yerimiz var. Dost nəyin dostudur?! Nə çətinliyin olsa, mən hazır. Oğlum türmədədi. Nə var, nə var, arvadın öldürüb. Aparıb soxublar içəri. Ayə, arvadı öldürmək üstə də adam içəri soxarlar?... Kişidi də. Qəribə adamdılar. Arvadı istəyəndə yaxşıdı, öldürəndə pis. Oğlumu damdan çıxara bilsəz, qulunuz olaram..

— Yaxşı, sən də get.

Növbə Qulama çatdı. Marça-murçdan sonra o, generala məsləhət verdi:

— Xasay, vəzifə at kimi bir şeydi. Nə qədər altındadı sənindi. Elə ki düşdün üstündən, o sənin döör, əldən bir dəfəlik getdi. Bir də geri qayıtmayacaq. Balalarına gün qazan! Allah sənə qapı açıb. Papağını havayı yerə yandırma günə. Hamı özünə qırmanc çalır. Zeynəb qarı demişkən: "Bu evin işığı o evə düşmür". Görürsən, vəzifədəkilər neyləyirlər? Atını hərə bir tərəfə çapaçapdadı. Hamı çalıb-çapır. Altını doldurur. Ailəsinə gün qazanır.

Qardaş, zaman ayrı zamandı. Pulu olan həmişə, hər yerdə kişidi. Pulsuz kişidən arvad da bezardı.

— Mən də elə düşünnəm, Qulam. Sən də get, sonra vaxt tapıb danışarıq.

Qulamı Xasayın dayısı əvəzlədi:

— Oğlum, bu təyinatdan ağlım bir şey kəsmir. Böyük Xaqani Şirvani deyənləri yəqin bilirsən. Bilmirsənsə də, öyrənib qulağından sırğa eləməlisən.

— Axı o nə deyib?

— Deyib ki:

Eşşəyə dedilər: buyur toya gəl.
Eşşək qəhqə çəkib güldü nəhayət.
Dedi: mən siz deyən rəqqas deyiləm,
Nə də çalğıçı tək tapmışam şöhrət.
Su, odun daşımaq lazımdır əlbət.

Zeynəb qarı deyəni də eşitməmiş olmazsan?

— Rəhmətlik o qədər söz deyib ki, hardan bilim hansını deyirsən?

— Yetimə gəl-gəl deyən çox olar, çörək verən az. Vəzifədi, rütbədi veriblər, çox mübarək, götür, işlə. Əvvəl bilsəydim, qəti etiraz eləyərdim. Razı olmazdım... Çünki, o yükü sən daşıyanmazsan. İlanı Seyidəhməd əliylə tuturlar.

— Əşi, sən canın bəsdi. Get, öz işinlə-gücünlə məşğul ol. Mənə darğa lazım döör. Gündə gəlib baş-beynimi aparasan. Onu düz eləmədin, bunu düz eləmədin — deyəsən. Hələ bir qələt eləməmişəm, dayım olsan da, şalvarını başına çəkə-çəkə qaçıb gəlmisən üstümə... Mənə etimad göstəriblər. Məni adam biliblər. Sən də başlamısan ağzına gələni danışmağa...

— Ayə, niyə cinnənirsən. Sabah sən qalacaqsan əldə. Müxalifətin anası ölsün. Əskiləri tüstülüdü... Əl-qolları hər tərəfdən





qırılıb. Onlar nə deyirlər? "Xalqın vəziyyəti yaxşı döör. Ölkədə vətəndaş cəmiyyəti qurulsun. Adamların hüququ tapdalanmasın"... Azad söz, fikir plürüalizmi, demokratıya istəyirlər də. Bu, hamının hüququdu. Artıq-əskik söyləmirlər ki? Vəzifələrinizi bizə verin, özünüz çəkilin gedin, ölkəni daha biz idarə eləyəcəyik demirlər ki?

— Əə, bə nə deyirlər, əə. Zeynəb qarı demişkən: "İtin axmağı qaysavadan pay umar". Bəs dava yorğan üstə döör nə üstədi? Əlbəttə, vəzifə. Kim vəzifəsini öz xoşuna əldən verər, əəə dayı? Deyəsən, mənim xəbərim yoxdu, sən də müxalifətdənsən. Gedin, ağlınızı başınıza top eləyin. Canınıza and olsun, sizə bir toy tutaram, hardan gəlib, hara getdiyinizi də bilməzsiz. Boş-boş danışmayın. Yadda saxlayın, dövlət var, dövlətçilik var, onları da qoruyub saxlayanlar var. Ayə dayı, niyə yığışmırsız, əə. Ayə, bu qədər döyülmək, bu qədər söyülmək olar? Canın üçün mitinqə çıxsanız, ha, qanınızı o itlərə yaladacam. Bildin də, hansı itləri deyirəm?..

General səsinə kiçicik ara verdi. Sonra səsinin tonunu bir qədər aşağı saldı və sözünə davam elədi:

— Heyf ki, dayımsan, anamın qardaşısan... Başqası olsaydın, burdaca səni bir hala salardım, başını düz qaldırammazdın, üç ay xörəyini itlər yeyərdi.

— Sağ ol, əə, Xasay! Eynən dədən Əlləşin balasısan. Ondan da kor kəsməzsən.

— Əə, söydürmə mənə Əlləşi. O da belə-belə olsun, sən də... Əstəğfürüllah... Gör ağzımdan nə çıxdı... Elə bilirdim ağıllı adamsan. Ədə, bilirsən, deyiləni eləməsən, mənə neyləyərlər?

— Neylərlər?

— Da onu deməzlər. Dayıcan, qatığın var, get öz başına sürt. Mənim qeydimə qalma. Mənə də əlahəzrət general deyərlər. Müxalifətə də get çatdır. Orda-burda sülənməsinlər. Qara kütləni başdan çıxarmasınlar. Lazım gəlsə, xıjdayacam. Mundiri

geyməyimə baxma, hələ yeri təhvil götürməmişəm. Bacının goruna and olsun, dayı-mayı tanımaram, səni birinci göndərərəm qoduqluğa...

Bacıoğlusunun durumunu görən dayı başını yellədi. Sonra astadan dedi:

— Üzün ağ olsun, a bacıoğlu. Əsluhu-əslə. Əsilsiz-nəsilsiz adamdan bundan artıq nə gözləyəsən?..

— Ədə, sən cənab generalla nə dillə danışırsan?

— Bayaqdan dinmirəm, danışmıram. Ayağın yer alır... Ədə, nədi, əə. Əvvəla, qanmaz özünsən. Dədən də bir kişi döördü. O tökdüklərini bircə-bircə yığışdırmısan. İkincisi də, mən bacımın qanmaz oğluna yol göstərmək istədim. Özün bilərsən, can sənin, cəhənnəm Tanrının. Get, kefin nə qədər istəyir o batalqada ağna. Vaxt gələr, cavab verərsən. Göz yaşları axıda-axıda dayının məsləhətlərini də yadına salarsan, götür-qoy eləyərsən. Hər kəsin öz dövranı var...

— Dayı, sən gəl mənimlə söz güləşdirmə, qoz-qoz oynama. Heç olmasa, general rütbəmi, general mundirimi gözlərinin qabağına gətir... Atam da, anam da xortlayıb qəbirdən çıxsalar, məni yolumdan döndərənməzlər. Bir də ki axı niyə döndərsinlər? Onlar da sənin kimi savadsızıydılar, cahiliydilər. Başları heç nədən çıxmayıb. Əlimizə fürsət düşüb, kişi, qoy işimizi görək. Dünyada gedən oyunlardan xəbərdar olaq. Beş adam məni də kişi hesab eləsin. Görmürsən, anasının əmcəyini kəsənlər neyləyirlər?

— Kimləri deyirsən?

General acıqlı-acıqlı dayısının üzünə baxdı. Sonra ucadan dilləndi:

— Kimləri deyəcəm? Anaşaxorları, alkaşları, cibgirləri. Odu ha, eşitmirsən, televizorda deyilənləri?

— Xasay, canım yanmasa, demərəm. Sən dünya düzəltməyəcəksən. Səndə o bacarıq da yoxdu. Bu rütbəyə hərisliklə özünü





dürtüb, ailəni də, ətrafını da oda salarsan, bala. İndiyəcən ailənə düz-əməlli çörək aparmamısan. Hamı səni ələ salıb gülür. İndi də utanmz-utanmaz gör nə iddiadasan? Qaxıl otur yerində. Eşitməmisən, yetişməmiş ağıl yiyəsinə dana güddürər.

— Ee... Yekə kişisən. Ağzına gələni tullama. Dana! Dana! Danaya bax! Sən məni tanımırsan. Məni məcbur eləyirsən, sənə özümü tanıdım. Özümü söyüş sahibi eləyim. Məscidin qapısı açıq oldu-oldu, dayı, bəs itin abrına nə? Dur, bas bayıra. Sənin kimi dayıdan beş qəpik yaxşıdı. Verib siqaret alaram.

— Nə olar? Sən barmaqlıqlar arasına düşəndə yanına gələcəm... Xudahafiz!

Dayı peşman-peşman qapıdan çıxdı. Katibə gülümsünə-gülümsünə içəri girdi.

— Cənab general, iş vaxtı qurtarıb, getmək istəmirsiz?

— Hə ... Dayım biqeyrət başımı xarab elədi.

— O kimdi dediz?

— Kor-kəsməz dayım.

— Nə deyirdi?

— Heç... Mən yuxarı gedəcəm. Səncə, necə yerisəm yaxşıdı?

— Yeriyəndə qamətinizi düz saxlayın. O tərəf-bu tərəfə əyilməyin. Yanmızlarınızı da həşəyri qadınlar kimi oynatmayın. Onda adama qaz təsiri bağışlayarsız. Həm də başqalarında tamam özgə fikir oyadarsız.

— Məsələn...

— Məsələn, qoluboy.

— Yox, əşi?

— Hə... İstəsəniz, onu da düzəldə bilərsiz.

Generalın sifəti bozardı. Gözlərini düz katibənin gözlərinə zillədi. Katibə çəkindi. Tez də sözünə düzəliş verdi:

— Belə də olar, cənab general. O qədər də qorxulu şey deyil.

Elə bu vaxt qapı açıldı. İki polis içəri daxil oldu. Eyni vaxtda ikisi də əllərini qulaqlarının diblərinə aparıb özlərini təqdim elə-

dilər.

Uzun polis:

— Polkovnik Şiriyev.

Gödək polis:

— Baş leytenant Aslanov.

Şiriyev:

— Cənab general, sizi gözləyirlər, getməliyik. Maşın aşağıdadı.

General: — Bu saat, — deyib ayağa qalxdı. Polkovnik qabaqda, general ortada, baş leytenant da onun ardınca otaqdan çıxırdılar ki, Gülçöhrə Xasayın üstən yorğanı çəkdi:

— Nə qədər yatmaq olar? Ayağa qalx. Bütün gecəni sayıqlamısan. Uşaqları da az qala dəli eləyəcəkdin.

Xasay arvadının səsinə dik atıldı:

— Bu nə hərəkətdi? Özünüzü yığışdırın. Bilirsiz bura haradı?

Gülçöhrə səsini bir qədər də qaldırdı:

— Bu nə danışır, əə? Yoxsa, dəli olmusan? Bura evdi. Uzandığın çarpayındı...

Bu sözləri deyə-deyə, qorxudan sir-sifəti bozaran Gülçöhrə dalın-dalın qapıya tərəf çəkildi. Xasay çətinliklə özünə gəldi. Özünü doğrudan da yorğan-döşəkdə gördü:

— Allah sənə lənət eləsin, şeytan, az qala məni azdıracaqdın.

* *
*

Arvadı ərinin yuxulu olduğunu duydu. Yavaş-yavaş ona yaxınlaşdı:

— Dur, qadası, dur. Yatağa girəndən fıssa-fıssan. Bəyəm doymadın? Qalx, kanalizasiya borusu axşamdan partlayıb, çirkab sular həyət-bacanı ağzına alıb. Bir azdan qonşunun da həyətinə keçəcək. Qışqırıq qopacaq. Aləm qarışacaq. Mənim dava eləyən





halım yoxdu. Qalx, canım, qalx.

Xasay ağız-burnunu əyişdirdi. O, əslində yuxuyla real həyatın arasında qalmışdı. Hansının həqiqət, hansının yalan olduğunu hələ düz-əməlli ayırammamışdı. Axır ki, özündə güc tapıb arvadına dedi:

— İmkan ver, özümə gəlim... Bu nə oyundu, əə? Belə də yuxu olar?

— Bu uzunluğa gecəni neyləmisən? Mənim xəbərim yoxdu, başıma xeyir. Yoxsa, sənə daş daşıtdırıblar? Ya səni arabaya qoşublar? Elə şey varsa, utanma, de, biz də bilək.

Xasay ətə həsrət qalan pişiklər kimi arvadının üzünə matdım-matdım baxdı. Onun əl çəkməyəcəyini hiss eləyib böyür-başına göz qoydu. Evdə uşaq olmadığını yəqinləşdirib yarıçılpaq ayağa qalxdı.

— Rəhmətliyin qızı, qoymadın yatmağa, əla yuxu görürdüm.

— Yüz yuxu bir gerçəyi əvəz eləmir... Ondan hamı görür. Gördüklərimi danışsam, ağzın açıla qalar. Yuxunu axar su başında danışarlar. Eşitmədin, çirkablı sudan burda dayanmaq olmayacaq. Gün qızan kimi buxarlanacaq. Zəhrimarın iyindən ürəkgöbəyimiz ağzımızdan gələcək.

— Göbək adı tutma.

— Niyə?

— Həyətdəki kişilər eşidər. Ayıbdı.

— Ədə, qonşu arvadları açıb çöldə qoyublar. Onların ərləri utanmırlar. Mən o zəhrimarın adın çəkirəm, sən xəcalətlənirsən? Ay Xasay, mühafizəkarlığından əl çəkənmirsən. Da mən sənə nə deyim?..

— O, onların öz işidi. Neylədiklərinin də bizə dəxli yoxdu.

— Ay sənin namusuna qurban olum. Qısqanmasan, elə bilərəm... Qonşu Xavər də neçə vaxtdı turbasından gileylənir. Onunkuna da bax, gör deşilib, ya yox? Deyir, hardansa su verir. Xavərinki deşilibsə, batdıq.

— Əyə, niyə batırsan, ölməmişəm ki? Özüm düzəldəmmərəm, qonşu Bağırı çağıraram. O ki, elə şeyin ustasıdı. Bir də ki turba dəyişmək kişi işi döör.

— Görəcək danışma. Qonşular eşidər, hərə bir şəbədə qoşar. Turba dəyişmək bəs kimin işidi?

— Bu gecəki yuxudan sonra əlim elə işə yapışmayacaq. Mərdimazarlıq elədin. Əlində telefon var. Çağır, ustalar gəlib düzəltsinlər. Həvəsimi korlama. Üç-beş manat eləyər xərci, onu da bir yerdən tapıb verərik. İmkan verəydin, heç olmasa, həyatımın bircə gecəsini insan kimi yaşayaydım.

— Ayə, sən göylə əlləşirsən. Elə bil gündəki Xasay döörsən. Yuxuda nə görmüsən, axı?

— Canın üçün... Yalan desəm, nəslim-kököm gorbagor olsun. Gördüm, hansı nazirliyinsə təchizat şöbəsinin müdiriyəm. Dəbdəbəli kabinet. Neçə telefon aparatı var stolumun üstündə. Yumşaq kreslo. Katibə çay gətirir. O, televizoru açanda mənə general rütbəsi verildiyini elan elədilər. Hələ bu azmış kimi mundirimi də geyindirdilər. Müxalifətin taleyini mənə tapşırdılar. Adamlar üstümə tum kimi töküldülər.

— Niyə?

— Təbrik elədilər. Dayım da gəlmişdi.

— O nə deyirdi?

— Ağıl verməyə gəlmişdi.

— Demədin, qatığın var, get, öz başına sürt.

— Atamın goru haqqı elə helə də dedim.

— Əla! Sonra...

— Sonrası budu ki, məni yuxarı aparırdılar, sən çağırdın, oyandım.

— Bağışla, Xasay, a tövbə, bilməmişəm. Biləm ha, su evi uçursaydı da oyatmazdım.

— Gülçöhrə, canın üçün, yuxu döördü ey, alahı şeyiydi.

— Kişi, ümumən, yaxşı yuxudu. Yuxuda böyüklərlə əlləşən





xeyir tapar.

— Əşi, mən ondan qorxmuram. Bu sistem işçiləri var ey, onlar çox xatagündülər. Birdən belə olmadı, ağzıma daşlar, elə oldu.

— Düzünü boynuna al. Bu yaxınlarda dolaşıq iş görməmisən ki?

— Ağlıma gəlmir.

— Əlin dinc duran döör, görmüsənsə, budu deyirəm, səni atacaqlar qoduqluğa. Bizi də lüt-üryan soyundurub çirkab suda boğacaqlar.

— Qorxusu yoxdu.

— Bayaqdan qanını qaraltmaq istəmirdim. Fikirləşirdim ki, bir özünə gələsən, sonra deyəm.

Xasay təəccüblə arvadının üzünə baxdı. Gülçöhrə başını yellədi. Ərinin hövsələsi lap daraldı. Sifətini tər basdı.

— Əşi, elə şey döör. Narahat olmağa dəyməz. Bu dünyaya gələn geci-tezi var, getməlidi. Xoşbəxt adam odu ki, gününü görüb, dövranını sürüb.

— Ürəyimi çatlatma, ölən kimdi?

— Ayə, ürəyini niyə çatladırsan? Elə eləyəcəksən, ürəyin dözməyəcək, öləcəksən. Uşaqlar yetim qalacaq. Evə bir şey gətirməsən də, uşaqlar "ata" deyib nəşinin üstünə qaçırlar. Yetim olmadıqlarını hiss eləyirlər. Mənim də ürəyim, bilirsən nə qədər sakit olur? Bilsən, nə qədər sevinirəm, mənə uşaqlar "can" deyəndə.

— Ölən kimdi? Qurtar, sözünü de.

— Əşi, niyə əsəbiləşirsən? Dünya qopmayıb ki, deyəcəm, biləcəksən də.

— Allahu-Əkbər də.

— Deyirlər, qəflətən xəstələnib. Evin ortasına tirtab yıxılıb. Yaxşı ki, altında qalan olmayıb. Qalsaydı çətin ki, ondan adam olardı.

— Axı kimdi o?

— Ayə, səbrin olsun da, nə kəmhövsələsən?

— Da demə, lazım döör. Kim ölüb, ölüb. Lap dədən ölsə də...

— Kim olacaq?... Dədəm niyə ölür? Musqulları möhkəm, dizləri güclü, canı da sappasaq.

— Demə, lap əzizim olsa da. Cəhənnəmə... Ağlı vardı, ölməyəydi.

Gülçöhrə qəhqəhə çəkib ona qoşulur.

— İndi yuxudan qalxmasaydın, fikirləşərdim, piyansan.

— Piyandan da betərəm.

— Öləni soruşursan, deyim.

— Demə.

— Ayıbdı, fikirləşərlər ki, qəsdən deməmişəm. Ölən xalan Əsmayənin əri Nuruşdu.

— Əşi, bayaqdan belə de də. Ürəyimi çatlatma da. Ölüb cəhənnəmə ölsün, qara da yola. Elə bilərəm, xalam yerli-dibli heç ərə getməyib. Hələ qız uşağıdı.

— Ağ eləmə, nə qız uşağı, arvadın həştad yaşı var ey.

— Dedim axı, elə bilərəm. Nə vaxt ölüb?

— Axşam.

— Getmişdin?

— Yox.

— Hardan bildin?

— Xalan zəng çalıbmış dayına, o da zəng çalıb sənə. Sən də yatmışdın, oyatmadım... Kişinin ciyəri serrozmuş. Bir neçə dəfə hamıdan xəlvət xəstəxanada müalicə olunubmuş.

— Düz eləyib ölüb, yanına kim gedəcəkdi ki? O boyda vəzifədə olub, bir köpək oğlunun sınıq barmağına...

— Son vaxtlar şəkərdən də əziyyət çəkirmiş... Prostat vəzidən də narazılıq eləyirmiş.

— O kişi xəstəliyiydi. Doxsan faiz kişilərdə var.





— Bədbəxtin babasili də varmış.

— Ay pir olmuş, kimin babasili yoxdu ki?

— Bunlar azmış kimi ürəyi də tutub. O saat da “mık” eləməyə qoymayıb, dağ boyda kişini aşırıb. Ürəyin etibarsızlığına bax ey. Bu qədər xəstəlik ona bir şey eləyənməyib, ancaq yumruq boyda ürək...

— Ürək motordu... Ona görə zırhazırı da böyük olur... Rəhmətliyin oğlu ölməyə vaxt tapdı. Sən ağıllı bir kişinin qızısan. Bu gün kefimin duru vaxtı hüzrə getməsəm olmaz?..

Ərinin “ağıllı kişinin qızısan” sözləri Gülçöhrənin sinəsinə yağ kimi yayıldı. O, bir balaca düşünüb dedi:

— Nə bəhanə gətirək? Deyək, Xasay da xəstədi? Harasısa, nəyisə şişib? İmkan vermir, kişi ayağa dursun? Birdən tökülüşüb gəldilər. Sən ki, qohum-əqrəbanın ağlına yaxşı bələdsən. Qırılmışlar da kı bir sürü. Desək, Xasay yox ha, itimiz xəstələnib, hamısı sanılı qoz kimi burda olacaq. Gəl onların yemək-içməyini çatdır, ayaqlarının tozunu sil.

— Bəlkə deyəsən, evdə yoxam?

— Onda da yüz cür sual verəcəklər. Hara getdi? Nə vaxt getdi? Kimlə getdi? Xeyirdimi? Nə vaxt qayıdacaq? Gəlsək, nə zaman görüşə bilərik?.. Yox, Xasay, sənə and verirəm, dədən Əlləşin goruna, məni işə salma. Hüzrə getmək o suallara cavab verməkdən yüngüldü.

— İşə düşmədik? Ayə, sən öl, yerimizdə rahat ölməyə də qoymurlar. Başımıza haranın daşını salaq, bilmirik.

— Qalx, hələ kanalizasiya məsələsini həll elə, cənab general. Sonrasına baxarıq.

— Yuxum çin çıxsaydı, nə vardı ki. Mən demədən qonşular tökülüşüb özləri düzəldərdilər. Lap suyu da ovuclarıyla yığıb aparardılar. Sonra da gəlib qabağımda çökərdilər. Həyatın işinə bax ey. Bir gecənin yuxusunun dadı ömrü boyu ağzımdan getməyəcək...

*   *
*

Xasay donquldana-donquldana şalvar-pencəyini əyninə geyib həyətə düşdü. Çirkli-paslı su hər tərəfi basmışdı. Ayaq qoymağa yer qalmamışdı. Həyətin çökək yerlərində göllənən suyun üzündə hər cür zir-zibil dayanmışdı. Üfunət adamın burun-boğazını göynədirdi. Xasay qalın uzun məftil götürüb ucunu əydi. Məftilin əyilmiş ucunu kanalizasiya turbasına salıb o biri ucunu burmağa başladı. Bir neçə dəfə irəli basıb, geri çəkdi. Xeyli əlləşdirdi. Hövsələdən çıxdı. Bu dəm ayağı sürüşüb üzüüstə çirkablı suya yıxıldı. Xavər arvad özünü irəli atdı. Xasayın çiyinlərindən tutub ayağa qaldırdı — Kişisən də, yerinə xəcalət çəkirəm, — dedi. Xasay özünü eşitməzliyə vurdu. Xasayın sir-sifəti tanınmaz hala düşmüşdü. Üz-gözündən, bər-bədənindən lığab axırdı. Ərinin it gününə düşdüyünü görən Gülçöhrənin əvvəl-əvvəl bədəni cimildəşdi, sonra da ona yazığı gəldi. — Can, ay Xasay, can — deyə tələm-tələsik evə qaçdı. Əlində dəsmal tez də geri qayıtdı. Dəsmalla ərinin üz-gözünü silmək istədikdə Xavər dedi:

— Ay qız, əlini saxla, murdar sudu. Təmizə çıxmaq üçün Xasaya dəniz, iki qəlib də paltar sabunu lazımdı.

Xasay sir-sifətini turşutdu.

— Ayə, nə günə düşdüm? Hamısı gözdü. Pis gözə bıçaq batsın. Hamamı yandır. İyimiş iy-qoxuyla burnum doldu. Əcəb sudu. Lap turşməzədi.

Xavər:

— Bə nə bilmişdin? Bu suda hər nə desən, taparsan. Bəzi cücülər bu sudan qidalanır. Ağzını yum, qurd-quş dolar qarnına. Sonra da gəl zibilindən qurtar görüm, necə qurtarırsan.

Gülçöhrə:

— Xavər xanım düz deyir, Xasay. Nə desən olar. Qız vaxtımda bizim qonşuluğumuzda biri belə oldu. Lığablı su doldu qarnına. Altı ay keçməmiş barmaq-barmaq, qulac-qulac qurdlar çıxartdılar kişinin qarnından həkimlər. Zeynəb qarı deyirdi: “Anası namaz üstəymiş”. Vaxtında üstə düşməsəydilər, pis günə qalıb öləcəkmiş...





Xasay:

— Pay atonnan... Əcəb işə düşdük. Gedək dərdimizi kimə söyləyək?...

— Kimə söyləyəcəksən? Bəyəm, mən ölmüşəm, mənim əlahəzrət generalım.

Xavər:

— Nə, bəyəm Xasaya general rütbəsi veriblər? Gözünüz aydın. Gözü dolu görəsiz, ay Gülçöhrə. Kişidən muğayat ol. Onun təkcə adı bəsdi sənə də, balalarına da.

Xasay istədi desin ki, Gülçöhrə zarafat eləyir. Sonra da düşündü ki, arvadın yalanını çıxarmaq kişilikdən deyil. Gülçöhrə dedi:

— Çox sağ ol. Allah ondan əzizlərinizə də qismət eləsin...

Xasay arvadına baxıb “danışma” işarəsini verdi. Elə bu zaman Xasayın on yaşlı oğlu Əlləşlə səkkiz yaşına təzəcə keçmiş qızı Nişanənin: — Ura! Ura! Atamız generaldı! Ura — deyə səsləri aləmi bürüdü. Səsə qonşular çıxdılar. Xasay üzə bir söz deməsə də, daxilən bərk əsəbiləşdi. Zeynəb qarının sözü olmasın, bıçaq vursaydılar, qanı yerə düşməzdi. Kişi yuyulub təmizə çıxmaq üçün tələm-tələsik evə keçdi. Arvadı da ardınca. Xasay narazı halda dedi:

— Gərək mənə general rütbəsi verilməsini deməyəydin. Qonşular hamısı bildilər. Məni lağa qoya bilərlər.

— Əvvəla, qələt eləyərlər. Qonşuların o qədər lağa qoyulası yerləri var gəl görəsən. İkincisi də, özüm qəsdən dedim ki, qoy içləri qırılsın. Gözləri çıxsın. Əlinə tel almağa məəttəlsən, qapıda ayı kimi tirtab yıxıldın. Elə bilirsən, oturduğun yerdə yıxıl-

man səbəbsiz oldu. Zeynəb qarı deyərdi: "Səbəbsiz iş olmur". Bilmirəm, əyridi, ya düzdü. Allah-Təala da buyurub ki, göz olan yerdə mən yoxam...

Əlacsız qalan Xavər qollarını çırmalayaraq özü məftili götürüb turbanı qurcalamağa başladı. Çox çəkmədi ki, turba açıldı. Həyət-bacadakı çirkablı sular yavaş-yavaş süzülüb getməyə başladı. Uşaqlar sevindilər. — Ura, ura — deyə, qışqırdılar. Bunu hamamda ərini, çimizdirən Gülçöhrə də eşitdi, Xasay da.

Xasay duşun altında yuyunurdu ki, Gülçöhrə soruşdu:

— Özün yuyuna biləcəksən, yoxsa, gedim görüm o nə səsdi?

— Tələsmə.

— General olmağa, müxalifətə divan tutmağa nə var ki. Kişi gərək turba düzəltməyi də bacarsın.

Arvadının ikimənalı sözünü dəqiqliyilə anlayan Xasay bir şey qanmırmış kimi astadan bildirdi:

— Atana rəhmət, a Gülçöhrə, əsl general arvadısan. Bircə dəfə dilindən, hərəkətindən inciməmişəm. Məndə həmişə ruh yaratmısan.

— Çox danışma, kürəyini çöör sürtüm, yoxsa bir azdan iy-qoxuna dözənməyəcəyik. İt iyi aləmi bürüyəcək. Xəbərin var da?

— Nədən?

— Keşlədə baş verənlərdən.

— Yox... Nə olub axı?

— Kanalizasiya kollektorı yatıb, su basıb aləmi. Nə az, nə çox, yüzdən artıq ev, nə qədər maşın qalıb suyun altında. Suyun dərinliyi nə qədər olsa yaxşıdı, inanılasıdı?

— Mən hardan bilim.

— Altı-səkkiz metr. Gör orda nələr olub ey. Adamlar zülmlə yığdıqlarını bir göz qırpımında itiriblər. Adam fikirləşəndə az qalır havalansın. Hökumətin də gözünə dönüm, deyir: — Kompensasiya-mompensasiya yoxdu və olmayacaq da. Zeynəb qarı demişkən: oturduğun yerdə işə düş.





— Hə... Belə de.

— Doğrusu, cənab general, çirkablı su gələndə, elə bildim bizimki də ondandı. Yoxsa, əziyyət verib səni oyatmazdım. Sən də yuxunu axıra çatdırardın. Çox şükür ki, yaxşı qurtardıq.

— Hə, baş verən hadisənin yaxşı və pis tərəfi olur. Pisi odu ki, adamlar zillət çəkir. Yaxşısı odu ki, həşəratlar üçün qida mənbəyi yaranır. Üçüncüsü də, insanlar təcrübə qazanırlar.

Generalı sürtüb təmizə çıxaran Gülçöhrə dedi:

— Filosofluq eləmə, gəl qurulan, təmiz paltarlarını geyin, hazırlaş xalanın ərinin hüzrünə.

— Gedim deyirsən?

— Məni davaya salma.

Arvadının sözündən çıxanmayan Xasay könülsüz halda hüzr yerinə yollandı. O, əyləşmişdi ki, mollabaşı ucadan dedi:

— Camaət, mərhumla vidalaşmağın vaxtıdı. Qalxın.

Adamlar tələm-tələsik ayağa qalxdılar... Nəş qaldırılırdı ki, arxadan pıçıltılı səslə Balakişi Xasaya dedi:

— Cənab general, gedib boğazımızı yaşlayaq.

— Ədə, nə danışırsan? Mərhum xalamın əridi. Kişinin üstümüzdə haqqı var, onun çörəyi ilə böyümüşük.

— Olsun da. Bütün günü yasda qalmayacağıq ki? Çox yox, bir tava cızbız, adama iki yüz rus arağı...

Generalı dərd götürdü. Öz-özünə dedi: — Getsəm, eşidib-bilən nə deyər? Xalam vurmağıma pis baxmaz ki? Rəhmətliyin ruhu inciməz ki? İncisə də, zərər eləməz, kişiylə onsuz da qarşılaşmayacam. Qarşılaşmayacamsa, deməli, utanmayacam da. Xalam hardan biləcək, vida mərasimindən sonra vurmağa getdiyimi? Qaldı el-obanın qınağına. Onsuz da hamı qınaq içindədi. Axşamdan vurmuram, vurmağa həsrətəm. Fikirləşə-fikirləşə generalın ağzı sulandı. Xeyli vaxdı spirti qatıb dostlarıyla evdə içirdi, pulu olmadığından kafenin yolunu, istiqamətini az qala unudacaqdı. O, astadan bildirdi:

— Pulum yoxdu.

— Sənin nə vaxt pulun olub ki. Ağakişiylə danışmışıq, nisyə verəcək. İndi boğazımızı yaşlayaq. Yasdan qurtaraq. Pulun olanda verərsən. Qarakişi bizi kafedə gözləyir, mən getdim, tində səni gözləyəcəm.

*    *
*

General yaxşı bilirdi ki, bu dəfə xərc çəkmək növbəsi onundu. Qarakişi də az aşın duzu deyildi. Çox keçməyəcək, gəlib hüzrdəcə deyəcəkdi: "Ay nadan, dədənə borcum yoxdu ki? Yemisən, pulumu ver". Özlüyündə çıxış yolu tapanmayan Xasay naəlac qalıb, başını aşağı-yuxarı eləməklə Balakişiyə "hə" işarəsini verdi. Qonşusu yavaş-yavaş aradan çıxdı. General tamam çaş-baş qalmışdı. O, gah mərhum Nuruşun nəşinə baxdı, gah mollaya, gah da gözləri yaşlı xalası Əsmayə də daxil olmaqla ətrafdakı qohum-əqrəbasına. Sonra ağlına hardansa belə bir fikir gəldi: "Əşi, ölən də bizimdi, bura toplaşanlar da. General da toya-yasa gedərmi? Özünü bu qədər ucuzlaşdırarmı?.. Getdim ey..." O, hiss olunmadan dayandığı cərgədən arxa cərgəyə bir addım atdı. Elə bu vaxt nəş qaldırıldı, küçə yuxarı bir az gedib, sonra "Məşhurlar qəbiristanlığı"na tərəf yan aldı. Nəşin həndəvərindəki adamlar asta-asta gedir, general isə addımlarını yavaşıdırdı. Camaatla onun arasındakı məsafə getdikcə çoxalırdı. Cənazə qarşıdakı küçənin tininə çatan kimi o, bir də sola buruldu. Çox çəkmədi ki, tabut da, arxasınca gedənlər də görünməz oldular. General dərindən nəfəs aldı. O tərəf-bu tərəfə baxdı. Tanış adam olmadığından, qayıdıb saymazyana küçəni üzüaşağı düşdü. Zərgərpalan küçəsinə çatanda arxayınlaşdı. Ondan hüzrlə əlaqədar söz soruşan olsaydı, yaxşıca bəhanəsi vardı: "Rəhmətliyi yola saldıq, tələsirəm, iş dalınca gedirəm, indi adamlar





qayıdacaqlar"...

Ömrü boyu qəbiristanlıqdan qorxan, ölümə nifrət eləyən generalın üstündən elə bil dağ götürülmüşdü. Az qala quş kimi uçacaqdı. Cəhənnəm yeyib-içməyin xərci, zəhləsi gedən işdən canını qurtardığı üçün Balakişiylə Qarakişiyə minnətdar olmağa da hazırıydı. Özünü Ağakişinin kafesinə salanda Qarakişiylə Balakişi iş başındaydılar. Sifarişlərini vermişdilər. Ağakişi də çox böyük həvəslə gətir-götürlə məşğulıydı. General onları görcək artistliyə başladı. Sir-sifətinə süni gərginlik gətirdi. Sanki generalı baş verən zəlzələnin vurub dağıtdığı zir-zibillərin altından çıxarmışdılar. Onun sir-sifətini diqqətlə nəzərdən keçirən Ağakişi ağzını büzdü. Qarakişi başını bulaya-bulaya astadan mızıldandı:

— General, sərəy olma. Kimin ölüsü düşməyib ki? Bəlkə unutmusan, mənim dədəm ölən günü arağın küpünə girdiyini. Hələ Balakişinin arvadı ölən günü sərxoş olub dava-dalaş saldığını, necə adamı xuliqanlıq üstündə on beş gün kepezedə yatızdırtdığını demirəm.

Ağakişi birdən qəşş elədi. Kişi az qala gülməkdən özündən gedəcəkdi:

— Ayə, yaxşı yadıma düşdü. İtqapan Şəmmədinin atasının hüzrünə araq apararaq ehsanla içməsi yadınızdan çıxıb? İndi nə böyük iş olub, xalasının ərinin, anasının da yox ha, ölən günü boğazımızı yaşlamayaq? İnanıram ki, bəlkə də generalın bundan şad günü olmayıb. İndi vid göstərir. Özü də kimə? Bizlərə... Ha... Ha... Ha... Ayə, yığışdır özünü, tumanını başına atıb, ələ salma bizi.

Generalın üzündəki məcburiyyətdən doğan sərt ifadə dərhal hırıltıyla əvəzləndi:

— Ayə, mən nə deyirəm ki? Məni narahat eləyən kişinin ölümü döör eey.

— Bəs nədi?

Xasay uydurmağa başladı:

— Arvad tək-tənha qaldı. Sonsuzdu. Dərdim bir döör, iki döör, qardaş. Budu ha gördün, evin bir yeri yırtıldı, ya söküldü. Çağıracaq: — General, gəl... Ayə, mən yırtıq-sökük tutanam? Yaxud, xəstələndi. Özümü güc-bəlayla hərrəyirəm. Onu neyləyəcəm?.. Ağlına yerləşdi, gecənin birində qalxdı gəldi bizə. Dedi ki, mən də sizdə qalacam... Bizdə də vəziyyət necədi? İki siçan dalaşsa, biri ocağa düşəcək. Mənzil dar. Yorğan-döşək yox. Uşaqlar məktəbli. Arvad deyingən, söyüşkən... dalaşqan. Siz öləsiz, uşaqların yeməyin çatdıranmıram. Onlara şalvar, ayaqqabı alanmıram. Mən başına daş düşmüş neyləyim? Hara baş götürüm gedim?..

Balakişi dərhal dilləndi:

— Ayə, dayan! Dayan! Neçə otağı var xalanın?

— Beş. Bir az əvvələcən kişi böyük vəzifədə olub. Onda hökumət beş otaq verib ona. O vaxtdan bu vaxtadək ər-arvad ağnayırlar içində... O vaxt dedim ki, a kişi, bunun birini də mənə təşkil elə. Kimə deyirsən?.. Eşitmədi sözümü. Eşitsəydi, indi də bir rəhmət mən oxuyardım ona.

Ağakişi:

— Oxumayacaqsan?..

— Sözdü deyirəm də...

Qarakişi:

— Özəlləşdirib?

— Hə...

— Səni təbrik eləyirəm.

— Niyə?

— A qanmaz, adını da general qoymusan. Bir balaca başını işlət. Görünür, axşamkı yuxun çin çıxacaq.

— Necə?

— Xalanı get, gətir yanına. Uşaqlarından da birini qeydiyyata saldır onun evinə. Qoca arvaddı xalan. Üç-beş gün ömrü var.





Ölən kimi ev qalacaq uşağa. Ver kirayəyə, al pulunu. Ayda bir-iki dəfə boğazımızı yaşlayaq. Gələcəkdə də uşağı evləndirib köçürərsən o evə...

Bayaqdan söhbəti çikinə-bikinədək dinləyən Balakişi bildirdi:

— Qarakişi düz deyir, general. Bu hələm-hələm adama qismət olan şey döör. Xoşbəxtlik özü gəlir qapına. Bir az vur, hələ tələsmə. Ona kimi də meyidi qəbrə dürtsünlər. Uzatma, get, xalanı özün dəvət elə evinə. Özünü elə apar, xalan sənin ürəyiyananlığına inansın. Al qəlbini ələ. Sonra gec olar...

— Birdən gəlmədi?

Qarakişi dərhal:

— Gəlmədi nədi? Arvadını başa sal. Arvad arvadla daha tez dil tapar. Girsin qılığına.

— Harasına?

— Qılığına! Qanmırsan? Yəni ürəyini alsın ələ. Eşitdiyimə görə, özün də bu gecə əla yuxu görmüsən.

Əlini alnına aparan, bayaqdan bəri fikirdən gözləri qıyılan Balakişi astadan dedi:

— Xalanın səndən yaxın adamı varmı?

— Kiçik xalam Nərgizin iki oğlu, dayım Nicatın bir oğlu, bir qızı var.

— Gecikdirmə, onlar da sənə şərik ola bilərlər. Yəqin yatmayıblar. Neçə vaxtdı bu barədə fikirləşirlər. Xalana girişərlər. Hər şeyi ələ keçirərlər. Canın üçün çırtım-çırtım yanarsan...

Xasay elə bil yatmışdı, yuxudan oyandı:

— Sən nə danışırsan, gecəykən...

— Ağıllı ol. Sərsəri danışma. Hər şey xalanındı. O, rəsmi şəkildə verəndən sonra neyləyəcəksən? Yaxşısı budu, fürsəti fövtə vermə. Sən öl, general, səhlənkarlıq eləsən, hər şey batacaq. İçinəcən alışıb-tutaşıb yanacaqsan. Od-alovun arvad-uşağı qarsıyacaq. Bizə deyə bilərsən, xala mənim, özüm bilərəm, sizə nə

var? Bizim bu işdə yeganə niyyətimiz var: pul əldə eləyib səninlə vurmaq. Beş otağı xarici vətəndaşlara kirayəyə versən, üç min ABŞ dolları üstündədi. Ayağımızdan girib başımızdan çıxacaq. Nə istəyirsən, general, Allah oturduğun yerdə yetirib sənə. Tanrına şıllaq atma. Vaxt itirmə, bir azdan arvadını da götür, get xalanın yanına. Yalvar-yaxar eləyib apar evinə. Qoy vannaya çimizdir. Lap lazım gəlsə, əl-ayağını da yala. Peşmançılığın olsa, gəlib tüpürərsən mənim bu qotur üzümə... Nə istəyirsən, Zeynəb qarı demişkən: "Ölmək istəyirsən, get Mazandarana...".

Ağakişi:

— A kişi, eşitməmisən, yuxuda böyük adamlarla görüşmək, danışmaq varlanmağın ilkin əlamətidi. Onda qalmış da kı yuxuda sənə o boyda rütbə veriblər, mundir geyindiriblər. Nə istəyirsən? Fikirləşirsən ki, yeməyi çeynəyib ağzına dürtsünlər, sonra ötürəsən? Onu görməyəcəksən. Zeynəb qarı deyərdi: "Yatan öküzün başına duran öküz..." Unutma ki, Allah verdiyi kimi almağı da bacarır.

Qarakişi:

— Əgər qansan, elə ağzına dürtmək kimi bir şeydi də, Xasay. İndi bir balaca hünər lazımdı. Cənab general, o rütbəni üstünə götürmüsən, gərək cəsarətin də ona çata. Yeri gələndə utanıb-qızarmadan, qorxub-hürkmədən, sonalamadan o boyda yumruğunu da stola vurmağı bacarmalısan.

General:

— Cəsarətimə nə olub? Yumruğuma nə gəlib? Deyirsiz, kişi döörəm.

— Əstəğfürullah... Kişi olmağına kişisən. Buna şübhə eləmirik. Gərək hərəkətə keçməyi bacarasan. Yetişib, indi kim kimi məsələsidi. Xalan Nərgiz, yoxsa sən Xasay? Dayın Nicat, yoxsa sən Xasay?.. İndi yatmaq olmaz, hərəkət dəmidi. Səhlənkarlıq ölümə bərabərdi.

General fikrə getdi, handan-hana üzünü Ağakişiyə tutdu:





— Ayə, qırışmal, nə durmusan? Tez elə, mədəm sıyrılır. Bir loxma kəsək, rəhmətliyin ruhunu yad eləyək, sonrasına baxarıq...

Ağakişi sifarişləri gətirdi. Yemək-içmək başlandı. Qarakişi qədəhləri doldurdu, sonra da sözü Balakişiyə verdi. O da boğazını arıtladı. Arxaya, sağa-sola baxdı. Axır ki, sözə başladı:

— Bizim üçün şərəfdi ki, yuxuda da olsa, sənə general rütbəsi veriblər. Bu, ilahinin sənə ərməğan elədiyi hədiyyədi. Allah səni özünə dost sanıb. Belədisə, deməli onun sevimlisisən. Başqa cür necə ola bilər? Yoxsa vacib döör ki, sən həqiqətən general olasan. Xasay adını generala çevirə bilmisən, bu çox böyük şeydi. Bunu hadisə kimi də qəbul eləmək olar. Səni istəməyənlərin qoy gözləri çıxsın. İncimə məndən, cənab general, mən təklif eləyirəm ki, ilk badələri qalıdıraq xalan Əsmayənin əri mərhum Nuruşun şərəfinə. Qoy onun ruhu şad olsun. Vaxtında ölüb. Olduqca ağıllı iş görüb. Xalanın üzünə çox baxmaqdansa, getməsi məsləhətdi. Ümumilikdə götürəndə Nuruş pis kişi döördü. Hamıyla yola gedəniydi. Deyib-gülməyi sevirdi. Bunlar o demək döör ki, kişinin qüsurları yoxıydı. Necə deyərlər, o, idealıydı. Əsla, o fikirdən də uzağam. Bir az xəbisiydi. Canından qəpik çıxmırdı. Hey altına yığırdı. Niyə simic idi, bilmirəm. Dostları, yaxınları deyirlər ki, seksuallığı, bayquşluğu varmış. Yalquzaq kişi tək-tənha şəhəri var-gəl eləyərmiş. İşdi-şayətdi, ərinin xasiyyətləri arvadına sirayət eləyibsə, heç nə, batdın. Ev məsələsinin də üstündən xətt çək. Nə isə... Sözümüz sözdü, Nuruşun ruhunun şərəfinə.

— Yox, ərinin xisləti xalama keçməyib. Onda seksualistlik yoxdu.

— Ağ eləmə, gəlib özü sənə deməliydi?

Qədəhlər axıra qədər içildi. Qarakişi ağzına kələm turşusu basdı. Handan-hana özünə gəlib Ağakişidən soruşdu:

— Ayə, bu zəhrimarı bizə niyə verirsən?

Ağakişi dərhal:

— Nə olub, qağa?

— Canına dərd-çor olub. Əldəqayırma araqdı.

— Yox... Qarakişi, mən sizə zay şey vermərəm.

— Bəs niyə belədi?

— Yəqin zavodda qarış-quruş eləyiblər.

Qarakişi: — Yaxşı, qurtar — deyib üzünü Balakişiyə tutdu:

— Sənin sözlərin mənim çox xoşuma gəldi. Obyektiv tostıydı. Artırması-filanı yoxıydı. Atı atın yanına bağlayırsan, ya halın götürər, ya huyun. Zeynəb qarı deyərdi: "Su axar, çuxurun tapar". Ağıl ağılı tutmasa, birgə yaşayış olmaz...

Balakişi başıyla Qarakişinin sözlərini təsdiqlədi.

— Şübhəsiz elədi.

Ağakişi:

— A kişilər, gəlin, indidən generalın əlinin üstünə tüpürməyək. Bəlkə Əsmayə qarı bir yerdə yaşamaq təklifini generala özü verəcək?

Qarakişi qədəhləri yenidən doldurdu. Ağakişi sözünə davam elədi:

— Hərçənd, inanmıram... Arağı qədəhdə çox saxlamazlar, süzmüsüz, vuraq getsin.

Qədəhlər qaldırıldı. Bu dəfə general üz-gözünü turşutdu, ağzını büzdü. Stəkandakı sudan bir qurtum içib başını yellədi:

— Zəhərdi, Ağakişi, zəhər...

Ağakişi:

— Urvatdan salma.

Xasay:

— Ayə, onsuz da bizimki düz gətirmir.

Balakişi:

— Ötüşər, cənab general, görünür narahatsan. Bir az da vur, düzələcək.

Qarakişi:





— Narahat olar da. Xalası kişi olsaydı, nə vardı ki?

Ağakişi:

— Bəyəm, kişidən də xala olur?

— Əyə, qurtdanquc, olur demədim ki. Öyrəncəlisən sözdən söz çıxarmağa.

— Əvvəla, olsaydı, dedim. İkincisi də demək istəyirdim kişiylə danışmaq asandı. Gedib qəlbini açırsan, yüz-yüz atırsan, mən ölüm-sən öllə, hər şeyə razılaşırsan, hətta, ölüm işini yoluna qoyursan. Generalın xalasına nə var? Gedib sözünü şarpdanşurpdan deyəcəksən, dalını, qabağını sonalamadan deyəcək: "Yox". Zülm sonradan "yoxu" "var" eləməkdi. Özü də kəsilməmiş adam ola... Özünü öldürsən də, sözü "yox" olacaq.

Balakişi:

— Ha... Ha... Ha... Sözündən belə çıxır ki, kəsilsəydi düzələrdi.

— O saat düzəlməsə də, nəm-nüm eləyərdi. Zeynəb qarı demişkən, özün naza-qoza qoyardı. Biz də bir-iki şüşə götürüb gedər, işə düzəliş verərdik. Neyləyəsən, içmir, çəkmir... Kor tutduğunu buraxmayan kimi, ağzından əvvəl nə çıxıbsa, onu da çalır.

Qarakişi qədəhlərə araq süzdü. General astadan, ancaq fikirli-fikirli dedi:

— Mənimkini az elə... Axı söhbətə oturmalıyam. Qarakişinin canı haqqı, mən deyəni deməsə...

Ağakişi:

— O acıqlı başla düzələn iş döör, cənab general. Özünü bəri başdan umsuq eləmə. Bu müəmmalı hırhahırın çox nırhanırları olacaq.

— Əşi, sən atanın goru hürküdüb salma canımıza. Öz aramızdı, atan da camaat deyəndən demirdi. Düzələn işin düzəlməyən tərəfindən danışardı.

— Ayə, nə deyirəm? Deyirəm zor eləmə, bişir də.

Balakişi söz aldı:

— Bunu da içək Əsmayə qarının sağlığına. General, Əsmayənin evinə sahib dura bilsən, budu deyirəm, şto-mıştosu yoxdu, axşam aldığın yüz elə rütbəyə dəyər. Biz də Yaradana yalvarırıq ki, sənin işin düzəlsin, məqsədinə çatasan. Biz də kefdə olaq...

General:

— Əyə, vallah onu ki, mən tanıyıram, nə qədər o üz-bu üzünə keçəm ha, yumşalan döör. Yezid kimi şeydi. Baş çatladandı.

Ağakişi:

— Səhv eləyirsən. Özün də bədgüman olma. Allahı olan nagüman qalmaz. Oturduğun yerdə sənə general rütbəsi verən Allah var.

Qarakişi:

— Arxa çatmamış çırmanma. O qədər gözlənilməyən işlər olur. Sonradan adama möcüzə kimi görünür.

Qədəhlər qaldırıldı. Yavaş-yavaş başlar qızışırdı. Mərhumun özü də, cənazəsi də yaddan çıxmışdı. Onun yerini hazırda ev, əmlak tutmuşdu. Ondan gələn gəliri Qarakişiylə Balakişi hesabladıqca generalın nəhayətsiz iştəhası durmadan artırdı. Ürəyində ölən-itən qohum-əqrəbasından heç nə gözləməyən Ağakişi isə tez-tez udqunurdu. — Əsmayə kaş mənim xalam olaydı — deyə düşündü. Belə bir xalası, ya bacısı olmadığı üçün o, ata-babalarını, bütün qohum-əqrəbalarını məzəmmətləyirdi. Hərdən lənətləməkdən də çəkinmirdi.

Başlar vurhavura necə qarışmışdısa, üçüncü şüşə də boşalıb öz xoşuyla yerini dördüncüyə təhvil vermişdi. General içmək həddini aşmışdı. Nə danışdığını da bilmirdi. Hərdən cavanlığını yadına salıb özünə şər atmaqdan, böhtan yağdırmaqdan da çəkinmirdi: — Filan qıza belə yanaşdım. Filankəslə belə gəzdik. Filankəslə elə getdik. Filankəsin atası böyük adamıydı. Filankəsi alsaydım, iki kişinin biriydim. Evimin dirəyi qızıldanıydı. Heyf o günlərdən. Axmaq başım yetirmədi. Bu da axırım. Gör,





gözümü xalamın nəyinə dikmişəm?..

Yersiz söhbətlərə dözməyən Balakişi dedi:

— Boş-boş danışma. Zeynəb qarı bunda deyirdi də: "Keçi can hayında, qəssab piy axtarır". Ayə, biz səninlə çörək kəsirik. Gör, biz nə fikirləşirik, sən nə fikirləşirsən?

General çətinliklə özünü ələ aldı:

— Öz xoşuna verər, lap yaxşı. Mənə də Xasay Əlləş oğlu Mıxıyev deyərlər. Əvvəlcə, mülayim təzyiq göstərərəm, alınmaz bir qədər də təzyiqi gücləndirərəm. Özü qaçar üstümə. O da alınmasa, Zeynəb qarı demişkən: "Ağa durur, Ağacan durur". Lotulara göz vuraram, gecənin birindəcə xalamın işini bitirərlər. Ona nə deyirsiz?

Qarakişi dərhal atıldı:

— Əsl generalsan. Bu mən ölüm, düzünü de. Nəslində-kökündə general rütbəsində adam olmayıb ki?

— Necə bəyəm?

— Ot kökü üstə bitər, — deyirlər axı.

Balakişi:

— Ayə, aləmi qarışdırmayın. Söz güləşdirəcəksiz, o da gedib bir oyun düzəldəcək. Bizi də işə salacaq, özünü də. General, ağılla zor bir araya sığan deyil. Xalan qoca arvaddı. İkibaşlı danışma. Kimsə qudurmuşun biri gedib xalanın işini bitirər. Səni salar bəlaya. Orda-burda cavab verməli olarsan. Yaxşısı budur, bir az açıqlama ver. Sözünə aydınlıq gətir.

General:

— Burda nə anlaşılmazlıq var ki? Mən birmənalı danışıram. Onu aradan götürdərəm. Göndərtdirərəm əri Nuruşun yanına.

— Bu göndərişləri keçən axşam yuxudamı öyrənmisən?

— Yenə saldın yadıma. Əşi, katibə bir tərəfdə. Yaltaqlar əhatəmdə. Gətir-götür də öz yerində. Telefon da o söz. Qılıncın dalı da kəsir, qabağı da. Heç kimdən qorxmursan, çəkinmirsən... Şükür Allahın böyüklüyünə, verdi mənə, ancaq axıracan yox...

Qarakişi:

— Yoxsa, nə?

General kövrəldi. Gün yandırmış qapqara sifəti ağ kağıza döndü. Bədəni titrəməyə başladı. Qarakişi generalın lap özünü itirdiyini görüb Balakişinin üzünə baxdı:

— Bu günə bəsdi, qalanını sabah...

Ağakişi:

— Pulunu kim verəcək?

— Şərtləşdiyimiz kimi, general.

— O, pul verən döör. O qədər nisyə yeyib, altından çıxanmayacaq.

— İndi yeri döör. Onu sabah danışarıq.

Elə bu vaxt Balakişi pencəyinin döş cibindən bir dəstə kart çıxarıb stolun üstünə atdı. Bunu görən general qayıdıb stulunda yenidən əyləşdi. Balakişi kartları qarışdırmağa başladı. Sonra da onları generala tərəf tutdu:

— Kəs.

General kartı kəsdi. Arağın təsiri sanki yox oldu:

— Qaqaş, mənim pulum yoxdu. Olsaydı, Ağakişiyə verərdim. O da boynu sınmış tazı kimi üzümə matdım-matdım baxmazdı.

Balakişi qəşş elədi.

Ağakişi:

— Yekə kişisən, gəlib nisyə yeyib-içib "verəcəm" deyib gedirsən. Hər dəfə də məni təhqir eləyirsən. Ədə, yediyin çörəkdən utanmırsan? Qorxmursan gözündən gələr?

Qarakişi dilləndi:

— Ağakişi, qurtar boş-boş söz-söhbəti. Böyür-başdakılar eşidirlər. Əslində bugünkü vurhavurun xərcini sən ödəməliydin.

— Mən niyə?

— Çünki Xasayın rütbəsini yumaq sənə düşürdü.

— Xeyr. Bu gün o bura gəlib ki, Nuruşun ruhunu yusun və





sizdən də məsləhət alsın. Xalasından evi ala bilsə, xeyli irəli düşəcək.

Qumar tiyanını qızışdırmaq istəyən Balakişi əlini şalvar cibinə salaraq bir dəstə ABŞ dolları çıxarıb generala uzatdı:

— Al, qazanıb verərsən.

General aldı, Ağakişiyə tərs-tərs baxdı. O, qarnına sancı dolmuş dayça kimi qısıldı. Generala elə gəldi ki, dediyi sözlər üçün Ağakişi utandı. General inciməyibmiş kimi ona bir göz vurdu. Ağakişi qımışdı. General: — Ya Ağakişinin ceddi, — deyib oyuna girişdi. Əvvəl-əvvəl Qarakişiylə Balakişinin ayaqlarına qəsdən yağ sürtən general çox keçmədən böyür-başdakıları da oyuna şirnikdirdi. İş qızışdı. Ağakişi işini atıb yer pulu yığmağa başladı. General beləcə cəmi-cümlətani iki saatın içərisində "böyük bank" sahibinə çevrildi. Generaldan savayı hamı əsəbiydi. Biri o birisindən borc alıb təzədən riskə gedirdi. Yenə uduzurdu. Cibləri boşalanlar dava-dalaş salmağa bəhanə axtarırdılar. Qarakişiylə Balakişi onlara təskinlik verir, motal kimi dolan əsəblərini boşaltmağa çalışırdılar. Doğrudu, bu, o qədər də asan başa gəlmirdi. Ancaq işin öhdəsindən çətinliklə də olsa gəlirdilər. General da bunu duyurdu. O, özlüyündə "bankdakı" pulları hesabladı. Sonra düşündü:

— Əclaflığa nə var ki? İnsanlıq eləmək, ağıllı başla düşünmək çətindi. Qudurmuşlardan, anasının əmcəyini kəsənlərdən biri gələr, yalandan bir pisdon şappıldadar, yaxud elə burdakılardan hansısa böyrümə bıçaq diriyər, pulları qapıb aradan çıxar. Mən generallığımı sübut eləyincə, Zeynəb qarı demişkən, "İt də gedər, ip də"... Lap gedim düşüm polisə. Deməzlər, sən nəyimin generalısan? Onda da gəl cavab ver... Heç bir şeydən qumarbaz kimi bir, fırıldaqçı kimi ikinci maddəni dürtüşdürəcəklər mənə. Onda da canımı qoymağa yer tapanmayacam. Yaxşısı budur, işi dayandırmaq. Yoxsa, Zeynəb qarının sözü olmasın, "Çox yemək, adamı az yeməkdən də qoyar". O, sezilməz halda

ətrafına göz gəzdirdi. Bir qədər kənarda dayanıb onu altdan-altdan seyr eləyən Ağakişiyə ötərgi göz vurdu. O da ayıq adamıydı. Üzdə generaldan narazılıq eləsə də, içində xətrini istəyirdi. Bərk ayaqda həmişə ona güzəştə gedirdi. Ağakişi düşündü ki, generalın nəsə hiyləsi var. Odur ki, onun göz vurmasına kirpiklərini qırpmaqla "hazıram" cavabını verdi. Ağakişidən belini bərkidən general gözlənilmədən bankdakı pulları sıyırıb cibinə basdı. Əslində generalın bu hərəkəti Qarakişiylə Balakişinin də ürəyincəydi.

Yan masada əyləşib qumar həvəsli bir qrup adamı görən Balakişi Xasaya pıçıldadı: "Yonulası qazlar var". O, sonra kartları nümayişkəranə qarışdırdı ki, "Qazlar" onlara yaxınlaşıb oynamaq istədiklərini bildirdilər. Balakişi fürsəti fövtə vermədi:

— Buyurun... Oyunçu nə qədər çox olsa, qumar o qədər şiddətli olar

Qarakişi dərhal münasibət bildirdi:

— İstədiyimiz yar idi, yetirdi pərvərdigar.

Qumar getdikcə qızışdı. Çanfəşanlıq artdı. Bankda yığılan pulları Xasay sıyırdı. Araya narazılıq düşdü. Hərənin ağzından bir avaz gəldi. Gözlənilmədən vuruş başlandı. Xasay əlləriylə ciblərini tutdu və üzüüstə döşəməyə yıxıldı. Qazlar ona cumdular... Ağakişi çətinliklə onu altdan çıxartdı. Aparıb arxa otağa saldı. Açarla qapını bağladı. Qarakişini Şef vurdu. Zərbədən Qarakişinin başı partladı. Hələ üstəlik, Şef onun qulağını da dişlədi. Üz-gözünü qan bürüdü. Aranın qarışdığını görən Ağakişi mətbəxdən bıçağı götürüb həmin kişinin yanbızına soxdu... Vəziyyətin ağırlaşdığını görən Balakişi qəsdən:

— Adə Ağakişi, general necə oldu — deyə soruşdu.

Ağakişi göz-qaşla, him-cimlə generalı gizlətdiyini bildirdi. Ancaq Qazları qorxutmağa çalışdı:

— Evim yıxıldı. Bu saat general polisləri tökəcək bura. Hamımızı basacaqlar içəri. Dincələrsiz... Evimizi də satdırıb olanolmazımızı alacaqlar əlimizdən...





Balakişi:

— Sən öl, Ağakişi, axırıncı çörək pulum da getdi. Arvaduşaq da ac qalacaq. Bağla kafeni, rədd olaq bu xarabadan.

Səs-küy ara verəndə Ağakişi gedib Xasay salınan otağın qapısın açdı. Xasayın çığır-bağırı, ataram-kəsərəmi kafeni götürdü. O, əsəbiləşibmiş kimi üzünü Qazlara tutdu:

— Uduzmağı bacarmayan kişi gərək qumar oynamasın. Kimdi sizin Şefiniz?

Yanbızı qan aparan kişi çəkinə-çəkinə, ağsaya-ağsaya irəli çıxdı. Qazlardan biri əskini onun yarasına basmışdı. Əski qana boyanmışdı. Qalan qazlar qapını kəsdilər. Kişi çəkinəcəkli halda:

— Mənəm Şef! — dedi.

Xasay:

— Nə qışqırırsan, əə? Cinayət törətməyə gəlmisiz, ya dalınızı dağıtdırmağa? Utanmırsız. Yəqin ki, hərənizin bir arvadı, bir neçə uşağınız da var. İndi mən neyləyim? Sizin barənizdə iş açdırım?

Qazların çəkindiyini hiss eləyən Balakişi üzünü Xasaya tutdu:

— Cənab general, bunlardan kimsə mənim çeçələ barmağımı dişləyib, qanı güclə kəsmişəm. Mən o qanı yerdə qoymayacam. Xahiş eləyirəm, mənə üz vurma.

Şef dərhal ufuldaya-uyuldaya dedi:

— Cənab general, mənim dalıma nəsə soxublar, hələ də qanını kəsənmirik.

Xasay Qarakişiyə:

— Təcili onun qanını kəsin.

— Baş üstə. Bu saat, cənab...

Şef:

— Cinayəti Ağakişi törədib. O, cinayət məsuliyyətinə cəlb

olunmalıdı.

Xasay Qarakişidən soruşdu:

— Sənin qulağına, başına nə olub, əə?

Qarakişi:

— Şef başımı dağıtdı, qulağımı dişlədi.

Xasay Şefə:

— Bu kişinin qulağının yarısı hanı?

— Uddum.

— Əcəb işə düşdük.

Hamı gülüşdü. Xasay sözünə davam elədi:

— Təcili həkim tapın.

Qarakişi:

— Arvad-uşaq məni bu abırda evə qoymayacaq. Bundansa bıçağın dala girməsi yaxşıdı.

Xasay:

— Burda hamının qanı tökülüb. Deməli, hamı cinayətkardı. İşimin-gücümün bu vaxtında hamınızı deyirsiz, istintaqa cəlb eləyək? Hamınız təqsirkarsız!

Ağakişi əlində bir şüşə neft və yarım metrlik parçayla gəldi. Parçanı neftlə isladıb Şefin dalına yapışdırdı. Sonra Qazlara dedi:

— Bərk tutun, özünüz də onu tez evə çatdırın.

Şef həyəcanlandı:

— Qan axsa, həkim baxası olsa, ona nə deyəcəm? Bilirsiz ki, onlar da polisə məlumat verəcəklər. Polislər də qarışqanı fil eləyəcəklər. İstintaq başlanacaq.

Xasay:

— Bəyəm, mən ölmüşəm?

— Cənab general, birdən məni qan apardı. Tanış həkim tapsaydıq, məni evimdəcə müalicə eləyərdi, nə diş bilərdi, nə dodaq. Xərcini də özüm ödəyərəm.

Bu söz Xasayın ağlına batdı. Nə qədər fikirləşdisə, elə bir etibarlı həkim yadına düşmədi. Əlacsız qalıb Ağakişinin üzünə baxdı. Ağakişi dərhal:





— Bu binanın ikinci mərtəbəsində baytar yaşayır.

Xasay:

— Çağır gəlsin.

Ağakişi:

— Əmr eləyək?

Xasay:

— Əmr niyə? Çox yaxşı iş görmüsüz? Adımı eşitsə, özü tullana-tullana gələcək... Bir az ehtiyatlı ol. Qaça da bilər.

Ağakişi baytarın ardınca getdi. Xasay kafedə var-gəl eləməyə başladı. Şefin tez-tez ufultusu eşidildi. Qazlar ona təskinlik verirdilər. Çox keçmədi ki, baytar qabaqda, Ağakişi də onun ardınca qapını açıb içəri keçdilər.

Ağakişi təntimiş halda bildirdi:

— Cənab general, həkim bu kişidi.

Xasay:

— Həkim, Şef oturanda ehtiyatsızlıq eləyib, dalın verib bədfaniyə. Bir balaca nəsə girib onun güngörməzinə.

Baytar:

— Çıxmır?..

— Hövsələn olsun, çıxır, niyə çıxmır? Balakişinin çeçələ barmağı yaralanıb, Qarakişinin də başı partlayıb, qulağının yarısı yoxdu. Onlara düzəliş ver.

— Ölən də var?

— Ölüm mütləq lazımdı?.. Axmaq... Dələduz... Qaşınmayan yerdən...

— Yox... Bağışlayın, sizi gördüm, zəhminiz basdı məni, çaşdım.

— Çaşma. Şefin dalına, Qarakişinin başına, qulağına, Balakişinin də çeçələ barmağına çarə qıl.

— Oldu, cənab, burda?

— Yox, hamamda... Burda bax, evdə tədbir gör, səsi çıxmasın.

— Oldu.

Xasay Ağakişiyə:

— Qapıları bağla, heç kəsi içəri buraxma. Baytar Şefi stolun üstə uzandırdı. Əvvəl onun yarasını araqla dezinfeksiya elədi. Sonra Qarakişiylə Balakişini tarazlayıb rahata saldı. Axırda da Xasayın qarşısında donbaldı, sonra da dik dayandı. Dili topuq vura-vura bildirdi:

— Cənab general, heyvanlar insanlardan çox təhlükəsizdi. Heyvan öləndə... Qalanını evdə...

Xasay təəssüf hissiylə bildirdi:

— Bir dalını qoruyanmayan adam gərək boyundan yuxarı tullanmasın. Baş, qulaq, barmaq saxlayanmayanlar da elə. Özünüz də əl verib barışın. Bu, əlahəzrət generalın tələbidi.

Hər iki tərəf əl verib görüşdülər. Barışıq elədilər. Öpüşdülər. Şeytanı lənətlədilər. Sonra Qazlar Şeflərinin qollarına girib apardılar. Qarakişi dilləndi:

— Ürəyimə dammışdı, bu zırhazırda nəsə olacaq. Kül başına, a Qarakişi, qalan ömrünü də paraqulaq başa vurası oldun.

Ağakişi:

— Allahına yalvar ki, yaxşı qurtardın.

Balakişi:

— Ölməmişik.

Qarakişi:

— Şefin pazı düzələcək, mənsə paraqulaq ləqəbini qazandım...

Xasay:

— Günah Ağakişinin arağındadı.

Beləcə bir neçə dəfə qonaqlıq üçün mənbə yarandı. Ağakişi, Balakişi və Qarakişi eyni anda dedilər: — “Sağ ol səni, Xasay müəllim!”...





— Gedin, siz də vızqırdın...

Arxada Ağakişinin borcunu verən general qabaqda, Qarakişiylə Balakişi isə arxada kafedən çıxdılar.

*   *
*

General evə çatanda qaş qaralmışdı. Onda sərxoşluqdan əsər-əlamət qalmamışdı. Ancaq kefi duruydu. Maneəsiz-filansız nəfəs ala bilirdi. Ürəyində də əvvəlki döyüntülər, ritm pozuntuları duyulmurdu. İçindəki özündən razılıq hissləri gözlərinin oynaşmasından bəlliydi. Üzünə baxan olsa, əhvalını əməlli-başlıca duyacaqdı. Heç şübhəsiz ki, bütün bunlar bu gün əlinin gətirməsinin — udduğu pulların və bir də xalasının evinə sahib olmağa ümidin sayəsindəydi... General əvvəlki gəlişlərindən fərqli olaraq, bu dəfə sağ əlinin orta barmağını qatlayıb qapını döydü. Gələnin başqa adam olduğunu düşünüb evdəkilər yerbəyerdən qışqırdılar: gəl, buyur, qapı açıqdı... General içəri keçəndə Əlləşlə Mətiş şaqqıltıyla uğundular. Handan-hana ayağa qalxıb hərəsi atalarının bir qıçını qucaqladılar. Uşaqlar anladılar ki, ataları düd deyincə vurub, halı özündə deyil. Yerlə-göylə əlləşir... Onlar ağıllarına da gətirdilər ki, atalarını hallandıran heç də onların düşündükləri kimi araq deyil, tamam başqa şeydi.

Ərinin vəziyyəti Gülçöhrəni əvvəl-əvvəl təəccübləndirmədi. Onun gözlənilməz hərəkətlərinə cavab olaraq o da nömrə işlətdi. Qalxıb ərini qucaqladı. Neçə illər üzünə həsrət qalıbmış kimi kişinin üz-gözündən öpdü. “Mənim generalım”, “Mənim əlahəzrətim”, “Mənim ağıllı ərim...”. “Bugünkü mədəniyyət səndə hardandı?”, “Sən ki, belə döördün?”... Uşaqlar atalarının qıçını buraxıb ata və anasına məəttəl-məəttəl baxırdılar. Arvad ərini çəkə-çəkə gətirib özünün cehizlik divanında əyləşdirdi. Sonra yenə sözünə davam elədi:

— Mənim generalım, gözümə birtəhər dəyirsən. Olmaya sənə gözün üstə qaşın var deyən olub? Varsa, de, canın üçün gedib şalvarını çıxardaram.

— Yox, bu gün bir balaca...

— Yaxşı, mən səni vurmağa göndərmişdim, yoxsa, xalan Əsmayənin ərinin hüzrünə?

— Hüzrə də getdim, hələ meyidi yumağa da.

— Necə yəni yumağa? Axı o, səhər tezdən yuyulub. Onda sənə general rutbəsi verirdilər, əyninə mundir geyindirirdilər.

— Elə yumaq demirəm.

— Bəs necə yumaq?

— Biz onun cismini yox, ruhunu yuduq. Qoy bu dünyadan rahat getsin. Cənnətməkan olsun.

— Xalan sən deyənləri eşitsə...

— Hə... Neyləyəcək? O, hələ sevinsin ki... Yoxsa, qulağımı kəsəcək? O qədər özünün...

— Uşaqlardan ayıbdı, artıq-əskik danışma.

— Mən nə dedim ki?

— Keç o biri otağa, çarpayını açım, uzan, dincəl. Özünə gəl, sabah danışarıq...

— Yox...

General əlini cibinə salıb udduğu pulları dəstəylə çıxartdı. İki yerə bölüb yarısını saymadan arvadına verdi:

— Sabah uşaqlara bir şey alarsan. Özün də geyin, gedək.

— Hara?

— Xalamgilə.

— Gecdi... Keçən axşam da xalan yatmayıb, kişinin yanını kəsdirib.

— Nə gecdi?

— Nə sözümüz var, gündüz demişik də.

— Yox... Budəfəki tamam alahı sözdü.

— Başa düşmədim.





— Bilirsən ki, kişi ölüb. Arvad təkdi. Özü də qocalıb, əldən düşüb. Ayağı yer tutmur. Gördün gecələrin birində, elə gündüz də ola bilər, şırt, arvad əldən getdi.

— Getsin də. Xalan yaşda meşədə ağac da qalmayıb.

— Onda evi kimə qalacaq?

— Mənim generalım, deyəsən, başın xarab olub.

— Hə... Gözlərim aydın... İndi də gəl başa sal... Başı xarab olanın lap atasına lənət. Mən deyənlər sənə sonra çatacaq. Arvad ki, arvad. Qandırınca canım çıxır. Zeynəb qarı necə deyirdi?

— Nəyi?

— “Ovu bərədə vurarlar”..., “Saçı ölünün üstə kəsərlər”... Hansını deyim? Ov qaçıb canını qurtarandan sonra dalınca nə qədər şappıldadırsan, şappıldat. Xeyri olacaq?

— Yox, a tövbə!...

— Atana rəhmət.

— Mənim dədəm sappasağdı, ölməyib, general. İstəsə, arvad da ala bilər.

— Neynəyər?... Ağ eləmə... Əşi, o da Allah qoysa, tezliklə öləcək. Dədənin də ruhunu Nuruşunkı kimi söz verirəm, yuyacam.

— Özünü yığışdır, axşam-axşam qanımı qaraltma, general... Öz aramızdı, hərdən yolunu azırsan ha... Elə bil, o mələyən Xasay döörsən...

— Yox... Əzizim, dədənin ruhunu yumasam, ömrü boyu balalarımın üzünə baxanmaram. Dünyadan xəcalətli köçərəm. Dədən də mənə onu bağışlamaz.

Ərinin səfehlədiyini görən Gülçöhrə dərinə getmək istəmədi. Bilirdi ki, çox dərinə getsə, axırda dava düşəcək. Qırğın, söyüş başlanacaq. Qonşular tökülüşüb gələcəklər. Uşaqlar da ürək-göbəklərini yeyəcəklər. Səhər qonşular əllərinə ağ yaylıq alıb onları aləmlə bir eləyəcəklər... Salamatı uzatmamaqdı. Gül-

çöhrə əlacsız qalıb ərindən soruşdu:

— Yaxşı, gedək, xalana nə deyək?

— Deyəcəyik, yığış gəl, bizdə qal. Tək-tənha bu yaşda, bir evdə tək qalmaq, sənə çətin olar.

— Sonra.

— Sonrası da budu ki, evi keçirtsin bizim uşaqlardan birinin adına. Öləndə də onu biz yerdən götürək.

— Mən qəbul eləməsəm, onda necə?

— Şadlığından, Gülçöhrə, şitlik eləmə.

— Hə... Belə dee... Zeynəb qarı belənçikdə deyirdi ki, yoğurmadım yapmadım, hazırca kökə tapdım... Özgənin soxası mənim balalarıma gərək deyil. Özünə alırsan, bu başqa məsələ...

— Satıb pulunu xərcləyəcəm. Belə kirayəyə verəcəm. Bizi bədbəxtlik basıb. Birimizin dediyi, o birimizin boğazından keçmir. Allah verəni qəbul eləmirik. Qorxuram Allaha acıq gedə, əlimizdəkin də ala... Dincəlib oturaq yerimizdə...

— Dayın elə qurddu ki, bəyəm ona imkan verər?

— Verməz, baxar işinə. O, Qarakişinin bir qolun da qatlayanmaz.

— Aa... Başın doğrudan xarab olub, general.

— Olar da. Bu zırhazıra, nırhanıra baş dözər?.. Ancaq ağzından çıxmasın.

— Nə?

— Dayımı aradan bir göz qırpımında götürəcəm.

— Nəylə?

— Tapançayla.

— Səndə elə şey hardandı? Yəqin rütbəylə, mundirlə, katibəylə birlikdə onu da sənə veriblər?.. Səndəki başqa şey üçündü, adam atmaq üçün deyil, general. Bu yaşda çaşıb özünü aldatma...

— Bəs neyləyək? O boyda şeyi əldən verək?

— Hərarətin qalxmayıb ki?





— Yox... Qalx, gedək, qalanına orda baxarıq.

— Ay bədbəxt... Bizi biabır eləmə. Orda nəyə baxacaqsan? Hələ kişini bu gün torpağa tapşırıblar. Bu fitvanı sənə kim verib?

— Qarakişiylə Balakişi. Ağakişi də uğur dilədi. İşə düzəliş verə bilsək, uçmağa qanadın olmayacaq.

Gülçöhrə gülümsünüb başını yellədi. Üzünü uşaqlara tutub dedi:

— Dədənizin halına ağlayan lazımdı.

Mətiş dərhal cavab verdi:

— Sən dura-dura kim ağlamalıdı ki? Qonşumuz Əhməd dayı öləndə arvadı Gulbuta ağlayıb üz-gözünü cırırdı.

General:

— O sizlik döör... Ananız nə xeyrini qanır, nə də şərini.

Sonra da üzünü arvadına tutdu:

— Durduqca əsəbiləşirəm... Məni dəli eləmə, Gülçöhrə... Gedək, arvadı evə dəvət eləyək. İtirdiyimiz nədi? Tutar qatıq, tutmaz süd.

— General, vallah, suya düşüb çıxmış pişik kimi hər ikimiz suyu süzülə-süzülə qayıdacıq. Eşidib-bilən bizə tüpürəcək, ağlına nə batdı, eləyirsən, fikirləşmirsən ki, bu işi eləmək olar, ya olmaz. Tələsmə, imkan ver, bir az fikirləşək. Bəlkə arvad özü bizə deyəcək sən deyənləri.

— Eh... Çətin... Dayım ölməyib... Sən nə qoyub, nə axtarırsan. Bu işdə bizim birinci düşmənimiz dayım, ikincisi xalamdı... Sən deyən olsa, canın üçün çim yağ olar. Ancaq onların nəfsi Murtuzəlinin qılıncından itidi. Nəyə olsa, ağızları sulanır.

— Ay mənim generalım, axı xalan barədə düz demirsən. Onun dünya malında gözü yoxdu. İstəsək, öz evini də verər bizə. Özü gedib kirayə ev tutar. Qaldı dayına, onu deyənmərəm... Sən də ki, bir adamla çəpləşmə. Ya ondan şübhələnmə. Bunlar oldusa ha, dərhal o adamlara düşmən kimi baxırsan. Yeri gələndə lap mənə də...

— Aaz, sənə niyə? Sən yazığın nəyi var mənimdi də.
— Bu dilləri hardan öyrənmisən?
— Hardan öyrənəcəm. Bilmirsən, huquq işçiləri hazırcavab olurlar? Ha... ha... ha...
— Bir gecəyə bu qədər dil? Gəl görə anadangəlmə general olaydın. Səninlə danışmaq olmazdı ki.
— Anadangəlmə general olmur. Dil sonradan qazanılır. Qurban olduğum, hərəyə bir şey verir. Dülgərə ağac kəsib yonmağı. Kərpic kəsənə palçıq qatmağı. Çəkənə papiros, anaşa. Alkaşa şərab. Arvadbaza o söz. Hüquq işçilərinə də dil. Yenə deyim?
Gülçöhrə ucadan qəhqəhə çəkdi:
— Sağ ol səni, Xasay müəllim.
"Xasay müəllim" sözünü eşitcək kişi əsəbiləşdi:
— Ay evin tikilsin, o biədəb sözü işlətmə.
— Nə biədəb söz? Mən nə dedim ki?
— Daha nə deməlisən? Ömrüm boyu özümün də, atamın da, babamın da adlarının xəcalətini çəkmişəm. Bunlar azmış kimi, gül kimi oğluma da atamın adını qoymuşam. Uşağın adını təcili dəyişməliyik. Gələcəyini bilmək olmaz... Üstəlik, mənə "müəllim" adını zıplayırsan. Qurtar o sözü. Bilmirsən, onu eşidəndə allergiyam tutar?
Arvad ərinə istehza ilə dedi:
— Yaxşı, demərəm... Generalın balası general olacaq. Ondan başqa nə gözləyirsən? Serjant olmayacaq ki.
— Mən də elə düşünnəm. Zeynəb qarı deyərdi: "Söhbət dananı qurda verər". Nə qədər ki, xalam yatmayıb, özümüzü yetirək ona. İtə, qurda imkan verməyək. İndi çoxunun gözləri bizdədi. Bəxtəvərlik oxuyurlar bizə. Biz də qəribə adamlarıq. Özümüzdə cəsarət tapanmırıq. Gedib vağamlamış bir arvada sözümüzü deyənmirik. Ayə, belə də ağzı xəmir kəsməzlik olar?.. Vallah, cəsarətsizliyimizi hiss eləyəndə, əl-ayağım yerdən üzülür. Gəl görə bizə diplomatik iş tapşıralar... Onda özümüzü batıraraq ki.





— Ayə, ay evi tikilmiş, vallah, ağlım bir şey kəsmir. Qorxuram, xalan vurub ağzımızın üstünə bizi geri qaytara. Danışdığımızın da xəcalətini çəkək.
— Əşi, biz sözümüzü deyirik. Eşidər lap yaxşı, yox, eşitməz cəhənnəmə ki. Bizdən gedən nədi? Bizimki boş dopudu, vururuq dopunun böyrünə. Bizimkindən heç nə dağılmayacaq, uzaq başı xalamın dolu dopusundan bizimkinə töküləcək.
— General, sənə avam deyənin atasına lənət. Ayə, neçə ildi bir yastığa baş qoyuruq, səni tanımamışam... İndi-indi...

* *
*

Əlacsız qalan Gülçöhrə tələm-tələsik geyinib-keçinib, başına da qara Şəki kalağayısı örtüb ərinin yanına düşdü. Birbaşa Əsmayəgilə gəldilər. Evlər qohum-əqrəbayla doluydu. Arvadlar bir otaqda, kişilər o birisində. Gülçöhrə arvadlar əyləşən otağa, Xasaysa kişilər olana keçdi. Kişi salam verib əyləşmişdi ki, mollabaşı dedi:
— Ay Xasay, deyirlər, gecə sənə nəsə veriblər. O düzdü, ya yalan? Qəribə zəmanəyə yetişmişik. Elə söz-söhbətlər qurub-düzüb ortaya çıxarırlar, adamın əl-ayağı yerdən qaçır. Bilmir inansın, ya inanmasın. Sən de görək, balam, sənə verdikləri nədi? O, nə olan şeydi?
Qonşu Məmmədkazım dərhal dilləndi:
— Heç zad. General.
— Ayə, necə heç zad? Bəyəm general balaca şeydi?
Qutdanquş Sücəddin astadan soruşdu:
— O da falçılıqdı?
Məmmədkazım:
— Ayə, nə falçılıq? Falçılar qələt eləyirlər. Kişiyə əməllicə-

başlıca ad veriblər. Bizim fəxrimizdi. Bərkə düşəndə qaçarıq yanına. Qoy mərdimazar adamların gözlərinə şiş batsın.

Dəymədüşər Mövsüm sözə qoşuldu:

— Onu mələklər verib, yoxsa, şeytan?

Bu söz Xasayı tutdu, ona cavab vermək istəyirdi ki, mollabaşı dilləndi:

— Yaxşısını özü bilər. İmkan verin, danışsın. Görək nə veriblər, necə veriblər. Onda bizə məlum olar kim verdiyi.

Xasay qamətini düzəltdi. Sinəsini bir balaca irəli verib sonra ədəb-ərkanla nəql eləməyə başladı:

— Kim verdiyini bilmirəm. Əvvəlcə məni bir böyütdülər. Böyük izzət və ehtiramla kabinetimi təşkil eləyib, məni orda əyləşdirdilər. Sonra başa düşdüm ki, bura hansısa nazirliyin təchizat şöbəsidi. Təsəvvür eləyirsiz, kabinet. Təmtəraqlı mebellər. Yumşaq kreslo. Yadımda döör, bir neçə ağ, qırmızı, qara, deyəsən, yaşıl da telefon vardı. Bir nəfər də cavan katibə... Zalım qızı elə bil dilotu yemişdi. Televizoru açdı. Kanalları dəyişdi. Hansı kanalıydi deyənmərəm. General rütbəsinin mənə verildiyini diktor qız oxudu. Zənglər çalındı. Təbrik təbrik üstündən. Xahişə gələnlər nə qədər?! İndi də oturub gözləyirəm, görək nə olacaq?... Nə olar, olar. Allaha təvəkkül.

Dəymədüşər Mövsüm:

— Bu, şeytan əməlidi, Xasay. Özünə, balalarına yazığın gəlsin. Burda danışdıqlarını başqa yerdə demə. Zeynəb qarı demişkən: ”Bir daş altdan, bir daş üstdən”.

Mollabaşı:

— Bu barədə kimsəyə demisən?

— Yox, bircə arvadım Gülçöhrəyə. O da qonşu Xavərə sızdırıb. Onlar da bütün şəhərə car çəkiblər. Məncə, şəhərdə xəbərdən hali olmayan adam yoxdu. Bu boyda şeyi arvada deməyə bilməzdim. Arvad gec-tez bilməliydi.

Qurtdanquş Sücəddin xeyli düşündü. Dərindən ah çəkib dedi:





— Deməli, general rütbəsi almısan. Mundirini də geyinmisən. Sənə general demək olar. Çox yaxşı. Bizim uşaqlar da sənə baxıb general nə olduğunu anlarlar. Onlar indiyədək şirə, pələngə, ayıya, canavara necə baxırdılarsa, generalı da elə təsəvvür eləyirdilər.

Xasay qurtdanquş Sücəddinin nəyə işarə elədiyini heç cürə anlayanmadı. İstədi desin, generalla sən sadaladıqlarının nə əlaqəsi? Mollabaşı onun səsini kəsib fatihə oxudu. Sonra da dedi:

— Gecə-gecədən keçir. Nə lazımdı mərhuma elədik. O dünyasını vermək Allahın ixtiyarındadı. İnkir-minkirlər əməllərini mizan-tərəzidən keçirəcəklər. Cəmaət, xatırladım ki, oranın mizanı buranınkından döör. Zərrəbinlə ölçüb-biçəcəklər. Yadda saxlayın o, zərrəbinlər də Allahındı. Orda fırıldaq, dost-tanışlıq, hətta, ilahiləşdirdiyimiz rüşvət də keçmir. Keçsəydi, Nuruş kişi ağıllı adamıydı. Yerin altını da bilirdi, üstünü də. Özüylə bir şey aparardı. Gördüz, aparmadı. Ancaq canını götürüb getdi.

Mollabaşı üzünü generala çevirib istehza ilə bildirdi:

— General, dünyanın işi belədi. İstər general ol, istərsə də generalissimus. O dünyada haqq-hesabını çəkəcəklər. Sən də heç nə eləyənməyəcəksən. Zeynəb qarı demişkən: “Açıb sandığı, tökəcəksən pambığı”. Oranın öz şahidləri var. Burda şahidi özgələrdən tutursan. Özü də pulla. Orda elə şey yoxdu, general. Əzalarının hər biri danışır, sənə şahidlik eləyir. Özü də pulsuz-filansız, hünərin var boynuna alma. Təsəvvür elə, kösöy yanlarındadı.

* *
*

Məclisdə heç vaxt səsi eşidilməyən, hamını axıra qədər oturub dinləyən, hərdənbir gülümsünən və deyilənlərin hamısına şərik çıxan doğanaq Pirvəli axır ki, özünü saxlayanmayıb təşviş və qorxu içərisində mollabaşıdan soruşdu:

— O nəmənə şeydi?

— Bir ucu yanmış pazdı. Polislərin dubinkasına oxşayır. Elə ki, yalan danışdın, o söz...

— Necə yəni o söz?

— Onu evinə gedəndə cənab generaldan soruşub öyrənərsən... Biz oturub söhbət eləyirik, mələklər ona da nəzarət eləyirlər, bala. Dünya sahibindən xali deyil. Hər gələn bir mıx çalıb gedə. Qandın? Eşitdiklərindən heç nə anlamayan doğanaq Pirvəli özündən asılı olmayaraq cavab verdi:

— Bəli... Bəli...

— Sən qandınsa, inanıram, hamı qanacaq... Belə-belə işlər, general. Üləmaların buyurduğuna görə, kim bu dünyada haqsız paz oynadırsa, əvəzini o da orda alacaq. Xoşbəxt o adamdı ki, bu dünyada nə alacağı var, nə də verəcəyi. Necədi, ağlına batır? Batsa da, batmasa da, Zeynəb qarı deyərdi: "Ehtiyatlı igidin anası ağlamaz". Ya o dünya olsun, ya da bu dünya. İbrətli sözlərdi.

Bu sözləri deyib mollabaşı ayağa qalxdı. Adamlar da bayaqdan bunu gözləyirmiş kimi yerlərindən dik durdular. General hamını qapıdan yola salıb Əsmayə olan otağa gəldi. Ağır faciəyə düçar olmuş kimi stul çəkib xalasının yanında əyləşdi. Dərindən köksünü ötürdü. Sonra qəm, kədər içərisindəki arvadının üzünə baxdı. Özünü gülmək tuta biləcəyindən ehtiyatlanan Gülçöhrə üzünü yanaşı əyləşdiyi Narınc qarıya tutaraq soruşdu:

— Gəlinlə necə dolanırsan, yaxşı baxırmı sənə?

Narınc qarının son vaxtlar qulağı da yaxşı eşitmirdi:

— Hay...

Gülçöhrə bir qədər ucadan xəbər aldı:

— Deyirəm, gəlinlə aran necədi?

— Hə... Necə olacaq? Belə də... Dolanırıq. Sənin ərin varmı, a bala?

— Var.

— Şükür Allahın böyüklüyünə. Məndən balacaların hamısının əri var. Mənimkini keçən il Əzrail apardı. O da mənə bir əri çox gördü. Axşamlar başımı yastığa atanmıram. Rəhmətlik gəlib durur gözlərimin qabağında. Rahatlıq vermir ki. İş ki, belə gedir, yəqin məni də çəkəcək yanına. Deyirəm, a zalım oğlu, getmisən, get rahat ol da. Məndən niyə əl çəkmirsən? Kimə deyirsən, sabah axşam yenə gəlir. Bu gecə də gələcək.... He... He... He...

Əlini Gülçöhrənin dizinə vurub sözünə ara verdi. Sonra dedi:

— Cavanlıqdan sırtıqıydı... Sinəsindən vurub itələyirdim o tərəfə, hırıldaya-hırıldaya gəlirdi üstümə. Yəqin sizinkilər də elə olar...

Otaqda özünü gülməkdən saxlayan Anaxanım qəflətən qəhqəhə çəkdi. Qalan arvadlar da ona qoşuldular. Gülməkdən özlərini saxlayanmayacaqlarını düşünən arvadlar yavaş-yavaş otağı tərk elədilər. Axırda evdə Əsmayə, bir də ər-arvad —Xasayla Gülçöhrə qaldılar. Əsmayə cavanlıqdan ayıqıydı. O, Xasayın gəlişindən şübhələnmişdi. Bilirdi ki, bacısı oğlu bu gecə nə üçün axıra qalıb. Əsmayə sağ çiyni üstə dönüb Xasaya qəsdən baxdı:

— Səndən it iyi gəlir, ay Xasay. Bu zəhrimarı yenə harda tökmüsən qarnına? Bu günü dözənməzdinmi? Dur, rədd ol, o yanda otur. Ədəbsizliyini gərək hər yerdə göstərəsən?

Uğursuz başlanğıc Xasayın ürəyincə olmadı. Bunu Gülçöhrə da hiss elədi. O, əsəbi halda ərinin üzünə baxdı. Nə deyəcəyini bilmədi. İstədi barmağını dodaqlarına aparıb yavaşca Xasaya "sus" işarəsini versin. Əsmayənin duya biləcəyini düşünüb, o işarədən də vaz keçdi. Əsmayə sözünə davam elədi:

— Nəş qaldırılanda səni gördüm. O, anda Balakişi qulağının ardından səni hara dəvət elədi?

— Heç hara?

— Bəs hara getdin?

Xalasının hər şeyi bildiyini anlayan Xasay etiraf eləməyə məcbur oldu:

— Agentura deyəsən, hələ səndə güclü işləyir. Rəhmətlik ərin də beləydi. Öyrəncəliydi sirr toplamağa. Ona görə də dayım da onun adını "sirr dağarcığı" qoymuşdu.

— Dayınla işin olmasın, özün də mətləbə gəl.

Xasay söz uydurmalı oldu.

— Allahdan gizlin olmayan, səndən nə gizlin, ay xala. Kişinin öləcəyini hardan bileydim? Axşamdan bir az vurmuşdum. Paxmeliydim. Gördüm, başım hərlənir. Qorxdum, camaat bir şey başa düşər. Biabır olarıq. Ona görə də bir az geri çəkildim. Gedib başını düzəltdim.

— Axşam general rütbəsini də sənə piyan-piyan verdilər?

— Mənim orda günahım yoxdu ki? Məsuliyyət verənlərə düşür... Narahat olma, xala, əvəzin çıxacam.

— Necə?..

— Söz verirəm, üçündə, yeddisində, adnalarında, qırxında, lap lazım gəlsə, ilində rəhmətliyin qəbrini yalayacam. O, bizim böyüyümüziydi.

— İçib-vurandan sonra.

— Qurban olum, ay xala, içib-vurmasan, rəhmətliyin qəbrinə Əzrailin əlindən yaxın getmək olarmı?

Xasay kövrəldi. Şalvar cibindən böyük bir əski parçası çıxarıb guya gözlərinin yaşını silə-silə hönkürdü... Əsmayə başını yelləyə-yelləyə dedi:

— Anan rəhmətlik yaxşı arvadıydı. İnsafən, dədən də pis adam döördü. Elə adamlardan sənin kimi qor-qoduq? Ay qırışmal, nə vaxt adam olacaqsan?

— Mənə nə olub, ay xala, de, nə səhvim var düzəldim, dünya qopmayıb ki? Kimin səhvi yoxdu?...

— Ax... ax... İtirmisən yurd-yuvanı. Olmusan avara. Nə cibində pulun var, nə də düz-əməlli işin.

Xasay əlini cibinə salıb qumardan qalan pulu xalasına göstərdi:

— Avaranın cibində bu qədər pul olar? Mən o zamankı Xasay





döörəm, xala. Mənə general deyərlər. Bilirsən, niyə gəlmişəm?

— Yox...

— İstəyirəm, səni aparam evimə. Tək-tənha adamsan. Evdə tək qalanda divarlar elə bil adamın üstünə gəlir. Ye, iç, yat bizdə. Gülçöhrə də, uşaqlar da qulluq eləsinlər sənə. Gözümün qabağında olasan, mən də nigaran qalmaram.

— Sonra?

— Evini verək kirayəyə, ya da qapısını bağla.

— Sonra?

— Qalanını özün bilərsən.

— Evi niyə kirayəyə verirəm? Mən kirayədən gələn qəpikquruşa qalmışam? Qapını bağlayıb, işığını niyə söndürüm, a general. Gəl verim sənə. Ol içində. Özüm də gedim qocalar evinə.

— Yox, yox. Mən onu qeyrətimə sığışdıranmaram. O kişilikdən döör. Mən sənin evinə sahib olam, sən də qocalar evinə köçəsən? Yox, xala, elə demə, ürəyim pis olur. Bəyəm, mən ölmüşəm? Ya şikəstəm? Eşidib-bilən cəmdəyimə tüpürər. — Generalın xalası qocalar evindədi — desələr, mən nə günə düşərəm? Yaxud qəzetdə yazsalar, televizorda göstərsələr. Bir də axı mən özgə döörəm. Əziz bacının oğluyam. Oğlun əvəziyəm.

— Yox, oğul, bizimki tutan sevda döör. Qoca qarıyam, mənə rahatlıq lazımdı. Azdan-çoxdan təqaüd alıram. Evim var. Dövlətimiz də sağ olsun. Qaz, su, işıq pulundan da azadam. Mənə nə lazımdı? Heç nə. Ağrımayan başıma sarımsaq qatma. Hər kəs öz evində olsa yaxşıdı.

— Xala, tək qadınsan, sənə girişə bilərlər. Bu yaşda...

— Neyləyə bilərlər? Ha... Ha... Ha... Oyunun olsun, ədə, mən özüm adamlara girişirəm. Böyrümdən bisimillah deyib keçirlər.

— Fikirləş, xala, bu söhbətə yenə qayıdarıq. Sən kim, mən kim?

— Mənasız şeydi...

Ər-arvad naümid halda bir-birilərinin üzlərinə baxdılar. Əsmayəylə xudahafizləşib kor-peşman evlərinə qayıtdılar.

*    *
*

Gecədən xeyli keçmişdi. Bir çox evlərin işıqları söndürüldüyündən pəncərələr də qaralmışdı. General əsəbi halda divanda oturub başını qolları arasına almışdı. Birdən nə oldusa, barmaqlarıyla saçlarını yolmağa başladı. Ərinin bu vəziyyətinə dözməyən Gülçöhrə dedi:

— Ay başına xeyir, sən özünü infarkt eləyəcəksən. Bəyəm, xoruz olmasa, sabah açılmır? Xalanın evi olmasa, biz dolanmayacağıq?

— Yox, Gülçöhrə, mənə ev təsir eləmir, çırtım-çırtım yandıran onun məni ələ salmasıdı.

— Qoy getsin o tərəfə, sənin uşaqlarına tapılmayan ev olsun.

— Biz manevr eləməliyik.

— O nəmənə şeydi?

— Yəni hiylə işlətməliyik. Daha həvəsləndirici və şirnikləndirici yol seçməliyik. Dədənin məsələsini qaldırmalıyıq. Sənin dədənin arvadı, mənim xalamın əri ölüb. Hər ikisi duldu. Kişinin canı da suludu. Maşallah, küçədə də kir-kir kişnəyir.

— Hə... Nə olsun?

— Onları görüşdürək... Dədənin yeganə balasısan, hər nəyi var sənindi. Xalamın kəbinini dədənə kəsdirsək, deməli, əmlakı sənindi. Sabah mən olmaya da bilərəm. Heç olmasa, uşaqlar əli boş qalmazlar.

— Ayə, şər deməsən, xeyir gəlməz. Zeynəb qarı demişkən: "Xəta baş verəndə quymaq diş sındırar". Tutaq ki, aldıq-verdik, kəbin də kəsdirdik. Birdən ağzıma daşlar, arvad bu kişini də öldürdü. İncimə məndən, xalan qaramatdı. Xalan dədəmin evinə





də sahib duracaq. Onda da gəl döy başına, döy dizinə.

— Məni dəli eləmə, Gülçöhrə.

— Bu çox böyük risqdi, general.

— Cəhənnəmə, təki dədəni razı salaq. Bir müddət birlikdə yaşasınlar, günlərin birində xalamın ağzına balınc basmaq mənim boynuma. Onsuz da gec-tez ölməlidi.

— Yox... O cinayətdi. Səni tutarlar. Aç qulağını eşit. Mən ərə öyrəşmiş qadınam. Yanımda olmasan... Həm də sənə yetim saxlamayacam. Aç qulağını eşit.

— Bəs mən it oğlu neyləyim? Başıma haranın daşın salım? Bu imansızın yaşamasından nə olar? Kimə xeyir verəcək? Əşi, bu ölkənin də əcəb qanunları var. Bir qoca qarıya görə mən boyda generalı yelləyəcəklər içəri? Gədə-güdə də gəlib mənə hökm eləyəcək? Sən dədənin ağzını ara, görək nə deyir? Bəlkə özləri razı olacaqlar?

Gülçöhrə xeyli fikirləşdi. Öz-özünə dedi: — Atam anamdan sonra arvad almaq istəyəcəkmi? Mən ona necə deyim ki, ay ata, gəl arvad al. Anamın ruhu inciməzmi? Vaxt gəlib mən də rəhmətliyin yanına köçəndə o, mənə deməz ki, ay ifritə, ərinin sözüylə dünya malından ötrü zavallı kişiylə mənim də başıma nə oyun açdın? Mənim ruhumu incitdin. Yaxşı, onda mən anama necə cavab verəcəm? O, məni — Qızım, — deyə özünə yaxın buraxacaqmı? Belə də şey olar? Fani dünyada can deyib-can eşitdiyim anam ölüb, — deyə ona xəyanətmi eləyim? Tutalım üzləşmədik, bunu Allah götürərmi?...

Gülçöhrə suallarının sayını uzatdıqca, sualların təhər-töhrünü dəyişdikcə, cəmi-cümlətani altı ay əvvəl ölən anası Zübeydə gözləri önündə canlanırdı. Canlandıqca da xəcalət təri insafən onu bürüyürdü. O, özlüyündə qərarlaşdırdı ki, generalına: — Mən elə qələt eləyənmərəm, — deyə cavab versin. Elə bu anda oğlu Əlləş içəri girdi, anasının boynunu qucaqlayıb mənim qəşəng anam, — dedi və üz-gözündən öpdü. Sonra da: — Nə oldu

— deyə soruşdu. Uşağına gələcəkdə yurd-yuva qurmaq istəyi deyəsən, ata-ananın abır-həya, ismət pərdəsini yavaş-yavaş yırtırdı. Gülçöhrə bir anlığa çaşıb qaldı: övlad və valideyn. Qadın iki yol ayrıcında qalmışdı, hansına üstünlük verəcəyini bilmirdi. Fikirləşdi ki, getdikcə tamam başın itirir. Gah övladlarının, gah da valideynlərinin üzərində dayandı. Təsəvvürünə övladlarını gətirəndə atasıyla anası bir kənara çəkilib mağmın-mağmın ona baxırdılar. Yox, valideynlərini canlandıranda övladları küsüb ondan üz döndərirdilər. Generalının təzyiqi də bir tərəfdən. Gülçöhrəyə elə gəlirdi ki, bu iş yoluna qoyulmasa, xasiyyətinə yaxşı bələd olduğu general dözməyəcək, geci-tezi var, ya infarkt olacaq, ya da əsəbdən ağız-burnu əyiləcək.

Onlara nə var ki, bəlkə müalicə eləmək mümkün oldu. Adam çox fikirləşəndə başına qara-qura şeylər axışır. Hamısı da adamda vahimə yaradır. İndi Gülçöhrə də belə bir çıxılmaz vəziyyətə düşmüşdü. Vaxtıyla ata-anasının tək qızı olduğundan o, heç vaxt çətinlik qarşısında qalmamışdı. Çox nadir hallarda çətinliyə düşəndə də anasının yanına qaçar, məsləhəti ondan alardı. İndi iş elə gətirmişdi ki, məsləhət almağa, ürəyini açmağa etibar elədiyi adamı da qalmamışdı. Ümidi təkcə generalınaydı. Onun da istəyi aydınıydı. O da fikrindən dönənə oxşamırdı. Dönsəydi də xeyri yoxıydı. Ərinin özgənin əmlakına olan hərisliyi vur-tut bir günün ərzində ona da sirayət eləmişdi. Ancaq o da ayaq geri qoyanmırdı... Axır ki, Gülçöhrə övladlarına üstünlük verdi. Yatıb-yatmadığını öyrənmək məqsədiylə dəstəyi götürüb atası Nihada zəng çaldı. Telefonda xeyli gözlədi. Axır ki, telefon cavab verdi. Hal-əhvaldan sonra dedi:

— Əşi, səninlə vacib işim var.

Kişi fikirləşdi ki, yəqin nəsə başlarında iş var, yoxsa, qızı gecənin bu vaxtında zəng çalıb onun yuxusunu pozmazdı. Kişi narahat olmağa başladı. Əlacsız qalıb qızından soruşdu:

— Elə vacibdimi?





— Sənə deyiləsi vacib sözümüz var. Qorxuruq sonra gec olar. İstəyirik generalla yanına gələk.

General sözünü eşitcək kişinin hövsələsi lap daraldı. Öz-özünə dedi:

— A başına dönüm, bunlar hara, general hara? Görəsən, Xasayın əlindən xəta-zadmı çıxıb? Təsadüfən adammı öldürüb, əə, bu? Yox, Xasayda elə kişilik hardadı? Görünür, arağa, çaxıra pulu olmayıb oğurluq eləyib. Kiminsə evinə girib. Başqa nə ola bilər axı? Qəribədi, general belə kiçik işlərə niyə girişir ki? O, özünü niyə bu qədər kiçiltsin? Bir-iki polis göndərərdi, ya sahə müvəkkilinə tapşırardı, iş qurtarıb gedərdi... Təqaüddən bir az kəfən pulu yığmışam. Yəqin bu zırhazır onunkudı. General gəlirsə, deməli, bu çırtı-pırtı iş döör...

Qoyduğu suallara heç cürə cavab tapanmadığından dedi:

— Gəlin, gözləyirəm.

Gülçöhrəylə Xasay uşaqlara: — Bizi gözləməyin, babanızla söhbətimiz var, uzun çəkəcək, sizsə tezdən qalxıb dərsə getməlisiz, — deyib evdən çıxdılar. Çox çəkmədi ki, Gülçöhrə atası Nihadın evinin zəngini basdı. Qapı açılanda o, atasını halsız və əsəbi gördü. Başa düşdü ki, gecənin bu vaxtındakı zəng atasında böyük nigarançılıq yaradıb, çox güman ki, şəkəri də öz tağımından çıxıb. İndi ona ciddi sakitlik lazımdı. Gülçöhrə onu da fikirləşdi ki, təklifi onun olan-qalan halını da pozacaq, ya əhvalını qaldıracaq. Yaxud gəlişlərinin səbəbini açmasalar, kişi lap əsəbiləşəcək, gecəni yatmayacaq. Əl-həzər. Kişi qabaqda, qızla kürəkən də onun ardınca yan otağa keçdilər. Hərəsi bir stulda oturdu.

Nihad soruşdu:

— A qızım, general hanı? O, it oğlunun adını çəkdin, halım qarışdı. İnanın, dəli kimi oldum.

Gülçöhrə böyük iftixar hissiylə cavab verdi:

— Əşi, dəli niyə olursan? Dəli olsun səni istəməyənlər. Rəh-

mətliyin oğlu, axşam kürəkəninə general rütbəsi veriblər, xəbərin yoxdu?

Nihad istehza ilə dedi:

— Demisiz biləm?

— Bütün şəhər, ay ata, bundan danışır.

Xasay oturduğu yerdə bir balaca qurcalandı. Sonra oxlov udmuş kimi qamətini düzəltdi. Usdufca boğazını arıtladı. Nihad gözaltı kürəkənini süzdü:

— General hara, Xasay hara? Mən biləni Xasay o sahədə işləməyib. Heç hüquq təhsili də yoxdu.

Gülçöhrə çaşdı, nə deyəcəyini bilmədi:

— Nə bilim, ay ata, axşam yuxuda veriblər.

Nihad qəhqəhə çəkdi:

— Hə, yuxuda olar... Çox böyük etimaddı.

Kişi başını yellədi. Sonra da Xasayın gözünün içinə mağmın-mağmın baxdı:

— Özünüzü biabır eləməyin. Uşaqların gələcəyi var, onları tay-tuşları içərisində utandırmayın... Bu, Xasayın təzə nömrəsidi?.. Başqa sözünüz varmı?

Qızla kürəkən qızarsalar da, o barədə söhbəti uzatmadılar. Gülzar birbaşa mətləbə keçdi:

— Ata, bilirsən, səni niyə narahat elədik?

— Yox... Hardan bilim, a qızım?

— Ata, hər gün ürəyimin yağı əriyir. Anam dünyasını dəyişəndən sənin nə qədər əziyyət çəkdiyini, üzə vurmasan da, bilirəm. Qalmısan pis gündə. Vaxtlı-vaxtında baxanın da yox. Başım uşaqlara qarışır... Xasay da narahatdı. Utanıram, xəcalət çəkirəm...

Kişi diqqətlə qızıyla kürəkəninin üzünə baxdı. Xasay ondan gözlərini yayındırdı. Nihad dərhal düşündü ki, nəsə bu Xasayın oyunudu. Görək axırı nəylə qurtaracaq?

— Qızım, mən səndən razıyam. Balalarına yaxşı bax. Onları





sağlam böyüdə bilsən, böyük şeydi. Elə bilərəm, mənə də qulluq eləyirsən.

— Yox, ata, indi anamın da ruhu narahatdı. Qışda soyuğa, yayda istiyə dözənmirsən... Paltar yu, ütülə, yemək-içmək hazırla. Evi sil, süpür. Bu yaşda bunlar sənə lazımdımı?

— Əlbəttə, lazım döör. Mən də istəməzdim. Allah özü belə məsləhət bildi. Neyləyə bilərdik?

— Əlacsız şey yoxdu. Belə olmaz.

— Bəs neyləyək?

— Generalla danışmışıq. İstəyirik, səni əzabdan qurtaraq.

Kişi təəccüblə soruşdu:

— Necə?

— Sənə arvad alaq. Nə çox əri ölmüş dul qadın.

Kişi özünü itirdi. Gözlərinin lap dərinliyində ümidsizlik yarandı. Fikir onu apardı. Sonra özünə gəlib gülümsündü və titrək səslə dedi:

— Mənə toy eləmək istəyirsiz?

— Toy yox. Kəbin kəsdirək. Gecənin birində yüngülvari qazan asıb, adamımızı gətirək evimizə.

— Bəs ananın ruhu?

Xasay fürsəti fövtə vermədi:

— İnanıram, onun da ruhu xoşhal olar.

Nihad:

— Namizədiniz varmı?

Xasay Gülçöhrənin üzünə baxdı. Qadın ərini dərhal başa düşdü:

— Xasayın xalası... Hallıca-dulluca. Ərini bu gün basdırdıq torpağa.

— Yox əşi, Allah o dünyasın versin.

Kişi üzünü kürəkəninə tutdu:

— Özü də razıdı?

Xasay:

— Yox, deməmişik. Əsas sizsiz. Siz razı olsaz, onu da yola gətirərik.

Nihad:

— A ha... Deməli, belə. Tez qaçdız yanıma ki, arvad kiməsə ərə gedə bilər. Əldən çıxar, hə...

Xasay:

— Bəli! Bəli!

— Qorxmayın, getməz. Gedin şəhərin ən bahalı şadlıq evlərindən birinə sifariş verin. Mütləq toyda zurna da çalınmalıdı. Düdüyü də yaddan çıxarmayın.

— Düdük toylarda çalınmır.

— Yox, mən düdük istəyirəm.

— Xərci böyük olacaq, Nihad dayı.

— Ayə, ay Xasay! Mən arvad alıram ey, keçi yox. Ayə, gecənin bu vaxtı atıla-atıla gəlmisiz. Bəyəm biz uşağıq? Bizim də adımız var, sanımız var. Mən cehiz almasam, o qapının kandarına ayaq basmaram. Siz nə bilmisiz? Yəqin azdan-çoxdan xalanın da əmlakı var. Olmasın əmlakımızdan kiçik bir hissə. Uzaq başı onun evini satıb mənimkinə yığışarıq. Yaxud da, mənimkini satıb onunkuna. Qorxmayın, toyun xərcini özümüz çəkərik.

Ər-arvad bir-birilərinin üzünə baxdılar. Xasay udqundu.

Gülçöhrə:

— Ata, o böyüklüyə şeyə ehtiyac yoxdu.

Nihad axır ki, dözməyib partladı:

— Ayə, məni arıya qoymusuz? Əlinizə-qolunuza dolamısız? Ayə, niyə qoymursuz yatdığım yerdə öləm? Mənim arvad alam vaxtımdı? Ay Xasay, vallah-billah mən də sənin xalan kimiyəm. Düzdü, mən onu şəxsən tanımıram. Ağlına bələd döörəm. Xalan ər istəyir, özü bilər. Apar, kimə xatirin istəyir, ver. Ay qızım, Xasay dedi-dedi, bəs sən utanmırsan? Səndən puldan, çörəkdən, paltardan umacağım var? Bunu eşidənlər bizə necə baxarlar?

Gülçöhrə:





— Əşi, qələt eləyərlər. Hərə özüyçün yaşayır. İki gündən bir xəstələnirsən. Sənin altını-üstünü təmizləyən lazımdı.

— Üz üzümə, göz gözümə mənə niyə böhtan atırsan?

— Ay ata, sənə qurban olum, batırmamısan, ancaq geci-tezi var, batıracaqsan. Gərək biz batıracağın günü gözləyək deyirsən? Ola bilməz ki, üzüsulu, elə bəri başdan öz işimizi görək? Zeynəb qarı yaxşı deyib: “Ehtiyat igidin yaraşığıdı”.

— Zeynəb qarı sözü mənimçün deməyib. Mənə heç kəs lazım deyil, Xasay. Mən sənə ata əvəziyəm. Az xidmət də eləməmişəm. İndi səndən nə istəyirəm? Yadda saxlayın ki, nə qədər ölü olsam, özüm-özümü təmin eləyəcəm. Sizə ehtiyacım olmayacaq. İkincisi də, siz deyənləri nəvələrim eşitsə...

— Xasay, xalan ağıllıdı, ya dəlidi, ər istəyir, ya istəmir, özünüzə qismət. İnanmıram, o siz deyənləri eşitsə, abrınızı almaya.

Gülçöhrə:

— Əşi, sabah yıxılıb ölsən, xəbərimiz olmayacaq. Bütün aləm qınayar bizi. Kimə inandıra bilərik ki, biz dedik, özü evlənmədi.

— Narahat olmayın. Qonşular mənimlə çox yaxşı əlaqə saxlayırlar. Mənzil istismar idarəsiylə də danışmışam. Başıma bir iş gəlsə, özləri təhrin qılacaqlar. Bərk ayaqda evi satıb pulunu da qoyacam cibimə, köçəcəm qocalar evinə. Nə qədər ömrüm qalıb ki? Evin pulu ayağımdan girib, başımdan çıxacaq.

Xasay üzünü arvadına tutaraq əsəbiləşdi:

— Bu nə danışır, az? Görünür, atanın hərarəti qalxıb. Hərarət ölçən bir şey varmı evdə?

— Əziyyət çəkməyin. Mənə böyük xeyirxahlıq elədiz. Üzünüz ağ olsun. Qızım, heç vaxt gecənin yarısında elədiyin xidməti unutmaram. İndi durun gedin. Mən yatıb dincəlmək istəyirəm.

Nihad üzünü Xasaya tutaraq gülümsündü:

— General, məndən bir şey çıxmayacaq, get xalanı kimə istəyirsən ötür.

Xasay:

— Xalqın mentalitetidi. Əri ölən arvad ərə gedər, arvadı ölən kişi arvad alar. Adətən bunu da qohum-əqrəba təşkil elər. Bu, savab işdi. Özün bilərsən. Biz gedirik. Fikirləş, əgər biz deyən başına batsa, qızına zəng çalarsan. Nihad kişi, sənə çox böyük hörmətim var. Olmasaydı, qızını bircə gün də saxlamazdım. Gətirib atardım üstünə.

Gülçöhrə:

— Qızışma, Xasay. Səni o evə buraxmaram. Qoyaram küçədə. Onda ağlın başına gələr. Bilərsən, mən kiməm, sən kimsən?

Xasay qorxdu. Səhvini o andaca başa düşdü, tez də qayıdıb arvadına göz vurdu. Əslində bu göz vurmanı barışıq aktı da adlandırmaq olardı. O, sonra sözünə davam elədi:

— Qaldı mənim xalama, ona çox atırsan ha. Hələ mən ölməmişəm. Mənim xalam Nuruşun arvadı olub. Kişi onu yağ içində böyrək kimi saxlayıb. Doğrudu, bir az yaşlıdı. Maşallah, ayağa duranda əsməyən yeri qalmır. Çim yağdı. Üz-gözü də parpar parıldayır. Müştərisi də başının üstündə. Fikirləşdim, əldən çıxası, itə-qurda veriləsi şey döör mənim xalam. Qoy sənə qismət olsun... Sən də özünü qaldırıb qoydun dağın başına.

— Gedin, gedin.... Zeynəb qarı demişkən, itin dalınca düşən zibilliyə rast gələr.

* *
*

İstəklərinə nail olanmayan Gülçöhrəylə Xasay acıqlı-acıqlı Nihadın evindən çıxdılar. Yol boyu donquldandılar. Gəlib evə çatanda Əlləş onları qapı ağzında qarşıladı:

— Hə... Nə oldu, ata?

Əsəbi Xasay tez uşağın ağzından vurdu:

— Dərd olub, çor olub atanın ürəyinə. Hara əl atıram zibil çıxır, oğlum. Qanmaz baban da bir nitq irad elədi, gəl görəsən. Guya biz onun qədər bilmirik. Pa... pa... Evi satıb qocalar evinə gedəcək. Sən öl getdin, ha... Anadan əmdiyini burnundan tökərəm. Gör, mən nə fikirləşirəm, o, nə düşünür. Zeynəb qarı demişkən, bir ayağı burda, o birisi gorda kaftarın.

Axır ki, Gülçöhrə dözmədi:

— Xasay, sən öl durub ayağından asaram. Mənə Nihadın qızı deyərlər, az çərənlə. Bu iş dava-dalaşsız düzəlmir. Üstündə işləmək lazımdı.

— İşləsək, düzələr?..

— Neyləyəcək? Atamın üzünə baxmayacam. Telefon açmayacam. Ürəyi yumşalacaq. Peşmanlayacaq. Bələdəm xasiyyətinə... Ailəcanlıdı. Məni də, uşaqları da çox istəyir. Qocalığı Allah kəssin, adamı elə vağamladır, gəl görəsən.

Əlləş:

— Atam da qocalanda vağamlayacaq?

Gülçöhrə:

— Lap it gününə düşəcək.

— Ay can! Ay can!..

Xasay:

— Kəs səsini qanacaqsız.

Gülçöhrə:

— Uşaqla işin olmasın. Yüz helə ev Əlləşə qurban. Ancaq biz səhv elədik. Bəhanə eləyib gərək əvvəlcədən onları görüşdürəydik.

— Hüzrdə?

— Hə, nə olacaq? Xalan lap cavanlıqdan həşəyridi.

— Həşəyri nədi?

— Yəni gözü tində-bucaqda qalan. Axtaran.

— Ola bilməz.

— Xasay, mənə yox da. Qadın qadını yaxşı tanıyır. Atamı görən kimi göz-qaşla xalan kişini bişirəcəkdi. Heç bizə ehtiyac

qalmayacaqdı.

— Eybi yoxdu. Biz atana ideya verdik. Qaldı xalama, gərək arvada, söz arası ucundan-qulağından sən ona çatdırasan. Lazım gəlsə, görüşdürərik. Əzizim, ancaq düz gəlməsə, batdıq, Gülçöhrə.

— Zeynəb qarı deyib: "Gecənin xeyrindən sabahın şəri yaxşıdı". İndi yataq, sabahdan ağıllı başla məşğul olarıq.

* *
*

Axşamdan kefsiz halda yatağına girən, gecə uzunu yatmayıb o üzü-bu üzü üstə vurnuxan generalın dümsükləməsindən səksəkə içərisində gözlərini açan Gülçöhrə çaşdığından əl-üzünə su vurmadan bir-iki loxma kəsib özünü Əsmayəgilə çatdırdı. Qapının zəngini basdı. Evdən səs çıxmadı. Ürəyinə yüz cür fikir gəldi: — Bəlkə yatıb, gecə keçinib? Vay! Vay! Beləsə, Xasay dözməyəcək, infarkt olacaq. Allah amandı, hıçqırağımız içimizdə qalacaq... Əşi, yox... Nə olsa, ürəyimə gəlir... Qəribə adamam. Yaxşını qoyub pisi fikirləşirəm. Tək-tənha qadındı, bəlkə axşam biz dağılışandan sonra bacısı, ya qardaşıgilə gedib? Bəlkə əvvəlcədən sövdələşdiyi adam varmış, qoşulub ona qaçıb? Haranı gözləməliydi ki? Eh, kül dədəmin başına, yaşamağı bacarmır. Qarnı quymaq götürmür. Ona deyən lazımdı, gəmi kimi arvadın nəyindən imtina eləyirsən? Əsmayədən yaxşısını tapacaqsan?.. Ölmək istəyirsən, get Mazandarana. Bəlkə kişinin ayrı dərdi var, mən bilmirəm?

Fikirləşdikcə Gülçöhrənin qəlbi sıxılırdı. O, başına özgə fikir gətirə bilmirdi. Geriyə bir-iki addım atıb pilləkənləri düşmək istəyirdi ki, üzbəüz qonşunun qapısı açıldı. Orta yaşlı, qarabəniz, dolu bədənli, ucaboy bir qadın əlində zənbil otaqdan çıxdı... Gülçöhrədən: — Əsmayə xanımgilə gəlmisiz? — deyə soruşdu.





Gülçöhrə dərhal: — Bayaqdan qapının zəngini basıram, səs-səmir eşidilmir, — deyə cavab verdi.

Qadın:

— Səhər ara verəndə o, ərinin qəbri üstünə getdi.

— Nə? Dəli olub nədi? Bu tezdənliyə?

— Ərinin qəbrini ziyarətə gedən, bəyəm, dəli olur, xanım?

— Vaxtı var da.

— Bu gün cümədi. Tezdən getdi ki, ziyarət eləsin. Tez də evə qayıtsın. Bir azdan adamlar tökülüşüb gələcəklər, baş qarışacaq, məssəb itəcək. Çox şey yaddan çıxacaq...

Nəsə fikirləşən Gülçöhrə yavaş-yavaş sözünə düzəliş verməyə başladı:

— Deyəsən, xanım, biz bir-birimizi başa düşmədik. Mən üzümə su vurmadan tezdən gəldim ki, Əsmayə xalam qəbiristanlığa tək getməsin. Mən də onunla gedim. Bilirsiz də, qəbiristanlıq ağır məkandı. Orda adam tək olanda vahimə doğurur. Qorxuram, arvadın başına bir iş gələ. General məni evdə boğazımdan asa.

Gülçöhrə "general" sözünü qəsdən işlətdi. Qadın dərhal soruşdu:

— General nəyinizdi?

Gülçöhrə saymazyana cavab verdi:

— Ərim. Xasiyyəti tünddü. Tapşırdıqlarını vaxtında, yüksək səviyyədə yerinə yetirməsən, üzünü görmə, hövsələdən çıxacaq, səni tır-pır eləyəcək.

— Məni niyə?

— Əşi, söz üstən dedim də. Allah eləməmiş, arvadı döörsən ki.

— Aa... Evdə kişi eşidər...

— Eh... Kişiyə bax...

Gülçöhrə üzünü yana çevirmək istəyəndə arvad soruşdu:

— Tır-pır nədi, bacı?

— Qulağın öyrəşmədiyi sözlər... Məni cəzalandıracaq.

Qadın təəccübləndi:

— Deynən, iraq üzdən, eşşəyim var da. Nə olsun generaldı.

Söz Gülçöhrəni tutdu. Arvad onun yaxşıca cavabını vermək istəyirdi ki, Əsmayənin tövşüyə-tövşüyə, nəfəsi təngişə-təngişə pilləkənləri qalxdığını gördü. O, qonşu qadınla olan söhbətini xırp kəsdi. Tez iki pilləkən düşüb Əsmayəni qucaqladı. Üz-gözündən öpüb dedi:

— Ay xala, sənə qurban olum, nə yaman əziyyət çəkirsən? Məni gözləsəydin, birlikdə gedərdik. Özün bilmirsən, qəbiristanlıq nədi? Çox adam öz ayağıyla gedir, ancaq geri qayıtmır. Allah düşmənimi də ora qismət eləməsin.

— Qəbiristanlığa qismət olmayaq, bəs hara gedək? Cəsədimizi, deyirsən, it-qurd eşsin? Canavar parçalasın, ya ayı söküb dağıtsın, aləmlə bir eləsin? Mikrobumuz şəhəri ağzına götürsün?

Gülçöhrə səhv elədiyini anladı. Fikirləşdi, necə danışsın ki, Əsmayəyə xoş getsin. Söhbətin alınmadığını görüb susdu. Əsmayə qabaqda, Gülçöhrə onun arxasınca pilləkənləri qalxıb evə keçdilər. Vanna otağında növbəylə yuyunub qurulandılar. Əsmayə qəsdən Gülçöhrəyə söz atdı:

— Serjant neyləyir?

— Serjant yox, general.

— Hə, çaşdım, axşam kimsə nəsə qırıldatdı. Mən serjant başa düşdüm. Orda işi xod gedər.

— Görək də, Əsmayə xala, qaçan da Allahın adını çağırır, qovan da.

— Onu arağın əlindən ala bilsən, igid adamsan. Görmürsən, hüzrdə içir? Nuruş o qədər ona əziyyət çəkib...

— İncimə, ay xala, mənim anamın hüzründə o qədər içmişdi ki, üç gün ayılmadı. Dədəm də ondan incidi. Neyləsin, əlacsız qalıb barışmalı oldu, yazıq kişi...

— Ey... Bala, danışma Xasaydan.





— İtdi-qurddu, yenə sizin kiçiyinizdi də, ay xala. Gərək güzəştə gedəsiz... Vallah o qədər də pis adam döör. Ancaq sizi çox istəyir. Rəhmətlik atasına çəkib. Qohumcanlıdı. Bircə pis işi var, o da içməyi.

— Bilirəm öz anasının hüzründə də içmişdi. Görmürsən, utanmaz-utanmaz axşam da gəlib deyir ki, gəl bizə. Bağ belə, bostan helə. Əşi, dağar-dağar danışırsan, səndə kişilik qalıb ki? Səndən xala saxlayan olar?

Gülçöhrə söhbətin yaxşı səmtə yan almadığını düşünüb Əsmayənin əhvalını yüngülləşdirməyə cəhd elədi:

— Xala, bacın oğludu. Pisi də, yaxşısı da sənindi. Zeynəb qarı demişkən, burun murdar olmaqla kəsib atmazlar ki. Hərə bir tərəfdən üstünə düşüb tərbiyə eləməlidi.

Əsmayəni gülmək tutdu:

— Xı... Xı... Xı... Onun düzəlməsi getdi İsrafilin "zü" çalanına.

— O nə vaxt olacaq?

— Allah bilir...

Qadınların söhbəti heç cürə tutmurdu. Gülçöhrə əlacsız qalıb söhbətin səmtini dədəsinin üstünə döndərməli oldu:

— Atamın da dərdi götürüb bizi. Anam dünyasını dəyişəndən kişi qalıb odla-suyun arasında. İstəyirik, onu baş-göz eləyək. Nə qədər özü bişirib, özü yeyəcək? Tumanını özü yuyacaq? Biz də kömək eləyənmirik. Uşaqlar da balaca. Bişirib-düşürüb verirəm uşaqlara, aparırlar babalarına. Canım da qalır uşaqların yanında. Fikirləşirəm, bir gün onları maşın vuracaq. Ya da oğurlayacaqlar. Bilirsən də, adam "ovçuları"nın sayı son vaxtlar nə qədər artıb?

Əsmayə istehza ilə:

— Qorxma, heç zad olmaz. Oğrular da elə-belə döör. Bilirlər ki, general uşaqlarıdı.

— Bir namuslu-qeyrətli dul qadın axtarırıq.

Əsmayə söz əhliydi. Dərhal Gülçöhrənin nə demək istədiyini duydu. Qəsdən onu qurdaladı:

— Atanın neçə yaşı var?

— Səksən iki. Yaşının çox olmasına baxma. Canı suludu.

— Adı nədi?

— Nihad.

— Hə... Özü yatıb-dura bilirmi?

—Nə danışırsız? Üzünə baxsanız, altmış yaş ancaq verərsiz. Sox qıvraqdı.

— Aa ha... Evi-zadı varmı?

— Var. Üç otaqlı. Mətbəxi balkona keçirib ayrıca onu da otaq elədik. Oldu dörd. Maşallah, meydan kimi.

— İşi, təhsili necə?

— Xeyli müddət universitetdə ərəb dilindən dərs deyib. Ali təhsillidi. İkinci Dünya Müharibəsində iştirak eləyib. Çoxlu tərifnamələri, medalları var. Əmək veteranıdı. Təqaüdlə dolanır. Hər il Qələbə Günü çağırırlar gedir Moskvaya. Bu il cənab Putin bir konvert də verdi ona. Açdıq, içindən pul çıxdı. Onu da payladı şikəstlərə.

— Sənin atan əsl mənim malımdı ki.

Gülçöhrə Əsmaynin ironiyasını anlamadı.

— Nə danışırsan, Əsmayə xala, sənə qurban olum. Mən həmişə Allaha yalvarmışam, kaş mənim anam Əsmayə olaydı. Deyəsən, qurban olduğum da sözümü eşitdi.

Əsmayə özünü naza qoyurmuş kimi apardı:

— Axtarın, ola bilməz ki, bu boyda şəhərdə atanıza bab bir arvad tapmayasız. Küçə-baca doludu arvadla. Hansı tinə getsən, var.

— Var ey. Çoxunu kişi sevmir.

Söhbətin bu yerində qapı döyüldü. Gülçöhrə könülsüz halda gedib qapını açdı. Gələnlər Xasayın kiçik xalası Nərgizlə dayısı Nicatıydı. Onlar Gülçöhrəni evdə görcək hər ikisi razılığını bildirdi. Sonra da stul çəkib əyləşdilər. Nərgiz bacısından soruşdu:





— Yamanca yorğun görünürsən. Yenə yatmamısan?

— Yatmışam. Rəhmətlik yuxuma girmişdi. Gördüm kişi gəlib evə. Girəcəyin qabağındaca bir boz it qamarladı kişini. Mən çatınca rəhmətlik yaxşıca əzişdirdi onu.

Qardaş bacısının atdığı oxun kimə tuşlandığını və nəyi hədəf götürdüyünü bilmədi.

Nicat:

— Yuxu boş şeydi, bacı. Yorğun-arğın, fikirli yatmısan. Ruhu narahat olub rəhmətliyin. Dözməyib, gəlib də. Ağır itkilərdən sonra elə yuxular tez-tez olur.

Gülçöhrə Əsmayənin sözündəki mənanı indi tutdu. Ancaq özünü o yerə qoymayıb dedi:

— Səhər durub qaçıb kişinin qəbri üstünə. Bu, sənə lazımdımı? Öldü, getdi. Apardın basdırdın. Yaşlı adamıydı, gec-tez getməliydi. Sənə əziyyət vermədi. Kimin əri ölmür ki? Necəsin mən tanıyıram. Ərinin qırxı çıxmağa aman vermədi. Birini tapdı, getdi ərə. Bəlkə yalan deyirəm? Ölənlə ölmək olar?

İçin-için doğranan Əsmayə üzünü Nicata tutdu:

— Ay qardaş, nədən xəbəriniz var? İçim doğranır. Mən kefdəyəm. Xasayla Gülçöhrə mənə elçiliyə gəliblər. Məni ərə getməyə hazırlayırlar.

Nərgiz güldü:

— Kimə?

Əsmayə üzünü Gülçöhrəyə tutaraq soruşdu:

— Atanın adı nədi, aaz?

— Nihad.

Nicat:

— Mən tanıyıram o kişini. Ağıllı adamdı. And içərəm ki, bacı, onun bu elçilikdən xəbəri yoxdu. Gülçöhrəni də Xasay başdan çıxarıb. Neyləyək? Bacınız oğludu, nə başın kəsmək olar, nə də çölə atmaq. Allah onu bizə bəla verib. Ata-anasını

da onun dərdi çərlədib öldürdü... İndi də arsız-arsız düşüb elin canına. Deyir, yuxuda buna general adı veriblər. Qanmır ki, qanun keşikçilərinə o söz çatsa, fırıldaqçı, dələduz kimi cinayət işi açıb atacaqlar içəri. Balaları qalacaq biabır günə. Dərdimizə bax, indi də gəl ona bala saxla.

Nərgiz təmkinlə astadan dedi:

— Gülçöhrə, qızım, ərin sənin də başını xarab eləyib. Nə sənin atana arvad lazımdı, nə də mənim bacım Əsmayəyə ər. Gedin, uşaqlarınızla məşğul olun.

Nicat:

— Xasayın bir dərdi var. O da əmlakdı. Evin kimə qalmasıdı. Əsmayə evi heç kəsə verməyəcək. Qaytaracaq dövlətə. Kimin evə ehtiyacı varsa, dövlət də verər ona.

Əsmayə gözlənilmədən birbaşa sözünü dedi:

— Gülçöhrə, bir azdan özgə adamlar gələcəklər. Söhbətimiz yarımçıq qalacaq, qızım. Sən bura niyə gəlmisən, onu mən yaxşı bilirəm. Get, ərindi, nədi ona de, general itirdiyini xalasında axtarmasın. Baxmasın bacım oğludu, tutaram onun ağzını cıraram.

— Əsmayə xala...

— Nədi aaz? Dur, bas bayıra... Alçaqlar... Namərdlər... Əri özündən, özü ərindən betərdi.

— Gəldiyinə peşman olan Gülçöhrə qapıdan necə çıxdığını bilmədi. Qarşıdakı binanın tininə çatmışdı ki, generalla üzləşdi. Kişi arvadının üzünə baxdı. Arvadın yanaqları qıpqırmızı qızarmışdı. Boynunu-boğazını tər basmışdı. General: — Nə olub? — deyə xəbər aldı. Arvad əsəbi halda dedi:

— Xasay, tüpürdüm xalana da, dayına da, arvad alana da, ərə gedənə də, elə lap sənə də. Mən bu məsələdən qurtardım.

— Yaxşı-yaxşı, əzizim, özündən çıxma. Belə şey əsəb tələb eləyir. Zeynəb qarı demişkən: “Qapıdan çıxarılanda, gərək pəncərədən girməyi bacarasan”. Bunu bacarmadınsa, ələ-ayağa





düşməyin mənası yoxdu. Dayımın dəyyusluğuna mən yaxşı bələdəm. Nərgizi də yuyub yarpız üstə qoymaq səfehlikdi.

* *
*

İstəyinə heç cürə nail olanmayan general öz-özüylə xalası Əsmayənin, qayınatası Nihadın qarasına deyinə-deyinə küçə aşağı düşürdü. Ərzaq mağazasının qarşısına çatanda gözlənilmədən cavanlıq dostu Mehriylə qarşılaşdı. Onun otuz yaşı ancaq olardı. Uca boylu, dolu bədənli, yumru sifət, ağımsov bu qadının qara, cazibədar gözləri vardı. Yanaqlarına hiss olunacaq qırmızı rəng çəkmişdi. Gülümsünəndə qalın dodaqları arasından ağappaq sədəf kimi dişləri görünürdü. Ağ buxağı sallanırdı. Əyninə qara dar şalvar, ağ kofta geymişdi. Kofta sinəsini qabartmışdı. Boynuna taxdığı qızıl zəncir ətli döşlərinin arasındakı yarğandan üzüaşağı sallanıb gedirdi. O, generalı görcək gülümsədi, başını o tərəf-bu tərəfə yüngülcə yırğaladı, oğlansayağı təzəcə kəsilmiş qara saçlarını əliylə alnından gicgahına doğru daraqladı. Generalla salamlaşdı:

— Ədə, başın batmasın, harda ölmüsən, görünmürsən? Dünən də yuxuda gördüm səni general qayırıblar. İtin qudursun, ay Xasay.

— Ağ eləmə... Yəqin hardansa, eşitmisən?..

— O doğrudu?

— Hə...

— Səni təbrik eləyirəm. O hamıya qismət olan şey döör, Xasay. Yaxşı, belə hara?

Xasay üzündə bir ciddiyyət yaratdı. Mehrinin başı üstündən xeyli qabağa baxıb, sonra da adam axtarırmış kimi ətrafına göz gəzdirdi. Qolundakı köhnə saatına baxdı. Handan-hana yalandan cavab verdi:

— Bir nəfər gəlməliydi. Görünür, gecikir. Son vaxtlar şəhərdə o qədər maşın artıb, yola çıxmaq, vəd verdiyin adamla vaxtında görüşmək böyük problemə çevrilib.

Narahatmış kimi Xasay bir də saatına baxdı. Mehri bir balaca üz-gözünü turşutdu:

— O nə saatdı, əə, vurmusan? Aç ver bura, onu atacam maşınların təkərləri altına. Əzik-üzük elətdirəcəm. Soxum sənin arvadının boyunu yerə. Saxladığı kişiyə, vurduğu saata bax.

— Eh... Ağız, nə saat düşür yadıma, nə də özüm. Başımı itirib qalmışam iki qanmazın əlində. Başqa adam olsalar, mənə təsir eləməzlər. Biri doğmaca xalam, o birisi də uşaqların doğmaca babası.

— Hansı babaları?

— Qayınatamı deyirəm.

Mehri ağzını büzdü:

— Bu da özününkülər... Hamısı gözügötürməzlikdən, paxıllıqdandı, Xasay. Vecinə də alma. Özləri qabağında gəlib diz çökəcəklər. Sənə yalvaracaqlar. Odu ha, biri mənim özümünkülər. O qədər dedilər, o qədər daradılar, kişim dəli oldu. Dedi iti görüm, qurdu görüm, bu evdə başqa adam görməyim. Evimə kim gəlirdi? Atam, anam, qardaşlarım, rəfiqələrim, əmioğlanlarım, dayıoğlanlarım, hərdən bibim uşağı. Tək-tək hallarda da iş yoldaşlarım. Balam onlara deyə bilərdim ki, gəlməyin? İçim özümü yandırırdı, çölüm özgəni. Axırda əlacım kəsildi, gecənin yarısında təpiyi vurdum dalına. Çıxartdım qapıdan. Bir neçə dəfə də getdi-gəldi, qapı açmadım... Adımı nə qoysa yaxşıdı?

— Nə?

— Qəhbə.

— Lap elə belə, açıq. Bir az pərdəli də demədi?

— Yooxx...

— Oğraş, heç olmasa pozğun, lotu deyəydi də.

— Ona mədəniyyəti çatmadı. Nə isə....





— Hərənin bir dərdi var... Gedib gedib də. Cəhənnəmə getsin, qara yola... İndi-indi başım dincəlir. Pis odur ki, evdə təkəm. Darıxıram. Öyrəşmişdim ona. İtdi-qurddu, hər nədi. Başım qatılırdı. Darıxmırdım.

Xasay güman elədi ki, Mehri ərinin evdən getməsinə peşman olub. Onu deməkdə məqsədi əriylə barışdırılmasına kömək istəyir. Əslində Mehri ona hazırda ərsiz olduğunu anlatmaq istəyirdi. Anlatdı da. Xasay gülümsündü:

— İstəyirsən, qadası, sizi barışdırım?

— Ayə, iti o yana elə. Gəlib təzədən hürüb başımı xarab eləyəcək. Yenə səs-küy qopacaq. Qonşular haray-qışqırığa tökülüşüb gələcək...

— Özün bil.

— Xasay, canın üçün çoxdandı vurmuram. Ürəyim turş çaxır istəyir. Evdə araq da var. Əla da səbzi hazırlamışam. Gedirəm mən evə. Həvəsin varsa, qapı açıqdı.

Araq, çaxır sözlərini eşidən və “gəl” təklifini alan Xasayın ürəyi atlandı. Tez soruşdu:

— Qonşular bir söz deməzlər?

— Nə deyəcəklər, əə. Hərəsi gündə yüz oyundan çıxır. Birinə gözün üstə qaşın var demirəm, onlar da mənə qəzəl oxuyalar.

— Yaxşı, bir saatdan sonra gələrəm. Qapını açıq qoy.

Mehri səadətini təzə əldə eləmiş gəlinlər kimi Xasaydan ayrılıb yolun o biri tayına keçdi. Sonra qayıdıb Xasaya sarı baxdı, gülümsündü, əlini yelləyib binaların arasından keçdi.

Xasay küçədə var-gəl elədi, dükanlara girib vaxtını öldürməyə çalışdı. Vədələşdikləri vaxtda Mehrinin qapısını açıb içəri girdi. Gözlərinə inanmadı. Son vaxtlar nə evində, nə də başqa yerdə belə süfrə açıldığını görmüşdü Xasay. Süfrədə araq, pivə, alma, armud, banan, kivi öz yerində. Soyuq salatlar da həmçinin. Stoldakılar on-on beş adamı yola verərdi. Heç kəs də yeyib-içməkdən narazı qalmazdı. Xasay özünü saxlayanmadı:

— Ay, sənə nə deyim? Bu qədər şeyi kim yeyəcək? Nə bədxərclikdi?

Mehri dərhal: — Sənin üçün hər şey olar, — dedi. — Neçə vaxtdı, ay Xasay, bir-birimizi axtarıb tapmırıq. Elə sənsizləmişdim ki, gəl görəsən. Qalmışdım neçə vaxtdı o yaramazın əlində. Burda oturma, qalx orda otur. O yana yox, bu yana bax. O kişi kimiydi?.. Canına and olsun bezmişdim. Allaha da qurban olum, adama istədiyini qismət eləmir. Vaxtında səhv elədim... Otur, başlayaq.

Xasay pencəyini çıxarıb oturacağı stulun arxasından asmaq istəyirdi ki, Mehri pencəyi alıb yan otağa apardı və tez də qayıtdı:

— Ay Xasay, gəl cavanlığımızı yada salaq. Lampanı söndürüb şam işığında oturaq. Yeyək, içək, ən yaxşı günlərimizi xatırlayaq.

Xasay üçün şam, ya lampa işığında oturub yeyib-içməyin o qədər də təfavütü yoxıydı. Ona bolluca yeyib-içmək lazımıydı. İnsafən, onu da durduğu yerdə Allah yetirmişdi. Gülümsünüb çiyinlərini çəkdi:

— Sənə necə xoşdu, elə də olsun. Mən bura sənin istəyinlə gəlmişəm. Özgə cür hərəkət eləmək, artıq-əskik danışmaq ixtiyarım yoxdu. Bir sözlə, gəlmişəm, ürəyin necə istəsə, elə də qulluğunda duracam. Buna əvvəlcədən tam əmin ola bilərsən.

Əslində Xasayın başqa yolu da yoxıydı. Oğru pişiklər kimi gəlib, işini görüb getməliydi. Mehri dediyi kimi də elədi. Şamları yandırıb şamdanlara qoydu və elektrik lampasını söndürdü. Səhər bişirdiyi səbzidən qızdırıb böyük boşqabda süfrəyə gətirdi. Özü də keçib Xasayla üzbəüz əyləşdi. Bir az yemişdilər ki, Xasay əlini araq şüşəsinə atdı. Qədəhləri doldurdu və astadan sözə başladı.:

— Mehri, sən çox romantiksən... Səni hər kişi anlaya bilməz. Dediklərindən görünür ki, sən yabı əlinə düşmüsənmiş.





— Yabı nədi?

— Atın axmağı. Özünə qamçı vurduranı. O, sənin kimi qadına nə qiymət verə bilərdi ki? Sən gözəlsən. Açıqgözlüsən. Müasirsən. Gəlib deyəcəm, seksualnısan...

— O, sən deyənləri qanmadı, Xasay.

— Arzu eləyirəm, gözəlliyin, təravətin həmişə belə olsun. Kimsəyə ehtiyaclı qalmayasan. Qaldıraq bu badələri sənin şərəfinə.

Qədəhlər cınqıldadı. Araqları içdilər.

— Xasay, sən bilirsən ki, mən neçə polis rəisiylə işləmişəm. Hamısıyla da hörmətlə. Can deyib, can eşitmişik. Onların sayəsində bu qanmaz ərimə iş düzəltmişəm. Onu xətir, hörmət sahibi eləmişəm... Mənə nə desə yaxşıdı: "Onların qabağında niyə elə əzilib büzülürsən?". İndi buna nə deyəsən?.. Qanmır ki, gərək, onların inamın qazanasan. İstəklərini bir dəfə göyərdənməyəndə, gərək bir dəfə göyərdəsən... Yeməyini ye, saxlama...

— Hara tələsirik, söhbətini elə, yeyərik də.

— Ağzım qızışanda bəzən diqqətim azalır. Bağışla, Xasay. Bayaq deyirdin, nəsə başını qatıb. Nədi ki o, bəlkə, mən çarə qıla bildim. Dost-tanışlar çoxdu. Aşağıda da, yuxarıda da.

— Xalam, tək dul arvaddı. Beş otağı var. Deyirəm, gəl səni qayınatam Nihada ərə verim. Onun da dörd otaqlı evi var. Birləşdirin. Mənim uşaqlarımı da ev qeydiyyatına aldırın. Fikirləşirəm ki, həprəm adamdılar, hansı ölsə, evlər itə-qurda qalmasın. Tərslik alıb canlarını. Deyirlər, yox ki, yox...

— Aa... Xasay, canın üçün evlərin ikisində nə az, nə çox, bir milyon ABŞ dolları yatır. İnflyasiya belə ki, gedir, altı aydan sonra hərəsinin bir milyon qiyməti olacaq. Yaxşı fikirləşmisən.

— Bəs mən neyləyim?

— Neyləyəcəksən? Biz vaxtıyla çox belə şeyin dalına keçmişik. Sabah mən yuxarıyla danışım. Yolunu öyrənim. Razılaşsalar, dayının da, xalanın da ad-familiyalarını, atalarının adlarını

mənə gətir. Öz şəklinizlə onların adlarına başbiletlər çıxartdıraq. Qalanı asandı, düzələr... Onların evlərinin orderini əldə eləyə bilsəydin, lap əla olardı?

Xasay çiyinlərini çəkib ağzını büzüşdürdü:

— Baxaq da.

— Baxaq eləmə. Zeynəb qarı demişkən: "Könlü balıq istəyən, dalını soyuq suya qoyar". Bunu əzizim, əldən buraxmaq olmaz. Doğrudu, bir az xərci var.

— Mənim xərc çəkməyə imkanım yoxdu.

— Borc elə. Hamı bir-birindən dolanır.

— Səncə, xərc nə qədər olar?

— Olsun on min dollar.

— Aa... Yox, onda batdı.

— Ağıllı ol. Kredit götür.

— Pul nə vaxta lazımdı?

— Tələsmə. Vaxtını öyrənib deyərəm.

— Borcu vaxtında qaytaranmasam, aləm qarışar.

— Elə eləmə də, Xasay, onda krediti saxla, borc götür, on mini də tək bir adamdan alma. Çox adamdan al. Hərəsindən min, iki min qopardın, bəsdi. Az məbləğdən ötrü kimdi sənə əl qaldırıb, özünü zibilə salan. Onlara da: — Gözləyin, verəcəm, — de. Qorxma, ata-at zəmanəsidi. Bir müddət adamların gözündən uzaq ol, gizlən.

Xasayı fikir götürdü. Handan-hana dedi:

— Tutaq ki, evi aldım. Bəs sonra.

— Verərsən xaricilərə kirayəyə, iki ayda qoyduğunu çıxaracaqsan.

— Xalamla qayınatam bilirsən nə həyasızdılar? Evləri onlardan xəbərsiz adıma keçirsəm, aləmi başlarına götürəcəklər. Saxta sənədlər əsasında aparılan alverin üstü açılar, bizi də tutub atarlar içəri.

— Onda heç açıb ağartma, qoy yaşasınlar evdə. Onlar ölən





kimi evlər qalar sənə. Hə... Buna nə deyirsən?

Başı dumanlanan Xasay qədəhləri araqla yenidən doldurdu. Sonra da çaxırdan adama bir stəkan süzdü. Mehri nəsə fikirləşdi və dedi:

— Xasay, sən yaxşı kişisən. Görünür, ev sənin qismətindədi. Yoxsa biz qarşılaşmazdıq. İndi də burda oturmazdıq. Onu əldə eləyə bilsən, təsəvvür elə dünyanın ən xoşbəxtlərindənsən. Gəl biz bunun üstündə bir neçə variantda işləyək. Birincisi, başbilet çıxarmalıyıq və nəyin bahasına olur-olsun orderi əldə eləməliyik... İkincisi, yeri gəlsə, onlara zəng çalıb təzyiq göstərməliyik.

— Təzyiq göstərən kimi məndən şübhələnəcəklər.

— Qorxma, xox eləyən kimi özlərini batıracaqlar... Yaxşı, gəl bu badələri də qaldıraq mənim əziz-xələfim, köhnə dostum Xasay Əlləş oğlu Mıxıyevin sağlığına.

Araqları içən kimi hər ikisi çaxırdan bir qurtum alıb qədəhləri süfrəyə qoydular. Xasay üçüncü dəfə araq süzdü. Mehri bu dəfə də söz deməli oldu:

— Xasay, bunu da içək sənin qələbənin sağlığına.

Onlar axıra qədər arağı da, çaxırı da içdilər. Mehri ayağa qalxıb maqnitofonun düyməsini basdı. Otağı oynaq küçə mahnısı bürüdü. Onlar oynamağa başladılar. Mahnı qurtaranda Mehri Xasayın qalstukundan tutub onu yan otağa apardı...

* *
*

Gecə yarı Xasay evinə gələndə Gülçöhrə hələ yatmamışdı. Arvad dedi:

— Xasay, yenə Ağakişi... Yenə Qarakişi... Yenə Balakişi...

— Hə... Buraxmadılar.

Xasayın başqa arvadın yatağından çıxdığı Gülçöhrənin ağlına da gəlmədi. Heç şübhəsiz ki, onu Xasay da deyənməzdi. Gül-

çöhrə başını yellədi:

— Zalım oğlu, məni azara salmısan.

— Nəyə?

— Ev azarına. Oturub-dururam, yadımdan çıxmır.

— Qorxma, əla bir adam tapmışam. O, özü çürüdəcək məsələni.

— Necə?

— Sonra deyərəm... Biz Əsmayəylə Nihadın evlərinin orderlərini çırpışdıra bilərikmi?

Əvvəl Gülçöhrə çiyinlərini çəkdi. Sonra dedi:

— Atamınkını hə... Xalanınkını bilmirəm.

— Bilmirəm yox, əldə eləməliyik. Bir də borc-xərc on min ABŞ dolları lazım olacaq.

— Booyy... Dollar çıxaranın evi dağılsın. Kimə gedib nə deyək?

— Atanda olmalıdı.

— Götürən kimi məndən şübhələnəcək.

— İkincisi də eh, çox üzağlığı eləyib... Qorxma, Əvvəla, o şikayət eləməyəcək. Danışıb-danışıb oturacaq yerində.

— Baxaram...

* *
*

On min ABŞ dolları tapanmayan Xasay əlacı kəsildiyindən arvadını Nihadgilə yola salıb, özü isə nagüman halda Ağakişinin kafesinə getdi. Ağakişiylə görüşdü. Qarakişiylə Balakişiyə telefon açıb onları da kafeyə dəvət elədi. Xasayın bu gün də qonaqlıq verəcəyini düşünən dostları çox çəkmədi ki, görüş yerinə gəldilər. Oturub dərdləşdilər. Xasay narazı halda dedi:

— Ayə, o nə ideyadı mənə vermisiz? Canınız üçün qarınağrısına düşmüşəm. İş düzəlməsə, ər-arvad çətin ki, bizdən adam





ola. Xalam durub quyruğu üstə. Deyir, vur öldür məni, nə sizin evə gedirəm, nə də Nihada ərə.

Qarakişi:

— Elə deyibsə, onun çarəsi başqa şeydi.

— Nə?

— Maska geyib üstünə hücum çəkmək... Bir sözlə, onu yaxşıca qorxutmaq. Zeynəb qarı deyərdi: “Hər dərdin bir dərmanı var. Özü də həddində”.

Balakişi:

— Nə qədər ki, Nicat var, Xasay, orda sənə yer yoxdu. Nəyə deyirsən and içim, Əsmayə sənin üzünə tüpürməyəcək də.

Qarakişi:

— Ola bilməz, tüpürər də, o yana keçər də.

Balakişi:

— Öldür məni, inanmıram. Tüpürməyəcək.

— Tüpürəcək...

Mübahisə qızışırdı ki, Ağakişi dedi:

— Ayə, bu kişi sizi çağırmadı ki, onun üzünə tüpürüləcəyini və ya tüpürülməyəcəyini müzakirə eləyəsiz. Bu kişiyə pul lazımdı. Əl tuta bilirsiz, tutanmırsız onu deyin, kişi də işini bilsin.

Qarakişi:

— Ağakişi, mənim vəziyyətimi bilirsən? Acından şalvar əynimdən düşür. Qarnıma bir tikə yemək alıb tıxıyanmıram.

Balakişi:

— Sən öləsən Xasay, mən də eləyəm. Arvadın əlindən gücbəlayla qaçmışam... Bir də ki ay Ağakişi, bizə kim borc verər? Bu boyda şəhərdə atmadığımız dükan-bazar, cibinə girmədiyimiz qonaq-qara qalıbmı? Qalıbsa, deyin, gedək əməliyyat aparaq. Biz də elə general qardaşımız kimi.

Xasay ağız-burnunu əyişdirdi. Elə bu anda əl telefonuna zəng gəldi. Arvadıydı. Xasay düyməni basıb könülsüz halda:

— Alo, alo, mənəm... Xasaydı. Ağıl kəsən bir şey varmı?

— Bir az təşkil eləmişəm...
— Nə qədər?
— Üç.
— Üç nə?
— Min...
— Nə danışırsan?
— O gün sənə verdiyim dururmu?
— Onunla beş.
— Beş nə?
— Min.
— Deməli beş çatmır. Xasay, məni pis günə qoyarsan ha... O, kişinin kəfən puludu. Birdən pul gedər. Bu yandan da kişinin başına bir iş gələr. Meyidi qalar küçədə.
— Təki elə olaydı.
— Xasay, zarafat eləmə, sən dədəmi tanımırsan. Bilsə pul yoxdu, pişiyimizi divara dırmaşdıracaq.
— Əşi, qorxma... Biz də elə pişik saxlamırıq... Elənçikdən çox görmüşük...
Xasay telefonu söndürdü. Dərin fikrə getdi. Handan-hana özünə gəlib üzünü yenidən dostlarına tutdu:
— Ayə, yekə kişisiz. Bu qədər çörək kəsmişik. Qazısalar qarnınızdan mənim çörəyim getməyəcək. Siz də bir hərəkətə gəlin. Adama min dollar verin. Görüm, qalan ikisini də hardan tapıram...
Dostlarından bir şey çıxmayacağını görən Xasay yalana əl atdı:
— Adə, məndə var ey. Yoxdu demirəm. Yaxın adam vardı. Borc istədi... Özü də böyük summa. Verdim ona, o da mənim bəxtimdən xaricdədi. Mal dalınca gedib. Bir aya gələcək... Borcdan zəhləm gedir.
Ağakişi istədi desin gop eləmə, heç vaxt səndə pul olmayıb, olmayacaq da. Olsaydı, keçən ildən qalan borcunu ödəyərdin.





Ancaq özünə toxtaqlıq verdi... Qarakişiylə Balakişi bir-birilərinin üzünə baxdılar. Bir müddət susdular. Qarakişi dedi:
— General, bəlkə qalan pulu da xalandan istəyəsən? Adam adama əl tutar da. Qiyamət qopmayıb ki? Dediyin yaxın adamın gələr, ondan alıb verərsən xalana. Qoca arvaddı. Ağlayıb-sıtqasan, ürəyi yumşalacaq. Sənə əl tutacaq. Öz pullarından özlərinə...
Ağakişi özünü saxlayanmayıb qəşş elədi:
— Bu nəyə bənzəyir? Yaxın adamına döyüşdə tapança verirsən, düşməndən özünü qorusun. O da tapançanı alıb sıxır sənin başına.
Balakişi:
— Əşi, dayan görək. Hırıldamaq sənin əlindədi. Bəlkə özündəki pulları aparıb verəsən, iş düzəldən adam kimdisə ona. Deyərsən, qalanını da möhlət ver gətirim.
Xasay:
— Yox... Onunla razılaşmayacaq. O da başqasına ötürəcək. Özü də təcili.
— O, sənə özü borc verənməz?
— Ayə, rüşvətin də borcu olur?
— Onda ehtiyatlı ol. Atar...
— Elə adam döör. Çoxdan tanıyıram.
Dostlarından borc pul əldə eləyənməyən Xasay kor-peşman ayağa qalxdı... Axşama qədər şəhərdə vurnuxdu. Evə qayıdanda dərdini qonşusu Siraca danışdı. O, generalın bir üzünə, bir də ayağına baxdı. Heç vaxt borc qaytaranmayacağını düşünüb üç min dolları verərək generalın iki otaqlı evini girov götürdü. Sevinə-sevinə on min dolları düzəldən Xasay axşam Mehrigilə gəldi. Yenə şamlı ziyafət. Yenə rus arağı. Yenə turş çaxır, yenə səbzi. Yanında da meyvələr. Yedilər, içdilər. Pulu alan Mehri elə oradaca ilkin əməliyyata başladı. Xasaydan xalasının telefon nömrəsini alıb yığdı. Çox çəkmədi ki, telefonda Əsmayənin səsi

eşidildi:

— Alo... Alo...

Mehri:

— Bağışlayın, Əsmayə xanımdı?

— Bəli, qızım, mənəm.

Mehri səsinə ara verdi. Sonra dedi:

— Mən sizə mühüm bir məlumat vermək istəyirəm.

Xasay qulağını dəstəyə dirədi. Xalasının dediklərini dəqiqliyiylə eşitməyə çalışdı. Telefonda səs gur çıxdığından o deyilənləri tam aydınlığıyla eşidirdi.

— Buyur.

— Xanım, eşitdiyimə görə xanım-xatın qadınsız. Ona görə də sizə telefon açdım.

— Əcəb eləmisiz.

— Sizə qarşı çox ciddi təxribat hazırlanıb. Bu yaxında bir qrup maskalı evinizə basqın eləyəcək. Çölə çıxmayın. Heç kəsə qapı da açmayın. Yaxşı olardı ki, müvəqqəti də olsa yerinizi dəyişəsiz...

— Kimdi danışan?

— Sizi ürəkdən istəyən naməlum şəxs. Gələcəkdə lazım olsa, özümü sizə təqdim eləyərəm.

— Çox sağ ol, qızım. Yaxşı məlumat verdin... Yoxsa, Xasayın əli boşa çıxacaqdı.

Mehri söhbəti uzatmadı. Dəstəyi yerinə qoydu. Öz adını eşidən Xasay başına-dizinə döyməyə başladı:

— Zibili çıxdı... Sən neylədin? O, başa düşdü ki, mən zəng çaldırıram. Polisə məlumat verməsə yaxşıdı.

— Əə, kişi ol. Arvad kimi ağlamaq sənə yaraşmır. Gəlsin, sübut eləsin.

— Hə... Bəs nədi? Mən elə şeylər görmüşəm, Xasay, desəm, ağlın başından çıxar. Tüklərin biz-biz olar... Mənə də Mehri deyərlər.





Yeyib-içib keflərini duruldan Xasay Mehrini bu dəfə yan otağa özü çəkdi. Bu nə ikinci, nə də sonuncu oldu. Xasay bu evə əməllicə-başlıca öyrəşdi. İstədiyi vaxt gəlib-gedə bilirdi.

* *
*

Hər axşam Mehri ilə yeyib-içən, kefindən qalmayan Xasay borc-xərc tapdıqlarını əldən çıxarandan cəmi-cümlətani on gün sonra aldandığını anladı. Verdiyini Mehridən ala biləcəyinə ümidi azaldı. Son vaxtlar hər gün Mehrigilə gedir, qapının qənşərindəcə oturub onu gözləyirdi. Gecə yarıdan keçəndən sonra evə gəlməyəcəyini düşünüb kor-peşman geri qayıdırdı. Getdikcə Mehrinin Xasaya verdiyi vaxt uzanır, həftələr aylara çevrilirdi. İndi Xasayın özgə çarəsi qalmamışdı. Ya Mehrini vurub öldürməliydi, ya da ondan hüquq-mühafizə orqanlarına şikayət eləməliydi. Mehrini öldürməyə kişiliyi çatmırdı. Bilirdi ki, elə həmin gecə onu da qatil kimi həbs eləyəcəklər. Hüquq-mühafizə orqanlarına şikayətə də cəsarəti çatmırdı. Fırıldaqçı hərəkətlərinə görə də cavab verməliydi. Müstəntiqi, kimi, kimi razı salmasa, onu yenə də qoduqluğa atacaqdılar. Bir sözlə, hər iki halda cinayətə qurşandığı üzə çıxacaqdı. Hələ bunlar azmış kimi Əsmayəyə telefon açmaq, hədə-qorxu gəlmək, Nihadın evindən pul oğurlanması məsələləri də ortaya çıxsa, gör nə həngamə baş verəcəkdi. Bütün bunları düşünən Xasay özünü məzəmmətləməyə başladı: — Mən ölmüş, mən qıçları qırılmış, başı batmış, dili lal olmuş gedib kimə nə deyim? Siraca necə cavab verim? Bir gün məni tutacaq, evimin içindəcə arvadımın, uşaqlarımın gözlərinin qabağındaca əzişdirəcək. Kişinin buna haqqı da var. Mənə deyən lazımdı, ay başı batmış, yerində ölə bilmirdin? Sənin əlindən maxinasiya gəlir? Utanıb yerə girmirsən?.. Beləcə özünü qınayırdı ki, yanında bir maşın dayandı. Mehri maşından

düşdü. Gülə-gülə dedi:

— Xasay, səni təbrik eləyirəm, işlər düzəlir. Ancaq üç də əlavə istəyirlər.

— Üç nə?

— Min.

— İstəmirəm, xanım, verdiyimi qaytar.

— Nə? Başın xarabdı. Əvvəla, sən mənə verdin, mən də başqasına. İkincisi, elə şey geri qayıtmır. Ölür... Qandın?..

Xasayın rəngi bozardı. Əl-ayağı əsməyə başladı:

— O qədər pulu?

— O nə puldu, əə? Axmaq, hər axşam gəlib yeyib-içib, işini görüb gedirdin. Bircə dəfə soruşurdun bu xərc hardandı? Hesablasaq, hələ mənə borclu çıxacaqsan.

— Məni qızışdırma, Mehri.

— Mənə hədə gəlirsən? Heç səni tanımıram. Get kimə nə deyirsən, de. Məsələlərin üstü açılsa, ay yazıq, canını da qoymağa yer tapanmayacaqsan.

— Sənə üç gün vaxt verirəm, Mehri.

— Neyləyəcəksən? Ayə, sənin kimilərin gündə neçəsini fırladıb bıraxıram. Sən öl, Xasaysan-masaysan, nəsən, səni elə itirərəm, izin-tozun da bilinməz. Heç kim ağzına alıb deyənməz ki, Xasay adında adam olub. Hə... Buna nə deyirsən? İstəyirsən, sənin üçün adekvat tədbir görüm? Hə, ya yox?

Xasay, deyəsən bir balaca çəkindi. Səsini aşağı endirdi. Bunu Mehri də duydu. Qadın bir az da qabağa çıxdı:

— Qonşular deyirlər, hər axşam gəlib qapını kəsdirirsən. Lotulara deyərəm, qarnını bıçaqla yortarlar. Canın üçün xəstəxanaya da çatdıranmazlar səni. Oralara az hərrən. Başqa sözün var?

— Mehri, atamın-anamın goruna and olsun, evi girov qoymuşam. Cəhənnəm arvadla mən. Balalarımın başın kəsmə.

— Yenə dilin çıxdı. Səni uşaqlarınla birlikdə götürdərəm aradan.





— Yaxşı, yarısın da olsa, ver.

— Vızqırt, Xasay...

— Onda səndən şikayət eləyəcəm. Öldürtdür məni. Onsuz da yaşayanmıram. Arvad-uşaq üzümə durur. Qohumlar it yerinə qoymur məni.

— Ay bədbəxt, kimdən kimə deyəcəksən? Mən onlarınam da. Onlarsız mən iş görə bilərəm?

— Adamın insafı-mürvəti olar, Mehri. Neçə illərdi dost olmuşuq. Can deyib, can eşitmişik. Sənin möhübün məndə, mənimki də səndə olub... Axı belə olmaz.

— Sənin hesabını artıqlamasıyla ödəmişəm. Bundan sonra nə sən məni tanıyırsan, nə də mən səni.

Elə bu vaxt xarici markalı bir maşın siqnal verib dayandı. Boynu yoğun, idmançıya bənzəyən uzun bir adam başını pəncərədən çıxarıb dedi:

— Az, onunla nə çənəyə vermisən, kimdi o?

— Heç, qadan alım, qohumumuzdu, hal-əhval tuturduq.

— Gəl otur maşına, gedək.

Qorxuya düşən Xasay astadan dedi:

— Get, eybi yoxdu, sonra danışarıq.

Bu, o demək idi ki, hələ söhbət qurtarmayıb. Mehri Xasaya göz vurub maşına oturdu. Maşın sürət götürdü. Təkərlərin altından çıxan toz-torpaq Xasayın üst-başına çırpıldı.

* *
*

Əsəbləri pozulan, tez-tez özündən çıxan Xasay evə gedənmirdi. Sirac o saat gəlib oturturdu onunla qabaq-qənşər. — Ya borcunu ver, ya da evdən çıx, — deyirdi. Xasay neyləyəcəyini bilmirdi. Qonşusunun yöndəmsiz, ədəb-ərkandan uzaq hərəkətləri Gülçöhrəni cana doydurmuşdu. Əlacı kəsilən Xasay tez-tez

özünə suallar verirdi: İndi neyləyim? Oğurluqmu eləyim? Kiminsə evinə basqınamı gedim? Hər cür axmaq iş görsəm də, bax, onları bacarmıram. Bəlkə Siracı öldürüm, canım qurtarsın? Eh... Mən adam öldürənəmmi? Elənçiyə qalsa, öldürüləsi adamların sayı nə qədərdi? Odu ha, biri doğmaca xalam Əsmayə. Onun ucbatından bu günə düşmədimmi? Dayım Nicat. Qayınatam Nihad. Ağılsızlığım ucbatından neçə vaxtdı məni fırladan Mehri... Bunların ölümü hamısı bir-birindən fərzdi. Hamısını öldürməkmi olar? Əstəğfürüllah, yenə başım xarab olur. Bu qədər adamı öldürüb qatil olmaqdansa, gedib orda-burda, ona-buna izahat verməkdənsə, müstəntiq qarşısında tir-tir əsməkdənsə, vallah-billah özümə qəsd eləsəm yaxşıdı. Eşidən — bilən də deyər: kişi intihar eləyib... Yenə başım o söz. Özgəni öldürməyə duxu çatmayan kişi özünə qəsd eləyə bilərmi? Ha... ha... ha... Kişi... Kişiyə bax ha... Kişilik generallığımla getdi. Nə ondan əsər-əlamət var, nə də bundan. İkisi də zibilə döndü. Hələ pazın yekəsi daldadı. Ləzzət var, arvad deyə ki, sən nə kişisən, çıx evdən. Qova, çıxara evdən, qalam küçələrdə. Yayı-qışı yatam binaların girəcəyində. Zibilliklərdə oğru itlər, pişiklər kimi yem axtaram. İllərlə çiməmməyəm. Bədənimi üfunət basa. Gəlib-gedən iyrənib mənə çəpəki baxa. Bu o tərəfə qova, o da bu tərəfə. Xalam Əsmayə mənə baxıb qımışa. Nihad qızını mənə verdiyi üçün peşman-peşman baxa. Mehri mənə tüpürüb gedə. Sirac da deyə sənə bu da azdı. Ağakişi də kafeyə yaxın buraxmaya. Qarakişiylə Balakişi də özlərini tanımamazlığa vurub böyrümdən yan keçələr. Vaxtıyla mənə yuxuda general rütbəsi verildiyini də xatırlayıb xəcalətimdən öləm... Gör nə vəziyyətə düşmüsən, Xasay...

O, özündə-sözündə deyildi. Gülçöhrə nəsə fikirləşib ərindən xəbərsiz atasının yanına getdi. Siracla aralarında olan söz-söhbəti atasına danışdı. Onu da dedi ki, bu gün üç min dollar olmasa, ev əldən çıxacaq. Nəvələri gəlib durdu gözləri önündə Nihadın. Kişi heç bir söz demədən, danışmadan yenicə topladığı üç min dolları sayıb qızına verdi. Gülçöhrə tələm-tələsik evə qayıtdı. Siracın borcunu verib Xasayı küçədən evə çağırdı. Xasay xəcalətindən ölmüşdü. Səsi çıxmırdı. Gülçöhrə ərinin üstündən ağırlığı götürmək üçün dedi:

— Xasay, kişinin başı qalda gərək. Burda mənim də günahım oldu.

— Gülçöhrə, əzizim, vur öldür məni.

Xasay doluxsundu. Yaylığını çıxarıb gözlərinin yaşını silirdi ki, poçtalyon Qəmzəli bir çağırış gətirdi. Gülçöhrə alıb oxudu.

Çağırış polis idarəsindəniydi. Sabah Xasay müstəntiqin yanında olmalıydı...

Səhəri gün arvad ərini tək buraxmadı. Birlikdə müstəntiqlə görüşə getdilər. Xasay özünü təqdim eləyən kimi müstəntiq birbaşa hərbə-zorbaya keçdi.

— Ayə, düdük, deyirlər general adından istifadə eləyirsən. Adamları qorxudursan. Evlərə telefon zəngləri çaldırırsan. Əsmayəyə telefon açan qadın budu?

Gülçöhrə müstəntiqin dediklərindən çaş-baş qalmışdı. Xasay dedi:

— Cənab müstəntiq, deyilənlərin hamısı yalandı. Böhtandı. Şərdi. Doğrudu, yuxuda mənə general rütbəsi veriblər. Mundir də geyindiriblər. Yuxuda çox şey olar. Ola bilməz ki, yuxuda siz özünüzü generalissimus görməyəsiz. Mənim səhvim bunda olub ki, yuxuda gördüklərimi danışmışam. O vaxtdan bu vaxta qədər məni “General” — deyə çağırırlar. Bununla mən general oluram? Ay onu deyənlərin tifağı dağılsın. Balası ölsün. Mənim gül kimi adıma nə olub?

Bayaqdan bəri Xasayı dinləyən müstəntiq qəşş elədi. Sonra soruşdu:

— Yaxşı, telefon zəngi nə olan şeydi?

— Əsmayə mənim doğmaca xalamdı. Onunla zarafat eləmi-

şik. Səksən yaşı var. O yaşda adamdan nə ağıl umursuz, cənab müstəntiq?

— Onun həyatı üçün məsuliyyət daşıyırsan.

— Oldu.

Müstəntiq ağ kağızı Xasayın qarşısına qoyaraq dedi:

— Yaz. Əsmayənin başına bir iş gəlsə, cavabdeh mənəm. Qol çək.

Xasay müstəntiq deyənləri yazaraq kağıza imza atıb tarixi qoydu.

Müstəntiq:

— Bu qadın kimdi?

— Arvadım.

— Durun gedin.

Aldanışlarıyla barışmayan Xasay çıxılmaz vəziyyətə düşmüşdü. Son vaxtlar Gülçöhrənin kinayəli baxışlarından, istehzalı sözlərindən, dava-dalaşlarından təngə gəlmişdi. Nə eləyəcəyini, hara gedəcəyini bilmirdi. Bəzən ərzaq mağazası adıyla evdən çıxır, başı yetirmədiyindən teatra, kazino-klublara, kafelərə gedib çıxırdı. Hərdənbir instinkti onu Mehrigilə də aparıb çıxarırdı. Hətta bir dəfə Mehri içəri çağırıb: — Qaramat oğlu qaramat, mənə nə vermisən, alanmırsan? — deyib kötəkləmişdi də Xasayı. Yenə yığışmamışdı özünə. Mehri çox fikirləşdi, çox götür-qoy elədi. Başına gələnləri yenicə uşaq dünyaya gətirən bacısı Cəmiləyə danışdı. Heç vaxt belə işlə qarşılaşmadığından o da gözlərini döyə-döyə qaldı. Acıqlı-acıqlı başını yellədi:

— Fırıldağından əl çəkmirsən. Ərin də əməllərinə qurban getdi. On min az döör. Polisə getsə, səni doğuzduracaqlar. Onlara nə var. Dünən lazımıydın, səni tanıyırdılar, bu gün işləri keçmir, ya xeyir götürmürlər, tanımayacaqlar. Ya gedib dama girməlisən, ya da bacı, evini satıb kişinin pulunu verməlisən. Bax işinə.

— Axı pulu ikimiz xərcləmişik.





— Nə olsun?.. Ancaq sən onu inandırmısan ki, iş görürük. Ağız, elə də iş görərlər?

— Ağzımı açanda o heyvan başa düşməliydi ki, bu cür girdirmə yolla ev almaq olmaz.

— Özünü atmısan quyuya, Xasayı da çəkmisən ardınca. Bircə yolu var: Xasayı sal evinə, onunla da gir kəbinə. Pul söhbəti bununla da qurtaracaq. Bir müddət keçsin, vur dalına təpiyi. Bəhanə də elə ki, səndən it iyi gəlir. Vəssalam, şüttamam. Bundan savayı başqa yol görmürəm.

— Aa...

— Bə nədi?

— Birdən kəbinə girmədi?... Başı batmışın iki uşağı da var.

— Olsun da. Sənə kəbinə girincə lazımdı. Ona arvad-uşaq saxlayan döörsən ki?... Ağzımız qarışdı söhbətə, sən evdə ol, mən dərziyə paltar tikdirirəm, yoxlamalıdı, əynimə düz gəlir, ya gəlmir. Yarım saata qayıdacam. Uşağın yanında ol.

— Çalış tez gəl.

* *
*

Cəmilə geyinib-keçinib, pudralanıb otaqdan çıxdı. Evdə uşaqla tək qalan Mehrinin fikirləri bulaş-bulaş oldu. Nə ağlına gəldisə, uşağı adyala bükərək qucağına alıb evdən çıxdı. Taksiyə oturub Xasaygilə gəldi. Qapını xeyli döydü. Gülçöhrə təntimiş halda gəlib qapını açdı və əsəbi halda dedi:

— Bu nə hərəkətdi xanım, adam kimi zəngi basanmazdın? Bəlkə birinin xəstəsi var?

Mehri əsəbi halda qışqırdı:

— Xasay lazımdı. De, çıxsın bayıra. Yoxsa içəri girib ağzını cıraram.

Tanımadığı qadının dedikləri və əsəbi hərəkətləri Gülçöhrə-

ni çaşdırdı. Ona elə gəldi ki, bu qadın hər kimdisə Xasayın pul aldıqlarındandı. Odur ki, Gülçöhrə özünün yöndəmsiz danışıqlarını bir kənara qoyub sakitcə:

— Xasay evdə yoxdu, — dedi. — Səhər tezdən gedib. Nə vaxt qayıdacağını da bilmirəm. Nə sözünüz var deyin, xanım, mən onun arvadıyam.

— Nəyisən?

— Arvadı.

— Bəs deyir, arvadım yoxdu? Keçən il xərçəngdən ölüb.

— Nə?

— Deməli, oğraş mənə də atıb? Heç hara getməyəcəm. Mən ona dədəsiz uşaq saxlayan döörəm. Çağır gəlsin, uşağına sahib dursun. Uşaq dipdiri özüdü. Elə bil Xasayın başın kəsib uşağın çiyinləri üstünə qoymusan.

Gülçöhrə qışqırıb saçlarını yolmağa, üzünü cırmağa, dizlərinə döyməyə başladı. Səsə qonşular yığışdı. Hərə bir tərəfdən Gülçöhrəni sakitləşdirməyə çalışdıqca Mehri lap qızışırdı:

— Məni aldatdın, oğraş, doğuzdurmusan, lap yaxşı, gəl küçüyünə yiyə dur da. Niyə mənə yalan deyirsən? Abrım-həyam üstümdə, oturmuşdum xarabamda. Yalvardın-yaxardın, dedin generalam, mən başı boş da sevindim ki, generala ərə gedirəm. Sən demə, dəyyusun cibində siçanlar oynaşırmış. Nər kimi, cəlladdan betər qardaşlarım eşitsə, səni də doğrayacaqlar, məni də.

Elə bu dəm Gülçöhrənin ürəyi qısıldı. Şappıltıyla girəcəkdə yerə sərildi. Qonşu arvadlar olmasaydı, bəlkə də başı divara dəyib partlayacaqdı. Qanı evi bürüyəcəkdi, zərbdən canın tapşıracaqdı... İşin tündləşdiyini görən Mehri bir anlığa səsini kəsdi. Xavər arvad qaçaraq bir stəkan su gətirib Gülçöhrənin üzünə çilədi. Handan-hana özünə gələn Gülçöhrə diqqətlə Mehrinin üzünə baxdı. Mehri ona yazığı gəlirmiş kimi dedi:

— Adım Mehridi. Zərgərpalanda qalıram. Gözləyəcəm əclafı, gəlməsə polisə verəcəm. Mən gedirəm. Xasaya deyərsiz, ya





uşağını aparsın, ya da gəlib otursun xarabasında. Mən biqeyrətə uşaq saxlamayacam...

Mehri getdi. Qonşular Gülçöhrəni otağa aparıb divanda uzandırdılar. Kimisi “Valerian”, kimisi “Karvalol”, kimisi “Valokordin”, kimisi də hər üç dərmanın damcılarını qarışdırıb ona içirdirdi. Əslində adyalın arasında uşağı kimsə görməmişdi. Ancaq uşaqla bağlı hərə bir söz uydururdu.

Sürmə xanım:

— Mən uşağa baxdım, bacı, elə bil Xasayın özüydü. Uşaq neçə də atasına oxşayarmış...

Sözbaz Səltənət:

— Uşaq Xasaydan çox Əlləşə oxşayırdı. Gözləri, burnu, çənəsi eynən Əlləşinkiydi. Zeynəb qarı demişkən: “Bic uşaq dədəsinə oxşar”.

Xavər:

— Bu yaşa çatmışam, Gülçöhrə, mən belə şey görməmişəm. Elə bil Xasayla uşaq bir almadılar, iki yerə bölünüblər. Uşağı başqa yerdə görsəydim, o saat deyərdim Xasayındı. Özün gördün də.

Gülçöhrə halsız halda, ağlamsına-ağlamsına bildirdi:

— Yox, it qızı başımı elə qatdı ki, uşağa baxmaq yadıma düşmədi.

Sürmə xanım:

— Yaxşı ki, baxmamısan, baxsaydın, heç dözməzdin.

Sözbaz Səltənət:

— Xasay evə buraxılası adam döörmüş.

Xavər:

— Dəyyusmuş... Doğrusu, onun dəyyusluğunu mən bilirdim. Gülçöhrəyə görə o sözü ağzıma almaq istəmirdim. Gülçöhrə abırlı cuvanəzəndi, neyləsin ki, qismətinə bu çıxıb.

Elə bu vaxt qapı açıldı. Xasay içəri girdi. Otağın adamla dolu olduğunu görcək çaşdı. Nə deyəcəyini bilmədi. Sürmə xanım

birbaşa mətləbə keçdi:

— Mehri gəlmişdi. Guya tanımırsan, alçaq. Arvadını atıb gündə gedib onun-bunun qapısında sülənirsən?

— Sən bilməyən iş var. İt qızı məni də dəli eləyib. Dərdimi də açıb deyənmirəm.

Sözbaz Səltənət:

— Ayə, səni atan yox, kəsən yox. Cavan qadındı, doğuzdurmusan, lap yaxşı, uşağına yiyə dur da. Deyirsən, indi orda başqa xoruz banlasın? Onu özünə necə sığışdıracaqsan.

Xasay:

— Nə?

— Canına dərd. Çor. Zəhrimar.

— Nə uşaq? Nə doğuzdurmaq?

Xavər:

— Sağ ol səni, Xasay! Ayə, sənin generallığını hardan bilirdi o?

— Əgər onunla olmamışdınsa, uşaq sənə niyə oxşamalıydı? Buna nə deyirsən? Ona da and içəcəksən? A nadan, dünyanın hoqqabazlığının hamısı sənin başına gəlməliydi?

Sürmə xanım:

— O yalan danışmaqladı? Uşaq fırt eləyib dəyyusun elə bil burnundan düşüb.

Xasay:

— Gülçöhrə, sən də bu ifritələrə inanırsan?

— Qucağında adyala bükülü uşaqla Mehri özü gəlmişdi, Xasay. Bu biabırçılığa daha mən dözənmərəm... Səninlə bir balınca baş qoyanmaram. Hara gedirsən get, kiminlə nə iş görürsən gör. Daha sənin üçün nə mən varam, nə də ailə... Sənə acıqlanmıram da, səni söymürəm də, niyə eləmisən də demirəm... Get, neçəsini bacarırsan, doğuzdur. Biri də çıxıb səni...

Sürmə xanım:

— Sənə tüpürüm, Xasay. Gülçöhrənin yerinə mən olsaydım,





səni bu əllərimlə boğardım.

Sözbaz Səltənət:

— Hə... Bu da kişiymiş... Utanım yerinə...

Xavər:

— Get, özünü öldür, Xasay. Sən lax çıxdın.

Xasay:

— Rədd olun burdan, yaramazlar. Siz haranın ambırısız? İmkan verin, öz dərdimizi özümüz çəkək.

Xasay çox çətinliklə qonşu arvadlarını evindən çıxardıb Gülzarla söhbətə oturdu:

— Sən mənə inan...

— Necə?

— Axıra qədər dinlə.

— Nə olacaq?

— İnanmasan, özüm hər şeyə tüpürüb gedərəm. Onu da bilirəm ki, evdən çıxsam, mənə güzəran olmayacaq. İki uşağımız var, istəyirəm, axıra qədər dinləyəsən məni.

— Buyur eşidirəm, Xasay.

— Əvvəla, arvadlar qal qaldırırlar. Sözləri qurtarıb, onlara çeynəməyə yeni söz lazımdı. Mehri dedi ki, yuxarıda böyük adamlarım var. Mən xalanın evini sənə təşkil eləyə bilərəm. Mən də o ifritəyə inandım. Tapdığımız on min ABŞ dollarını da ona vermişəm. O, məni susdurmaq, pulun axırına çıxmaq üçün bu həngaməni düzəldib. Mən biləni onun kiçik uşağı da yoxdu. Məncə, adyalın arasında uşaq olmayıb. Bəlkə başqasından min bir bəhanəylə uşaq tapıb gətirib bura? Bilmirəm. Onunla dörd aydı qarşılaşdığım. Bəyəm, dörd ay... İnanmırsan, vur, öldür məni. Evinin ünvanını bilirəm. Birlikdə gedək. İstəyirsən, lap bu hoqqabaz qonşu arvadlarını da götürək. Qoy, Mehri bir də uşağı göstərsin bizə... Ancaq onu bil ki, Zeynəb qarı demişkən, dava yorğan üstədi...

Gülçöhrə gülümsünüb ayağa qalxdı. Arvadların yanındaca

dedi:

— Eləmisənsə də, generalım, onu bağışladım sənə. Təsəvvür elə, on minin də olmayıb.

* *
*

Hər tərəfdən əli qırılan, ümidi üzülən Xasay gecələr dərdsərdən yatanmırdı. Onu hamıdan çox Əsmayə qəzəbləndirirdi. İmkanı olsaydı, doğmaca xalasının boğazını dişləriylə üzərdi... Hardansa ağlına belə bir fikir gəldi: "Tərəqqi" qəzetinə məqalə yazıb Əsmayəni nüfuzdan salmaq"... O, yazacağı şeylər barəsində də xeyli düşündü və bu qaragüruh istəyini həyata keçirməli oldu:

## Açıq suallar

Hörmətli redaksiya! Bu məqaləni sizə möhtəşəm bir xalqın ləyaqətli oğlu kimi yazıram. İstərdim mənim fikirlərimə hörmətlə yanaşasız və bu məqaləni qəzetinizdə çap eləyəsiz. Yazdıqlarımdan yüzcə adam faydalansa, bəri başdan deyim ki, özümü xoşbəxt sanaram. Bu fikirlər tək mənim yox, həm də arvadım Gülçöhrənindi. Öz aramızda çox müzakirə elədik və belə qərara gəldik ki, fikirlərimizi xalqımızla bölüşək, onların da diqqətini məqalədə qoyulan suallara yönəldək. Ər-arvad güman eləyirik ki, hər kəsin niyyətini, əməllərini içərisində yaşadığı cəmiyyət bilməlidi. Məsələyə keçməzdən əvvəl sizə tam mənasıyla çatdırım ki, gözü-göylü tox ailəyik. Həmişə açıq fikirli olmuşuq. Xalqımızdan gizlin heç nəyimiz yoxdur. Güman eləyirik, bu yazıda da demaqogiya, satqınlıq, gözügötürməzlik ruhu axtarmazsız. Lap axtarsaz da, əminik ki, tapanmazsız... Nə isə... Barəsində yazdığım Şükürlü Əsmayə Qüdrət qızı şəxsən mənim





doğmaca mərhum anam Səmayənin böyük bacısıdı. O yan-bu yansız, yəni mənim doğmaca xalamdı. Səksən bir yaşı bu yaxınlarda tamam olub. Bir müddət əvvəl əri Nuruşla sözləri çəp gətirdiyindən onu da çərlədib öldürüb. Mərhuma lap cavanlığından gün verib, işıq verməyib. Xalam çox məkrlidi. Altmış ildən artıq əriylə bir yastığa baş qoydular, qəsdən onun üçün bir uşaq doğmadı. Xalqın say artımının qarşısını aldı. Xalqa xeyir vermədi. Məkrinə diqqət yetirin. Ər ölüb, ancaq, onun əlində küllü miqdarda daşınan və daşınmaz əmlak cəmləşib. Nəzərinizə çatdırım ki, onların hamısı çirkin pullarla ələ keçirilmişdir. Doğrudur, bu yaxınlarda adam üzünə ərinə Braziliya mərmərindən sinə və baş daşı qoydurub... Xülasə. Çox vaxtınızı almayaq. Xalama bir neçə sualımız var. İstərdik, onlara bircə-bircə cavab versin.

Birincisi, o, niyə ömrü boyu ərinə aqressiv olub və nə üçün doğmayıb?

İkincisi, o qədər daşınan və daşınmaz əmlakı hardan, necə əldə eləyib?

Üçüncüsü, həddən-ziyadə simic, möhtəkir, öz mənafeyini xalq mənafeyindən yüksək tutan Əsmayə niyə qeyrətli oğullara oğru, dələduz, mənsəbpərəst... kimi baxır?

Dördüncüsü, bir ayağı burda, o birisi gorda olan xalam varidatını hara saxlayır və onları ehtiyaclılara niyə paylamır?

Beşincisi, həmişə xalqdan, vətəndən yerli-yersiz ağızdolusu danışan bu qadın niyə səhiyyənin, təhsilin, incəsənətin, elmin... inkişafına yardım eləmir?

Möhtərəm redaksiya! Biz bu və buna bənzər sualların sayını xeyli artıra bilərik. Lazım gəlsə, xalamla televiziyada debata da çıxarıq.

*Çox hörmətlə: Xasay Əlləş*
*oğlu Mıxıyev*

Üzərində heç bir düzəliş aparılmadan məqalənin qəzetdə

çap olunduğunu görən Xasay köşkdən xeyli qəzet aldı. İki nüsxə öz əliylə aparıb xalasının qapısı ağzında vurulmuş poçt qutusuna saldı. Qalanını da gətirib qohumlara, qonşulara, tanışlara payladı. — Xalamın atasına od vurmuşam, indi çırtım-çırtım alışıbyanır, — deyib məqaləni arvadına, uşaqlarına oxudu... Oğlu Əlləş atasından soruşdu:

— Adam da xalasından yazar?

— Onu mən bilərəm. Xalama o da azdı. Gərək onu infarkt eləyəm.

Gülçöhrə:

— İnfarkt eləmək asandı. O, ölən kimi Nicat çıxacaq ortaya. O, bir köynək səndən irəlidi xalana.

— Nicata terror tətbiq eləyərəm. Başa düşürsən: terror! Qoy xalam suallara cavab versin. Sonrasına baxarıq.

— Ağzını yerə tut danış. Amerika kəşfiyyatı sənə elə-belə gəlməsin. Xəbər tutsalar, hamımızı Hizbullahla, Əl-Qaidəylə əlaqələndirəcəklər...

Heç bir söz deməyən Xasay bir andaca tısbağa kimi qınına çəkildi...

Poçt qutusundan qəzeti götürən Əsmayə eynəyini gözünə vurub məqaləni diqqətlə oxudu. Sonra da uğundu. Xala bacıoğlunun niyyətini yaxşı anladığından əvvəl cavab vermək istəmədi. — Qoy, rədd olsun, — deyib qəzeti kənara atdı. Növbəti nömrələrdə respublikanın şəhər və rayonlarında yaşayan boşboğazlar da ulaşaraq Xasayın məqaləsindəki suallara cavablar axtardılar. Axır ki onları "bayquşlar" adlandıran Əsmayənin cavabı qəzet səhifəsində özünə yer tapdı.

### Açıq suallara açıq cavab

Hörmətli redaksiya! 27.08.02-ci il tarixdə qəzetinizdə mənə ünvanlanan "Açıq suallar" məqaləsini diqqətlə oxudum. Həqiqətən də Xasay Əlləş oğlu Mıxıyev mənim doğmaca bacım oğludu. Birinci suala cavab vermirəm. Onun cavabını namusu, qeyrəti varsa, bacıoğlum qoy özü axtarıb tapsın. İkinci suala cavab olaraq bildirim ki, mənim həqiqətən də beş otaqlı mənzilim var. Onu vaxtıyla nazir işləyən ərim Nuruşun xalq, dövlət qarşısındakı xidmətlərini nəzərə alaraq hökumət bizə vermişdi. 2000-ci ildə ərim içərisində yaşadığımız evi özəlləşdirdi. Hal-hazırda o, dünyasını dəyişib. Ev mənə qalıb. Bu, mənim daşınmaz əmlakımdı. Qaldı daşınan əmlakıma. Xasay onu harda görübsə, yaxşı olardı, yerini mənə də desin və ya göstərsin. Üçüncü sual olduqca mübahisəlidi. Əvvəla, simic olduğumu o hardan bilir? Bu söz subyektiv mülahizələrdən doğub. İkincisi də, varidatımı yalançılara, fırıldaqçılara, atanşiklərə, gözləri onun-bunun cibində olanlara niyə dağıtmalıyam? Yaxşı olardı ki, Xasay özü bu suala cavab verəydi. Güman eləyirəm ki, bacıoğlum "möhtəkir" sözünün mənasını özü bilmir, bilsəydi, inanıram, o sözü dilinə gətirməzdi. "Öz mənafeyini xalq mənafeyindən yüksək tutmaq" ifadəsi mücərrəd və mübahisəlidi. Mən təqaüddə olan adamam. Heç vaxt işləməmişəm. Evdar qadın olmuşam. Ərimə xidmət eləmişəm və bundan da şərəf duyuram. Bir halda ki, belədi, gülməyimlə ağlamağımın xalqa təsiri məncə eyni olar. Başqa cür də mümkün deyil. Düşünürəm ki, Xasay "qeyrətli oğullar" sözünü özünə şamil eləyir. Gərək bacıoğlum yadına salaydı — min doqquz yüz doxsan altıncı ildə qonşusunun evini oğurladığına görə, ev alqı-satqısında iki nəfəri aldatdığına görə üç il türmədə yatdığını. Yuxuda özünü general görən şəxsin həyatda özünü general sanmasına nə ad vermək olar? Şübhəsiz ki, gələcəkdə bu addan da geniş istifadə eləyəcək, hədə-qorxu gələrək imkansızlardan nəsə qoparacaq. Belə olduğu halda, mən Xasaya necə baxmalıyam? Dördüncü sualın cavabı olduqca qısa və konkretdi: onu tarix göstərər. Qaldı beşinci suala. Oğlum, Zeynəb qarı tez-tez deyərdi: "Yırtığın nəyi var, cırığa nə

verə!...”

*Hörmətlə: sizin daimi oxucunuz*
*Şükürlü Əsmayə Qüdrət qızı*
*06.10.02*

Xalasının məqaləsini oxuyandan sonra Xasayın səsi daha çıxmadı. Ancaq çox çəkmədi ki, redaksiya belə bir məktub aldı.

## Açıq suala açıq cavab, açıq cavaba açıq münasibət

Hörmətli redaksiya! Sizin qəzetinizdə dərc olunan Xasay Mıxıyevin və Əsmayə Şükürlünün məqalələrini, onların fikirlərinə həsr olunan yazıları aludəliklə oxudum. Bəri başdan etiraf eləyim ki, Xasay mənim kürəkənimdi. İki nəvəmin atasıdı. Ancaq xalası Əsmayəni tanımıram. Xasay əxlaq və mənəviyyatca çirkin adamdı. Onun üçün pul çırpışdırmaq, kimdənsə nəsə qopartmaq bütün insani dəyərlərdən yüksəkdi. Ciddi-cəhdlə niyyəti xalasının əmlakını, varını-yoxunu ələ keçirməkdi. O, istəyinə xoşa-xoşluqla nail ola bilmədiyindən müxtəlif hiylələrə, hətta, zora əl atır, çirkin vasitələrlə doğma xalasını nüfuzdan salmağa çalışır. O, düşünür ki, Əsmayə xanım ictimai rəydən qorxubçəkinəcək, abrının, həyasının itməməsi xatirinə onun əsirinə çevriləcək. Mən şəxsən özünü tanımasam da, məqaləsindəki açıq fikirlərinə, fikirlərindəki cəsarətə və yüksək intellektə görə Əsmayə xanımı alqışlayıram, ona “Çox sağ ol” — deyirəm. Onun düşüncə tərzi, fikrini əsaslandırma bacarığı, təmiz vicdanı, hadisələrə obyektiv münasibəti yazısından sezilir. Yazılanlardan aydın görünür ki, bu qadının yaşı səksəni ötüb. Ömür qatarı son dayanacağına istiqamət götürüb. Ağbirçək xalasının qulluğunda durmaq, ona nəvaziş göstərmək əvəzinə, görün bacıoğlu hansı yollara əl atır. Bu, ən yüngülü nadanlıqdı, namərdlikdi, insani hissləri itirməkdi... Şəxsən bir qayınata kimi Xasayın hərəkətləri mənə utanc gətirir... Onun şərəfsiz hərəkətləri çoxdu. Nəvələrimi nəzərə aldığımdan kürəkənimin ləyaqətdən uzaq hərəkətlərinə işıq salmaq istəmirəm.





Xasay kimi nadürüstlərə, idrakı korlara, mənəviyyatı boş antipodlara, cəmiyyətə ləkə gətirən avantüristlərə qarşı tək Əsmayə yox, hamı mübarizəyə qalxmalıdı. Belələrini yerində oturtmalıyıq.

Mən öyrənəndə ki, Xasayın məqaləsindən qızım da xəbərdar olub və onun çürük fikirlərinə şərik çıxıb, yer yarılmadı yerə girəm. Heyf! Görünür, qızıma mən də düz tərbiyə verməmişəm. Zeynəb qarı demişkən: “Su axar, çuxurun tapar”.

Hörmətli redaksiya, şəxsən mən Əsmayə Şükürlünün qarşısında baş əyirəm!

*Hörmətlə: oxucunuz Ümidli*
*Nihad Hilal oğlu*
*21.10.02*

* *
*

Səhər erkən poçt qutusundan qəzetləri götürən Gülçöhrə evə gəldi. Stulda əyləşib, qəzetləri o tərəf-bu tərəfə çevirdi. Atası Nihadın məqaləsini görçək təəccübləndi və oxuyub qurtaran təki halı dəyişdi. Öz-özünə dedi:

— Bıy... Bircə bu çatmırdı. Bu yaşda kişi... Sənə min rəhmət, ay ana. Dədəmi abırdan düşməyə qoymayan sənsənmiş... Vallah-billah sənin yoxluğun göstərir özünü. Kişi dost-düşmən tanımır. Kimə olsa girişir... Nəvələrinin atası Xasay bəyəm özgədi? İngi çağırıb ona mən nə deyim? Necə deyim ki, ay Xasay, gözümüz aydın, dədəm səni büküb qəzetə?.. Dəli olmaz? Xasayı infarkt vurmaz? Şalvarın götürüb getməyə haqqı var, yoxdu?

Özü də ürəyi istəyən yerə. Ağzıma daşlar, şəhərdə arvad qəhətə çıxıb?.. Xasiyyətinə bələdəm, Xasay qəzeti oxuyan kimi cırıb-dağıdacaq özünü. Onda da gəl onun haqq sözünə cavab ver.

Gülçöhrə əlində qəzet, əsəbi halda otaqda bir-iki dəfə var-gəl eləyirdi ki, Xasay yan otaqdan çıxdı. Arvadına — Sabahın xeyir — deyib vanna otağına keçdi. Əl-üzünü yuyub qayıdanda Gülçöhrə ərindən soruşdu:

— Hə... Yenə yuxu görmüsən? Yoxsa, sənə nəsə bəyan olub. Ona görə də kefin yuxarıdı.

— Yox, Xasay, elə belə.

— Nə qədər qulluğunda durram. Ha... ha... ha... Yenə mısmırığın yerlə gedir.

Gülçöhrə qəsdən gülərək:

— General arvadı necə olmalıydı ki? Səhər-səhər qəzetdə dədəmdən sənə surpriz var.

— Nə?.. Dədən?.. Qəzetdə?.. Zarafat eləyirsən?

— Nə zarafat? Həqiqi sözümdü.

— Canına and olsun, xalamın məqaləsindən sonra hələ özümə gəlməmişəm... Dədəndən nə desən çıxar... Deməli, gülməşəkər dədən yenə nəsə fırtına qoparıb? Nəyimdən yazacaq? Bəyəm indiyə qədər nəvələrinə sataşdıqları azlıq eləyib?

Gülçöhrə qəzeti Xasaya verdi və istehzayla:

— Kişi od vurub yandırır. Mənim danışmağımdansa, yaxşısı budu özün oxu.

Xasay üzünü turşutdu:

— Əşi, o yana elə. Gözlərim sulaşır, oxuyammaram... Bir də ki dədəndən nə vaxt fayda görmüşük ki. Ondan xeyir uman, Allahdan bəla görər. Zalım oğlu, elə bil şər üçün doğulub. Üzünə baxanda adamın zəhri çatlayır.

— Deyəsən, mənə inanmırsan, Xasay. Yaxşı, oxuyum, qulaqlarınla eşit.

— Dədənin hoqqasız, bizim də zırha-zırsız günümüz yox-





du... Oxu, görək indi nə hoqqa düzəldib?

Gülçöhrə dərindən nəfəs aldı:

— Başlığı oxuyuram: "Açıq suala açıq cavab, açıq cavaba açıq münasibət".

— A ha... De ki səndən yazmayıb ey, sənə girişib. Özü də necə?

— Tək sənə yox, ikimizə də... Nəvələrini də düşünmədən.

Elə bu vaxt qapı açıldı, Qarakişiylə Balakişi əllərində qəzet əsəbi halda otağa girdilər. Xasay onları görüb qızışdı, kükrəyə-kükrəyə otaqda o tərəf-bu tərəfə gəzməyə başladı.

Qarakişi dedi:

— Bu nə bibarıçılıqdı, Xasay? Sən öl bayaqdan bədənim od tutub yanır. Ayə, bəs basıb bağlayırdın ki, qayınatam oxumuş adamdı. Özüm ölüm, o iki qəpiklik də döörmüş... Gərək sən gecəykən belə qayınatanın işini bitirəydin.

Gülçöhrə Qarakişiyə tərs-tərs baxdı:

— Ayə, qələt eləmə, dəyyus, ağzını cıraram. Xasayı qızışdırma.

Balakişi çəkindi və sonra ciddi görkəm aldı:

— Xanım, Nihad Xasayın qayınatasıdı.

— Dəyyus, onu mən bilmirəm? Bəs mən Nihadın nəyiyəm?

Qarakişi Balakişinin sözünə düzəliş vermək istədi: Balakişi demək istəyir ki, dədən həddini aşıb. Qəzetdə yazılanlara, inan mənə, bir yabı da dözməzdi, nəinki Xasay Əlləşoviç Mıxıyev. Canın üçün nəyə deyirsən and içim, Xasayı küçələrdə sülənən itlər də tanıyır. Mən bunu həmişə demişəm, indi də kişi kimi deyirəm.

Gülçöhrə kinayəylə:

— Kişilərə bax ey.

Qarakişi:

— Elə mən də Balakişi deyənləri deyirəm də. Vallah mən başa düşəmmirəm.

Xasay əsəbi halda ucadan:

— Nəyi?

Qarakişi:

— Ayə, Xasay, sən Nihadın qızı, nəvələri üçün çalışmırsan? O boyda kişi bunu niyə başa düşmür, bilmirəm.

Xasay:

— Anlamazdı, özü də anadan gəlmə. Beləsiylə yola çıxmazlar. Gərək vaxtında başıma çarə qılaydım. Özümə gün ağlayaydım.

Gülçöhrə tərs-tərs Xasaya baxdı:

— Nə çarə? Nə gün ağlamaq? Ay yazıq, səni mən general eləmişəm ey. Onu qanırsan, ya yox?

Xasay Gülçöhrədən çəkindi:

— Hə... Onu qanıram. Qanammadığım dədənin fantazyorluğudu, mənə olan haqsız hücumlarıdı. O boyda kişi düşüb bir arvadın toruna. Xalam nə hava çalır, ona da oynayır. Hər kişinin öz havası olar.

Gülçöhrə kinayəylə:

— Gözüvə dönüm, Xasay... Kişi belə olar ey.

Balakişi:

— Mən də Nihadın hərəkətlərinə məəttəl qalmışam. Ayə Nihad, sözün var, Xasay səndən qaçmır ki, gəl otur qızının evində, nə dərdin var, aç, tök. Nə dost bilsin, nə düşmən. Sən öl Xasay, indi şəhər ayağa aqlxıb. Kimi sənə lənət oxuyur, kimisi də atana...

Xasay iki əliylə başına vurdu:

— Kül mənim bu başıma. Ayə, siz öləsiz səhərin gözü açılmamış Nihad məni cin atına mindirdi. Ayə, mən boyda general indi qisas haqda düşünüm? Ayə, mənim çuxam bir dəvəyə yükdü. Eşidib-bilən deməz, a general, bu nə oyundu? Nihad qızından, nəvələrindən utanmır?.. Eybi yoxdu, sən Nihad ol, mən də Xasay.





Balakişi Gülçöhrəyə:

— Çox çətin dədən varmış... Bu yaşda düşüb bir arvadın dalınca. Get dədənlə danış. Gör nə düşünür, məqsədi nədi?

Qarakişi başını yellədi:

— Atamın goru haqqı, mən hələ belə xırsız kişi görməmişəm...

Balakişi təəccüblə:

— Sən öl, Qarakişi, mən heç nə eşitməmişəm.

Xasay:

— Görəcək günümüz varmış... İlanımız ayağımızın altındaymış. Özü də gorundan. Oturduğumuz yerdə necə də sancdı bizi. Ürəyimə damıb ki, hələ bunun dalı da olacaq. Cəhənnəmə, bu viranə qalmışda tək mənəm? Ayə, o namərd niyə düşünmür ki, mənim arvadım Gülçöhrə onun qızı, uşaqlarımsa nəvələridi. Atamın goru haqqı, dədənin insafı, mürvəti yoxmuş... Görəcək günümüz varmış, Gülçöhrə. Bunda deyiblər də: “Ağılsız baş yiyəsinə donuz güddürər”. Baxarlar mən neylərəm? Onda görərlər, analar necə oğlan doğub. Oxu qəzetdəkiləri, Gülçöhrə, oxu

— Yazılanların hamısını, oxuyum, yoxsa...

Qarakişi gülümsündü:

— Yağlı, duzlu yerlərini.

Balakişi məzələndi:

— Hamısı nəyə lazım? Xa... Xa... Xa... Məzəli yerlərini.

Xasay Qarakişiylə Balakişiyə əsəbiləşdi:

— Hırıltılarınızı yığışdırın, əə. Oxu, Gülçöhrə, oxu.

Gülçöhrə oxumağa başladı:

— Səmayənin yaşı səksəni ötüb. Ağbirçək xalasının qulluğunda durmaq, ona nəvaziş göstərmək əvəzinə, görün bacıoğlusu Xasay hansı yollara əl atır?

Xasay üzünü Gülçöhrəyə tutaraq:

— Ayə, hansı yollara əl atıram? A məni qınayan, atana lənət, görüm, səni alışıb yanasan. “Qulluğunda durmaq”, “nəvaziş

göstərmək" deyir. Qadını ərə verməkdən böyük qayğı, nəvaziş olar? A məni qınayan, atana lənət... Ciyəriməcən yandım... İçim göynəyir. Oxu, dalını, Gülçöhrə, oxu.

Gülçöhrə oxudu:

— Xasayın əməlləri ən yüngülü insani hisslərini itirməkdi.

Xasay:

— Necə? Necə? Necə yəni insani hisslərini?.. Bu nə deməkdi, ayə Qarakişi?

Qarakişi çiyinlərini çəkdi:

— Paa hooy... Mən də anlamıram.

Balakişi təəccüblə:

— Nihada deyən lazımdı, a xırsız, bəyəm ağacın da, daşın da insani hissləri olar? Bu ki gülməlidi. Hisslər insanda olar da.

Xasay üzünü Gülçöhrəyə tutdu və narazı halda dedi:

— Gülməli nədi, lap ağlamalıdı. Qarakişiylə Balakişi başa düşməyənləri yazıq ortabab oxucu hardan qansın? Onsuz da yuxarılarda qəzet oxuyan yoxdu. Aşağıdakılara bir qoz. Məni yandıran, hövsələdən çıxaran dədənin mənə atmasıdı.

Gülçöhrə əsəbiləşdi:

— Mən neyləyim, get vur öldür. Elə bilərəm, mənim də dədəm naməlumdu.

Balakişi:

— Varam bu sözə. Əla!

Qarakişi:

— Adamların qəzet anlayanmaması, yaxud oxuya bilməməsi sənin xoşbəxtliyindi, Xasay.

Balakişi başını bulayaraq:

— Nihadın yazdıqları çox tünddü, çox qərəzlidi. Qarakişi, şəxsən mən Nihadın ağlına şübhə eləyirəm.

Xasay:

— Oxu, Gülçöhrə, oxu!

Gülçöhrə:





— Şəxsən bir qayınata kimi Xasayın hərəkətləri mənə utanc gətirir.

Xasay Nihadın ünvanına gileyləndi:

— Utanc nədi, lap xəcalət gətirməlidi. Əcəb eləmişəm. Görünür lap hədəfə zıplamışam. Xalam da, qayınatam da yanıb-yaxılırlar. Gedin beş özünüzdən deyəndə, bir də məndən deyin. Oxu, Gülçöhrə, oxu.

Gülçöhrə dərindən ah çəkdi:

— Xasayın şərəfsiz əməlləri çoxdu.

Qarakişi:

— Bu, məhkəməlikdi.

Balakişi:

— Xasay, bayaqdan dərinə getmək istəmirdim. Canına and olsun, onları məhkəməyə vermək lazımdı. Hərəsindən onca min qoparsan, çəkdiyin xərcini-borcunu bəlkə ödəyə.

Xasay başını buladı:

— Məhkəmə-zad bekara şeydi. Hakimlərə nə var, əlüstü girəcəklər Əsmayəylə, Nihadla əlaqəyə, onlardan alıb özləri lum-lum ötürəcəklər. Üstəlik, bir bəhanəylə mənim də evimi satdıracaqlar... Yox, Balakişi məhkəmə xeyir çıxarmaz... Oxu, Gülçöhrə, oxu.

Gülçöhrə məqaləni oxudu:

— Xasay kimi nadürüstlərlə, idrakı korlarla, mənəviyyatı boş antipodlarla, cəmiyyətə qəmiş qoyan avanturustlərlə tək Əsmayə xanım yox, hamı mübarizəyə qalxmalıdı.

Xasay tutuldu və dərin fikrə getdi. Qarakişi başını aşağı saldı, Balakişi dizi üstə çökdü. Gülçöhrə ərinə deməyə söz tapanmayıb yazıq-yazıq baxdı.

Xasay handan-hana dizinə vurdu:

— Vay! Vay! Vay! Bu sözləri dəyyus hardan tapıb çıxarıb, əə? Repressiyalar dövrü olsaydı, sən öl Nihad anamı... ağladardı. Bəyəm, Qarakişi, dediyi sözlərin mənasını Nihad özü bilir

sən qədər?

Balakişi:

— Əsas sözün deyilməsidi. Nihad da ağına-bozuna baxmadan deyib. Heç sənin həsəd aparılası generallığını da saya salmayıb.

Xasay:

— Ah... Partladım, cırılıb-dağıldım, Gülçöhrə, aaz, dədəndən bir şey qaldı?

Gülçöhrə:

— Lap az qalıb. Özünü ələ al, Xasay, qurban olum sənin səbrinə, təmkininə. Bircə qırıq da döz.

Xasay:

— Onu da oxu.

Gülçöhrə oxuyur:

— Mən öyrənəndə ki, Xasayın hərəkətlərini qızım üsyankarlıqla qarşılamayıb, əksinə, hətta, ona rəvac verib, çürük fikirlərinə şərik çıxıb, onda yer yarılmadı ki, yerə girəm.

Qarakişi:

— Bu, nə danışır, əə. Bu, səfeh və bambılıymış ki.

Balakişi məsxərəyə qoyaraq:

— Ayə yox, çox humanistdi: ha... ha... ha...

Xasay:

— Özü dediyi kimi, kaş yer yarılaydı, o da yerə girəydi. Onun bu qıfılbəndlərini kaş mən eşitməyəydim.

Qarakişi:

— Mənə elə gəlir ki, Xasay, gedib Nihadla üz-üzə, diz-dizə oturmaq lazımdı. Sən aç sandığı, qoy o töksün pambığı. Onda bilərsən dağarında nə var, nə yox.

Balakişi öz təklifini verdi:

— Ağakişi, Nihada yeri göstərilməlidi. Ən azından o, əzişdirilməlidi.

Gülçöhrə əsəbiləşdi:





— Qələt eləyir Ağakişi də, sən də. Ələkçinin qıl verən düdükləri. Sizə bir törpi gələrəm, hardan gəlib hara getdiyinizi bilməsiz, alkaşlar.

Xasay:

— Əsəbiləşmə Gülçöhrə, dalını oxu.

Gülçöhrə əlini Qarakişiylə Balakişiyə uzatdı, sonra əsəbi halda dedi:

— Ayə, nə dalı, nə qabağı, bunlar araq dostlarıdı. Kişi döörlər.

Xasay:

— Bilirəm... Sən çox da dərinə getmə... Həştim-püştüm yanır. Söz güləşdirmə, oxu deyirəm, oxu!..

Gülçöhrə məqalənin dalını oxumağa başladı:

— Atı atın yanına bağlarsan, ya halın götürər, ya hüyün.

Xasay:

— Dədən “at”, “at” deməkdə, yoxsa, səninlə məni nəzərdə tutur?

Qarakişi:

— Əlbəttə, sizi. Balakişiylə məni deməyəcəkdi ki?

Balakişi:

— Ayə, bu yaşa gəlmişəm, sən öl, çox zırrama qayınatalar görmüşəm. Ancaq belənçiyini yox...

Gülçöhrə rişxəndlə bildirdi:

— Deyirlər, Banqladeşdə bundan da bir tündü varmış.

Qarakişi:

— Vay onun kürəkəninin halına.

Qapı açıldı Xavər başını içəri saldı. Bir anlığa hamı səsini kəsdi. O, Qarakişiylə Balakişini otaqda görüb təəccübləndi. Sonra astadan Gülçöhrəyə üzünü tutdu.

— Yatmısız fil qulağında. Şəhər dağılır.

Gülçöhrə təəccübləndi:

— Necə yəni şəhər dağılır?

Xasay əsəbi halda:
— Şəhər dağılır da. Kim nə istəyir, onu da eləyir.
Gülçöhrə:
— Karın könlündəki. İmkan ver, öyrənək görək şəhəri kim dağıdır, niyə dağıdır?
Xavər:
— Kim dağıdacaq? Dədən fil boyda generalı qəzetdə serjanta döndərib... Abırdan-həyadan salıb. Ondansa, yıxıb Xasayın başını kəssəydi...
Qarakişi:
— Bayaqdan biz də onu deyirik də.
Balakişi:
— Zeynəb qarı demişkən, tısbağanı öldürdün, ya arxası üstə çevirdin, heç bir fərq eləməz.
Xavər:
— Şəhərin bu zırhazırından, qonşuların guppultusundan azacıq qeyrəti olan kişi vallah-billah özünü asardı.
Xasay:
— Belə çıxır ki, qeyrətim yoxdu?
Gülçöhrə üzünü qonaqlara tutaraq əl-qoluyla:
— Niyə yoxdu? Bəyəm qeyrətinin yoxluğunu da özünə dərd eləyəcəksən?! Kişinin başı qalda gərək. Qeyrətinə Qara və Bala kişilər qurban, ay Xasay... Hamı deyib-deyib oturacaq yerində. Bacım-qardaşım, yaxanızı geri çəkməyin. Budu ha, deyirəm, Xasay özünə xətər yetirsə, qəsd eləsə, şəri sizin üstünüzdə qalacaq.
Qarakişi başını yellədi:
— A ha... Əcəb işə düşdük. Tona bax! Qara və Bala kişilər! Bu deyiliş də təzə hoqqadı? Bir də ki Gülçöhrə xanım, Xasayın şəri niyə dədən Nihadın yox, bizim üstümüzdə qalsın? Ot kökü üstə bitər, — deyiblər.
Xavər:





— Hi... Hi... Hələ çox şey olacaq. Nihad qurddu. O, kimə necə yanaşdığını yaxşı bilir.
Xasay:
— O, heç zad bilmir. Ömrünü bada verib. Nə özünə gün qazanıb, nə də nəvələrinə...
Xavər:
— Çox fəndgir adamdı. Taxtasının altında Alah bilir, nələr yatır. Zalım oğlu heç olmasa Gülçöhrəni nəzərə alaydı.
Gülçöhrə:
— Havayı yerə dədəmə deməyiblər: “Zakon Nihad”, “Fəndgir Nihad...”
Qaraikşi:
— Bu yaşa gəlmişəm, kürəkəninə Nihad kimi priyom işlədən görməmişəm.
Balakişi:
— Düz deyirsən, Qarakişi. Nihad bu yekəliyə generalı birinci raundda nakauta saldı. Ha... Ha... Ha...
Xasay:
— Salıb, əvəzin də alacaq.
Xavər:
— Necə?
Qarakişi:
— Məncə onu oturub soyuq başla fikirləşmək, götür-qoy eləmək lazımdı.
Balakişi:
— Ayə, uzun-uzadı vaxt itirmək lazım döör. Gülçöhrə çox tədbirlidi. Dədəsinin evinə bir limonka atsın, bununla da işi bitirsin. Xasayın da canı qurtarsın. Qapı, pəncərələri sökülüb dağılsa da, qalsın nəvələrinə.
Xavər:
— O dediyin limonka hardadı?
Qarakşi:

— Eşitməmisiz, çoban istəsə, təkədən pendir tutar?.. Ağakişidə nə az, nə çox, üçü var.

Gülçöhrə:

— Dayanın... Dayanın. Dədəmin evinə niyə mən limonka atmalıyam?

Balakişi:

— Əvvəla, səndən şübhələnməz. İkincisi, onun evinin qibləsini kim bilir? Sonrası da səndən savayı, onun evinə bizlərdən kim gəlib gedir ki?

Gülçöhrə:

— Onda bir çimdik də zəhər tapıb gətirin.

Hamı bir-birinin üzünə baxdı. Sonra Xasay arvadına dedi:

— Zəhər kim üçündü?

Gülçöhrə:

— Sənin üçün. Sən ölsən, düdüklərin — yəni Ağa, Qara və Bala kişilərin qollarına qandal vurdurmaq da asan olar. Bu saat polisə zəng çalıb, Ağakişidə üç limonka olduğunu deyərəm, polisə özünüz cavab verərsiz.

Qarakişiylə Balakişi bir ağızdan Gülçöhrəyə təşəkkürlərini bildirdilər. Gülçöhrə telefon nömrələrini yığdı. Xasay ondan dəstəyi aldı.

Xasay:

— Mənim xatirimə, qurban olum, eləmə. Mən də ilişərəm. Onsuz da bu işə az xərcimiz çıxmayıb. Polis məsələdən yerliyataqlı hali olsa, dələdüz damğası vurub məni atacaqlar içəri.

Gülçöhrə:

— Belə qorxursan ha... Bəs kişiliyin?

Qarakişi:

— Xasay, o səndə yoxdu.

Balakişi:

— Nə desən olar.

Gülçöhrə Balakişiylə Qarakişiyə:





— Tüpürüm sizə də, sizin düşüncələrinizə də. Durun vızqırdın burdan.

Xavər:

— Neyləsinlər?

Gülçöhrə:

— Vızqırtsınlar!..

Qarakişiylə Balakişi dalın-dalın otaqdan çıxdılar. Gülçöhrəylə Xavər qəhqəhə çəkdilər. Xasay da handan-hana onlara qoşulub güldü. O, birdən ciddi görkəm aldı.

— Atamın goru haqqı, dədənin başı xarabdı. O, nə ifadələrdi işlədib: insani hisslər, şərəfsiz əməllər, idrakı korlar, mənəviyyatı boş antipodlar, cəmiyyətə qəmiş olan avantürüstlər... Görəsən, dədən utanmır nəvələrindən?

Gülçöhrə atıldı:

— Sənin atan bəyəm yaxşıydı? Sən neylədin ki, mən neyləyəm?

Xasay:

— Dədən qanmır ki, mən xalama niyə girişmişəm? Zeynəb qarı demişkən: “Ayının min oynu var, bir armudun başında”. Bax, onun tifillərindən ötrü. “Ağlayışın bilməyən, ölüsün bozzar deyib çağırar”. Dədən də ağlayışın bilmir.

* *
*

Son vaxtlar söz-söhbəti səngiyən Xasayın səs-səmiri də kəsilmişdi. Əsmayə cümə günü olduğundan ərinin qəbrini ziyarətə getdi. Sinə və baş daşının tozunu sildi. Ağladı-ağladı, ayağa qalxanda otuz-qırx addım aralıda bir yaşlı kişinin avazla “Yasin” oxuduğunu gördü. Fikirləşdi: — “Nə yaxşı oldu. Üç-beş manat verib Nuruşa da bir “Yasin” oxutdurum. Rəhmətliyin ruhu şad olsun...” Gözlədi, kişi ayağa qalxanda ona yaxınlaşdı:

— Salaməleyküm.

— Əleyküm-Əssalam...

— Qardaş, "Yasin" oxuduğun nəyindi bilmirəm, qəbri nurla dolsun.

— Xanımımdı... Sizinkilərlə bahəm.

— İstəyirəm, rəhmətlik ərim üçün də, vaxtın varsa, bir "Yasin" tapşırasan. Hesabı nədi, məndən alasan.

— Xanım, mən pulla "Yasin" oxumuram. Gəlmişəm, deyirsən, niyə də oxumayım? Qaldı vaxta, təqaüddə olan adamam. Bir zaman universitetdə ərəb dilindən dərs demişəm. "Yasin"i də onda öyrənmişəm. Rəhmətliyin adı nəydi?

— Nuruş.

Kişi "Yasin"i oxudu. Ayağa qalxanda soruşdu:

— Olmaya qəzetdə Xasayın dərsini verən Əsmayəsən?

— Hə... Gərək yadıma salmayaydın... Baş qızanda, hisslər coşanda adam neylədiyini bilmir. O zamankı səhvim indi də mənə utanc gəirir.

— Özü vadar eləyib. Sizi başa düşürəm. Sizə qarşı elə kontöy hərəkətini ona bağışlayanmadım. Mən də cavab verdim.

— Yoxsa, siz də Nihadsız.

— Nihadam, xanım, Nihad.

Əsmayə bir anlığa qəbiristanlıqda, ərinin baş daşının qarşısında olduğunu unutdu. Astadan başını bulayıb güldü. Handanhana dedi:

— Deməli, Xasayın qayınatası, Gülçöhrənin dədəsi.

— Hə...

— Bizim bir-birimiz barəsində gərək ki, məlumatımız olsun. Ay Nihad, bağışla məni. Gəlib deyəcəm. Qızın elçiliyə gəlmişdi, mənə... Səninçün.

— Ee... Xeyli düşdülər üstümə ki, səni mənə alsınlar. Guya mənə hörmət eləyirlər. Məni bağışla... Dedim, a bala, özünüzə əziyyət verməyin, heç zad yoxdu, bu yaşdan sonra olmayacaq





da. Mən də o xanım kimiyəm...

Əsmayə qəşş elədi. Özünü saxlayanmayıb nə vaxtsa, tökülmüş mişar daşlarından birinin üstündə oturdu. Qadının əyləşdiyini görən Nihad da qarşıdakı daşın üstündə əyləşdi. Üzbəüz dayandılar.

Əsmayə:

— Ay pir olmuş, gör, mən nə dedim? Dedim ki, hay-hayım gedib, vay-vayım qalıb. Gedin, özünüzə iş tapın... Xasay aləmi çalxaladı. Yüz oyundan çıxdı.

Nihad:

— Mənim başıma açdıqlarını səndən uzaq it eşitsə, quyruq bulayar. Axırda nəyim vardı aldılar əlimdən... Nəvələrə görə güzəştə getdim...

— Bəlkə qızın sənə deyə? Bizi evləndirməkdə bunların məqsədi nəydi?

— Nə olacaq? Sonra da uşaqları evə qeydiyyata aldırmaq. Biz öləndə evlər qalsın onlara. Gəlib, qırışmallar açıq demirlər. Başlayırlar mız-mız mızıldamağa.

— Ay Nihad, deməli, mən də onları düz başa düşmüşəm. Qəzet əhvalatından sonra ağlıma belə bir fikir gəlib.

— Nə fikirdi o?

— Bilirsən ki, hər il kimsəsiz uşaq evlərindən nə qədər gənc xudahafizləşir. Onların nə təhsiliylə, nə səhhətləriylə, nə işləriylə, nə də harda qalmalarıyla maraqlanan var. Beş otaqlı mənzildi. Satacam. Bir az da rəhmətlikdən qalan puldan üstünə qoyub bir otaqlı beş mənzil alacam. Birini götürəcəm özümə. Sonra gedəcəm kimsəsiz uşaqlar evinə. Sevişənlərin kəbinlərini kəsdirib, evlərin açarlarını verəcəm onlara. Qoy gedib rahat yaşasınlar, xoşbəxt olsunlar orda. Yoxsa, evsiz-eşiksiz o uşaqlar bədbəxt olacaqlar. Bu olsun həm bu dünyam, həm də o dünyam mənim . Ölsəm, heç olmasa, ruhum dincələr. Necə baxırsan, bu işə?

Nihad xeyli fikrə getdi. Üst dişləriylə alt dodağını dişlədi. Çöhrəsində handan-hana işıq yarandı, başını qaldırıb göyə baxdı və dedi:

— Əsmayə xanım, doğrusu, bu fikir mənim ağlıma heç gəlməyib. Mən sənin fikrini alqışlayıram. Dörd otaq da məndə var. Sən qadınlığınla... Gəl, mənimkini də sataq. Beş səndə, dörd məndə, olsun doqquz otaq. Birində ikimiz yaşayaq. Bu şərtlə ki, kəbin kəsdirək. Naməhrəmcəsinə yox. Həm bir-birimizə həyan olaq, həm də hansımız tez dünyasını dəyişsə, o birimiz tapşırsın onu torpağa. Xasaydan bizə dalda olmayacaq. Özümüz də notariusda bir sənəd təsdiqlətdirək: “Qalan daşınan və daşınmayan əmlakımız kimsəsiz uşaq evini qurtaran ailəyə verilsin”. Buna nə deyirsən?

— Kişi sözünə nə deyəcəm, ay Nihad.

Nihadla Əsmayə deyə-gülə qəbiristanlıqdan geri qayıtdılar.

* *
*

Tez bir zamanda böyük söz-söhbətə səbəb olan qocaların xeyriyyəçiliyi televiziya studiyasında maraq doğurdu. Studiyada canlı toplanış keçirmək qərara alındı. Toplanışa ziyalılar, yazıçı və şairlər, iş adamları, sadə kütlənin nümayəndələri, Əsmayə, Nihad və Xasay da dəvət olundular. Aparıcı qız ürək yanğısıyla sözə başladı:

— Hörmətli tamaşaçılar! Bu bir həqiqətdir ki, uşaqlarımızın xoşbəxt gələcəyi bizdən asılıdır. Uşaqlar yoxsa, gələcəyimiz də yoxdur.

Mən bəzəksiz-düzəksiz, əsaslandırmasız-filansız birbaşa mətləbə keçmək istəyirəm. Respublikamızda bir neçə kimsəsiz uşaq evi fəaliyyət göstərir. Müəyyən dövr üçün dövlət onları himayə eləyir, təhsil verir, səhhətləriylə maraqlanır... Təhsil





dövrü başa çatdıqdan sonra onların hər biri öz doğma yuvalarından xudahafizləşməli olurlar. Birdən-birə qayğıdan məhrum olan bu uşaqların taleyi heç kimi maraqlandırmır. Yataqxana yox, valideyn sığınacağı yox, iş yox, təhsillərini davam etdirmək imkanı yox... Yox... Yox... Bəs bu gənclər neyləməlidir? Onlarla kimlər maraqlanmalıdırlar? Mən üzdə olan problemləri sadalayıram. Sizi bura dəvət eləməkdə məqsədimiz yollar aramaqdı. Bu gənclərin aqibəti necə olacaq?! Mənə elə gəlir ki, bunların hər biri bu günün, sabahın real cinayət törədiciləridi. Onları cinayətə kim təhrik eləyir? Hörmətli tamaşaçılar, toplanış iştirakçıları, etiraf eləyək ki, onlar kimsəsiz uşaq evini tərk eləyib hara gedirlər, onda adamı dəhşət bürüyür: türməyə!.. Axı, bu uşaqlar bizimdi... Tez-tez “Xalq”, “Millət”, — deyə hayqırırıq. Söz o zaman söz olur ki, o əmələ çevrilsin... Gənclərin taleyi barədə düşünməliyik... Ona görə də istərdim dəvət olunmuş hər kəs öz düşüncələrini ifadə eləsin. Şübhə elmirəm ki, aidatı olan hökumət nümayəndələri də bizi eşidəcəklər... Yəqin ki, müzakirənin real nəticələri olar. Xahiş eləyirəm, danışmaq istəyən əvvəl özün təqdim eləsin.

Orta cərgədə əyləşən dolu bədənli, sarıbəniz bir qadın mikrofona yaxınlaşdı: — Sevda Kələntərli, müəllimə.

— Xanımlar və cənablar! Müzakirəsinə toplaşdığımız məsələ olduqca aktualdı. Aparıcı danışdıqca ürəyim oyulurdu. Qüdrətli dövlətimiz var. Vətəndaşların güzəranı da çox yaxşıdı. Heç kəsi tənqid eləmək istəmirəm. Təkcə xeyirxahlığımız, gəncliyə sevgimiz, məhəbbətimiz lazımdı. Hər iki yüz adam yığılıb bir ailə üçün mənzil təşkil eləsə, məncə o problem artıqlamasıyla həll olunar. Buna istək, insani məsuliyyət, məsuliyyət və yenə də məsuliyyət lazımdı...

Qadın keçib öz yerində əyləşdi. Onu əlli yaşı olar-olmaz bir kişi əvəz elədi: — Fazil Xəlilov, bənna.

— Xanım yaxşı danışdı. Mən yalnız təkliflərimi verə bilə-

rəm. Respublikada güclü tikinti gedir. Çoxmərtəbəli yaşayış evləri tikilir. Ola bilməz ki, iş adamları tikdikləri hər binadan çox demirəm, bir-iki mənzil ayırıb xeyriyyə yolu ilə ailə quran kimsəsiz uşaqlar evinin məzunlarına versinlər? Yaxud dövlət yataqxana inşa elətdirib o kimsəsizlərə, imkansızlara versin? İş şəraiti yaratsın? Onlar da işləsinlər, özləri üçün mənzillər alsınlar. Köçüb gedəndə də yataqxanadakı həmin otağı arxadan gələn kimsəsizlərə versinlər. Adam danışanda qızışır. Mən qara fəhləyəm. Palçıqla, kərpiclə oynayıram. İmkansızlığın nə olduğunu yaxşı bilirəm. Nə qədər ki, belə gənclərə qucaq açmamışıq, nə qədər ki, mərhəmətimizi, qayğımızı əsirgəyirik, gərək onlardan da heç nə ummayaq. Umsaq da xeyri olmayacaq. Əksinə, bizə nifrət eləyəcəklər. Azərbaycan cəmiyyətində yaşasalar da...

Aparıcı:

— Mən iş adamlarını eşitmək istərdim.

Qəzənfər Fərəcov, tikinti iş adamı:

— Mənə elə gəlir ki, iş adamları bu məsələni özbaşına həll eləyənməzlər. Yuxarıdan desələr, biz də məmnuniyyətlə eləyərik.

Aparıcı:

— Siz bina tikib istədiyiniz qiymətə satırsız. Obyekt sizindi.

— Bəli!

— Fərəcov, sizə kimsə göstəriş verməlidi ki, cibinizin pulundan, yaxud mənzilinizdən bir otaq fəqir-füqəraya verin, ya verməyin?

— Xanım, dərd birdi-ikidi elə bilirsən? Biz vergi veririk. Vergidən azad olsaq, o başqa məsələ. Yer almağa ver. İcazəyə ver. Layihəyə ver... Ona ver, buna ver. Materialın da qiyməti çıxıb dağ başına. Əmək haqqı da onlardan betər. İndi də deyirsiz kimsəsizlərə yardım eləyək? Bəs bizə kim əl uzadacaq?..

— Aydındı. Əyləşin, Qəzənfər bəy!





Aparıcının istehzası Qəzənfər Fərəcovun xoşuna gəlmədi, istədi qayıdıb cavab versin. Yanında əyləşən yoğun, dazbaş ətəyindən tutub onu əyləşdirdi.

Aparıcı üzünü zala tutdu:

— Biz hörmətli yazıçı və şairlərimizin də bir neçə nümayəndəsini verilişimizə dəvət eləmişik. Onları da eşitsək, pis olmazdı.

Orta yaşlı yazıçı Seyfulla Seyfullayev ağır-ağır ayağa qalxıb mikrofona yaxınlaşdı. Boğazını arıtlayıb təmkinlə sözə başladı.

— Verilişə zəhmət çəkib gələn xanımlar və cənablar, hörmətli tamaşaçılar! Mən müzakirəyə qədər problemdən xəbərsiziydim. Gərək müzakirə ediləcək problem iştirakçıların hamısına olmasa da, yazıçılara, şairlərə əvvəlcədən sızdırılaydı. Onda biz fikirləşərdik, problemin bizə dəxli var, ya yoxdu. Yaxud bu verilişə gələk, ya gəlməyək. Nəzərinizə çatdırım ki, bizim nə evimiz var, nə də pulumuz. Bizi məmurlarla, oliqarxlarla üz-üzə qoymayın. İmkanımız olsa, kitabımızı çıxartdırarıq.

Aparıcı:

— Hörmətli yazıçı. Tarixən böyük yazıçılarımız, şairlərimiz, söz dühalarımız olub. İndi də var. Onların qarşısında baş əyirik. Biz sizin müzakirəyə qoşulmanızı istərdik.

— Çox nahaq. Siz araqızışdırıcısız. Bizim ayağımızın altını qazırsız. Sabah çağırıb atamızı yandırmazlar?

— Çox təəssüf. Biz də boşboğaz yazıçıların uydurmalarına az vaxt itirməmişik. Əyləşin, Seyfulla Seyfullayev. Bəlkə ziyalılarımız öz sözlərini deyələr.

Yaşlı alim mikrofona gəldi. Mehmandar Mehmandaroviç, professor:

— Təəssüf ki, adını unutdum. Deyəsən, cənab özünü yazıçı kimi təqdim elədi. Doğrudu, mən onun əsərini oxumamışam. Ancaq sözlərində həqiqət var, qızım, gərək qüsurunu deyəndə əsəbiləşməyəsən. Televiziya çox böyük və nüfuzlu auditoriyadı.

Gərək bura gəlməzdən hər şeyi razılaşasan. Yüz ölçüb, bir biçəsən. Çağırmısız bizi, şarpdan-şurpdan məsələni atmısız ortaya. Qara fəhləyə, müəllimə ağızlarına gələni, ağıllarına yox ha, təkrar eləyirəm, ağızlarına gələni nə varsa sonalamadan, dalını-qabağını fikirləşmədən atdırırsız ortaya. Biz ziyalıyıq. Bizə vaxt lazımdı, düşünək, ölçək-biçək. Özümüzü işə salmayaq. Təklifim nədi? Bir toplanışda bu problemi həll eləmək olmaz. Daha geniş ölçüdə toplanış keçirilməlidi. Rəhbərliyi də məsələylə agah eləməlisiz. Saxlayın bu tədbiri başqa vaxta.

— Belə çıxır ki, siz söz deyənmirsiz. Ona cəsarətiniz çatmır, yoxsa savadınız, professor.

— A bala, sənin dilin də zəhərdi.

— Əyləşin, hörmətli professor. Biz studiyamıza iki maraqlı şəxs dəvət eləmişik. İstərdik, onları da eşidək. Lazım bilsəniz, sonra yenə müzakirəni davam elətdirərik. Bu adamların hər ikisinin səksəndən yuxarı yaşı var. Saf əqidə, təmiz vicdan sahibidilər. Heç kimə məsləhət eləmədən kimsəsiz yeniyetmələrə fədakarlıq göstəriblər. Onların xeyriyyəçiliyi yaşından, vəzifəsindən, nüfuzundan, mövqeyindən asılı olmayaraq hamıya nümunədi. Bunlar kimlərdi? Şükürlü Əsmayə Qüdrət qızı və Ümidli Nihad Hilal oğlu. Qocalar verlişə gəlmək, özlərini kimlərəsə göstərmək istəmirdilər. Onları biz müzakirəyə güc-bəlayla gətirmişik. Qocalar özləri danışmaq istəmirlər. Onların xeyirxahlığı barədə mən söz açacam. Qoy hamı bilsin ki, xeyriyyə üçün zəngin əxlaq, mənəviyyat lazımdı. Şükürlü Əsmayə Qüdrət qızının beş, Ümidli Nihad Hilal oğlunun isə dördotaqlı mənzilləri vardı. Onlar öz mənzillərini satıb birotaqlı doqquz mənzil alıblar. Hazırda birində özləri yaşayır, kimsəsiz uşaq evinin yetirmələrini evləndirib səkkizinin açarlarını onlara veriblər. On altı kimsəsiz yeniyetmə evlə təmin olunub. Notariusla müqavilə bağlayıblar ki, dünyalarını dəyişəndən sonra da birotaqlı mənzillərini kimsəsiz gənclərdən ailə quranlara versinlər. Əzizimiz





Qəzənfər Fərəcov, hörmətli Seyfulla Seyfullayev, möhtərəm Mehmandar Mehmandaroviç, bu qocalar vicdanlarının səsiylə hərəkət eləyiblər... Şəxsən bu adamların qarşısında baş əyməliyik. Xalqına, millətinə, vətəninə xidmət eləməyən iş adamı da, yazıçı da, elm nümayəndəsi də belində ağır yük daşıyan dəvəyə bənzər.

Bayaqdan Nihadla Əsmayəyə çəp-çəp baxan Xasay bu sözləri eşidib yandığından dayananmadı, birbaşa mikrofona tərəf qaçdı. Ucadan özünü təqdim elədi. Xasay Əlləş oğlu Mıxıyev, işsiz:

— Xanımlar və bəylər! Mən Əsmayə qarıyla Nihad qocanın hərəkətlərini pisləyirəm. Bu adamlar Allahın iradəsinin əleyhinə getmişlər...

Veriliş iştirakçıları arasında xısın-xısın düşdü. Heç kim heç nə anlamadığından məcbur olub Xasaya qulaq kəsildilər. O, sözünə davam elədi.

— Uşaqları kimsəsiz Allah eləyib. Qurban olduğum yəqin belə məsləhət bilib. Lazım bilsəydi, o evləri kimsəsizlərə özü verərdi. Bəyəm, onun əlində bu, elə çətin işdi? Xalam Əsmayə də, qayınatam Nihad da fanatikdilər. Onlar özlərini xalqa yaxşı göstərmək üçün bu əcaib yola əl atıblar.

Zal gülməkdən uğundu. Aparıcı çox çətinliklə zalı sakitləşdirdi. Xasay sözünə davam elədi:

— Mənim fikrimcə, o evlər geri qaytarılmalıdı. Xalamla qayınatam neylədiklərini bilmirlər. Ay camaat, onların yaşları səksəni keçib. Bu yaşda evlənən adamların ağlı varmı? Kimdi bunlara kəbin kəsən? Onları mən məhkəməyə verəcəm. Əşi, Allah eləməsin, bunlardan dünyaya uşaq gəlsə, o, normal olarmı? Əsla yox. İndi özünüz qiymət verin...

Adamlar mat-məəttəl Xasaya baxdılar. Qonaqlardan kimsə özünü saxlayanmadı:

— Öl yerində, alçaq. Qəzetdəki məqalələri də oxumuşam.

Yaşlı bir qadın ayağa qalxdı:

— Adım Şərəf, soyadım İslamzadədi, evdar qadınam. Mən bilmirəm, Xasay kimi belə sarsaq bu məclisə hardan düşüb? Çağırın, polis gəlib aparsın onu.

Aparıcı:

— Qansa, deyilənlər ona kifayət edər.

Xasay yerindən qalxaraq dedi:

— Mənə bu həyatla türmənin fərqi yoxdu. Bircə şeyi nəzərinizə çatdırım ki, Əsmayəylə Nihad xəyanətkardılar. Özü də Allaha... Qohum-əqrəbalarına...

Əsmayə:

— Sağ ol səni, Xasay!

Nihad:

— Özgə cibində gözü olanın aqibəti belə olar, Xasay.

Aparıcı gülümsünərək verilişi yekunlaşdırdı:

— Biz problemi açıb göstərdik. Qalmaqallı keçən bu müzakirə bizə çox şey verdi... Sağ olun, gələn görüşlərədək...

***2008***





# Tənha çinarın pıçıltıları

***İnsanları yaxından tanıdıqca***
***itlərə sevgim çoxalır.***
**D.M.Dostoyevski**

***İstəmədən doğuluruq, əzabla***
***yaşayırıq, həsrətlə ölürük.***
**Sədi Şirazi**

## Proloq əvəzi

Son zamanlar, demək olar ki, tez-tez halbahal oluram. İçim oyulur. Deyəmmərəm nədəndi? Əvvəlcədən bildirirəm, bu barədə nə qədər baş sındırsam da, söz yox ki, cavabını tapammayacam. Əbəs yerə özümü yoracam...

Ruhumda əlvan çalarlar yaradan “Tənha qadın”, “Tənha qoca” ifadələrini çox eşitmişəm. Qəribədi, o ifadələr hər dəfə yadıma düşəndə onların məna tutumu, emosional təsir gücü məni silkələyir. Daha dərindən düşünməyə vadar eləyir. Səhvdi, düzdü — deyəmmərəm. Canımda biri digəriylə barışmaz mövqedə dayanan dolaş-bulaş iki duyğu doğulur və gözlərim önündə bu duyğuların yaratdığı ziddiyyətli mənzərələr açılır. Bu, nəylə bağlıdı? Bəlkə mənim mütəmadi dolub-boşalan, bəzən sərtləşən, bəzən mülayimləşən, lap muma dönən qəlbimlə? Ya həmin çoxçalarlı ifadələrin beynimdə doğurduğu hüceyrələrin çılğın təsiriylə...

Nəsə, çox müəmmadı. Kimsə deyə bilər: bu barədə heç düşünməyə dəyməz; elənçiyə qalsa, onlara bənzər o qədər ifadələr var ki, dildə; onlara baş sındırsan, vaxt itirsən, haralara gedib çıxarsan... Bu, bəlkə də həqiqətdi. Ancaq mən elə düşünmürəm... Axı, hər sözün, ifadənin bətnində bizə bəlli olmayan neçə-neçə sirlər yatır. Onların hər biri də bir müəmma. Açığını deyim ki, başımda fırlanan, beynimdə qıcıq yaradan bu müəmmalar məni az qala yorur. Deyəmmərəm, hansı zərurətdəndi, ya təsadüfdəndi. Əsası odur ki, onlar məni düşünməyə təhrik eləyir...

Bəli, "Tənhalıq nə olan şeydi?" sualı ətrafında düşündükcə gözlərim önündə kimsəsiz, arxasız, əlini fani dünyasından üzməkdə olan, doğmaları tərəfindən atılan, yalqız kimsə canlanır. Ona da təəssüflənirəm ki, hərdən hardansa uçub gələn qeyri-adi bir qüvvə içimi çalxalayır. Nə gizlədim, mən də qəribə adamam. İçimdə milyon-milyon sirlər yatır. Dünyaya mən də hamı kimi, sadədən-sadə gəlmişəm. Mən Aran, ağlım söz kəsəndən tükənməz arzularla, böyük ümidlərlə, coşğun ehtiraslarla yaşam uğurunda gecə-gündüz çarpışmışam. Rüzgarın min bir qovğalarına sinə gərmişəm. Yaşam ərzində mənəvi yüksəlişimi duyduqda, mütəmadi axtarışlara atılmışam. Ömrüm boyu əlahiddə cəsarət və hünərimə arxalanaraq öyünə-öyünə, bəzən niskilli, bəzən küskün, bəzən də qubarlı hallarımda min bir əzab-əziyyətlərə qatlaşaraq əlləşə-əlləşə, vuruşa-vuruşa elədiklərimi qoruyub əlimdə saxlamağa səy göstərmişəm. Buna baxmayaraq, son mənzilimə yan almaqda olduğum indiki ixtiyar çağımda özümü yenə kimsəsiz hiss eləyirəm. Səbr və təmkinlə fəaliyyətimi tənzimləyərək hər cür əxlaqi-mənəvi keyfiyyətlərimi ruhumda ehtiva eləməklə müdrikləşməyə çalışıram. Təmkinliyimi, məğrurluğumu, vüqarlığımı, əzəmət və möhtəşəmliyimi, qüdrətimi mərdanəliklə qoruyub saxlamağa cəhd eləyirəm. Bacım, bacım balaları istisna olmaqla, təkrar eləyirəm, bilməm nədəndi, hərdən özümü tək, tənha, yalqız duyuram. Bəlkə də hissə qapılıram. Ancaq həqiqət budu ki, tənha sözünün məzmununda iç titrədən nəsə var. O, guppuldayan quvalt, susmaq bilməyən zınqırov səsi kimi qulaqlarımda əks-səda verir. Qəlbimə bədbinlik, ruhuma qaragünlük, ürəyimə sızıltı gətirir. İçimi inilti, həsrət, göynərti, kimsəsizlik, qəriblik, təklik, gücsüzlük çalarlarıyla doldurur. Tənhalıq... Tənhalıq və yenə də tənhalıq... Nə isə...





İnsan taleyini mən Aran həmişə bir möcüzə sanmışam... Taleyin elə ağlagəlməz, tükürpədici məqamları var ki, min illərdi böyük dühalar belə nə qədər baş sındırsalar da, onların nədən və hardan qaynaqlandıqlarını, özlərini qamarlayan hislərin necə cərəyan elədiyini müəyyənləşdirə, onlara izah verə bilməyiblər... Olsa-olsa baş verənlər barədə hamının görə və duya biləcəyi təəssüratları əlvanlığı və təfərrüratıyla şərh eləməyə çalışıblar. Ona görə də onların həmişə ən tutarlı, qəti fikirləri belə olub: İnsan qəribə və çox mürəkkəb məxluqdur... Tək qalanda, cəmiyyətdə öz yerini tapanmayanda, özünə qapılır, ruhi-psixoloji hal keçirir, tənhalaşır, ümidlərini Allaha bağlayır, onunla ünsiyyətə qoşulmağa, axtardığını onda tapmağa çalışır. Qarşılaşdığı hər şeyə dözür... Əslində mən də o əqidədəyəm və ondan bir addım da qabağa çıxa biləcəyimə əmin deyiləm...

## Özünü tanımayanın gələcəyi...

Heç yadımdan çıxmaz. İyun ayının ortalarıydı. Əməllicə-başlıca istilər qopmuşdu. Əslində, bu istiləri yayın adam qarsıyan od-alovu da sanmaq olardı. Açığını deyim, başqalarını deyəmmərəm, canıma hopmaqda olan bu qənirsiz istiyə mən dözəmmirdim. Ürəyim sıxılırdı. Elə bil əl-ayağımı uzadıb bu tək-tənha otağımda ömrümü birdəfəlik Əzrailə tapşıracam... Yaxud da indiki dar macalda heç bir şeyin fərqinə varmadan harasa tələsirdim... Ona görə də əlacsızlıqdan canımı qoymağa yel çəkən, sərin bir yer axtarırdım. Şübhəsiz-filansız bilirdim ki, bu yandırıcı günəşli günün axşamı da aləmi təngişdirən bürkü olacaq... Hamını gözlərinin acısını dərməkdən daha çox qarışıq həyətlərdə, dar dalanlarda, küçə darvazalarının qənşərində kətil qoyub üstündə əyləşərək sərin hava almaları düşündürürdü. Hələ bu azmış kimi, kök, tosqun qadınlar əllərinə yelpik alıb üzlərini, sinələrini yelpikləyərək, üz-gözlərindən, boyun-boğazlarından gilə-gilə axmaqda olan tərlərini qurutmağa çalışacaqdılar... Kişilər də dərindən ah çəkərək tənbəl-tənbəl köynəklərinin yuxarı düymələrini açaraq güc-bəlayla nəfəs alıb — Ürəyim az qala yerindən çıxır, — deyəcəkdilər. Bu sayaq gündüzün gedişindən çox, bürkülü gecənin gəlişi hamı kimi məni də narahat eləyirdi. Nə gizlədim, gecənin gəlişindən elə bil qorxurdum. Ürəyimə dammışdı ki, nə isə anlaşılmaz bir şey baş verəcək. Ona görə də özümü gələcək təhlükəyə bir növ psixoloji cəhətdən hazırlayırdım. Onu da deyim biləsiz ki, mən bir az həm əsəbi, həm təkəbbürdən uzaq, həm də diqqət sevən adamam. Çox yaxşıydı ki, əvvəlki günlərdən fərqli olaraq, bu gün heç kəsə əsəbiləşməmişdim. Kimsəyə qan qaraldan söz deməmişdim və heç kimdən də narahatlıq doğuracaq bir şey eşitməmişdim. Ancaq getdikcə nədənsə hövsələm daralırdı. Doğrusu, nə qədər





götür-qoy eləsəm də, bu narahatlığımın səbəbini anlamırdım. Bizim Zeynəb qarının filosofanə "səbəbsiz nəticə olmur" fikrinə əsaslanıb, narahatlığımın fərqindəydim və onun nədənliyinin axtarışındaydım...

Neçə vaxtıydı ki, yağmırdı. Həyətdəki qovaq ağacının yarpaqları istidən qıvrılmış, gümüşü rəngə çalan arxaları isə toz-torpaqdan qaralmışdı. Qarşısında artırması olan ikiotaqlı dar, rütubətli, havasız evimdə bu axşam necə yatacağımı fikirləşəndə halbahal olurdum. Oynaq ağrılarımın tez-tez tutmasını da, ayaqlarımın buza dönməsini də, qıç sümüklərimin giziltilərini də yaşadığım zirzəminin rütubətiylə əlaqələndirirdim. Xatırladım ki, zirzəmidə yerləşən bu otaq mənə çox əziziydi. Mən və məndən kiçik yeganə bacım bu mənzildə doğulmuşduq. Mərhum atam burda dünyaya göz açmışdı. Anam da bu evə gəlin gəlmişdi. Hər ikisi də burada dünyalarını dəyişmişdilər. Bacım on səkkiz il qabaq burdan ər evinə köçmüşdü. Ömür sürdüyüm, lakin çoxlarının bəyənmədiyi, nəyim var, nəyim yoxdunu düşünməyənlərin ağız büzdükləri bu mənzildə elə bilirəm mənim acılı-şirinli ən əziz xatirələrim yaşayır. Divarlarına, tavanına valideynlərimin nəfəsi hopub, onlardan mənə miras qalan əşyalarda ata-anamın əl izləri var. Bura bacım üçün də doğmadı, əzizdi... Ona görə də bu mənzili başqasına dəyişməyi ağlıma gətirəmmirdim. Elə bilirdim burdan köçmək etinasızlıqdan çox, mənim indiyə qədərki həyatımdan, nəsli-nəcabətimdən üz çevirmək olardı...

Əvvəla, bu otaqda xeyli kitab, jurnal, qəzet məqaləsi yazmışdım. Bu ünvanda yaşayıb, qonşular, tanış-bilişlər arasında az-çox hörmət-izzət qazanmışdım. Məhəllədə hamı məni xeyir-şərinə dəvət eləyirdi. İşləyib özümə yetər məvacib alırdım. Ehtiyacsız-filansız yaşayırdım. Ömrümə calanmış, qismətimə yazılmış valideynlərdən mənə qalan bu otaqda bundan sonrakı həyatımı da yaşayacağımı düşünüb, təkcə rütubətə qarşı necə müba-

rizə aparacağımı götür-qoy eləyirdim. Təkcə soyuqlar düşəndə, yağış-qar qapının ağzını kəsdirəndə gecə-gündüz qaz peçini yandırır, otağın nəfəsciyini açıram. Bu yolla rütubətli hava, mənzilə toplanan qaz nəfəscikdən çıxır, qəza təhlükəsi yaranmırdı. Divarlardakı rütubət demək olar ki, çəkilib gedirdi. Pisi oydı ki, meh əsən kimi bayırdakı toz-torpaqla döşəmə, çarpayıların, stol-stulların... altı və üstü qara günə düşürdü. Hər gün ev-eşiyi silib-süpürmək mənim üçün dözülməz işə çevrilirdi. Ürəyimdə narahatlıq hiss eləyən bacıma nə qədər: — Etmə-eləmə — desəm də, son zamanlar vaxt-bivaxt ev-eşiyin təmizliyiylə, silib-süpürülməyiylə insafən, o özü məşğul olurdu. Evdə bir çox işləri görməyimə qadağa qoymuşdu. Paltarlarımın yuyulub ütülənməsini də o eləyirdi. Bir neçə dəfə mənə demişdi:

— Ay pir olasan, ay saqqalın ağarsın, nə vaxta qədər tək yaşayacaqsan? Bir yaşına, özünə uyarını tap, adını, ünvanını mənə de. Qalanı bacının işidi. Elə bilmə ki, sənə qulluqdan bezmişəm. Vallah-billah yox, istəyirəm, sən də rahatlıq tapasan. Yanında həyanın olsun. Altmışı haqlayıb yaşın... Sənə baxsın. Sən də bu yaşda adam kimi gün gör, mən də arxayın olum səndən.

Bacımın sözlərini qulaq ardına vursam da, heç bir sözünə müdaxilə eləmədən axıra qədər dinləyərdim. Heç vaxt sözünü kəsməzdim. Gülümsəyib, əlindən, saçlarından öpərdim. Bir dəfə də o, bu məsələyə çox ciddi qayıtdı. Mən: — Baxarıq, — deyə ondan ayrılanda qarşımı kəsdi:

— Səninləyəm, qardaş, yoxsa sözümü saya salmırsan?

Axır ki mən öz sözümü deməli oldum:

— Gecdi, bacı. Atalar deyib: "Səksənində öyrənən, gorunda çalar"... Bu xasiyyət ki, məndə var, heç bir xanım tab tutub oturmaz. Üz vurma...

— Niyə? Sənin xasiyyətinə nə olub ki? Qorxma, qadınlar da kişilər kimidi. Aralarında az fərqləri olur... Öyrənişəcəksiz. İki adamın öyrənişməsi bir sevgiyə bərabərdi.





Hər ikimiz ucadan gülüşdük. Mən yarızarafatla dedim:

— Xanıma gərək vaxt ayıram. Nazıyla oynayam. Əmrlərinə müntəzir dayanam. Bunları məndə görməsə, tezliklə bezəcək. Məndən ağlı bir şey kəsməyib qaçacaq. Düzmü deyirəm? Onda da gəl qınağa döz...

Bacımın halı dəyişdi. Sifəti bozardı, gözlərindən qətilik oxundu.

— Hə... Oxumuş olsan da, yazı-pozularında adamlara məsləhətlər versən də, özünə gün qazana bilmirsən. Kimlərəsə məsləhət vermək asandı. Səni yaxından tanıyan, ailə vəziyyətindən xəbərdar olan kəs yazı-pozularına qətiyyən inanmaz, Aran. Ailəsiz, arvad-uşaqsız adamın sonu necə olar? Mən təsəvvür eləyəmmirəm. Elə bilirəm, sənə baxıb, atamla anam məni məzəmmət eləyirlər. Deyirlər; sən yaxşı bacı olsaydın, qardaşın damın altında tək qalmazdı. Sənin tənha həyatın, tənha yaşamın məni məhv eləyəcək, qardaş.

Mən qəsdən dedim:

— Tənha niyə? Hər kəsin içində bir "Mən" də var. O "Mən" insanı tənhalıqdan azad eləyir. Bacım dinmədi.

Məni fikir götürdü. Eh bacı, bacı. Bu yaşda gedib kimə nə deyək? Kimi isti yurd-yuvasından eləyim? Bu gün ailə qurum, sabah övlad dünyaya gətirim. O birisi gün dünyamı dəyişim. Sonrası necə olsun. Bilə-bilə övladlarımı faciəyəmi atım? Öz əllərimlə doğmalarımı faciə dənizindəmi boğum? İndi səndən soruşuram: bu yaşda, bu tifilləri əcəb qaragünə saldın demiyəcəksən ki? Yox... Bacı sənə qurban olum, yox !..

# Bir gecənin təlatümü

Axşam gəzintisindən evə gec qayıdanda yatmağın vaxtıydı. Mətbəxdə bir stəkan qatıq içib çarpayıma uzandım. Xeyli vaxt yuxuya gedəmmədim. Sanki yatağıma qor tökülmüşdü. Fikir məni alıb hara gəldi aparırdı. Aranı dağa, dağı arana qatırdım: "Filankəs yanımdan niyə elə keçdi?", "Filan işi filan cürə niyə gördülər?", "İqtidarın adamları aşağılamağa, onların hüquq və azadlıqlarını, sərbəstliklərini əllərindən almağa ixtiyarı varmı?", "Kələkbazların sayı ölkədə niyə bu qədər çoxalır?", "Adamlar niyə bu qədər satqın olurlar?", "Əxlaqsızlıq niyə bu qədər həddini aşır?", "Məddahlıq niyə canımıza keçib?", "Məddahlıq insanlarda necə yaranır?", "İnsanlar o xəstəlikdən nə vaxt, necə xilas ola biləcəklər?", "Mən niyə belə oldum?".. kimi çoxsaylı suallara cavab axtarıram. Özümə və kimsəyə fayda verməyən fikirlərimi, kimlərlə nə vaxtsa, hardasa, nə səbəbdənsə aramızda olan mübahisələri, artıq-əskik dedi-qoduları, dava-dalaşları nə qədər başımdan qovub çıxarmağa çalışsam da, xeyri yoxdu, uzaqbaşı iki-üç dəqiqədən sonra yenə həmin fikirlər başıma köçür, beynimi qurd kimi qurdalayır, sinirlərimin oyanışı gözlərimi hədəqəsindən çıxarırdı. Çabalamaqdan, sağasola çevrilməkdən altımdakı döşəkağı qırış-qırış olurdu. Üstümdəki yorğan az qala barmaqlarımın ucuyla deşiləcəkdi. Bir an ara sakitləşdi. Sonra bir qadın məlahətli səslə iki, ya üç ağız məni Aran, deyə çağırdı. Başımı balıncdan qaldırıb ahəngi pozmadan, tarappa-turupla döyünən, heç hara, heç zaman tələsməyən, köhnə, ata-babadan qalma divar saatına baxdım. Nə az, nə çox, üçə beş dəqiqə qalırdı. Gecə-gecədən keçirdi. Yuxu məni heç cürə aparmırdı. Başımı yellədim. — Bu nə fəlakətdi, bu nə oyundu, yuxusuzluqdan başımı hara götürüm gedim, gözlərimin acısını harda alım? Gecənin bu vədəsində məni çağıran qadın





kimdi — deyə öz-özümə mızıldandım. Yəqin möcüzədi. Bacım başıma gələnlərdən halı olsaydı deyərdi: tənhalıq möcüzəsi.

Gözlərimi qırpmadan səhəri açacağımı, yorğun-arğın bütün günü işdə mürgü döyəcəyimi fikirləşdikcə əsəblərim gərilir, tarıma çəkilən sap qırılan kimi, az qalırdı ki, sinirlərim dağıt-duğut olsun. Üçüncü dəfə ayağa qalxıb yuxu dərmanının ikisini birdən atdım. — Əşi zəhərlənsəydim, ürəyimi dayandırsaydı, əzab-əziyyətdən canım qurtarardı, — dedim. Sonra da təzəcə aldığım, qan təzyiqini və ürək döyüntülərini ölçüb müəyyən eləyən tibbi cihazı götürüb biləyimə keçirtdim, təzyiqin və döyüntünün artdığını görcək halım əməlli-başlıca pozuldu.

— Hə, gözümüz aydın, yəqin şəkər də şahmar ilan kimi altdan yuxarı şığıyır — deyərək işığı söndürüb yenidən çarpayıma uzandım.

Dəhlizdə yanan lampanın işığı pəncərədən içəri axdığından otaq alatoranıydı. İçəridə nə vardısa, yarı-yarımçıq, adda-budda sezilirdi. Mən bircə-bircə otaqdakı əşyalara — stol-stullara, televizora, divardan asılmış mərhum valideynlərimin qoşa portretlərinə baxdım, sonra da gözlərimi tavana zillədim. Atalı-analı illərimi xatırladım. Bacımla aramızda tez-tez olan dava-dalaşlarımız, küsüşmələrimiz, heç beş dəqiqə keçmədən barışmalarımız gəlib durdu gözlərim önündə. — Qəribə həyatın qəribə məntiqi — deyə dərindən "ah" çəkdim. Səbəbini anlamasam da, nədənsə bir anlıq məni xoş hal bürüdü. Əvvəlki yuxusuzluq, nigarançılıq, narahatlıq, əsəbilik bir andaca əridi. Bərk təəccübləndim. Bir dəqiqə keçər-keçməz gözlənilmədən ətrafımı dairəvi (kürə şəklində) ağ işıq bürüdü. İşığa qərq olmuş, altmış yaşı olar-olmaz kişi və qırx yaşlarında qadın göründü. Arıq, qurnaz, sarıbuğdayı kişinin saçları səliqəylə yana daranmışdı. Əlində yarım metr olar-olmaz çubuq vardı. Olduqca ciddi görkəmliydi. Səma rəngli buz kimi soyuq gözlərində heç bir məna duyulmurdu. İlk dəfə gördüyüm bu yad adamın uzun, sarı və donuq sifə-

tinə mütənasib uzun burnu, yekə ağzı, qalın dodaqları vardı. Hiss eləyirdim ki, o, gözlərinin ucuyla da mənə baxmır. Mən ona adi bir əşya təsiri bağışlayırdım. Elə o da mənə eyni təsirdəydi. Gözlərimə görünən an ərzində elə düşündüm ki, o, olduqca soyuqqanlı və insan üzərində bir gündə yüz əməliyyat aparan, təcrübəli cərrahdı. Elə güman elədim ki, bu adam insan taleyinə həddən artıq laqeyd və qapalı, hissiz, duyğusuz bir şəxsdi. Başqa sözlə, robortuydu. Qadınsa tamamilə fərqliydi. Onun dolu bədəni, qarabuğdayı girdə sifəti, bir anda bütün varlığıma hakim kəsilən, ruhumu ovsunlayan qonur gözlərindəki cazibədarlıq məni tutdu. Sağ yanağındakı balaca qara xalı sifətində xüsusi ahəng yaradırdı. Mehriban və səmimi baxışları, təbəssümü bu qadına əlahiddə gözəllik verirdi. Hər ikisinin əyninə geydikləri dümağ xalat valehedici cazibədarlıqlarını bir qədər də artırırdı. Qadın uzandığım çarpayıdan yarım metr aralıda dayanıb xoş təbəssümlə məni başdan ayağa süzdü. Gözlərimiz qarşılaşdı. Baxışlarımız sanki dil açdı. Məni ömrümdə qarşılaşmadığım qəribə və anlaşılmaz hisslər bürüdü. Gecənin bu vədəsində onların gəlişlərinə məmnun qaldım və qənirsiz sevincimdən: — Xoş gəlmisiz, — dedim. Qadının da eyni hissləri, düşüncələri keçirdiyini duydum. Üzündəki saf, zərif təbəssümün işığı üstümə səpələndi. Qadın çarpayımdan azacıq aralandı. Onun qalın dodaqları arasından ağ mirvarilər tək düzülmüş dişləri göründü. Etiraf eləyim ki, mən həmişə hörmət və nəzakətlə yanaşsam da, heç vaxt əks cinsə meyilli adam olmamışam. Ancaq indi sanki bu qadın məni sehirlədi. Məni özünə məftun elədi. Maraqlıydı ki, kişinin beynində yaranan düşüncələri mən hec cürə tuta bilmirdim. Ancaq qadınla mənim aramdakı qəfləti, gözlənilməz və təsəvvürolunmaz dərəcədə peyda olan istəyi, ruhi yaxınlığı kişi tutsa da, bizə heç bir münasibət bildirmədi. Yaxud bu təmiz hisslərin, duyğuların axarına o qəsdən təsir göstərmək istəmədi. Mən qalxıb çarpayının ortasındaca bardaş qurub oturdum. Sanki





bu oturuş bizim aramızdakı məsafəni bir qədər də yaxınlaşdırdı. Elə bildim ki, bu qadını hardasa görmüşəm. Onunla nə barədəsə söhbət eləmişəm. İndi o müəmmalı münasibətlərin açılışı və izahı üçün mənə əlahəzrət zaman gərəkdi... Bu götür-qoylar içərisində özüm də bilmədən, necə oldusa, kişini tamam unutdum. Sanki o, bu xanımla mənim otağıma təşrif buyurmamışdı. Hisslərin qənirsiz toqquşmasından doğan hal kimi hardasa, bunu gözlərin yumulması da sanmaq olardı. Birdən-birə mən öz aləmimdən ayrıldım. İndi özüm çarpayıda  otursam da, hisslərim, duyğularım, ağlım tamam başqa bir dünyada cövlan eləyirdi. Handan-hana özümə gəldim. Dərhal da diqqətimi kişi cəlb elədi. O, əlindəki çubuqla qıçlarıma vurmaq istəyirdi ki, qadın dedi: "— Vurma, tənhalıqdan əziyyət çəksə də, Aran yaxşı adamdı, o, bizə gərək olacaq". Kişi əlini saxladı. Çubuğu qıçlarıma vurmadı. Mən yenə əvvəlki mehribanlıqla qadının üzünə baxdım. Təəccübləndim. — A... Bunlar mənim adımı hardan bilirlər, — deyə özümü başa düşməzliyə qoydum. Təşəkkürümü bildirmək istəyirdim ki, elə bu dəm dümağ işıq yenidən onları ağuşuna aldı və hər ikisi eyni anda qeybə çəkildi. Oturduğum yerdəcə çaşbaş qaldım. Otaq zil qaranlığa döndü, sonra dəhlizdən gələn işıq seliylə əvvəlki tək alatorana çevrildi. Gözlərimin görmə imkanları haldan-hala düşdü. Yan-yörəmə göz gəzdirdim. — Lənət şeytana, — dedim. — Ayə, bu nəydi, nə möcuzəydi? Bəlkə məni qara basır? Bəlkə dəli oluram? Bu həngamə bu gecəki yuxusuzluğun nəticəsidimi? Oğulsan, gəl bu baş verənlərin təhlilini apar, mahiyyətini aç, özün üçün qənaət hasil elə... Elədin ha! Saçımın, saqqalımın ağaran bu çağında başıma gələnləri kimə açsam, vallah-billah, məni ələ salıb gülərlər. Deyərlər, kişi bu yaşında çaşır, özünü tamam itirir. Yuxuyla reallığı ayırammır. Ancaq bir müəmma da var. Vallah-billah, bu nəydisə, heç yuxuya oxşamırdı. Oxşamırsa, deməli, məni qara basıb. Axı, belə qarabasma da olmaz. Mən heç zaman mistik vəhylərə inanmamı-

şam... İnananlara da yaxşı baxmamışam. Elələrinə lap gülürəm də. Bunu hamı bilir. Ancaq bu, o demək deyildir ki, mən Allaha inanmıram. Yaradanımı, onun insanlara yol göstərən səmavi kitablarını qəbul eləmirəm. Yox, əsla. İnancım böyükdü. Nədənsə çox adam, xüsusilə, yaşıdlarım üzümə deməsələr də, arxamca "Allahsız, dinsiz və tənha Aran" damğasını mənə yapışdırıblar. İndi necə deyim ki, mən yuxu görməmişəm, ancaq məni qara basıb. Çox müşkül məsələdi.... Nə isə, çox uzatmayım. Belə getsə, məntiqim məni çaşdıracaq. Axırda aparıb təslimçiliyə çıxaracaq... Gördüklərimdən belə ilkin nəticəyə gəlmək olar ki, məni bu gecə yatağa qoymayan gözlənilməz, həm də gəlişləri və gedişləriylə əcəb müəmma doğuran qonaqlarımın kimlikləriymiş... Ola bilər. Hər şey mümkündü. Qalır mümkün şeylərin təkcə ağlabatanlığı... Bu hadisənin qəribəsi oydu ki, kişini heç cürə tanımasam da, onun obrazını təsəvvürümə gətirəmməsəm də, qadını tanıyıram. Onunla ünsiyyətdə elə bil olmuşam. Ancaq bu dar macalda onunla tanışlığımı yerli-yataqlı xatırlamaq müşkül məsələdi. Heç cürə, heç cürə yadıma salammıram. Bircə onu düşünürəm ki, bu xanım çox yaxşı adamdı, xeyirxahdı, mərhəmətlidi... Elənçikdən heç kəsə xəta-bala gələnməz. Üzümə baxmamaqda, baxışlarıma reaksiya verməməkdə, görünür, kişinin mənə qarşı niyyəti o qədər də caiz deyilmiş. Etinasızlıq çox pis şeydi. Qarşındakına diqqətsiz oldunsa, deməli, ondan da diqqət gözləməməlisən. Hələ üstəlik həmişə girişdiyin işlərə qarşı tərəfdən haqlı-haqsız mızlar görəcəksən. — Hörmət-izzət qarşılıqlı olar, — deyiblər. Nə gizlədim, mənim də münasibətim kişinin münasibətinə adekvat oldu — desəm, bəlkə də düzgün sayılar. Buna təəssüflənirəm. Nə isə... İçimdə belə hissiyyat oyandı ki, kişinin əlindəki qeyri-adi çubuqdu və çox güman ki, o, bu çubuğu neçə vaxt ağrıyan, sızlayan, mənə rahatlıq verməyən, məni az qala intihar həddinə çatdıran qıçlarıma var gücüylə vuracaqdı. Xanım necə dedi? "Vurma, bu, yaxşı adamdı, bizə





gərək olacaq". Bu cümlənin məntiqi diktə edir ki, kişi qara niyyətliymiş. O, məni vursaydı, dəhşətli bəlalara düşə bilərdim. Bəlkə də qıçlarımdan məhrum olacaqdım... İndi düşünürəm: həqiqətən də qəlbimdə böyük ehtiram və səmimiyyət bəslədiyim bu xanım mənim xeyirxahımmış. O, Allahımın mənə halallıqla bəxş elədiyi əzalarımın qəsdinə razılıq vermədi. Versəydi, şübhəsiz, bu, çox insafsızlıq olardı. Günaha batılası xətaydı. Allahıma şükürlər eləyirəm, kişi həmkarının niyyətini qadın vaxtında anladı, onu törədəcəyi bəd niyyət əməldən saxladı... Onlar bəd əməl üçün gəlmişdilərsə də, xoş əhvalla getdilər. Onlardan mənə yalnız qəlbimdə yaşada biləcəyim izlər qaldı. O anda düşündüm: Görəsən, mən gecənin bu vədəsində təşrif buyuran qonaqlarımı bir də görə, onlarla ünsiyyətə qoşula biləcəyimi? Çox istərdim...

Qarmaqarışıq fikirlər, mistik düşüncələr, müəmmalı və dolaşıq münasibətlər, ziddiyyətli mülahizələr, nələr, nələr, bir-biriylə çulğalaşan mühakimələr başımı az qala çatladır, bütün vücudumu sarsıdırdı. Nə qədər fikirləşirdimsə, beynimi qurcalayırdımsa, gördüklərimi çəh-çöhr eləyirdimsə, qarşılaşdığım hadisənin sonunu bir tərəfə çıxarammırdım. Naəlac qalıb yatağımdan qalxaraq vanna otağına keçib üzümə bir neçə ovuc su çırpdım. Bədənimi yaş dəsmalla sildim. Qayıdıb otağımda var-gəl elədim. Yuxum tamam qaçdı. Ayıq başla dərinə getdikcə hardansa sızıb gələn işıq seli tək gözəgörünməz vahimənin bətnindən axan hisslər yavaş-yavaş vücudumu qucuyur, canıma üşütmə salırdı. Tədricən qorxu, əzab zirvəyə doğru şütüyürdü. Dəryada istiqamətini itirən gəmi kimi löngər vura-vura, müəmmalar içərisində boğula-boğula gəlib yenidən yatağımda uzandım. Başımı balınca qoydum. Qəribəydi, hadisəni nəinki özümdən uzaqlaşdıra bilir, indi onu bütünlüklə ruhuma çəkirdim... Bütün gecəni kirpiklərimi qırpmadan hisslərin vurnuxan burulğanında dil-dodaqlarım təpiyirdi. İndi mənə dünya dar gəlirdi. Hərdən

nəfəsim təngişirdi. Ürəyimin çırpıntısı qulaqlarımda rezonans verirdi. Nə eləyəcəyimi bilmirdim. Deyəsən, getdikcə acizləşirdim. Düşündüm: Yataqdan qalxıb paltarlarımı geyinib qoynunda tək-tək maşınlar şütüyən küçəyəmi çıxım, gecənin bu zil qaranlığında? Gedib evsiz-eşiksiz, sərkərdan adamlar kimi şəhərimi dolaşım? Parklardakı skamyalardamı oturub mürgü döyüm? Yoxsa, Dram Teatrının qarşısındakı meydanda möhtəşəm və vüqarla dayanan tənha çinar ağacının həzin-həzin zümzümə eləyən yarpaqlarının insanı riqqətə gətirən sirli-soraqlı pıçıltılarınamı qulaq kəsilim? Görən mənə nə deyər? Yaşlaşmaq buymuşmu? Deyirlər, — "Hər yaşın öz gözəlliyi var". Yalandı. Heyf deyilmiş uşaqlıq. Heç şeyin, heç kimin dərdi-sərini çəkmədən öz həyatını yaşayırsan. Səni qınayan da olmur. Sənə xətandan ötrü hələm-hələm qüsur tutan da olmur. Gənclik də elə... Yaşlananda başqaları o yana dursun, özün-öz hərəkətlərinə, danışıqlarına, hətta düşüncələrinə qadağalar qoyursan... Görən bunların da tənhalıqla əlaqəsi varmı?!. Bilmirəm, bəlkə də...

## Tənha ömür

İçərimin dağılacağını güman eləyə-eləyə, fikirlər ummanında boğula-boğula, doğrana-doğrana qalxıb sakitləşdirici həb içdim. Çox çəkmədən vəziyyətimin nisbətən qaydaya düşdüyünü görcək sevindim. Balaca təskinlik tapsam da, sonra yenə içim qaynamağa başladı. Narahatlığım artdı. Sakitləşmirdim ki, sakitləşmirdim. Bayaq düşündüklərimin tam əksinə olaraq, paltarlarımı geyindim və — Gedim bir az təmiz hava alım, özümə gəlim, — deyə hamıdan zəhləm gedirmiş kimi acıqlı-acıqlı gecə yarı qapıdan çıxdım. Yorğun, yavaş addımlarla Dram Teatrının qarşısına gəldim. İlk baxışda meydanda kimsə yoxuydu. Diqqəti cəlb eləyən yeganə görüntü, dünyanın dərdi-sərini çiyinlərinə





alan böyük şair Məhəmməd Füzulinin düşüncələrə qərq olmuş möhtəşəm qranit heykəli və bir də ondan arxada əzəmət və vüqarla dayanan tənha çinarıydı. Yorğun-arğın olduğumdan halsız halda gəlib heykəllə üzbəüz dayandım. Düşüncələrə dalan qəmgin, kədər və nisgilli şairin bəşəriyyətə bəxş elədiyi dəfinəni xatırladım və dərin bir ah çəkib öz-özümə dedim:

— Gör nələr yaradıb. Nələr qoyub gedib dərd-səri dünyalara sığmayan mənim müqəddəs filosof babam:

Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz.
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

Artıran söz qədrini sidqlə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

İnanıram, mütəfəkkirlər Allahın yaratdığı "Ali varlıq", "Yaranmışların möcüzəsi", "Alilərin alisi" deyəndə bunları nəzərdə tutublar. Beləlləri çoxdu. Dünyanı məhvərindən çıxmağa qoymayan da, bəşəriyyətə nurlu ideyalar bəxş eləyən də onlardı. Yoxsa dünyanı fəlakətə sürükləyənlər? Millətləri, xalqları qan nəhrində boğanlar?! Saxta mənsəb, nüfuz qazanmaq istəyiylə hər cür fırıldaqlara, — namərdliyə, naqisliyə əl atanlar?! Enerji resursları əldə eləmək xatirinə güc sahibi olan ölkələrin rəhbərləri?! Zəif ölkələri işğal eləyib, insanları qırdıran tülkü siyasilər?! Nələr!.. Nələr!.. Artıq özümdə deyildim. Bir anlığa təsəvvürümdə acılı-şirinli xatirələr öz parlaqlığıyla canlandı. Əhvalım məni sarsıtdı. Bir an yerimdəcə dondum. Danışan dilim susdu. İçim didilməyə başladı. Handan-hana dərindən köksümü ötürüb başımın üzərindəki ala-tala buludlara və onların yarğanlarından mavi səmaya baxdım. Bu dəm vaxtıyla seyrinə daldığım silsilə dağlar, zirvəsində qərar tutan bəyaz qarlı qayalar kino lenti kimi gəlib durdu gözlərimin önündə. Özümdən asılı

olmadan yenə köksümü ötürüb el-obasına həsrətli Füzuli babam kimi dərindən ah çəkdim. Təəssüf hissiylə dünyada baş verən hadisələrdən, demokratiya bayrağı altında insanlara azadlıq, sərbəstlik vermək, Qərbin, Avropanın xarici siyasəti, onların Şərqin enerji resurslarına dikilən gözləri, yiyələnmək iddiaları, "ərəb baharı" adı altında törədilən fəlakətlər içimi neştər kimi deşdi.

Şərq-müsəlman dünyasının vəzifə hərisliyi, öz xalqları üzərindəki cinayətləri, al-qana boyanan şərqli uşaqların ac-yalavac həyatı, göz yaşları məni yandırırdı... Nəhayət, baş verən ağlagəlməz, tükürpəşdirici hadisələr xəyalımı bir anlığa özünə çəkdi. Bəzi iqtidar mənsublarının talançılıqları, xalqdan çırpışdırdıqları hesabına haralarda tikdirdikləri saraylar, malikanələr ruhumu qırdı. Əxlaq, mənəviyyat pozğunluqlarının dəhşətli dərəcədə yayılması, insanların didişməsi, oğurlanması, vəhşicəsinə döyülməsi, mənfur işgəncələr, daha nələr, nələr... Hansını deyim? Bəlkə saxta nüfuz xatirinə müxtəlif ölkələrdə özgə xalqlara yaradılmış yüksək güzəran barədə düşünüm? Dərdi-sərini çiyinlərində çəkən mənim Füzuli babam, agah ol, mənim dünyam sənin dünyan deyil. Bunları düşünə-düşünə qəhərləndim və onu anladım ki, qarşısında donub qaldığım və hər gün tamaşa elədiyim, barəsində hədsiz düşüncələrə daldığım və gündə yüz dəfə başına dolandığım müqəddəs babamın tuncdan tökülən möhtəşəm heykəli heç vaxt mənə indiki qədər təsir eləməmişdi... Mənə elə gəldi ki, bir zamanlar şairin qələmə aldıqlarının kədəri, qəmi nəhr axan çay kimi indi mənim ruhuma süzülür, nəhayətsiz ümmanlar yaradırdı. Bir an xəyal məni qanadları üstə alıb ümmanların lap dərinliklərinə, sonsuzluğa aparırdı. Fikrən aradım, axtardım. Heç nə, heç nə hasil eləyəmmədim... Əlacım kəsilib hər gün kölgəsinə sığındığım, oturub dincəldiyim, yaşıl yarpaqlarının həzin pıçıltılarını, ruh oxşayan zümzüməsini dinlədiyim tənha çinarın altına gəldim. Kökləri torpağın





sinəsində rişələr ataraq yerin dərin qatlarından — şah damarından illərlə su içən, tənha çinar! Səndə nələr yoxdu, nəsillərin şahidi tənha çinar! Təbiətin hər cür qovğalarına — soyuğuna, istisinə, qarına, yağışına məğrurcasına dözmüsən... Bu meydanda vüqarla dayanıb babamsayağı içində dünyalara sığmayan dərdsər daşıyırsan. Haracan? Yazıqlar olsun ki, onu özün də düzəməlli bilmirsən... Bax beləcə içimdə özümü didirdim ki, bir qədər aralıda yaşıl zeytun ağaclarının altında hənirti eşitdim. Maraq məni zeytunluğa tərəf çəkdi. Gözlərim ağacların altında yatan, böyrü-böyründən keçən oğru itlərə, onların yanında uzanan ac-yalavac pişiklərə sataşdı. Beynimdən belə bir fikir keçdi: görünür, bunları da belə zülmə biz insanlar salmışıq... Qəribədi, itlə pişik dil tapıb birlikdə yaşamalarını təmin eləyə bildikləri halda, biz insanlar necə də dil tapammayıb didirik, dağıdırıq bir-birimizi. Bu insafdandımı, mürvətdəndimi? Yoxsa, naqis şüurumuzdan? İnsanlıq hissimizi itirməyimizdən? Şüurumuz bizi belə hala salacaqdısa... Dolaşıq fikirlər içərisində çabalayırdım ki, dənizdən əsən meh üz-gözümü yaladı. Dərhal ciyərlərimə sərinlik, ürəyimə sakitlik çökdü. Balaca özümə gəlmişdim ki, yaxınlıqdakı Təzə Pir məscidinin uca minarələrindən azan səsi eşidilməyə başladı. Azan səsi donan hisslərimə elə bil sərin su səpdi. Göynərtili qəlbimə sərməstlik gətirdi... — Böyük qüdrətinə şükür, — deyib bir-iki addım atmışdım ki, boz bir itin ağzında sümük qaça-qaça tənha çinarın altına getdiyini gördüm. Bunu hiss eləyən yorğun-arğın, yatmış həmkarları onu arxadan yaxaladılar və qəniməti onun ağzından almağa çalışdılar. Ara qarışdı, hürüşmə, zingilti səsi meydanı bürüdü. Azğın itlər bir-birlərinin qıçından, boynundan, belindən, quyruğundan tutub o tərəf-bu tərəfə dartışdırırdılar. İtlər al-qana boyanmışdı. Vəziyyəti belə görən ac-yalavac pişiklər qaçıb zeytun ağaclarına dırm aşdılar. Səhərin ala-toranında qarşımda təsəvvürümə gətirəmmədiyim bir mənzərə yarandı. Cəld və çevik hərəkət eləyən

boz it sümük gətirən alabaşın ağzından qənimətini alıb qaçdı. Əli boşa çıxan zəiflər, dartışmağı bacarmayanlar kor-peşman öz yerlərinə qayıtdılar. Təhlükənin ötdüyünü görən pişiklər də ağacdan düşdü və quyruqlarını qaldırıb domuşuq halda gəzişməyə başladılar. Öz-özümə dedim: Əcəb işdi, gör, bir andaca gözlərim önündə nə baş verdi? Bayaqdan bu itlərin mehribanlığına, pişiklərlə əlbir olub dolanmalarına az qala həsəd aparacaqdım. Sən demə, biz canlıların — hamımızın xislətimiz birmiş. Mənafeyimiz naminə bir-birimizi cırıb dağıtmağa hazırıq. Bir sözlə, bütün canlılar bir bezin qıraqlarıymış. Şərikli tikələri oldusa, dünyanın gözünü çıxarmağa hazırdılar. Qəribədi, insanı itlə, pişiklə, vəhşilərlə çulğalaşdıran tellər də varmış... Baş verənlərə səssiz-səmirsiz siz də şahidsiz, tənha heykəl, tənha çinar...

## Qaradan da tünd rəng?..

Səhər açılırdı. Gecənin qara örtüyü yavaş-yavaş çəkildikcə gözün görmə imkanları da genişlənirdi. Küçələrdə şütüyən maşınların sayı artırdı. İdarə və müəssisələrdə işləri tez başlayan adamlar tələm-tələsik meydandan keçərək maşın dayanacağına axışırdılar. — Mən dost-tanışların gözlərindən yayınım — deyə özümü meydanın yuxarı — “Beş qazan” restoranı tərəfə verdim. Yaxınlıqdakı skamyada yeniyetmə bir oğlanın üzüaşağı yatdığını görcək gözlərimə inanmadım. Skamyanı zeytun ağacları öz çətirləri altına almışdı. Əyninə köhnə, gödək boz cins şalvar və dar, qırmızıya çalan qısaqol köynək geymişdi. Saçları təzəcə qırxılmışdı, başı açıqıydı.

Oğlana diqqətlə baxdım. O, ətrafında baş verənlərdən xəbərsiz-ətərsiz mışıl-mışıl yatırdı. Hər dəfə nəfəs aldıqca bədəni ustufca qalxır, böyürləri şişirdi. Nəfəsini buraxanda onun əksi yaranırdı. Mənim bu oğlana yazığım gəldi. Bir il əvvəl təqribən





həmin yaşda dənizin qudurğan dalğalarında boğulan, üç gün sonra dəniz sakitləşəndə çətinliklə tapılan yaxın qohumum Mahiri xatırladım. İçim göynədi. O anda məni danışdıran olsaydı, bəlkə də özümü saxlayammazdım. Hönkür-hönkür ağlayardım.

— Diksinməsin, qorxmasın — deyə asta-asta oğlana yaxınlaşdım və düşündüm: — Görünür, bu zavallı kimsəsizdi, kimsəsi olsaydı, gəlib bu paltarda burada yatmazdı; bəlkə valideynləriylə sözü düz gətirməyib, özü evdən acıq eləyib çıxıb? Valideynləri hansısa yaramaz iş üstə onu evdən qova bilərlərmi? Əgər elədisə, çox pis. Bəlkə bu oğlan azıb, gəlib burda yatıb, səhərin açılmasını, nəqliyyatın işə düşməsini gözləyir? Elədisə, eybi yoxdu, indi qalxıb gedər. Ancaq bu oğlan şəhərliyə oxşamır. Nə isə... Necə olur-olsun, hər halda bu yaşda uşağı nəzarətdən kənara, gözdən uzağa buraxmaq düz deyil. Günah istər böyükdə, istərsə də kiçikdə olsun...

Mən oğlana yaxınlaşdım. Dümsükləyərək: — Burda niyə yatmısan, ayağa qalx, — deyib onu yuxudan oyatdım. Oğlan yarıyuxulu halda başını skamyadan qaldırdı. Heç özündə deyildi. Üz qoyduğu taxtanın tinləri onun sifətində dərin izlər açmışdı. Sifətinin əti nov kimi görünürdü. Oğlan başının üstə dayandığımı görcək altdan yuxarı təəccüblə üzümə baxdı. Deyəsən, onu anlaşılmaz hisslər bürüdü. Əvvəl harda olduğunu bilmədi. Mənə elə gəldi ki, o düşündü: yəqin günün bu vədəsində onu yaxalayan hüquq-mühafizə orqanı işçilərindəndi. O, qorxdu. Sifəti bozardı. Gözlərinin dərinliklərində hardasa, bir yorğunluq, yazıqlıq, kimsəsizlik, kimdənsə rəhm diləmək hissini duydum. Sanki köksümdə ürəyim parçalandı. O, astadan, titrək səslə dilləndi:

— Eşidirəm, əmi — deyib başını aşağı dikdi.

— A bala, soyuqlayarsan, burda niyə yatmısan? Evin-eşiyin yoxdumu?

Oğlan əvvəl mənə cavab vermək istəmədi, susdu. Mənim tə-

kidimdən sonra narazı halda dedi:

— Olsaydı, burda yatardımmı?.. İki gündü rayondan gəlmişəm. Yorulmuşam. Yatmağa yerim yoxdu. Qoyun bir az yatıb yuxumu alım da.

Mən əvvəl çaşdım, danışmağa söz tapanmadım. Handan-hana dedim:

— A bala, təkmi gəlmisən?

— Bəli!

— Şəhərdə qohum-əqrəban yoxdu?

— Xeyr... Bir qonşumuz vardı şəhərdə, adı da Mehdi. Kirayəşin yaşayırdı. Gəldim ki, onun yanında qalım. Onunla da görüşəmmədim.

— Niyə?

O, ani fikrə getdi. Sonra bildirdi.

— Köçüb yerini dəyişib. Əvvəlki ünvanda yaşamır. Ev sahibi dedi ki, Mehdi köçəndə yerini bizə də demədi.

— Onun ünvanını sənə kim vermişdi?

— Dostum.

— Şəhərə niyə gəlmisən?

— İşləməyə. Kənddə iş yoxdu. Məndən böyüklər Rusiyada işləyirlər. Deyirlər, Rusiyada qalıb kimisi alver eləyir, kimisi də donuz güdür. Axırı nəyləsə məşğul olurlar. Mən də bura gəldim. İş tapammıram. İndi də skamyada yatmışam.

— Rayonda qala, ata-anana kömək eləyə bilməzdinmi?

— Yox...

— Axı niyə?

Oğlan iti nəzərlərlə, bir az da etinasız halda dedi:

— O çox vacibdi? Şəhərə nə qədər adam gəlir. Eləsi var oxumağa, eləsi də var işləməyə. Mən də gəlmişəm işləyib qarnımı doydurum. Özümə əyindəs paltarı, ayaqqabı alım. Acından ölməyəcəm ki? İşləməyin nəyi pisdi.

— Atan-anan varmı?





— Yox...

— Necə yox? Bəs indiyə qədər harda qalmısan? Böyüyüb bu yaşa necə çatmısan?... Sahibsiz uşaq olarmı?

Mənim aramsız suallarımdan oğlanın gözləri doldu. Utandığındanmı, ya nədənsə başını yana çevirdi. Nəsə demək istədi. Ancaq bir az fikirləşib deyəcəklərindən vaz keçdi. Handan-hana gözlərimin içinə baxdı. Bu dəfə onun gözlərində bir mehribanlıq, səmimiyyət duydum. O, dedi:

— Əmi, danışsam, inanmayacaqsan. İnansan da, qanın qaralacaq. Bilirəm, sonra da mənə yalançı kimi baxacaqsan.

Oğlanın böyüklərə məxsus görüb-götürmüşlüklə danışdıqlarını görüb məni təəccüb bürüdü:

— Nə danışırsan, oğlum. Həyatda hər şey olur. Hər deyilənə yalan damğası vurmaq mənə yaraşmaz. Sən də yalan danışana oxşamırsan.

— Onda mənə yazığın gələcək. Mən istəmirəm, kiminsə mənə yazığı gəlsin.

Oğlanın sözləri məni silkələdi. Nə deyəcəyimi əvvəl bilmədim. Sonra:

— Sən ağıllı oğlana oxşayırsan. Cavabların da xoşuma gəlir. İstərdim, mənə inanasan. Əmin, dayın bilib mənə etibar eləyəsən. Mümkün olsa, mən sənə kömək eləyərəm. Sənə söz verirəm.

Oğlan fikrə getdi. Gözləri uzaqlara dikildi. Handan-hana astadan yanıqlı tərzdə dedi:

— Mən balaca olanda atam şəhərə gəlib tikintidə işləyirdi. Bir gün eşitdik ki, atam tikdikləri binadan yıxılıb. Xəsarət alıb, xəstəxanaya düşüb. Nənəmlə mən atam yatan xəstəxanaya getdik. Həkimlər atamın qıçını kəsmişdilər... Mən atamı qucaqlayıb üz-gözündən öpdüm. Ağladım... O, xəstəxanada müalicə olundu. Atam sağalıb evə gələndə anam ona: — Ev də, uşaq da mənimdi, çıx rədd ol burdan, alkaş, narkoman, — dedi. Atam

əsəbiləşdi, anamla dalaşdılar. Sonra atam getdi. Mən evdə tək qaldım. Atamdan ötrü çox ağlayırdım. — Atamı istəyirəm, — deyirdim. Onda anam məni öldürəcəyi ilə hədələdi: — Bir də onun adını tutma, — dedi. Yadımdadı, sonralar atamla bir neçə dəfə küçədə görüşdük. O, əsayla gəzirdi... Bir az keçdi. Yaxınlıqda yaşayan Qoçu bizə gecələr gəlməyə başladı. Sonra da gəlib biz qalan evə köçdü. Qoçudan acığım gedirdi. İstəmirdim o, bizə gəlsin. Mən onu hər dəfə evdən qovanda anam məni döyürdü. Atamı söyürdü. Qoçu mənə "oğlum", "oğlum" deyəndə mən ona: — Çıx get, bizə gəlmə, — deyirdim. Bir dəfə atamın məni yoluxmağa gəldiyini görəndə anamla Qoçu onu döyüb evdən qovdular. Qoçu atamın dalınca qışqırdı: "Bir də bura gəlsən, o biri qıçını da mən kəsəcəm, əclaf".

— Sən sonra Qoçuyla barışdın?

— Yox, mənim həmişə Qoçudan zəhləm gedirdi. Gücüm çatsaydı, mən onu döyüb evdən qovardım. Əlacsız qaldım. Acıq eləyib evdən qaçdım. Bir neçə gün gedib dostum Nihadgildə qaldım. Sonralar Nihadın anası da deyinməyə başladı. Məni evdən qovmaq üçün bəhanələr axtardı. Bu yaxınlarda başa düşdüm ki, onlara da yükəm. Nihadın da yediyini mənə görə anası zəhər eləyir. Dözmədim. Şəhərə gəlişimi onlara bildirəndə Nihadın anası mənə — Getmə, hələlik bizdə yaşa — demədi. Mən qonşu Telli xaladan yol pulu alıb Bakıya gəldim. Fikirləşdim ki, işləyib başımı dolandıraram... Sonra da onun pulunu qaytararam.

Eşitdiklərimdən bədənim ürpəşdi. Oğlana nə deyəcəyimi bilmədim. Handan-hana soruşdum:

— Doğma atan necə oldu?

— Anam da, Qoçu da dedilər ki, atan ölüb. Mən atamın ölümünə çox ağladım. Sonralar dostum Nihad mənə dedi ki, heç kimə demə, anan eşidər bizimlə dalaşar. Sənin atan ölməyib, Rusiyaya gedib. Yəqin ki, nə vaxtsa gələr, səni tapar.





— Sənin adın nədi, oğlum?

— Sahib.

— Səni saxlayacaq əmin, dayın yoxıydı?

— Əmim vardı. Əmimin arvadı iki dəfə məni evdən qovdu. O, bir dəfə əmimə dedi: Yetimçən gəlsə, səni də mən evdən qovacam. Əmim arvadından qorxdu və mənə — Get ananla yaşa, oğlum, — dedi. Mənim ona deməyə sözüm qalmadı.

— Bizə gedərsənmi? Mən də tək yaşayıram. Bir evdə qalarıq.

Sahib əvvəl sözümə inanmadı, dediklərimi zarafat kimi qəbul elədi. Sonra fikrə getdi. Handan-hana dilləndi:

— Axı, mənim pulum yoxdu. Siz məni evinizdə necə saxlayacaqsız?

— Puldan ötrü narahat olma. Mənə də söhbətə bir qulaq lazımdı.

Sahib "qulaq" sözünün mənasını anlamayıb tutuldu. O, dərhal soruşdu:

— Nə lazımdı?.. Qulaq?..

— Hə, qulaq. Yəni məni eşidən, məni dinləyən. Tənhalıq məni də bezdirib. Yuxularım ərşə çəkilib. Yatanmıram, darıxıram, oğlum. Səhərin ala-toranında bu meydana darıxdığımdan çıxmışam. Birlikdə yaşasaq, mən də darıxmaram. Deyərik, gülərik, başımız qarışar. Bir şərtim var.

— Nədi?

— Gərək məni qohum-əqrəbamın, qonşularımın yanında utandırmayasan. Bəzi yaşıdlarına qoşulub kimsəyə sataşmayasan. Kimsəylə dalaşmayasan. Cinayət törətməyəsən.

— Arxeyin ola bilərsən. Utandırmaram.

— Direktorla, lazımı şəxslərlə danışaram, şəhər məktəblərinin birində də oxuyarsan. Təhsilsiz gələcək yoxdu, Sahib. Mənim də adım Arandı. Sonrasına baxarıq. İstəsən dostun, istəsən əmin, dayın olaram.

— Söz verirəm, dost olarıq. Mən də işləyərəm. Sənə çox əziyyət verməryəm.

Mən gülümsündüm, sonra qəsdən soruşdum:

— Sən harda işləyə bilərsən, Sahib?

— Çörək üçün lap qul bazarında da.

Yenicə özünü tanımağa qədəm qoyan Sahibdən “Qul bazarına” sözünü eşitcək, sanki gözlərim ayağımın altını görmədi. Mən sarsıldım... — Bu uşaq deyil, xudaya, kim bilir, gələcəyin bəlkə də müdrikidi — dedim. Sonra da Sahibin qohum-əqrəbası — doğmaca anası, əmisi, ögey atası barədə düşündüm. Sonra öz-özümə dedim:

— Dağılasan səni, dünya. Səndə nələr varmış. İnsanlar niyə bu qədər vicdanını itirmiş olurlar? Kimə nə deyəsən? Bu qədər şərəfsizlik, qaniçənlik?! Görəsən, ciyərparasını itirən ana bundan sonra rahat ola bilərdimi?! Ərinin ağuşunda yuxuya dalarkən o bircə balasını röyasında görcək, neyləyəcək? Balasından ötrü alışıb-tutuşub yanmayacaq ki? Doğma balasını küçələrə atan qadının özgə kişiyə etibarı olarmı? Arvadının təzyiqinə dözməyib qardaşının yeganə yadigarına: — Evimdən get, — deyən əminin “Mən də insanam”, yaxud “Kişiyəm” deməyə haqqı varmı?! Bax, budur yaşadığımız dünyanın iç-çalatı!.. Heyf!.. Çox, heyf!..

Mən Sahibi yatdığı skamyadan qaldırıb evimə gətirdim. Açığını deyim, xeyli yüngülləşdim... Gecəki yorğun-arğınlıqdan, yuxusuzluqdan canımda əsər-əlamət qalmamışdı.





## Vəhşilərin xisləti

Biz Sahiblə evə gəldik. Gecəki yorğun-arğınlıqdan, yuxusuzluqdan canımda əsər-əlamət qalmamışdı. Əvvəl mən, sonra Sahib çəkinə-çəkinə vanna otağında yuyunmalı olduq. Sahib köynəyini çıxarıb boyun-boğazını yuyanda kürəyində bir neçə yanıq izi gördüm.

— Bu nə izlərdi? — deyə soruşdum. O, əvvəl demək istəmədi, sonra utana-utana bildirdi:

— Yanıq izləridi.

— Kürəkdə?... Axı...

O, düz gözlərimin içinə baxdı. Sonra baxışlarını gözlərimdən yayındırmağa çalışdı. Mən sualımı bir də təkrar elədim. Sahib ani fikrə getdi. Üzü qızardı. Əlacsız qalıb sualımı cavablandırmalı oldu. Səsi gərilmiş halda bildirdi:

— Mən həmişə atamdan ötrü darıxırdım. Bir dəfə atamı yuxumda gördüm. O, mənim üz-gözümdən öpdü, saçlarımı sığalladı. Qucaqlaşdıq. Mən onu öpüb dedim: Ata, mən səni çox istəyirəm. Sənsiz darıxıram. Səni anamdan da, Telli xaladan da, əmimdən də soruşuram. Qayıt evimizə. İstəyirəm, bir yerdə olaq.

Atamın dodaqları səyridi. Gözləri yaşardı. O, məndən ayrılanda əlindən tutdum. Əlini buraxmaq istəmədim. Onda atam mənə dedi: “Oğlum, mən də səni çox istəyirəm. Lap çox. Daha mən sənin yanına gələmmərəm. Özünü gözlə. Mən səndən qorxuram. İndi gedim, yenə gələcəm. Ürəyim həmişə səninlədi”... Atam getdi. Mən yuxudan oyandım. Hönkürüb ağladım. Ağlamaqdan özümü saxlayammırdım. Anamla Qoçu yuxudan oyandılar. Bərk əsəbiydilər. Məni kiridə bilmədilər. Anam əsəbiləşib mənə dedi: — “Sahib, səsini kəsməsən, sənə dağ basacam...” Mən onun sözlərinə inanmadım. O, silləylə üzümə, başıma vurdu. Yenə səsimi kəsmədim. Qoçuya hirsləndim: “Get

bizdən, atam sən burda qaldığına görə evə gəlmir”. Anam mətbəxə keçdi. Az sonra əlində qızarmış qaşıq geri qayıtdı. Köynəyimi qaldırıb qaşığı üç dəfə kürəyimə vurdu. Bədənim yandı. Yanıq yerləri göynədi. Mən qışqırıb anamın əlindən çıxdım. Gecə qaranlıqda gedib qonşu Telli xalanın təndirində yatdım. Səhər səsimi eşidən Telli xala məni təndirdən çıxartdı. Üzümdən öpüb ağladı:

— Allah anana insaf versin, — dedi.

Telli xala bir neçə gün məni öz evində saxladı. Sonra evimizə gətirib anamı danladı...

Sahib dərindən ah çəkdi. Başını yellədi. Onu için-için ağlamaq tutdu. Mən:

— Saxlama sözünü, oğlum, danış, — dedim.

Sahib başındakı yarığın yerini göstərərək bildirdi:

— Mən bir dəfə də Qoçunu evdən qovmaq istədim. Anam məni vurdu, — Rədd ol, evdən çıx, — dedi. Onda Qoçu əsəbiləşdi:

— Atan dəyyusun balasısan.

Mən o saat cavab qaytardım:

— Dəyyus sənsən.

Qoçu məni vurdu. Mən geri çəkildim. Ayağım stula ilişib yıxıldım. Başım boşqaba dəydi. Üz-gözümü qan bürüdü. Səsə Telli xala gəldi. Üz-gözümün qanını yudu. Başıma yaş əski qoydu. Sonra üzünü anama tutdu: — A bala, züryətdi, Allah verib, qədrini bilmirsən. Bir kor-şil üçün gecə-gündüz Allaha yalvaranlar var. Özgə uşağını götürüb doğma balası kimi saxlayanları azmı eşitmisən? Öz balalarını saxlamayan Qoçudan sənin övladına baxan olarmı, ay sarsaq? Telli xala sonra Qoçuya dedi:

— Allah çox həşərat yaradıb. Elə səni də. Mən həşəratla səndə fərq görmürəm.

Sahib danışdıqca yeniyetmə qəlbi sanki alışıb-yanırdı. Dil-dodaqları təpiyirdi. Mən onu sakitləşdirmək üçün dedim:





— Yaxşı, qalanını başqa vaxt danışarsan, Sahib. Acıq, indi də toqqamızın altını bərkidək...

Sahib güldü. Biz ümumi otağa keçdik. Mən səhər yeməyi hazırladım. Qayğanaq bişirərək iki qaba çəkib süfrəyə qoydum. Birlikdə yeməyə oturduq. Hiss eləyirdim ki, hər dəfə Sahib süfrəyə əl atanda sıxılır, tikələri boğazından çətinliklə ötürürdü. Mən özümü elə aparırdım ki, guya öz dərd-sərimdəyəm, ona fikir vermirəm. Yeməyə baxışlarından, hərdənbir udqunmasından bərk aclığı duyulurdu. O, bir-iki tikə kəsib süfrədən yığışanda dedim:

— Sahib, oğlum, nədən utanırsan? Yeməyini axıra qədər ye. Sənin artığını kim yeyəcək ki? Süfrədən tez çəkilmək olmaz. Doyunca yeməsən, özün öz qayğına qalmasan, tez xəstələnərsən. Halın olmaz, gəzməyə.

— Axı doymuşam. Heç vaxt bu qədər yeməmişəm.

— Yox... Yeməmisən, indi yeməlisən.

O, gülümsündü. Mən bir neçə dəfə təkid elədim. Əlacsız qalan Sahib yenidən boşqabı qabağına çəkdi. “Gözlərindən yayınım” deyə ayağa qalxıb mətbəxə keçdim. Qəsdən xeyli ləngidim. Handan-hana əlimdə iki stəkan çayla qayıdanda gördüm ki, boşqabı boşaldıb... Hətta, boşqabın dibini çörəklə sıyırmışdı. Mənim ona yazığım gəldi. Qəhərləndim. Doluxsunduğumu gizlətməyə çalışdım...

Sahib otaqda özünü sərbəst hiss eləmirdi. Mən bunu anlayıb dedim:

— Sahib, bu mənzil ikimizindi. Sənə bu mənzildə icazə verirəm, istədiyin kimi hərəkət eləyə bilərsən. Mən bir azdan işə gedəcəm. Gəl, ərzaqların yeriylə, istifadə eləyəcəyin şeylərlə, bir sözlə, mənzillə səni tanış eləyim. Mən evdə olmayanda sən çətinlik çəkmə, heç nədən sıxılma.

Sahib səssiz-səmirsiz ayağa qalxdı. Biz əvvəl yataq otağına, sonra mətbəxə keçdik. Evdə olan hər şeyi göstərib onun ixtiya-

rına verdim. Hətta, yatacağı çarpayını ona göstərdim. O, sözlərimi sakitcə dinləyir, dinməz-söyləməz hər şeyi qəbul eləyirdi. Mən kağız-kuğuzlar yığılmış portfelimi götürüb evdən çıxanda qapı ağzında ayaq saxladım:

— Oğlum, hələlik həyətdə heç kimlə əlaqə saxlama. Heç kəsə kimliyin, hardan gəlməyin, mənimlə necə tanış olmağın barədə bir kəlmə də demə. Adamların hamısı bir ağılda deyillər. Vaxt gələndə adamlar hər sözümüzə bir şəbədə qoşacaqlar. Onda kimə nə deyə bilərik ki? Bu həyatı biz yaşayırıq...

— Oldu. Narahat olmayın. Mən evdə olacam.

Nigarançılıqla qapıdan çıxdım. Həmin gün dolaşıq və əcaib fikirlər, məntiqsiz sualların məntiqsiz cavabları bir an da mənə rahatlıq vermədi. Bəzən beş dəqiqə əvvəl düşündüklərimin indi tam əksinə fikirləşirdim. Ancaq Sahibin anası, atalığı barədə danışdıqlarını fikirləşdikcə dəhşətə gəlirdim. Sahibin dedikləri həqiqətdimi? Sahib özündən, özü də yerli-yataqlı elə uydurmalar, yozumlar eləyə bilərmi? Doğru və yalan... Reallıq və fantaziya... Həqiqət və uydurmalar... Faktlar və yozumlar... Yoxlamaq gərəkdi. Yoxlanmasa, haqq, ədalət üzə çıxmaz... Aman allah, Sahibin dedikləri həqiqətsə, insanla vəhşinin xilqətini bir-birindən necə ayırmaq olar? Sahibin sözündən nə alındı? Övladı doğma atasından ayırmaq?! Övladı ata qayğısından, ata nəvazişindən, ata nəfəsindən, atanı övlad hissindən, övlad məhəbbətindən məhrum eləmək?! Ananın övladına dağ çəkməsi?! Evdən qovması? Uşağın bütün gecəni təndirdə yatması?! Ögey atanın oğulluğunu al-qana boyaması?!. Bunları nə adlandırmaq olar? Başım az qala çatlayırdı. Yox... Sahibin dediklərini yoxlayacam. Əgər Sahib həqiqətən də uydurmaçıdırsa, bundan sonra ona inanmaq, etibar eləmək olarmı?! Qətiyyən...

Həmin gün işin axırına qədər qərarsız-filansız qaldım. Təkcə onu qətiləşdirdim ki, Sahibin anasıyla dil tapa bilsəm, atalığıyla da danışa bilərəm.





## Şarlatanlar vadisində

İş yeri mənim üçün sanki qazamata çevrildi. Nə iş görürdümsə alınmırdı. Fikir məni hara gəldi alıb aparırdı. Qaranı ağa, ağı qaraya qata-qata gözlərim önündə bir-birindən ayıra bilmədiyim müxtəlif rəng çalarları yaranır, qarışır, daha tünd, anlaşılmaz görkəm alırdı... Düşündüm: Sahibi evə gətirməklə dağlar ağırlığa, olduqca məsuliyyətli bir yükün altına çiyinlərimi verməmişəm ki? Bu yükü daşımağa gücüm, taqətim çatacaqmı? Onu bir tərəfə çıxarmaq üçün ömür mənə vəfa verəcəkmi? Görəsən, doğmaları Sahibə havadarlığımı eşidib-bilsələr, nə düşünəcəklər? Mənə “Sən kimsən?” sualını verməyəcəklər ki? Qonşuların, eşidib-bilənlərin mənə münasibətləri necə olacaq? Qəhqəhə çəkib gülməyəcəklər ki? Bəs doğmaca bacım Zinyət, onun əri Möhübbət nə düşünəcəklər? Məni fanatik, adımı fantazyor qoymayacaqlar ki? Eh... Nə olur-olsun. Biz insanlar çox vaxt özümüz-özümüzü çərçivəyə salırıq. Bəzən ictimai rəydən ehtiyatlanırıq, qorxuruq. Bu çərçivə hara kimi bizimlə addımlayacaq? Fakt odur ki, yetkinlik dövrünə çatmayan bir uşaq ev-eşiyindən ayrılıb. Bəlkə də öz təbiriylə desəm, küçələrə atılıb. Kimsə onu qanadları altına çəkmir. Bu uşaq məhv olmalıdımı? Yox... Bu, dəhşətdi... İndi Sahibə arxa olmaq gərəkdi... Başqa cürə düşünənlər ancaq səfehlər ola bilər. Mən düz iş görmüşəm. Nə isə... İxtiyarsız halda düşüncələrim bütün günü Sahibin həndəvərində dolaşdı. Özümü unutduğumdanmı, ya nədəndi naharımı eləməmişdim. Yeməyə həvəsim də yoxuydu.

İşin sonuydu. Həmkarım Sevil xanım gözlənilmədən dedi:

— Aran, mənə elə gəlir ki, bu gün sən özündə deyilsən. Olmaya, nəsə xoşagəlməz bir hadisə baş verib?

Mən dərhal yarıyalan danışmalı oldum:

— Yox, Sevil xanım, axşam yata bilməmişəm. Gözümə yuxu

gedər-getməz bütün keçmişim, ölənlərim, dava-dalaş saldıqlarım, döyüb-döyüldüklərim hamısı gəlib durdu gözlərim önündə. Ürəyim çırpındı, dəlicəsinə yuxudan oyandım. Sonra da yatammadım. Yuxu nə yaman şeymiş. Az qala adamın vücudunu söküb-dağıdır.

Sevil xanım nəsə fikrə getdi. Handan-hana bildirdi:

— Narahatlığın mənə elə gəlir ki, əsəblərinin gərginliyindən yaranır. Bəlkə həkimə müraciət eləyəsən?

— Eh... Ay sağ olasan. Yuxusuzluğun əsəbiliyindən keçmə. Bir də ki bəyəm həkimləri tanımırsan? Barmağını sarıtdırmağa gedirsən, sənə qolunu kəsdirməyi təklif eləyirlər. Sonra da bilmirsən canını hara qoyasan. Başına haranın daşını salasan.

Sevil gülümsündü:

— Aran, əlacımız kəsiləndə həkimə qaçırıq. Başqa yolumuz da yoxdu. Yenə molladan, falçıdan həkim yaxşıdı. Bizim qonşuluqda cavan ailə yaşayır. Oğlanın dişinin dibi şişib. Bərk ağrı verib. Gedib həkimə... Həkimlər oğlanı bir-birilərinə ötürüblər. Axırda da ona xərçəng diaqnozu qoyublar. Özünə də deyiblər: — Filan qədər gətir, səni bu bəladan qurtaraq. Təsəvvür eləyirsən oğlanın nə hala düşməsini? O da gəlib evə. Qohum-əqraba yığışıb başına. Əlacları kəsilib, onu xarici ölkələrdən birinə aparıblar. Bizim həkimlərin qoyduqları diaqnozu xaricdə həkimə göstəriblər. O həkim oğlanın dişinə baxan kimi deyib: "Siz nə danışırsız, cənablar? Bu oğlanın dişi ağrıyır. Soyuq maye içib. Soyuqladığından dişinin dibi də, üzü də şişib. Bunun çirkini çıxarmaq lazımdı. Diş də sağlamdı. Onu çəkib çıxarmağa ehtiyac yoxdu..." Həkim deyən kimi də oldu. Oğlan hazırda sağ-salamat öz iş-gücündədi.

— Pula hərislik!.. Biz hamımız bədbəxtik. Nə özümüzü, nə başqalarını, nə də doğmalarımızı dəyərləndirə bilirik... Bədbəxtlər müxtəlif olurlar. Birincilər, iç gözləri pulla tutulan, heç haranı görməyənlərdi. İkincilər, əldə bir şey eləmək üçün mə-





nəvi-əxlaqi dəyərlərini, şəxsiyyətlərini kimlərinsə ayaqları altına atanlardı. Üçüncülər isə anadan gəlmə şikəstlər, fiziki cəhətdən qüsurlulardı. Onsuz da üçüncülər çox şeydən xəbərsizdilər. O, zavallılar deyilənlərə inanırlar, günahsızdılar. Mənim yazığım birincilərlə ikincilərə gəlir. Çünki bunlar əsl şarlatandılar.

— Yazığın gəlməsin, Aran. Onlar düşkündülər. Cinayətkardılar. Elələrinin sağalması münkünsüzdü, müşküldü. Necə deyərlər: "Qozbeli qəbir düzəldər". Bayaq Səmərə xanım danışırdı ki, qonşularında şikəst, kimsəsiz bir qarı yaşayır. Dünən səhər bir cavan oğlan gəlib onun qapısını döyüb: "Xala, pullar dəyişir, pensiya idarəsindən gəlmişəm, pullarını ver, aparım dəyişim, gətirim". Qarı da inanıb, əlindəki beş-üç manatı ona verib. Oğlan da o gedən gedib. Belə əxlaq, mənəviyyat sahibinə nə deyəsən? Şikayət eləməyə də yerin yox...

— Bəli, cinayətkar mühit. Cinayətkar insan. Hamımız bədbəxt. Hamımız şarlatan!

— Bəli! Bəli! Ər arvadı, valideyn övladı, yaxud əksinə, arvad əri, övlad valideynini qətlə yetirən, qovub ev-eşiyindən didərgin salan bir zəmanədə "insan ol" sözünü kimə deyəsən? Lap tutalım ki, dedin, faydası olacaqmı? Onlardan nə gözləyirsən? Bir az da dərinə getsən, sənin abırını ətəyinə bükməzlər ki?...

Mən diqqətlə Sevilin gözlərinin içinə baxdım. Elə güman elədim ki, dünənki hadisədən o da xəbərdardı. Sonrakı sözləri ümumi xarakter daşıdığından anladım ki, bu xanım cəmiyyətdəki naqislikləri sadəcə olaraq dilinə gətirir. Mənim qarşılaşdıqlarımdan tam xəbərsizdi. Bu az da olsa, mənə təskinlik gətirdi. Handan-hana dedim:

— Hardan gəlib, hara gedirik biz, Sevil xanım? Deyəsən, biz dilemma qarşısındayıq. Bu qədər dərd-səri olan adam gecələr sakit yata bilərmi? Əsla yox... Deyirsiz, həkimə müraciət eləyim? Tutalım elədim. Həkim də üç-beş gün həbb atmamı məsləhət bildi. Bəs sonrası necə olsun?

— Böyük dərd bəzən adamı intihar həddinə çatdırır. Sən də çox fikirləşmə. Bir tərəfini boş burax. Nəzərə al ki, bədbəxtlər və şarlatanlar vadisindəsən... Əgər insanın üzündəki örtüyü götürsələr, hərəsinin altından bir vəhşi çıxar: tülkü, çaqqal, canavar, ayı, pələng, şir... Qəm eləmə, biz dünyaya belə gəlmişik, belə də gedəcəyik. İnanıram tək-tək müdriklər də var. Təsadüfən deməyiblər ki, "Palaza bürün, ellə sürün". Ziyafətə çağrılmışam. Allah bilir orada neçə üzlər görəcəm. İşin axırıdı, dur get, dincəl. Mən də gedim.

Mən Sevil xanımla xudahafizləşib birbaşa evə gəldim. Aralıdan evimin işıqlarının yandığını görcək çox sevindim. Bəlkə də həyatımda bu qədər sevinməmişdim. Qapını döyəclədim, Sahib açdı. Onun üzü gülürdü. Əl verdik. Sahib dedi:

— Çay, yemək hazırdı. Yuyunun gəlin.

— Nə danışırsan, Sahib, sən yemək də hazırlaya bilirsən?

— Belə də. Evimizdə olanda anam ev işlərini mənə gördürərdi.

Bir söz deməyib vanna otağına keçdim. Əl-üzümə su vurub qayıdanda stolun üstündə çay buğlanırdı. Yeyib-içdik. Sonra keçib divanda oturduq. Televizorun kanallarını o tərəf-bu tərəfə çevirdim. Maraq doğuran bir şey olmadığından səsini azaltdım, sonra bir şey olmamış kimi söhbətimizə təbii axar verdim:

— Sahib, biz indi birlikdəyik. Atandan xəbərin-ətərin yoxdu. Mən sənin ananla danışmaq istəyirəm.

Sahibin sifəti bozardı. Səsi gərilmiş halda dedi:

— Məni geri qaytarmaq üçün?

— Yox... Həyatın işini bilmək olmur. Yüz cür hadisə baş verə bilər, qoy anan bilsin ki, sən hardasan, kiminləsən. Bir də ki bu, mənim insani məsuliyyətimdi.

— Get... Ancaq mən ora bir daha qayıtmayacam. Təkid eləsəz, mən burdan hara gəldi baş götürüb özüm gedəcəm.

— Axı, yaşadığımız lənətə gəlmiş bu cəmiyyət səni udar.





— Mən də onu istəyirəm.

— İcazə ver, gedib söhbət eləyim.

— Get...

## Qutab bəhanədi

Hava qaralmışdı. Ertədən aylıq məvacibimi almışdım. Hələ üstəlik təzə kitabım da çıxmışdı. Az qala həddi-hüdudа sığmayan sevincimi cilovlayammayacaqdım. Fərəhdən ürəyim köksümə sığmırdı. İçimdə kitabı Sahibə göstərmək istəyim böyüküydü. Bilirdim ki, kitab onu çox sevindirəcək. Ona görə də Sahiblə görüşə tələsirdim. Həyətə girəndə deyib-gülən, bir az da baməzə Elmira məni qabaqladı. Bu xanımın əllidən artıq yaşı, orta boyu, dolu bədəni, qara rənglə boyanmış saçları, yekə qara gözləri, girdə sifəti, üzünə münasib balaca burnu və ağzı vardı. Güləndə sədəf kimi ağ dişləri par-par parıldayırdı. Qəlbi təmiziydi. Bizə gediş-gəlişi olmasa da, qonşuların hamısının çikini-bikini bilirdi.

Mən Elmiranın xasiyyətinə yaxşı bələdiydim. Üzünə baxanda dərhal hiss elədim ki, bu qadın məndən nəsə soruşmaq istəyir. Ona görə də dərhal dedim:

— Təzə nə xəbər var, Elmira xanım?

— Məndə yox, xəbər səndədi. Hamı pıçhapıçla səndən danışır. Sən canın tez elə görüm, nə baş verib, ay Aran. Səni təbrik eləyə bilərəmmi?

Mən düz Elmiranın gözlərinin içinə baxdım. O, əvvəl bir az ciddi görkəm aldı, sonra gülümsünüb əvvəlki tonuyla sözünə davam elədi:

— Elə baxırsan üzümə. Guya heç bir şey baş verməyib. Olanlardan da xəbərsizsən. Həyətdə guppagupla ayağını yerə az döy. Sir-sifətini də bozartma. Hamı bilir Aran kimdi. Nədən xoşu gəlir, nədən acığı. İndi sənə baxanda az qalır bağrım çatlaya. Elə

bil ömrümüzdə bir-birimizi görməmişik.

Mən özümü elə apardım ki, sanki Elmiranın dediklərini anlamıram. Sözün səmtini dəyişmək xatirinə ona zarafat elədim:

— Hə... Axşam yatmamışam. Elə bil yuxum ərşə çəkilib. Ayaqlarımdan daş asılıb. Xarablamışam. Axşam ki gəldi, bütün dərd-sər çökür canıma. Dərman da içdim, təsir eləmədi. Bütün günü gəzib-dolaşdım ki, özümü yorum. Bəlkə bu axşam yata bildim... Halsız görünməyimə səbəb də budu.

— Bu gün meydanda yoxuydun. Tənha çinar sənsiziydi. Elə ona da yazığım gəldi: ha... ha... ha... Ədə, vaxt-bivaxt oturursan o tənha çinarın kölgəsində. Canın dincəldikcə, öz-özünə danışmağından xəbərin var?

— Yox...

— Necə yox? Ağzın da işləyir, əllərin də. Kimlərisə asıb kəsirsən. Aralıda dayanıb sənə baxan olsa, bilsən hərəkətinə nə ad qoyacaq?

— Bu da təzə şəbədədi?

— Şəbədə niyə olur. İstəyirsən mən deyim?

— De...

— İnciməzsən?

— Ürəyinə gəlibsə, deməli, nəsə bir şəbədə qoşacaqsan, gec-tezi var, əvvəl-axır bir gün baş verəcək.

Elmira nəsə fikrə getdi. Mən israr elədim:

— Başında fırlatma, tez elə, de.

— Tənha çinarın pıçıltıları. Necədi, xoşuna gəlirmi?

— Qoy desinlər. Ondan narahat olma...

Elmira ucadan qəhqəhə çəkdi. Mən söhbətin səmtini qəsdən dəyişdim:

— Şəhərdəydim. Bakının axşamlarını görəndə hayıl-mayıl oluram. İki göz lazımdı, baxsın şəhərin çıraqbanlı mənzərələrinə. Rəngarəng: ağ, sarı, qırmızı, yaşıl.... işıqlarına. Şəhər elə cazibədardı ki, bir yerdə qərar tutammırsan. Hey gəzmək istəyirsən... Nədi, elə baxırsan üzümə, deyəsən mənə inanmırsan. Ya məni birinci dəfə görürsən?





— Yox... İnanıram. Düz deyirsən.

— Ağrı-acılarım olmasaydı, səhərəcən şəhərdə gəzərdim.

Elmira burnunu tutaraq:

— Ədə, ay evi tikilmiş, sənə bir söz deyən yoxdu, arada bir bura da bax. Bayaqdan hansı yağlasa, bişirilən qarın qutablarının beyinləri çatladan qoxusu məni dəli eləyib. Elə bildim, qoxu sizin evdən gəlir. Qapını döydüm, gülərüz, cavan oğlan açdı. Ondan da təmərək anlayanmadım. Soruşdum kimsən, dedi Aranın dostu. Bu da təzə çıxdı?

— Bəyəm, mən adam döörəm? Balam, mənim dostum olammaz?

— Niyə olmur. Olar ancaq, Əfruz...

— Əfruzun danışmadığı söz var ki? Adamdı, Allah yaradıb da.

Elmira qəhqəhə çəkib əlini çiynimə vurdu:

— O iy-qoxu Əfruzgildən gəlir?.. Adamları da inandırır ki, qutabı guya dəvə ətindən bişirir. O ətin də iyi-qoxu olur? Arvadın çox bilmişliyinə bax ha... O, yazıq, kimsəsiz İlahəni də məhv eləyəcək.

Mən təəccübləndim:

— Qutabdı, nəfsi çəkən alıb yeyir. Hər kəs özü bilər.

— Yəni dəvə ətindən bişən qutab elə baş çatladan iy verər?

— Mən hardan bilim? Bəyəm mən birdən-ikiyə dəvə saxlamışam, onun ətini görmüşəm? Ya qutab bişirmişəm, bilim ki, necə iy verir? Ancaq İlahə barədə düz deyirsən. Mənim də o qızcığaza yazığım gəlir. Əfruz ölməsə, o uşağın canı qurtarmayacaq. Bilmirəm hansı ağılla uşağın taleyini ona tapşırıblar.

— Bir neçəsini mən aldım, ikisini də sənin dostuna vermək istədim. Nə qədər elədim götürmədi. Yaxşı, o oğlan kimdi?

— Axır ki əsas mətləbə çatdın. Əzizim, bilirəm bayaqdan

danışdıqlarının nəyə xidmət elədiyini. Sən bilməyən şeyə qurd düşər. Əfruzun qutabı da bəhanədi.

Qadın ucadan güldü.

— Yoxsa, bizim xəbərimiz yoxdu, dilim-ağzım qurusun, bəlkə...

Gözlənilməz sualdan mən çaşdım. Sonra qəsdən dedim:

— Yaxın qohumumdu. Götürmüşəm övladlığa. Təklik məni üzür, qaçmasa, güman eləyirəm, başım qatılar. O qədər yetim, kimsəsiz uşaq götürüb saxlayanlar var ki. Mən də olum onlardan biri. Bəyəm pis iş görmüşəm?

— Düzünü de, bizi çaşdırma, bəlkə sənin xəlvəti arvaddan olan öz uşağındı? Sabah da sirrini batırmaq üçün evini satıb çıxacaqsan aradan.

— Xəlvəti arvad?.. Bədbəxtik, xanım, o qədər yalan danışırıq ki, axırda düz sözə də, inanmırıq.

— Danışdıqların dolamaya oxşayır. Eləsini götürəydin, böyüyəndə də həqiqi atası sən olduğunu düşünəydi.

— Deyirsən, bu yaşda uşaq altı dəyişəydim? Bulaşmış əski yuyaydım? Ya uşağa əmzik verəydim?

Elmira ucadan güldü. Mən sözümə davam elədim:

— Elmira, Sahib istədiyi qədər mənimlə qalacaq. Səninlə qohum olacam. Mənim sözümü hamıya da çatdır.

Elmira güldü:

— Allah boya-başa çatandan eləsin.





## Yersiz gəldi, yerli qaç

Avtomobillə beş-altı saatlıq yorğun-arğın yol qət elədikdən sonra mən adamlardan soruşa-soruşa Sahibgilin evinə çatanda gün günortadan əyilmişdi. İstidən dayanmaq olmurdu. Əynimə geydiyim köynək kürəyimin tərindən islanmışdı. Həyət darvazasının yanında bitən şah budaqlı tut ağacının kölgəsində xeyli dayandım. Nəfəsimi dərdim. Sonra darvaza dəmirdən olduğundan cibimdən xırda pul çıxarıb onu astadan döyməyə başladım. Həyətdən:

— Kimsən, sənə kim lazımdı? — deyə qadın səsi eşidildi. Mən dərhal:

— Bacım, şəhərdən sizə gəlmişəm, qapını açın, sizə deyiləsi sözüm var, — cavabını verdim.

Ucaboy, dolu bədənli qadın qapını açdı. Otuz beş-qırx yaşı olardı. Sifəti yupyumruydu. Enli alnı, göyə çalan iti gözləri, uzun çatma qaşları, xırda burnu, qalın çırma dodaqları vardı. Əyninə dar güllü-güllü xalat geymişdi. Xalatın aşağıdakı düymələri açıq olduğundan tüksüz, ağ, yoğun qıçları apaydın görünürdü. İlk dəfə gördüyüm bu qadın gözlərimin içinə baxdı. Mən onun çiyinləri üzərindən həyət-bacanı, evi seyr eləyə-eləyə dedim:

— Şəms sizsiz?

— Bəli, mənəm!

— Ərin Qoçu evdədimi?

— Hə... Bir az əvvəl işdən gəlib. Yatıb.

— Mən sizin ikinizlə də açıq söhbət eləmək istəyirəm.

— Olmaya polisdənsiz?

— Yox.

— Onda xeyir ola?

— Xahiş eləyirəm, ərinizi yuxudan qaldırasız. Söhbətimiz nə

qədər tez baş tutsa, mən də şəhərə tez qayıdaram.

— Nə sözün var de, mən ona çatdıraram.

Qadın iti nəzərlərini gözlərimin içinə zillədi. Mən əvvəl tutuldum. Sonra özümə gəlib astadan dedim:

— Uzaq yol gəlmişəm. İstidən təntimişəm. Özüm də susuzlamışam. Bəlkə bir az ağacın kölgəsində dincəlim, mənə bir stəkan su verəsiz.

Şəms gözlərini üzümdən yayındırıb tələm-tələsik su gətirmək üçün eyvana çıxdı. Tez də əlində su dolu fincan geri qayıtdı. Mən fincanı alıb suyu içdim. Sonra dedim:

— Bir az tezləşdirin, gecikə bilərəm. Qayıtmalıyam.

Şəms fikrə getdi. Elə həyətdəcə: — Qoçu, Qoçu, — deyə bir neçə dəfə çağırdı. Evdən ərinin səsi eşidildi:

— Nə var, nə olub? Qoymayacaqsan yatım, dincəlib özümə gəlim?.

— Bağırma. Şəhərdən gələn var, bizimlə söhbət eləmək istəyir. Səsini də eşidir.

Doğrusu, ərinə “bağırma”, — deməsi mənim nəinki xoşuma gəlmədi, əksinə, bu qadının gözlərim önündə özünə və başqalarına hörmət qoymayan obrazını yaratdı.

“Səsini də eşidir” cümləsi isə ərinə diktə eləyirdi ki, artıq-əskik danışma, qonaq həyətdədi, ayağa dur. Şəms eyvana çıxıb oradakı stullardan üçünü eyvanın kənarına qoydu. Mən dərhal anladım: qadının bu hərəkəti onu göstərir ki, biz ağacın kölgəsində söhbətə oturmalıyıq. Ona görə də stulları götürüb ağacın kölgəsinə qoydum. Birinin də üstündə oturdum. Handan-hana qapı açıldı. Gödək və yoğun boyunlu qırmızı sifət, qonur gözlü bir kişi otaqdan çıxdı. Yumru, əyri burnu çənəsinin üstə sallanırdı. Sarı bığları vardı. Qaşlarının uzun tükləri kişini gülməli vəziyyətə salırdı.

Biz əl verib görüşdük. Hər ikisi stul çəkib əyləşdi. Qoçu saymazyana dilləndi.





— Eşidirəm sizi. Siz kimsiz, nə karəsiz?

— Şəhərdən gəlmişəm. Adım Arandı. Sizin övladınız Sahibi ac-yalavac, köhnə, çirkli pal-paltarda parkda tapmışam. Evimə aparmışam. Çox yaxşı, səliqə-səhmanlı, yerli-yataqlı danışan oğlandı. Axı o yaşda uşağı nəzarətsiz kənara qoymazlar. Gedər itin-qurdun əlinə düşər, onu cinayətə təhrik eləyərlər.

Qoçu diqqətlə üzümə baxdı. Sonra sözümü kəsdi:

— Ayə, şəhərdən atıla-atıla bunu deməyəmi gəlmisən? Bəyəm biz o qədər qanmazıq ki, sən deyənləri fikirləşməyək? Ya başa düşməyək? Sənin nə işinə qalıb, kim harda və necə gəzir? O, uşaqdı. Əziyyət çəkməlidi. Gözləri açılmalıdı. Zeynəb qarı demişkən, “Döyülməyən düyüdən aş olmaz”. Uşaq həyatın ağır imtahanlarından keçərək çətin həyata hazırlanmalıdı. O, oğlan uşağıdı. Tozda-torpaqda böyüməlidi ki, gələcək həyatının qədrini bilsin. Qağa, Sahib qız uşağı deyil ki, yağ içində böyrək kimi saxlayasan. Başı ağrıyanda yumşaq pambığa, ya yuna bükəsən.

— Siz Sahibin atalığısız da?

— Bəli. Mən ona doğma atasından daha çox yanıram.

— İcazə verin, uşağın doğma anasıyla iki kəlmə danışım.

Qoçu kinayəylə:

— Buyur, qonaq, bildiklərini arvadıma ərz elə.

Mən kinayəni anlasam da, ona cavab vermədim və üzümü Şəmsə tutdum:

— Sizi uşağınızı doğma ev-eşiyinizdən didərgin salmağa vadar eləyən nədi?

— Adi, hamının başına gələn məsələni şişirtməyin. Nə danışdığını bilirsən? A kişi, sən müxbir-zadsan? Dediklərini qonşular eşidərlər, bizə tüpürərlər. Adımız var, sanımız var, özümüzə görə xətir-hörmətimiz var. Bizə camaatı tüpürtdürmə.

Qadın ərinə tərəf çevrilərək təəccüblə dedi:

— Aaa, Qoçu, bunun sözünə bax ey. Uşağı didərgin düşməyə

vadar eləmək?

Sonra da mənə tərəf döndü:

— Qonaq, ayıbdı sənə, o adı bizə qoyma. Sən deyənlər məhkəməlik işdi. O, sadəcə olaraq Qoçunu — ona çörək verən, qayğı göstərən, doğma balasından çox istəyən atalığını qəbul eləmir. Sahibi mən doğsam da, çox hikkəli, ərköyün uşaqdı. Kişinin hər sözünə cavab qaytarır. Deyir, iti görüm, qurdu görüm, Qoçunu bu evdə görməyim. Məni yandırıb çızdağımı çıxaran odu ki, Sahib xeyirxahını anlamır. Məni də eşitmir. O, ata istəyir, mən ölünü necə geri qaytarım?

— Məsələyə düz yanaşmırsız, xanım. O, doğma atasının başqasıyla əvəzlənməsini götürə bilmir. Sən niyə başa düşmək istəmirsən ki, Qoçunun bu evə gəlişi, onun sənə yaxın münasibəti hər şeyi anlayan Sahibin qüruruna toxunur. Heysiyyətini alçaldır.

Qoçu:

— Hə... Gözümüz aydın. Ağıl verənimizə bax. Ayə, Aran, mən kişiyəm ey.

Şəms başını yelləyərək:

— Danışdın da. A kişi, uşağın qüruruna, heysiyyətinə toxunur deyə, bəyəm mən ailə qurmamalıydım? Bir Sahibə görə cavan qadın özümü çürütməliydim? Mən qadın döörəm? Mənim hissim, duyğum yoxdu? Əşi, tələbsiz də qadın olar? Elə bil sən bu dünyada yaşamırsan? Əri ölən, itən, baş götürüb gedən qadın özünə ər tapmalıydı, ya yox? Yüz elə Sahib ola...

Mən əsəbləşdim:

— Xanım, siz qadın kimi danışırsız, ana kimi yox. Övlad saman çuvalı deyil ki, onu tövlənin bir küncünə söykəyəsən, dura.

Arvadının sözündən məmnun olan Qoçu düz gözlərimin içinə baxaraq:

— Ayə, istədiyini aldın?! Bəlkə Şəms yalan deyir? O, cavan, enerjili qadındı. O da ürəyincə yaşamalıdı. O da həyatdan arzukamını almalıdı, ya yox? Doğrusu, mən səni anlamıram. Sən Şəmsin doğmalarından olsaydın, bəlkə də mənə bu qədər təsir eləməzdi. Bəlkə Sahib bizi məhkəməyə verib, sən də onun vəkilisən? Əgər eləsə, açıq danış, biz də bilək. Mən bu evə eləbelə, daha doğrusu öz xoşumla gəlməmişəm. Üzünə deyirəm: Şəms özü məni bu evə gətirib. Mən də onun dəvətini qəbul eləməyə bilməzdim... Gəlməsəydim, milli mentalitetimizə qarşı çıxmış olardım.





Mən dözəmmədim:

— Bərəkallah, sənin ağlına, qanacağına. Milli mentalitet deyəndə, nəyi nəzərdə tutursan?

Qoçu özündən razı halda:

— Mənim evimdə həddini aşıb darğalıq eləmə, Aran bəy. Dedim axı, mən kişiyəm. Biz qonaqpərvərik, gələnə qapı açanıq, ancaq onun da həddi var. Bir az da qabağa çıxsan, mən əsəbiləşə bilərəm.

Ani fikrə getdim. Sonra Qoçuya:

— Sənin kişiliyinə şübhə eləyən yoxdu. İcazənlə, mən xanımınla sözümə davam eləyə bilərəmmi?

— Elə, ancaq çox açıq-saçıq yox.

Üzümü Şəmsə tutdum:

— Xanım, Sahib sənin övladındı. Onun başına bir iş gəlsə, sənin fəlakətin olacaq. Uşaq bizdədi. Onu ev, ailə ağuşundan uzaqlaşdırmayın. İlk dəfə mən Sahiblə qarşılaşanda bütün varlığım sarsıldı. Ağlamaq istədim. Uşaq pişik, it deyil ki, harda gəldi sülənsin.

Şəms əvvəl dayandı. Deyəsən, danışmağa söz tapammadı. Handan-hana dilə gəlib bildirdi.

— Siz elə düşünürsüz ki, mən ona baxmırdım? Mən onu istəmirəm? İt, pişik də balasından ötrü canını oda yaxır. Mən siz deyənlərə inanmıram...

Şəmsin gözləri yaşla doldu. Səsi titrədi. Qoçu dərhal dedi:

— O, övlad olsaydı, evdən qaçmazdı. Sahibi mənə az təriflə. Mən bu evə gələli, o, məni özünə düşmən sandı, ata yox. Mən nə pis iş görmüşəm? Anasını alıb başsız qoymamışam. Bu, mənim xeyirxahlığımın, kişiliyimin əvəzidi? Qazanıb gətirirəm, o da süfrənin qırağında oturub dinməz-söyləməz bir loxma kəssəydi nə olardı? Ona gözün üstə qaşın var deyən vardı ki? Dərdin birini bilirsən, o birisini yox. O qanmaz gecələrin birində yuxuda olanda başımı baltayla da kəsə bilərdi. Açığını deyim ki, Sahib evdə olanda, mən səksəkə içində olurdum, yatammırdım. Düz-əməlli yuxuya da gedəmmirdim. Fikirləşirdim ki, o əclaf gədə gəlib nə vaxtsa, məni də, elə anasını da bitəhər eləyəcək. Yox, qardaş, gedib çox yaxşı.

— Deməli, onu qorxunuzdan küçəyə atmısız.

— Yox, onu verdik sənə. Apar işlət. Qul kimi, kölə kimi əlində saxla.

Onun bu dedikləri mənə lap pis təsir elədi. İstədim Qoçunun abırını alım. Ona: — Sən nadansan, vəhşisən, — deyim, sonra fikirləşib səbrimi basmağa üstünlük verdim və bir şey olmamış kimi dedim:

— Şəms xanım, övlad sənindi, Qoçunun deyil. Qoçu çox şey danışa bilər.

Şəms:

— Bilirsiz, günah mənim oğlumdadı. Kimiydi onu döyüb, söyüb evdən çıxaran? Qoçu kimi atalığı, mənim tək anası vardı. Özünü tərifləmək olmasın, hamı bizə həsəd aparır.

— Axı, məndə olan məlumata görə, o, xeyli müddət dostugildə qalıb. Onu bu evdən kimsə qanadları altına çəkən olmayıb.

Şəms:

— Xeyr. Uşaq mənimdi, onun nə qədər idbar olduğunu mən bilirəm.

— Axı xanım, o, səndən bir ana kimi çox incikdi. Bunun sabahı var. Tök daşı ətəyindən.





Qoçu əsəbi halda dedi:

— A kişi, bizə ağıl vermə. Bizim ağlımız qədərincədi. Hər gün şəxsən mən neçə adama məsləhət verirəm. Neçəsini əyri yoldan çəkindirirəm. İndi sən mənə mühazirə oxuyursan? Mənim o vaxtım keçib.

Qoçu üzünü Şəmsə tutaraq:

— Şəms, görürəm, yavaş-yavaş yumşalırsan. Budu sənə deyirəm: ya Sahib, ya da mən. O, gəlirsə, mən gedəcəm. Onunla birlikdə yaşamaq istəmirəm.

Qalın səsli, yerli ləhcəylə ağır-ağır danışan Qoçu özünü məlumatlı, hər şeyi yerli-yatağınca bilən kimi göstərirdi. Əslində o çox intellektsiz, yaramaz, ədəb-ərkansızıydı. Ağzına ağ da gəlsə danışırdı, qara da. Danışığının, hərəkətlərinin məsuliyyətini hiss etmirdi...

Mən əsəbiləşdim. Hisslərimi cilovlayammadım.

— Qoçu, nə danışdığını bil. Sahibi, Şəms xanımı bədbəxt eləmə. Xanımla ailə qurmusan, onun evinə girmisən. İmkan ver, ana-bala da insan kimi yaşasınlar. Sənsə özünü elə aparırsan ki, məndə belə təəssürat yaranır, sən doğrudan da bu ailənin qoçususan.

Qoçu:

— Mənə təzə ad qoyma. Qonaqsan, xatirinə dəymək istəmirəm. Gərək sən də özünü qonaq kimi aparasan. Zeynəb qarı deyərdi: "Gərək adam ayağını yorğanına tən uzatsın". "Yersiz gəldi, yerli qaç eləməsin".

Şəms mənə çaşqın halda dedi:

— Aran qardaş, biz Sahibi veririk sənə. Apar, saxla...

Qadın əlini qarnına vura-vura sözünə davam elədi:

— Lap tutaq ki. Sahibi gətirdim evə. Bəs onda qarnımdakı Qoçudan olanı neyləyim?

— Əvvəla, Şəms xanım, sənə bətninizdəki uşağı at — deyən yoxdu. Sən ərinin xatirinə o boyda Sahibi bətnindəkinə qurban

verirsən. Kim sənə zəmanət verə bilər ki, nə vaxtsa, kiminsə xatirinə qarnındakını Sahibin gününə salmayacaqsan? Qaldı Sahibi mənim saxlamama. Mən onu evimə aparmışamsa, deməli, götürmüşəm. Saxlayacam da. Çünki mən vicdansız adam deyiləm.

Qoçu:

— Qardaş, əvvəla, biz sənə güzəştə gedirik, sən də ondan istifadə eləyib özündən çıxma. Biz də vicdansız adam deyilik. Mən vicdansız olsaydım, gəlib başsız Şəmsi özümə arvad eləməzdim. Almışamsa, deməli, sən deyən vicdandan məndə də nəsə var.

Mən astadan dedim:

— Sahibi qovub evdən çıxaracaqdızsa, onu vaxtında niyə atasına vermədiz?

Qoçu ucadan, bir az da əsəbi:

— Ay onun atasına lənət. Dəyyusun adını yanımda çəkmə. Bütün sinirlərim oyanır. Dəli oluram. Apardı, vermədik?

Mən qəsdən:

— Görürəm, əsəbisən. Bir az özünü ələ al, Qoçu.

— Bilirsən, Şəms yaxşı dedi. Allah Sahibdən sənə geninəboluna xeyir versin. Apar saxla. O da böyüyər. dırnaqları ovcuna batar. Sən qocalıb əldən düşəndə, səni himayə elər. Zeynəb qarı deyərdi: “Yaxşılıq heç zaman itmir. Verdiyin bir tikə hərlənib, fırlanıb özünə qayıdar”.

Mən gülümsündüm. Sonra dedim:

— Onu ki bilirsiz ha, niyə özünüzə tətbiq eləmirsiz? Qoçu, burda sənin itirdiyin olsa-olsa ancaq vicdanın ola bilər. Mənim yazığım Şəmsə gəlir. O, bütün ruhunu, keçmişini, gələcəyini yandırır. Xanım, Allah sənə dünyanın ən şirin, əvəzolunmaz payını hədiyyə eləyir, sənsə onun qədrini bilmirsən. Halına, xislətinə bələd olmadığın bir adama deyirsən: “Apar saxla”. Bu açıqaçığına övladdan, analıq hüququndan özünü məhrum eləməkdi.





Şəms, sən neylədiyini bilirsənmi? İnanıram ki, yox! Acı da olsa, sənə bir həqiqəti çatdırmaq istəyirəm.

Şəms mızıltılı  və kinayəli səslə:

— Buyur. Eşidirəm.

— Sən çirkaba batmış əməllərinlə üzünə açılan səadət, xoşbəxtlik qapısını bağlayırsan. Heç kim heç nə anlamasın, — deyə qaçıb həmin qapının arxasında gizlənirsən. Ağıllı heç nə fikirləşmirsən. Sadəcə sənin çılğın ehtirasların başını dumanlandırır. Ağlın çaşıb. Təkcə hır-hır hırıldamağı bacarırsan. Nə vaxtsa, ayılanda əzab-iztirablar çəkərək zır-zır zırıldayacaqsan... Onda gec olacaq. Çalış doğma oğlunu, ciyərparanı — gələcəyini birdəfəlik itirməyəsən. Əks halda bu, sənin üçün fəlakət olar. Ağlı başında olan hər kəs varlığını övladında görər... Yalvarıram, yoluna qayıt, əzizin Sahibi itirmə. Mən, ya başqası olsun, fərqi yoxdu, nə qədər onu əzizləsək də, səni əvəzləyənmərik. Biz yalnız onun cismini qoruyub saxlaya bilərik, ruhunu yox...

Qoçu əsəbi halda dilləndi:

— Bu bər-bəzəkli sözlərlə arvadımın başını xarab eləmə. Şəms nə elədiyini yaxşı bilir. Aran bəy, yoxsa burnuna iy dəyib. Bu uzaqlığa yolu basa-basa gəlməkdə məqsədin bizə cəfəng dil öyrətməkdi? Mən də onun tərəfindəyəm və bunu bayaq da dedim, oğlan uşağı tər tökməlidi. Əməyə alışmalıdı. Ailə həyatına hazırlanmalıdı.

Mən təəssüf hissiylə başımı yellədim:

— Əcəb bəhanələr gətirirsiz. Elə bil siz valideyn döörsüz. Sizdə insan qanı yoxdu... Övlada oyuncaq kimi baxmazlar. Uşaq sizin gələcəyinizdi.

Qoçu səsini qaldıraraq:

— Ayə, bizə az darayı toxu. Biz adamlara ağıl veririk, sən də bizə. Başqasının işinə niyə burnunu soxursan? Aran bəy, istəyirəm biləsən, baş girməyən yerə bədən soxmazlar.

Şəms:

— Zeynəb qarı yaxşı deyib: "Ətlə dırnağın arasına girən iylənib çıxar". "Yuyulmamış çömçə kimi ortaya atılmazlar". Kişi, ixtiyar vermərik ki, sən bizimlə bu tərzdə danışıb, ailə işimizə qarışasan... Hər ailə bir sirr dağarcığıdı. Açıb tökərsən, sonra da yanarsan. Bizi gözüqıpıq sanma. Bizim də ağlımız var. Özü də gen-bol. Sən niyə anlamırsan ki, isti-soyuğa, ağır-yüngülə düşməsə, oğlan uşağının gözləri açılmaz. Odu ha, qonşu yamaqçı Zərbəlinin oğlu bala Məmməd, tülkü Qulamın gədəsi mığ-mığa Səfər. Onlar evlərindən küçələrə atılanda Sahibdən də kiçik, Sahibdən də çılızıydılar. Maşallah, indi bir qanan, gözləri açıq kişi olublar, gəl görəsən. Hərəsi bir sürü adam dolandırır... Yadında saxla, Sahibi mən doğmuşam, dərdini də mən çəkəcəm.

Öz-özümə dedim:

— İlahi, böyüklüyünə şükür. Hər cür həşərat yaratdığın kimi, insan da dünyaya gətirmisən. Belələriylə söhbətə oturanda adamın düşüncələri, nitqi də donur...

Mən üzümü Şəmsə tutdum:

— Gələcək biz özümüzük, — deyirlər. Əks halda, hər şeyimizi itiririk. Əldə elədiklərimizi özümüz də bilmədən alt-üst eləyirik... Axı, biz niyə uşaqlarımıza yiyə çıxmayaq? Dovşan balaları tək onları hara gəldi ataq? Niyə başa düşmürük ki, zavallı uşaqlarımız bizim canımızı, ruhumuzu canlarında gəzdirirlər... Canımızın bir parçası olan balalarımızın göz yaşlarını axıtmağa bizə kim ixtiyar verib? Onlar gözdən uzaq olanda hər cür cinayətlərə əl ata bilərlər. Oğurluq eləyərlər. Adam qətlə yetirərlər. Təsadüflərin qurbanı olarlar. Bu cahil hərəkətlər bizim xalqımıza, millətimizə yaraşandımı?

Qoçu dərhal:

— Pay atonnan... Ayə, xalq, millət təəssübkeşinə bax ey! Kişi, qeyrətin aşıb-daşması, ya qəhətə çıxması başa bəla gətirir... Çox qabağa çıxma, şalvarının cırığı görünər. Palaza bürünüb ellə sürünsən yaxşıdı. Onda diqqət cəlb eləməssən.





Sonra ağız-burnunu əyişdirərək:

— Ayə, onlar hamısı boş sözlərdi. Kimlərinsə xoşuna gəlmək üçün deyilən, başqa sözlə, xal qazanmağa xidmət eləyən fitnələrdi. Bir zaman bizim qonşuluqda bir kişi vardı. Danışanda ağzından od tökülürdü. Ən yaxşı sözləri hardansa tapıb elə deyirdi ki, adamın ağzı açıla qalırdı. Adam az qalırdı, işini-gücünü buraxıb otursun yanında. Yemədən-içmədən axşamacan qulaq assın ona. Aran bəy, çoxları da onu təqlid eləməyə çalışırdı. Ancaq nə qədər səy göstərsələr də, alınmırdı. Bəla burasındaydı ki, o kişinin də danışdıqlarıyla əməlləri düz gəlmirdi. Ona görə də adını Natiq Zərbəli qoymuşdular. Tanımadıqlarını, sən demiş, xislətinə bələd olmayanları salıb çənəsinin altına haldan salınca sözlə əzişdirərdi. İncimə məndən, deyəsən, sən də Zərbəli kimilərdənsən. Zərbəliylə qohumluğunuz-zadınız yoxdu ki?

Mən Qoçu tərəfindən ələ salındığımı anladım:

— Qoçu, Allah böyük qüdrətdi. Mən ona yol göstərmək, məsləhət vermək fikrindən çox-çox uzağam. Yaxşı olardı ki, bəzi uzun, cantaraq adamların boyundan, canından alıb onun ağlına verəydi. Onda anlardılar ki, həyat nədi, yaşamaq nədi, insanlıq nə olan şeydi. Şəhərdən dar macalla bu boyda yol gəlmişəm. İş-gücümü atıb sənə ağıl duası yazanmaram ki? Ya sənə ədəb-ərkan dərsi verənmərəm ki? Allah hamıya ağıl versin. Vicdanı və namusu olan da, qəhətə çıxan da o keyfiyyətlərdən dəm vurur. Bu fəlsəfi anlamlara tüpürdükdə, ona ləkə yaxdıqda, insanlığın üstən qara xətt çəkilir. Zaman ötür, o tüpürcəyi, ləkəni heç qəbir də basdıra bilmir. Hər dəfə tüpürcəkli vicdan, ləkəli namus yada düşəndə onlar özlərindən ətrafa ürək bulandıran, nəfəs çatladan üfunətlər yayırlar.

Şəms diqqətlə üzümə baxdı:

— Sözündən belə çıxır ki, Qoçunun, ya mənim ağlımız yoxdu... Ayıbdı, bizə elə belə baxma, Aran. El içində xətir, hörmətimiz var.

— Olsaydı, səni, sənin ciyərparanı bədbəxt eləməzdi ki. Şəxsən səni, sənin oğlunu çirkin ayaqları altına atıb tapdalamazdı. Doğrudu, burda sənin də günahın var. Özü də böyük. Xanım, sən çılğın ehtiraslarının qulu olmusan. Eşit, üzünə deyirəm, ərin də sənin kimi. O, sənə ağıl vermək, həyatın nə olduğunu göstərmək əvəzinə, savadsızlığından, dünyagörüşünün məhdudluğundan istifadə eləyir. Bəs bu alçaq, nanəcib əməllər hara qədər davam eləyəcək? Ana öz doğduğu övladının qədrini bilmirsə, onda kimə etibar, sədaqət olar? Əlbəttə, heç kimə. Övlad əşya deyil, necə gəldi, hara gəldi, atasan. Övlad canlılar sülaləsinə daxil olsa da, o bütün varlıqlardan fərqlənir. Özünü doğma balasına fəda eləyənlərə, — istər qadın olsun, istər kişi — mən həmişə qibtə eləmişəm. Azğın etiraslı kişiləri cilovlayan yeganə bir qüvvə var, o da qadındı. Qadın gərək özünü dəyərləndirə bilsin. Şəms, səndə əcaib bir hikkə duyuram. O, qadın ləyaqətini alçaldan, ismətini vücudundan qoparan xəstəlikdi. Bəlkə də hoqqabazlıqdı. Ondan uzaqda dayananlar daim öz qədrlərini artırmış olarlar. Təəssüf... Çox təəssüf!

Xanım, bilirəm, çox danışıb sizi yoruram. Düşünə bilərsiz ki, günün bu vədəsində bu səfeh hardan gəlib tapdı bizi. Ər-arvad ürəyinizdə lap məni söyə, təhqir də eləyə bilərsiz. Öz işinizdi. Mənə lazımıydı ki, sizinlə görüşüb əhvalatı sizə çatdırım. Çatdırdım. Siz ər-arvad dediklərinizlə, Sahibə münasibətinizlə kimliyinizi mənə diktə elədiz. Mən Sahibə öz doğma övladım kimi qayğı göstərəcəm. Şəms, bu son sözlərimi unutma. Sırğa elə qulağından as. Adam o zaman özünü xoşbəxt sanar ki, əhvali-ruhiyyəsi xoş, tükənməz yaşamaq sevgisi olsun. Azğın ehtiraslar yaşamından söhbət gedə bilməz. Nə qədər acı da olsa, bir həqiqəti dərk etməlisən. Zaman gələcək, atdığın ciyərparanın etinasızlığı səni vaxt-bivaxt inlədəcək, intihar həddinə çatdıracaq. Gecələr yatağına uzanıb balıncını göz yaşlarıyla isladacaqsan. İmdadına çatan olmayacaq. Onda öz qəbrini özün qazmış





olacaqsan. Necə deyərlər: özü yıxılan ağlamaz; özü-özünə eləyənə çarə tapılmaz; nə tökərsən aşına, o da çıxar qaşığına; quyunu dərin qaz özün də düşə bilərsən... Bu dediklərim tək mənim kəşfim deyil, xanım, o nəsillərin həyat təcrübəsindən doğan qənaətlərdi.

Söhbəti diqqətlə dinləyən Qoçu dedi:

— Bayaq dedim axı, mən kişiyəm. Kişi səbrinin də həddi var.

— Eh... Kişi... Kişi... Bu sözün də öz məzmunu var, Qoçu... O sözü hamı deyir, mənasını qanan da, qanmayan da.

Qoçu cəld ayağa qalxdı:

— Məni qana çalxama, Aran. Mən damda yatmaq istəmirəm. Bu Şəmsə qurban olasan, başına bir oyun açardım, ömrü boyu onu unudanmazdın.

Mən onların qırımını başa düşüb ayağa qalxdım. Şəms mənim üzümə əl atdı. Üst-başımı cırmaqlamağa başladı. Geri çəkildim. Az qala ayağım ilişib yıxılacaqdım. Müvazinətimi gücbəlayla düzəltmişdim ki, Qoçu arvadından betər oldu. O, məni itələyə-itələyə darvazadan çıxartmağa başladı... Qəribəydi, mən bu ağılda adamlar nə görmüşdüm, nə də təsəvvür eləyirdim. Darvazadan çıxanda özümdən asılı olmayaraq dedim:

— Heyvan kimi ömür sürən alçaqlar.

## Ziyanxorlar

Şəhərə qatarla qayıtmalı oldum. Kupeyə girib öz yerimi rahatlayırdım ki, bir kişiylə qadın da içəri girdi. Salam verib əyləşdilər. Kişinin altmışa yaxın yaşı olardı. Dolu bədəni, çallaşmış saçları və bığı vardı. Üzü təzəcə təraş olunmuşdu. Qara iti gözlərindən, nurlu üzündən hiss olunurdu ki, oxumuş adamdı. Qadın yaşca ondan kiçik olardı. Arıq, uzunsov, ağ sifəti vardı.

Saçlarını arxaya daramışdı. Qulaqlarına xırda sırğalar taxmışdı. Xeyli yol gəlmişdik ki, kişi gülümsünərək mənə dedi:

— Qardaş, kimliyini bilmirəm. Deyəsən, sən də bizim kimi danışmağı sevən deyilsən. Belə getsə, vəziyyətimiz ağır olacaq. Əvvəlcədən deyim, mənim adım Əhəddi. Müəllim işləyirəm. Yanımda əyləşən də mənim xanımımdı. Şəhərə oğlumgilə gedirik.

— Çox yaxşı. Mənim də adım Arandı. İqtisadçıyam.

— Üz-gözünüzdən bir az əsəbi görünürsüz. Belə ciddi görünmək iqtisadçıların adətidi. Yəqin ki, rəqəmlər sizi cox yorur. Yoxsa, tanış olmadığımız üçün...

— Yox... Əhəd müəllim, bu gün az qala bəlaya düşəcəkdim.

Qadın diqqətlə üzümə baxdı. Sonra gözlənilmədən dedi:

— Bəlkə kiminləsə dalaşmısız. Boynunuz cırmaqlanıb.

Mən dərhal əlimi boynumda gəzdirdim. Sonra dedim:

— Vaxtında təslim olmasaydım, öldürülə də bilərdim. Sizin rayonunuzda Qoçu adında kişi və Şəms adlı qadın var.

Əhədlə xanımı bir-birlərinin üzünə təəccüblə baxdılar. Kişi dilləndi:

— Hər ikisini tanıyırıq. Sən hara, onlar hara?

— Şəmsin bir oğlu var. Onu evdən küçəyə atıblar. O uşaq indi bizdədi. Onu parkdan götürüb evimə apardım. Gəldim ki, Sahibin bizdə olduğunu onlara çatdırım. Mənə nə desələr yaxşıdı?!. "Verdik sənə, apar saxla". Əşi, uşaq dovşandı, ya pişikdi ki, kim istədi götürüb saxlaya? Məni dəhşət bürüdü, Əhəd müəllim. Mən Qoçu barədə danışmaq istəmirəm. Çünki onda adamlıq hissi, duyğusu yoxdu. Məni yandıran Şəmsdi.

Mən üzümü Əhədin xanımına tutdum:

— Xanım, qadın çox mürəkkəb, həm də heyrətamiz məxluqdu. Ağıllı qadın ərinə mənalı həyat, xoş yaşam bəxş eləyirsə, ağıldan dürəklər onu faciələrə sürükləyir. Qadın gülərkən özünün bəxtiyarlığına, ağlarkən ərinin faciəsinə imza atır desəm, bəlkə də səhv eləmərəm . Bu səbəbdən də ağıllı qadınları böyük qüdrət, günəş, hiyləgərləri, xudbinləri isə ərlərinin fitnə fəsadlar törətməsinə bais olan iblis adlandırırlar... Qadınlar ərlərinə dayaq duranda, qan tökmələrinə, ev yıxmalarına, fəlakətlər törətmələrinə köklənən beyinlərinə sipər çəkəndə, doğurdan da, böyük olurlar. Onların başı üzərində Allah-Təalanın nuru cilvələnir. Yox... Bunun əksi baş verirsə, qadınlar özlərinin insani hisslərini itirib şərə fətva verirlərsə, o, zülmətlər içərisində qol-qanad açıb, nəşələnən qülyabanıdan başqa bir şey deyillər. Şəms məhz belələrindəndi.





Qadın dərindən köksünü ötürüb dedi:

— Aran qardaş, həyat ömür yoludur. Onu hərə bir cürə adlayır. Biz onlarla qonşuyuq. Qoçunu da, Şəmsi də yaxşı tanıyırıq. Heyf Sahibdən. O, çox yaxşı uşaqdı. Eynən atasına oxşayır. Elə bil atası Şöhrətin başını kəsib onun çiyinləri üstə qoyublar. Şəms əvvəlki əri Şöhrəti də bədbəxt elədi. İnanıram, Qoçunu da onun gününə salacaq.

Əhəd dərindən ah çəkərək:

— İnsanlar əzəldən belədi. Bəzən nə elədiklərinin fərqinə varmırlar. İnsaf, mürvət necə qəhətə çıxıb ki, bığıburma kişilər, ərəhən qadınlar ağına-bozuna baxmadan, vaxtıyla valideynlərinin özlərinə xidmətlərini — yuxusuz gecələrini, gecə-gündüz çəkdikləri əzab-əziyyətlərini bir anlığa gözləri önünə gətirmədən onları atırlar. — Kimsəsizlər evində rahat olarsan, get orda yaşa — deyirlər. Ayda-ildə bircə dəfə də olsun hallarını soruşmağa getmirlər. Elə götürək Sahibi. Uşağın günahı nədi, çöllərə düşsün? Ac-yalavac parklarda, meydanlarda yatsın? Aran bəy, sən böyük ürək sahibisən. Onu evinə aparmısan. Qarnını doydurmusan. İndi də niskili olmasın deyə, ləyaqətini itirən anasıyla söhbətə oturmusan. İnan, Şəms kimi nadanlar sənin ürəyini duymazlar.

Mən öz-özümə dedim:

— İnsanlar niyə bu qədər nadan olurlar, İlahi? Biz bu nadanlığı ana bətnindən özümüzlə gətirmişikmi? Beləsə, kimdi günahkar?.. Yox... Sonradan qazanmışıqsa, buna nə ehtiyac vardı? Biz böyüklərin işlətdiyi günahların cəzalarını uşaqlarmı çəkməlidilər? İnsafsızcasına törətdiyimiz cinayətlərimizin, qeyri-insani hərəkətlərimizin ağrı-acılarının, əzab-iztirablarının yükü altında biz müqəssirlər inləməliyik, yoxsa günahsız uşaqlar?

Duyuğa getdiyimi görən xanım sakit tərzdə bildirdi:

— Çox qəribədi. Bəzən hiyləgər insanlar sadəlövhləri cinayət bataqlığına sürükləyirlər. Onları hər cür alçaqlıqlara sövq eləyirlər. İstəklərinə nail olandan sonra özləri yaramaz olduqları halda, onları "alçaqsan", "cinayətkarsan", "ziyanxorsan" — deyə mühakimə eləyirlər... Elələrinə baxanda dəhşət səni bürüyür. Canını qoymağa yer tapanmırsan. Görəsən, daş dövrünün insanları da belə düşünürdülərmi? Bir-birilərini didirdilərmi?.. Hərdən düşünürəm: Yəqin onlar da belə olublar. Bəlkə də bundan da betər. Nə bilmək olar...

Hər üçümüz gülüşdük. Qadın sözünə davam elədi:

— İnsan real dünyasının əzəl nöqtəsindən baş alıb gedən ömür yolunun son nöqtəsinə çataraq geriyə qanrılanda özündə bir məmnunluq, fəxranəlik duyursa, öz bəxtiyarlığını anlayır və hamının gözlərinin içinə dik baxa bilir. Bunun əksi olanda insan mərhəmət, xeyirxahlıq, ədalət... hisslərini itirir. İnsanlıq zirvəsindən qoparaq heyvanlar zümrəsinə enir. Belə olan təqdirdə nə nüfuz, nə şan, nə şöhrət?!

Əhəd gülərək:

— Xanım elə qəliz, fəlsəfi danışırsan ki, özüm də məəttəl qalıram. Sanki səni ilk dəfə görürəm. Oturub-durub səni dinləmək istəyirəm. Ancaq etiraf eləyim ki, danışdıqlarının çoxunu xeyli vaxtdan sonra anlayıram. Neçə dəfə demişəm: bir az sadə danış...

Kupeni gülüş səsləri bürüdü. Xanım dedi:





— Mənə də bu qabiliyyəti Allahım verib. Bu neçə ildə məni anlamamısansa, deməli, zəhmətim hədər gedib.

Əhəd üzünü mənə tutaraq:

— Aran bəy, yəqin ki, Qoçunun ayamasından xəbərsizsiz. Ondan xəbəriniz olsaydı, inanıram ki, Qoçuyla söhbətə oturmazdız.

Mən dərhal soruşdum:

— Ayaması nədi ki?

— Kərkədan.

Mən gülümsündüm:

— Kərkədan niyə?

— Vid-fasonuna görə. Ağızdan da heyvərə. İldə bir dəfə bədəni su görər, ya görməz. Görsə də, arxda, bərədə... Zalım oğlunun bədəni üfunət verir.

Mən:

— Şəms onun nəyinə vurulub?

— Zağarına.

Yenə kupeni gülüş səsləri bürüdü. Əhəd sözünə davam elədi:

— Şəms Kərkədan Qoçunun üçüncü arvadıdı. Birinci arvadından iki, ikincidən bir uşağı var. Görək Şəmsdən neçəsi olacaq? Keçmiş arvadlarından olan zavallı uşaqlara ağılsız anaları baxırlar.

Qadın dərhal:

— Deyirsən, anaları da saxlamasınlar?

Əhəd:

— Yox, saxlasınlar. Uşaqlarını saxladıqlarına görə yox, Qoçuya ərə getdikləri üçün onlara ağılsızlar deyirəm. Bir-ikisini də Şəms doğsa... Onları kim dolandıracaq? Mənə elə gəlir ki, bu sevdanın axırı onda faciəylə bitəcək.

Mən dərhal soruşdum:

— Nədən bilirsiz?

Qadın:

— Uşaqların ah-naləsindən.

Mən özümü saxlayammadım:

— Vay! Vay! Vay! Zavallı uşaqlar... Dünyadan xəbərsiz övladlarını və yaxud əli işdən qalan, taqətlərini itirən valideynləri-ni kimsəsizlər evlərinə atanları təsəvvürümə gətirəndə az qalır ürəyim çatlaya. Görəsən, belələrində insan qanı varmı? Ləyaqət hissi nə olduğunu anlayırlarmı? Ətrafdakıların həqarətli baxışlarına necə dözürlər? Biz hara gedirik belə? Mənim aləmimdə doğmalarını atmaq insanlıq hisslərini itirib tonlarla yükün altına çiyinlərini vermək deməkdi. Əhəd müəllim, siz Şəmsin, Kərkədan Qoçunun danışdıqlarını eşitsəydiz, məəttəl qalardız.

Əhəd:

— Aran bəy, atalar deyib, insan əlindəkini itirəndə onun qədrini bilir. Şəms də, Qoçu da eyni ağılda adamdılar. Elə olmasaydılar, bir-biriləriylə nə dil tapa, nə də ömür yollarını birləşdirə bilərdilər. Bircə onu bilirəm ki, gələcək nəsillər bu canavar xilqətli insanları lənətləyəcəklər. Bu hərəkətlər dövlətin dayaqlarını sarsıtmaq, onun nüfuzunu ayaqlar altına atmaqdı.

Qadın:

— Belə naqis düşüncələr, əcaib hərəkətlər bütün millətə sirayət eləsə, nə baş verər? Dünya mehvərindən çıxmaz ki?

Mən astadan dedim:

— Adam hisslərini, ağlını itirəndə varlığını da itirir. İnsanın kəşfi çox müəmmadı. Elə olmasaydı, milyard illərdi yol gələgələ insan kəşfindən danışmazdılar ki. Özünü qədirləndirməyi bacarmayan hər kəs mükəmməl əxlaq maskası altında gizlənib hər cür fəlakət törətməyə qabildi.

Əlimizdən iş gəlməyəndə əlacsız qalıb Allahdan umuruq: — Yerdəki yırtıcı qəddarlara, qatı cinayətkarlara, faciə törədicilərə niyə cəza vermirsən? — deyirik. Allahsa buyurur: sənə şüur vermişəm, sən də get, sənə pislik eləyənin haqqı-sayını ver.

Qadın:





— Allah haqdı, özü bir çarə qılar.

Əhəd gülərək:

— Aran bəy, o ağılda adamlar sənə xəsarət yetirməyiblərsə, yaxşı qurtarmısan. Hürən itə ağac bulayarsan, zəncirdəcə üstünə hücum çəkər. Get Allahına şükür elə.

## Taleyin oyunu

Mən evə daxil olanda bacımla Sahib söhbət eləyirdilər. Uşaq gəlişimi görcək nəsə axtarırmış kimi gözlərimin içinə baxdı. Bacımınsa üzündə xoş təbəssüm parladı. Ancaq o təbəssümün içindən sızan şüalarda bir niskil duydum. Ona da əminiydim ki, həmin niskil təlqin eləyən şüalar bacımın ovqatını təlx eləmişdi. O, özündə deyildi. Əsəbini güc-bəlayla saxlamağa çalışırdı. Yanırdı, doğranırdı. Sahib bir şey anlamasın, — deyə o, hirs, qəzəb yağan gözlərini gözlərimdən yayındırmağa çalışırdı. O, məni olduqca soyuq qarşıladı. Mən bacımı heç vaxt belə narahat görməmişdim. Ev-eşiyə göz gəzdirdim. Yır-yığış elədiyini duydum. Keçib divanda əyləşdim:

— Bir stəkan su olsaydı, içərdim — dedim.

Sahib dərhal ayağa qalxdı. Soyuducuya qoyduğu sudan bir stəkan gətirdi. Suyu alıb axıracan içdim. Hal-əhvaldan sonra Zinyət dilləndi:

— Mən gedirəm. Axşamda-sabahda bir bizə zəhmət çəkərsən, Aran. Sənə deyiləsi sözüm var.

— Yaxşı, yorulmuşam, bir balaca dincimi alım, bir azdan gələrəm.

O, getdi. Sahiblə biz divanda yanaşı oturduq, anası və atalığıyla olan söhbətin məzmununu kobud, köntöy sözlərdən savayı hamısını ona ordan-burdan çatdırdım. Mənə cavab vermədən başını aşağı dikən oğlanın sir-sifəti qızardı, pörtdü. Alnında xır-

da tər danələri muncuqlandı. Sahib kiçik olsa da, çox şeyi başa düşürdü. Söhbət əsnasında onun çəkdiyi mənəvi əzabları heç vaxt unudammaram.

Mən dedim:

— Fikir eləmə, oğlum, hər şey sən deyən kimiymiş. Anan Qoçunun əsarətindədi. Qoçu nə desə, ananın ona yox deməyə cəsarəti çatmır. Elə bilmə ki, anan ərə gedib, o, xoşbəxtliyini əldə eləyib. Yox, Qoçuya ərə getməklə mən deyərdim ki, özünü qaranlıq quyunun dibinə atıb. Mən ona da inanıram ki, nə vaxtsa, Qoçu anandan ayrılacaq. Onlar axıracan birlikdə yaşayammazlar. Anan ayrılanda onda pis günə qalacaq. Elə Qoçu da. Mənim Şəmsə yazığım gəlir. Qoçuya isə ləyaqət və şərəfini qorumadığına, arsız, namussuz olduğuna görə nifrət eləyirəm. Hamının başına belə işlər gələ bilər. Sən indi mənim yanımdasan, qalmağa evimiz, yeməyə çörəyimiz. Heç bir şeyə ehtiyacımız yoxdu. Narahat olma. Sənin oxuduğun məktəbə teleqram vuracam, sənədlərini bizə göndərsinlər. Danışaram, şərait yaradaram, şəhər məktəbində oxuyub təhsil alarsan, yaşa dolarsan, işləyərsən, oğlum, sənin də evin, ailən olar. Allahı olan nagüman qalmaz. Arxayın ola bilərsən, mən heç vaxt səni atmayacam.

"Səni atmayacam" sözünü eşitdikdə Sahibin üzündə gülüş doğdu, gözləri parıldadı. Səsimə ara verib söhbətimə davam elədim.

— Qadası, insan hər şeyi cavanlıqda qazanır. Cavanlıqda səhv atılan addımı heç zaman düzəltmək olmur. Cavanlıqda mən də çox səhvlər eləmişəm. Xatırlayanda yanıb-yaxılıram. O səhvlər ömür boyu sahibinin yaddaşından silinmir. Hər dəfə yada düşəndə adama ağırlıq gətirir. Adamın vicdanını incidir... Bəlkə mən elə qəliz danışıram, sən məni anlamırsan?

— Yox... Yox... Hər şeyi anlayıram. Başa düşürəm. Atalığımın əlindən anamın nələr çəkdiyi gözlərimin qabağına gələndə





az qalıram ağlayam. Atama yazığım gəlir. Əmim Zeynəddin bir dəfə mənə dedi: Sizin yaşadığınız evi atan tikdirib. Atan ağır vəziyyətə düşən kimi, anan bir qaban tapıb ona ərə getdi. Sən ananla qaldığına görə də atan ev davası eləmədi. O hardan biləydi ki, hadisənin sonu belə nəticələnəcək. Özünü gözlə, Sahib, sənin taleyinlə oynayarlar. Sənə xəsarət yetirərlər. Doğrudu, o zamanlar mən "tale", "xəsarət" sözlərinin mənasını bilmirdim. İndi anladıqca, əmimin nələrə işarə elədiyini duyuram... Ancaq onun sözlərini təkcə dinləyirdim. Ona cavab vermirdim. Verməklə neyləyəcəkdim ki?..

— Ağıllı oğlansan. Zinyət mənim bacımdı. Biz bir-birimizi çox istəyirik. Lap çox. O, bizə gələndə ona qapını sən açdın, yoxsa, o özü açdı?

— Özündə açar vardı. Mən divanda uzanmışdım. Qapıya çöldən açar salındığını eşitdim. Ayağa qalxırdım ki, tanımadığım qadın içəri girdi. Doğrusu, mən qorxdum. O, dərhal qorxduğumu başa düşüb dedi: "Deyəsən qorxdun? Mən Aranın bacısıyam. Həftədə iki-üç dəfə gəlib bu evdə yır-yığış eləyirəm, səliqə-sahman yaradıram". Adımı soruşdu, dedim. O, güldü, başını yellədi: "Eh, Aran, Aran, sənin oyunlarından baş açmaq olmur" — dedi.

— A ha... Sahib, bu məhlədə, küçədə səni incidən, sənin xatirinə toxunacaq söz deyən olsa, mütləq mənə de.

— Balacalar, yoxsa böyüklər?

— Fərqi yoxdu.

— Balacaların cavablarını özüm də verə bilərəm. Böyüklərə isə cavab qaytarmazlar axı.

— Sən heç kəsə sataşma, heç kəsə əl qaldırma. Bu məhlədə çox pis, ədəbsiz adamlar: alkaşlar, narkomanlar yaşayırlar. Uşaqları öyrədərlər, bıçaqla, yaxud bir başqa əşyayla səni vurarlar. Onda da hər şey gec olar, mən indi icazə verirəm, arada çıx məhlədə, küçədə gəz, yaxınlıqdakı parkda təmiz hava al. Başını

qat. Onda darıxmazsan da.

— Oldu.

Günbatan vaxtıydı. Mən Sahibi götürüb evimizdən iki tin aşağıda yaşayan bacımgilə getdim. Bizi qapı ağzında yeznəm Möhübbət qarşıladı. O, ucaboy, sarıbəniz, arıq, qurnaz bir adamıydı. Uzun sifətinə mütənasib burnu, ağzı vardı. Cavanlıqdan idmanla məşğul olduğundan üzündə gərginlik duyulurdu. Cəld və çevik hərəkətlər eləyirdi. Elə indinin özündə də hər səhər yuxudan qalxıb parkda, bulvarda gəzir, evə qayıdıb soyuq duş qəbul eləyirdi. Ona görə də yaşından xeyli cavan görünürdü. İnsafən, yeznəm bacımın da ona baxmasından çox razılıq eləyərdi. Möhübbət ürəyi yumşaq və qəlbi təmiziydi. Əlaçıq, təmənnasızıydı. Kimə iş görsəydi, əvəz gözləməzdi. Zəhmətkeş, sözü üzə deyən Möhübbətin tez-tez öyünməsi də vardı. O, deyərdi: "Bir şeydə xoşbəxtəm ki, heç kəsdən basarlı işim, baş aşağılığım yoxdu". Ancaq yeznəm səbirsiziydi. Yerli-yersiz özündən çıxmağı vardı. Əsəbiləşəndə içində nə vardısa, heç bir şey saxlamazdı, dalını-qabağını gözləmədən açıb tökərdi. Bu xasiyyəti yaxın-uzaq adamlarını özündən bəzən narazı salardı. Yeznəmin mənə qəribə görünən, daha doğrusu bəyənmədiyim bir xasiyyəti də vardı. Onun pultu bacım Ziyətin əlindəydi. Ziyət ağ desə, ağ, qara desə, qara deyirdi. Onun üçün Ziyətdən uzaqgörən, dərrakəli, ədəb-ərkanlı adam yoxıydı. Tez-tez təkrarlayardı: "Nə yaxşı ki, Allah-Təala Ziyətlə mənim ulduzumu birləşdirib. Vallah-billah o, olmasaydı, mən necə yaşayardım bilmirəm. Bəlkə də itib batmışdım..." Bacımla yeznəm arasındakı bu qarşılıqlı hörmət, izzət doğrusu məndə çox məmunluq hissi doğurardı.

Həqiqətən də bacım ona ərdən çox doğma övladları kimi qayğı göstərirdi. Möhübbət vədələşdikləri vaxtdan bir az geciksəydi, bacımı təlaş bürüyər, yerə-göyə sığmazdı... Yeznəm hərdən səhvlərini etiraf eləyəniydi.





Bunlar bir insan kimi mənim çox xoşuma gəlirdi. Nə isə... Yeznəm bizi görcək üz-gözünü turşutdu, hər ikisində münasibətində soyuqluq, səsində etinasızlıq hiss elədim. Mən özümü elə apardım ki, guya heç bir şey anlamadım. Hər şeyi təbii hal kimi qəbul elədim. Başqa cürə də hərəkət eləyənməzdim. Yeznəm mənə əl verib Sahibə gözünün ucuyla baxdı. Kirpiklərini qırpıb başını endirməklə ona "xoş gəlmisən" işarətini verdi. Oğlan sıxıldı. Özlüyümdə əvvəl: — Gərək gəlməyəydim, — deyə düşündüm. Sonra: — Eyib eyləməz, bir azdan yeznəm içini açıb tökər, mən də cavabını verərəm, — deyə özümə toxtaqlıq verdim. Biz dəhlizdə sağa burulub yan otağa keçəndə günəşin sarımtıl, azğın şüaları pəncərə şüşələrini deşib döşəməyə səpələnirdi. Hiss olunacaq dərəcədə bir-birinə qovuşan şüalar parpar parıldayan parketin üstünə yayılır, günc-bucağa çəkilir, təmkinini itirmədən əriyir, ətrafı sanki qəm, qüssə bürüyürdü. Bir-birinin ardınca həyatımda baş verən ağır və zəhlətökən hadisələr — vərəmə tutulmam və sonradan böyük zəhmət və məsrəf sərf etməklə sağalmam, böyrək əməliyyatı, xüsusilə son vaxtlar bacımın təkidiylə: — Ailə qur, uşaqların olsun, yoxsa, ölüb gedəcəksən, həyatda izin qalmayacaq məzəmmətləri... və nə qədər bunlara bənzər şeylər tül arxasında peyda olan qülyabanılar tək gözlərimin önünə gəlir, vücudumu sarıdan bir kədərə batırırdı məni. Belə olan təqdirdə ruhum donur, əhvalım tam dəyişirdi. Çox çalışırdım ki, mənə ağırlıq, başgicəlləndiricilik gətirən qara fikirləri başımdan qovub çıxarım. Düşüncələrimi ciddi-cəhdlə, zorla toparlasam da, bir-iki dəqiqə keçər-keçməz yenə zəhirmara qalmış zəhərdən də acı əvvəlki fikirlər beynimə qarayaxa soxulurdu. Biz əyləşdik. Bacımın da kefi yoxıydı. Bacım şam yeməyi üçün hazırlıq görmək istəyirdi ki, mən dedim:

— Adama bir stəkan çay olsa içərdik. Yeyib-içib gəlmişik. Ər-arvad sözlü adama oxşayırsız. Gəlin oturun, görək aramızdan hansı qara pişik keçib ki, qəm dəryasına batmısız.

Yeznəm münasibəti yumşaldırmış kimi dilləndi:

— Meyvə yemək necə? Bəlkə uşağa...

Sahib dərhal:

— Xeyr, mən də yemirəm.

Bacım çay gətirib mətbəxə qayıdanda ərinə göz-qaşıyla "arxamca gəl" işarəsini verdi. Möhübbət onun ardınca getdi. Mən Sahibə dedim:

— Oğlum, sən çayını iç, get, o birisi otaqda uşaqlarla televizora bax. Onlarla tanış ol. Mən bunlarla söhbətimi eləyim, sonra evə, ya şəhər gəzintisinə gedərik.

Sahib çayını içib qurtarmışdı ki, qabaqda yeznəm, arxasınca da bacım gəlib stulda əyləşdilər. Mən üzümü bacıma tutdum:

— Sizin uşaqlar olan otağa Sahib keçə bilərmi?

Bacım dərhal:

— Buyy, bacın ölsün, qardaş, o nə deməkdi? Dur oğlum, sən də get, onlarla söhbət elə, başın qarışsın.

Sahib getdi. Araya ani bir sükut çökdü. Yeznəm bacımın üzünə baxdı. Heç şübhəsiz ki, bu baxış — Söhbətə sən başla, — işarəsiydi. Mən qəsdən özüm qabağa düşdüm.

— Hə... Eşidirəm sizi... Xeyir ola, yeznə, o nə sir-sifətiydi qapını açanda göstərdin bizə. Xoşun gəlmirdi, qapını açmayaydın. Sizə utanc gətirəcək elə bir işimiz vardımı?

Qəfil açılan gözlənilməz atəşdən yeznəm tutuldu. Sifəti qızardı. Handan -hana dedi:

— Qayın, inanırsan ki, mən sənin xoşbəxtliyini istəməyəm?

Bacım sönük gözlərini mənim üzümdə gəzdirərək dedi:

— Qardaş, burda Möhübbətlik iş yoxdu. Ona hər şeyi mən demişəm. Bu boyda şəhərdə sənin tək hərəkət eləyən varmı? Harda görünüb ki, uşaq tapıb gətirib evində saxlayasan. Bəyəm uşaq dovşan balasıdı? Sabah onun başına bir iş gəlsə, yiyəsinə, yaxud hüquq-mühafizə orqanlarına nə cavab verəcəksən? Deyəcəksən ki, onu oğulluğa götürmüşəm? İnanıram, gec-tez tutduğun əmələ görə nəinki peşman olacaqsan, hətta, xəcalət çəkəcəksən.





Yeznəm sakit tərzdə:

— O normal uşaq olsaydı, valideynləri küçəyə atmazdılar. Görünür, atasından xəbərsizdi.

— Nə danışdığını bilirsənmi, Möhübbət. Sözündən belə çıxır ki...

— Bəlkə burda nəsə hiylə var? Bu uşağın özü sirr dağarcağına oxşayır. Onu çölə atıblar ki, bir yolla evlərə soxulsun, vəziyyəti öyrənib "himayəçilərinə" lazım olan faktlar ötürsün. Onun himayəçiləri adi cinayətkarlar da ola bilər, lap polislər də. Başa düşürsən?

— Ayə, yeznə, mənim nəyim var, kiməsə nəsə deyə. Bir də ki onu evimə mən özüm gətirmişəm.

Yeznəm tutuldu, boğazını arıtlıyaraq astadan bildirdi:

— Bu yaşda özünü zərbə altında qoymağa dəyərmi, qayın? Mən ürəyimə gələnləri çatdırmaq istəyirəm sənə.

Başımı yelləyərək dedim:

— Oğlan barədə mənə az doğrayıb tökün. Sizin sözünüzə baxsam, gərək onu buradaca hökm verib atam küçəyə. Ac-yalavac, kimsəsiz, cılız bir uşağı çölə atmağa sizin vicdanınız yol verərmi? Üzümü bacıma çevirərək incik halda hərəkətlərimi əsaslandırmağa çalışdım:

— Valideynlərimiz sənə eləmi tərbiyə veriblər? Bir də ki siz bilirsiz, mən evdə təkəm. Ürəyim tutanda mənə həb gətirən, bir sətkan su verən olmalıdı, ya yox?

Bacım ucadan hökmlə:

— Tutduğun işə elmi əsas verməyə ehtiyac yoxdu. Sənə yüz dəfələrlə dedim: evlən... Ailən, uşağın olsun. Mən deyəni eləsəydin, belə dolaşıq yol seçməzdin. Sahibin valideynləri sənin üstünə uşaq oğrusu kimi iddia da qaldıra bilərlər.

— Mən onun anasıyla da, atalığıyla da görüşmüşəm. Onlar

Sahibi pişik balası qədər dəyərləndirmirlər. Ona bir yiyə tapılmalıdı, ya yox?

Bacım:

— Necə düşünürsən, bu boyda şəhərdə səndən savayı, dərrakəli bir adam tapılmadı? Ədə, a başını dağlayım, sən hardan ağıllı, ürəyiyanan çıxmısan?

Mən:

— Məni vicdanım silkələyir. Elə bilirəm ki, uşağın atılmasında günahkar mənəm. Onun atalığı, doğma anası barəsində fikirləşəndə dəhşətə gəlirəm. Bədnam valideyn hər an övladını da bədbəxt eləyər, özünü də. Mən xeyli vaxtdı belə qərara gəlmişdim ki, kimsəsiz bir uşaq götürüb övladım kimi saxlayım. Bu gün varam, sabah yox. Azdan-çoxdan olanım da qalar ona. Yaşımın elə vədəsidi ki, mənə də həyan gərəkdi.

Yeznəm təəccüblə:

— Bu fikrə hardan gəlmisən?

Mən:

— Hardan gələcəm? Gör-götür dünyasıdı. Deyirsən, mənim ağlım yoxdu? Dünyanın hər üzünü görmüşəm. İstəyirəm, başım qarışsın. Evimin işığı yansın. Evdən səs çıxsın... Bilirsiz, necə bezmişəm?! Təklik, tənhalıq üzür məni... Daha dözəmmirəm.

Yeznəm:

— Bizi dolama, Aran. Sənə həyan lazımdı, de bacın uşaqlarından birini verək sənə.

Bacım sərt və acıqla:

— Əşi, niyə uşaqlardan? Ondansa ailə qursun. O, daha yaxşıdı, nəinki çox şeydən xəbərsiz uşaq.

Yeznəm və bacımla aramızda olan münasibətlər bu söhbətəcən olduqca səmimi və qırılmazıydı. Hələm-hələm adamlar onu birdən-birə anlamazdılar. Özgə işlə bağlı onlar məni qalxıb vursaydılar da, onlara güldən ağır söz deməzdim. Ancaq onlar nə qədər əziz və doğma olsalar da, bu insani məsuliyyət tələb eləyən işdə mənə müqavimət göstərənlərə heç vaxt güzəştə getməzdim. Onu da anlayırdım ki, bacımın hərəkətlərində coşğunluq və qızğınlıq açıq-açığına özünü göstərir. Həm də bu atılıb-düşmək, məni tərkisilah eləmək, öz hökmü altına salmaq cəhdləri müvəqqətidi və gec-tez o da öz təbii axarına düşəcək...





Bacım yeznəmdən çox inadcılıydı. Əlinə adicə bir fakt düşdümü, onu əlindən buraxmaq istəmir, özünün məqsədinə uyğun olaraq ondan axıra qədər istifadə eləməyə çalışırdı. Yeznəmsə bəzi məsələlərdə qarşısındakına güzəştə getməyi bacarırdı, baş verənləri o qədər də çalxalamaq istəmirdi. Axtarsan, bir az sadəlövhlüyü də vardı onun. Eşitdiklərində məntiq duyanda, dərhal inanırdı. Bu inamsa, çox vaxt onun aldanılmağına aparıb çıxarırdı.

Yeznəm sakit səslə:

— Aran, gəl açıq danışaq. İstəmirəm bacınla aranızda hansısa narazılıq olsun. Sonra da şişib davaya çevrilsin. Sizi üz-göz eləsin.

Dərhal:

— Məncə bacımla mənim aramda elə bir dərin ixtilaf olammaz.

Bacım hədsiz canıyananlıqla dedi:

— Olmasa yaxşıdı, qardaş. İnan mənə, səninlə üz-üzə, göz-gözə gəlməkdən həmişə çəkinmişəm. Başım o qədər iş-gücə qarışır ki, sənə olan diqqətimdə yəqin davamsızlıq duyursan. Belə olmasaydı, vaxtında xəbər tutsaydım, bəlkə də bu uşağı evinə gətirməyə sənə imkan verməzdim. Yiyəsi çıxıncaya qədər Sahibi öz evimdə saxlayardım.

Yeznəm zarafatla bildirdi:

— Davamsızlıq nədi? Canıyananlıqla desən, daha dəqiq olardı.

O, səsinə ara verdi, handan-hana sözünə davam elədi:

— Aran, mən həkiməm. Bilirəm ki, biz elə bir anarxist cə-

miyyətdə yaşayırıq, indi axtarsan, uşaqdan böyüyə, qadından kişiyə hamı cinayətkardı. Olmayanı da qatı cinayətkar eləmək mümkündü və eləyirlər. İndidən deyirəm, o, uşaq sənə çox əziyyət verəcək. Əzab-iztirablar gətirəcək.

Mən yeznəmin sözüylə razılaşdım və onu təsdiqlədim.

— İstəməzdim ki, bu işdə Əfruzun adı çəkiləydi. O, iradəsiz, daş qəlbli adamdı. Ona qadın demək bütün qadınlara... Xəbisdi. Paxıldı. Uşaq evindən götürdüyü qıza kölə kimi baxır. İndi də, gələcəkdə də ondan faydalanmaq fikrindədi. Əfruzun — Qızım, — deyə götürdüyü qızcığazın günü ah-vayla, göz yaşları içərisində keçir. Uşağı heyvan yerinə qoyur, eyhamlarla ona dözülməz əzablar verir. İstəməzdim o mənəviyyat qəssabını, ifritəni qadın adlandıraq.

Bacım bir müddət oturduğu yerdəcə dinməz-söyləməz qaldı. Ümiddən parıldayan gözlərində bir durğunluq, yazıqlıq yarandı. O, bir neçə dəfə hıçqırdı. Özünü ələ alammayıb hönkürdü. Bütün bədəni əsdi. Möhübbət ayağa qalxıb xırıltılı, boğuq səslə tələm-tələsik danışa-danışa mətbəxə keçdi və əlində bir stəkan su geriyə qayıtdı. Bacım sudan bir qurtum içib handan-hana özünə gəldi. O, sonra xüsusi ciddiyyətlə üzümə baxdı:

— Qardaş, bu ağıldan kəm hərəkətlərin nə vaxtacan davam eləyəcək? Bayaqdan bir kitablıq söz danışırıq, niyə vecinə almırsan? Yoxsa, bizi özünə yaraşdırmırsan? Bu qədər lovğalıq, ədabazlıq, inadkarlıq olar? Yoxsa bəzi müğənnilər kimi, özünü humanist göstərmək, gündəmdə qalmaq istəyirsən?! Mən səni nə qədər çox istəsəm də, bu işini güzəştə getməyəcəm. Gözlərimin içinə şax bax.

Mən bacımı heç vaxt belə qəzəbli görməmişdim. Əri isə onu hey sakitləşdirməyə çalışırdı. Mən axır ki, dözməyib dedim:

— Bacı, sən nə vaxta qədər məni qarşında oturdub haqsız yerə danlayacaqsan? Allahıma sığınaraq elədiyim əməllərimdə sən niyə ləyaqətsizlik axtarırsan? Sənin üçün ləyaqətsiz görünən





əməl ola bilər ki, mənim üçün ən azından məqbuldu. Bir də ki mənə lovğalıq, ədalətsizlik damğası vurma.

Yeznəm astadan bildirdi:

— Bacın düz deyir. Onu eşit. Özgə uşağının üstündə bir-birinizə qarşı dayanmayın.

Mən yeznəmə etinasız halda cavab verdim:

— Hamının özünəməxsus orbiti var. Mən də öz orbitimdə fırlanıram. Bəs bizim cəmiyyət qarşısındakı borcumuz, insani məsuliyyətimiz?

Yeznəm gülümsündü:

— Nə cəmiyyət, nə borc, nə insani məsuliyyət? Boşla şablon ifadələri. Əyə, ay Aran, burda nəslin-kökün qürur məsələsi var. Qürura toxunan hər bir hərəkət qanun pozuntusudur. İnsanlıqdan uzaqlaşmadır.

Bacım qəflətən əlini stula vurdu:

— Yox... Aran. Sənin başın xarab olub. Ləyaqətsiz hərəkət eləmə.

— Bacı, mənə sözünü de. Ancaq məni məzəmmətə çalışma. Mən ləyaqətsiz adam deyiləm.

— Mən "ləyaqətsiz adamsan" demirəm. Gəl məni dolaşdırma. "Ləyaqətsiz hərəkət" deyirəm.

Yeznəm dərhal bizim sözümüzün arasına girdi:

— Şəxsiyyəti təhqirə keçməyin. Belə olacaqsa, mən bu axşam gedib küçədə, parkda yata bilərəm. Bu danışıq, bu hərəkət bacı-qardaş sizə yaraşmır.

Mən yeznəmə üzümü tutdum.

— Bacım güləndə fərəhlənirəm. Elə bilirəm, dünya mənimdi. Halı dəyişəndə sanki üstümə uçan dağın daş-kəsəkləri altında qalıram. Nəfəsim çatmır, boğuluram. Əzab çəkirəm.

Sonra bacıma tərəf çevrildim:

— Özündən xəbərin var? Güzgü qabağına keç, üz-gözünə bax. Bir həftə ərzində gör nə qədər arıqlamısan? Nə qədər hal-

sız görünürsən?

Mən söhbətin uzanmasına lüzum sanmadım. Gözlənilmədən ayağa qalxdım, gülə-gülə dedim:

— Biz gedək. Gecə yarıdan keçir. Vaxtımız çoxdu. Yəqin belə surprizlərlə çox qarşılaşmalı, mübahisələr eləməli olacağıq.

Bacım dərhal:

— Hə... Bu ağıl ki səndə var... Allaha yalvaraq, uşaq xəstələnməsin. Onun başına bir iş gəlməsin.

Yeznəm üzünü tavana tutaraq:

— Amin... Amin... Ancaq, qayın, yaman çətin və inadcıl adamsan.

Mən qapını açıb Sahibi səslədim:

— Sahib! Sahib!

Bacım uşaqları Sahiblə birlikdə qapını açıb dərhal dəhlizə çıxdılar. Mən dedim:

— Gedək, Sahib. Gecdi, səhər işə getməliyəm. Bu axşamkı şəhər gəzintisi arzumuz başqa vaxta qaldı.

Bacım gülümsündü:

— Səbəbini bilmirsən?

— Bacı, yıxılanı qolundan tutub ayağa qaldırmaq, can üstə olana yardım eləmək, potensial cinayət törədə biləcək bir şəxsi yola gətirmək... nə vaxtdan qəbahət sayılır? Elə başa düşürəm ki, mən çox xeyirxah iş görürəm. Bu Allahımın da xoşuna gələr.

— Allah özü sənə yar olsun, qardaş.

Qapıdan çıxanda mızıltılı səslə yeznəm dedi:

— Bu barədə hüquq-mühafizə orqanlarına da rəsmi müraciət elə. Qoy onlar da xəbərdar olsunlar. Əks halda, sənin əməlini uşaq oğurluğu kimi dəyərləndirərlər.

— Oldu, — deyib bacımgildən xudahafizləşdim.

Yol boyu bacım barədə düşünürdüm. Mənim ona yazığım gəlirdi. O, lap uşaqlıqdan mənim ən kiçik qələbəmə hədsiz sevinər, qürrələnərdi. Uçmağa qanadları olmazdı. Hey mənim qazandığım nailiyyətdən danışardı: "Aran belə elədi", "Qardaşım elə getdi", "Qardaşım belə iş gördü...". Xoşuna gəlməyən hərəkətimə, ürəyincə olmayan işimə açığı tutardı. Bu anda onu müşahidə eləyən olsaydı, əməlli-başlıca gülməyi tutardı. İşi düz gətirməyəndə, ya özü səhvə yol verəndə uğursuzluğunun səbəbini çox zaman başqasında axtarardı. "Səbəbkar" sandığı adama qəzəb və nifrətlə baxar, onunla düşmənçilik həddinə qədər gedib çıxardı. Barışığa, güzəştə açılan qapılar onun üçün çox vaxt bağlıydı. Mərhum anam tez-tez deyərdi: "Görünür, Zinyətin qulağının burulması, burnunun ovulması vaxtı çatıb. Narahat olmayın, tezliklə onu cəzalandıraram, ağlı başına gələr, yoluna qayıdar..." Doğrudan da, bu baməzə sözlərdə çox böyük həqiqət vardı. Bu, bəzən mənim zarafatlarıma yol açardı.

— Mən səni necə var, elə də başa düşürəm, bacı. Sən məni daim xoş, dərddən-sərdən uzaq görmək istəyirdin. Mənim uğursuz taleyim üçün həmişə yanmısan, yaxılmısan. İstəmisən, hamı kimi mənim də ailəm, uşaqlarım olsun. Həmişə üzümdən sevinc, qəlbimdən fərəh yağsın... Eh neyləmək olar?! Bu da mənim qismətimdi. Bilirəm, Sahibi də ona görə qəbul eləyə bilmirsən. Məni bəlkə də fanatik sayırsan. Aristokrat cəmiyyətdə necə gəldi iş görmürlər. Adamlar özlərinə də, içində yaşadıqları cəmiyyətə də hörmət eləyirlər. Bacı, sənə qurban olum, düşünəcəksən ki, fərdiyyət olan yerdə nə cəmiyyət? Axı biz insanıq! Əks halda, insanlıq çərçivəmiz itər. Biz bununla da bütün ali hisslərə xəyanət eləmiş olarıq. Sən Sahibə elə-belə baxma. Nə olsun ki, o, uşaqdı. Əyalətdən gəlib min bir cinayətlər törədilən bu şəhərə. O, çox düşüncəlidi, ayıqdı. Sabahını fikirləşəndi. Tənbəl deyil. Ürəyinə gələni, kimdənsə eşitdiklərini danışmır. Yalançılığı yoxdu. Düz danışır. Zəhmətə qatlaşandı. Mən ciddi-cəhdlə yoxladım. Hətta, anası, atası barədə dediklərində hissə qapılması olmadı. Özünə güvənəndi. Münaqişələrdən qaçandı.

Tezliklə özün hamıdan, hər şeyi yaxşı görəcəksən...

## Nala-mıxa vurma

Axşamdan qətiləşdirdiyimiz kimi, Sahiblə yaxınlıqdakı polis sahə məntəqəsinə getdik. Sahə müvəkkilinin qəribə görkəmi vardı. O, yenicə mayor rütbəsi almışdı. Sümükləri çıxmış üzündə süni, qondarma, kimlərisə təqlid eləyən bir ifadə duyulurdu. Diqqətlə baxsaydın, o ifadədə hiyləgərlikdən, qəzəbdən, mərdimazarlıqdan, xudpərəstlikdən doğan cizgilər sezilirdi. İlk baxışdan adama elə gəlirdi ki, onun xarakterində qarşı-qarşıya dayanan iki cəhət vardı. Birincidə xoş, mehriban, səmimiyyət, xeyirxahlıq, qayğıkeşlik, ikincidə isə sərtlik, inamsızlıq, hirs, qəzəb, mərdimazarlıq...

Orta boylu bu adamın əyninə geydiyi polis forması bədəninə kip oturmuşdu. Qarnı qabağa çıxdığından kostyumunun yaxası daram-dartışa qalmışdı. Saçları bir qədər uzun olsaydı, o kişidən çox hamilə qadın təsiri bağışlayardı. Geyimi onu yaşından xeyli cavan göstərirdi.

Furajkasını başından çıxarıb asılqandan asmışdı. Başını əyib şkafda nəsə axtarırdı. Gəlişimizi görcək diqqətlə bizə baxdı. Ancaq bu adamın bizə münasibətini əvvəlcədən deyəmməsəm də, təəccüb doğuran hərəkətlərini ilk baxışdan yaxşı sezdim. Sini qırxı keçərdi. Uzunsov, qarayanız sifətinin cizgiləri adama yapışıqlı gəlirdi. Qalın dodaqları arasında görünən papiros tüstüsündən mayorun saralan uzun, seyrək dişləri yol kənarında düzülən dirəkləri xatırladırdı. Pətənə burunun altında lopa bığları vardı. Geniş alnına xurmayı saçları tökülmüşdü. Bunlara baxmayaraq, badamı gözlərində hiyləgərlik hiss olunurdu. O, kreslosunda əyləşib bizə oturmaq üçün yer göstərdi. Biz əyləşdik. Əvvəl mən Aran olduğumu, iş yerimi, ev ünvanımı, sonra Sahibin kimliyini mayora təqdim elədim. Sahiblə bağlı nə olmuşdusa, hamısını ən kiçik detallarına qədər açıqladım. Mən danışdıqca mayor gah Sahibə, gah da mənə baxır, hərdənbir bic-bic qımışırdı. O, gözlənilmədən dedi:





— Deməli, uşaq oğurluğu. Xatakar məqsədinə çatammadığından ona don geydirmək fikrindəsən?

Mən dərhal:

— Nə? Bu nə addı, mayor, qoyursuz mənə?

— Ayə, bəsdi, özünü mələk cildinə salma, sən o yolu gedəndə mən qayıdırdım.

— Mayor, biz bura ona görə gəlməmişik ki, sizin tərəfdən təhqir olunaq. Bu Sahib, bu da mən. İmkan verin, qoyun, Sahib özü baş verənlər barədə danışsın.

Oğlan söhbətə qarışmaq istəyirdi ki, mayor onun sözünü kəsdi:

— Saxla!.. Saxla!.. Ay yazıq. Bizim bu şəhərdə o qədər daş altında dəyirman tikənlər var, xəbərin yoxdu. Şəhərdə belə dələduzlar tez-tez peyda olurlar. Sizin kimi kasıb-kusub uşaqlarını aldadıb, əzalarını — ürəklərini, böyrəklərini, ciyərlərini, nə bilim, nələrini, nələrini... xarici vətəndaşlara satırlar. Onlar da aparıb istifadə eləyirlər.

Bunu eşitcək Sahibin sifəti bozardı. Dili, dodaqları təpidi. Danışmağa söz tapanmayıb ağlamsındı. Mən dərhal cavab verdim:

— Oğlum, ağlamsınma. Bu neçə gündə sənə nəsə belə axmaq sözlər demişəm?

Sahib çəkinə-çəkinə:

— Yox...

— Onda qorxma. Görünür, biz səhv ünvana gəlmişik.

Mayor sakit tərzdə:

— Yox... Səhv gəlməmisiz. Uşaq oğurluqları şəhərdə çox olur. Biz də tutub onların analarını ağladırıq.

— Mən uşaq oğrularına oxşayıram, cənab mayor?

— Uşaq oğrularının başlarında buynuzları olur?.. Görürəm, sən xatagün, nadürüst adama oxşamırsan. Birşey-mirşey eləyərsən, düzələr.

— Nə düzələr? Siz axtaran məndə yoxdu. Gedib yuxarı instansiyaya rəsmi məlumat verərəm.

Mayor tez-tez nala-mıxa vurduqca içindəki xıltlar açılır, fikirlərinin ziddiyyəti kəskinləşir, üzündəki cizgiləri haldan-hala düşürdü. Qəribəydi, hərdən nitqini saxlayıb özünə toxtaqlıq verən mayorun sifətindəki cizgilər bəzən də donuq təsiri bağışlayırdı. Belə olanda mən çaşdım. Mayora heç bir reaksiya vermədim. Sanki dilim lal oldu. Ancaq içimdəcə neyləyəcəyimi götür-qoy eləyirdim. Bir sözlə, kabinetdə gözlənilməz, həm də gülməli bir mənzərə yarandı.

Handan-hana qətiyyət və inam ifadə olunan tərzdə dilləndim:

— Mən hara, kimin yanına gəldiyimi bilirəm. Hətta, sizin necə adam olduğunuzu da. Neyləyim ki, sənə mayor rütbəsi verib, bu kresloda oturdublar.

— Bu nə danışıqdı? Necə adam olduğumu nədən bilirsən, kişi, yoxsa falçılığın da var?

— Hissiyyatım deyir.

— Qəribədi.

Qəsdən ironiya ilə:

— Hə... Hə... Sizi tanıyıram. Xasiyyətinizə də bələdəm. Özü də çox. Siz ayıq adamsız. Xeyirxahsız. Cənab mayor, yıxılana əl uzadansız... Mən də insanam, mayor.

— Mən bəyəm ona şübhə eləyirəm? Yox... Əsla. Ancaq sənin sözündən əcaib məntiq çıxır. Guya mən insanla heyvanı ayırammıram.

— Mayor, elənçiyə qalsa, sənin məntiqindən də belə alınır ki, guya mən də heyvanam. Gəl uzatmayaq. Bu nə sənə fayda gətirəcək, nə də mənə. Uşaq da eşidir bu girdirmə söhbətimizi.





Mən insanam, fırıldaqçı, dələduz deyiləm. Məni aldadan, sadəlöv eləyən insanlara içimdəki inamdı. Vicdanımın saflığıdı. Nəcibliyimi də çalışacam, ömrümün sonunacan qoruyub saxlayım.

Bu sözlərdən sonra mayor düz gözlərimin içinə baxdı. Susdu. Ancaq hiss olundu ki, cavab vermək üçün tutarlı söz axtarır. Handan-hana qəribə tərzdə dodaqlarını büzərək dedi:

— Əzizim, sənin ciddi və ləyaqətli insan olmağına heç kimin şübhəsi yoxdu. Onu səndə ilk tanışlığımızdan duymuşam. Bütün fikirlərini də bəyənirəm və ona görə də sənin xatirini çox istəyirəm. Ancaq qüsurların da çoxdu. Cırtqozsan. Tez alışansan. Dərinə sığmayansan. Adama xeyir verən döörsən. Zarafatı həqiqətdən ayırammayansan...

— Bunlar nə deməkdi, mayor?

— Ayə, nə deməkdi nədi, hələ sənə bir söz deməmişəm, tumanını başına atırsan. Ayə, acından ölləm. Dur marketdən bir kiloqram kolbasa, bir rus arağı al gətir.

— Bəlkə pulunu verim, özün alasan?

— Ayə, bu ölkədə yaşamırsan, korrupsiyaya qarşı mübarizə eşitməmisən?.. Ayə, sizi tanımıram? Beş manat hörmət eləyib sonra videoya köçürürsüz. Dur! Dur get özün al gətir.

Mən əlacsız qalıb Sahiblə kolbasa, araq dalınca getdik. Qayıdanda mayor bizi soyuq istehzayla qarşıladı.

— Bir az artıq eləsəydin, qiyamət qopardı? Uşaqlar da mənə umuddu.

— Yox qopmazdı. Olanım buna çatırdı.

— Hıı...

— Bəli. Mayor, nəsə bir təhər görünürsən, ey. Axı mən sən deyəni can-başla elədim.

— Ayə, sən mənim düşmənimsən?

— Yox...

— Olsaydın, canın üçün cibinə bir şey atdırıb çoxdan yellətdirmişdim səni içəri. Yadında saxla, mən sənin dostunam. Bu

sözləri aldıqlarına görə demirəm, ey. Necəsə, hardansa, Allah sənin sevgini salıb mənim içimə.

Mən gülümsündüm:

— Gəl açıq danışaq, mayor. Mehriban və səmimi olaq. Eyhamsız-filansız. Ürəyimizdə gizlin şey saxlamayaq. Bir həqiqət yüz yalandan üstündü. Mənim kimi gündə neçə adam dolayırsan və bu nəylə bağlıdı?

Mayor sifətinə cod və sərt ifadə verdi. Çox çəkmədi ki, üzündə təbəssüm sezildi:

— Həqiqət haqda dediklərin mənim də ürəyimcədi. Hüquqşünaslıqda da yazılıb. Bizim rəis də onu tez-tez təkrarlayır. Necə deyirəm, o da elə buyururdu. Həqiqəti danışanlar təkcə yalançılara yox, həm də özləri-özlərinə qalib gəlirlər. Bu, hər bir insanın qəlbində azacıq da olsa, mürgü döyən alicənablıq və nəciblik hisslərinin ifadəsidi. Nöqtə, vergülünə qədər düzdü... Nə isə... Bir kiloqram kolpasa, bir araq alıb mənimlə söz güləşdirmə.

Mən təəccübləndim:

— Mən gülünc, mənasız adam döörəm, mayor. Axmaq işlərə ömrü boyu girişməmişəm. Heç kəsdən təmənna güdmürəm. Sənsə hər şeyə gülünc kimi baxırsan. Deyəsən, adamları alçaltmaqdan həzz alırsan? Ağlına gətirmirsən ki, kimsəni alçaltdıqca özün də alçalırsan... Bu hərəkətlər nəinki sənə, heç kəsə baş ucalığı gətirməz...

— Məndə olmayan şeyləri elə inadla, qızğın və qəti şəkildə deyirsən, özüm qıpqırmızı qızarıram. Hətta, alt paltarlarımı xırda tər danəcikləri isladır: ha... ha... ha...

— Bərəkallah. Danışdın çıxdın başa.

Mayor şaqqanaq çəkdi. Şaqqıltıdan bütün bədəni əsdi. Dedim:

— Sən mənim barəmdə nə düşünürsən bilmirəm. İnan dediklərim mənim ürəyimcədi. Onları qəbul eləyə də bilərsən, eləməyə də.





— Zeynəb qarı deyərdi: "İnamdan doğan ağıllı sözə hamı ehtiyaclıdı". Ruhani hisslər, insani məsuliyyətdən doğur. İfadənin nəcibliyinə xidmət eləyən düşüncələr hər yerdə, hər zaman dəyərli olur. Mən də elə əqidədəyəm. İnsanlar ən böyük dəyərlərə, özləri barədə qiymətə ancaq və ancaq ünsiyyətlə yiyələnirlər. Əlbəttə, bu deyilənlərin nüvəsində hörmət dayanır. Boş-boş hırıltıyla deyilən "sevgidən", saxta "məhəbbətdən" dəm vurmaqla yox. Hörmət-izzət yoxsa, hamısı boş şeydi. Hamı sənin kimi yüksək pafosla danışır. O dediklərim olmadığından hamısı boş gedir.

Mən kinayəylə bildirdim:

— Mayor, sənin dediklərində quru bir ağıl var.

— Başa düşmədim, izah elə, ağlın qurusu, yaşı da olur?

— Mayor, quru ağıl sənin hüquqşünaslıqdan və rəisindən öyrəndiyin, heç kəsə lazım olmayan köhnə nəzəriyyələri yeni cahanşümul ideya kimi cəmiyyətə sırımağındı. Yaş ideya isə həmişə həyatdan öyrəndiyindi.

Mayor üzümə baxdı.

— Bunları hardan öyrənmisən, əə? De, yazım, vaxt tapıb mən də onu əzbərləyəcəm.

— Özünüz "böyük təfəkkür sahibisiz", mayor, balaca ağıl işlətsəniz, inanıram, sizin quru nəzəriyyəniz də nəm çəkər... İnanın hərarətli qəlbiniz var. Adamların içinə çox tez nüfuz eləyə bilirsiz. Pisi-yaxşını dərhal qanırsız. Xeyrinizi başa düşürsüz.

Mayorun sifəti birdən-birə gərildi. Yanaqlarının əti titrədi. Dodaqları əsə-əsə, dili topuq vura-vura dedi:

— Ayə, sən öl, sən böyük mütəfəkkirsən.

Mayor nə düşündüsə, gözlənilmədən səsinin tonunu dəyişdi.

— Mənimlə siçan-pişik oynayırsan? Uduzarsan. Eşitmiş olarsan Zeynəb qarının dediklərini: "Quş dimdiyindən ilişər". Mənə qəzəl oxuma. Fasfası olma. Qorxu, həyəcan, stress təlqin elə-

mə. Niyə anlamırsan ki, onlar hər cür xəstəliyin başlanğıcıdı. Dur cəhənnəm ol. "Keçinin əcəli çatanda buynuzunu çobanın çomağına sürtər". Çoban da bilirsən də neyləyir?

Mən dərhal:

— Əşşi, inan mənə. Sən də böyük adamsan. Nəinki mayor, lap general olası adamsan.

— Vaxtım azdı. Az mədhiyyə oxu.

Mayor mənim istehzamı anlamadığından mən Sahibdən utandım. Çünki Sahib məni məddah kimi qəbul eləyə bilərdi. Mayor qarşıma ağ kağız və qələm qoydu:

— Sahibi evində müvəqqəti saxlamağın və onun həyatı üçün məsuliyyət daşımağın barədə izahat yaz. İmza at. Tarixini qoy, ver mənə. Sonra daha əsaslı rəsmiləşdirmək lazım gələcək. Əlbəttə, o məhkəməlik işdi...

Mən mayor deyən kimi izahat verdim və onunla xudahafizləşdik.

## Rəzil qadın

Bazar günüydü. Hamı ev-eşiyindəydi. Hərə öz işiylə məşğuluydu. Sakit hava, parlaq günəş vardı. Sahib evdə qaldı, mənsə Füzuli meydanına düşmək istədim. Aşağı enmişdim ki, həyətdə qonşu Şahbikə xanımla qarşılaşdım. O, yaxşı tərbiyə görmüş ziyalı nəsildəniydi. Yaşlı, uca boylu bu qadının saçları ağarmışdı. Ağ bənizi, qara gözləri vardı. Ağzındakı dişləri sappasağıydı. Enli alnında, ağ girdə sifətində qırışlar duyulurdu. O, məni görcək ayaq saxladı və gözlərimin içinə baxdı. Sözlü adama oxşayardı.

Mən dərhal:

— Buyurun, eşidirəm.

O, astadan:

— Aran, qonşular neçə gündü səndən danışırlar, ancaq vaxt,





imkan tapanmamışam, özündən soruşum. Sahib kimdi? O barədə deyilənlər doğrudurmu?

— Hə... Nə dediklərini bilmirəm. Hər şeyi həyat göstərər. Həyatın məntiqi çox düzgün, hökmü bəzən çox amansız olur. Fakt budur ki, Sahib Allah bəndəsidi, kimsəsizdi, yatmağa yeri-yurdu yoxdu, ona görə də biz bir evdə yaşayırıq, birlikdə dolanırıq. İşsiz-gücsüz xanımlar öyrəniblər nə olsa danışmağa.

Şahbikə fikrə getdi. Sonra bildirdi:

— İnsan qəlbinin ən nəcib duyğuları xeyirxah və mərhəmətlidir.

— Ola bilər.

— Sən Allahın buyurduğu yolla getmisən. Deyirlər, bəzi adamların müəyyən dövrdən sonra iç gözləri açılır. Bu müdriklərə xas bir şeydi. Əgər o uşaq gələcəkdə sənə sədaqətsiz çıxsa belə, sən ondan yaxşılığını əsirgəmə. O, zəifdi, dünyadan xəbərsizdi. Sən ona həmişə qayğını göstər. Necə deyərlər: "Yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi". Hər kişiyə ər kişi deməzlər. Onsuz da tanıyanlar sənin barədə çox yaxşı danışırlar. Doğrudu, yükü mənzil başına çatdırmaqda bizim əlimizdən təkcə danışmaq gələcək, gücü isə sən sərf eləyəcəksən...

Mən onun dediyi təmtəraqlı ifadələri, üzə çıxan hissləri gülüş, zarafat içərisində əritməyə çalışırdım ki, qəflətən həyətdə haray-qışqırıq qopdu. Geri dönəndə qonşu Əfruzgilin qapısından balaca İlahə: — Öldüm Allah, qoymayın. Əfruz ana başımı kəsəcək, — deyə bizə tərəf qaçdı. Vahimədən qızın bütün bədəni əsim-əsim əsirdi. Heç nə düşünəmmirdi. Üz-gözünün qanı qaçmışdı. Şahbikəylə mən yerimizdəcə donub qaldıq. Əvvəl nə edəcəyimizi bilmədik. İlahə qaçıb bizim aramıza girdi və Şahbikəni qucaqladı. Mən əlində uzun tiyəli çörək bıçağı gələn Əfruzun qarşısını kəsdim. O, əsəbiydi, İlahənin gözlərindən axan yaş yanaqlarından üzü çənəsinə doğru dığırlanırdı. Əfruzun

əlindən dartıb bıçağı aldım və onu geriyə itələdim. Onun qırx beş-əlli yaşı olardı. Dolu bədənli, sarıbəniz bu qadının iti göy gözləri vardı. Səsi kişi səsini xatırladırdı. Yan vura-vura yeriyirdi. Başına tez-tez həna qoyardı. Qadınlar ona "Həna Əfruz" adını vermişdilər. Nitqində etik söz və ifadələri az-az hallarda işlədərdi. Yöndəmsiz, jarqon ifadələr onun dilində bitmişdi. Adamları hərdən şantaj eləməsi də vardı. İşi-gücü xaricə gedib-gəlmək və gətirdiyi şeyləri dükan-bazarda satmağıydı. Ona görə də çoxları ona bazar arvadı kimi baxırdı. Əfruz cılız, arıq, çəlimsiz İlahəni lap kiçik yaşlarından körpələr evindən qəyyumluğa götürmüşdü. Uşaq doğma ata-anasının kimliyindən xəbərsiziydi. Analığı ona ev işlərini tapşırmışdı.

O, bu qızcığazı kobudcasına hədələyəndə Şahbikə bərk əsəbiləşdi:

— Ay Əfruz, bu qədər insafsızlığı, mürvətsizliyi özünə necə sığışdırırsan? Əl boyda uşağın üstünə canavar kimi, sıçramağı özünə fəxrmi sanırsan?

Əfruz dərhal:

— Yekə arvadsan. Yüz yerdə yüz min iş görürsən, səninkini demirik, açıb ağartmırıq, Allahına şükür elə, qaxıl otur yerində. Hələ ki, sənə ağac bulamıram.

Şahbikə matdım-matdım Əfruzun üzünə baxdı:

— Mən sən olanmaram. Sənin kimi ifritənin bir gün həyatını yaşamaqdansa, ölüm fərzdi mənə.

Əfruz qışqırdı:

— Məni əl-qol işlətməyə məcbur eləmə. Sənə bir gəliş gələrəm, bundan sonra yüz il yaşasan da unudanmazsan.

Elə bu vaxt səsə qonşular uşaqlı-böyüklü evlərindən həyətə töküldülər. Mən dilimi saxlayanmadım:

— Əfruz, bəzən özünü elə aparırsan ki, guya imam övladısan. Səndən mədəni adam yoxdu. Əslində elə döör. Cildə girdiyini biz də bilirik. Xanım, qonşuları bu qədər bezdirmək olmaz.





Əfruz dayandı. Düz gözlərimin içinə baxdı.

— Danış... Danış, Aran! Sonra...

— Xanım, sonrası budu ki, saxta nəzakətlər içində törətdiyin özbaşınalıqların, ədəbsizliklərin hiyləni, paxıllığını, xudbinliyini daha tez üzə çıxarır. Bu hərəkət yiyəsinə heç vaxt nüfuz qazandırmaz. Heç kəsə fayda verməz. Əksinə, peşmançılıq, utanc gətirər. Bu oyunları düzəltməkdənsə, "Burda mənəm, Bağdadda kor xəlifə" prinsipiylə yaşamaqdansa, səmimiyyət yolunu tut. Hörmətin-izzətin yeganə yolu səmimiyyətdi. Necə deyərlər, "Dili şirin min evi yeyər, dili acı əlindəkini də itirər".

Əfruz hökmlə:

— Qurtardın? İçini boşaltdın? İndi vızqırt, Aran.

Mən karıxdım. Qonşu Xuraman pıçıltıyla:

— Sən insan sən deyilsən, sıntırmış, ləyaqətini itirmiş canlısan, ancaq insan yox... Əfruz, insan cildində vəhşisən. Çirkin əməllərindən, o qıza zülm eləməyindən əl çək.

Əfruz Xuramandan özünə belə münasibət gözləmədiyindən deyəsən çaşdı. İstehzalı baxışlarla onu ayaqdan başa süzdü. Üzündə acı gülüşə bənzər ifadə yarandı və tez də silinib yox oldu. Əvəzində sifəti sərtləşdi. Bunu kənardan sezən Qiyafət mızıltılı səslə dilləndi:

— Ay Əfruz, vallah sən təkcə o zavallı qızcığazı yox, bizi də dəli eləmisən. Nə oturuşumuzu bilirik, nə duruşumuzu, nə də danışığımızı. Başına ip salanın, cilovunu dartanın yoxdu deyə, qonşuları minməyəcəksən ki?

Qonşuların eyni mövqedən danışdıqlarını görcək Əfruz hamını ümumiləşdirib söyüşdən, qarğışdan onlara bir neçə yaylım atəşi açdı:

— Hamınız alçaqsız. Fillənmişsiz. Məni gözünüz götürmür. Yalançısız. Böhtançısız. Sizin aranızda ala-qarğa bala çıxarmaz. Şəhəri çapıb-talayırsız. Allah sizin cəzanızı verəcək. Xəyanətkarlar. Zülmlə gedib uşaqlara çörək qazanıram. Onu da gözünüz

götürmür. Fahişələr, Allah sizə qənim olacaq. İt altından götürülən lotular. Cəhənnəm odunda yanacaqsız...

Əfruz üzünü balaca İlahəyə tutdu:

— Məni qonşularla üz-üzə qoydun. Allahın lənətinə gələsən. Necə ki, gəlmisən. Çörəyim gözündən gəlsin... Ömrün boyu qarnını qazasalar, çörəyimi sıyırıb qurtarammazlar. Gün axşamacan evdəsən, əlini ağdan-qaraya vurmursan. O nə paltardı yuyub asmısan? Mən evdə olmayanda bu bit-birələrin ağzına nə atmısan, məndən onlara, nə demisən ki, üstümə belə ayaqlanırlar? A heyvan... A məlğun. Qanın zəhərdi. Tələsmə, qoy bu itqurd çəkilib getsin, səni bu əllərimlə boğacam... Səni qanına qəltan eləyəcəm...

Əfruz sinəsi qalxıb enə-enə, gözləri qızarmış canavar kimi yerindən sıçradı. Mən onu yenə cəld tutdum və geri itələdim. O özünü yıxılmaqdan güc-bəlayla saxladı. Gözlərim təsadüfdən, yoxsa nədənsə pəncərəmizə dikildi. Pəncərədən Sahibin də bu hadisəyə tamaşa elədiyini gördüm. Açığını deyim ki, mən istəməzdim Sahib bu əcaib mənzərəni görsün. Sonra fikirləşdim: "Onsuz da həyətdə olan adi söz-söhbət mənzildə eşidilir. Onda qalmışdaki bu həngamə ola. Həm də hər şey geciydi". Sahib vurhavurun ən kiçik detallarını qulaqlarıyla eşitmişdi.

Əfruzun səsi gərilirdi. Tez-tez də danışanda öskürürdü. İndiyə qədər dediklərindən ürəyi soyumayıb dilinə güc verdi:

— Əziyyətimə yanıb-yaxılıram. Özüm yeməmişəm, uşaqlarımın qarnından, əynindən kəsib, İlahə, sənə yedizdirmişəm. İstidən, soyuqdan səni qorumuşam. Sən əclafsan. Yaramazsan. Dinmirsən, danışmırsan, qonşulara sığınıb göz yaşları axıdırsan. Elə bil lalsan. Allah bilir, barəmdə nə fikirləşirsən. Mən olmasaydım, çoxdan uşaq evində cücü kimi qurd-quşa yem olmuşdun.

Mən səbrimi cilovlayammadım:

— Əfruz, bayaqdan o kimsəsiz, zəif, günahsız uşağa qarğıyır-





san, ona demədiyin təhqiramiz söz qalmadı. Adamın abrı olar. Atalar yaxşı deyib: "Məscidin qapısı açıq oldu-oldu, itin abrına nə".

— Ayə, Aransan-maransan, nəsən, mənə it deyirsən? Ayə, ay yazıq, sənin forman kişidi ey, özün bizim tayımızsan. Kişi olsaydın, bu vaxta qədər başına çarə qılardın. Gedib küçədən birinin uşağını tapıb gətirmisən evinə, guya humanist adamsan... Hay... Hay... Bizim məhlənin humanistinə bax. Ay camaat, bundan sonra məscidə-zada getməyin. Gəlin Aran peyğəmbərin ətəyində namaz qılın.

Bayaqdan bəri kənarda dayanıb qəzəb və nifrətlə Əfruzun dediklərinə qulaq asan Səkinə qarı özünü saxlayammadı:

— Xanım, siz dul qadınsız. Çəkinəcək yeriniz olmadığından gəlib-gedib həddinizi aşırsız. İnsanlığa tüpürürsüz. Sənə kim yalvarıb-yaxarmışdı ki, kimsəsiz uşağı qəyyumluğa götürəsən. Sonra da onu döyüb, söyüb təhqir eləyəsən. Xəstələndirəsən, şikəst eləyəsən.

— Onun sahibi mənəm. Yeməyin-içməyin verəndə, geyindirəndə, yuyunduranda yaxşıydı, döyəndə pis? Hə... Onda bir söz demirdiz? Hardaydız? Gözləriniz görmürdü, ya qulaqlarınız eşitmirdi? Zeynəb qarı yaxşı deyib: "Uşağım əzizdi, tərbiyəsi ondan da əzizdi". Yaxşı, ayıb olmasın, indiyəcən niyə səsiniz çıxmırdı? İlahə nə vaxtdan sizin üçün olub belə gülməşəkər?

— Xanım, qadının üzündə abır-həya, canında ismət olar. Acığına getsə də deyəcəm, onlar səndə yoxdu. Sən nə olsa, danışırsan. Sənin üçün ölçü qəhətə çıxıb. Bu hərəkətinə görə səni heç kim bağışlamaz. Sən heç zaman qarnından çıxanı o hala salmazdın. Ürəyin dözməzdi... Belə getsə, qonşular sözü bir yerə qoyub səni polisə verəcəklər.

— Necə düşünürsən, polis, ya məhkəmə mənə deyəcək ki, balanı tərbiyə eləmə? Onu səhv yoldan çəkindirmə?

— Elə deməz, bir zaman sənə verdiyi analıq hüququnu əlin-

dən alar.

— Əşşi, bəsdirin, insafınız olsun, görmürsüz, nəyin arxasınca göndərirəm yarıtmır məni? O da yeyib-içdiyinin haqqını ödəməlidi, ya yox? Ürəyimə damıb. Ona çəkdiyim zəhmət axırda hədər olacaq. Onu düşünəndə ürəyim göynəyir. Adama nə qədər paltar, ayaqqabı alarlar? İkicə gün də çəkmir, yırtıb-söküb atır evin küncünə. O, mənə zülm eləyir. Heç şeyin qədrini bilmir, qanmazdı, anlamazdı.

Səkinə təmkinlə:

— Çığırıb-bağırma. Onu qəyyumluğa götürəndə anlamalıydın ki, mən bu uşağı saxlaya bilərəm, ya yox... Uşağı şərləmə... Onu gözdən salanmazsan. Onun necə uşaq olduğunu məhlədəkilər səndən yaxşı bilirlər. İlahənin əyni hələ təzə paltar, ayaqları təzə ayaqqabı görməyib. O qız onun-bunun soxalarını geyinir.

— Xeyr, sən düz danışmırsan, Səkinə. Xəstələnəndə üstünə həkim çağırıram? Pul verib, dava-dərman alıram? Niyə başa düşmür ki, mən onun dava-dərmanına nə qədər xərc çəkirəm? Gecə-gündüz onun üçün çalışıram? Əgər əziyyətimi nəzərə almasa, dediklərimdən nəticə çıxarmasa, açsın qulaqlarını eşitsin, mən onu ev dustağı eləyəcəm, ac saxlayacam.

Həmişə baməzə söhbətləriylə, deyib-gülmələriylə seçilən Şelli dedi:

— İlahəyə elədiklərinə daha biz qonşular qulağımızı tıxayıb durmuyacağıq. Bezmişik. Sən itdən də betərsən, Əfruz. Yeri gəldi-gəlmədi uşağı hər gün qapırsan. Nə qədər uşaq səsinə diksinib atılmaq olar. Şəxsən mən səndən şikayət yazacam. Bildirəcəm ki, belə dəliyə, yaramaza, nadana uşaq usburd olmazlar. Qonşuların sənin gicbəsərliyinə şübhələri qalmır. Zavallı yetimin hər gün başına oyun açırsan.

Əfruz bir az da qızışdı:

— Axı siz kimsiz? Hansı əsasla mənim evimdə darğalıq eləyə





bilərsiz?

Şelli ondan betər qışqırdı:

— Çünki sən yaramazsan. Allahdan qorxmursan. Qorxsaydın, "balam", "qızım" deyə qəyyumluğa götürdüyün uşağa belə qənim kəsilməzdin.

— Yox, xanımlar... Özünüzü mələk cildinə salmayın. Siz də az aşın duzu deyilsiz. İşiniz-peşəniz qoyun kürkünə bürünüb çaqqalıq eləməkdi. Başqasının dərdi-sərinə, ağrı-acısına qarışmayın. Girilәsi o qədər sirləriniz var ki. Şellisən-mellisən, nəsən, mənim də səbrimin həddi-hüdudu var. O hədd aşılanda qəzəbimi saxlayammıram. Bu yaşadığım evi də, səni də, özümü də, elə İlahəni də partladaram. Bu məhləni də dağıdaram.

— Aha... Deməli, terroristliyin də varmış. Mıs-mıs eləyincə, bir dəfə də Mustafa de. Sən kamukadzesənmiş ki.

Məni gülmək tutdu. Sonra astadan dedim:

— Ola bilər, Əfruz ərəb ölkələrinə tez-tez gedib gəlir. Yəqin onu da kamukadze kimi hazırlayıblar.

Mənim bu sözümü öz səsi başına düşən Əfruz deyəsən eşitmədi. O, Şelliyə üzünü tutub sözünə davam elədi:

— Bəli, adamı elə həddə gətirməyin ki, ağlagəlməz yollar seçsin. Elə bilirəm yadınızdan çıxarmazsız. Qayınanamın başından bir vedrə neft töküb yandırmağa cəhd eldiyimi. Doğrudu, siz qonşular ona havadarlıq elədiz. Ona od vurmağa imkan vermədiz. O da başını götürüb qaçdı qocalar evinə.

Şelli dedi:

— Ağrım ağzına, çox öyünməli təcrübən var. Fəxr elə. Onu tək burda demə. Əlin uzundu, o hadisəni bəlkə rəssamlara çəkdirəsən, şəhərdə afişa elətdirəsən... Arxayın ol. belə getsə, İlahə də qayıdacaq kimsəsizlər evinə, ay bədbəxt.

— Bədbəxt niyə oluram? Gül kimi əndamım. Yetərincə ağlım. Geyinib-kecinib yeriyəndə kişilərin gözləri məndə qalır.

— Ay tüpürüm sənin əndamına da, ağlına da, hələ səndə gö-

zü olan bivec kişilərə də.

Hamı gülüşdü. Elə bu vaxt həyət qapısından Əfruzun rəfiqəsi Qumral, onun əri Rəcəb də həyətə girdilər. Səs-küyü eşidən Qumral ağız-burnunu əyişdirdi. Ərinin qulağına nəsə pıçıldadı. Kişi mobil telefonunu çıxarıb kiminləsə danışdı. Qumral üzünü Əfruza tutub soruşdu:

— Nədi az, nə baş verib? Kimlərdi sənə ayağın yandı geri çək deyən. Uşaq gəlib xəbər verməsəydi, hələ də qulağımızı yapırdıb kişiylə evdə oturacaqdıq.

Əfruz:

— Nə olacaq? İlahəyə bir balaca tapşırıq vermişəm. Mənə qulaq asmadığına görə ona təpinmişəm. Qonşular sözü qoyub bir yerə çıxıblar mənimlə tuman tökdüyə. Bu Arana bax ey, adını da kişi qoyub. Verib arvadlarla ağız-ağıza.

Qumral gah qadınları, gah da məni qıyğacı süzdü.

Sonra dedi:

— Xanımlar, əvvəla, uşaqlarınız yazıqdılar, onların tərbiyəsini pozmayın. İkincisi də, ağız-ağıza verib həyətdə ulaşmayın. Üçüncüsü də, yığışdırın özünüzü. Qanmalısız ki, Əfruz bu məhlədə tək deyil. Hərənizin bir fırıldaq işiniz var, məcbur eləməyin ki, biz də açıb sandığı, tökək pambığı. Biz də qonşu məhəllədə yaşayırıq. Bu iki məhəlləni qarşı-qarşıya qoyub qan tökdürərsiz. Qabağın heç kim alammaz. Qaldı Arana. Bu dılğıra ərimsiz özüm bəsəm.

Mən saxlayanmadım özümü:

— Sağ ol səni, Qumral. Barəndə çox eşitmişəm.

— Nə sağ olum? Səni yumruğumla əzərəm baş soğan kimi... Pulla qanını da batıraram.

Şelli söhbətə qoşuldu:

— Ağız səsini kəs. Get xarabana, o pulları hansı yolla topladığını da bilirik.

Əfruz dərhal:





— Bacarana baş qurban. Ərindən də az danış. O, kişi olsaydı səni yığardı. Qandın da nə demək istəyirəm?

Rəcəb sinəsini qabardıb dərindən nəfəs aldı. Sonra əsəbi halda bildirdi:

— Əfruz yerdən çıxmayıb, hər çatan ona göz ağarda, ağzına gələni tulazlaya. Canınız üçün ağaran gözlərə barmaqlarımı soxaram. Söz tolazlayan dilləri kəsərəm.

Rəcəb üzünü mənə tutaraq:

— Aran, o şalvar nədi, əə, qıçlarına taxmısan. Kasıblıq ayıb deyil, pulun yoxdu, de Əfruz şalvarlarından birini hədiyyə eləsin sənə. Əfruz xanım olsa da, kişiliyi səninkindən ötədi.

Mən bərk əsəbiləşdim:

— Tərbiyəsizlər. Qanacaqsızlar. Reketlərsiz? Bunlar haranın heyvərələridilər. Görünür, siz də Əfruz ağıldasız. Yoxsa belə çərənləməzdiz.

Qumral üzünü xanımlara tutdu:

— Siz kişi görməmisiz. Rəcəb Rəcəbdi. Dediyini eləməsə, içi dincələn deyil.

Rəcəb:

— Qurtardıq, Qumral. Biz sözümüzü dedik. Kim özündə cəsarət tapır, bayaqdan dediklərini təkrarlasın.

Şelli Qumrala:

— A bala, görürəm, ərin həm çox xırsızdı, həm də onda ayı gücü, canavar xisləti var... Adamlara az hədə gəlin. Pulunuz vasa, onu da verin qatığa...

Bayaqdan əlində xəkəndaz tutan Səkinə bir-iki addım Rəcəbə tərəf atdı:

— Sən bura qan nəhri yaratmağa gəlmisən?

Rəcəb:

— Ehtiyac olsa, bəli.

Səkinə: — Al gəldi, — deyib, Rəcəbin başına xəkəndazı vurdu. Rəcəb şah-budaqlı qovaq kimi yerə sərildi. Üst-başını al-

qan bürüdü. Ara qızışdı. Məhləni səs-küy bürüdü. Əfruzla Qumral Rəcəbi ayağa qaldırırdılar ki, səsə qonşu məhəllənin sakinləri də qaça-qaça gəldilər. Mənə elə gəldi ki, həqiqətən də iki məhəllənin sakinləri üz-üzə dayanacaq, kim-kimi məsələsini həll eləməli olacaqlar. Gələnlərdən kimsə dedi:

— Ölən kimdi?

İkincisi:

— Gölməçə yaradan qan kimindi?

Bizim məhlənin qadınları bir ağızdan:

— Sizin məhlənin, Rəcəbin.

Qonşu məhəllənin sakinləri soruşdular:

— Ölüb?

Bizimkilər cavab verdilər:

— Yox... Hələ sağdı.

Qonşu məhəllənin sakinləri:

— Gərək dəyyusu öldürəydiz.

Çox çəkmədi ki, təcili tibbi yardım maşını gəlib yaralı Rəcəblə Qəməri apardı. Qonşu məhəllənin sakinləri də gülə-gülə çəkilib getdilər. Əfruz hirsdən, qəzəbdən dəli görkəmi almışdı. Başında sanki bir çanaq qan gəzdirirdi. Peşmançılıq hissi keçirən qonşular çaş-baş qalmışdılar. Doğrusu, Əfruzun o şalvar məsələsi mənə də bərk təsir eləmişdi. Məhlə qadınlarının nəinki üz-gözlərinə baxmağa, hətta, yanlarında dayanmağa utanırdım. Öz-özümə düşündüm: Rəcəb məni sındıranda, adam yerinə qoymayanda niyə ona layiqli cəzasını vermədim? Arvadı hesabına qarın doyduran, ala-bəzək şalvar geyən bu əbləhə, niyə yerini mən göstərmədim?.. Tez də düşündüklərimin əksini dedim: deməli, ona mənim aldığım tərbiyəm imkan vermədi...

Səkinə dedi:

— Rəcəbin al-qanını Arana görə elə tökdüm. Aran bir tərbiyəsizlə, öz ləyaqətini ayaqlar altına atan bir kəslə əlbəyaxa olammazdı. Yox... Xanımlar, mənə elə gəlir ki, Əfruzun mərəkəsi Aranı təbdən çıxarmağa yönəlmişdi. Mən nə düşündüm, onu da elədim... Polislərə də özüm cavab verəcəm.





Danışmağa daha söz tapammayan, içində qan-qan deyə vurnuxan Əfruz baş verən hadisədən yığışmayıb İlahənin üstünə yenidən atıldı. Saçından tutub ona bir-iki şillə, təpik vurdu. Qonşu xanımlar İlahəni onun əlindən alırdılar ki, arxada dayanan yaşlı Fatma qarı vahiməli bir səslə qışqırdı və şabbıltıyla yerə çırpıldı.

Adamları dəhşət bürüdü. Bir an hamı yenidən çaş-baş qaldı. Nə baş verdiyini heç kəs anlamadı. Əfruz da sakitləşib matməəttəl qarıya baxdı. O, yerdə çabalayırdı. Qarının sir-sifəti dəyişdi. Qonşular dərhal ona yardıma başladılar. Kimisi su, kimisi dərman, kimisi də telefonla təcili tibbi yardım maşını çağırmaq üçün evə qaçdı. Onlar gəlincə zavallı qadın dünyasını dəyişdi. Əfruzun bugünkü mərəkəsinə bununla da nöqtə qoyuldu. Sanki onunla bağlı belə təhqiramiz söz-söhbətlər olmamışdı. Qəfləti hadisədən özlərini itirən qonşular tez də özlərinə gələrək mərhumu qucaqlarına alıb evinə apardılar. Qırx yaşı olar-olmaz, üç uşaq anası Tahirə xanım hirslə Əfruza dedi:

— Sən rəzil qadınsan. Xata-balasız deyilsən. Qatilsən. Bayquşsan. Dilin ilan zəhəridi, özün də şeytan. Bu gün iki dəhşətli faciə törətdin.

Xəcalət çəkmək əvəzinə, Əfruz şahmar ilan kimi Tahirəyə döndü:

— Ay ifritə, şəhərdə gündə minlərlə adam ölür, bəlkə onları da mənim ayağıma yazasan. Gedib polisə də məlumat verəsən, guya ölənlərin səbəbkarı mənəm. Elançiyə qalsa, mən də deyə bilərəm: keçən ay qayınanasını da Tahirə öldürdü. Ağız, əcəldi də. Vaxt çatanda hamı gedəcək. Əzrail kimdən nə soruşur ki? Məni də aparacaq. Boş-boş söhbəti çıxar başından. Yekə cuvanəzənsən.

Tahirə Əfruzun üzünə tərs-tərs baxdı:

— Rədd ol, sən öl, boynunu qırıb kökündən çıxararam.

Əfruz çəkindi. Səsinin tonunu aşağı salsa da, dilini saxlamadı:

— Çox göydən getmə, bala, çaxır tünd olar, öz qabını çatladar. Odu ha, özün şahidsən, gözünün qabağında içi alışıb-tutaşıb yanan Fatmanın başına nə iş gəldi? Hikkə elədi də. Heç olmasa, ondan ibrət götür.

— Deyirsən, susmasam, məni də o günə salarsan. Məni qəzəbləndirmə, arvad. Allah səni vurub. İçindəki xılt da çıxıb üzünə. Adama da oxşamırsan. De görüm, İlahəni qəyyumluğa götürməkdə məqsədin nəydi?

— Nə olacaq? Böyütmək, ayağa qaldırmaq, tərbiyə eləmək.

— Necə?

— Hə... Onu özüm bilərəm.

Tahirə mənim üzümə baxdı. Mən gülümsünüb başımı yellədim. O, Əfruza dedi:

— Qəyyumluğa götürmüsən deyə, o uşağa zülm eləməlisən? İndi məlum olur ki, onu qəyyumluğa götürməkdə gizlin, olduqca çirkin məsqədin varmış.

— Gizlin, çirkin deməklə sən nələri nəzərdə tutursan?

— O qızcığazı özünə kölə, qul eləmək məqsədini. Şəxsən mən sənə imkan vermərəm ki, onunla necə gəldi davranasan. Ondan əşya kimi istifadə eləyəsən. Sən insafsız, mürvətsiz adamsan. Sənin tək insandan hər cür ləyaqətsizlik gözləmək olar. Gördün, sənin bu gün yaratdığın mərəkə nəylə nəticələndi?

— Ağlına gələni tolazlama, Tahirə. Nə kölə? Nə qul? Öz əməllərimə özüm cavabdehəm. Hələ sizi özümə vəkil tutmamışam. Qaldı insaf, mürvətə. Çalışın ondan özünüzdə də olsun. Mən mərəkə yaratmamışam. Kiçik bir işi siz qonşular mərəkəyə çevirdiniz. Fatma qarının ürəyi xəstəydi. Onun ölümü, qaşlarıyla gözləri arasındaydı. Ailəsi sevinsin ki, məhlədə öldü. Küçəyə çıxıb yıxılsaydı, maşınlar üstündən keçsəydi, Fatmanın





meyidi nə günə düşərdi? Günahsız sürücüləri də zibilə salardı. Nə yaxşı ki, qəflətən öz xoşuna hamının gözlərinin qabağında getdi. Özü də, başqaları da əziyyət çəkmədi. Bilmək istəsən, Fatma qarının ölümü qızıl ölümdü. Kaş Allah-Təala sənə də elə ölüm qismət eləsin.

Daha Əfruza deməyə sözüm qalmırdı. Bir anlığa mənə elə gəldi ki, bu qadını ilk dəfə görürəm, halına, xislətinə də indi bələd oluram. Tahirə üzünü mənə tutub gülümsündü. Bir qədər sakit tərzdə dedi:

— Hə, Aran qardaş, düzəldi işimiz.

O, sonra Əfruza üzünü tutaraq sözünə davam elədi:

— Ay sənin özün öləsən. Nə danışdığını bilirsən?

Əfruz bir şey anlamamış kimi:

— Bağırma. Rəhmətliyin ailəsi kasıbıydı. Zirzəmidə yaşayırdılar... Bunları ki, sən bilirsən. Gözümüz aydın, indi də başlayacaqlar cənazəni yola salmaq üçün qonşulara əl açıb pul yığmağa. Düz-əməlli ehsan-mehsan da verməyəcəklər. Qaldı Rəcəbin qanına, onun da yuyulma haqqı mənim üstümə düşəcək. Allah bivec övladı kəssin.

Məni dəhşət bürüdü. Danışıqları tam sübuta yetirirdi ki, Əfruz həqiqətən də insanlıq hisslərindən məhrumdu. Onun üçün heç bir dəyər yoxdu. Mən bir-iki addım onun tərəfə atıb düz gözlərinin içinə dedim:

— Ay həyasız, sənin dilin bu sözləri deməyə necə yatır?

Əvəzində o dedi:

— Hələ harasıdı? Belə bir gün də sənin üçün var.

Güman elədim ki, bir az da qabağa çıxsaydım, Əfruz yaxama əl atacaqdı. Elə bu vaxt qonşu binanın ikinci mərtəbəsinin balkonundan bizi izləyən Məzhəb qarının səsi eşidildi:

— A bala, abır-həyasını dalına atan, sözdən sınmayan adamla çənə vurmazlar. Hürəyən itə ağac bulayarsan, qızışar.

Buna bənd imiş kimi hərəmiz bir yana üz tutduq; Tahirə Sə-

kinə qarıgilə, evlərinə. Məhsəti qarı öz mənzilinə, mən də küçəyə.

## Ömür zənciri qırılsa...

Həyatın ağlagəlməz, keşməkeşli cəngəllikləri, sürprizləri var. Bu cəngəlliklərdən hərə bir cürə keçir, sürprizləri isə öz ruhuna məxsus qəbul eləyir. Bu keşməkeşdə uduzan da olur, udan da. Mən ağlın qüdrətini inkar eləmirəm. Mif düşüncələri də kor-koranə özümə yaxın buraxmıram. Ağılla hisslərin, duyğuların çulğalaşdıqları şəraitdə taleyin qismətinə bəzən tərəddüdlü baxıram. Bircə onu anlayıram ki, hamı özlüyündə özünü general sanır. Heç kəs bircə dəfə papağını qarşısına qoyub düşünmür: Balam, mən kiməm, nə karəyəm? Yerli-yersiz arzuların, xəyalların qanadında uçaraq, dünyanı fəth eləmək niyyətini reallaşdırmaq mümkündürmü? Əlahəzrət həyatdan umduqlarına həqiqətən də nail olmaq olarmı? Belə arzular və xəyallar özgələrinin istehza və gülüşləri ilə müşayiət olunmazmı? Çox müəmmadı. Nələr düşünürsən, nələr baş verir? Həyatdan nələr umursan, o sənə nələr bəxş eləyir. Bütün bunlar özləri bir ayrıca tədqiqatın obyektidi. Kim nə fikirləşir, fikirləşsin. Mən onları özümə yük eləmək, onlarla baş sındırmaq istəmirəm. Məni narahat eləyən, vucudumu sarsıdan, ağlımı oynadan, dünyaya qədəm qoymaqda olan körpələrin təbii anormallığıdı. Əslində bu, qeyrəti olan hər kəsin faciəsidi. Məncə, ən böyük faciə heyvani hisslərlə yaşayan bəzi valideynlərin doğma övladlarını atmalarıdı. Bu isə nadanlıqdan, qansızlıqdan doğan bədbəxtlikdi. Onların bütövlükdə insanlığa, özlərinin özlərinə xəyanətidi. Görün, biz nə düşünürük? Əslində, biz böyüklər də sözün həqiqi mənasında dünyaya şikəst gəldiklərindən xəbərsiz uşaqlar tək çolaqlar deyilikmi? Aman Allah, nədir bu ağlıma gələnlər?..





Bu fikirlər ağuşunda çabalayırdım ki, qapı döyüldü. Mən tələm-tələsik qalxıb qapını açdım. Gələnin yeznəm Möhübbət olduğunu görcək çox sevindim.

— Nə yaxşı gəlmisən, keç əyləş, — dedim və özüm də mətbəxə getdim. Çay hazır olduğundan çox ləngimədim. Adama bir stəkan çay içdik. Xeyli söhbətdən sonra yeznəm dedi:

— Aran, yəqin o günkü söhbətdən narazı qalmısan. Onun üçün də bizə gəlmirsən. Bu məni çox narahat eləyir. Nəyə deyirsən and içim, bacın sənin xatirini çox istəyir. Səninlə olan kəskin, sərt danışığına çox peşmandı. O gündən gözlərinin yaşı qurumur...

— Eh... Çox nahaq. Bir bacıyıq, bir qardaş. O gün hər kəs öz düşündüyünü deyirdi. Möhübbət, hər bir danışığın tərzini, tonunu onun məzmunu diktə eləyir. O söhbəti ciddi və sərt kimi dəyərləndirmək gülməli görünərdi.

— Nə deyim vallah. Arada get bacının könlünü al. Küsüb incimədiyinə onu inandır. O söhbətdən sonra mən də çox fikirləşdim. Bacınla da söhbətə oturdum. Dedim: “Sən Aranı başa düşmürsən. Axı qardaşın nə qəbahət eləyib ki, ona qarşı bu qədər aqressiv oldun. Qardaşının ürəyi yumşaqdı. Haqsızlığa dözənmir. Onun istəyi insanları xoşbəxt görməkdi...”. İnsafən, Zinyət də mənim sözümü təsdiqlədi.

— Bütün insanların xarakteri, düşüncə tərzi eyni olmur, Möhübbət. Olsaydı, yəqin həyat da mənasız olardı. İnsanlar yaşamaqdan beziblər. Elələri var ki, bir-birini görmək istəmirlər. Xatırlayırsanmı, bizə qədərki olmuşları? İnsan həmişə keçmişini xatırlayır. Axı bizim ata- babalarımız adət-ənənələrə bilirsənmi nə qədər sadiq olublar?! Nə qədər gözəl dəyərlər yaradıblar?! İmkansızları qanadları altına çəkiblər...

— Da demə. Keçmişi xatırlatdın. Hərdən yadıma düşəndə, inan, o illərə qayıtmaq, uşaqlıq çağlarımı yaşamaq istəyirəm. El ağsaqqallarının müdrik məsləhətləri birər-birər gəlib durur göz-

lərimin qabağında. İnsanlar neçə də təmiz, saf, xeyirxah, qayğıkeşiydilər. Mərdimazarlıq, nadanlıq ağlımıza gəlməzdi. Ən gözəl, ən şahraq, ruh oxşayan nəğmələrini oxuyardılar. Biz də elə bilərdik, həmişə belə olacaq və dünyanın ən xoşbəxt adamlarıyıq... Sən demişkən, indi isə gör hansı anları yaşayırıq? Nələrlə qarşılaşdıq? Valideyn övlada, qardaş-qardaşa düşmən kəsilir. Bir-birilərindən imtina eləyirlər. O günkü söhbətdən sonra, qayın, mən də çox fikirləşmişəm. Elə bilirik, çox inkişaf eləmişik. Müasir insan barədə çox şərqilər oxuyur, filosofluq eləyirik. Düşünmürük ki, dünyanı inkişaf etdirən yalan yox, texniki tərəqqidi, komputer-kommunikasiya, elektron hesablama sistemləridi. Qəribədi, bunlar həyatımıza daxil olduqca, inkişaf elədikcə, deyəsən, özümüz robotlaşırıq. Hisslərimiz, emosiyalarımız zəifləyir. Nəticədə insanlar qatı cinayətkarlara çevrilirlər. Elə götürək Sahibin ailəsini. Çox böyük faciədi. Uşağa elə münasibət insanlığa tüpürməkdi... Belə şeyləri görəndə adam ölmək istəyir. Özünü intiharla az qala qarşı-qarşıya qoysun.

Mən gülümsündüm. Yeznəm diqqətlə üzümə baxıb astadan sual verdi:

— Nəyə gülürsən? Yoxsa, dediklərimə inanmırsan, Aran?

— İnanıram, Möhübbət. Gülümsəyərək ona sevinirəm ki, biz bir-birimizi duyuruq. Qaldı ölməyə, özünü intihara, mənə elə gəlir ki, dərd adamı üstələyəndə, cəmiyyətdə insanlığa qəsd hökmü veriləndə ölümün şərbəti dünyanın ən təsirli və kəsərli zəhərindən də şirin olur. Ancaq bilmirəm niyə, onu bir çoxları içməkdə acizdilər... Özünə qəsd eləyənlər mafioz cəmiyyətdən birdəfəlik canlarını qurtarırlar. Biz qalanlarsa, arxayın ola bilərsən, hər gün onu içirik. İçimizdə ölürük. Sonra yenə dirilirik. Beləcə, ölüm-dirim əməliyyatı — buna proses də demək olar — təkrarlanır. Həmişə belə olub, belə də olacaq. Təkcə görüntü yaradan çölümüzdü. Bu dilənən, ac-yalavac dolanan, soyuqdan-qardan vucudları titrəyən, sümükləri sızlayan kimsəsiz, dayaqsız





uşaqları görəndə elə bilirəm hər an içimə qar yağır. Ruhum donur, yaşamım son həddinə çatır. Keçmişləri yaddaşımdan silənməsəm də, gələcəyə olan ümidlərim sönür.

Möhübbət dərindən nəfəs aldı. Sonra “ah” çəkərək xatırlayıcı bir tərzdə dedi:

— Aran, o günkü söhbətimizdən sonra Zinyət pıçıltılı səslə bildirdi: “Möhübbət, Aran barədə düşünəndə özümü itirirəm. Qəm, qüssə, kədər dolu qəlbim məni göz yaşları tökməyə vadar eləyir. Ürəyim sıxılır. Acı da olsa, hey düşünürəm: qardaşımdan sonra mən necə olacam? Ömür zənciri qırılsa, qardaşımın izi-tozu qalacaqmı?”. Doğrusu, bacına cavab verməyə gücüm çatmadı. Bəlkə, qayın, daşı ətəyindən tökəsən. Biriylə ailə qurasan, o sənə də baxsın, elə Sahibə də.

— Yeznə, arvadı qulluq üçün almazlar. Övladı uşağım olsun deyə dünyaya gətirməzlər. Onları xoşbəxt eləyərlər. Sahiblər, ilahələr... kimlər, kimlər, içərisində yaşadığımız bu üfünətli cəmiyyətdə çoxdu. Onlar hər gün dözülməz işgəncələr çəkirlər. Mən özümə rəva bilmərəm ki, insanlıq iqtidarımı itirib nadan, naqis, valideynlərin yoluyla gedim. Bacıma de, mən ondan heç vaxt inciyib küsmərəm. Arada onunla görüşə gələcəm. De, ayağını ata ocağından kəsməsin...

## Zülmə dözməzlər

Gün günortadan əyilmişdi. Şəhər burküydü. İsti adamı qarsırdı. Evin rütubəti və darısqallığı məni sıxırdı. Belə olanda həmişə meydandakı tənha çinarın kölgəsində daldalanaraq istirahət eləməyi üstün tuturdum. Adətimə sadiqlik eləmək istəyirdim ki, Sahib dedi:

— Mən də getsəm, sizə mane olmaram ki?

— Yox... Əksinə, səninlə şəhər gəzintisinə çıxmaq mənim-

çün çox xoşdu.

Biz geyinib şəhərə çıxdıq. Ancaq bu dəfə tənha çinarın həndəvərində yox, oradan keçib birbaşa Dənizkənarı Milli Parka getdik. Xeyli gəzdik. Hiss eləyirdim ki, park, orada insanların dincəlmələri üçün yaradılmış şərait Sahibi özünə cəzb elədi. O, bir çox şeylərə heyranlığını gizlədə bilmir, hey suallar verirdi. Mən də çalışırdım ki, onun suallarını doğru-düzgün cavablandırım. Danışa-danışa "Balıqulağı" restoranına gəldik. Sahiblə balıq kababı yedik, mürəbbəli çay içdik. Dənizin seyrinə daldıq. Xəzər apaydın görünürdü. Hardansa beynimi belə bir fikir qamarladı: "Sahibi gəmidə dəniz gəzintisinə çıxarmaq...". Belə də elədik. Sahib boynuna almasa da, onun içində dərin təlaş baş qaldırdı. Rəngi də bozarmışdı. Mən bunu duycaq tez onun əlindən tutub fikrini yayındırmağa çalışdım. O, digər qoluyla mənim belimi qucaqladı. Çox keçmədi ki, uşaq gəmiyə, onun sudakı hərəkətlərinə alışdı. Bir qədər aralıda kayutlar üzürdü. Sahibin diqqəti gəminin suyu yarmasında, gəminin ləngərləməsindəydi. Sahildən xeyli aralandıq. Gözlənilmədən Sahib məndən soruşdu:

— Əfruz xala niyə İlahəni döyür, söyür?

— Allah ağlını alıb. Dəlidi də.

Susdu. Handan-hana öz-özüylə danışırmış kimi pıçıltılı səslə dedi:

— Onda kimsəsiz uşağı döyərlərmi? Adamı elə incidərlərmi? Mənim o qıza yazığım gəlir. Dünən pəncərədən gördüm, İlahə yenə ağlayırdı.

Doğrusu, mən bu suallara necə cavab verəcəyimi bilmədim. Ancaq sualları cavabsız qoymağı da düzgün sanmadım. Çox çətinliklə vəziyyətdən çıxmağa çalışdım. Cavablarım Sahibi deyəsən qane eləmədi. O, böyüklərə məxsus əda ilə üzünü nəhayətsiz üfüqə tutdu. Hiss elədim ki, İlahənin döyülüb söyülməsi ona pis təsir eləyir. Mən onun fikrini yayındırmaq üçün dedim:

— Sahib, görürsən də üfüqə baxanda göz uzağı görmə imkanlarını itirir. Mən dənizi, onunla səyahəti çox sevirəm.





— Hə... Görürəm... Okeanlar dənizlərdən daha böyük, daha dərin olur. Onlarda böyük gəmilər üzür.

— Hə... Okeanlar daha nəhəng olurlar.

— Onlarda gəmilər batırlar?

— Nasazları batırlar, Sahib. Ayrı-ayrı dənizlərin, okeanların təsəvvür elə ki, hərəsi bir anlığa ayrıca cəmiyyəti xatırladır. Biz insanlarsa, o dəryalarda üzən gəmiləri, yaktaları. Təbiət hədsiz qəzəblənəndə, xüsusiylə sunamilər olanda dərya coşar, gəmiləri, kayutları bir göz qırpımında batırar. Cəmiyyətsə pozulanda aləm qarışar. Qayda-qanunlar, cəmiyyətin nizamı pozulur, yaranmışlar dağılar. Hər şey mehvərindən çıxar. Bir anlığa müharibələri, üsyanları xatırla. İraq, Misir, Suriya hadisələrini. Belə olanda heç kim heç kimi tanımaq istəməz. Cansız, kimsəsiz, arxasız, kasıb insanları cəmiyyət öz içində udar, oğlum. Qayda-qanunsuz, nizamsız cəmiyyət insan toplumudu. Bu toplumda qoluzorlular imkansız, gücsüz, kimsəsiz ilahələri əzirlər. Onları qul kimi, kölə kimi işlədirlər. Qayda-qadağalarla idarə olunmayan cəmiyyətdə yaşamaq, ömür sürmək fəlakətdi.

— Elə cəmiyyət məni də udar. Bilmirəm, İlahə Əfruzun yanından niyə qaçmır? Bəlkə sənin kimi, bir yaxşı adamla qarşılaşar. O adam da onu saxlayar.

— Oğlum, hara qaçsın? Bir də ki axı, o, qız uşağıdı. Belə cəmiyyətdə qız uşaqlarının vəziyyəti daha ağır olur.

— Necə?

— Sahə müvəkkili dediyi kimi, aldadıb aparıb onların bəzi əzalarını satdırarlar. Onlara deyiləsi mümkün olmayan zorakılıqlar eləyərlər, sonra da öldürtdürərlər.

Deyəsən, özüm də bilmədən gözlənilməz simə vurdum. Sahibin sifəti bozardı. Hardasa büruzə verməsə də, içində çəkinəcəklik, qorxu, vahimə yarandı. Mən içindəki psixoloji halı götürmək üçün onun boynunu qucaqladım, saçlarından öpdüm.

Sonra dedim:

— Sən nədən çəkinirsən? Mən heç vaxt səni atmaram, kimsə yanında sındırmaram. Mən istəyirəm, sən oxuyasan. Yaxşı təhsil alasan. Böyük adam olasan. Hamı əvvəl şəhərə gələndə sənin tək çətinliklərlə qarşılaşır. Yavaş-yavaş həm şəhərə öyrəşir, həm də işinin yöndəmini tapır.

— Mən istərdim, İlahə Əfruzun əlindən qurtarsın. O, bir də kimsəsizlər evinə qayıdanmaz ki?

— Oğlum, o məsələ bir az çətindi. Doğrusu, o qanunlardan mən xəbərsizəm. Məncə, onun üçün gərək məhkəməyə İlahə özü şikayət eləyə. Məhkəmə onun vəziyyətini araşdıra. Sonra nə qərar verəcəyini bilmirəm... İlahə sözə baxsa, Əfruzun dediklərindən çıxmasa, yəqin ki, analığı da onu söyüb döyməz. O da tezliklə böyüyər, kimləsə ailə qurub xoşbəxt olar.

— Mənim Əfruzdan gözüm su içmir. O arvadın ağlı yoxdu. Dəlidi. Mənə elə gəlir ki, o, İlahəni döymək üçün bəhanə axtarır. Bəhanəyə nə var ki?

Mən içimdə keçirdiyim hissləri büruzə verməmək xatirinə üzümdə süni təbəssüm yaratmağa çalışdım. Sonra Sahibin saçlarını qarışdıraraq bildirdim:

— Deyəsən, oğlum, səndə Əfruza qarşı nifrət oyanıb.

— Hə... Oyanıb. Bilirsən, dünən Əfruz İlahəyə nə dedi?

— Yox...

— Sən vanna otağında olanda mən mətbəxin pəncərəsini açıb çölə baxdım. İlahə uşaqlarla top atdı-tutdu oynayırdılar. Əfruz qapını açıb qışqıra-qışqıra İlahəyə dedi: "Çəngi, lotu, ərəhən vaxtında uşaqlarla neyləyirsən? Rədd ol, evə gəl". Mən bilmirəm, sən yaxşı bilərsən, — Çəngi, lotu, ərəhən — sözləri nə deməkdi?

Mən tutuldum. Əlacsız qalıb bildirdim.

— Oğlum, sən çox şeyə fikir vermə. Allah Əfruzun cəzasını verəcək...





## Əsəb gərginliyi

Axşam Sahibin görkəmi mənim xoşuma gəlmədi. Onun sir-sifəti qızarmışdı. Əlimi alnında gəzdirdim. Hərarəti qalxmışdı. Ona kəkotulu isti çay, soyuqdəyməyə qarşı həb içirdim. Ancaq iştahayla yemədi, tez yatağa girdik. Onu yuxu aparsa da, mən yatammırdım. Dünyanın siyasi mənzərəsi gəlib durdu gözlərimin önündə. Şərqi Qərbə, hər ikisini Avropaya qatmalı oldum. Bir sözlə, qitələrdən qitələrə keçdim. Hamısında gedən çaxnaşmaları, min bir fırıldaqların törədiciləri olan siyasilərin şahmat oyununa bənzər mərəkələrini tutuşdurdum. Etiraf eləyim ki, siyasi biliyimin azlığından tutarlı nəticələrə gələmmədim. Sahibsə yuxudan tez-tez oyanır, başını balıncdan qaldırır, o yan-bu yana baxır, sonra yenidən başını balınca qoyurdu. Dərhal da mışıltısı eşidilirdi. Tez-tez "Ata", "Ata", hərdənbir də "Ana" deyə ağlamsına-ağlamsına sayaqlayırdı. Yatağımdan qalxdım. Əlimi ustufca alnında, boyun-boğazında, sinəsində gəzdirdim. Hərarəti bir az da çoxalmışdı. Düşündüm ki, soyuqdəymədən zavallı uşaq özündə deyil. Səhərin açılmasını gözləmədən həkim çağırmaq qərarına gəldim. Mustafa Sübhü küçəsində yaşayan və kifayət qədər təcrübəsi olan Muxtar həkimə telefon açdım. Ona uşağın vəziyyətini çatdırdım. Dəstəyi yerinə qoyub düşündüm: "Uşaq yuxudan kal oyanıb həkimi görsə, qorxacaq. İndi gəl onu sakitləşdir... Gərək mən gecənin bu vədəsində həkimə müraciət eləməyəydim. Səhərin açılmasını gözləyəydim".

Muxtar həkim otağa girəndə Sahib çevrilib gözlərini açdı. Təəccüblə həkimə baxdı. Mən dərhal bildirdim:

— Qorxma, oğlum. Həkim bizə qonaq gəlib. Səninlə işi yoxdu.

Həkim də xəstəyə baxıb gülümsündü və ondan soruşdu:

— Necəsən? Bir yerin ağrımır ki?

Sahib yuxudan kal qalxdığından bir az qorxu, həyəcan içində məna dolu gözləriylə əvvəl həkimi, sonra məni süzdü. Ancaq həkimə cavab vermədən üzünü yana çevirdi. Həkim sualını təkrarladı. O, bu dəfə cavab vermək məcburiyyətində qaldı:

— Yox, ağrımıram, yaxşıyam, — deyib ağlamsındı — Atamı istəyirəm... Atamı yuxuda gördüm.

Həkim dərhal:

— Necə gördün?

Oğlan bu sualı da cavabsız qoydu. Bu zaman onun gözlərində anlaşılmazlıq ifadə olundu. Çox çəkmədi ki, bu anlaşılmazlıq sərtliklə əvəzləndi. Bu sərtlik içərisində bir anlığa gözlərində qurur hissi peyda oldu və tez də çəkilib getdi. Elə bil onun da yerini hardasa şübhə, inamsızlıq tutdu. Həkim uşağın nəbzini yoxladı, dilinə baxdı. Hərarət ölçən cihazını bir neçə dəfə silkələyib onun qoltuğuna qoydu. Az sonra cihazı götürüb üzünü mənə tutaraq: — Narahat olmağa dəyməz, görünür özünü soyuğa verib, indi düzələr — dedi və keçib stulda əyləşdi. — Çox qürurlu uşaqdı. Çox şeyi içinə yığan olacaq. Qapalıdı...

Mən başımı tərpətməklə həkimin sözünü təsdiqlədim. Sahibin bütün diqqəti həkimdəydi. Gözlərindən hiss olunurdu ki, o, həkimin tez getməsini istəyirdi. Onun baxışlarındakı mənanı həkim də duyduğundan gülümsünüb başını yellədi. Əyilib xəstənin qızarmış yanaqlarından öpdü. — Saqqalın ağarsın, sən nə qədər çox bilmişsən, — dedi.

Mənim Sahibə yazığım gəldi. Fikirləşmədən dedim:

— Oğlum, ananın yanına qayıtmaq istəyirsənmi?

O, gözlərimin içinə baxıb etiraz əlaməti olaraq başını yellədi. Sonra qətiyyətlə dilləndi:

— Yox!

— Dünyanın ən gözəl guşəsində yaşasan da, ən təmiz yeməkləri yesən də, min dəfələrlə başın tumarlansa da, ananın yanındakı qədər rahat olanmazsan.





Sahib əvvəl cavab verməк istəmədi. Ani fikrə getdi. Elə bildim, onu hərarət haldan çıxardı. O, handan-hana dedi:

— Sizi yordummu?

— Yox... Nə danışırsan, Sahib?

— Mən sağalsam, hara gəldi baş götürüb gedərəm, ancaq anamın yanına yox.

Həkim dərhal dedi:

— Sağalacaqsan. Səndə elə bir xəstəlik yoxdu. Bura gələndə mən də soyuqladım. Görünür, bir azdan mənim də hərarətim qalxacaq. Soyuqdəymə nədi ki, ondan qorxaq.

Mən həkimin yanında Sahibə dediklərimdən çox peşman oldum. Belə qənaətə gəldim ki, Sahiblə bir də anası barədə söhbət eləməyim...

Həkimlə olub keçənlərdən danışırdıq ki, Sahibi yuxu apardı. O hərdən bir inildəyir, diksinirdi. “Ata!”. “Ata!” sözlərini təkrarlayır, “Ata, məni bərk-bərk qucaqla”, “Sənə qurban olum”, “Məni bir də atıb getmə”, “Qoçu məni hər gün söyür, döyür...” deyirdi. Həkim kövrələrək dedi:

— Uşaq yaşından çox ağıllıdı. O, valideynlərinin itkinsindən də çox ağır zərbə alıb. Ruhu sarsılıb. Həddən artıq əsəbidi. Gecə-gündüz özünün gələcək həyatı, valideynləri haqqında düşünür. Oyaq vaxtda düşündükləriylə yuxularında da əlləşir. Onun əsəbləri müalicə olunmalıdır. Çalışın, tək qoymayın, başını qatın. Onu sarsıntılı aləmindən ayırın.

— Çalışaram... Əlimdən gələni eləyərəm...

— Mən indi gedirəm. Tez-tez sizinlə əlaqə saxlayacam. Yenə deyirəm, uşağı tək buraxmaq olmaz. Yazıqdı.

Səhərə qədər kirpiklərimi qırpmadığımdan gözlərimin acısını alammadım. Qan təzyiqim qalxdı. Ürəyimdə göynərti yarandı.

Mən telefonun dəstəyini götürüb bacıma zəng çaldım. Sahi-

bin xəstələndiyini ona çatdırdım. Çox çəkmədi ki, bacımla yeznəm gəldilər. Bacıma həkimin məsləhətlərini bildirdim. O, günəbaxan yağıyla Sahibi yüngülcə ovuşdurdu, ona yenə isti, kəkotulu çay içirdi. Sonra da üstünü yorğanla örtdü. — Qorxma, hamımız yanındayıq, tərləsən özünə gələcəksən, — dedi və Sahibin üzündən öpdü. Bacıma bir söz deməsəm də, ürəyim sevinc hissiylə doldu. Özlüyümdə ona — Sağ ol, bacı, — deyə təşəkkürümü bildirdim. Uşağı yuxu apardı. Mən narazı halda: — Sahib bərk əsəbiləşib, — deyə başımı yellədim.

Bacım:

— Niyə? O günahsıza kim nə deyib?

— Heç kim. Əfruz srağagün həyətdə həngamə düzəltdi. İlahəni yenə pis günə qoydu. Qonşular Əfruza yaxşıca təpki gəldilər. Baş verənlərin hamısını Sahib də eşidib. Uşaq həm öz keçmişini xatırlayıb, həm də İlahənin vəziyyətini düşünüb. Dəniz gəzintisində olanda Sahib o barədə bir-iki sual da verdi mənə.

Möhübbət dərhal dedi:

— Hə... O günkü qeyli-qaldan mən də xəbərdaram. Deyəsən, qan da düşüb. Zavallı Fatma qarının ölümünə o, ifritə bais olub. İnsanlar niyə belə olurlar?

Bacım:

— Necə?

Möhübbət:

— Daş ürəkli... Qudurğan...

Sahib yatağında çevrildi. Bacım ehtiyatla ona yaxınlaşıb alnında, boyun-boğazında muncuqlanan xırda tər dənələrini silməyə başladı. Biz bütün gecəni səhərə qədər yatmayıb Sahibin keşiyini çəkdik.

Səhərə yaxın Sahib balıncdan başını qaldırdı. Evin tavanına, divarlarına diqqətlə baxdı. Sonra gözləri növbəylə bizim üstümüzə dikəldi. Birdən ağlamsına-ağlamsına yalvarmağa başladı: — Məni burdan qovmayın. Mən anamla atalığımla birlikdə yaşamaq istəmirəm. Mən onların üzlərinə baxmaqdan qorxuram. Məni onlara versəniz, özümü öldürəcəm, qarnıma bıçaq soxacam, damarlarımı kəsəcəm, onların yaşadıqları evləri də yandıracam. Siz onları yaxşı tanımırsız. Anam atamı evdən qovub başqa kişini evimizə gətirdi. Məni də aldadır ki, guya atam ölüb...





Oğlan hönkürtüylə ağlayır, mənimsə köksüm az qala yırtılıb dağılırdı. Yeznəm özünü ələ alsa da, bacım özünü saxlayammadı. O da hönkürdü. Mən dedim:

— Qorxma, Sahib. Mən səni heç kimə verməyəcəm. Sən burda, mənim yanımda qalacaqsan. Birlikdə yaşıyacağıq. Sən xoşbəxt olacaqsan. Sən bizim balamızsan...

Bacım Sahibin əllərini, saçlarını tumarlayır, eynən mən deyənləri təkrarlayırdı. Birdən Sahib ayaq üstə qalxıb qıçlarımı qucaqladı. Əlimi əlinə alıb üzünə sürtərək sözünə davam elədi:

— Qurban olum, mənə yazığınız gəlsin. Özümü öldürməyə qoymayın. Mən sizə kömək eləyəcəm. Bircə sözünüzdən çıxmayacam. Sizdən heç nə, paltar da, ayaqqabı da istəməyəcəm. Sözünüzə baxacam. Evinizi təmizləyəcəm. Qab-qaşıqları yuyacam...

Mən qəhərləndiyimdən danışa bilmədim. Möhübbət kövrəldi və handan-hana dedi:

— Yaxşı, yaxşı, oğlum, sənə soyuq olar. Tərləmisən, yat. Aran səni heç kimə verməyəcək. O, səni çox istəyir. Elə mən də. Zinyət bibin də.

Qəribəydi. Neçə vaxtda birlikdə olduğum müddətdə mən onu duymamışdım. Sahibdə dəhşətli, ağlagəlməz hal baş vermişdi. O, insanlara inam hissini itirmişdi. Ona kim nə deyirdisə, "Yalan demirsən?" sualını verirdi. Mən onu qucaqladım. Bağrıma basdım. Özümü ona yaxınlaşdırırdım, hər vəchlə ondan qayğımı əsirgəməyəcəyimə, yalançı olmadığımıza inandırmağa çalışırdım.

Sahib nə fikirləşdisə, qayıdıb yatağına uzandı. Bacım onun böyür-başını basdırdı. Çox çəkmədi ki, Sahibin göz qapaqları örtüldü. Mışıltısı eşidilməyə başladı. Bacım əllərini yuxarı qaldırıb Allahdan ona imdad dilədi:

— Xudaya, uşağa rəhmin gəlsin. Günahsızdı. Ümidlərini itirmiş uşaqdı.

Bacım mənə haqq qazandırmasa da, indi Sahibi evə gətirməyimə etiraz da eləmirdi. Bunu anlayan Möhübbət dedi:

— Aran, canın üçün, səni bu uşağa Allahın özü urcah eləyib. Qayın, əsl behiştlik sənsən. Sənə Həccə-zada xərc çəkib getməyə ehtiyac yoxdu.

Bacım gözlərimin içinə məmnunluqla baxdı. Mən dedim:

— Sahibin nələr danışdığını eşitdiniz də. Bu, dəhşətdi. Onun doğmaları hər şeylərini itiriblər, hətta, özlərini də. Onlar valideyn yox, doğmalar yox, bütöv cəmiyyətə ziyanxordular. İnsanlığın dayaqlarını laxladandılar. Əxlaq, mənəviyyat deyilən şeylərə tüpürüblər...

Deyəsən, yuxusuzluq bacıma təsir eləyirdi. Olduqca yorğun və halsız görünən Zinyət astadan bildirdi:

— Aran, sən kişi xeylağısan. Bəlkə də uşaqla davranmağın incə cəhətlərini bilmirsən. Sahiblə addımlamağın yeganə yolu xoşa-xoşluqdu, səmimi və mehriban rəftardı. Belə uşaqlar söz götürməyən, inadcıl olurlar. Heç nədən qorxub-çəkinmirlər. Dilini saxlayanmayan, tez inciyən, məğrur uşaqdı. Doğmalarına qarşı bu qədər aqressiv olan uşaqdan nə desən çıxar. Özünə xətər yetirər. Ancaq gözləri çox aydın və təmizdi. Danışanda onun sözlərindəki qətiyyətə fikir verdinizmi? Mən onun gözlərinə kirimişcə baxdım, od püskürürdü.

Bacımın sözlərini təsdiqlədim və bəzi müşahidələrimi də ifadə elədim:

— Düz deyirsiz. O, ürəyindəki sirləri heç kəsə açıb demir, indi hərarəti onu çaşdırıb. O, nə danışdıqlarını bilmir, çox şeyi





açıb tökdü. Məncə, gələcəkdə onun sirləri, ancaq özünə məxsus olacaq. Onun doğmaları əllərindən verdikləri səadətlərinə indi o qədər də əhəmiyyət vermirlər. Zaman gələcək, yetməyən arzularına çox yanıb-yaxılacaqlar. Onların hər birini zəif, iradəsiz, aldanılmış bir varlıq sanıram...

Möhübbət əlini dizinə vuraraq:

— Hər cür qatil var. Görən, belənçikləri insan saymaq olarmı?

Bacım qalxıb pəncərənin pərdəsini kənara sıyırdı. Sökülməkdə olan dan yerindən təzəcə çıxan günəşin çəhrayı, parlaq saçaqları pəncərə şüşələrini deşib döşəmənin üstünə səpələnirdi ki, qapı döyüldü. Gələn həkimiydi. Salamlaşıb uşağın çarpayısına yaxınlaşdı. Hərarətini, ürək döyüntülərini ölçdü:

— Yaxşıdı, qoyun, yatıb dincəlsin. Yuxusunu alsa, yaxşı olacaq. Bu gecəni yatmamışam. Xəstə çoxdu. Gedim, lazım olsam, telefon açarsız.

Həkim xudahafizləşib getdi. Mən bacımla yeznəmi də yola salıb divanda mürgüləməyə başladım.

## İncitmə, qızcığazı

Xəstəlikdən iki gün keçməsinə baxmayaraq, halsızlığın əlamətlərini hələ də hiss eləyən Sahib dedi:

— Bəlkə çıxaq parkda bir az gəzək? Təmiz hava almaq istəyirəm.

Uşağın təklifi ürəyimcə olsa da, onu da düşündüm ki, bəlkə tezdi. O, yatıb bir qədər də dincəlsə, yaxşıdı. Mən dərhal dedim:

— Oğlum, bəlkə bir az da yatıb dincələsən? Üz-gözündən yorğunluq hiss olunur. Xəstəlik yenidən baş qaldıra bilər.

Sahib daha mənim sözümü çevirmədi. Mən təklifimdən məmnun qaldım. Səhər aldığım meyvələrdən yuyub yanındakı

stolun üstünə qoydum. Elə bu vaxt qapı döyüldü. Qapını açanda gözlərimə inanmadım. İyirmi ildən artıq bizimlə bir həyətdə yaşayan, bircə dəfə qapımızı döyməyən Əfruz indi bizə təşrif buyururdu. Doğrusu, onun gəlişi gözlənilməz olduğundan məni mütəəssir elədi. Deyəsən, bunu o da duydu, ancaq üzümə vurmadı. O, gülümsünərək salam verib dedi:

— Qonağı qapı ağzında saxlamazlar, Aran.

— Qapı ağzında niyə, gəlmisiz, buyurun.

Mən qapı ağzından yana çəkildim. O, bu evə çoxdan gəlib-gedən, halıma-xislətimə yaxşı bələd olan bir şəxs kimi içəri keçib stullardan birində ərköyüncəsinə əyləşdi. Mənzili diqqətlə nəzərdən keçirtdi. Mən ona fikir vermirmiş kimi özümü apardım. Mətbəxə keçib bir stəkan çay gətirmək istəyirdim ki, Əfruz dilləndi:

— Eşitdim, sənin də götürdüyün uşaq xəstələnib. Üstünə həkim çağırmısan. Həkimlə həyətdə qarşılaşdıq. Elə olanda qonşulara xəbər eləyərlər, bəlkə köməyimiz dəydi.

Bunu eşidən Sahib yataqda çevrilərək üzünü divara tutdu. Mən Əfruza təşəkkürümü bildirim. Onun üzündə əvvəl xoşhallıq yaransa da, çox çəkmədi ki, sifətində acıq-inciklikdən doğan sərt ifadə yarandı:

— Qonşu, mən bura həyətdəki qırğının axşamı gələcəkdim. Düşündüm ki, acıqlı başda ağıl olmaz. Birini mən deyərəm, birini sən, aləm qarışar, yüz cür həngamə qopar.

— Gələydin, mənim evimin qapısı bütün qonşuların üzünə açıqdı. İndi də xoş gəlmisən.

— Aran, bu "xoş gəlmisən"in tonu mənə çox şey deyir. Uşaq döörəm, mənim az yaşım yoxdu. Qonşu, sən kişi xeylağısan. Əvvəla, istəyirəm biləsən, arvad işinə qarışmaq kişiyə yaraşmaz. İkincisi də, İlahənin bütün hüquqi məndədi. Özüm bilərəm ona neyləyərəm. O gün sən nə basıb bağlayırdın? Nə çırmanıb düşmüşdün ortaya? Səni kim qızışdırmışdı? İstəyirəm, bunları





mənə yerli-yataqlı deyəsən, mən də dostumu-düşmənimi tanıyım.

— Deməli, səni bura Sahibin xəstələnməsi yox, dava-dalaş ehtirası gətirib. Lap yaxşı. Öyrənmək istəyirsən, deyim. Mənim də öz ağlım var. Ağlım yetərincədi. Mən hər şeyi çox yaxşı götür-qoy eləyirəm. İlahəyə qəyyumluq hüququnu sənə veriblər, xanım, yaşamaq hüququnu yox. Heç kimin kimsənin yaşamaq hüququnu ayaqlamaq ixtiyarı yoxdu. Onda qalmışdakı gücsüz, kimsəsiz, cılız İlahənin. İşlətdiyin "basıb bağlamaq", "çarmanmaq" qadın sözü deyil. Ədəb-ərkan hamıya məxsus keyfiyyətdi.

— Mən suallarıma cavab almağa gəlmişəm.

— Onda qulaq as. Əvvəla, mən arvad işinə qarışmamışam. Bəli, kişiyəm. İkincisi, sən insanlığını itirmisən. Xəstəsən. Müalicəyə ehtiyaclısan. Özünü həkimə göstər, xanım. Təkrar eləyirəm, sən İlahəni qəyyumluğa götürmüsən, ona zülm eləməyə yox. Hüquqdan başı çıxan da danışır, çıxmayan da. Yazıq qızcığazın başında qoz sındırma. Aç qulağını eşit, ona biz qonşular daha imkan verməyəcəyik. Üçüncüsü, sənin düzəltdiyin mərəkədə mən basıb bağlamamışam. Həqiqəti demişəm. Dediklərimi indi də təsdiq eləyirəm. Sabah da təkrar eləyəcəm... İndi mən səndən soruşuram: Deyirsən, çırmanıb ortaya düşmüşəm... O, nə ifadədi. Məni kim qızışdıra bilər? Heç kim... Məni təbdən çıxaran, sənə cavab verməyə vadar eləyən, sənin yöndəmsiz, ədəb-ərkandan uzaq hərəkətlərin oldu. Qaldı dost-düşmənini tanımana. Hə... O sözünün mən də tərəfdarıyam. Onu mütləq öyrən. Öyrənsən, biləcəksən: dostun, düşmənin özünsən, yoxsa başqası...

Həyətə gətirdiyin qoçularla, yolunu azmışlarla qonşuları üzüzə qoymağın, qan tökməyin sənin kimliyinə açıq-aydın dəlalət eləyir.

— A kişi, sənə nə pislik eləmişəm? Sənin özünə ağıl verən lazımdı. Başqasına niyə sataşırsan?

— Ağıllı ol, Əfruz. Adamlara hədə-qorxu gəlməklə, söyüş-qışqırıqla heç nə əldə eləyəmməzsən. Heç kimin də dilini kəsəmməzsən. Belə getsə, neçə vaxta zəhmətini çəkdiyin, əzablarına dözdüyün İlahəni itirəcəksən. Mən onu istəmirəm. Sən itirdiyini qaytaranmayanda yanıb-yaxılacaqsan. Onda bu əcaib hərəkətlərin sənə daha vahiməli görünəcək... Dəyyus Rəcəbdən soruşdunmu ki, sənin dediyin "şalvarın" ifadəsi nəydi? Mən sənin şalvarına ehtiyaclıyam? Bəlkə şalvar almağa mənim pulum yoxdu? Bəlkə onun diliylə dedizdirirsən ki, mənim qeyrətim yoxdu? Yox, xanım elə düşünürsənsə, yenə də ciddi səhv eləyirsən.

— Mən nə elədiyimi bilirəm, Aran. Rəcəbin dediklərinin mənə dəxli yoxdu. Onun cavabını özün ver. Bura gəlməmişəm ki, mənə ağıl dərsi verəsən. Siz qonşular mənə qarşı çevrilmisiz. Sizə ağırlıq gətirirəm?

— Niyə?

— Gözünüz götürmür, məni. Zeynəb qarı yaxşı deyib: "Qonşu-qonşu olsa, kor qız ərə gedər". Paxıllığın da həddi var. Düşünürsüz, mən burdan çıxıb gedəcəm? Yox... Yanılırsız, Aran. Mən sizinlə burda gor qonşusu olacam.

— Xanım, axı sənin bu qonşulardan nəyin artıqdı? Ayın o başı da, bu başı da xaricdə olmağın? Cır-cındır satmağın? Arada bir gözlərini aç qonşularına da bax. Aralarında həkimləri, müəllimləri, hüquq işçiləri, alimləri... Yenə deyim? Sən kimsən? Adam bir az ciddi olar. Oturuşunda, duruşunda məsuliyyət hiss eləyər. Yoxsa, Zeynəb qarının sözü olmasın: "Dədəm mənə kor dedi, gəlib gedəni vur dedi?".

Əfruz birdən-birə özünü saxlayanmayıb hönkür-hönkür ağlamağa başladı. Onun ağlaması mənə qəribə və gülməli göründü. Səsimə azacıq ara verib sözümə davam elədim:

— Sakit ol, xanım. Sən əsəbisən. Qonşular sənin hərəkətlərindən cana doyub. Bu qədər adam dəli ola bilməz. Məndən incimə. Bəzən sənin başın çevrilir, nə danışdığını bilirsən, nə də hərəkətlərini. Bəli, necə var, elə də deyirəm. Yazıq qızcığazı nə qədər ağladıb-sızlatmaq olar? Vurduğunuz zərbələr birdən onun süvər yerindən tutdu. O, öldü. İndi sual verirəm: onda səni cinayətə özün sürükləmiş olacaqsan, yoxsa qonşular? Sən çox riyakarsan. Sənin riyakarlığının çox şahidiyəm. Görüb-eşitdiklərimi çox götür-qoy eləmişəm. Anladım ki, özün də, əməllərin də qondarmadı. Danışdıqların yalandı. Adamların mənəviyyatına təhqirdi. Əməllərin nalayiq, məzhəkədi. Sən bu hərəkətlərinlə öz əl-ayağını kəsirsən.





— Aran, mən bura gəlmədim ki, sən məni bu qədər abırdan alasan. Sən mənə qarşı nə qədər aqressivsənmiş? Mənim ləyaqətimi alçaltdın. Heysiyyətimə toxundun. Qonşuların o günkü münasibəti açıq-açığına İlahəni mənə qarşı çevirməkiydi. Axı, hamınız kimsiz? Riyakar, ikiüzlü deyilsiz? O hisslər, o hərəkətlər hamıda var. Tək məndə yox.

— Düz demirsən. Sən İlahəni, təkrar eləyirəm, özünə qarşı çevirirsən. Ona özün müqəssirsən, qonşular yox. O, qızı bu gün itirib, sabah tapammayacaqsan. Ola bilsin ki, doğma övladların bu gün səni anlamasınlar. Sabah səni başa düşəndə onlar da sənə nifrət eləyəcəklər. Onda sənin taleyin müəmmalı olacaq. Yadında saxla, o müəmmanın səbəbkarı özünsən. Həyat məsuliyyətini itirib ondan üz döndərənləri cəzalandırır. İstəməzdim ki, o əcaib cəzaya sən mübtəla olasan.

Əfruz yumruğunu stola vurub qışqırdı:

— Sən də, qonşular da özünüzə məxsus olmayan məsələlərə girişirsiz. El arasında buna deyərlər: "Başın girməyən yerə bədənini soxma".

Səs-küydən bezən, rahatlığı əlindən alınan xəstə Sahib qalxıb yorğana bürüncəkli halda çarpayının ortasındaca oturdu. Səssiz-səmirsiz Əfruza baxdı. Daxilən nə qədər əsəbiləşsə də, üzdən özünü çox sakit apardı. Mənə elə gəldi ki, İlahə barədə

deyilənləri və mənim Əfruza ünvanladığım sözlərimi eşidərkən o, həm zavallı qızcığazın halına, həm də öz dərdi-sərinə için-için ağlayırdı. Mən astadan, təmkinlə: — Əfruz, — dedim — Biz elə anarxist, cahil bir cəmiyyətdə yaşayırıq ki, ətrafımızda nələr baş verdiyinə diqqət yetirməyə ehtiyac duymuruq. İnsanlar bir-birini yeyir, didir, dağıdırlar... Çoxları doğmaları barədə düşünmək belə istəmirlər. Birimizin dedikləri, digərimizin boğazından keçmir. Hər şeydə özümüzü axtarırıq. Özümüzü düşünürük. Şübhələr, inamsızlıq bizi haldan salır və qorxular, vahimələr içərisində yaşadır... İnsanların bax beləcə, saxta mehribançılığı, yalançı alicənablığı özlərini üzür. “Nə tökərsən aşına, o da çıxar qaşığına”. Mənə deyə bilərsən, “Özünü yuyub yarpız üstə qoyma. Sən də mələk deyilsən”. İnan mənə, mən təbii adamam, saxtarkarlıqdan çox qorxuram...

Əfruz acıqlı-acıqlı üzümə baxdı. Ovqatı həddən artıq təlxiydi. Bir qədər özünə gəlib acı-acı gülümsündü:

— Özün düşündüyün qədər də mötəbər adam deyilsən, Aran. Kəskin sözlərin var. Mənə elə gəlir ki, danışdığın kimi deyilsən. Sənin bu danışdıqların özünü qonşulara mələk kimi tanıtmağa xidmət eləməyə hesablanıb. Sən Sahibi evinə gətirməsəydin, inanıram, mənim barəmdə elə danışmazdın. Tələsmə, vaxt gələr, sənə sözümü deyərəm. Aç qulağını eşit. Mən bundan sonra xarakterimi dəyişəmmərəm. Xəmirim belə yoğrulub.

— Biz neçə vaxtdı bir həyətdə yaşayırıq. Gərək mənim kimliyimi indiyəcən tanıyaydın. Neçə dəfələrlə həyətdə söz-söhbətə oturmuşuq. Bir-birimizə salam vermədiyimiz vaxtlarımız da olub. Bunlar öz yerində. Qəti şəkildə deyirəm, bundan sonra Sahibin adını çəksən, onu qalmaqallarda hallandırsan, sənə güzəştə getməyəcəm. Görürəm, getdikcə azğınlaşırsan.

Əfruz tutuldu. Əvvəl düşündüklərinin əksinə olaraq bildirdi:

— Mən bura qal kəsməyə gəlmişdim. İstərdim sənə çatdırım: Gəl bir-birimizin işinə qarışmayaq. Atışmanı kəsək. Barışıq eləyək.





— O zaman sən deyənlər mümkün olar ki, İlahəylə doğma övladın kimi dolanasan. Onu incitməyəsən. Yoxsa zurnanın səsi daha gur çıxacaq.

Bu söhbətdən sonra Əfruz qapını vurub acıqlı-acıqlı getdi. Sahib astadan dedi:

— Əfruz, anamdan da betərmiş...

## Göynərti

Axşam yaxşı yatammadığımdanmı, nədənmi səhər qədərsiz əsəbiydim. Necə oldusa, səbəbini özüm də bilmədən dünən səhər gəzintisində gördüyüm bir mənzərə gəlib gözlərimin önündə canlandı. Yanında balaca, tüklü it gəzdirən qırx yaşı olar-olmaz qadın skamyada oturdu. İt də onun həndəvərində gəzişirdi. Gözlənilmədən it qıçını qaldırıb qızıl gül kolunun dibinə siydi. İşini qurtarmışdı ki, qadın onu səslədi:

— Gəl, gülüm, gəl. Acsan, gəl anan səni yedirib içirsin.

İt elə bil qadının səsini eşitmədi. Öz işindəydi. Qadın yenidən iti səslədi:

— Gəl, canım, gəl. Səndən küsərəm ha.

Bunu eşidən it şıltaq uşaqlar təki qadının yanına qaçdı. “Anasının” qucağına atıldı. Qadın onu qucaqladı, dalını-başını sığallayıb tüklərini tumarlayaraq üzündən öpdü. Heyrətləndim. Hədsiz hiddət, ağır kədər məni bürüdü. Bunu kiməsə danışmaq üçün bəhanə axtarırdım. Elə bil nəsə içimi gəmirirdi. Mən düşündüm: Bu nə cəmiyyətdi?! Bu nə insanlıqdı, Xudaya? Bir tərəfdə iti doğma balası, ciyərparası sanan “ana” (əgər ona ana demək mümkünsə), digər tərəfdə çılğın ehtiraslarını söndürmək və həmçinin yaşam zamanında özünü əziyyətə salmamaq xatirinə öz doğma balasını küçələrə atan iblis. Qəribədi, o, harda, necə

yaşamasının fərqinə də varmır. Üçüncüsü, kiməsə acıq eləyib övladından imtina eləyir, onu pişik balası kimi zibilliklərə tullayır. Dördüncüsü, evində it, pişik, meymun saxlayır, hər gün əzizləyə-əzizləyə onu çimizdirir, qucağına alır, həkimə aparır, dərman-dava elətdirir. Sağlamlığı qeydinə qalır. Bunları deməklə mən heyvanlara qulluğun əleyhinə deyiləm. Ancaq bəzi məxluqların dünyaya gətirdikləri övladlarına əcaib münasibətləri məni yandırıb-yaxır. Buna nə ad vermək olar?! Biz bu ağılla hara gedirik? Allah! Allah! Görən, doğma balasını hər cür məhrumiyyətlərə düçar eləyən məxluq anadırmı? Qadındırmı?! İnsandırmı?!. Belələri atdıqları uşaqlarının yerinə özlərini qoysaydılar nə olardı? Gücsüz körpələrinin, zəlil elədikləri uşaqlarının nələrlə qarşılaşacaqlarını ağıllarına gətirirlərmi? İnanmıram. Belələrində insanlıq hissi, duyğusu, görən varmı?! Təkrar eləyirəm. İti də, pişiyi də, lap tülkünü, çaqqalı, canavarı da sevək, onlara da qayğı göstərək. Ancaq bir şeyi başa düşə bilmirəm. Heyvanat aləminə humanizm göstərən insanın öz doğmasına qənim kəsilməsinə necə haqq qazandırmaq olar?! Hardan doğdu bizdə bu nadan xilqət, İlahi?! Ata-babadanmı?! Yox! Müasir insanın günü-gündən təkmilləşən, inkişaf eləyən idrakındanmı?! Yox!.. İçərisində yaşadığımız cəmiyyətin əxlaqi-mənəvi dəyərlərinə təpik atıb heyvanat aləminə meyillənməyimizdənmi? Bax, onu bilmirəm. Özünü müasir sanan tək-tək insanların idrakının ziyası bəyəm budurmu?! Məgər bu bir itə “ananam”, “canım”, “gülüm” deyən qadının doğma övladına xor baxması, itlə balasını eyniləşdirməsi deyilmi? Belə bir nacins, əxlaqsızlar mühitində yaşamağa dəyərmi?! Adamın ölməkdən savayı çarəsi olarmı?! Dəhşət! Kimə nə deyəsən? Çox təəssüf ki, bu uşaqlara münasibət necəsə, bəzi valideynlərə münasibətdə də çox zaman onu görürük. Heyf!.. Fikirləşdikcə, dəhşət məni boğur. Mən qalxıb həyətə düşdüm. Sərin axan külək üzümü, boyun-boğazımı yaladıqca halımda yüngüllük duydum. Nə eləyəcəyimi bilmirdim...





Elə bu vaxt bacımla qarşılaşdım. Əslində, mən bacımı hər gün gözləyirdim. Onunla görüşürdüm. Zinyətin gəlişi mənim əvvəlki ağır, sarsıdıcı düşüncələrimi pərən-pərən elədi. Ancaq onu da duydum ki, bacımın gözlərində ümidsizlik, canında hardasa sıxıntı var. Elə bil o, nədənsə, kimdənsə qorxurdu, çəkinirdi. Açığını deyim ki, onu heç vaxt bu qədər sarsılan görməmişdim. Məni narahatlıq hissi bürüdü. O, narahatlığımı, hardasa həyəcanlandığımı duycaq birdən-birə soruşdu:

— Sənə nə olub? Nədən həyəcanlanırsan?

Bacım üzümə baxanda mən də onun içindəki heyrəti, qorxunu açıq-açığına gözlərindən oxudum. Mən onun sıxıntılarını duymaya bilməzdim. Astadan dedim: — Sənə etinasızlıq göstərsəm, sənin tanıdığın və tanımadığın adamlardan mən də seçilmərəm ki, bacı?

O, gülümsündü, əlimi ustufca əlinə aldı. Bir balaca sıxdı və yenə gözlərimin içinə baxdı. Kirpikləri islanmışdı. Sonra da dolan gözlərini yana çevirdi.

— Sahib evdədimi?

— Hə... Yatıb.

— Onda çıxaq küçəyə. İstəmirəm, bizim danışdıqlarımızı o eşitsin.

Mən bir qədər təəccübləndim. Küçəyə çıxdıq. Küçənin kəsişdiyi yerdə — köhnə üçmərtəbəli uşaq bağçası binasının tinində ayaq saxladıq. Bacım dedi:

— Qardaş, sən bəzən həqiqətlə həqiqətə bənzər şeyləri qarışdırırsan. Ona görə ürəyi açıqlıq eləyirsən. Nəticədə təsəvvürlərində yanılırsan. Ehtimalların düz çıxmır.

Məndə qorxu, kədər, həyəcan yox oldu. Zinyət susdu. İti, nüfuzedici baxışları mənə dikildi. O, udqundu. Mənə elə gəldi ki, bacım ciddi sarsıntı keçirir. O, içindəki gizli kədəri büruzə verməməyə çalışsa da, onun ürək parçalayan baxışları təhlükəyə məruz qalan zəif dovşan təki, qəflətən ələ keçən quş kimi titrə-

məsi mənə çox şeydən xəbər verirdi. Özümü qəsdən etinasız göstərərək mızıltılı səslə soruşdum:

— Sözünü de, çəkinmə, bacı?

— Eh... Ürəyimdə səninlə bağlı çox şey var.

— Özünün dərd-sərin azdımı? Yoxsa mənim ürəyimdə yığılan tonlarla dərdə də güc vurmaq niyyətindəsən?

Bacım yenə susdu. Bir gilə yaş yanaqlarına süzüldü. Hərdənbir keçmiş həyatımın yaddaşıma həkk olan xırda təəssüratları tül arxasından boylanan bir tərzdə gözlərim önünə gəlirdi. Hər dəfə də istər-istəməz məndə qəribə hisslər oyadırdı. Axır ki, bacım dözməyib mücrüsünü mənə açmağa başladı.

— Qardaş, mənə axşam da, bu səhər də kimsə zəng çaldı. Səsi cavan adamınıydı. Dedi, Aran başqasının uşağına sahib olmağa cəhd göstərir. Özündən hoqqa düzəltməsin. Uşağı ata-anasından eləməyə çalışmasın. Onu bəlaya sala bilərik.

Mən tutuldum. Bir an fikrə getdim. Bacım əlavə elədi:

— Bəs deyirdin, Sahibin valideynləriylə söhbətə oturmuşam? Onlar oğlandan imtina eləyiblər?

— Bacım, sənə nə demişəmsə, hamısını düz demişəm. Bu, Əfruzun quramasıdı. Əmin ol, sənə zəng çalan da onun dostlarındandı. Narahat olma.

— Yox... Necə narahat olmayım? Deyir, onu yolda gedəndə qumbarayla məhv eləyərik.

Mən güldüm:

— Bıçaqla, tüfənglə, tapançayla yox, qumbarayla?..

Mən daha özümü saxlayammayıb qəhqəhə çəkdim.

— Qorxma. O qumbaranın barıtı yaşdı. Barıtı yaş olan qumbara partlamır.

— Mən zarafat eləmirəm, Aran.

— Mən də, bacı. Bu şarlatanların, məhdud düşüncəli ağzıbaşına danışanların sayıqlamasıdı. Əfruz nə elədiyini bilmir. Acıqgicik çıxır. Lazım gəlsə, özüm cavablarını verəcəm. Sən get, uşaqlarınla məşğul ol.





Mən Əfruzla həmin gün bu barədə çox ciddi danışmaq istədim. İçimdə onu sözlə zəhərləmək, məzəmmət eləmək üçün hazırlıq da apardım. Ancaq o, evdə olmadığından danışanmadım. — Yaxşı ki, evdə olmadın, acıqlı başda ağıl olmaz — deyib evə getdim. Üç gündən sonra məsələyə qayıtmalı oldum. Bazar günüydü. Qonşular yığışıb həyətdə oturmuşdular. Əfruz məni görcək barıt kimi atıldı.

— Ayə, ay əbləh, söz oldu, qurtardı da. O gün də sənə barışıq elan elədim. O nə hərəkətdi, gündə mənə hədə zəngləri çaldırırsan? Sənin başına bir oyun açaram, hardan gəlib, hara getdiyini bilməzsən.

Qonşular Əfruzun mənə gözlənilməz hücumundan çaş-baş qaldılar. Mən içimi açıb tökməyə məcbur oldum.

— Əfruz, qara məni basınca, mən qaranı basım eləmə. Zeynəb qarı demişkən: "Dinmirəm, sənə ağac bulamıram, ayağın yer almasın". İndi ki söhbəti özün açdın, qoy qonşular da eşitsin. Zəngi kim kimə və kimlərə çaldırır? Məni qabaqlayıb papaq təpməyə salanmazsan. Günahsız adamları şərləmə. Dostlarına da de, bacıma zəng çaldırmalarını yığışdırsınlar. Mən səninlə qarşılaşmaq istəmirəm. İnsanda azacıq da olsa, nəciblik, alicənablıq olar. O, mənə atdıracağın nə qumbaradı, aaz?

Qonşu yaşlı kişi Razi dedi:

— Bir çox kişilər ürəklərini umu-küsüylə, digərləri söyüşlərlə, üçüncülər dava-dalaşla boşaltmağa çalışırlar. Sonra da dolmuş şar kimi boşalırlar. Bununla da onların xəta-günləri sovuşur. Dincəlib yerlərində otururlar. Qadınlarsa, bir az da qabağa gedirlər. Kişilərin elədiklərinin — təhqir, söyüş, dava-dalaşın hamısından birdən istifadə eləyirlər. Düşmən sandıqları adamlara qəflətən aramsız nifrət atəşi açırlar. Narahat olma, kimin necə adam olduğunu qonşular yaxşı bilirlər, Aran.

Əfruzla qonşuların münasibəti davamsızıydı. Bunun da səbə-

bi bu qadının hərdəmxəyal olmasındaydı. O, bəzən qonşularla çox yaxşı dolanır, gülüb-danışırdı. Ürəyindəkiləri yerli-yataqlı onlara açırdı. Heç kəslə sözə gəlmək istəmirdi. Bəzən də birdən-birə adamlardan uzaqlaşırdı. Heç kimi tanımaq belə istəmirdi. Çox zaman onun mehribanlığıyla nifrəti, səmimiyyətiylə kobudluğu, şənliyiylə qəmginliyi, sevinciylə kədəri, nəvazişli baxışlarıyla həqarətli nəzərləri... bir-birinə qarışırdı. Bilinmirdi ki, bunlardan hansı müvəqqətidi. Açığı, bu halların bir-birinə keçməsini müəyyən eləmək olmurdu. Qəhqəhə və gülüşləri gözlənilmədən göz yaşlarıyla əvəzlənirdi. Yaxud əksinə. Mən Razi kişiyə üzümü tutdum:

— Əgər bir adam ağlı və davranışlarıyla özünə nüfuz qazanmağa çalışırsa, hamının sevimlisinə çevrilməyi bacarırsa, o hər cür izzətə layiqdi və hamı da ona hörmət eləməyə borcludu... Yox, onun əksi baş verirsə... Elələri yazıqdılar. Allah onlara mərhəmət eləsin...

## Mənim dəlisov qardaşım

Neçə gün idi ki, özümü yaxşı hiss eləmirdim. Tez-tez hərarətim qalxırdı. Hərdən canımda üşütmə duyurdum. Bəzən mədəm də qarışırdı. Tez-tez ögüyürdüm, ağzıma bir şey alammırdım. Yediklərimi qaytarırdım. Mənim bu halım bacımı çox qorxutduğundan o, üstümə həkim də çağırdı. Həkim hərarətimi salmaq üçün mənə iynə vurdu və iki həbb verib:

— Ciddi bir şey yoxdu — deyib getdi. Günortadan sonra halım yavaş-yavaş düzəlməyə başladı. Təbim çəkməsə də, bacımın təkidiylə özümü yüngülcə yeməyə məcbur elədim, zoğal mürəbbəsiylə çay içdim. Yenidən yorğanı üstümə çəkdim. Az keçmiş bacım gülümsündü:

— Alnında xırda tər danəcikləri görünür, özünü soyuqdan





gözlə, — dedi. Mən də onun sözünü təsdiqlədim və əlavə elədim:

— Səni deyəsən, qorxutdum, bacı, bu tezliyə əzrailə can vermək acizlikdi.

Bacım başını yellədi.

— Eh... Nə olsa, danışırsan. Cavan oğlansan. Sağal, ayağa qalx. Özüm bilərəm, neyləyərəm. Bacın ölsün, yıxılmısan yatağa. Səsinə səs verənin də yoxdu. Özgə gəlib sənəmi baxmalıdı?.. O gün Günəş xala gəlmişdi. Səni gözlədi, gəlib çıxmadın. Dedi, Aranla görüşüm qalsın gələn dəfəyə... Ancaq o ki var mənim abrımı aldı.

— Niyə?

— Necə niyə? Sənə görə. Dedi: yaxşı bacı olsaydın, qardaşının başını çoxdan bəliyərdin. Başın qarışıb özünə, ərinə, uşaqlarına, Aranı unutmusan.

Mən güldüm:

— Düz deyir də.

— Nəyi düz deyir? Bəyəm, sənə azmı yalvarmışam? Sənə də Allah insaf versin. Vaxtında ailə qurmadın, qursaydın, indi böyük uşaqların vardı. Qardaş, sənin övladın yoxdu, onun nə olduğunu bilmərsən. Övlad istəyini, sevgisini təsəvvürünə belə gətirmirsən. Övladsız insan barsız-bəhrəsiz ağac kimidi. Ömrünü yaşayır, qocalır, sonra da ölüb gedir. Ondan heç bir iz-filan qalmır... Övlad insanın ikinci, üçüncü... ömrü deməkdi. Özünü bundan məhrum eləmək...

— Dərdimiz azdı, evin tikilsin? Hər gələndə məni divana çəkirsən. Bir dəfəlik yadında saxla, yaş daha o yaş deyil.

— Sən nə danışırsan?

— Necə nə danışıram? Ailə qurdum, uşağım oldu, beş-üç il yaşadım, sonra da dünyamı dəyişdim, uşaqlarımın taleləri necə olacaq? Başqalarının umudunamı qoyum gedim? Küçələrdəmi yaşasınlar? Cinayətkarmı olsunlar?

— Bıy, sən nə danışırsan, qardaş? Bəyəm bacın ölüb?

— Yox, bacı... Mən səni dünyalar qədər istəyirəm. Sənin də mənə olan istəyini duyuram. Səndən ötrü ölümə də gedərəm. Mənə olan məsləhətlərini də dəyərləndirirəm. Ancaq hər şey gecdi...

— Gec deyil, Aran.

— Bacı, sənin də ailən var, uşağın var.

— Olsun da...

— Yox... İncimə məndən. Kim nə bilir, kim nə qədər yaşayacaq? Çox şey gözümüzün qabağında baş verir. Görürsən səksən-doxsan yaşında heç kimə fayda verməyən — bu cahil də, müdrük də ola bilər — yaşayır, qırx-əlli yaşlı bir alim birdənbirə dünyasını dəyişir. Nə qədər acı olsa da, deyəcəm. — Ölsəm, doğmalarım övladımı himayə eləyəcək ümidiylə dünyaya uşaq gətirmək ağılsızlıqdı, bacı.

— Vay! Vay sən nələr fikirləşirsən? Səninlə danışanda az qalır, başım çatlasın.

— Bacı, görəcəyim işin məsuliyyətini mən bu yaşda hiss eləmirəmsə, yaşamağıma dəyərmi? Mən heyvan kimi ömür sürənmərəm.

Gözləri yaşla dolan bacım üzünü çevirdi. İxtiyarsız halda dodaqları arasından pıçıltı qopdu: — Mənim dəlisov qardaşım. Özü-özünə eləyənə dünya yığıla çarə tapammaz, — deyiblər. Özün bilirsən...

Bacım hönkür-hönkür ağladı. Mənim ona yazığım gəldi.

Araya xeyli sükut çökdü. Elə bil danışmağa sözümüz qəhətə çıxmışdı. Handan-hana bacım soruşdu:

— Bayaqdan gəlmişəm. Sahibi görmürəm...

— Sahibi bazara göndərmişəm. Fikirləşdim, həm şəhəri görüb göylü-könlü açılsın, həm də dükan-bazarla tanış olub alver eləməyi bacarsın.

— O gün geyimi xoşuma gəlmədi. Bir halda ki, onu götürüb





saxlayırsan, geyiminə-keçiminə fikir ver. Bundan sonra onun yaşamı, özünü necə aparması sənin adınla bağlıdı. İnsanlara yaxşı bələdsən. Yaxşını dəyərləndirən az olur. Əksəriyyət adama şəbədə qoşmağa, ağını qoyub qarasını danışmağa öyrəncəlidi. Sahiblə adına layiq davran, görən desin bərəkallah.

Mən güldüm:

— Deyəsən, Sahib barədə fikrini dəyişmisən?

— Neyləmək olar. Zeynəb qarı demişkən: “Ət ki, girdi qazana, oldu yeməli”. Bizimlə yaşayırsa, deməli o da ailəmizin bir üzvüdü. Hə... Yaxşı yadıma düşdü. O gün də Möhübbətlə danışmışıq. Gərək Sahibi nəzarətdən kənarda qoymayasan. Böyük oğlandı. Çox şeyi başa düşən vaxtıdı. Qayğı göstərib onu evində saxlayırsansa, gərək adını-sanını, el arasındakı nüfuzunu nəzərə alasan. Ondan istifadə eləyə bilərlər. Ələlxüsus da mən Əfruzdan qorxuram. Daha məhəllənizdəki ifritə Əfruz kimi yox. O küpəgirən qarılardan da betərdi. Uşağı ələ alar, evinə aparıb yeməyinə bir şey qatar, faciə yaradar, əzabından qurtaranmazsan. Yaxud küçədə nə çox pozğun gədə-güdə. Onlara bir şey boyun alar, Sahibə xətər yetirər. Xəcalətindən heç kimin üzünə baxanmarıq.

O gün Möhübbətlə sənin üstünə çox getdik. Sənsə inad göstərdin. Onu bilirsənmi ki, qayğısına qalıb uşağı böyütməkdən çox, onu nadürüst insanlardan qorumaq gərəkdi.

— Ay sənin, bacı. Yatdığım yerdə məni lap dəli elədin. Yəni Əfruz sən deyənlərə cəsarət eləyə bilər?

— İnsan ağlına nə gəlsə, arxasını sonalamadan onu da eləyir, sonra nəticəsi barədə düşünür. Onda da gec olur. Atalar necə deyiblər: “Ehtiyatlı oğulun anası ağlamaz”.

— Qız uşağı evdə olur. Hara getdiyini, hardan gəldiyini, başına hansı hava gəldiyini, vaxtında ağıllı ana hiss eləyir... Ehtiyac duyduqda başına ağıl qoyur. Oğlan uşağı sərbəstlik sevir. Ətrafındakılarla tez qaynayıb-qarışmağa çalışır. Əhatəsidəkilər

zay olanda tələyə də tez düşür... Darıxanda de gəlsin bizə. Uşaqlarla oynasın, başı qarışsın. Ucuz, yüngül şeylər barədə düşünməyə vaxtı olmasın.

— Sağ ol, bacı... Hərdən düşünürəm, sənsiz mən neylərdim? Atalar deyib: "Balığı at dəryaya, balıq da bilməsə, xaliq bilir..." Sahibə az müddətdə çox öyrənmişəm. O, evdə olmayanda, səsini eşitməyəndə çox darıxıram. Bax, öz istəyimlə onu dükan-bazara göndərmişəm, indi də yataqda uzanıb onun üçün darıxıram.

— Mən Sahibə xəta yetirilə biləcəyindən çox qorxuram. lap çox, mənim dəlisov qardaşım .

— Qorxma, mənim ağıllı bacım.

## İnilti

Mən çox həssas və kövrək adamam. Adi qəlb sızladan sözdən ağlaya da bilərəm. Xüsusiylə uşaqların acı taleyinə, onların çəkdikləri əzab-əziyyətlərə, göz yaşlarına dözəmmirəm. Onlara zülm eləyən, işgəncə verən böyüklərlə vuruşa da bilərəm. Yaxşıdı-pisdi deyəmmərəm. Dözümsüzlük bəlkə də mənim xarakterimin zəifliyindəndi. Birdəki axı biz insanıq. Hər şeyin həddi-hüdudu var. Ölçüsüz-biçimsiz hərəkət, sonalanmamış acıqlı-gicikli söz-söhbət kimsəyə hörmət, nüfuz gətirməz. Qəribəydi, xarakterimdə olan cizgilərdən bəziləri az müddətdə elə bil Sahibə də sirayət eləyib. Atalar yaxşı deyib: "Atı atın yanına bağlarsan, ya halın götürər, ya huyun". Düşünürəm, az müddət ərzində mənim xasiyyətimi Sahib belə əxz eləyə bilərdimi? İnanmıram. Görünür, onda da anadan gəlmə insanların halına acıma, sevinclərinə, kədərlərinə şərik olma hissi varmış. Axı hissi, duyğunu zorla — döyməklə, məsləhətlər verməklə başqalarına ötürmə o qədər də asan deyil. Mənim müşahidələrim gerçəkliyə əsaslanırsa, deməli, Sahib də hardasa, kimlərinsə yükünü daşımağı özünə gec-tez qatlaşdıracaq. O, heç zaman nanəciblik, nadanlıq eləməz. Görünür, Sahibə də bu hisslər kökdən gəlmədi. — Südlə gələn sümüklə çıxar, — deyirlər... Canlı müşahidələrdən doğan qənaətlərim mənə diqtə eləyir ki, Əfruzun İlahəyə zülmü, haqsız yerə zavallı qızcığazı döyüb-söyməələri gecə-gündüz Sahibi didirdi. Görürdüm, o, hər axşam yatağa girəndə, gündüzlər iş-gücüylə məşğul olanda hey İlahəni düşdüyü quyudan necə çıxarması barədə götür-qoylar eləyirdi. Hətta, bəzən özünü unudur, o qızcığaz barədə düşündüklərini özü də bilmədən pıçıldayırdı. Bəzən də açıq-açığına dilinə gətirib ya mənə deyir, ya da məndən nəsə soruşurdu. Ancaq onun dediklərinə mən bir çarə tapa bilmirdim. Düzdü, düşündüklərindən bir çox şeyləri qəlbində gizli saxlayırdı. Mən də çox açıb-ağartmırdım. Bu, mənim də dərdimin üstə bir dərd gətirirdi.





Adi günlərdən biriydi. Sahib necə oldusa, İlahəylə söhbətini mənə açdı:

— Mən yaşadığımız binanın tinində qoyulan skamyada oturmuşdum. İlahəyə Əfruzun zülmüylə bağlı düşünürdüm. Bu vaxt İlahənin çörək mağazasından çıxıb mənə tərəf gəldiyini gördüm. Nədənsə sevindim. Ayağa qalxdım, salamlaşdıq. Sonra da üz-üzə dayandıq. İlahə çoxdan qəlbində gəzdirdiyi sirri mənə açıqladı:

— Sahib, mənə həmişə niyə bir təhər baxırsan?

— Necə?

— Baxışlarından duyuram ki, mənə yazığın gəlir. Mənə elə baxma. Mən yazıq deyiləm. Özünü yazıq kimi aparanlardan da acığım gəlir.

Mən qızın gözlərinin içinə baxdım. İlahə incik halda gözlərini yana çevirmək istəyirdi ki, astadan dedim:

— Yazığı gəlmə nədi? Əfruz səni niyə döyür, söyür? Mən onun söyüşlərinə, səni döymələrinə dözəmmirəm. Bizdə böyük

çörək bıçağı var. Fikirləşmişəm, bir də elə qələt eləsə, bıçağı soxacam Əfruzun qarnına.

İlahənin qorxudan sir-sifəti bozardı:

— Sən nə danışdığını bilirsən? Bıçağı soxarsan anamın qarnına, səni də, Aran əmini də, polis gəlib tutub aparar. Anam da onu bəhanə eləyib məni döyər.

— Sən "ana", "ana" deyirsən. Bəyəm elə "ana" olar? Olarsa, bəs o öz uşaqlarını niyə söyüb-döymür?

— Elə ana olar-olmaz bilmirəm. Sən yaxşı oğlansan, ancaq indi səndən qorxmağa başlayıram. Bir də ki axı sən kimsən? Deməzlər ki, İlahəylə Sahibin nə yaxınlığı?.. Nə alqı-satqısı? Sən xətalı şeylər barədə düşünürsən.

— Yox... Əfruz sənə hörmət eləmir. Sənə ev qulluqçusu kimi baxır. Ev-eşiyi, paltarlarını təmizləyəndə, qab-qacağını yuyanda yaxşı olursan, eləməyə gücün çatmayanda pis? Elə ana olmaz. İlahə, mənim anam da elədi. Mən ondan, atalığımdan qaçdım.

— Sənin də atan, anan...

— Hə... İlahə...

— Onda ikimiz də eyni vəziyyətdəyik ki.

— Yox... Aran əmi mənə yaxşı baxır. Məni incitmir. Məni söyüb-döymür. Mən xəstə olanda Aran əmi başıma dolandı. Üstümə həkim çağırdı. Gecə səhərəcən yatmadı... Məni sağaltmağa çalışdı. Zinyət bibi də ona kömək elədi. Bəs Əfruz niyə sənə elə baxmır.

İlahə fikrə getdi. Sonra yumşaq tərzdə dedi:

— Sahib, mən anamı, atamı tanımıram. Onlarla olsaydım, onlar da məni söyüb-döyməzdilər. Məni əzizləyərdilər.

— Ancaq Əfruz sənə qayğı göstərmir. Balası kimi baxmır. O gün söhbət eləyəndə Aran əmi Zinyət bibiyə dedi: "Rəhimsiz adamlar zalım olurlar. Onların Allahı olmur".

— Mən heç kimdən incimirəm. Güzəşt ummuram. Onların





sözlərinə baxmasaq, bizi atarlar küçəyə. Ac qalarıq. Dolananmarıq, ölərik... Düzdü, yaşıdları görəndə utanıram. Qaçıb-gizlənməyə yer axtarıram... Hamının gözləri bizdədi... Anam məni evdə gözləyir. Gedim... Başqa vaxtı danışarıq...

Mən Sahibə baxıb gülümsündüm. Yaxşıdı-pisdi deyəmmərəm, özümdə məmnunluq hissi duydum və dedim:

— Oğlum, hələ həddi-buluğa çatmamış qızcığaz yaşadığı evin qapısını çəkinə-çəkinə açırsa, süfrəyə utana-utana əl uzadırsa, ağzına qoyduğu tikəni utandığındanmı, ya qorxduğundanmı, udquna-udquna boğazından ötürürsə, çay, su içərkən qurtumunun eşidilməməsinə çalışırsa, o qızın sərbəst gülüb-danışmağa cəsarəti ola bilərmi?! O qızın içinin göynərtisiz, ürəyinin sızıltısız olacağını ağlına gətirirsənmi?! Bəli! O, "çox kinliyəm, acıqlıyam, nifrət eləyirəm" sözlərini Əfruzun gözlərindən, qulaqlarından uzaqda deyə də bilər, özü də çox asanlıqla. Tək sənə yox, lap hamıya. Hətta... Axı o qız kimdən əskikdi? Bütün əzaları yerindədi. Dərrakəsi də həmçinin. Yaşıdlarının şən qəhqəhələrini görəndə inanmıram ki, o, için-için ağlamasın. Belə adam, — xüsusilə belə qızcığaz heç vaxt paxıl, xudbin ola bilməz. Yəqin ki, İlahə də daim fikirləşir: mən niyə qara günlüyəm, yaşıdlarım kimi deyiləm?..

İndi o qızın əvəzindən mən öz-özümə sual verirəm: cılız, cansız bir qızcığazın bu günə düşməsində kimdi günahkar?! O özümü? Yox! Valideynlərimi? Vaxtsız dünyalarını dəyişiblərsə, onlar da yox! Valideynləri hardasa, dava-dalaş salaraq yola getməyib, yaxud qızcığazı nəyinsə xatirinə atıblarsa, bütün günahlar onlarındı!.. Mənə elə gəlir ki, bir günahkar da var. O da bütün hallarda içərisində yaşadığımız, bizi əhatə eləyən cinayətkar cəmiyyətdi. Gərək sən onun sözlərinə təəccüblənməyəsən. İlahədən inciyib küsməyəsən...

— İncimirəm, küsmürəm. Yəqin mən də səhv eləyirəm. Çox şeyi bilmirəm.

— O qız da xoşbəxt olmaq, hamı kimi geyinib-gecinmək istəyir. Hamıdan qayğı görmək, xoş söz eşitmək arzusundadı. O, kiçik qəlbində, oğlum, acı da olsa, özü də bilmədən həqiqət və ədalət axtarır. Bu istək onu vadar eləyir görüb-bildiklərini, həqiqət kimi qəbul elədiklərini nə vaxtsa, kiminsə üzünə çırpsın.

— Əsəbiləşəndə adam özünü itirir. Lap dava da eləyə bilər. Necə ki, o gün qonşular da, elə sən də Əfruzla dava eləyən kimi...

— Doğrudu, mən də, qonşular da ağzımızın acısını o gün birləşib Əfruza tökdük. Fatma qarı da dünyasını heç nədən dəyişdi. Böyük peşmançılıq oldu. Rəcəbin qanı da töküldü. Söhbətin nəylə nəticələnəcəyini bilsəydik, biz də dözərdik.

Qarının ölümünə çox məyus oldum... Heyf ki, gecdi. İndi təəssüflənmək fayda verməz... Atalar deyib: "Daldan atılan daş topuğa dəyər". Ancaq bir də elə səhvə yol verməmək üçün, məncə, o hadisə hamıya dərs oldu...

Bir dəfə də həyətdə ikimiz olanda İlahə mənə dedi: "Sahib, tez-tez hirslənirəm. Hərdən özümü öldürmək istəyirəm... Ancaq öldürə bilmirəm. Yadımdadı. Qışıydı. Axşam hamı yatmışdı. İstədim Əfruzun başına baltayla vurum. Uşaqlarına yazığım gəldi... Fikrimdən əl çəkdim. Həmişə acıqlı oluram. Belə olanda uşaqlar da məndən qaçırlar. Onların məndən xoşları gəlmir... Uşaqlardan incimirəm. Axı, Əfruz onların anasıdı. Fikirləşirəm, mən neyləyim? Hara qaçım? Kim mənə yaxın durar? Yatmağa yerim, yeməyə çörəyim yoxdu. Bircə tez böyüsəydim, bu evdən qaçardım...".

— Aran əmi, mən İlahənin halına dözəmmirəm. Yazıq qızı Əfruzun əlindən necə almaq olar?

— Oğlum, çətinlik hamının həyatında var. Ona "qara gün" də deyirlər. Elə bir adam yoxdu ki, o qara günləri yaşamasın. Çətinliklər insanları möhkəmləndirir. Ağırlıqlara dözməsən, xoşbəxt həyata çatanmazsan. Zaman və dözümlülük çox böyük





şeydir. İnsanların özlərini də zaman tərbiyələndirir... Mən istəməzdim İlahə elə düşünsün. O, çox dözümlü, götürümlü olmağı bacarmalıdı. Sən də, elə İlahə də yadınızda saxlayın, atalar demişkən "Yaman günün ömrü az olar".

Sahiblə söhbət məni dəhşətə gətirdi. Ürəyim sızladı. Xeyli müddət onun danışıqlarını unudammırdım... Hərdən dediklərinə haqq da qazandırırdım. İlk baxışda uşaq təfəkkürü!.. Nə qədər düşünülmüş?! Nə qədər müdrik?! Nə qədər filosofsan?!. Biz böyüklər çox vaxt azyaşlılara uşaq kimi baxırıq. Sən demə, addımbaşı necə də yanılırıq?! Təəssüf hissiylə anlayıram ki, Sahiblə İlahənin hələ də qan sızan qəlblərini ələ almaq, onlara təskinlik vermək əvəzinə, qaysaqlanan yaralarına özümüz də bilmədən insafsızcasına duz səpirik. İçlərinə göynərti gətiririk...

## Şirinlik, yoxsa nəzir-misaf?

Günortaya az qalırdı. Qanım bərk qaraydı. Bu vəziyyətimdə nə iş görəcəyimi də bilmirdim. Mağazadan çörək alıb qayıdan Sahib otağa girəndə onun da özündə olmadığını açıq-aşkar duydum. Ondan dərhal soruşdum: — Nə olub, kefin niyə pozulub, oğlum? Yoxsa yenə Əfruz sənin xətirinə dəyib?..

Yox.. Həyət qapısının ağzında iki kişi dayanıb. O qədər içiblər ki, ayaq üstə güc-bəlayla, əyrüş-üyrüş durublar. Əlimdə çörək darvazadan girəndə: — Zinadan olma, hara gedirsən? — deyə məni saxladılar. Mən "zinadan" sözünü başa düşmədim... Ağılkəsən adama oxşamırlar. Onlardan çox pis iy gəlir. Yəqin çoxdan çimmirlər...

— Daha sənə nə dedilər?

— Get, Arana de gəlsin, bura. Sonra da çox qəliz sözlər dedilər. Mən başa düşmədim.

— Olduğu kimi, de oğlum. Axı o nə sözdü ki, sən başa düş-

məyəsən.

— Gizlində hörə gedənin, aşkarda doğmağı var.

Bu sözü eşitcək mən diksindim. Guya deyilən məsəlin o qədər də ciddi əhəmiyyət daşımadığı üçün ciddi-cəhdlə səbrimi basdım:

— O qədər özünün, sözünün qədrini bilməyənlər var ki, onlar da elə. Kefini pozma.

— Bəlkə onlara baş qoşmayasan, Aran əmi. İki nəfərdilər. Bəlkə Əfruzun öyrətdiklərindəndilər, bəhanə axtarırlar səninlə dalaşmağa.

— Yox, sən narahat olma.

— Necə fikirləşirsən, bəlkə Möhübbət əmiyə də zəng eləyək, o da gəlsin?

— Dava eləmək mənə yaraşmaz, oğlum, — deyib mən güldüm. Sahibin üzündəki qorxu hissi bir anda əriyib yoxa çıxdı. Sonra əlavə elədim: — Onlar mənə girişməyə cəsarət eləyənməzlər. Sən evdə ol, mən də gəlirəm.

Mən geyinib, tələm-tələsik darvazanın yanına düşdüm.

Yayı-qışı çimmək nədi bilməyən, onun-bunun verdikləri köhnə, nimdaş paltarlardan çıxmayan, üst-başlarından çirk-pas yağan, çox az hallarda ağılları başlarında olan bu adamlar bizim evdən iki tin aşağıda yaşayan Mikrob Mətiylə Qutdanquc Səfəriydi. Onlara araq, turş çaxır iyindən yaxınlaşmaq müşkül məsələydi. Yaxınlaşanda adamın burnu göynəyir, ixtiyarsız halda ögümə tuturdu. Mikrob Mətini vurub keflənməkdən savayı, özgə şey düşündürmürdü. Qutdanquc Səfəri Mikrob Mətidən fərqləndirən yeganə şey başı girməyən yerə bədənini soxmasıydı. O, Mikrob Mətiyə nisbətən ayıqıydı. Gecənin bir zamanında nə hadisə baş versəydi, ya küçədən naməlum bir adam təsadüfən keçsəydi, kimsə kimin pəncərəsini döysəydi o, dərhal bilirdi. İtiyi olan hər kəs, hətta, sahə müvəkkili də axşam baş verən sirləri gəlib Qutdanquc Səfərdən soruşardı. O da gördüklərini yanılmadan, çaşmadan muncuğa düzən kimi, bircə-bircə ortaya qoyardı. Bu xasiyyətlərinə görə küçə əhli Mətiyə Mikrob, Səfərə Qurtdanquc ləqəblərini qoymuşdular. Doğrudur, əvvəl-əvvəl ünvanına "Mikrob" sözü deyiləndə gicitkən kimi Mətinin bədəni gicikirdi. Onu bu ləqəblə çağıranlara çımxırardı. İnsafən, sonralar o buna çox asanlıqla alışdı. Sanki belə də olmalıydı. Qutdanquc Səfər isə elə əvvəldən ləqəbini çox təbii qəbul elədi. Elə bil ata-anası "Qutdanquc" ləqəbini ona Səfər adıyla birlikdə qoymuşdu. Özü deməsə də, çox adama elə gəlirdi ki, Səfər "Qurtdanquc" ləqəbindən fəxranəlik duyurdu. Nə isə... Deyəsən, əsas mətləbdən yayındım.





Mikrob Məti qapının bir tərəfinə, Qutdanquc Səfər də o biri tərəfinə söykənmişdilər. Məni görcək hər ikisi gülümsündü, qapıdan aralanıb mənə tərəf bir neçə addım atdılar. Mən onların iy-qoxundan az da olsa kənarda dayanıb, özümü qəsdən əsəbi göstərməyə çalışdım.

— Sahibə nə demisiz?

Hər ikisi eyni vaxtda:

— Atam, atam, nə demişik?.. Yoxsa, gedib sənə nəsə adımızdan çatdırıb. İynə vurub səni göndərib üstümüzə? Yox! Yox... Sən canın, bizi şərdən uzaq elə.

— "Zinadan olma" nə sözdü? O sözün mənasını qanırsızmı? Siz Sahibi yaxşı tanıyırsız? Siz öləsiz başınıza gecədən qaranlıq oyun açaram. Gedib evinizə çıxammazsız.

Hər ikisi:

— Atam, atam, sən bizi buz kimi kepezeyə də saldıra bilərsən, qələt eləyərik, bir də elə sözü ağzımıza almarıq. Qurtardıq...

— Alçaqlar, "Gizlində hörə gedənin, aşkarda doğmağı var" nə deməkdi?

Mikrob Məti:

— Atam, hirslənmə. Hirslənmək bədənə ziyandı. Özün də

nə olar oxumuş olanda, adam hər sözdən dingildəməz.

"Dingildəmə" sözü məni tutdu.

— O nə deməkdi?

Qutdanquc Səfər sakitcə dilləndi:

— Filosofanə danışma. Öz dilimizdədi də.

Mən başımı yellədim:

— Məndən nə istəyirsiz?

Qutdanquc Səfər:

— Nə istəyəcəyik? Haqqımızı.

Mən:

— Nə haqq?

Mikrob Məti:

— Oğlun Sahibin şirinliyini.

— Onun nə şirinliyini?

— Neçə vaxtdı evinə gətirmisən? Gözlərin aydın... Axı bu küçənin sahibləri var. Bircə dəfə ağlına gətirmisən, gedim onları da görüm? Şirinliklərini verim, halallıqlarını alım?

Məni gülmək tutdu:

— Ayə, ona da şirinlik olar?

Qutdanquc Səfər:

— Adını nə qoyursan qoy: istəyirsən şirinlik, istəyirsən nəzir. Düşərimizi ver, rədd olaq.

— Bu küçənin sahibləri sizsiz?

Hər ikisi birdən:

— Bəli, bizik!

Mən daxilən əsəbiləşdim. İstədim, onların hərəsinə bir-iki kötək vurub, üzlərinə tüpürüm. Ancaq ayıbdı, — deyə o hərəkəti özümə sığışdırmadım. Hirsdən danışmağa söz tapammadım. Necə oldusa, ixtiyarsız halda güldüm və tez də özümü yığışdırdım. Bu hərəkətimə özüm də məəttəl qaldım. Mikrob Məti dedi:

— Atam!.. Atam! Bizim vaxtımızı alma. Nujenni sən başa





düşmürsən ki, indi bizim ayılmaq təhlükəmiz var? Vaxtımızı alma, əlini sal cibinə. Neyləyəcəksən, tez elə. Cibində yoxdu, Sahibi çağır de, evdən gətirsin.

Səbrim tükənirdi ki, arxada dayanıb söhbətimizi dinləyən Razi kişi bizə yaxınlaşdı və gülümsünə-gülümsünə dedi:

— Aran bəy, ləngitmə, çıxar ver. Bunlar Əfruzdan da betərdilər.

Mikrob Məti dərhal:

— Atam! Atam! Özünü gücə salma. Qocanı eşit. Böyüyün sözünə baxan...

Qutdanquc Səfər:

— Əliaçıqlıq kişi işidi. Bir də ki qərdüş qərdüşün nəyinə lazımdı? Başını yeməz, qulağını çeynəməz. Əfruz atılıb düşürsə, de, bu gecə qayadan qopan ayı kimi, onu da part-part partladaq.

Mikrob Məti:

— Geciyə niyə saxlayaq. Atam, zibil üstümdədi. Bu saat sərçə boğazı kimi, istəsən, onun da boğazını üzə bilərik.

Razi kişi sözünü təkrarladı.

— Ver, canını qurtar, Aran bəy, başını ağrıtma.

Mən əlimi cibimə salıb onların üzlərinə baxdım. Hər ikisi udqundu. Handan-hana hərəsinə onluq verdim. Mikrob Məti pulu alıb narazı halda o üz-bu üzünə baxdı. Mən dedim:

— Qorxma, saxta döör.

Qutdanquc Səfər yalvarıcı tərzdə:

— Atam, bu azdı. Əl tutursan, kişi kimi axıracan tut. Soyub-soyub quyruğunda qoyma. Sən canın "Zakuskanı" da nəzərə al.

Mikrob Məti mızıldandı:

— Qonşuda hüzr yeri var, içimizi qızışdırmasaq, ora gedəmmərik... Hüzr yiyəsindən üzüqara qalarıq.

Razi kişi özünü saxlayammadı:

— Hüzr mərasiminə də vurub gedirsiz?

— Əzrail bu saat hüzr yerində fırlanır. Vurmasan, onun qa-

bağına çıxmaq olar?..

Mən hərəsinə bir beşlik də verib soruşdum:

— Harda vuracaqsız?

Mikrob Məti:

— Beşmərtəbənin yanındakı keçidin altında öz yerimiz var. Narahat olma.

Mən dərhal:

— Arvadlarınız sizin bu hərəkətinizə necə baxırlar?

Qutdanquc Səfər:

— Bizə arvad dözər? Keçən qış dalımıza paz çalıb mitilimizi çölə atdılar.

— Harda gecələyirsiz?

Hər ikisi eyni anda:

— Binaların girəcəyində.

Mən ürək ağrısıyla:

— İstədiyinizi aldız? İndi gedin vızqırdın.

Mikrob Mətiylə Qutdanquc Səfər ayaqlarını sürüyə-sürüyə getsələr də, qarşılaşdığımız hadisə Razi kişiylə məni mat-məəttəl qoydu.

## Müəmma

Həyatda elə gözlənilməz, ağlagəlməz hadisələr baş verir ki, ona özün də məəttəl qalmaya bilmirsən. Çaşırsan, oturub-durub fikirləşirsən: Bu nə oyundu, baş verdi? Hardan törədi bu müəmma? İzinə düşürsən, arayıb-axtarırsan. Təəsəvvür eləyə bilmədiyin hadisələrlə qarşılaşırsan. Gözlərini döyməkdən, ya gülməkdən, ya da ağlamaqdan savayı çarən qalmır. Kimə neyləyəsən, kimin yaxasından tutasan, heç özün də bilmirsən. Baş sındırmağın da əhəmiyyəti olmur. Qəribədi, hadisə elə haldan-hala düşür ki, sonunun nəylə qurtaracağını da anlamırsan.





O günkü söhbətdən sonra Sahib nə fikirləşmişdisə, gecə yarı məndən xəbərsiz yataqdan qalxıb qaçmışdı. Səhər ayılanda onu yataqda görmədim. Düşündüm ki, yəqin vanna otağına keçib. Çox gözlədim, qayıtmadığını görcək yatağımdaca onu bir neçə ağız səslədim. Çağırışıma səs gəlmədi. Məni fikir götürdü: “Bəlkə əl-üz yuyulan yerdə Sahibin ayağı sürüşüb yıxılıb?” Tələm-tələsik ayağa qalxıb vanna otağına keçdim, oğlan orda da yoxıydı. Paltarlarını geyinib getdiyini görcək məni təşviş bürüdü. Ola bilməzdi, o, mənə demədən evdən çıxıb getsin. Axı, hara? Təlaş içərisində mən də onun ardınca çıxdım. Səhər yenicə açılırdı. Çıxmaqda olan günəş üfüqdən boylanır, al şəfəqləri ətrafa yayılırdı. Buna baxmayaraq, həyət-bacada kimsə görünmürdü. Tələm-tələsik küçəyə çıxdım. Təkcə sarı gödəkçə geyimli süpürgəçi başını aşağı salıb öz işindəydi. Əlacsız qalıb ondan soruşdum: — Burdan keçən balaca oğlan görmədiniz ki? O, sualıma ağzını büzüb çiyinlərini çəkməklə “Yox” cavabını verdi. Dərhal küçəyə, oradan da çörək mağazasına tərəf qaçdım. Nəhayət, özümü Dram Teatrının qarşısındakı meydana atdım. Zeynəb qarı demişkən: “Oğlan yağlı əppək olub, yoxa çıxmışdı”.

Küçə və dalanları, meydanları, parkları ələk-vələk eləsəm də, onu görmədim. Getdikcə narahatlıq, təşviş məni amansızcasına caynağına alırdı...

Əldən düşüb evə qayıdanda həyətdə Əfruzun haray-qışqırığını, qonşulardan ən zəhləsi gedənlərin də ona təskinlik verdiyini eşitdim. Kimsə ona hərəkətlərini xatırlatmadı. Deyən olmadı: “Əşi, günah özündədi, zülm eləmisən, o da başın götürüb qaçıb”... Mən əvvəl-əvvəl özümü olanlardan guya xəbər-ətərsiz kimi apardım. Ancaq elə güman elədim ki, Sahib də qonşuların arasındadı. Əfruz məni görcək əl-qol oynada-oynada, söyüş söyə-söyə, qarğıya-qarğıya qənşərimə qaçdı. Yaxamdan tutub məni silkələdi, sonra da itələdi. Büdrədim, yıxılmaqdan özümü

güc-bəlayla saxladım. Bəlkə də qonşular ona mane olmasaydılar, Əfruz mənə bir-iki sillə, təpik də çəkəcəkdi. Ola bilsin, üst-başımı cırıb məni abırdan salacaqdı. Qızışan Əfruz ağzını açıb gözlərini yumdu:

— Ay alçaq, o itin altından götürüləni hardan tapıb gətirdin bura? O, məni biabır elədi. Arsız-namussuz bir əxlaqsıza çevirdi. Zinadan doğulan Sahib zinadan törəyən İlahəni qaçırıb.

Mən öz mövqeyimi möhkəmləndirməyə çalışdım.

— Sən nə danışırsan? Nə Sahib?! Nə İlahə?! Nə qaçırmaq?! Onlar uşaqdılar, hələ sən deyənləri anlamırlar... Hardasa indi gəlib çıxarlar.

— İnanmırsan, bu da yazdıqları məktub. Al, oxu. Gör mənim başıma nə oyun açmısan?

Məktubu alıb oxudum. Orada yazılmışdı: "Biz İlahəylə getdik. İlahəni axtarmayın. İmza Sahib və İlahə".

Mən tutuldum. Danışmağa söz tapammadım. Düşündüm ki, yəqin Sahib mənim üçün də məktub yazmış olar. Tez evə getdim. Stolun üstündəki şagird dəftərinin vərəqinə yazılmışdı:

"Narahat olma. Mən İlahənin göz yaşlarına dözənmədim. Qızı qaçırtdım. Sənə telefon açacam. Hörmətlə: Sahib".

Məni dəhşət bürüdü. Vəziyyət həm gülməli, həm də ağlamalıydı... Əlacsız qalıb bütün tanışlara, hüquq-mühafizə orqanlarına, uşaq ictimai təşkilatlarına müraciət eləməli oldum... Əvvəllər adamlardan bəziləri — Tapılar, özünü darıxdırma, — deyə mənə təsəlli verir, bəziləri də: — Görünür, harasa gediblər, başları daşa dəyəndə qayıdarlar, — deyirdilər. Çox qəribəydi, elələri də vardı ki, Sahiblə İlahənin gedişlərinə heç bir şey olmamış kimi baxır: — Özgənin uşaqlarına bu qədər yanıb yaxılırsan, özününkü olsaydılar, ürəyin çatlardı ki, — hökmünü verirdilər. Açığını deyim, sonuncuların sözlərindən aldığım mənfi emosiyanın təsir gücünü ifadə eləyəmmirdim. Mənə elə gəlirdi ki, mən özümə, xoşbəxtlik vəd eləyən dünyamı itirmişdim. İçin-





için yanıb-yaxılırdım, didilib-oyulurdum... Bu acıqlı vaxtlarda bəlkə də, o mənim əlimə düşsəydi, ona bir neçə şapalaq vurardım.

Evə gələmmirdim. Qapını açıb içəri girəmmirdim. Divarlar elə bil uçub üstümə töküləcəkdi. Otaqlar mənə qaranlıq zülməti xatırladırdı. Ordakı əşyalar necə də sönüküydü və buz kimi soyuq təsiri bağışlayırdı. Öz-özümə düşünür və tez-tez eyni sualları qoyurdum: Axı bunlar hara gedə bilərlər? Onlar haralarda yata, nə yeyə bilərlər? Qarınlarını doydurmaq üçün zibilliklərə üz tutmayıblar ki? Kimlərin əhatəsindədilər? Cinsi yetişkənlik dövrünə hələ qədəm qoymayan bu uşaqlar, görəm, nə fikirləşirlər? Görəsən salamatdılarmı? Onları tovlayıb cinayətlərə təhrik etməyiblər ki? Yaxud etməyəcəklər ki? Onlar səfil həyatı yaşayırlarmı? Axı onları isti yataqlarından qaldırıb aparan şey nə ola bilər?.. İlahəni zülmətdən qurtarmaq istəyi Sahibi bu yola düşməyə necə cəsarətləndirib? Bu yaşlı uşaqlarda bu qədər qürur hardandı, İlahi?! Bəlkə onlar sadəcə bizi sınayırlar? Məktubda Sahib necə yazıb? "Narahat olma, sənə telefon açacam..." Biz böyüklər çox vaxt uşaqları başa düşmürük. Onları anlamırıq...

Eh... Suallar çox, cavablar yox. Bir şeyi anlayıram ki, yaşları az olsalar da, bu uşaqlar çox dərrakəlidirlər. Vüqar, qürur hissi, ələ baxmağı, kimsəyə baş əyməyi, kimlər tərəfindən təhqir olunmağı özlərinə sığışdıranmayıblar. Heç kəsdən, heç zaman minnət götürmək istəməyiblər. Deməli, Sahib həm də mənim əziyyətə qatlaşmağımı özünə rəva görməyib. Düzdü, onların hərəkətlərini düşüncəsizlik də, şıltaqlıq da adlandırmaq olar. Ancaq ilk gündən etiraf eləyim ki, mən Sahibdə məkrlik də, sözündə və hərəkətlərində israrlıq da, inadkarlıq da duyurdum... Mən indi bu uşaqların başlarına cürbəcür işlər gələ biləcəyindən qorxuram. Həmişə fikirləşmişəm. Ağlıma inanılmaz, tükürpədici şeylər gəlirdi. O qədər əclaflar, analarının əmcəklərini kəsənlər var ki, vəziyyətlərini görüb zavallı uşaqları başdan çıxara bi-

lər. İlahəni bilmirəm, Sahibdə nifrət hissi böyükdü. Nifrət varsa, deməli, onda qisas da var. Axı, nifrətlə qisas qoşa hisslərdi. Nifrət olmasa, qisas da olmaz. İnanıram ki, qəsdən, ya sadəcə olaraq bilməyərəkdən Sahibin qəlbinə, şəxsiyyətinə toxunan söz deyənə, o, mütləq cavab verməyə çalışandı. Onda təhqirə güzəşt yoxdu. Fürsət düşən kimi heyfini alandı.

Mən əvvəllər davranışlarına o qədər fikir verməsəm də, indi anlayıram və mənalandırmağa çalışıram ki, Sahiblə İlahə təqribən eyni talelilər olduqlarından onların hisslərində, düşüncələrində hardasa bir yaxınlıq, bəlkə də bir doğmalıq varmış. Mən sadəcə olaraq, onların davranışlarını düzgün mənalandırmamışam. Sahibin İlahə barədə o gün mənə dedikləri gəldiyim qənaətimi bir qədər də möhkəmləndirir.

Sahiblə İlahənin bir neçə gün əvvəl olan söhbətlərindən indi sezirəm ki, o, olanları mənə tam açıb-ağartmaq istəmirmiş. Qapalı saxlamağa çalışırmış. Elə bil, o, kimdənsə, nədənsə qorxurmuş. Mənim verdiyim məsləhət və təsəllilərə o qədər də əhəmiyyət vermirmiş.

Sahib son vaxtlar tez-tez əsəbiləşirdi. Artıq söz-söhbətlərdən qaçırdı. Çox şeyə maraq göstərmirdi. O, bəzən oturduğu yerdə duyuxa dalırdı. Hərdən köksünü ötürür, əlini dizlərinə vururdu... Hiss eləyirdim ki, o, nədənsə qüssələnir, dərin təəssüf hissi keçirir. Həmin anda o, sanki ətrafını unudurdu. Sifətində əzab-iztirab, gözlərində ümidsizlik duyulurdu. Onun ovqatının belə təlxiliyi mənə sarsıntı gətirirdi... Açığını deyim, Sahib məndən ayrı çox qalammırdı. Bir müddət gəzib dolaşar, əsəbləri sakitləşəndə yanıma gələr, danışıb gülərdi. Hardasa, özündə yüngüllük tapardı.

Hə, o da yadımdadı; necə oldusa, bir dəfə heç bir söz-söhbət olmadan Sahib içini mənə açdı: mən niyə belə oldum; Allah belə eləyəcəkdisə, məni niyə yaradırdı; bilirəm, mən heç vaxt xoşbəxt ola bilməyəcəm; nə yaxşı ki, səninlə qarşılaşdım, yox-





sa, çoxdan ölmüşdüm; sən mənim ən doğma adamımsan... Düzmü deyirəm, Aran əmi?

Mən qəhərləndim. Elə bil bir anda içim dağıt-duğut oldu. Ürəyim parçalandı. Özümdən asılı olmadan gözlərimdən yaş sel kimi axmağa başladı. Handan-hana özümə gəlib Sahibin başına sığal çəkdim, saçlarını barmaqlarımla daraqlaya-daraqlaya dedim:

— Sən niyə elə düşünürsən, oğlum? Adam bədgüman olmaz. Həyatın ağ-qara — həm xoş, həm də sərt üzləri var. Elə adam tapılmaz ki, onun hər iki üzünü görməsin. Şirinini və acısını dadmasın. Dünyada pislər kimi yaxşı adamlar da çoxdu. Adamlar bir-biriləriylə tanış olur, dostlaşırlar. Sonra da bir-birilərinə dayaq olurlar. Sən də elə. İndi de görüm, sən mənə inanırsanmı?

— Hə... İnanmasaydım, mən bura gələrdimmi? Sizinlə qalardımmı? Məni kövrəldən doğmalarımın məndən üz döndərməsidi. Məni özlərininki bilməmələridi. Deməli, kimsəm yoxdu. Mən də, elə İlahə də kimsəsizik. Hara üz tutacağımızı bilmirik. Aran əmi, sən də məni atsan, onda mənim meyidim küçələrdə qalacaq.

— Bu əcaib fikirlər başına hardan gəlib, Sahib? Sən nə danışırsan? Sən burdasan, mənim yanımdasan, sevinirəm. Sağlam oğlansan. Maşallah, gözəl boy-buxunun, yetərincə ağlın var. Bədbəxt o adamlardı ki, onlar fiziki cəhətdən xəstə və ağıldan kəmdilər. At başından elə fikirləri. Biz həmişə birlikdə olacağıq. Ölümdən çox danışma. Sən öləndə, yadında saxla, mənim də ürəyim dayanacaq.

— Aran əmi, mən təklikdə qalanda öz-özümə çoxlu suallar verirəm. Ancaq onların heç birinə cavablar tapanmıram. Sənsə mənim verdiyim suallara cavab verirsən. Onda elə bil bütün dərd-sərimi unuduram.

Hər ikimiz gülümsündük. Sonra Sahib bir anlığa duyuğa getdi. Handan-hana dedi:

— İlahə məndən iki yaş kiçikdi. Sən mənə qayğı göstərirsən. Əfruz isə onu hər gün söyür, döyür, ağladır. Axı niyə Əfruz elə eləyir?

Sahib tez-tez mənə belə suallar verirdi. Ancaq o indi sualı verib düz gözlərimin içinə baxdı. Onun nigarançılıq dolu baxışları mənə çox şeydən danışırdı. Ancaq aramızdakı yaş fərqini adlayaraq ona ürəyimdəkiləri aça bilmirdim. O, sözünə davam elədi:

— Ola bilməzdi ki, Əfruz da İlahəyə xoş üz göstərəydi? Onu incitməyəydi? Axı, İlahənin də kimsəsi yoxdu.

Mən çaşqın halda dedim:

— Oğlum, sən İlahə barədə niyə bu qədər fikirləşirsən?

Sahibin yanaqları qızardı. Udqundu, sonra titrək səslə dedi:

— Axı o yazıqdı. Arıqdı. Gücü azdı.

Mən gülərək:

— Bəlkə bir-birinizi sevirsiz?

Gözlənilməz söz Sahibi çaşdırdı. O, nə deyəcəyini bilmədi. Bərk utandı. Qulaqlarına qədər qızardı. Ancaq sualımı cavabsız qoymaq da istəmədi:

— Yox... Ondan xoşum gəlir. İstərdim, Əfruz da sənin kimi olaydı...

Sahib söhbətinin axarını kəsdi. Dodaqları səyridi. Birdən hönkürtüylə ağlamağa başladı. O, stuldan qalxıb düz qarşımda dizlərini yerə atdı. Qıçlarımı qucaqlayıb bərk-bərk özünə sıxdı. Mən də stuldan sürüşüb düşdüm. Ata nəvazişiylə onun başını qucaqlayıb sinəmə çəkdim. Sahib hıçqıra-hıçqıra dedi:

— Məni bağışla. Səni kövrəltdim. Sən yaxşı adamsan. Mən səndən qorxuram. Elə bilirəm, birdən harasa yoxa çıxacaqsan...

Maraqlıydı o "öləcəksən" sözünü işlətmədi, sadəcə olaraq "harasa yoxa çıxacaqsan" dedi. Fikrinə belə incə çalar verməsi sanki qəlbimi parçaladı.

Mən Sahibin saçlarından dönə-dönə öpdüm. Dilim topuq vurduğundan, səsim titrədiyindən danışa bilmədim. Onda hiss elədim ki, mənim də taleyimlə bağlı bacımdan savayı, narahat olan kimsəm yoxdu. Bu anda Sahib dedi:





— Məni qucaqla. Mən anamın, atamın səsini eşitmək istəyirəm. İstərdim, onlar da sənin kimi məni beləcə qucaqlayaydılar. Başımı sığallayaydılar...

Beynimdən ani fikir keçdi: "Görəsən İlahə də Sahib kimi düşünürmü?.."

Mən rabitəsiz, biçimsiz, coşğun hiss və həyəcanla:

— Mən səni çox istəyirəm, Sahib. Qorxma, hər şey yaxşı olacaq. Gözəl günlərimiz qabaqdadı.

Üzünə baxanda məni dəhşət bürüdü. Valideynlərinə münasibətindənmi, Əfruzun İlahəyə olan zülmündənmi və ya özünün Əfruza nifrətindənmi sanki gözləri hədəqədən çıxırdı. O gözlərdə hardasa, bir acizlik, ümidsizlik işartıları duyulurdu. Hərdənbir qəlbindəkiləri açıb tökməkdə yenə tərəddüd sezilirdi. Mən dedim:

— Bir şey fikirləşərəm. Sən narahat olma.

Deyəsən, o anda Sahib mənə inandı. Onda hardasa, ümid doğdu. Bu ümid onu xeyli yüngülləşdirdi. Biz çəkilib əvvəlki yerlərimizdə əyləşdik. Xeyli səssiz-səmirsiz dayandıq. Handan-hana qəsdən söhbətin səmtini dəyişdim:

— Sahib, nə düşünürsən? Anana acığın, qəzəbin soyuyubmu? Bəlkə bir də cəhd göstərək, ananla söhbətə. Barışsaz, yaxşı olar. Əzabların azalar.

Sahibin sifəti həmişəki kimi bozardı və dərhal cavab verdi:

— Yox!.. Anamdan danışma. O, danışığını bilməyəndi. Ərinin bircə sözüylə məni küçəyə atıb.

— Sən çox şeyi özünə yük eləyənsən. İnsanlara güzəştə getsək, həyatda həmişə ağrımız-acımız az olar. Hamının rəğbətini tez qazanarıq. Mənə elə gəlir ki, sənin qəlb rahatlığın ananın yanındadı.

— Bilirəm, sənə yükəm. Səni də hər gün incidirəm. Mən

anamla birlikdə yaşamışam. Ondan doymuşam. Bir də elə yaşamaq istəmirəm.

Sahibin qəti sözü məni kəsdi. Əvvəllər iki dəfə özümə söz versəm də, üçüncü dəfə yenə o söhbətə qayıtmamaq qərarına gəldim. Ancaq o da mənə tam aydınıydı ki, Sahibin anası çox əclaf, əxlaqsız və zalım bir dul kişiyə ərə getmişdi. Əslində, arvad da ərindən geri qalmaz bir xilqətiydi.

## Hislərin qovuşması

Sahiblə İlahənin qoşulub harasa baş götürüb getmələri və onlardan xəbər-ətər olmaması məni dəli-sərkardan eləmişdi. Nə iş görəcəyimi bilmirdim. Hey özüm-özümlə danışırdım. Cavabsız suallar, məntiqsiz mülahizələr beynimi deşirdi. Axşamlar da yuxularıma zəhər qatırdı. Gecələr səhərə qədər yatağımdaca eşələnirdim. Qəribəydi ki, Allahıma dönə-dönə yalvarsam da, Sahibgili yuxularımda da görəmmirdim. Növbəti gecələrin birində yenə də gözlərimi yumammadım. Səhərə az qalmış geyinib həmişə gəzib dincəldiyim meydana düşdüm. Tənha çinar ağacının altına gəldim. Bir az var-gəl eləmişdim ki, qoşa zeytun ağacının altında əlində su şüşəsi olan beli donqarlı yüngül paltarda qoca göründü. Onun qıçları adama xış, araba çəkən kəlin, ya öküzün boynundakı xamıtı xatırladırdı. O, yavaş-yavaş zəif və yorğun addımlarla mənə tərəf addımlayırdı. Ayaqlarını elə ehtiyat və səksəkəylə yerə basırdı ki, adamda qəribə təəssürat yaranırdı: qocanın ayaqları altında cücü qalsaydı, ona heç bir xətər-ətər dəyməzdi. Üz-gözündən halsızlıq yağırdı. Gözlərindən əzab-əziyyətli həyatının, onu əhatə edənlərin etinasızlığının dərin iztirabları duyulurdu. Dairəvi üzü, qonur gözləri vardı. Bir neçə yerdən çat vermiş qalın, çırma dodaqlarında elə bil qara qan toplanmışdı. Qırxılmamış üzünün sümükləri, nazilmiş boğazının damarları çıxmışdı. Uzun saçı və saqqalı dümağ qarı andırırdı. Tez-tez əlgini xatırladan, üstünə qara xallar çökən boş əlinin nazik barmaqlarıyla saqqal və bığına sığal çəkirdi. Peysərinin tükləri tökülsə də, yanlarında seyrəlmiş uzun tükləri vardı. Hiss olunurdu ki, bu qocanın bədəninə çoxdandı su dəymirdi. Əyninə toz basmış qara nimdaş şalvar, göyə çalan qısaqol köynək, ayaqlarına böyrü sökülmüş, dabanı yastılanmış, üstü cadar-cadar sarı ayaqqabı geymişdi. Sanki yaşadığı dünyanın dərd-səri bu qocanın çiyinlərinə çökmüşdü. Bu qocayla ilk dəfə qarşılaşan adam təəccüblənməyə bilməzdi. Dərhal adamda elə təəssürat yaranırdı ki, ömrünün son çağlarını yaşayan bu qoca xəstədi. Bəlkə də psixiatrik xəstəxanadan təzəcə çıxıb. O, heç kimə, heç hara baxmırdı. Mənə elə gəlirdi ki, onun qıyılmış gözləri heç kimi görmür. Ola bilsin ki, qəlbinin hədsiz küskünlüyündən kimsəylə qarşılaşmaq belə istəmirdi. Güman eləmək olardı ki, yeganə məqsədi tək skamya tapıb onun üstündə oturaraq dincəlmək, mürgü döymək, yorğunluğunu çıxarmaqıydı... Bütün bu deyilənlərə rəğmən bu qocanın canında nə vaxtsa çeviklik, cəldlik, diribaşlıq, qabağından yeməzlik, ayıqlıq cizgiləri də duyulmaqdaydı. İndi isə onu müşahidə eləyən hər kəs düşünə bilərdi: Ömrünün qürubunu yaşayan bu qoca kimdi? Onun yaş sini nə qədərdi? O, hardan gəlib hara getmək niyyətindədi? Bu xəstə səhərin bu çağında parkda necə peyda olub? Belə xəstəni də evdən tək buraxarlarmı? Bəlkə heç bu zavallının kimsəsi yoxdu? Görünür, çox güman ki, o, kimsəsiz və tənhadı?..

Qoca birdən yönünü dəyişdi. Parkın yuxarı tərəfində yan aldı. Qonur bir pişiyin yatdığı skamyada oturdu. Dərindən ah çəkdi. Bunu hiss eləyən pişik ayağa qalxıb qocaya, qoca da ona baxdı. Pişik quyruğunu qaldırıb belini qabartdı. Tükləri biz-biz oldu. Qoca öz-özünə: — Yat, Allahın heyvanı, mənim səninlə nə işim? — deyib üzünü çevirdi və dərindən nəfəs aldı: — Biz eyni talelilərik. Kimimiz var, barəmizdə düşünə... Dərdli axtarıb

dərdlini tapar. Yəqin sən də mənim kimi güzəransızsan. Görürəm, sən də qocalmısan. Məskənindən, etibarsız sahibindən uzaq düşmüsən. Sənə də sayğısızlıq eləyiblər. İnsaflarını itirmişlər səndən də mərhəməti, qayğını əsirgəyiblər. Sən də insanlardan küskünsən. Lap dünyanın özündən də... Qıçlarının yan-böyrünün tükləri tökülüb. Bir dərisən, bir sümük. Domuşmaqla, bir yerdə dayanmaqla iş bitməyəcək. Qarnın doymayacaq. Arxeyin ol. Bir az gözlə. İndilərdə gətirib zibilliyə bir şey atarlar. Bir şey tapsan, onda gedib zibillikdə qarnını doydurarsan.

Qoca üzünü göylərə tutdu. Sonra dərindən köksünü ötürdü.

— Bəli, dünyanın işi belədi. Valideynlərimiz bizi sevə-sevə dünyaya gətirəndə heç vaxt düşünməmişlər ki, övladlarının son aqibətlərinin belə acınacaqlı olacağını. İlahi, burda kimdi günahkar? Pişik, sənin yaşını bilmirəm, mənim yaşım az deyil. Məni bu günə salan rüzgardı. Mühitdi. İçərisində yaşadığım cəmiyyətdi. Qanun, ədalət axtarıb, ancaq cinayətlərlə qarşılaşdığım dövrandı. Lənət ağa qara deyənlərə! Cinayət törədicilərinə! Tüpürüm haqqı batil eləyənlərə! Vicdanını, məsləkini itirərək başqalarını dəli-divanə eləyib çöllərə salanlara. Ədalət, mərhəmət hisslərini itirənlərə! İkiüzlü, məddah və qatı cinayətlərin törədicilərinə! Nadürüst qadın, sənin eybəcər sifətin nə qədər qorxuncmuş. Sən nələr elədin? Məni də, oğlumu da qara günə salan, Şəms?! Sən mənim nəzərimdə zəncirə bağlanmış itdən savayı bir şey deyilsən. İndi mən doğma balamın taleyindən xəbərsiz zavallıyam. Oğru itlərin, ac-yalavac pişiklərin sırasında sülənməkdəyəm. Təki Sahibimlə, doğmaca oğlumla qovuşa biləydim... Budur dünyanın sonu?!.

Pişik astadan mıyıltıya bənzər səs çıxara-çıxara qocanı imsilədi, pəncəsini onun dizlərinin üstünə qoydu, sonra da başını qaldırıb üzünə baxdı. Qocanın üzündə təbəssüm sayağı işıq saçan xoşhallıq yarandı və o pişiyin başına, donqarlanmış belinə





sığal çəkdi. Qoca öz-özünə dedi:

— Dərdli dərdlini tapar, su çanağı suda sınar. Pişik qocanın dizləri üstündən sağdan sola keçdi. Sonra nəsə fikirləşib yenidən əvvəlki hərəkətini təkrarladı. Qoca başını yellədi:

— Ay bədbəxt, sən də qocasan, sahibsizsən, halsızsan, acsan, ömrünün sonunu yaşayırsan, elə mən də. İşə bax, gör güzarımız haralarda keçir?

Pişik skamyadan yerə atıldı. Quyruğunu qaldırıb gözlərini skamyanın həndəvərində, altında gəzdirdi, sonra da qocanın ayaqqabılarını imsilədi və özünü ona sürtməyə başladı. Qocanın ürəyi yumşaldı. Mənə elə gəldi ki, o lap cavanlıqdan pişikləri sevən, qayğı göstərən olub. Bir anlığa o, köhnə yurdda qalan pişiyini xatırladı:

— Sən də mənim həsrətini çəkdiyim, ancaq ayrılığına dözəmmədiyim yurdumdakı ala pişiyimə oxşayırsan. Xislətinizdə deyəsən, qohumluq da var. Həmişə özüm yediklərimdən pay ayırıb ona verərdim. O da qarnını doydurandan sonra arın-arxayın evdə, həyət-bacada gününü keçirərdi. Mən bir tərəfə gedəndə addım-addım, qarabaqara ardımca gələrdi. O, çox üzüyolaydı, qayıt geri, — deyəndə geri qayıdardı. Mən geriyə dönüncə pişiyim həyət-bacada, küçənin tinində bir xəlvəti yerə çəkilib məni gözləyərdi. Mən qayıdanda o da gah qabağımca, gah da arxamca quyruğunu oynada-oynada gələrdi. Bu da məndə ona dərin istək, bəlkə də hardasa sevgi yaradardı. Mən bu hisslərə uşaqlıqdan adətliydim...

Heyvanlar çox qəribə olurlar. Deyilənlərə görə, insanlar bir çox xüsusiyyətləri onlardan əxz eləyirlər. Buna baxmayaraq, insanların da ölçüsüz-biçisiz xislətləri var. Məni qınayan, ələ salan olmasaydı, deyərdim ki, bütün başqa canlılar insanlardan insaflı olurlar. İnsaf olmayan yerdə Allahsızlıq baş alıb gedər. Necə ki, gedir. Allahsızın nə vicdanı, nə ləyaqəti, nə də şərəfi olar. Onda insanlıqdan nə danışasan? Danışsan da olar hamısı

saxta, yalan... Olacaq fantazyorluq. Olacaq riyakarlıq: insani hissiyata heyvani münasibət...

Düşündükləri qocanı əməlli-başlıca əsəbləşdirirdi. O: — hər şeyə tüpürüm, — deyib ayağa qalxdı və ağır-ağır parkın o biri tərəfinə düşməyə başladı. Pişik də miyoldaya-miyoldaya onun ardınca getdi. Qoca dönüb geriyə baxdı, ani ayaq saxladı. Pişik də dayandı. Düz qocanın üzünə baxdı. Qoca pişiyin baxışlarından heç nə sezmədi. Ancaq gülümsündü. Qocanın nurani üzü işıqlandı. Sanki əvvəlki əsəbiliyindən üzündə əsər-əlamət qalmadı:

— Gəl Allahın heyvanı, gəl, — deyib yaxınlıqdakı binaların arasından keçib getdi.

## Erkən "gəlin"

Adəti üzrə bacım səhər tezdən bizə gəldi. Qab-qaşıqları yuyub sahmana saldı. Süfrə açıb yeməyə çay, pendir-çörək gətirdi. Məni səhər yeməyinə çağırdı. Halı özündə deyildi. Soruşdum:

— Bir təhər görünürsən, Zinyət?

— Necə görünməliyəm, qardaş? — Özgə uşağından adama övlad olmaz, — demədimmi sənə? Özü getməsi bir yana, İlahəni də başdan çıxarıb. Qız uşağını hara götürüb itildiyi də bilinmir.

Zarafat eləməkdən savayı sözüm yoxıydı. Ona görə də etinasız halda dedim:

— Niyə narahatsan, bacı. Gec-tez bir qız bir oğlanındı da. Görünür, ürəyimin genişliyini nəzərə alıb Allahım mənə erkən gəlin də qismət eləyir.

Bacım gülümsünüb bir az əsəbi, bir az da zarafat tərzində dedi:

— Saqqalın ağarsın... Vallah, sən düzələn döörsən... Bilirsən, Əfruz mənə nə ismaric göndərib?

— Yox...

— Deyir ki, sənə çatdırım. Daha onun İlahə adlı qızlığı yoxdu. İndiyəcən o qızı mən saxlamışam, bundan sonra da zəhmət çəksin, Aran saxlasın. Gedib polisə oğurlanması, məhkəməyə də himayəsindən çıxarması haqda ərizə də verəcək.

— Versin... Yoxsa, sən də narahatsan, bacı. Zeynəb qarı demişkən: "Mən dəvəsi ölmüş ərəbəm. Hər möhnətə dözərəm..."

Bu sözümü eşitcək bacım ayağa qalxıb: — Uşaqlar təkdilər, evi dağıdarlar, — deyib getdi.

## Heyrət və tərəddüd

Skamiyada yorğun-yorğun oturan qocanın nəzərləri bir nöqtəyə dikilir, tez-tez duyuğa gedirdi. Adama elə gəlirdi ki, o, heç bir şey barədə düşünmür, yaddaş pozğunluğundan olub-keçənləri xatırlayanmır. Pişiksə yenə də ətrafında gəzişirdi onun. Baxan hər kəs Allahın yaratdığı bu iki canlı arasında paralellik apara bilərdi: Hər ikisi canlıdı; nəfəs alır; gəzib-dolanır; yeyib-içir; yatıb dincəlməyə ehtiyaclıdı; yaşamaq istəyirlər... Bununla belə, hər ikisi bədbəxtdi; güzəransızdılar; heç kəsə lazım deyillər; ömürlərinin sonlarını yaşayırlar; kimsənin marağını cəlb etmirlər; özlərinə məxsusi aləmlərində vurnuxurlar; kimsənin nə iş görəcəyinin fərqində deyillər. Bir sözlə, acınacaqlı bir tale yaşayırlar...

Parka gələnlər onlara adi şey kimi, gözlərinin ucuyla baxsalar da, böyürlərindən səssiz-səmirsiz ötüb keçirlər, sanki quru bir ağacla, daşla onlar arasında fərq görmürdülər. Tək-tək diqqətlərini cəlb eləyənlər də bu qocayla pişiyə nifrət hissiylə baxırdılar. Qəribəydi ki, ürək çatışmazlığından, yaxud sadəcə təmiz hava almaq ucbatından parka səhər gəzintisinə çıxan yaşlı qa-

dınlardan bəziləri adama kişilərdən daha diqqətli təsir bağışlayırdılar.

Zəncirindən tutub yanında it gəzdirən yaşlı Naimə xanım qocanın yanından ötəndə öz-özünə mızıldandı:

— Ay bədbəxt, günahın nədi ki, səni də atıblar küçəyə...

Səbri tükənən qoca kəskin və cingiltili səslə qadına cavab verdi:

— Mənə niyə elə baxırsız? Bəyəm, pis iş görmüşəm? Günah işlətmişəm?

Boğazı qıcıqlandığındanmı, ya əsəbdənmi qoca bir neçə dəfə öskürdü, sonra yenidən səsini qaldırıb eyni tonla sözünə davam elədi:

— Siz məni tanımırsız. Məni tanıyanlar ağlıma, qeyrətimə yaxşı bələddilər. Görün, hansı günə qalmışam ki, hamı mənim böyrümdən həqarətlə baxa-baxa keçir. Elə bil insanların düşməniyəm.

Naimə qocanın səsinə qımıldammadı. O, üzünü çevirib səssəmirini çıxarmadan, itinin başındakı zəncirini çəkə-çəkə, asta-asta gəzdiyi yerdən uzaqlaşdı və ona elə gəldi ki, qoca havalıdı, ona baş qoşmağa dəyməz. Artıq-əskik söz desəm, səsi aləmi bürüyər, məni də abırdan-həyadan salar...

Qoca ayağa qalxdı. Naiməni həyəcan və təşviş bürüdü və qadın addımlarını yeyinlətdi. Elə bu vaxt qarşıdan gələn orta yaşlı Nəsir Naiməyə yaxınlaşdı.

Balaca boylu bu adamın uzun tüklü sifəti, qıvrım saçları, xırda qonur gözləri, çopur üzü, qalın çırma dodaqları vardı. Qıranı xatırladan yekə əyri burnu yuxarı dodağının üstünə düşürdü. O, olduqca fasfası bir adamıydı. Eşitdiyi bircə kəlmənin həndəvərində saatlarla düşünüb vaxt itirməkdən ləzzət alırmış kimi danışmaqdan yorulmazdı. Dostları bu xasiyyətinə görə onu Çərənçi Nəsir deyə çağırırdılar. Bu adam özünü nə qədər "nəcib" adam kimi aparsa da, ilk baxışdan dəngiləvazlığı aydın sezilirdi.





Kobudluğunu ona xatırladan şəxsə yaxşı baxmazdı. Çox vaxt da adamların qüruruna, heysiyyətinə toxunmağa cəhd göstərərdi. Nəsirin bu yaramazlığını Naimə də yaxşı bilirdi.

Naiməyə xoş getsin deyə, Nəsir soruşdu:

— Qoca səninləydimi?

— Hə... Mənimləydi.

— Nə istəyir?

— Heç özü də bilmir. Yanına çatıb halını soruşmaq istəyirdim ki, zalım oğlu barıt kimi atıldı.

— Nə üçün?

— Heç özüm də bilmədim.

Nəsirin üzündə acınacaqlı, ancaq ötəri bir təbəssüm yarandı. Sonra astadan dedi:

— Əhvalınızı pozmayın. İndi hamı əsəbidi. Hirsini boşaltmağa adam axtarır. Bir də ki haranın gicbəsəri var, bu parka üz tutur. Bura olub dəli yığnağı.

— Gicbəsər niyə? Dəli yığnağı deməyindən belə çıxır ki, biz də dəliyik?

— Mən elə düşünmürəm. Yorğun-arğın, əldən düşmüş adam çox vaxt danışığını sonalamır.

Nəsir dönüb təhqiredici nəzərlərlə qocanı süzdü.

— İstəyirsən, bu saat ona bir-iki şapalaq vurum, qovum burdan.

— Sən Allah məni işə salma. Polisə cavab verən halım yoxdu. Get, öz işinlə məşğul ol.

Mən söhbətə qarışmalı oldum:

— Nəsir, camaatı əl-qoluna dolama. Əvvəla, səndə adam vurmağa cəsarət çatmaz. Olsaydı, bir ay əvvəl bu meydanda hamının gözləri qarşısında səni ayaqlarının altında əzişdirən Həsənağa Bakınskiyə cavab qaytarardın. İkincisi də, əxlaqın yoxdu. Ədəb-ərkanın çatışmır. Qaldı qocaya, kim nə bilir, kimin içində nə tufan qopduğunu. Görünür, nədənsə o da narazıdı. Ça-

tışmazlığı var.

Naimə gözlənilmədən dedi:

— Dilənçiyə oxşayır.

Nəsir:

— Özü də lap həyasızından.

Mən üzümü Nəsirə tutdum:

— Sözdən sınan döörsən, Nəsir. Ağzın çuval kimidi. Nə olsa, saxlamırsan, tökürsən.

Sonra Naiməyə dedim:

— Qoca dilənçi deyil. Neçə gündü onu burda görürəm. O, dərdlidi. Dilənçi əsəbi olmaz. Dilənçinin yeganə məqsədi adamların qılığına girib pul qoparmaqdı... Acıdillilik, kimisə incitmək dilənçiyə fayda gətirməz. Adamlar onu parka həsrət eləyərlər.

Qoca bizim söhbətimizin ondan getdiyini anladı. O, skamyadan qalxıb asta-asta yanımıza gəldi və salam verib təəssüflə dedi:

— Bilirəm söhbətinizin məndən getdiyini. Siz nə qədər azad, sərbəst fikirli olsanız da, başqalarının qeybətini eləməyə nə haqqınız var, nə də hüququnuz. Siz günah işlədirsiz. Siz məni dinləməyə də bilərsiz. Mən dərdliyəm, dilənçi yox. Əqidəm safdı, təmizdi. Mən bu yaşadığımız girdirmə həyat, məsum uşaqlar barədə düşünəndə dəhşətə gəlirəm. Nə qədər əzab-əziyyət çəkmək olar?! Valideynləri uşaqlarını əzab-iztirablar üçünmü dünyaya gətiriblər?! Mən atayam, vaxtıyla müəllim işləmişəm. Əlimə jurnal götürüb sinfə girəndə şagirdlərimə elm öyrətməyə, əxlaq-mənəviyyat dərsi verməyə çalışmışam. İnsan və cəmiyyət, vətən, xalq, millət nə olan şeydi, insanın kainatdakı yeri, mövqeyi, missiyası barədə danışmışam. Oturub-durub fikirləşirəm ki, ömrüm hədər gedib. Tək-tənha qalmışam. Əlli yaşım olanda Qarabağ müharibəsində vuruşmuşam. Düşmənin neçə əsgərini, tankını, topunu məhv eləmişəm. Yaralanmışam.





Bədənimdə neçə qəlpə gəzdirirəm. İndi vətənimə qəsd olunub. Torpağım parçalanıb, işğal altındadı. Qohum-əqrəbam, dostlarım şəhid olublar. Atəşkəsdən sonra məvacibimin yetərincə olmaması ucbatından tikintidə işləmişəm. Ailəmi dolandırmağa çalışmışam. İş elə gətirdi ki, ailəm dağıldı. Ev-eşiyim əlimdən çıxdı. Əlimə qələm alıb təəssüratlarımı kağıza köçürəsi olsam, inanıram, ya qələm-kağız od tutub yanar, ya da özüm göz qırpımındaca əriyərəm. Kimsə yaxşı deyib: “Ürək kitab deyil ki, açıb ortaya qoyasan”, sonra da durub bağırasan: Ay camaat, ay millət, gəlin mənim içimi oxuyun. Gördüklərimi, şahidi olduqlarımı, düşündüklərimi bu kitaba yazmışam, bələd olun, görün dünyada nələr baş verdiyini. Onu da bilirəm, bələd olduqca həyəcanlanacaqsız. Hətta, bəzilərinizin fikirləri qarışacaq, bəziləriniz də mənim dediklərimi sayıqlama adlandıracaqsız. Elələri də olacaq ki, — Bu kişini qara basır, bu kişi dəli olub, ona qulaq asmayın, gedin öz iş-gücünüzlə məşğul olun — hökmünü verəcək. Kim nə desə, mən qorxmuram. Hamı söz deməkdə, fikir söyləməkdə azaddı. — Bu gün mənim real xatirələrim həqiqətdən çox xəstə xəyallara bənzəyir, — desəm, bəlkə də səhv eləmərəm. Bu mənim özümə də aydın deyil. Bəzən özümün-özümə gülməyim gəlir...

Qocanı dinlədikcə onun müdrikliyinə özlüyümdə heyran olurdum. Naimənin üzünə baxdım. Bu qadının gözlərindən yaş sel kimi axırdı. Xəcalətindən üzü qızaran Nəsir isə ayaqları ilə yer eşirdi. Onun bu hərəkəti mənə gülməli də olsa, qısır keçini andırırdı. Qoca dərindən nəfəs alıb bir az kövrələrək sözünə davam elədi:

— Uşaqlıq əyyamım, o əyyamın acılı-şirinli xatirələri hərdən gəlib durur gözlərimin önündə. Acılarını düşünüb bəzən kədərlənirəm, heyfslənirəm. Şirinləri barədə fikirləşəndə, — hərçənd çox azdı, — xoşhal oluram. Sevinc, fərəh hissi qəlbimi bürüyür. Onda qəribə hallar keçirirəm. Kədərli xatirələrim yadda-

şımda oyandıqca çox zaman məni həsbi hal eləyir.

Bunlar da ömrümün bir parçasıdı. Neyləmək olar?! Onlar da mənim taleyimə yazılıb. Çox hissiyyatlıdı... Həyat cəlbedicidi. Mücrəsi sirlərlə doludu. Nə qədər dərinliyinə baş vursam da, yenə öz müəmmalarını bətnində saxlamaqdadı. Biz insanlar hər dəfə düşündüklərimizdən də dərin həyatın ümmanlarına can atdıqca, yenə orda — o ümmanda əsrarəngiz, təsəvvürə sığmayan aləm yaşayırıq. Nəhayət, gec-tez anlayırıq ki, dərk eləyəmmədiyimiz aləmlə real varlıqlar arasında qırılmaz tellər var. Bu tellər bizi məlumlardan məchullara doğru aparır. Ancaq ona da əminəm ki, yaşadığımız aləm zülmətlərə doğru bizi nə qədər çəkib aparsa da, nə qədər yol qət elətdirsə də, dibi görünməyən, təsəvvürə gəlməyən dərəcədə öz sirlərini bizə tam açmayacaq. Ona da inanıram ki, o sirlər tam açılsa, dünya mənasızlaşacaq. Öz yerində dayanacaq. İnkişafını itirəcək. Hər şey bəlkə də suya dönəcək. Adını unutmuşam, müdriklərdən kimsə yaxşı deyib: "İstidə su buxarlanar, soyuqda yenə özünə qayıdar. Lap soyuqda donar, hərarət çoxalanda yenə öz formasını alar... Mahiyyət yerində qalar". Bəli, bu da anamız təbiətin qanunudur.

Bəli, mən keçmişimi xatırlayanda içimdə qəribə hisslər doğulur. Belə hallarda ürəyim muma dönür, gözlərim yaşarır. Axı niyə?.. Bilmirəm. Hərdən içimə qapanıb düşünürəm: sevincim, fərəhim, kədər və qüssəm üçün bir təskinlikdi mənə? Aman Allah, insanın içi nə qədər sonsuzmuş, nəhayətsizmiş... İçimi boşlatdıqca elə bil rahatlanıram.

Mən soruşdum:

— Qoca, adınızı öyrənmək olarmı?

— Olar. Adımı bilmənizdə nə qəbahət var ki? Adım Şöhrətdi.

— Şəhərə gəlməkdə məqsədiniz?

— Oğlumu axtarmaq. Kişi, bəlaya düşmüşəm. Bircə oğlum var. Xeyli vaxtdı şəhərə gəlib. Adı da Sahibdi. Bəlkə onu bu





parkda görən olub?

Bunu eşitcək sanki dilim-ağzım qurudu. Handan-hana dedim:

— Bəs indi niyə gəlmisiz?

— O çox uzun məsələdi.

— Niyə?

— Soruşma.

— Mənim də adım Arandı.

— Çox yaxşı.

Mən Şöhrətin qoluna girib onu Nəsirlə Naimədən ayırdım və yavaş-yavaş uzaqlaşdırdım. Gedib Şöhrətin bayaq qalxdığı skamyada oturduq.

Şöhrət Sahibin yaşı, anasının və özünün kimliyi barədə danışdı. Sonra da hiss elədim ki, duyuğa getdi. Mənim ona yazığım gəldi. Gözləmədiyi halda dedim:

— Şöhrət, mən Sahibi tanıyıram.

Kişinin duyuq gözlərində birdən-birə heyrət və tərəddüd hissləri yarandı və tez də iti-iti gözlərimin içinə baxdı. Güman eləmək olardı ki, bu adam aman vermədən yaxamdan yapışacaq — Ver mənim oğlumu, mənim balamı! — deyəcək. Əvvəl də xatırlatdığım kimi, o, çox səbirsiziydi. Bəlkə də onu səbirsiz eləyən yaşından çox başına gələn faciələriydi... Onun sifəti bozardı. Yanaqlarının əti, dodaqları əsməyə başladı. Dili topuq vura-vura soruşdu:

— Mənim oğlum hardadı? Onu mənə tapıb versən, qulun olaram.

— Mən sənə necə inana bilərəm ki, həqiqətən də Sahib sənin oğlundu?

— Atasının adı Şöhrət, familiyası İbrahimlidi. Dəyişməyiblərsə...

— Şəxsiyyət vəsiqən üstündədimi?

O, dərhal vəsiqəni çıxarıb mənə verdi. Alıb Şöhrətlə rəsmi tanış oldum.

İçimdə zəif, davamsız, kövrək inam yaransa da, üzümdəki cizgilərlə qəsdən şübhə və tərəddüd hissləri ifadə elətdirməyə başladım:

— Sahib səni tanımasa, onda necə? Sən necə, Şöhrət, onu tanıya biləcəksənmi?

Kişi tutuldu, gözlərinin dərinliyində bir acizlik, yazıqlıq sindromu yarandı və bu hal tez də sərtləşdi.

— Sən, oğlumu mənə göstər, tanıyıb-tanımamaq sonrakı işdi.

— Xeyr. Bu, insan taleyidi. Hələ ağlı yetişməyən, yeniyetməlik dövrünə qədəm qoymağa yaxınlaşan bir uşağı sənə verib, özümü də, onu da bəlaya salammaram, Şöhrət. Bilirsən ki, uşaq oğurluğu, onların əzalarının alqı-satqısı indi nə qədər dəbdədi?

— Bilirəm.

— Polisdə onun evdən qaçması, doğma anasından, atalığından imtina eləməsi barədə məlumat var. O uşağı sənə mən necə gəldi təqdim eləyəmmərəm.

Şöhrət dərhal ayağa qalxdı:

— Qalx gedək, oğlumu görüm. Mən azğın və şərəfsiz adam deyiləm. Məndən cinayətkar olmaz...

O, cibindən köhnə, çirkli yaylığını çıxarıb dolan xırda gözlərinin yaşını sildi. Sifətində ötərgi işıq yarandı. Sonra astadan dedi:

— Sahibdən ayrılalı yuxularım qaçır, gecələrim ərşə çəkilirdi. Arzularım, xəyallarım bir-birinə calanırdı. Özüm üçün: — Oğlumla nə vaxtsa görüşəcəm — deyə gah fantastik qapılar açır, gah da nəinki qapıları çəkib bağlayır, hətta, bəzən öləcəm, oğlumla görüşəmməyəcəm deyə şiddətli tərəddüd keçirirdim. Bəzən də ümidsizlik təlqin eləyən tərəddüdlərimi ən dağıdıcı bombanın təsir gücünü xatırladan qüvvəylə vurub dağıdırdım. Mənim hərəkətlərim dərdimdən xəbərdar olanlar üçün bəzən qəribə və bəzən də inamsız görünürdü.

İçimdə hər cür tufanlar, qasırğalar qopsa da, mən özümü olduqca sərbəst və sakit göstərməyə çalışırdım. Şöhrətə qəsdən ağlagəlməz, mütəəssiredici, bir az da fasfası doğuran suallar verirdim. Suallara cavablar verdikcə onun nəfəsi hərdən elə bil boğazındaca tıxanırdı. Birdən o qaş-qabağını töküb titrək səslə dedi:





— Qardaş, sən bir növ dolayı danışırsan. And verirəm sənibizi Yaradana. Əsas məqsəddən qaçmağa, oxu atıb yayını gizlətməyə çalışma. Əlimə yaxşı keçmisən. Səndən əl çəkməyəcəm... Elə düşünürsən, məni çaş-baş sala bilərsən? Yox, dostum. Hədəfi dumana bürümə.

— Nəzərə al ki, mən də bu sən yaşayan cəmiyyətdə yaşayıram. Kifayət qədər düşünə bilirəm. Az-çox savadım var.

— Əstəğfürullah, siz nə danışırsız? Mən sizi nə dolaşdırmağa, nə də məqsədimi pərdələməyə çalışıram. Tam səmimiyyətlə sizinlə danışıram. Bayaqdan sizinlə söhbət eləyirəm. Ağlınızı, təcrübənizi az-çox təsəvvür eləyirəm. Vicdanlı adam olduğunuzu duyuram və sizə özüm qədər dəyər verirəm: Sizdən yeri gəlsə, məsləhət də ala bilərəm. Məni belə danışdıran insan taleyinə məsuliyyətimdi. Açıq danışaq. Sizin barədə mənim təsəvvürlərim dumanlıdı. Yəqin bu fikrimə şərik çıxarsız. Axı siz də mənə yaxşı bələd deyilsiz.

Şöhrət gülümsündü. Heç şübhəsiz ki, bu da müsahibimlə mənim söhbətimin şərikliyinə dəlalət eləyirdi. Şöhrət oğlu barədə dediklərimdən heyrətlənsə də, dərinə getmədi. Özünü elə apardı ki, həqiqətən də baş verənlər təbiidi. Hər şey öz axarınca gedir. Handan-hana mızıldandı:

— Biz ilk dəfə qarşılaşırıq. Sən çox yaxşı, ehtiyatlı və ədalətli adamsan.

Mən gülümsündüm:

— Ədalətsiz adam yaxşı olanmaz ki. Ehtiyatsız adam, tez yanar.

Şöhrətin ürəyi kövrəldi. Çox çəkmədi ki, kirpiklərinin ucun-

da nəm göründü. Nəmi gizlətmək üçün başını yana çevirdi və titrək səslə bildirdi:

— Mən özümü, deyəsən, yamanca itirmişəm. Məni bağışlayın. Övlad dərdi yandırıcı olur. O göynərtiyə dözmək olmur. Baxıram, siz hamıya özünüz kimi dəyər verirsiz, Aran bəy.

— Xoş sözləriniz üçün sağ olun. Bir halda ki, övlad dərdi siz deyən kimi yandırıcıdı, nə üçün Sahiblə əlaqənizi davam etdirməmisiz, tamam kəsmisiz, Şöhrət.

— Mən kəsməmişəm. Mən hər dəfə Sahibi görməyə gələndə söyülmüşəm, məzəmmət olunmuşam. Hətta, döyülmüşəm. İki dəfə Qoçu məni xəbərdar elədi ki, bir də Sahibin arxasınca sürünsən, mən o uşağı qətlə yetirəcəm. Əlcasız qalıb polisə də məlumat verdim. Nə fayda, səsimi eşidən olmadı. Sahibdən uzaqlaşmağa məcbur olub, Rusiyanın ən ucqar yaşayış məntəqəsinə getdim. Təki Sahib salamat olsun. Sahibin evdən qaçdığı və bu parkda bir neçə dəfə görünməsi xəbərini qonşulardan mobil telefonla aldım və dərhal da bura gəldim. Neçə vaxtdı oğlumu tapmaq, onunla birlikdə yaşamaq ümidiylə də bu parkda yatıram. Mənə rəhmi gələn, mərhəmət göstərən Allah-Təala indi də bizi qarşılaşdırıb. Görünür, Allahımın mənə də, oğluma da yazığı gəlib.

— Şöhrət, mən sənin keçmiş arvadın Şəmslə də, Qoçuyla da görüşmüşəm. Yadda saxla, vicdanla yaşayan adam heç vaxt başqası yox, yalnız özü olur. Başqa xəyallara düşmür, əyri-dolam yollar seçmir. Namusla yaşayır. Namuslu adamda ləyaqət, şərəf olar. O, lovğalıq, təkəbbür nədi bilməz.

Şöhrət taleyindən acı-acı şikayətləndi. Bəzən mənim sözlərimi təsdiqlədi. Tez bir zamanda bizim aramızdakı ucu-bucağı görünməyən sonsuzluq bir-birinə yaxınlaşdı. Mən dedim:

— Şöhrət, sənə bir həqiqəti açacam. Sahib xeyli vaxtdı mənimlə də yaşamır. O, qonşu Əfruzun qızlığa götürdüyü İlahəylə bir-birilərinə qoşulub harasa qaçıblar. Harda məskunlaşdıqlarını





bilmirik, necə yaşadıqlarından da xəbərsizik.

— Axı o, uşaqdı. Qız qaçırmağı hardan qanır?

— Qızı analığı Əfruz hər gün ən kiçik şeyləri bəhanə eləyib söyürdü, döyürdü. Sahibin qızdan həm xoşu, həm də ona yazığı gəlirdi. Sahib haqsızlığa dözənməyib. Hətta, mənimlə də o barədə ötəri söhbət eləmişdi. Mən də ona söz vermişdim ki, İlahə barədə Əfruzla özüm danışacam. Görünür, səbri tükənib, qızı "əsarətdən" çıxarmağa çalışıb.

Əvvəl Şöhrətin elə bil gözləri böyüdü, sonra gülümsünərək dedi:

— Əgər, doğrudan da, elədisə, Sahibə ata kimi mən də haqq qazandırıram. Ona: — Əcəb eləmisən, sağ ol, oğlum, — deyirəm. Yaxşı, Sahibi tapmaqda mənə necə kömək eləyə bilərsən?

— Sahib düşüncəli uşaqdı. Həmişə yaşından çox-çox qabağı fikirləşir. O, getməsini mənə məktubla bildirib. Məktubda onu da göstərib: "Telefon açıb sənə yerimi bildirəcəm". Buna baxmayaraq, mən onu çox axtarmışam, ancaq tapammamışam. Güman eləyirəm ki, o bugünlərdə mənə telefon açar. Sən mənə ünvanını ver. O, mənə telefon açan kimi, mən də sənə hər şeyi çatdırım...

Şöhrət mənə telefon nömrəsi, mən də ona ünvanımı verdim. Ayrılarkən üzümə baxıb dedi:

— Mən sənə inanıram. Oğlumu tapsam, bəlkə o, xoşbəxt olar, mən də sənə qul.

Gözlərim yaşardı və başımı yelləyib Şöhrətə: — Hələlik, — deyib xudahafizləşdim.

## "Ölüm hökmü"

Şöhrətlə hər gün əlaqə saxlayırdım. İkimiz də darıxırdıq. Bəzən telefonla danışarkən Şöhrətin kövrəldiyini, ağladığını da duyurdum. Hər dəfə ona: — Hələ bir xəbər yoxdu, — deməyə də qorxurdum. Axır ki, axşamların birində Sahib evə telefon açdı. Danışdıq. Ünvanını aldım. Dəstəyi yerinə qoyub Şöhrəti xəbərlədim. Gecəykən onunla görüşərək taksiyə oturub, birbaşa Sahibgil qalan evə getdik. Bu ev bir iş adamının malikanəsiydi.

Qapının çağırış düyməsini basdım. İçəridən hərbi paltar geymiş mühafizəçi gəldi. O, ölçüyə-biçiyə gəlməz, uzundraz, köntöy bir kişiydi. Yekə başı, domba gözləri, uzun dik qulaqları, yekə ağzı vardı. Bığının tükləri ağzını örtmək üzrəydi. Qarnı da xeyli irəli çıxmışdı. İti baxışları elə bil adamı deşib keçəcəkdi. Diqqətini üzərində cəmləşdirdiyi adamın ilk anda canında heyrət və vahimə yarada bilərdi. Bir an düşündüm: yəqin bu adamın içi də, zahiri kimi, dəngilavaz olar. Əgər ehtimalım doğrudursa, Allah binadan bunu yazıq yaradıb. Ona kimlərinsə, nə gülməyi, nə də ağlamağı lazımdı. Təbiətin özü möcüzə olduğu kimi, nə yaradırsa, hamısını da həyata möcüzəli bəxş eləyir. Düz yaradır, özü də ölçülü-biçili. Biz insanların təbiətin yaratdıqlarına düzəlişimiz heç vaxt izsiz qalmır. Ona görə də heç heyfslənmək, təəssüf və təəccüblə baxmaq, nəyisə qınamaq, nəyəsə çatışmazlıq kimi baxmaq sanıram ki, düz olmazdı. Bu mühafizəçi olduqca lovğa, təşəxxüslü, nəzakətsiz və xudbin adam təsiri bağışlayırdı. O, qalın səslə:

— Eşidirəm, — dedi. — Nə cəsarət eləyib bu qapını döyürsüz?

Şöhrət acıqlı tərzdə dilləndi:

— Uşaqlarımızın dalınca gəlmişik.





Mühafizəçi:

— Nə uşaqlar? Yoxsa, o balaca qızla oğlanı deyirsiz?

Mən dərhal:

— Hə... Sahiblə İlahəni.

Mühafizəçi nə düşündüsə, bir an tutuldu. İstədi uşaqları nişan verdiyini dəbbələsin. O, çaşqın halda dedi:

— Bağışlayın, ertədən burda balaca qızla oğlan oynayırdılar. Mən onlara acıqlandım. Dedim ki, gedin burdan, bir də bu həndəvərdə görünməyin. Yuxudan təzəcə qalxmışam, elə güman elədim ki, onlar barədə danışırsız.

Şöhrətlə mən bir-birimizin üzünə təəccüblə baxdıq. Şöhrət qapıdan keçmək istəyirdi ki. mühafizəçi onu sinəsindən var-gücüylə geri itələdi. O, büdrəyib yıxıldı. Mən Şöhrətin qolundan tutub güc-bəlayla ayağa qaldırmışdım ki, mühafizəçinin arxasında ucaboy, düz qamətli, uzunsov və sərt sifətli bir adamın dayandığını gördüm. Onun saçları çallaşmışdı. Qara parlaq gözlərində durğunluqla yanaşı hərdənbir məyusluq hiss olunurdu. Xarakterindəki ciddiyyət, sərtlik və gərgin əməyin cizgiləri üzündə özünü bürüzə verən adi təbəssümlə elə tez-tez dəyişirdi ki, bir andaca o, gah sadəlövh, əhvalı xoş adam təsiri bağışlayırdı və hətta, məni də gülümsəmək məcburiyyətində qoyurdu, gah da ikrahedici görkəm alırdı. O anda mən heç cürə onunla uzlaşa bilmirdim.

Geydiyi pijamadan, saymazyana danışığından hiss olunurdu ki, bu adam malikanənin sahibidi. O, üz-gözündən həm də qapalı, mənsəbpərəst, özündən razı görünürdü. Mühafizəçi bu adamı görcək bir qədər də səsini qaldırdı və bizə dedi: — Rədd olun, əclaflar.

Sonra üzünü malikanə sahibi sandığım adama tutdu:

— Az qaldı qapını sındırsınlar. Məni də təhqir elədilər. İbiş müəllim, izacə verin...

İbiş:

— Nəyə icazə verim?

Mühafizəçi:

— Bunlara yerlərini göstərməyə.

— Onları quyulayacaqsan?.. Kənara çəkil.

— Çox ədəbsizdilər. Üzlərinə xoş baxan kimi qudururlar.

— Səbrin olsun. Qoy görüm...

Mühafizəçi tez geri çəkildi. Kənarda dayanıb kinli-kinli bizi süzməyə başladı. Mən Şöhrətdən bir addım qabağa çıxdım:

— İbiş qardaş, bağışlayın, axşam-axşam sizi narahat elədik. Biz Sahiblə İlahənin arxasınca gəlmişik. Mühafizəçidən soruşduq, əvvəl dedi burdadı, sonra dəbbələdi və bizi...

— Sizə kim dedi, Sahiblə İlahə burdadılar?

Şöhrət dərhal:

— Özləri...

İbiş tərs-tərs üzümüzə baxdı

— Anlamadız, mühafizəçi deyirsə, burda yoxdular, deməli, yoxdular... Artıq-əskik danışmağa, zəhlə tökməyə yer qalır? Gedin, uşaqlarınızı başqa yerdə axtarın.

Şöhrət:

— Başa düşmədim. Mühafizəçi gah deyir, burdadılar, gah da deyir burda yoxdular. Onun hansı sözünə inanaq?

İbiş əsəbiləşdi:

— A düdük. Sənin uşağın vardısa, evində saxlayaydın da. Burda niyə axtarırdın?

Mən dərhal:

— Uşaqlar evdən qaçıblar.

İbiş:

— Nə qələt eləmisiz ki, uşaqlar evdən qaçıblar?

— Bizi təhqir eləməyin... Kor-kobudluq nəyə lazım? Uşaqların taleyi ilə oynamaq sizə yaraşmaz.

— Ha... Ha... Ha... Böyük qeyrət sahiblərisiz.

Şöhrət:





— Qeyrətimiz var-yoxdu, özümüz bilərik. Özün də ağzıbaşına danışma.

İbiş dodaqlarını gəmirə-gəmirə Şöhrəti ayaqdan-başa süzdü. Mühafizəçi dərhal dilləndi:

— Dedim də, İbiş müəllim, mənə icazə verin.

İbiş nə fikirləşdisə:

— Bunlarla qapı ağzında danışma. Sabah zurna səsi aləmi bürüyəcək. Çək içəri, hər ikisini.

Mən hiss elədim ki, bir az da söhbəti kəskinləşdirsək, gecə vaxtı dava-dalaş salıb üz-üzə dayanacağıq. İstədim Şöhrətin tonunu bir qədər aşağı salım. Mühafizəçi dilləndi:

— Keçin, qapı ağzında çərənləməyin.

Şöhrət qabaqda, mən də onun ardınca həyətə keçdik. Darvazanın sağında keşikçi və xidmətçilər üçün tikilmiş birmərtəbəli ev, həyətin yuxarı tərəfində üçmərtəbəli, zövqlə tikilmiş bina. Binanın qənşərində ikimərtəbəli küləfrəngi. Onun da solunda hovuz. Hovuzdan da bir az aralıda maşın qarajı. Həyətdə böyük tut və bəzək ağacları. Elektrik lampalarının işığında rəngdən-rəngə çalan, ətri hər tərəfi bürüyən gül-çiçəklər.

Gedib küləfrəngidə əyləşdik. Əsəbdən Şöhrətin bədəni titrəyirdi. Mən əlimi onun dizinin üstünə qoydum.

İbiş acıqlı-acıqlı dedi:

— Ayə, qanırsız indi saat neçədi?

Mən saatıma baxdım, sonra da astadan bildirdim:

— Saat on. On birə işləyib.

— Bu vaxt özgə qapısı döyərlərmi?

Şöhrət atıldı:

— Əvvəlcə, düşün gör, nə üçün sənin qapını döyürük? Sonra bizə o sualı ver.

— Deyəsən, səni yıxıb başa salmaq lazımdı.

— A kişi, əvvəla, beş manat pulun var deyə, camaatı qırıbbatırmaycaqsan ki? İkincisi də, üstümüzü unlu görüb bizi dəyir-

manşı sanma. Hərə özünə görə bir kişidi.

İbiş ucadan güldü:

— Ha... Ha... Ha... Kişiyə bax ha.

Mən İbişlə ədəb-ərkanla danışığın mümkünsüzlüyünü hiss elədim və astadan bildirdim:

— İbiş qardaş, qışqırmaqla, hədə-qorxuyla, qan tökməklə Şöhrəti geri çəkindirənməzsiz...

Şöhrət ayağa qalxıb sözümü kəsdi.

— Bəyəm uşaqdan oyun olar? Ayə, uşaq toyuqdu, dovşandı, nədi? Bizi nə sanırsan? Sənin gözlərini pul tutub. Elə bilirsən, pulla hər şeyi eləmək olar?

İbiş əlini stola vurdu:

— Olar.

— Xeyr, sən düz adam döörsən. Bu malikanəni də görünür, adam oğurluğuyla əldə eləmisən. Deməli, mənim də uşaqlarımı oğurlamısan. Adam oğurluğunun bir cəzası var.

— O cəza nədi?

— Ölüm hökmü...

Mühafizəçi:

— Tələyə öz ayaqlarıyla gəlib düşüblər. Nə fikirləşirsiz, İbiş müəllim?

Mən başımı yelləyərək təəssüf hissiylə dedim:

— Çox xətalı hərəkətdi. Bu mərəkəni eşidib bilən sizə nə deyər, İbiş müəllim? Ayıbdı. Nə Şöhrəti əsəbiləşdirin, nə də özünüzü uşaq yerinə qoyun. Məncə, bu Şöhrətin ciddi qəbul elədiyi kimi, uşaq oğurluğu deyil, bizimlə məzələnməkdi... Bizim də az yaşımız yoxdu... Kifayət qədər bizi oynadıb məzə çəkdiz. Hiss eləyirəm, adamları sirk heyvanları kimi məsxərəyə qoyub məzələnməyə öyrəncəlisiz... Güman eləyirəm, onun da həddi-hüdudu var. Həddi aşana Allah özü cəza verir...

İbiş ani fikrə getdi. Stolun üstündəki papiros qutusundan bir dənə götürüb yandırdı. Bir qüllab alıb handan-hana tüstünü





ağız-burnundan buraxdı. Sonra mühafizəçiyə dedi:

— Sahiblə İlahəni get gətir.

Mühafizəçi: — Oldu, — deyib əlini qulağının dibinə apardı. Çox çəkmədi ki, mühafizəçinin yanında uşaqlar küləfrəngiyə gəldilər. Sahib məni görcək üstümə atıldı. Biz bir-birimizə sarıldıq. Hər ikimiz ağladıq. Sonra da İlahəylə: — Qızım, — deyə görüşdük. Şöhrət qucaqlayıb öpmək istədikdə Sahib onu tanımadığından geri çəkildi. Mən dərhal dedim:

— Sahib, bu sənin atan Şöhrətdi, oğlum. Həmişə görmək istədiyin atan.

Sahib süst qaldı. Yad adamlar kimi ata və oğul bir-birilərinin üzlərinə baxdılar. Bu anda Sahibin içinə qorxu və tərəddüd hissləri hopdu. Həyasındanmı, ya nədənsə, onun yanaqları qızardı. Şöhrətinsə həyəcandan, sarsıntıdan quruyub çat-çat olmuş dodaqları səyridi. Gözləri yaşardı. O, üzünü tez yana çevirdi.

Elə bu vaxt malikanədən bəstəboy, dolu bədənli, saçlarına sarı rəng çəkilmiş, girdə sifət, uzun kirpikləriylə haşiyələnmiş mavi gözlü bir xanım küləfrəngiyə gəldi. İbiş ona əyləşmək üçün stul göstərdi və gülümsünərək bildirdi:

— Gəl, əyləş, uşaqlarla bir həyətdə vaxt keçirmək sənə qismət olmadı.

— Niyə?

— Valideynləri gəliblər. Aparmaq istəyirlər.

Qadın məndən soruşdu:

— Uşaqlar sənindi?

Şöhrət dərhal:

— Mənimdi, bacım.

— Siz yaşda adamın...

— Hə... Mən çox gec ailə qurmuşam. Dörd il də uşaq gözləmişik. Allahın mərhəmətinə şükür.

Qadın gülümsündü. Qaşlarını oynadıb çiyinlərini çəkdi. Bir an araya tam sakitlik çökdü.

Handan-hana güclü ehtiras və qətiyyətlə Şöhrət oğluna dedi:

— Oğlum, neçə vaxtdı səndən ayrılalı dərd-sərdən içim göynəyir. Ağrı-acılardan sümüklərim sızıldayır. Səninlə bir daha görüşəmməyəcəyim o anları xatırlayanda bilirsənmi nə qədər heyfslənirəm? Dəhşətə gəlirəm. Həmişə elə bilirdim, dünyada ölüncə tək-tənha qalacam. Sənin üzünü heç vaxt görməyəcəm. Görünür, Allahımın mənə rəhmi gəldi. Səni mənə qaytardı. İndi birlikdəyik. Bu qədər adam bizə baxır. Hekayətimizdən xəbərdardılar. Mən sənin atanam. Səninlə birlikdə yaşamaq, səninlə nəfəs almaq, düşünmək, halından xəbərdar olmaq bilsən, mənim üçün nə qədər əlçatmazdı? Balaca, cılız bədəninlə çəkdiyin əzablardan halıyam. Onları düşünəndə özümə qəsd eləmək istəyirəm, oğlum. Məni lənətləməyə sənin hər cür haqqın var. Mənə nifrət də eləyə bilərsən. Mən içimi az da olsa, sənə açdım. Səninlə görüşə daim can atmışam. Sənin həyatın, salamatlığın naminə səndən qaçmışam. Ancaq bu illər ərzində neçə dəfələrlə ölmüşəm, dirilmişəm. Elə məsələlər var ki, onları indi də dilimə gətirəmmirəm. Onları sənə ikimizlikdə aça bilərəm, oğlum. Qarşında diz çökürəm. Səni dünyaya gətirib bəlaya salmışıq. Bağışla məni, bağışla, Sahib!

Oğlan gözlənilmədən dedi:

— Hə, ata, səni gözlərindən, bir də səsindən tanıdım. Sən mənim atamsan. Bəs, mənə dedilər sən ölmüsən. Mən o sözə inanmadım. Elə bilirdim, sən cavansan. Ancaq qocalmısanmış...

Mən Sahibin qolundan tutdum:

— Qucaqla atanı, oğlum. Öp onun üzündən. Mən çox şeydən xəbərdaram. Bu işdə atanın günahı yoxdu.

Atayla oğul qucaqlaşdılar. Bu mənzərəni müşahidə eləyən hər kəs göz yaşları içərisindəydi. Hətta, o müdhiş mühafizəçi də, İbiş də. Heç kəs bir yerdə dayana bilmirdi. Şöhrət Sahibdən ayrılıb İlahəni qucaqladı. Onu da doğma balası kimi bağrına basdı — Qızım, mənim balam, — deyə hönkür-hönkür ağladı.





Bu mənzərəni heyrətlə müşahidə eləyən qadın handan-hana özünə gəldi. Onun üzündə yüngül təbəssüm göründü:

— Gör dünyada nələr baş verir? Böyüklüyünə şükür, bizi Yaradan...

O, üzünü Şöhrətə tutdu.

— Bu gün torpağa basdırılan şitil sabah göyərir... Qayğı göstərirsən, qol-budaq atır... Bar verir. Vaxtı çatanda da quruyur. İnsan da elədi. Bu gün uşaq, sabah gənc, o birisi gün də ahıl. Axırda da torpağa gömülür. Gərək elə yaşayaq, öləndən sonra da duyğusallıqla xatırlanaq. İnsanı məhv eləyən özünün nadanlığı, fitnəkarlığıdı.

Uşaqlar sizindi. Sahiblə İlahəni indiyədək biz bacı-qardaş sanmışıq... Düşüncəlidilər. Neyləmişiksə, halal-xoşları olsun. Aparın uşaqlarınızı. Onlar təki bir də belə cansıxıcı, əzablı halla qarşılaşmasınlar... Siz də düşüncəsizliyə yol verməyin...

Hərc-mərclik, şərə-şurluq iqtidarını itirən İbiş mızıltılı səslə dilləndi:

— İşdən maşınla evə qayıdırdım. Maşını həyətə salanda Sahib mənə yaxınlaşdı və dedi ki, əmi, biz bacı-qardaşıq. Yatmağa yerimiz yoxdu. İşləmək istəyirik. Bəlkə bizə iş, yatmağa yer verəsiz? Biz də dolanaq. Mənim onlara yazığım gəldi. Dediklərini elədim, sonra da Sahibə dedim: — Sən həyət-bacaya bax. Ağacların diblərini boşalt. Ağacları, gülləri sula. Bağdakı ot-əncəri təmizlə. İlahə də ev işlərini görsün. Xidmətçiyə kömək eləsin. Əvəzində hər gün burda yeyib-içərsiz... Siz də xidmətçi damxasında qalarsız. Beləcə, Sahiblə razılaşdıq. İstəyirəm biləsiz, mənim onlara heç bir borcum yoxdu... Mən sizdən də heç nə istəmirəm. Gedəndə heç olmasa, mühafizəçiyə azdan-çoxdan hörmət eləyin. Uşaqlarınız üzərində onun da zəhməti var.

Mən mənalı-mənalı İbişə baxdım. Öz-özümə düşündüm: "Deməli, İbiş bizə uşaqlarımızı satır. Bəli, belə həyatın üzü qara olsun..." Ərinin sözündən qızaran qadın əsəbiləşdi:

— Mühafizəçi qələt eləyir.

O, sonra üzünü Şöhrətə tutdu:

— Uşağı dünyaya gətirmək azdı, əsas onu sağlam böyütmək, sağlam tərbiyə eləməkdi...

## Doğan səhər

Biz evə gələndə qapı ağzında bacım Zinyət və yeznəm Möhübbətlə qarşılaşdıq. Qonşular Sahiblə İlahəni bizimlə birlikdə görcək çox sevindilər. — Gözünüz aydın, Aran qardaş, — deyə gözaydınlığı verdilər. Elə bil Əfruzun üstünə neft töküb od vurdular. O, İlahənin üstünə qırğı kimi şığıdı. Mən onun qarşısına keçdim.

— Uşaqdan kənara dur. Əsəbiyəm, özümdə deyiləm, əlimdən xəta çıxa bilər.

Əfruz:

— Onun gözlərini çıxaracam. Onu işığa həsrət qoyacam.

İlahə ağladı. Şöhrət dərhal:

— Ona toxunsan, səni öldürəcəm. Qalan ömrümü də barmaqcıqlar arasında keçirəcəm.

Qonşu Məcid kişi Əfruza dedi:

— Balam, uşağın haqqını nə qədər tapdalamaq olar? Vicdanın olsun. Kim haqqının bu qədər pozulmasına dözər? Neçə gündü hardaydın, niyə axtarmırdın onu?

Əfruz Məcidə:

— Mən neyləməliydim? Mənim qədrimi bilmədi, — deyə özümü öldürməliyəm? Aran hər cür alçaqlığa gedir.

Zinyət dərhal:

— Sən canavarsan, Əfruz. Parçalamaq, dağıtmaq sənin xilqətindədi. Bundan sonra səndən sədaqət gözləmək sənə tay olmaq deməkdi. And içsən də, üzünü kənara çevirən kimi, olacaqsan





canavar. Səndən İlahəyə ancaq xəta gələr. Arandan da qurtar. O, sənin tayın deyil.

Şöhrət hisslərinə hakim kəsilənmədi:

— Əfruzsan, nəsən, məni bura İlahənin Allahı göndərib, vadar eləmə ki, əlimi qana batırım.

Biz qapını açıb otağa keçdik. Bacımla yeznəm Şöhrətin Sahibin atası olduğunu biləndə sevinclərindən az qaldılar ki, qanadlansınlar. Yeznəm hamımızı təbrik elədi. Bacım dedi:

— Deməli, Sahib öz evinə getməli oldu. Arxeyin ol, Sahib, tez-tez sizə gələcəyik. Yəqin, sən də bizi — Aranı unutmazsan.

— Xeyr, mən Aran əminin yanında qalacam.

Şöhrət:

— Oğlum, hələ sənin bilmədiyin çox şey var. Mən Aran əminə sənin qayğılarını çəkdiyi üçün ömrüm boyu borcluyam. O yaxşılıqları unudammaram. Olub-keçənləri gizlətməyin mənası yoxdu. Deməliyəm ki, bəlkə başımıza gələnlərdən kimlərsə, ibrət götürsünlər.

Mən qırx altı yaşında ailə qurdum. Sevindim ki, öz evim, ailəm, uşaqlarım olacaq. Məni bağışla, dörd il uşaq gözlədim. Şükür ki, sən doğuldun. İndi sənin on iki yaşın var. Sənin dörd yaşın olanda mən tikintidə işləyirdim. Çoxmərtəbəli binanın üstündən yıxıldım. Qıçım, iki qabırğam sındı. Gözlərimi açanda özümü xəstəxanada gördüm. Həkimlər ayağımın birini dizdən aşağı kəsdilər. Mənə protez geyindirdilər. Xəstəxanada uzun müddət yatdım. Evə qayıdanda anan Şəms məni qəbul eləmədi. Mənə anam qayğı göstərməli oldu. Sonralar eşitdim ki, arvadım mənim evimə Qoçu adlı bir kişi salıb. Ayağım yer tutanda səni görmək üçün neçə dəfələrlə evə getdim. İki dəfə səninlə görüşdüm. Sonuncu dəfə gedəndə Şəmslə Qoçu məni aldadıb evə saldılar. Ağacla döydülər, ağız-burnumun qanı qarışdı. Qoçu mənə dedi: — Alçaq, bir də bura ayaq bassan, Sahibi ölmüş bil. Onu boğacam. Doğrusu, mən sənə xətər yetirilə biləcəyindən qorx-

dum. Geri qayıtdım. Çıxış yolunu ölkədən çıxıb getməkdə gördüm. Yır-yığış eləyib heç kəsə bir söz demədən Rusiyaya getdim. Orda yaşasam da, günüm xoş keçmirdi, daim səninlə maraqlanırdım. Xəbər tutandakı sən evdən çıxıb Bakıya gəlmisən, Füzuli meydanında səni görən olub, mən dərhal qatara bilet götürüb bura gəldim. Tale məni sənin xeyirxahın Aranla qarşılaşdırdı. İndi də Aranın evində səninlə, bu adamlarla birlikdəyəm...

Dünən təzə bir xəbər də eşitdim. Qoçuyla ananın sözləri çəpləşib, namərd Qoçu anana əl qaldırıb. Anan da stolun üstündəki uzun tiyəli bıçağı Qoçunun qarnına soxub Qoçu yerindəcə dünyasını dəyişib. Ananı hüquq mühafizəçiləri həbs eləyiblər. Onlardan olan qızı da polislər özləriylə götürüblər. Hara verdiklərini hələlik bilmirəm.

— Sən deyənlər, ata, həqiqətdimi?

— Hə, oğlum. həqiqətdi.

— Məni bu evdən hara aparmaq fikrindəsən?

— Sən hara desən, ora.

— Bəs İlahə?

— Bizimlə getsə, onu da aparacam.

— Mən İlahəsiz heç hara getməyəcəm.

— Sağ ol, oğlum, sən əsl kişisən.

Mən qalxıb Sahibin saçlarından öpdüm. O, dərin fikrə daldı, handan-hana üzünü atasına tutub dedi:

— Ata, mənim damarlarımda sənin qanın axır?

— Axır, oğlum, axır.

— Bəs bacımın damarlarında necə? Sənin qanın axırmı?

— Yox... Nə demək istəyirsən?

— Mənim qanım bacımın damarlarında axırmı?

— Hə... Axır.

— Qoçu ölüb. Mənim ondan zəhləm gedir. Məni o evdən də Qoçu qovub. Anam da yoxdu. Mən elə ananı istəmirəm. De görüm, kimsəsiz bacımı qəbul eləyə bilərsənmi?





Şöhrət əvvəl tutuldu. Sonra nə fikirləşdisə, üzü işıqlandı və astadan titrək səslə bildirdi:

— Sənə görə, hə, qəbul eləyərəm.

— Elə isə İlahəylə birlikdə səninlə gedirik.

Sahib sonra mənə tərəf döndü:

— Bağışla məni, Aran əmi, bağışla.

Sahibin saçlarından öpdüm. Sonra mən yaranmış vəziyyətə aydınlıq gətirməli oldum.

— İlahəni özünüzlə aparmaq çətin olacaq. Biz gərək qonşularla danışaq. Onlar Əfruzun İlahəyə münasibətləri barədə hüquq-mühafizə orqanlarına məlumat versinlər. İlahə də Əfruzun himayəsində nə üçün yaşamadığını məhkəməyə bildirsin. Məhkəmə işə yenidən baxsın. Onun Şöhrətin himayəsinə keçməsinə qərar versin. Yoxsa, iş belə alınmaz.

Zinyət güldü:

— Əfruzla qarşılaşmaqdan, qalmaqaldan nə qədər qaçırsansa, həmişə də ona ilişirsən. O, Aran, səni də, uşaqları da qarğıyacaq.

Möhübbət:

— Eh... Allah Aranı elə ifritələrin alqışıyla yaratmayıb ki, qarğışıyla da cəzalandıra. O, danışacaq-danışacaq, sonra da yorulub yerində də oturacaq. Acığı soyuyacaq. Soyuq başla fikirləşib peşmançılığını çəkəcək... Bir də ki deyirlər: “Çaxır nə qədər tünd olsa, öz qabını çatladar”. Hər şey əlindən çıxanda uzağı baş-gözünə döyər. Qələt eləyir, Əfruz.

Mən təəssüf hissiylə:

— Özü də bilir, biz günahsızıq.

Şöhrət:

— Həyatımda baş verənlərdən dəhşətə gəlirəm, Zinyət bacı. Əzab çəkirəm... Deməli, işin axırı gedib çıxacaq məhkəmələrə. Əcəb işə düşdük. Dava-dalaş, məhkəmə çəkişmələri. Nə olur-olsun. Təki İlahənin, Sahibin rahatlıqları təmin olunsun.

Zinyət:

— Eh... Məni qınamayın. Bu dünyada ağlı tam başında normal adam tapmaq çətindi. Kimi qurcalayırsan, içindən qəmbərqulu çıxır.

Möhübbət:

— Hamımız bir bezin qıraqlarıyıq. Bəlkə başqa vaxtı Əfruzu çağıraq, ona vəziyyəti danışaq? Bəlkə İlahənin qəyyumluğundan o özü imtina eləyəcək?

Zinyət:

— Deyirsən, dəlinin yadına daş salaq. Qızışsın gecə vaxtı aləmi yığsın bura, abrımızı əlimizdən alsın. Siz onu tanımırsız. Azacıq dalağı sancsa, gəvəzəyəcək.

Mən dərhal:

— Hə, onu düz deyirsən, fitnəkarlıqda, iftiraçılıqda tayı yoxdu. Gecə-gecədən keçir. Sabah bu məsələyə qayıdarıq. Atalar deyib: "Gecənin xeyirindən sabahın şəri yaxşıdı".

## Özü yıxılan ağlamaz

Səhər yuxudan erkən qalxdım. Həyətə düşdüm. Elə bu vaxt Əfruz qonşu Rəmmamə xanımla söhbət eləyirdi. O, məni görcək kükrədi. Ürəyindəki bütün od-alovu açıb tökməyə başladı. İstədim ona cavab verməyim. Yanlarından sakitcə ötüb keçim, ancaq onun sonuncu cumlələri məni dilə gətirdi: — Namus da, qeyrət də yaxşı şeydi. Atalar deyib: "Döymə qonşu qapısını, vaxt gələr, səninkini də döyərlər". Bu boyda kişi niyə anlamır ki, İlahəni başdan çıxarıb bir nəsli-kökü bilinməyənin yanına qoşmaq kişilikdən deyil. Onu Allah da götürməz...

Mən sakitcə:

— Xanım, əvvəla, İlahəni kiminsə böyrünə mən qoşmamışam, o, özü qoşulub gedib. Özü də sənin zülmündən qaçıb. Canı-





nı səndən qurtarmaq istəyib. O, bu gün də gedib səndən imtina barədə hüquq-mühafizə orqanlarında vəsatət qaldıracaq.

— Arxeyin ol, elə bilməyin ki, sizin onun başını tovlamanızdan xəbərsizəm. Əsla yox. İlahə evdən gedən gün mən özüm məhkəməyə gedib, ondan imtina ərizəsi yazmışam. Qadın olsam da, bəzi kişilərdə qəhətə çıxan qeyrət məndə var.

Əfruzun məhkəməyə gedib imtina ərizəsi yazmışam deməsinə içimdə sevinsəm də, üzə vurmadım. Ancaq dediklərinə münasibət bildirdim.

— Səninki qeyrət deyil, Əfruz. Yadında saxla, çox özündən razı və qılıqsız adamsan... Bunu sənə bir dəfə demişəm, indi də təkrarlayıram. Mən qorxuram böyüyüb ağılları söz kəsəndə, səni tanıyanda doğma balaların da, səndən imtina eləyə. Onda sənin faciən başlanacaq.

Əfruz üzümə diqqətlə baxdı. Rəmmamə axır ki, dilləndi:

— Əfruz, Aran qardaş elə-belə söz demir. Yaxşı fikirləş. Özü yıxılan kəs qalxmağı da bacarmalıdı. Özünə düzəliş ver, yoxsa...

— Nə yoxsa?..

— Neçə illərdi bir məhlədə yaşayırıq. Hələ səni düz-əməlli tanıyan qonşu yoxdu. Hər dəm bir ağıla qulluq eləyirsən. Şəxsən mən də sənin hansı məzhəbə qulluq elədiyini öyrənəmməmişəm. Bacı, sənə söz deyən kimi atılırsan. Danışmağa heç kəsə macal vermirsən. Öz səsin öz başına düşür. Sən o zavallı qızı qəyyumluğa götürdün, ancaq saxlayanmadın.

Əfruz səsini başına atdı:

— Ay qız, Rəmmamə, sən də belə. Sənə güvəndiyim dağlar...

Rəmmamə məhəllədə olan söz-söhbətə, dedi-qoduya qarışmazdı. Hamı onu məhəllədə səs-səmirini çıxarmayan adam kimi tanıyırdı. O, öz iş-gücüylə məşğul olurdu. Adama elə gəlirdi ki, bu qadın deyilən söz-söhbətləri içinə yığır, nə vaxtsa, hardasa dəfn eləyirdi. Bəlkə də mən hissə qapılıram. Hər halda bu

hamının qənaətiydi. Mənim cavablarım Rəmmamənin Əfruza qarşı münasibətində xeyli korrektlər aparmağa imkan verdi. Onda Rəmmaməyə münasibətim tamam dəyişdi:

Söhbətin alınmayacağını görən Əfruz: — İlahəni verdim sizə, aparın döyün başınıza, — deyib bizdən acıqlı-acıqlı ayrıldı və tələm-tələsik həyət qapısından çıxdı.

Rəmmamə sözünə davam elədi.

— Əfruz bədbəxtdi. Onun ürəyi təmiz, dili zəhərdi. Danışdığıyla ürəyi heç vaxt uyğun gəlmir.

Mən Rəmmaməyə qəti şəkildə etiraz elədim:

— O, hiyləgərdi. Hər addımda özünü düşünür. Bəlkə də iyirmi-otuz il əvvəli fikirləşir. İlahəni özünə qul sanır. Siz yaxşı danışdız. Cavablarınız xoşuma gəldi. Rəmmamə xanım, onun sizin sözlərinizə əks arqumenti olmadı. Ona görə də acıq eləyib getdi. Azacıq əli ilişsəydi, sizdən əl çəkməyəcəkdi...

Rəmmamə gülümsündü:

— Həyat çox mürəkkəbdi.

— Həyatı mürəkkəb eləyən, onu abırdan salan biz insanlarıq. Bilirsiz niyə? Çünki bütün sahələrdə özümüzü görürük. Məqsədimizə çatmaq üçün bəzən lap süprüşürük. Bir ləyaqətsizin nazıyla oynayırıq. Liberallıq eləyirik. Ona vaxtında ayağın yandı, geri çək demirik. Adam özünə kənardan baxsa, inanıram, varlığına tüpürər. Bir alçağa, ləyaqətsizə məddahlıq eləmək ləyaqətlinin heysiyyətinə toxunmaqdı. Onu təhqir eləməkdi. Vicdan sahibləri elə hallarla razılaşa bilməzlər.

— Aran, neçə vaxtdı, bir məhəllədə yaşayırıq. Heç kəsin qəlbinə toxunacaq söz deməmişəm. Ancaq bu gün Əfruzun xatirinə dəydim, onu incitdim. Sanıram ki, düz elədim. Ona dediklərim yəqin ki, qulaqlarında guppuldayır... Gərək o özü ona şərait yaratmayaydı. Mən də sinirləndim, özü də. Həyatda hər cür adamlar var. Yaxşılar olduğu kimi, dünya sandıq tulalarından da xali deyil. Eləəriylə qarşılaşmaqdansa, çənə döyməkdənsə zooparka gedərək, heyvanlara tamaşa eləyib vaxt keçirməyi üstün tuturam... O cümlədən, Əfruza.





Mən güldüm. Sonra dedim:

— Rəmmamə xanım, mənə elə gəlir ki, İlahəni daha Əfruzun ümidində qoymaq olmaz.

— Mən də o fikirdəyəm. İnsan əcaib şeydi... Nə desən, ola bilər. İndi gedib ona ağıl versək, sən yaxşı adamsan, — deyə onu şişirtsək, sonra dərisinə sığmayacaq. Bir azdan hər şeyi unudacaq, yenə sarsaq xarakterinə sədaqətlilik göstərəcək. Üfürülmüş şar kimi partlayacaq...

Mən güldüm.

— Onda bizə deyərlər işə bax, gah məddahları söyürlər, gah da özləri məddahlıq eləyirlər... Biz Əfruza güzəştə gedə bilmərik. İlahəni ondan qoparmalıyıq... Zavallı qızcığazın səsinə bütün qonşular səs verməlidilər.

— Mən İlahəylə bağlı hər şeyə hazıram. Məhkəmədə mən də öz sözümü deyəcəm, Aran.

Rəmmamə xanımdan ayrılıb bütün qonşularla söhbətə getdim. Kişili-qadınlı hamısından İlahənin Əfruzun əlindən alınmasına səs vermələrinə razılıq aldım. Elə həmin gün mən İlahəylə gedib Əfruzun analığından imtina vəsatətini məhkəmə qarşısında qaldırdım. İki ay keçər-keçməz məhkəmə İlahənin istəyini nəzər aldı və onu Şöhrətin himayəsinə verdi.

Ayrılarkən mən Sahibin təhsili ilə bağlı topladığım sənədləri Şöhrətə verib: — Sahibi oxutmaq mənə nəsib olmadı. Sən bu iki balanı təhsildən kənarda saxlama, — dedim.

## Epiloq əvəzi

Sahibgili yola salıb, tək qalan axşamı mənim içimə hardansa axıb gələn dərin xof çökdü. Bərk darıxmağa başladım. Mənə elə gəldi ki, bu axşam yenə başqa planetlərdən gələn qonaqlarım yenidən təşrif buyuracaqlar və məni özlərini gətirən naməlum obyektə mindirib harasa aparacaqlar. Gecə yatmaqdan qabaq müəmmalı səfər üçün hazırlıq gördüm. Yuyundum, məni çağıran kimi, ləngiməyim, axtarmayım, — deyə təzə, təmiz pal-paltarlarımı asılqandan asdım. Onu da fikirləşirdim ki, möhtərəm qonaqlarım gəlsələr, məni harasa aparası olsalar, yaşadığım yer adlı məkanla səmti, forması, xarakteri bilinməyən yeni planet arasında zaman zənciri qırılacaq. Tamam başqa vaxtda özgə aləmə düşməli olacağam. Təsəvvür eləyənmədiyim planetdə on dəqiqə qalası olsam, doğulduğum məkanda ən azından iyirmi, bəlkə də daha çox — otuz, əlli, yüz illik zaman məsafəsi ötüşəcək. Yaddaşım pozulacaq. Qayıdası olsam, mən doğulub boya-başa çatdığım bu məskənimi, "Doğmalarımı tanıya biləyəcəmmi?!" sualı məni dağa-daşa çırpırdı. Həmin gecə yatammadığımdan gözlərim qapıda, pəncərədə qaldı. Vahimə doğuran gecə çəkildikcə dan yeri sökülürdü. Yatağımdan qalxdım. — Yəqin Sahibgil el-obalarına çatarlar, — deyə yazı masasına yaxınlaşdım. Bir məktubda Sahibə, İlahəyə və bir də Şöhrətə istək və diləyimi yazdım.

"Qardaşım Şöhrət! Mənəvi övladlarım sandığım əzizim Sahib, qızım İlahə! Heç şübhə eləmirəm ki, bundan sonrakı həyatınızı ürəyinizcə qurub yaşayacaqsız. İnanın, sizin xoş anlarınızdan, yüksək əhvalınızdan mən də xoşhal oluram. Fərəhlənirəm. Sizin hər hansı xoş təəssüratlarınızdan mənəvi rahatlıq tapıram. Xoşbəxtlik vəd eləyən gələcək həyatınızı düşünüb sizə təcrübəmdən aldığım qənaətlərimi çatdırmaq istəyirəm. Üzümü an-





caq sizə yox, həm də bu məktubumu oxuyacaq hər bir şəxsə tuturam. İstəməzdim, dediklərimi pedaqoji ehkam kimi dəyərləndirəsiz. Əsla! Pedaqoji məsləhətlərdən çox-çox uzağam. Əsas məsələyə keçməzdən əvvəl nəzərinizə çatdırım ki, mənim də şəxsi həyatım çox ibrətamizdi. Bəxtimin korluğundanmı, ya nədənsə, ailə qurmaq, ev-eşik, arvad-uşaq sahibi olmaq mənə nəsib olmadı. Mənzilimdə təkcə öz nəfəsim duyulur. Mən hər səhər qapılarımı bağlayıb evdən gedirəm. Axşamlar geri dönəndə kimsənin evimin işığını yandırmadığını görürəm. Etiraf eləyim ki, əzizim Sahib, onda sənsizliyimi hiss eləyirəm. Darıxıram. Ağılsızlığım ucbatından uşaq qığıltıları, uşaq qəhqəhələri evimdən eşidilmir... Məncə, bundan ağır dərd yoxdur. Barsız-bəhərsiz ağac təkin yaşa, ömrünü nəyəsə fəda elə, səndən sonra həyatda izin qalmasın. Görün nə günə qalmışam ki, idrakımın məhdudluğundan, düşüncələrimin korkəzməzliyindən bu yaşda özümü şikəst sanıram. Dönə-dönə etiraf eləyim, bu bədbəxtliyin səbəbi mən özüməm. Dediklərim bəlkə də çoxlarına gülməli görünəcək. Ola bilsin, bu düşüncələrimə görə məni qınayanlar da tapılacaq. Elələrinə bəzən hardasa haqq qazandırıram. Bir çoxları fikirləşəcəklər ki, itirilənlər barədə bu sində danışmaq "odu söndürüb, külüylə oynamağa", "arxadan atılan daşın topuğa dəyməsinə", "ədəb-ərkandan", "milli mentalitet" deyilən şeylərdən uzaqlığa bənzəyir. Əsla mən elə düşünmürəm. Günümə düşməmək üçün mən deyənlərdən kimlərsə nəticə çıxarıb, başlarına çarə qılarlarsa, sonradan çox güman ki, axvayı yerə yanıb yaxılmazlar... İstər oğlan olsun, istər qız, fərq eləməz. Mənim kimi yaşı ötən subayların eşqə düşmələri təzəcə "oğurluğa" qədəm qoyan, ondan əldə elədiklərini qənimət sanıb: — Əcəb həzz aldım, — deyə düşünən, yaxud alışıb-yanan, ehtiraslı qəlbi hədsiz ləzzət hissiylə dolub-boşalan kimsənin halı kimi içi boş dağarı xatırladar. Bu halı tam mənasıyla öz ünvanıma yazıram. — Özü yıxılan ağlamaz, — deyiblər. Nə isə... Ətrafımızda cür-

bəcür xilqətlilər dolaşır. Bir anlığa götürək yeriyəndə əndamıyla kişiləri cəlb eləyən Əfruzu, puluyla öyünən Qəməri, muskuluna güvənən Rəcəbi. Onların yöndəmsiz oturuş-duruşu, ucadan mənasız, lüzumsuz, əttökən danışıqları, üzlərində yaranan gülüşlərinin özləri də bilmədən hırıltıya çevrilməsi, bir sözlə, mənəvi-əxlaqi dəyərlərdən uzaqlıqları açıq-aydın iç dünyalarının natəmizliyinə dəlalət eləyir. Hələ üstəgəl danışıqlarının kor-kobudluğu, geyimlərinin yaşlarına uyğunsuzluğu... birbaşa xarakterlərinin naqisliyinə işarədi. Mühafizəçi və Nəsir kimilərin özlərindən zəif sandıqları adamların üstünə kəkələmələri, onlara zor işlətmə cəhdləri, həmçinin güclü və pullular qarşısında quyruq bulamaq kimi şıdırğı rəqsləri ləyaqət və şərəfsizliklərinin göstəricisidi. Az bilib çox danışmaları, özlərindən ağıllılara dərs verməkdə bulunmaları, səthi təsəvvür elədikləri şeylər barəsində dayaz, yanlış mülahizə və mühakimələr yürütmələri lovğa və təkəbbürlü olmalarından xəbər verir. Belənçiklərin ədalı davranış və baxışlarıyla özlərinin karyera və nüfuz sahibi olduqlarını gözəsoxmaları adamlara özlərinin cılız, məsxərəli xarakterini açıq-açığına, gülüncvari diktə eləyir. Ən nəhayət, böyük şəxsiyyətlərin müdrik kəlamlarını əzbərləyərək mayor kimilərin yeri gəldi-gəlmədi təkrarlamaları guya onların informasiyalı və erudusiyalılığının başlıca şərtidi. Məncə, Mikrob Məti, Qutdanquc Səfər və başqalarının şəxsində bu naqisliklərin sayını xeyli artırmaq olar. Əslində, bu və buna bənzər davranışlarıyla hər bir hoqqabazı-naqabil özünün simasız, yaramaz və nadürüst obrazını yaradır. İstərdim biləsiz, cəmiyyət belə törtöküntülərlə doludur. Diqqətlə ətrafınıza baxsanız, elə biqeyrətlərin meymunabənzər sifətlərini açıq-aydın görə biləcəksiz. Belələri gözlərimə girəndə düşünürəm, bu tip adamlar əcaib davranışlarıyla nə demək istəyirlər? Öz yerlərində sakit oturub ləyaqətlə özlərini aparsaydılar, nə olardı? Ziyanxorların çılğın ehtiraslara qapanıb özlərini alçaltmağa lüzum vardımı?! Yaxud azacıq ağılları kəs-





səydi, naqisliklərı özlərinə rəva bilərdilərmi?

Bu əcaib xilqət sahiblərindən bəziləri əxlaqi-mənəvi dəyərləri zəhərləmiş canilərdi. Digərləri hələ “ölməmişəm, diriyəm, ancaq ölənlərin biriyəm” deviziylə sürünənlərdi. Üçüncülər, adamların gözlərindən uzaqda qalmaqla tənha ömrünü yaşamağa adətlilərdi. Yaşamaq iqtidarını itirməkdə olan dördüncülərsə, başlarına gələnləri, çəkdikləri məşəqqətləri mənəviyyatlarına sığışdırıb dillərinə gətirə bilməyənlərdi. Onlar təvazökarlıqlarından elədikləri işıqlı əməllərinə görə bəzən utanır, bəzən də danışmağa belə xəcalət çəkirlər. Çox zaman da dilsiz, ağızsız məxluqa, səsi alınmış girova çevrilirlər. Necə ki, Zinyət, Möhübbət, həkim və insani hisslərlə yaşıyan xeyirxah qonşuları. Təvəqqe eləyirəm, məni səfeh, iradəsiz, məhdud düşüncəli sanmayasız. Sahib, sən də, İlahə də hələ kiçiksiz. Sizin gələcəyiniz qabaqdadı. Şöhrətlə mən ömrümüzün qürubuna doğru sürətlə addımlayırıq. Hadisələrə, adamların oturuşmuş davranış və əxlaqına yanaşmamızda, sizinlə bizim hadisələrə dəlillərimizdə eynilikdən, uyarlıqdan, bənzərlikdən daha çox, fərqlərimiz olacaq. Belə demək mümkünsə, biz keçmişin adamlarıyıq, sizsə gələcəyin. Buna baxmayaraq, hamımız başımıza gələnləri düşündükcə, günahsızlığımızı anladıqca ətrafımızda gəzişən nanəciblərin ləyaqətsizliyini hiss eləyəcəyik. Özü də lap çox. Belə halda insanlara inamımız, gələcəyə ümidimiz əriyir... İstəməzdim, siz bizim səhvlərimizi təkrarlayasız.

Əziz övladlarım! Sevinirəm ki, sizin iti gözləriniz hər şeyi parlaqlığıyla daha yaxşı seçir. Bizimsə təcrübəmiz yetərincədi. Biz hər şeyə təcrübədən baxırıq. Xətrinizə yəqin ki dəyməz. Hazırda sizdə emosiyalar, bizdə təcrübədən doğan ağıl güclüdü. Siz çox şeyi içinizə salansız. Sizə dəxli olmayan şeyləri də özünüzə dərd-sər eləyənsiz. Kiçik şeyləri qabardansız, şişirdənsiz... Onları başınızdan atın kənara. Çalışın, həyata inamınızı, sevginizi bərpa eləyəsiz. Şükür Allaha, xəstə deyilsiz, sağlam-

sız. Unutmayın ki, hamı çətinliklərlə üzləşir. Əzab-əziyyətlərə qatlaşıb səadətini əldə eləyir. Mən sizə təsəlli vermirəm. İnam və ümidsiz xoşbəxt həyat yoxdu. İnsanları sevin, həmişə fikirləşin ki, sizi sevənlər, sizə rəğbət bəsləyənlər çoxdu. Siz yalqız, kimsəsiz, tənha deyilsiz. Biri atanız Şöhrət, digəri mən özüm. Sahib, Şöhrət səni sevməsəydi, səndən ötrü ürəyi parçalanmasaydı, arxanca göz yaşları axıda-axıda hardan-hara sürünərdimi? Sənin xatirinə İlahəyə yiyə durardımı? Nadan rəqibi Qoçunun hələ adını bilmədiyimiz südəmər qızını qəbul eləyərdimi? Əsla yox!.. Qaldı mənə, sizə rəğbətim olmasaydı, dərdinizə şərik çıxardımmı? Sizə minnət qoymaq fikrindən çox-çox uzağam... İnsan ömrü elə yaranıb ki, o, daim özünə həmdəm axtarır... Sizə deyəcəklərimdən inciməyin. Hər cür adamlarla üzləşmişəm. Hamısı da adama məsləhət verir. Axı, söz nə qədər dəyərli olsa da, əməl deyil. Əmələ çevrilməyən söz öz qədir-qiymətini itirər. Siz qapalı olduğunuz üçün, Sahib, hamıdan çox şeyi gizlin saxlayansız. Siz mənə inanın. Məndən heç vaxt çəkinməyin. Mən özümü sizə mənəvi ata sandığım üçün fəda eləməyə də hazıram.

Hə... Onu da anlayıram ki, hər bir adamın özünəməxsus sirləri olur. Onu hamıya necə gəldi açıb danışmaq adamın özünü uğursuzluğa düçar eləyər. Əlbəttə, — Mənə qəlbinizi açın, — deməkdə mən o özəl sirlərinizi nəzərdə tutmuram. Nələri mümkün saysanız, nədən məsləhət almaq istəsəniz, onları nəzərdə tuturam.

Bu yaşımda işıqlı qəlbim hərdən zülmətə bürünür. Gözlərim sanki heç haranı görmür. Düşüncələrim qarışır. Sonsuz dəryada hərəkət istiqamətini itirən gəmi kimi hara gəldi baş alıb gedirəm. Özümə qayıdanda öz acı taleyim barədə cızdağım çıxa-çıxa, yana-yana qalıram. Belə olanda, iztirablarım durmadan artır. İnanın, mənə təsəlli verəcək yeganə şey sizin gələcək xoşbəxtliyinizdi. Anlayıram ki, bu qara günləri yaşayan, şirin həyatın





acı şərbətini içən, tək mən deyiləm, nə də sizsiz? Qəmli, qüssəli, məşəqqətli anlar hamının taleyində olur. Gələcəkdə də olacaq. Allah böyük qüdrətdi. Onun əzəmətinə, möhtəşəmliyinə bax ki, hamını öz qismətinə qane olmağa alışdırır. Arzum budur ki, siz — Sahiblə İlahə heç vaxt bir-birinizdən ayrılmayasız. Müşahidəm mənə belə deməyə imkan verir ki, siz bir-birinizi anlayırsız və bundan sonra da anlayacaqsız. Anlamaq böyük səadətdi. Mərdanəliklə qazanılan gələcək həyatın üzə gülməsidi. Ruhlar qaynayıb-qarışanda yaşamaq gözəl olur. Əminəm ki, Şöhrət sizin arzularınızın həyata keçməsində böyük dayaq olacaq. Onu eşidin: dediklərini dinləyin; sözlərinə əməl eləyin... Mən də sizinlə tez-tez görüşə gələcəm, dərd-sərinizdən halı olacam. Tezliklə görüşmək arzusuyla bu məktubu tamamlayıram...

***Hörmətlə: Aran!***
***Bakı, 26.10.2013***

# Bir ömrün akkordları

## Qəlb evi

Ey insan!.. Sən Allahın sevə-sevə yaratdığısan. Ancaq bəşər övladısan. Ağlın söz kəsəndən, özünü tanıyandan daim özün barədə düşünürsən. Qət elədiyin yolun dolanbaclarının, kələ-kötürlüklərinin fərqinə də varmırsan. Həvəslə tutduğun yol, böyük zəhmət və əzabla addımladığın məsafə əyridi-düzdü heç özün də bilmirsən. Bəli, qəribədi insanların yaşamı. Nə demək olar? Sən möcüzəsən. Bəzən özünü ikili dünyanın sirli-sehirli ağuşuna atırsan. Tez-tez iradəndən, istəyindən asılı olmadan o üzlü-bu üzlü dünyanın labirintinə düşürsən. Onda da özün öz taleyinin yozumunda olursan. Nə isə axtarırsan, araşdırırsan. Özünə tale biçirsən. Biçdiyin tale uğurludu-uğursuzdu, onu əlahəzrət zaman göstərir... İçinə qapanıb addadığın ömür yolunun kədərli, qəmli, qüssəli, əzablı, iztirablı anları bəzən sevincini, fərəhini üstələyir... Yaş üstə yaş qalaqlayırsan. Biliklər yığırsan, təcrübə toplayırsan. Baş işlədirsən. Yalanlarla, yanlışlıqlarla üzləşirsən. Taleyinə bəzən qara daşlar atıldığını duyursan. Onda ayaq saxlayırsan. içinə çəkilirsən. Çəkinə-çəkinə, sarsıla-sarsıla başqa izlər axtarırsan. Qarşına çıxan ağdı-qaradı seçənmirsən. Onda bəsirətli gözlərin çevrənə açılır. Baxdıqca baxırsan. Nəyin nə, kimin kim olduğunu anlayırsan. Dərkinə varanda hiss eləyirsən, bir şairin dediyi kimi, dünya nə mənim, nə sənin, nə də onundu... Ancaq təskinlik gətirəcək bir həqiqət danılmazdı. "Dünya və insan". Nə böyük hikmət?! Nə böyük həqiqət?! İnsansız dünya, dünyasız insan! Varlığı olsa-olsa boş bir xülya. Əcəb uydurma. Unutma ki, dünya və insan barədə çox sözlər deyilib. Külli miqdarda mülahizələr söylənilib. Bir çoxları reallıq, bir çoxları mistik... "Həyat gözəldir. Yaşamaq ondan da gözəldir" düsturu, "dünya və insan" anlamından yaranıb... Əziz oxucu, düşün ki, "dünya və insan" anlamı barədə fəlsəfi düşüncələri açıb tökmək, uzun-uzadı elmi dəlillərə, onlara istinad olunan məntiqi mülahizələrə qapanıb fikir söyləmək... bu əsərdə heç də qarşıya məqsəd qoyulmur. Təkcə o aydındır ki, dini kitabələrdə çərçivəsi müəyyənləşən "insanlıq" yoxdursa, çərçivələrə sığmayan insandan danışmaq, o barədə necə gəldi mübahisələrə qoşulmaq, təkzib olunan və olunmayan mühakimələrə girişmək özü də gülüncdü. Bəşəriyyətin tarixlərdən tarixlərə ötürdüyü və insanın özünün də əldə elədiyi nəticələrə əsaslanılsa, tam aydın olar ki, "insan və həyat", "insan və dünya", "insan və həqiqət", "insan və ədalət"... ilahi yolun başlanğıcıdı... Bu yolun yolçuları Allahın öz sevimli övladına təlqin elədiyi məramdı. Ola bilməz ki, "insanam" deyən hər kəs ömründə bircə dəfə də olsun subyektiv mülahizələrlə qarşılaşmasın. Mübahisəyə qoşulmasın. Bu, hər kəsin öz arzusuyla, bacarığıyla olan işidi, öz əqidəsidi. Mahiyyəti açə da bilər, açmaya da. O nə müdaxilə, nə də münasibət tələb eləyəndi. Böyük bəsirətlilərə görə, Allah yoxsa, əxlaq da, mənəviyyat da yoxdu. Əzəl başdan deyək, onlar qəhətə çıxan yerdə ilahi hisslər də, əlahiddə rəmzlər də, ədalət və həqiqət də yoxdu. Bunlarsız insanlıqdan danışmaq artıqdı. Bu və buna bənzər fəlsəfi düşüncələr ruhu insani hisslərlə yoğrulan və mənəviyyat mücəssəməli böyük alim, Milli Məclisin deputatı Elton Arzuman oğlu Məmmədovun həyat kredosudur. Mübaliğəsiz demək olar ki, sözüylə əməli vəhdət təşkil eləyən bu adam özünü müdrik düşüncə və əməl sahibi kimi tanıda bilmişdir. Ona görə "insan" anlamı barədə düşünəndə halba-hal olmaya bilmirsən. Zirvələrə uzanan ömür yo-

lunun ixtiyari nöqtəsində dayanıb geriyə qanrılanda işıqlı əməlləriylə qaranlıq qəlbləri ziyalandıran təmiz vicdan sahiblərini gözlərin önündə canlandıran ruh səni cilvələndirir. Yaşamın üçün özündə bir mənəvi yüksəliş hiss eləyirsən. Sevinc, fərəh, qürur hissləri səni bürüyür. Elton belələrindəndi. Etiraf olunmalıdır, elə adamlar da var ki, onu görəndə, ya xatırlayanda bəzən anlaşılmaz, bəzən qarmaqarışıq, bəzən də boz-bulanıq duyğular səni qamarlayır. Səndən asılı olmadan belələrinin keçdiyi ömür yolunu gözlərin önündə canlandırırsan. Qəm, qüssə, kədər karvanı səni boğazlayır. Ağlı iti, qəlbi həssas olanlar daim öz əməllərini səbr və təmkinlə saf-çürük eləyirlər. Düşünürlər, qoyduğu izlərin hamısı onun iradəsindəndimi?! Elədikləri həqiqətən də öz ağlının, idrakının məhsuludumu?!. Hamıya yaxşı məlumdu ki, insanın dünyaya gəlişi və gedişi özündən asılı olmur. Valideynlərini də öz istəyi, öz arzusuyla seçmir. Qalan nə varsa, hamısı özünündü: Yaxşımı-pismi, şirinmi-acımı, sevincmi-kədərmi... Nə varsa, hamısı, hamısı özünün özünə elədiyi bəxşişidi. Ömür kitabının ya qızıl gül ətri saçan zərrinləri, yaxud cızmaqaralı səhifələridi. Bu barədə Elton Məmmədov daim götürqoylar eləyir. Bəzən duyuğa gedir. Arzulara qovuşan xəyalları onu qanadları üstə alıb çox-çox uzaqlara aparır. Onu elmi dəlillərlə, dini mülahizələrlə, mistik dünyayla tez-tez üz-üzə qoyur. Qəhrəman lap uşaqlıqdan şahidi olduğu olub keçənlərdən də, eşitdiklərindən də, oxuduqlarından da xeyli şeylər əxz eləyib. Həyata baxışını, dünyaya münasibətini özünəməxsus şəkildə formalaşdırmağa çalışıb. Bəzən istəyinə asanlıqla nail olub, bəzən də həyatın keşməkeşli burulğanlarıyla qarşı-qarşıya dayanıb, sinə gərib, çevik təfəkkür, kifayət qədər qabiliyyət əldə eləyib. Beləcə həyat yolunu müəyyənləşdirib. Bu yolda onun inancı Allah, istiqamətçisi valideynləri, yaşadığı ailə, ictimai mühit olub... Həyatda təsadüfliyə meyillənənlər də, taleyini Allahın ümidinə buraxanlar da, "Əşi, nə olar-olar, nə qismətdi





onu da görəcəm" deyənlər də olub... "Halva-halva deməklə ağız şirin olmaz" əqidəsinə gələnlər həmişə özlərini mübarizə meydanına atır, öz xoşbəxtliyini idrakında, dönməzliyində, iradəsində, inadkarlıqda, məğlubiyyətiylə barışmazlığında axtarır. Belələrinin əqidəsinin əsasında çılpaq həqiqətlər dayandığından onlar ancaq gerçəkliklər mövqeyində qalırlar. Həmişə Elton özözünə suallar verərdi:

— Ömür magistralı hardan başlanır? Harda sona yetir? Başlanğıcla sonluq arasındakı bu məsafədə mənim missiyam nə olmalıdı? Mən öz insanlıq borcumu həyata keçirmək üçün nə etməliyəm? Mən həyatımı, taleyimi xalqımın, vətənimin xidmətinə ləyaqətlə sərf eləyə biləcəmmi?.. Həyatı zərurət olan bu və buna bənzər suallara onun ölçülü-biçili cavabları vardı. Bu bir həqiqətdir ki, yaşanan müəmmalı həyatın əlahiddə sual və cavablarının mahiyyətində daim insan özü dayanır. Özü özünü axtarır, özü özünü dərk eləməyə çalışır. Başqa sözlə, məsuliyyətini hiss edərək gələcək həyatını qurur. — Missiyanı anlamadan, onun mahiyyətini dərk etmədən nə həyat, nə ləyaqət və şərəfdən yoğrulan ömür, nə də xoşbəxtlik var — deyir Elton müəllim.

Xoşbəxtlik ömrün ruhən ən yaşantılı anlarıdı. Ancaq o xoşbəxtliyə aparan yollar, o yolların üz ağardan, ruh köhləyən, qəlbləri sevinc və fərəhlə dolduran hisslərinin izləri illər boyu yaşanır. Ayrı-ayrılıqda onların hər biri bir ömrün akkordlarına çevrilir. — Dünya öz gərdişindədi. İnsanı ağladan da, güldürən də odur — deyirlər. Ancaq bir iş də var. Hər iki halda möhtəşəm həyat amalının nüvəsində insanın uzaqgörənliyi, təcrübəsi, görüb-götürməsi və duyumu durur. Başqa sözlə, parlaq idrakı dayanır. Bəli, qüdrətdən doğan və möcüzələr yaradan idrak!.. İnsan idraka, məntiqə, gözəl niyyətə, saf arzuya arxalananda daha əzəmətli olur. Qurub yaratdıqları bir anlığa könül mülkünün müncərinə çəkilir. Olub keçənləri sərfi-hərf eləyir. Hər şeyə ağ-

lın gözüylə baxır. Baxa-baxa, seçə-seçə, axtara-axtara müdrikləşir insan. Həqiqi gerçəkliyin əqli məhsulunu saf-çürük eləyərək üzə çıxaranda heç özü də bilmir nə elədiklərini. Təkcə onu anlayır ki, nailiyyətlərinə dostları, doğmaları sevinir. Xəbislər, gözləri götürməyənlər... kimlər, kimlər min bir əzabla əldə elədiklərinə ağız büzür. Birincilərə rəğbətin oyanır. İkincilərə uzaqbaşı təəssüflənirsən. Ancaq bu təəssüflənmələr də elə-belə qalmır. Tamam başqa hisslərlə, istəklərlə, arzularla qarşılaşır insan... — Bu mübarizə yaşamaq amalından doğan kişilik, ərənlik, cahangirlik təntənəsidi — demək daha düzgün olardı. Onda da nə yaxşı ki, getdiyi əzab və iztirablı, məşəqqətli yolun əzəmətini anlayır insan. Tanrıdan ona verilən muxtariyyatın həddini, ölçü-biçisini, tutumunu dərk edərək böyük Yaradanına şükürlər diləyir...

Qəribədi, daim səadət axtarışındadı, özünü təkmilləşdirmədədi insan xilqəti. Milyard illərdi bax beləcə yol gəlir insan, açıq-saçıq vurğulanır niyyəti. Çətindi, mürəkkəbdi, tam açılması mümkün olmayan sirdi, bir ümmandı onun daxili aləmi. Gözə görünməzlikdi, dərkolunmazlıqdı mənəviyyatı. Həm mülayimdi, həm də sərtdi xarakteri. Nələr fikirləşir, nələrlə qarşılaşır, nələrə nail olur. Bəzən heç özü də fərqinə varmır. Kimisi könül mülkündən qəbahətləri (əcaibləri, ilanları, əqrəbləri) qovur, əvəzində əlvanlığı göz oxşayan bənövşəli, laləli... nərgizli... çiçəklər, ətir saçan qızıl güllər əkir... Gücsüzlərə, əlsiz-ayaqsızlara, xəstələrə, əlillərə qayğı göstərir. Elton müəllim yaxşı bilir ki, dünyada insandan qalacaq yeganə şey yaxşı adı, qaranlıq qəlblərə işıq saçan qoyduğu izləri, xeyirxah əməlləri, səxavəti, bilik və təcrübəsidi. İnsan ömrünün, insan zəkasının pozulmaz naxışlarıdı. Kimisi də cəfa gətirəcək hisslər təlqin eləyir. Yaramaz işlərə imzalar atır. Fitvalar verir, göz yaşları tökdürür... Əlbəttə, ikincilər dünyanın sahibindən xali olmadığını unudurlar.

Beləläri Elton müəllimin daim nifrət hədəfində olur. Bu





adam onları eşitməkdən, görməkdən qaçır. Barələrində söhbət açılanda — Tanımıram — deyir... Bax, haqdı, ədalətdi barəsində bəhs olunan Elton Arzuman oğlu Məmmədovun həyat amalı, insanlar barədə düşüncələri, dünyaya münasibəti.

## Sədaqət

Kim nə deyir, desin, kim nə düşünür, düşünsün, müdrik insanlar təkcə özləri, doğmaları, onu tanıyanlar üçün yaşamırlar. Onların ruhu "Mən"i hər zaman xalqıdı, əsli-nəcabəti, kökü. Sülhə, əmin-amanlığa xidmət eləyən baxışlar sistemidi. Dünya heç zaman yaxşılardan xali olmayıb. Həmişə xalq, millət yükünü çəkən, onun dərdi-sərinə yanan müdriklər olub. Onların da kamal dünyası xalqın ruhundan qidalanıb. Özü də həyatının mənasını uca millətə xidmətdə görüb. Həm özü yaşayıb, həm də başqalarının ömrünə işıq saçıb, nur çiləyib... Texnika elmləri doktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, yaşının kamillik dövrünü yaşayan Elton Arzuman oğlu Məmmədov da bütün ruhuyla, əməlləriylə, hadisələrə doğru-dürüst baxışlarıyla ömrünün mənasını el-obasına, onun sakinlərinə xidmətdə görüb. İstirahətin nə olduğunu bilməyən, iş-gücdən bütün günü başı açılmayan bu adamın səsi gah məktəb, xəstəxana, poçt və digər ictimai binaların tikinti meydanlarından, gah salınan parklardan, yollardan, gah mühazirələr oxuduğu Texniki Universitetin auditoriyalarından, Elmi Şuralarından, Milli Məclisin tribunasından, gah da xirici ölkələrin parlamentlərindən eşidilir. Hələ rayon və kəndlərdəki seçiciləriylə görüşləri, imkansızlara göstərdiyi xeyirxahlıqları nəzərə alınmazsa, deputatın gün ərzində nə qədər iş gördüyünün mənzərəsi aydın olar. Tam əminliklə demək yerinə düşər ki, bu adamın gündüzlüylə gecəsi çox zaman qarışır, sərhədləri pozulur. Hər axşam o,

kompyuter önündə əyləşir, ölkədə və dünyada baş verənləri nəzərdən keçirir, özüyçün qeydlər götürür, sorğulara tutarlı cavablar yazır.

Özünə ünvanlanan seçici ərizələrini və şikayət dolu məktubları, teleqramları bircə-bircə oxuyur, təmkinlə araşdırır. Zərurət doğuran problemlərin vaxt itirilmədən həllinə nail olur. İstər böyük olsun, istər kiçik, Elton müəllim üçün fərq eləməz. O, yaxşı bilir ki, hər parça kağızın, orada ifadə olunan ən xırda fikrin arxasında canlı insan dayanır. Arzular, istəklər yatır. Seçiciləriylə ürəkdən calanan, dərdi-sərlərinə şərik olan deputat onların xeyrində-şərində, toyunda-yasında yaxından iştirak eləməyə çalışır. Ehtiyacı olanlara əl tutur. Beləcə o, hamının hörmət və nüfuzunu qazanmağa səy göstərir. Qəlbində ən əziz qonaq obrazını yaradır. Ona görədir ki, bu professorun, millət vəkilinin insanlara qayğısından, diqqətindən, sədaqətindən... hamı ağız dolu danışır.

Heç vaxt unudulan deyil. Sökülən dan yerindən çıxmaqda olan yaz günəşinin ilıq, qızılı şüaları yatdığı otağın pəncərəsinin şüşələrini deşərək döşəməyə səpələndikcə, döşəmə də onları sındıraraq təzəcə ala-toranlıqdan ayrılan tavana yönəldir və tavan da öz görkəmini dəyişib süd rəngi alırdı. Elə bu vaxt adətindənmi, işlərinin məsuliyyət səhsəkəsindənmi, ya şəhərdə Avropa birinciliyi uğrunda boks üzrə yarışda çempion olan oğlu Anarı yuxuda görməsindənmi, Elnurla yanaşı addımlamasından ya da bir başqa şeydənmi Elton müəllim röyasından ayrıldı. Özlüyündə bir qədər incəldi, qəlbi yumşaldı. Hətta, bir az kövrəldi də. Həmişə fəlsəfi düşüncələrlə, kövrək duyğularla yaşayan Eltonu romantik xəyalları çəkib öz ardınca apardı: "Allah hər kəsə bir ömür bəxş eləyir. Elə bir ömür ki, o dünya adlı kəhkəşanın dərkinə bir qapı açır. Göndərdiyi xoşbəxtlik şüaları yaratdıqlarının əxlaqi-mənəvi dəyərlərinə zərrin-zərrin işıq saçır. Ruhən göylərin nəhayətsiz ənginliklərinə doğru onu meyillən-





dirir. O da ulduzlar aləminin ülviyyətindən nəşət, ilahi qüdsiyyətdən mənəvi güc və qüvvət alır. — İnsan Ulu Tanrının zərrəsidir — deyirlər. Şübhəsiz, bu ona işarədir ki, İlahi özündən sonra sevə-sevə yaratdığı insanın bənzərsiz gözəlliyini dünyanın bənzərsiz əşrəfinə çevirir. Bu bənzərsizlik öz növbəsində, filosoflar demişkən, insanı "təbiətin tacı", "dünyanın əşrəfi", "müqəddəslərin müqəddəsi", "möcüzələrin möcüzəsi" zirvəsinə ötürür..." Eltonu yan otaqdan öz adını hədiyyə elədiyi nəvəsinin — Eltonun səsi düşüncələrindən ayırdı. İstədi ayağa qalxsın. Gedib nəvəsini qucağına alıb əzizləsin, üz-gözündən öpsün. Elə bu zaman qeyri-ixtiyari atası Arzumanı xatırladı: "Kaş atam yaşayaydı. Oğlanlarının, qızlarının əməllərindən, gördüyü işlərdən xəbərdar olaydı. Nəvəsinin möhtəşəm qələbəsinə o da sevinəydi, saçlarına tumar çəkəydi...". Handan-hana düşüncələr selindən ayrılan baba Eltonun gözləri divar saatına sataşdı. Cəld yorğanını kənara sıyırıb ayağa qalxdı. Xalça üzərində idmana başladı. Xeyli idman elədi. Yuyunub üz-gözünü, boyun-boğazını dəsmalla quruladı. Yemək otağına keçmişdi ki, anası Şirinnazı (o anasına cici deyir) divanda əyləşmiş gördü. Qadın bir qədər fikirli, bir az da nigaran görünürdü. Sanki o, duman, çən içindəydi. Bu, oğlunun diqqətindən yayınmadı. Üzündən nur yağan, vücudunda Allahının zərrəsi cilvələnən ananın yaşı xeyli olsa da, hərəkətlərindən, aydın danışığından, deyilənlərə dəqiq, düzgün münasibətindən duyulurdu ki, bu qadın görüb-götürmüş adamdı, əsli-nəcabətlidi. Danışığından hiss olunurdu ki, təfəkkürü aydın, məntiqi dəqiqdi. Səlis nitqi var. Sözdən lazımınca istifadə eləyir. Hadisələri yetərincə dəyərləndirməyi bacarır. Çöhrəsindəki cizgilərin zərifliyi, üzündə doğan təbəssümün cazibədarlığı gəncliyindəki gözəlliyinə, qəlbinin təmizliyinə, yumşaqlığına açıq-aydın dəlalət eləyirdi. İlk baxışdan duyulurdu ki, Şirinnaz xanım olduqca həssasdır. Hazırcavabdır. Hər kəsə öz qiymətini qədərincə verməyi bacarandı. Deyib-güləndi. Qonaq sevəndi...

Qonşuların dediklərinə görə, Şirinnaz ana bütün şüurlu ömrünü balalarının, nəvələrinin xoşbəxtliyi, səadəti yolunda şam eləyib. İnsafən, övladları da onu başları üzərində görürlər. Bir an da analarını unutmurlar. Onunla hər gün əlaqə saxlayırlar. Belə övladları olan ana da, elə anası olan övladlar da xoşbəxtdilər...

Elton yaxınlaşıb anasının enli alnından, dən düşmüş saçlarından öpdü. — Sabahın xeyir, yuxudan nə erkən qalxmısan, cici — deyə soruşdu.

Cicisi cavab verdi:

— Mən yuxudan tez qalxmağa adətliyəm, oğlum.

— Gözlərimdə nədənsə nigaran görünürsən, cici?

— Hə... Nigaranam, oğlum.

Elton təəccüblə cicisinin üzünə baxdı. Qadın astadan bildirdi:

— Axşam rəhmətliyi — atanı yuxuda görmüşəm. O, bikefiydi. Elə bil halı dəyişmişdi. Nəsə salıb itirmişdi... Yuxuda bərk həyəcanlandım. Özümdən asılı olmadan oyandım. Səhərəcən yatanmadım. Ona görə də çox narahatam. Həm də kənddəki nəvələrimdən nigaranam.

Elton gülümsündü:

— Burda nə var ki, ay cici? Dünyada elə bir adam ola bilərmi yuxu görməsin? Yuxuya görə narahatçılığa dəyərmi? Kənddəki nəvələrin də yaxşıdı. Ata-analarının yanındadılar... Telefon əlində, ürəyin istəyir zəng elə. Hal-əhval tut... Yox, özünü pis hiss eləyirsənsə...

— Yox, oğlum... Mən atanın, nənə-babalarının uyuduğu torpağı atıb gəlmişəm. Doğulub-ərsəyə çatdığım kənd üçün, torpaq üçün... darıxmışam. Əllərimlə qurduğum doğma evimə getmək istəyirəm. Gəldim şəhərə, gəlinlərimi, nəvələrimi gördüm. Şükür Allaha ki, hər şey yaxşıdı, ürəyimcədi. Məni yola salın gedim... Atan Arzumanın müqəddəs ruhu nigarandı. Yəqin hər gün həyət-bacada dolaşır. O yurdda mən yoxamsa, deməli, o da narahatdı. İncikdi. Nigarandı. Mənim o mülkdə olmamağım atanızın ruhuna sədaqətsizlik olar. Gedib rəhmətliyə Yasin oxudacam...





Cicisinin dedikləri bir anda Eltonun qulaqlarında guyuldadı. Ona elə gəldi ki, görüb-eşitdiklərinin hamısı yuxudu. Gördükləri də İlahi varlığın mərhəmətindən doğan bitkin mənzərədi... Cicisi gözlərində birdən-birə böyüdü, İlahinin ülvi, pak və təmiz rəmzinə çevrildi, müqəddəsləşdi... Hansı bir hissə Eltonu bürüdü. O, əvvəl çaşdı, nə deyəcəyini bilmədi. Gözləri doldu və öz-özünə dedi: "Mənim cicim. Sən mələksən. Neçə illərdi dünyasını dəyişən atamızın ruhunu hələ də qəlbində əzizləyib, ən əziz əmanət kimin saxlamısan. Sən atamızın da, elə biz övladlarının da başlarının tacısan..."

Bu düşüncələrin ağuşunda Elton hansı duyğunun təsiriyləsə, özünü saxlayanmayıb oturduğu stuldan ağır-ağır qalxdı və gedib cicisinin yanında əyləşdi. Başını qadının çiyninə qoydu.

Buna bənd imiş kimi, cici də oğlunun üz-gözünə sığal çəkdi. Eltona elə gəldi ki, o indi də uşaqdı. Bir zamanlar dünyalar qədər sevdiyi cicisinin isti qoynuna yenidən sığınıb, onun ətrini alır. Hisslər Eltonu qucuduqca o, daha da uşaqlaşır, özünün ənginlikləri aşan romantik xəyallarına qapılırdı.

O, handan-hana özünə gəldi. Romantik duyğuların, arzuların, xəyalların qanadlarından qopub reallığa döndü. Səsi gərilə-gərilə, nəfəsi təngişə-təngişə dodaqları arasından pıçıltılar qopdu.

— Nə yaxşı ki, sən varsan, cici. Sən övladlarının ümid çırağısan. Atamın müqəddəs ruhunu sonsuz sədaqətlə canında yaşadansan. Kaş atam onilliklərin arxasından boylanıb indi sənin dediklərini eşidəydi. Sədaqətinə özü şahid olaydı, mənim cicim...

Elton cicisinin damarları çıxan, arıqlamış əlinə, zərif barmaqlarına baxdı, ürəyi doldu, bir şey hiss elətdirməmək üçün üzünü yana çevirdi. Dərindən köksünü ötürüb öz-özünə dedi:

— Eh... Dünya... Dünya... Sən doğrudan da möcüzəsən. Sən nələrə qadirsən? Yaşamaq, yaşatmaq sənə məxsusdu. Bunlar nə

qədər fəlsəfi anlamlar olsa da, mahiyyətində insan və onun insanlıq keyfiyyətləri dayanır. Gözəl əməlləri durur. İnsan yoxsa, gözəlliklər məskəni də, ondan alınan ruhi həzlər də yoxdu. — Dünyaya niyə gəlmişəm? Həyatı missiyam nədi? Özümdən sonrakı izlərim nələr olacaq? — sualları istər-istəməz hər bir ləyaqət sahibini dilemma qarşısında qoyur. Ölçülü-biçili cavablar axtarmağa vadar eləyir. Cavabları tapır-tapmır, hər kəsin öz qismətidi... Mən atamı, sənli keçmişimi, bizim üçün çəkdiyin əzabları, məşəqqətləri xatırlayanda... Hamısı, hamısı gəlib durur gözlərim önündə. Kasıblıq. İmkansızlıq. Ağır zəhmətlə on uşaq böyütmək. Onlara təhsil vermək... Bunlar nə deməkdi? Əziz cici, sən bizə "Çalışın hallalıqla dolanın" tapşırığını verəndə kiçik qardaşım balaca İldırımın zarafatla "Hallalığa qaldısa, batdıq, cici" — deməsini xatırlayırsanmı? Onda necə də sərtləşdi bənizin. Necə də tanınmaz oldun. Sərtliyin indi də gözlərim önündən çəkilmir. Düşünürəm: sən nə qədər haqlıydın, elə sərtləşməkdə. İnsafən, qardaşım da səndən çəkinib özünü yığışdırdı. Başqa söz tapanmayıb dediyi o bircə cümləyə görə səndən dönə-dönə üzr istəməsi, sənin onu bağışlaman o vaxtdan yaddaşıma həkk olub. Sənin haqlı və kəskin münasibətin sözün həqiqi mənasında Allahının yaratdıqlarına buyurduğu valideyn təpkisiydi...

Beləcə, düşüncələri Eltonu gah çəkib uzaq-uzaq zamanlarda olub-keçənlərə aparır, gah bu günümüzə qaytarır, gah da onu gələcəyə meyilləndirirdi. Yeni-yeni arzulara qovuşdururdu. Elton nəhayət, xəyaldan həqiqətə döndü və astadan bildirdi.

— Yaxşı, sabah birlikdə gedərik. Atamın qəbrini də ziyarət elərik. Ruhuna Yasin oxutdurarıq.

— Yox, oğlum, başqa işin yoxdusa, sən əziyyət çəkib niyə gedirsən?

— Sən olan yerdə nə iş, nə zəhmət, cici?

— Yox... Axşam danışmışam Nərimanla, kənddədi. İldırım





bir azdan gələcək. Qərarlaşdırdım ki, İldırımla da gedə bilərəm.

— Görürəm, kənd üçün yamanca darıxmısan.

— Hə... Mən də qəribə xasiyyət tapmışam. Kəndə gedəndə buradakılar, bura gələndə kənddəkilər üçün burnumun ucu göynəyir. Elə bilirəm havadan asılıyam.

Elton mənalı-mənalı cicisini süzdü. Sonra öz-özünə dedi:

— Sədaqət... Sədaqət... Eh, görəm, o hamıda niyə olmur? Qadın ərinə, övladlarına bağlı olanda, ailəsinin tacına çevriləndə daha möhtəşəm, daha vüqarlı olur... Mənim anam kimi...

Şirinnaz xanım handan-hana bildirdi:

— Nəriman köçüb kəndə yığışandan çox əziyyət çəkir. Elə hey sizi uşaqları, nəvələri düşünür. Hər dəfə ona baxanda kövrəlirəm. Üz-gözündən yorğunluq yağır. Gecəsi-gündüzü yoxdu ki. Bu qədər fikirləşmək olar?.. Eynən atasına oxşayıb.

— Cici, nə yaman kövrəlirsən?.. Necə də yorulmusan. Bu qədər çəkdirdiyi əziyyətlər, sarsıntılar. Nə qədər gündəlik qayğılar... Atamız əvəzidi. Böyük qardaş elə ata deməkdi. Qızlarından şikayətin yoxdu ki?

— Nə şikayət olacaq?..

— Sən işinlə məşğul ol... Danışmışam, bir azdan mənimlə görüşə bacıların da gələcəklər. Gözünüz Məhbubədə, İlahədə, Validədə olsun. Bilirəm, Allahın böyüklüyünə şükür, dolanışıqları yaxşıdı, kimsəyə ehtiyacları yoxdu. Ancaq ana ürəyidi, dözmürəm... Sizdən də nigarançılığım yoxdu...

Elə bu vaxt yan otaqdan nəvə Elton çıxdı. Qaça-qaça — Nənə! Nənə! - deyə-deyə Şirinnaz ananın qucağına atıldı. Nənə-nəvə öpüşdülər, bir-birlərini bağırlarına basdılar. Handan-hana Şirinnaz ana dedi:

— Baba Elton — nəvə Elton. Necə də oxşayırlar bir-birlərinə. Allah ömür vermiş, elə bil babasının tökdüklərini birər-birər yığışdırır...

## Arzuman şəxsiyyəti

Gözlərini açandan, ağlı söz kəsəndən Elton ailəsində bir halallıq, səmimiyyət, mehribanlıq görmüşdü. Bu hisslər də eynən qardaşları Nərimanın, Ziyanın, Loğmanın, İldırımın, bacıları Məhbubənin, İlahənin, Validənin ruhuna hopmuşdu. O duyğuları lap uşaqlıqdan açıqgözlü, həssas qəlbli, çevik düşüncəli, sərt və sərt olduğu qədər də mülayim təbiətli Eltonun həyat yoluna stimul verir, işıq tutur, ilk addımlarını atmaqda ona sərbəstlik və sərməstlik gətirirdi. Yalandan zəhləsi gedən, qəddarlığa nifrət eləyən Elton əxlaqi-mənəvi dəyərlərə sığmayan hərəkətlərlə barışa bilmirdi... İnsani münasibətlərinin formalaşmasında onun ilk bələdçisi, böyük pedaqoji təcrübəsi olan Arzuman müəllim, bir də cicisi, altı oğul, dörd qız anası Şirinnaz xanım olmuşdu. Elton valideynləri barədə söz düşəndə deyirdi: "Atam-cicim mənim qibləgahımdılar. Ruhumdular. Atamın arzuları mənim istəklərimdi. Cicimin dedikləri isə mənim üçün qanundu. Biz cismən başqa-başqa adamlar olsaq da, ruhən birik...". Bütün yaşıdları kimi uşaqlıq çağlarını yaşayan Elton sonralar qəlbində doğulan, getdikcə zərrə-zərrə böyüyən, təmənnasız, saflaşan, büllürlaşan hisslərinin dərəcəsini özü də bəzən dəqiq təsəvvür eləyənmirdi. O, fikrən özünə ideal seçdiyi atasını yanında görərdi. O, anlayırdı ki, atası qarşısına çıxan bütün məsələlərdə, istər ailə, istərsə də ictimai düşüncədə həmişə ciddiyyətliydi. Qətiyyətli mülahizələri, sərrast və çevik fikirləri, ədalət və həqiqətə əsaslanan ideya daşıyıcısı olmasına dəlalət eləyir. Onun şəxsi əxlaqi və mənəvi keyfiyyətləri çoxlarına nümunədir.

Atasının hər bir sözü elmə, dərin müşahidəyə, zəngin təcrübəyə əsaslanırdı. Onun aləmində həyat ən böyük tərbiyə məktəbiydi. Dünyanın elə bir dühası tapılmaz ki, o məktəbdən qidalanmasın. Onun naxışlarının ağ, qara, əlvan... cizgilərini təfəkküründə həkk eləməsin. Canına, qanına çəkməsin, ruhuna hopdurmasın. Bəli, Arzuman müəllim də varlığıyla bu ənənəylə, böyük dühaların fövqəl irsiylə, ideyasıyla yaxından tanış olmasın. Onları özünə örnək seçməsin. Yaradıcılıqlarından yeri gələndə iqtibas gətirməsin. Sözü təsirli, nitqi emosional, təfəkkürü aydın, fikirləri məntiqli olan Arzuman müəllimin iş-gücü, ailə problemləri başından aşsa da, o, heç vaxt mütaliədən qalmazdı. O, Şərq və Qərb ədəbiyyatının, fəlsəfəsinin dərin bilicisiydi. Sözün həqiqi mənasında, pedaqoq-psixoloquydu. Dəqiq bilmədiyi fikri, görmədiyi, inanmadığı əhvalatı dilinə gətirməzdi. İlahiyyat məsələlərinə də bələdiydi: "Zəbur"u, "Tövrət"i, "İncil"i, "Qurani-Kərim"i oxumuşdu. Söz ədəbiyyatdan düşəndə tez-tez böyük korifeylərdən incilər gətirməyi sevirdi. Harda nədən söhbət getsəydi, mübahisələr yarananda, dəqiq söz üçün ehtiyac doğanda Arzuman müəllimin yanına gələr, onun dedikləriylə razılaşırdılar. Onun aləmində yaxşı nitq aydın təfəkkürdür. Gözəl qəlbin, mükəmməl mədəniyyətin başlıca göstəricisidi. Daxilən zəngin olan adamın fikri də gözəl və cazibədar olar. Bu əlamətlər kimdə varsa, həmişə xalq tərəfindən dinlənər, hörmət və nəvazişlə, qayğıyla qarşılanar... Müntəzəm və mütəmadi mütaliə eləyən Arzuman müəllimin şəxsi kitabxanasını dünya korifeylərinin inciləri bəzəyirdi. Ata bilirdi ki, kitab olan yerdə elm, mərifət, ədəb-ərkan var. Uşaqları da onları oxuyub elmi dünyagörüşə, insani keyfiyyətlərə yiyələnirlər. Arzuman müəllim böyük ziyalıdı. O, sözün həqiqi mənasında, ailədə də, ictimai mühitdə də canlı ensiklopediyaydı. O, el-obasını, el-oba da onu sevirdi. İşlədiyi kollektivdə dərin nüfuz qazanmışdı. Onun məktəbdə yaratdığı təlim-tərbiyə mühiti həm müəllimlər, həm də şagirdlər arasında yüksək pedaqoji-psixoloji ab-hava formalaşdırmışdı. Həqiqiliyinə inandığı fikrindən dönməzlik, sözünü birbaşa, rəngsiz-boyasız deməsi, fəaliyyətində təmənnasızlıq, özünə ina-

mı tez bir zamanda yaşadığı el-obanın diqqətini cəlb eləmişdi.

Ömrünü zəhmətə, çalışqanlığa, axtarıçılığa həsr eləyən Arzuman müəllim hamının xoşbəxtliyini istəyirdi. Heç kəsə qəlbini sındıracaq "Ayağın yandı, geri çək" deyəcək söz deməzdi. O, yaxşı bilirdi ki, hörmət, qayğı qarşılıqlı olur. Dünyanın dəyəri ədəb-ərkandadı. Qayğı göstərməsən, qayğı görməzsən. Dünyanın ədəbsiz dəyəri yoxdu. Bu, Arzuman müəllimin həyat, yaşam, insanlıq barədə mərifət konsepsiyasıydı. Bu el ağsaqqalında ilk baxışdan adamları tanımaq, onlara dəyər verə bilmək qabiliyyəti çox güclüydü. Bu dəyərin mahiyyəti qiymətləndirmənin əsasında hər kəsin danışığı, əməlləri, hadisələrə münasibət dayandırdı. O, tez-tez deyərdi:

- Adam var, İlahi hisslərə bələnib. Özünü böyük Yaradanın ixtiyarına verir. İnsanlara özü kimi baxır. Dərdlinin dərdini, sevinclinin sevincini özününkü bilir. Özüylə özgəyə fərq qoymur. Belə olanda Allah da adamı sevir. Bu isə böyük bəxtiyarlıqdı. Adam da var, ona dəyərindən artıq qayğı, diqqət göstərəndə çox vaxt cızığından çıxır. Lovğalıq, təkəbbür, mənəm-mənəmlik azarına tutulur. Özündən başqa kimsəni görmək istəmir. Yeni-yeni iddialar irəli sürür... Belə olanda unudur ki, o, başqalarıyla yanaşı, özünü də alçaldır. Allahının gözündən düşür. Gərək Allah adamı olasan.

Sözüylə əməli bir olan Arzuman müəllimin ürəyi sanki əhatəsindəkilər üçün döyünürdü. Onun övladlarına, doğmalarına sevgisi, istəyi nə qədər çox olsa da, dərs dediyi şagirdləri onlardan ayırmazdı. Hamısına eyni eynəkdən baxardı. Obyektivliyini, ədalətini qoruyub saxlamağa çalışan bu ziyalı barədə onu yaxından tanıyanlar tez-tez bildirərdilər: Arzuman müəllim oxumuş adamdı... Həssas insandı. Hamı barədə ancaq yaxşı düşünür. Ədaləti də, mərhəməti də, səxavəti də ona Allah verib. Allah verəni kimsə alanmaz...

Ömür-gün yoldaşı Şirinnaz xanım həmişə övladlarına təlqin





eləyərdi: "Atanız ailəmizin çırağıdı. O, bütün günü sizin xoşbəxt həyatınız üçün əlləşir-vuruşur. Birinizin adi soyuq dəymədən başı ağrıyanda, halı qarışanda atanız nələr çəkdiyini mən bilirəm. O, özünü uşaq kimi itirir, sarsıntı keçirir. İsti-soyuq bilmir. O, gah məktəbə, gah həyətyanı təsərrüfata qaçır. Gah da nə bilim haralara... Ailəmiz böyükdü. Elə danışmalı, elə hərəkət eləməlisiz ki, atanız inciməsin. O, sizdən razı qalsın. Atanızın arzusu, istəyi sizsiz. Atanızı sevsəz, Allahınız da sizi sevər. Ailəmiz ruzulu, bərəkətli olar. Atanın istədiyi kimi oturub-durmaq, onun arzularına qol-qanad vermək Allaha sevgidi, Allaha məhəbbətdi. Çalışın, atanızın ümidlərini doğruldasız. Ona hər işdə köməkçi olasız...".

Bəli! Bu adam el arasında təkcə müəllim kimi yox, həm də ağsaqqal, məsləhətçi kimi dəyərləndirilirdi. Kim dara düşsəydi, kimin nəyə ehtiyacı olsaydı, Arzumanın yanına gələr, ondan məsləhət alardı. Yaşadığı el-obanın elə bir yası, ya toyu olmazdı ki, bu adam orda iştirak eləməsin, ehtiyacı olanlara bacardıqca kömək əlini uzatmasın, xeyir-dua verməsin. Arzuman müəllim qarasına danışanların söz-söhbətlərini ya eşitməzliyə vurar, ya da saya salmazdı. Bilərəkdən, ya bilməyərəkdən ona pislik eləyənlərin naqis əməllərini yadından çıxarmağa çalışardı. Özü də nə kimsədən qeybət qırar, nə də kimsəyə pislik eləyərdi. Ən çox zəhləsi mərdimazardan, böhtançıdan, iftiraçıdan gedərdi. Elənciklərin nə qəlbində yeri vardı, nə də dilində sözləri. Sözün həqiqi mənasında, o, din, iman adamıydı. Dövrünün ən mükəmməl din bilicilərindən olan mərhum Yəhya Əfəndidən ilahiyyat elminin bir çox sirlərini öyrənmişdi. Ondan qalan kitabları oxumuşdu. İçində insanlara məhəbbət, səxavət, xeyirxahlıq, rəhimdillik duyğuları kök salmışdı. Həmişə də onları qiymətləndirməyə çalışırdı...

Payızın əvvəleriydi. Təbiət al donunu dəyişməkdəydi. Çölbayır, bağ-bağça yeni bir rəng, yeni bir çalar almaqdaydı. O za-

mankı kolxoz idarəsində partiya yığıncağı keçirilirdi. Yığıncaqda rayon partiya komitəsinin nümayəndəsi də iştirak eləyirdi. Keçmiş katib işində verdiyi nöqsanlara görə yerli ilk təşkilatı partiya katibliyindən kənarlaşdırıldı. Maraqlıydı, köhnəni əvəz eləyəcək adamı rayon nümayəndəsi təklif elədi.

— Möhtərəm yığıncaq iştirakçıları, rayon partiya komitəsinin birinci katibinin razılığıyla kənd ilk partiya təşkilatı katibliyinə Əşrəfov (inisialı şərtidi) məsləhət bilinib. İstərdik, onun Qazıqumlaq kənd ilk partiya təşkilatı katibi seçilməsinə səs verəsiz...

Bu təklifi eşidən zal uğuldadı. Kənd adamları ayağa qalxdı. Hamı bir ağızdan Arzuman müəllimin üzərində dayandı. Kənd rəhbərliyi, partiya komitəsinin nümayəndəsi pərt oldular. Yığıncaq dağıldı. Həftə sonu təşkil olunan mərasimdə Arzuman müəllim yekdilliklə kənd ilk partiya təşkilat katibi seçildi. Onsuz da işin çoxluğundan göz açanmayan Arzuman müəllimin qayğıları, məsuliyyəti üzərinə yeniləri gəldi. Zəhmətkeşlərlə gündəlik görüşlər, iclaslar, adamların ərizə və şikayətlərinə baxış, hərəsini bir yolla razı salmaq onun səbr, təmkin və işgüzarlıq tələb eləyən gərgin əməyinin tərkib hissəsinə çevrildi. Fəaliyyət dairəsi genişləndi: min tona yaxın pambıq; neçə min tonlarla meyvə-tərəvəz; yüz tonlarla üzüm; on tonlarla barama, ət; süd; yumurta... planları. Hansını deyəsən? Hər gün bu qədər sahəyə vaxt ayırmaq. Partiya, dövlət, xalq qarşısında məsuliyyət. O, hər gün hava işıqlananda bir loxma kəsib evdən çıxır, gecəyarı yorğun-arğın ac qayıdırdı. Bəzən işə o qədər başı qarışırdı ki, Arzuman müəllim doğma övladlarının qayğısına qalmağa da vaxt tapa bilmirdi... O, sözün həqiqi mənasında, getdikcə el-obada böyük nüfuz sahibinə çevrildi. O, bütün varlığıyla qazandığı nüfuzunu, hörmətini qorumağa çalışırdı. Sadə əmək adamları da, rəhbər vəzifələrdə çalışanlar da onu şəxsiyyət sanırdılar... Qəbri nurla dolsun.





## Dünyanın cövhəri anadır, ana!

**Qadının möhtəşəm və əzəmətliyi**
**ana olmasındadır.**
***(Müəllif)***

Dünya peyda olandan ağlı kəsən, dili söz tutan elə adam tapılmaz ki, Allah və ana sözlərini hər gün bircə dəfə də olsun dilinə gətirməsin. Bu qoşa anlamın müqəddəsliyinə güvənməsin. Ən ağır anlarında adlarını çəkməsin, qarşılarında səcdəyə enməsin və bu enişi özüyçün fəxarət sanmasın. Allah və ana! Nə böyük qüdrət?! Nə əzəmətli bir varlıq?!. Hər ikisi Yaradan, hər ikisi sevgi dolu hikmət... Allahın möcüzələrindən biri, bəlkə də ana adlı mələyi yaratmasıdı. Allahsız ana, anasız dünya yoxdu. Yaradana da, onun yaratdığı "Ana" adına da şükür...

Elton müəllim professor olsa da, hər dəfə cici dediyi anasını görəndə elə bil uşaqlaşırdı. Hər şey yaddan çıxırdı... Lap uşaqlıqdan o bütün mehrini cicisinə salmışdı. Cicisiylə nəfəs alırdı. Həyata, cəmiyyətə bu qadının gözləriylə baxmağa çalışırdı. Onun düşüncələriylə yaşayırdı. Ondan fiziki və mənəvi qida alırdı. Arzusu da, istəkləri də, xəyalları da cicisiydi Eltonun. Hərdən bu qadının çəkdiyi məşəqqətlər gəlib dururdu gözləri önündə. Onda Elton yanırdı-yaxılırdı cicisinin qəmli, qüssəli, kədərli çöhrəsinə baxanda. Hərdən də gülürdü şən, sevincli, təbəssümlü, şad olanda bənizi. Belə olanda yerə-göyə sığmırdı oğul. Kimsənin burnunun qanamasını istəməyən Şirinnazın yumşaq ürəyi, həssas qəlbi kövrəkdi. İnsanların ağrı-acılarını tez duyandı. Hallarına yanandı.

Belə olanda gözləri dolur, bənizini sanki duman, çən alır, qara buludlar çökür. Qızlarının barmağına tikan batanda, oğlanlarının ayaqlarına daş dəyəndə, soyuqlayıb başları ağrıyanda ürəyi

dözməyib, qadın halba-hal olurdu. Övladlarının keçirdiyi hissləri duymağa çalışırdı. Ərinin yorğun-arğınlığını görəndə o, az qala özünü itirirdi. Cavanlıqdan özünü ailəsinə həsr eləyən Şirinnaz xanımın ailə, oğul-uşaq qəhəri çəkməkdən başqa işi yoxıydı. Bunu onun əri də, övladları da duyurdu... Şirinnaz hər vaxt evinin, ailəsinin üstündə əsirdi. İmkan verməzdi ki, heç vaxt evin sirri kənara çıxsın. Kimlərinsə ağzında nəyəsə dönüb çevrilsin. O, bu vərdişi qızlarına da, gəlinlərinə də aşılamağa çalışırdı. İnsafən, niyyətinə də tam mənasıyla nail olmuşdu. Bu qadının uca qaməti, dən düşmüş saçları, geniş alnı, dairəvi üzü, mehriban baxışları, səmimi sözü, yüz dəfələrlə ölçülüb-biçilən davranışları vardı. Olduqca sadəydi, hərəkətlərini daim nəzarətdə saxlamağı bacarırdı. Astadan deyib-gülməsi, artıq söz-söhbətdən uzaqlığı... Kasıb-kusuba, əlsiz-ayaqsızlara, dara düşənə əl tutması, xəstələrə baş çəkməsi... tanıyanlar arasında onun nüfuzunu qaldırmışdı...

Cicisinin bu keyfiyyətlərini görüb duyan Eltonun qəlbi iftixar hissiylə dolurdu. Ona nə deyəcəyini bilmədiyindən yaşarırdı gözləri Eltonun. O, öz-özünə deyərdi:

— Cici! Sənin qəlbinin əzəmətini, möhtəşəmliyini dilimə gətirməkdə bəzən acizəm. Qəlbin nə qədər genişdi? Ürəyin nə qədər təmizdi? Sən mənim üçün mələksən. Mənim qibləgahımsan. Qardaşlarıma, bacılarıma məhəbbətini, atama sonsuz sədaqətini hiss eləyəndə səcdənə enmək istəyirəm!.. Hisslərinin, sevginin bu qədər tükənməzliyi nədəndi və onlar sənə hardan axıb gəlir? İnsanlara sevgi, xeyirxahlıq... Allahının sənə bəxşişidimi? Sən inam mücəssəməsisən...

Yadındamı? Biz balaca olanda hər birimizin hərəkətlərimizi (haralara getdiyimizi, hansı işlər gördüyümüzü, özümüzü necə aparmamızı, hətta, kimlərlə ünsiyyətə qoşulmalarımızı...) necə nəzarətdə saxlamağın. Kimdənsə, nədənsə qorxduğunu, çəkindiyini anlamamışıq. Mən o zamanlar bilməsəm də, o keçirdiyin





təlaş və təşvişlərin səbəbini indi duyuram, hiss eləyirəm.

İndi anlayıram, sən bizi bir an da gözlərindən uzağa niyə qoymamısan. Bilirəm, cici. Bizi hər hansı təhlükədən qorumaq üçün. Nədən, nədən çəkindirmək üçün... Nələr, nələr üçün... Sağ ol səni, cici! Sən nə qədər uzaqgörənsənmiş... Həssasanmış... Bunların hər birinin arxasında nə qədər ehtiyat, nə qədər qorxu, nə qədər həyəcan... durürmuş. İndi sənin özündən soruşuram: o qədər həyəcanlara, iztirablara necə dözmüsən? Bu qədər təmkin, səbr səndə hardanıydı, mənim cicim? Bu qədər ağrı-acını, dərdi-səri ni özün çəkmisən, kimsəyə açmamısan, hiss elətdirməmisən. Bu ağırlığı çiyinlərində çəkmisən... O illər ərzində nələr çəkdiyini anlayıram, dəyərləndirirəm. Sən sevməyi də, fərəhlənməyi də bacarırsan, kədərlənməyi də, lap nifrət eləməyi də. Heç yadımdan çıxmaz. Qardaşım Nərimanın toyunda keçirdiyin o xoş anlar. Onda sevindiyindən yerə-göyə sığmırdın. Oğul anası tək qol açdın. İlk gəlinin evimizə qədəm qoyanda bir an içərisində gözlərində parlayan sevinc hisslərini indi də unutmamışam... Özün də bilmədən mən sənə tamaşa eləyirdim, cici! Onda nə qədər özündən məmnunuydun. Sən nə qədər xoşbəxtiydin. Bacılarım Məhbubəni, İlahəni... gəlin köçürdüyün, yola saldığın dəqiqələr. Onda tamam başqaydın. Vağzalının sədaları altında gözlərindən yağan nigarançılıq. Sevinclə kədərin toqquşduğu anlarda gözlərinin yaşla dolması. Kirpiklərinin hərdənbir qapanması... Bəli! İlahi hisslər ümmanı. Təbiət təki gah coşan, təlatümə gələn, gah da sakitləşən insan qəlbi!.. Nələr yoxdu səndə, mənim cicim! Bir zaman oğul-qızların, indi də nəvələrin, nəticələrin üçün nə qədər əsirsən. Böyüyünə, balacasına, oğlanına, qızına fərq qoymursan. Hamısına eyni gözlə baxırsan... Hə, az qala unudacaqdım. Axı sən gəlinlərini də çox istəyirsən. Onlarla doğma qızlarına fərq qoymursan. Hamısına "Mənim qızım, mənim balam" deyə müraciət eləyirsən. İnsafən, onların da hər biri səni özlərinə "Ana" sanırlar. Doğma övladlarından ayır-

mırlar. Qulluğunda dururlar. Başın ağrıyanda — Can — deyirlər. Bircə sözünə, bircə işarənə bənddilər. Dərhal "Eşidirəm, ana, nə lazımdı, sözünü de" deyə qarşında dururlar...

Hissiyatın güclüdü. Əvvəlcədən nə baş verəcəyini duyursan. Uzaqgörənliyinə söz olanmaz. Maraqlıdı. Övladlarının narahatlığı, dərdi-sərləri səndən nə qədər uzaqda olsalar da, dərhal sənə necə də əyan olur. Bu duyum sənə gecəmi gəlir, gündüzmü, deyənmərəm. Bu bəlkə də Allahından sənə gələn vəhdi, mənim cicim... Bilirəm. Onda sarsılan vaxtların da olur. Belə olanda, dünya başına dolanır... Bunun əksi olanda, sevinirsən... Çöhrəndə təbəssüm oyanır. Həyat gözlərində gözəlləşir, bərq vurur. Hissiyatının bu qədər gücü səndə hardandı, cici?! Ana qüdrətindənmi? Ana duyğusundanmı?!. Bəlkə, bu da İlahinin sənə bəxş elədiyi bir hikmətdi. Belədisə, səni yaradan Tanrıya eşq olsun!..

Mənim torpağa, el-obaya bağlı cicim. Xatırlayırsanmı? Mən Tomskda yaşayanda evimizə qısa müddətə gəlmişdim. Tez də qayıtmalıydım. Neçə günlüyə gəldiyimi deyənmərəm. Qonşumuz Əhməd kişi (ad şərtidi) mənimlə görüşə gəlmişdi. Görüşdük. Xeyli söhbət elədik. O, gözlənilmədən dedi:

— Elton, mənə otbiçən gərəkdi. Bilirəm ki, o sizdə var. İstifadə eləyib qaytaracam.

Mən dərhal cavab verdim:

— Əhməd dayı, cicimə deyim, sonra fikrimi sənə çatdıraram.

Əhməd kişi gülümsündü. Səsinə bir az ara verib bildirdi:

— Mən özüm də cicinə deyə bilərdim. Cicin varına yox deyən qadın deyil. Söz eşidəndi. İndi cicini narahat eləmək istəmədim.

Doğrusu, Əhməd kişinin sözü məni tutdu. Şəlalə axarlı duyğular içimi bürüdü. Qəlbim fərəhləndi. Deməyə söz tapanmadım Əhməd kişinin xahişini yerinə yetirdim. Onunla olan söhbətimi axşam cicimə çatdıranda o, güldü:





— Kimsəyə əl tutmaq, xeyirxahlıq göstərmək Allaha xoş gedər, oğlum. Nəyimiz varsa, hamımızındı. Ona sənin də haqqın çatır.

Mən cicimin sözünü çevirmədim. Öz-özümə dedim:

— Nə qədər müdriksən, mənim cicim.

Şirinnaz xanım kifayət qədər təhsil almasa da, onda başqalarına nümunə olacaq, kökdən, əsli-nəcabətdən gələn xanım-xatınlıq vardı. Bu qadında ailəsinə, insanlara sevgi, əqidəsinə sadiqlik hissi fitrətəniydi. O, başqalarının sevincinə, kədərinə şərik olmağı bacarırdı. Onda maarifçilik ideyaları, hissi güclüydü. Heç şübhəsiz ki, bu keyfiyyətlər Şirinnaz xanıma ailəsindən, onu əhatə eləyən mühitdən, anasından, qaynanasından gəlirdi. Əslində tərbiyə, ədəb-ərkan və mərifət, xalq ənənəsi, keçmişə bağlılıq, tükənməz və fövqəl təsirə malik bir məktəbdir.

Şirinnaz xanımın ən böyük istək və arzusu övladlarının yüksək təhsil almaları və mükəmməl tərbiyə olunmalarıydı. Onun aləmində təhsilsiz insan nə özü-özünü dəyərləndirməyə, nə başqalarını qədirləndirməyə, nə də həyatı dərk etməyə qabildir. Hər bir insanın xoş gələcəyi onun aldığı təlim-tərbiyədən asılıdır. Adi ev qadınının bu müdrik düşüncələri, təhsilə verdiyi dəyər, cəmiyyətə yanaşmasındakı münasibəti dünyagörüşünün nəyə qadirliyinə açıq-aşkar bir sübutuydu... İnsanın müdrikliyinin təntənəsi əlçatmaz, ünyetməz sirlər xəzinəsindədir. Xalq hikmətindədir.

Şirinnaz xanımın şəxsi mütaliə mədəniyyəti olduqca güclüdür. Zəngindir. Azərbaycan ağız ədəbiyyatını (laylaları, bayatıları, atalar sözlərini, zərb-məsəlləri, nağılları, dastanları...) yaxşı bildiyindəndir ki, bu qadının mənəvi-əxlaqi çövhərlərə bələdçiliyi, hazırcavablığı, sözə həssas münasibəti, kökə bağlılığı, ənənələrə sadiqliyi ilk tanışlıqdan özünü büruzə verir. Müsahibinə diqtə eləyir ki, qarşısında əyləşən, başı işə-gücə qarışan bu adam yaşadığı, ömür-gün sürdüyü dünyadan xəbərdardır, söz

xiridarıdır. Xalqın kamal dünyasına yaxşı bələddi. Yersiz hər hansı sözə, gülüşə, hərəkətə yetərincə özünün kəskin münasibətini bildirəndi. Xarakteri ciddidi. Ciddi olduğu qədər də əqidəsi sağlam və qətidir. Ziyalı ailəsində formalaşan bu qadınla söhbətə oturanlar bir növ özlərini yığışdırmalı, hərcayı söz-söhbətdən, qeyri-ciddi hərəkətlərdən çəkinməli olurlar. Biş-düşü, tikib-toxumağı əvvəllər doğma anasından, sonralar qaynanasından mükəmməl öyrənən Şirinnaz xanım bu sahədəki bilik və bacarıqlarını qızlarına və gəlinlərinə, nəvələrinə ötürməyi özünə mənəvi borc bilir. Onun aləmində evdarlıq işlərini bacarmayan qadının dili addımbaşı keç olar... Qadın öz işi, öz əməliylə ləyaqət, ismət, şərəf və namus mücəssiməsidi. Ağıllı qadın ərinin, övladlarının, nəsil-nəcabətinin tacıdı. Qadının özünə dəyəri ərinə, nəsil-nəcabətinə... dəyərdi. Qadın istəsə, ərini göylərə qaldırar, istəməsə, ayaqlar altına atar. Ərini alçaldan qadın özü də ayaqlar altında inlər... Bəli, bu müdrik el-oba anasının söylədikləri, sözün həqiqi mənasında, ulularımızın qoyub getdikləri irsin parlaq nümunəsidir...

Cicisi barədə düşünən Elton heç özü də bilmədən keçmiş xatirələrini yaddaşında çözələdi. Qışın oğlan çağlarıydı. Göyün üzündə ala-tala boz buludlar uçsa da, hərdənbir günəşin zəif şüaları bulud laylarının arasından yerə boylanırdı. Hay-qışqırıqlı uşaqlar kəndin kənarındakı futbol meydançasına axışırdılar. Uşaqlar iki dəstəyə ayrıldılar. Futbol oynamalı oldular. Top ardınca qaçdılar. Gözlənilmədən uşaqlardan kimsə dedi:

— Bərk istidi. Gəlin, indi də soyunub arxda çimək.

Bu təklif hamının ürəyincə oldu. Hamı soyunub suya atıldı. Su olduqca soyuquydu. Bir neçə dəfə suya baş vuran uşaqlar canlarında üşütmə hiss elədiklərindən qurulanmadan paltarlarını geyinib evlərinə qayıtdılar. Yol getdikcə Elton canında üşütmə duydu. Evə gəlib çatanda onu titrətmə tutdu. Həmin axşam onun hərarəti qalxdı. Cicisi Şirinnaz bərk həyəcanlandı. Ona türkəçarə elədi, qayğı göstərdi. Vəziyyətin yaxşılaşmayacağını görən qadının təlaşı artdı. Evə həkim çağırtdırdı. Elton iynə-dərman qəbul elədi. Ancaq səhərə qədər yatanmadı. O, hər dəfə gözlərini açanda cicisini yatmayıb başının üstündə dayanan gördü, titrək səslə — Qorxma, yaxşı olacaqsan — dediyini eşitdi.





Elton hərarətdən özünü itirməmişdi. O, hərdən göz qapaqlarını qaldıraraq yuxusuz qalıb mürgü döyən cicisinə baxdı. Həyəcanlandı, hərəkətlərinə özlüyündə peşman oldu:

— Eh... Ömür boyu bizim üçün ürəyini şam kimi əridən, yuxusuz gecələr keçirən cici. O əzablara necə də dözə bilmisən. Bağışla məni. Səni necə də incitmişəmmiş...

Adi günlərdən biriydi. Nəriman yaxın qohumlarıyla uzaq səfərə çıxacaqdı. Hiss olunurdu ki, Şirinnaz xanım Nərimanın xiffətini çəkir. Bunu Elton da duydu. O, dözməyib cicisindən soruşdu:

— Nə yaman fikirlisən, cici?

— Hə, oğlum, neçə gündü Nəriman yoxdu, mən də bir yerdə dayananmıram. Onsuzlamışam. Xiffətin çəkirəm. Nəriman hamınızdan böyükdü, inciməyin, mən onu çox istəyirəm. O, evdə olanda elə bilirəm arxamda dağ var. Dağa söykənikliyəm.

Elton güldü:

— Bəs biz?

— Siz də elə...

Şirinnaz xanım ani fikrə getdi. Sonra astadan bildirdi:

— Oğlum əlimdəki barmaqların hamısı birdi. Hansı kəsilsə ağrı verər. Valideyn üçün oğul arxasında dayanan dağdı... Mən gücü, qüvvəti sizdən alıram.

— Arxeyin ol, cici. Bizə gücü, qüvvəti də verən müqəddəs ruhuyla mərhum atam, bir də ki sənsən...

## Sevgi dolu həyat

İnsan istəsə də, istəməsə də daim xatirələrin ümmanında vurnuxur. Gəncliyində bir cürə, iqtidar çağlarında tamam başqa cürə. Bir qisim insan gənclik çağlarında geriyə qanrılmağı, keçdiyi yolları xəyalən bir də adlamağı ağlına da gətirmir. Gətirənlər də ona adi hal kimi baxırlar. Fərqinə varmaq, ondan nəticə çıxarmaq istəyindən çox-çox uzaq olurlar. Qəribədi. İqtidar çağları nədənsə olub-keçən günlərlə, başlarında cərəyan eləyən hadisələrlə, keçirdiyi acılı-şirinli hisslərlə təmasda olmaq istəyirlər. Görünür, yaşamağın da öz xilqəti, öz xisləti var. İnsan qismətinə düşən həyatını yaşayıb axırına çata-çatda, qolunun, biləyinin gücü, qıçlarının taqəti azalanda onda geridə qalan anları, keçdiyi ömür yolunu bir də (təkrarən) addamaq, yaşanmış duyğularla, hisslərlə təmasda olmaq xəyal və xülyaları baş qaldırır... Yəqin iqtidar çağlarında uşaqlıq illərinin, yeniyetməlik dövrünün, gənclik zamanının qədrini daha çox dərk eləyir. Onun əlçatmaz, ünyetməz həzlərini bir də yaşamaq istəyir. Bitməkdə olan ömür ərzində o, keçən günlərdə elədiklərini yadına salır, hansının az olduğunu müəyyənləşdirir. Özlüyündə dərindən köksünü ötürür, ah çəkir. Keçən günlərimin yaxşısı da, pisi də mənimdir. Kaş o günlərə bir də qayıda biləydim. O, hissləri yaşamaq qismətimə yazılaydı — deyir. Xatirələr ümmanına baş vurduqca ürək qübarlanır. İnsan elə bil acizləşir. Sanki Tanrısına yaxınlaşır. Onunla ruhən təmasda olur. Ünsiyyətə qoşulur. Ülfət bağlayır. Adam özü də bilmədən halba-hal olur. Düşünür: "Bu, özümdən gələn hissdimi? Yoxsa, Tanrıdan mənə ötürülən bəxşişdi..." Beləcə, bəzən insan kimsəsizləşir... Bunun əksi olanda insan acizləşir... Qəribədi. İnsanın hər anı bir möcüzədi. Bir dünyadı. Sirli-sehirli aləmdi... Bunları oturub-durub fikirləşəndə heç vaxt insan xatirələrindən ayrılmaq barədə düşünmür.





Əksinə, o xatirələr içərisində yaşadığı anların əzəmətini, möhtəşəmliyini, əlçatmazlığını, ecazkarlığını duyur, dərk eləyir... Özünə qayıdanda anlayır ki, bir saniyə əvvəlki düşüncələri sonradan gələn saniyələr üçün tarixə dönür, ya acılı, ya da şirin xatirələrə çevrilir. Əcəb işdi. Adamı özündən alıb özünə qaytaran hər bir kəsin öz iç dünyasıdı, yaşam müncəridi xatirələr. Nə vaxtsa, özünün özünə qayıdışıdı. Həm də xatirələr ötən ömrün əksidi. Bəzən də reallığıdı. Ancaq bu, adamın özündən asılı olmur. Bəzən buna "Taleyin qisməti", "Taleyin hökmü" də deyirlər. Xatirələr hər kəsin öz tarixidi. O tarixin səhvlərində ətir saçan əlvan çiçəklər və "qızıl güllər" tək təsvir olunur, göz döyənəkliyinin xırda-xuruş balıqqulağıları da, üfunət verən zir-zibilləri də...

Heç vaxt unudulan deyil. Adi yay günlərindən biriydi. İsti adamı tənkişdirir, tərsə yuyurdu. Ailə üzvləri həyətdə çətirlənən qol-budaqlı tut ağacının altında oturmuşdu. Stolun üstünə qoyulan vazda gavalı, gilas, şaftalı vardı. Dörd yaşı olar-olmaz balaca Elton da böyük qardaşı Nərimanın yanında əyləşib gavalı yeyirdi. Bu vaxt həyət darvazası açıldı. Yetkin yaşlı Elman gülə-gülə həyətə girdi. Deyəsən onun gəlişi balaca Eltonu açmadı. Uşaq ağzını büzdü. Hiss olunurdu ki, onun halı qarışdı. Sonra stolun başına toplaşanlara üzünü tutdu. Barmağını başına aparıb bir neçə dəfə fırlatdı. Bununla da — Elmanın başı xarabdı — işarəsini vermiş oldu. Dörd yaşlı uşağın bu hərəkəti hamıda təəccüb doğurdu. Nəriman özünü saxlayanmayıb ucadan güldü. Nə fikirləşdisə, Elman yüngülcə başını yellədi və susdu. Elton da bir an sakit dayandı. Handan-hana Elmana dedi:

— Utanma, sən də gəl bir gavalı ye.

Bundan istifadə eləyən Elman əl atıb gavalılardan birini götürüb dişinə çəkdi. Yetişmiş gavalının suyu Elmanın çənəsindən axmağa başladı. Nəriman araya söz qatırmış kimi Eltondan soruşdu:

— Necəsən, qaqaş?
Elton narazı halda bildirdi:
— Pis.
— Niyə?
— Görmürsən, Elmanın ağzının suyu axır?
Gülüş səsləri ətrafa yayıldı. Elton sözünə davam elədi:
— Elman gavalını adam kimi yemir.
Elman bir az pərt halda soruşdu:
— Mən necə yeyirəm?
Elton suala cavab vermədi. Elman təkrarən soruşdu. Uşaq dözməyib dedi:
— Görürsən, gavalı yeyirəm. Adam yeyəndə ondan söz soruşmazlar.
Hamı uğundu. Əslində bu adi dörd yaşlı uşağın düşüncəsi deyildi. Bu hazırcavablığın, sərbəst düşüncənin, yetkin ailə tərbiyəsinin bariz nümunəsiydi.
Eh... Uşaqlar... Uşaqlar... Sizdə nələr yoxdu. Siz nələrə qadir deyilsiz. Bəzən böyüklər sizləri lazımınca dəyərləndirə bilmirlər. Sizə uşaq gözüylə baxırlar. Uşaq sanırlar. Unudurlar hərəniz bir filosof, Allahın sevə-sevə yaratdığı sirli-sehirli dünya olduğunuzu. Siz kimlərlə müqayisə oluna bilərsiz? Yaşamınızın indiki zirvəsindən o illərə qanrılanda, keçdiyiniz dolanbac yollara diqqətlə nəzər salanda aydın olur ki, hikmətə aparan cığırlar sizləri hansı od-alovun içərisindən keçirib. Təfəkkürünüzdə, qəlbinizdə, ömrünüzdə hansı izləri qoyub. Onları düşündükcə gah heyfslənir, qüssələnir, kədərlənir, vahimələnir, gah da sevinir, şadlanır, fərəhlənir, qürrələnirsiz. Məmnunluq hissləri keçirirsiz...
Qışıydı. Səhərdən əsən külək günortaya yaxın özüylə lopa-lopa qar gətirmişdi. Qar getdikcə şiddətlənirdi. Şirinnaz xanım olduqca narahatıydı. O, gah evə girir, peçə odun atır, gah da eyvana çıxırdı. Özü də bir az əsəbi, həyəcanlı görünürdü. O, üzünü





Nərimana tutdu:
— Atanız gəlib çıxmadı, Nəriman. Qaş qaralır. Hava soyuq, küləkli. Qarı düz adamın üzünə çırpır. Boyun-boğazına səpələyir. Belə getsə, kişi atın üstə donacaq.
Nəriman:
— Narahat olma. Görünür, qara görə atı tələsdirmir. Harda olsa, indi gəlib çıxar.
Loğman:
— Anamız düz deyir, qardaş. Yolda canavar, çaqqal görüb at hürkər, ayağı sürüşər. Atamız yıxıla bilər.
Bu sözləri eşitcək elə bil balaca İldırımın üzündə qorxu, təlaş hissi duyuldu. Onun qorxusu Eltonun gözlərindən yayınmadı. O, divardan asılan saata baxaraq dərhal dedi:
— Hava buludlu olduğundan, cici, sənə elə gəlir ki, atam evə gecikir. Əslində atamın gələn vaxtına hələ xeyli qalıb.
Bunu eşidən İldırımın üzündə təbəssüm yarandı.
— Hə... Cici, Elton qardaşım düz deyir... Çaqqal, canavar bizim atımızı hürküdənməz. At onların hərəsinə bir təpik çalar.... Hərəsi bir yanda ölüb qalar.
Elton zarafatla:
— Qonşu Elman da gedib dərilərini soyar.
Məhbubə ürəkdən güldü:
— Çaqqal dərisindən yaxşı şuba tikdirər.
Loğman:
— Şubadan arxalıq yaxşıdı, bacı.
Şirinnaz xanım:
— Uşaqlar, bəsdirin, zarafatı qurtarın. Böyüyəndə, ağlınız kəsəndə mənim nə dediklərimi başa düşərsiz. O, qılıncını qından çıxaran şaxtada atanız canına əziyyət verib çörək qazanır...
Elton:
— Biz nə dedik, ay cici?
Nəriman gülüb pəncərədən çölə boylandı.

— Hə... Atamız gəldi, ay cici. Bayaqdan özündə deyildin...

Arzuman müəllim atı tövlədə yerbəyer eləyib otağa girəndə yanaqları, burnu, qulaqları soyuqdan, şaxtadan qızarmışdı. Uşaqlar atalarının gəlişinə ehtiram əlaməti olaraq ayağa qalxdılar.

Lətifə:

— Ata, yamanca qızarmısan. Keç əyləş peçə yaxın, özünə gəl, sənə bir stəkan çay süzüm, iç.

Arzuman müəllim qızına dedi:

— Hə... Qızım, çöldə tufandı, borandı. Çay pis olmaz.

Arzuman müəllim İldırımı qucağına aldı. Saçlarına sığal çəkib öpdü. Uşağın burnunu çəkdi. Sonra da keçib peçin yanındakı döşəkçənin üstündə oturdu. Lətifə bir stəkan çayı kişinin qənşərinə qoymuşdu ki, Elton atasının yorğunluğuna dözməyib dilləndi:

— Ata, nə vaxtacan qonşu kənddə müəllim işləyəcəksən? Bunun soyuğu, istisi, küləyi, qarı, yağışı var. Hər axşam evə yorğun-arğın gəlirsən.

Arzuman müəllim çaydan bir qurtum içib Eltona cavab vermək istəyirdi ki, Şirinnaz xanım dedi:

— Oğlum, bəs ailənin çörəyini kim qazansın? Atanız da sizin üçün əlləşir, vuruşur.

Elton:

— Biz də qazana bilərik. Pambıq, taxıl tarlalarında işlərik. Nə çox iş yeri. Məmmədəli aparıb bazarda meyvə-tərəvəz satır. Qeybulla tikintidə işləyir. Bəyəm, mən onlardan gücsüzəm?

Arzuman müəllim:

— Oğlum, siz hələ uşaqsız. Gələcəyiniz qabaqdadı. Soyuq, külək vurmasına baxmayın, indi mən qazanıram. Vaxtınız var. Siz dərslərinizi yaxşı öyrənin. Böyüyəndə də siz işlərsiz. Qazanarsız, onda da mən dincələrəm. Uşaqlar, gələcək elmindi. Elmsiz, təhsilsiz insanın yaşamı gələcəkdə çətin olacaq.





Elton söhbəti daha uzatmadı. Qalxıb rəfdən kitab götürdü və yan otağa keçdi. Kitabı açıb vərəqlərini çevirdi. Gözləri sətirlər üzərində axsa da, fikri onu alıb lap uzaqlara aparırdı:

— Eh... İnsan ömrü. Uşaqlıq illəri. Qalsız-qadasız günlər, dərdi-sərsiz anlar... Qəribəliklərin çoxdu, lap çox. Bəzən nə üçün doğulduğumuzun da, dünyadan köçməyimizin də fərqinə varmırıq... Oturub-durub özümüzə xoşbəxt həyat arzulayırıq. Bircə dəfə düşünmürük: axı bu xoşbəxt deyilən həyat nədi? O hardan gəlir? Onu necə əldə eləyə bilərik? O, alın yazımızdı, qismətimizdi, yoxsa, çətinliklərlə özümüzün əldə elədiyimizdi?!. Hə... Onu da eşitmişəm: "Dağ çayına dur-dur deməklə nəhr dayanmaz". Necə də filosofanə, hikmətamiz deyilib bu kəlam?! Soyuqda, şaxtada, qarda, yağışda... nəfəs təngişdirən istidə əlləşmədən, vuruşmadan, çarpışmadan ağız şirin eləmək, həyatdan çəkilən xoşbəxtlik balının dadına baxmaq mümkündürmü?! Atam necə dedi: Oxuyun, böyüyün, siz qazananda mən dincələrəm. Bəli, atam o sözləri dedi. Ona görə yox ki, bu gün elədiklərini o, bizə borc verir. Sabah bizdən təmənna umacaq. Ona görə dedi ki, bu gün mən eləyirəm, siz də kimlərəsə eləyərsiz. Sağ ol, var ol səni, müdrik ata! Hər gün min bir əzabımıza qatlaşan zəhmətkeş ata!

Bəzən insan həyatında elə hadisələr baş verir ki, onun qoyduğu izləri ömrü boyu unudanmırsan. Hər yadına düşəndə səni sarsıdır. "Axı bu, niyə belə oldu?", "Bu, belə olmaya da bilərdi..." deyə düşünürsən. Düşündükcə də haldan-hala düşürsən...

Günəş öz ılıq və parlaq şüalarını sürüyə-sürüyə gecə adlı bir örpəyin altına çəkirdi. Gözlənilmədən kəndə səs yayıldı ki, pambıq tarlasında lapet aşıb, sürücü Ağaəli onun altında qalaraq ölüb. Qara xəbər bütün kənd əhlini sarsıtdı. Uşaqdan-böyüyə hamı hadisə yerinə axışdı. Vəziyyəti görən adamlar çaş-baş qaldılar. Ağəlinin oğlu Qadir mənzərəni görcək özünü saxlayanmayıb meyidi qucaqladı. "Atam niyə öldü?", "Atamı bu günə kim

saldı?", "Biz atamsız neyləyəcəyik" — deyə-deyə hönkürtüylə ağlamağa başladı. Eltonun Qadirə yazığı gəldi. Qolundan tutub onu ayağa qaldırdı... Adamlar meyidi evə gətirdilər. Səhər dəfn elədilər. Qadir yoxa çıxdı. Onu — Gördüm — deyən olmadı. Güman gələn yerləri axtardılar. Qadir tapılmadı ki, tapılmadı. Əlacsız qalan Elton hər gün gəzib dolandıqları, ot biçib-odun qırdıqları, qoyun-quzu otardıqları yerləri gəzdi. Nəhayət, üç gün sonra Qadiri kənddən xeyli uzaqda — ot-əncər arasında yatmış tapdı. Əvvəl onu ölmüş bildi. Eltonu dəhşət bürüdü və ağlamsına-ağlanmsına "Qadir!" deyə çağırdı. Neçə günü ac-susuz qalan, əsəbdən sarsılan Qadir yavaş-yavaş gözlərini açdı. Halsız, taqətsiz halda Eltonun səsinə səs verdi. Elton onu qucaqlayıb — Bütün kənd, anan, bacı-qardaşların, əmin, dayın səni axtarırlar, Qadir, qalx qardaşım, gedək — deyə təkid elədi. Küskün Qadir bildirdi:

— Mən atamsız evə getmək, yaşamaq istəmirəm. Yalvarıram sənə, mənim yerimi heç kimə demə, lap anama da.

Elton tutuldu:

— Sən nə danışırsan, Qadir? Biz dostuq. Getməsən, səndən əl çəkmərəm, qardaş. Anan, bacı-qardaşların sənsizliyə dözməzlər! Yoxsa, onların ürəklərini çatlatmaq istəyirsən?

— Axı, mən atamsız...

— Yox!.. Yox!.. Ayağa qalx!..

— Elton mən burda yatanda, tez-tez atamın səsini eşidirəm. Hərdənbir qaraltısını görürəm.

— Yox!.. Səni qarabasır, Qadir. Mən həmişə səninlə birlikdə olacam. Mən dostumu burda qoyub gedənmərəm...

Böyük söz-söhbətdən, çəh-çöhrdən sonra Qadirin qoluna girib ayağa qaldıran Elton onu yasa bürünən evlərinə gətirdi. Qadir özünə gəlincəyə qədər onu bir an da tək buraxmadı. Hər gün o, Qadiri öz evlərinə gətirir, onunla yeyir, içir, birlikdə gəzir, birlikdə əyləşirdilər. O anlardan çox keçsə də, o izlərin üzərini toz bassa da, taleyinə yazılan qismətiylə Qadir özü barışsa da, Elton görüb-duyduqlarını hələ də yaddaş xəritəsində yaşadır.





Uşaqlıq xatirələri yada düşəndə adamın içini titrətmə tutur. Dalaşırsan, sözləşirsən, tez də barışırsan. Bərkişirsən. Könül quşun uçur. Fərəhlənirsən. Ürəyin atlanır. Qəhqəhələr içərisində taleyini talelərə calaya-calaya həyat ümmanın dərinliklərinə — kimliyini dərkə doğru can atırsan. O günlər kino lenti kimi göz önünə gələndə adam dərhal varlığından ayrılır. Dərdi-sərsiz o çağlara atılır. "Çilik-ağac", "futbol", "voleybol" oyunları, "qaçdı-tutudular" hamısı birər-birər çəkir səni öz ecazkar qoynuna. O keçən əlçatmaz, ünyetməz çağlar üçün dil-dodağın təpiyir. Heyfslənirsən. "Bir də o günlər gələcəkmi?", "O anları yaşamaq sənə nəsib olacaqmı?" suallarına cavablar axtarırsan. Reallıqdan arzulara, arzulardan xəyallara atılırsan. Ancaq nə fayda. O illərin yaşamı, cazibəsi, ecazkar qüdrəti əvəzolunmazdı... Çünki o illər sevgi dolu, qəhqəhəli bir həyatdı...

## Həyata baxışı

Ailə kiçik dövlətdi — deyənlərin fikirlərində nə qədər böyük həqiqət var. Hər ailənin cəmiyyətdə öz yeri, öz qayda-qanunları olduğundan öz ənənələri də mövcud olur. El ağsaqqalı, el məsləhətkeşi Arzuman müəllimin ailəsi də belə. Üçüncü övlad Elton da doğulub boya-başa çatdığı, tərbiyə aldığı ailənin ənənələrinə lap uşaqlıqdan sadiq qalaraq daim güzəranları barədə düşünürdü. Bu ənənə indi də davam eləməkdədi. O, yaxşı bilirdi ki, ailədə həmrəylik, güzəranın yüksəldilməsindəki əlbirlik, çəkici hamının eyni zindana vurmaq cəhdi söz və əməl birliyinin təzahürüdü. Elton çox aydın dərk eləyirdi ki, maddi vəziyyətin durmadan yaxşılaşdırılması, sağlam yaşamın təmin

olunması və əxlaqi-mənəvi dəyərlərin qorunması inkişafın başlıca rəhnidi. Tale elə gətirdi ki, Elton lap beşinci sinifdən əmək fəaliyyətinə atıldı. İşləmək, qazanmaq, ailəyə maddi kömək göstərmək yollarını axtardı. Ancaq necə?..

Eltonun xarakterində yaşına uyuşmayan, yaşıdlarını qabaqlayan xarakter cizgiləri də özünü göstərməkdəydi. Əməksevərlik, çalışqanlıq, başqalarının halına yanmaq... onu yaşıdlarından çox-çox fərqləndirirdi... Bir evdə, çoxuşaqlı ana. On uşaq. Tək işləyən ata. Sovet dövrünün ağır güzəranı. İnsan əməyinin lazımınca dəyərləndirilməməsi. Başqa sözlə, vətəndaşların, qul əməyinin istismarı. İnsanların haqq və hüquqlarının tapdalanması. Nələr, nələr... Hər şey, hər şey yaşama, xalqın maddi rifahına, durumuna təsir eləyirdi. Ona görə də adamlar ailələrini dolandırmaq üçün çıxış yolları axtarırdılar. Eltongilin ailəsinin o zamankı durumu, dolanışıq tərzi ürəkaçan deyildi. Bütün bunlar beş-altıncı siniflərdə oxuyan Eltonun daxili aləminə, kövrək qəlbinə təsir eləməyə bilməzdi. Hər yay tətilində o, səhərlər özlərinin qoyun-quzularını qabağına qatar, otlağa aparar, axşamlar otlaqdan qaytarardı. Qış aylarında kəndin kənarında bitən yulğun, cərəyən kötüklərini çapar, onları evə gətirərdi. Onlardan yanacaq kimi istifadə edərdilər. Yaz, payız aylarında həyətbaca işləriylə məşğul olardı. Tərəvəz, bostan əkib-becərilməsində ata-anasının yardımçısına çevrilərdi. Boş vaxtlarında kitab mütaliə eləyirdi. O, gününü hədərə verməzdi...

Qazqumlaq kənd orta məktəbinə yardımçı dörd otaqlı bina inşa edilirdi. Qızmar yay günlərindən biriydi. Hər tərəf istidən sanki od tutub yanırdı. Əl tərpətmək olmurdu. Adamı tər yuyurdu. Belə şəraitdə adam daha çox su, meyvə şirəsi içmək istəyirdi. Od püskürən günəşin altında işləyən, qan-tər tökən fəhlələrə Eltonun yazığı gəldi. Düşündü ki, belə vaxtlarda adamın meyvəyə ehtiyacı olur.

Elton yaşlı kişidən soruşdu:





— Əmi, siz məktəbin həyətində nə tikmək istəyirsiz?

Kişi alnının tərini silə-silə dedi:

— Burda nə tikmək olar? Yardımçı bina. İstəyirik kənd uşaqları qonşu məktəblərə ayaq döyməsinlər. Yağışda, qarda, soyuqda, küləkdə əziyyət çəkməsinlər. Doğma kəndlərində, öz məktəblərində oxusunlar... Vaxt gələr, onlar da oxuyub böyük adam olarlar.

— Siz yaxşı adamlarsız, əmi. Sizə nə lazımdı?

— Heç nə. İşləyirik, əmək haqqımızı da alırıq.

Elton daha bir söz demədi. Birbaşa evlərinə getdi. Eyvandakı səbəti götürüb bağa keçdi. Qapqara şəvə kimi alçadan, gavalıdan, gilasdan, sapsarı ərikdən yığıb fəhlələrə apardı. Bunu görən fəhlələr əvvəl gözlərinə inanmadılar. Elton bildirdi:

— Əmi, bu səbəti alın. Sizin üçün meyvə dərib gətirmişəm. Onlardan yesəniz, susuzluğunuz kəsər. İsti də sizə çox təsir eləyənməz.

Fəhlələr sevindilər. Cavan fəhlə dedi:

— Adın nədir?

— Elton.

— Neçənci sinifdə oxuyursan?

— Altıncı.

Yaşlı fəhlə gülümsündü:

— Sən kimin oğlusan?

— Arzuman müəllimin.

— Hə... Deyirəm axı. "Ot kökü üstə bitər", oğlum. Sənin atanı yaxşı tanıyıram. O, bir zaman mənə də dərs deyib. Qayğıkeş müəllim idi. Sən də atana oxşamısan.

— Oğul atasına oxşar da.

Hamı gülüşdü. Yaşlı fəhlə yanında işləyən daş hörənə dedi:

— Uşaq əziyyət çəkib gətirib. Sən məndən cavansan. Qab götür, yu, meyvələrdən bir-ikisini ataq ağzımıza... Özümüzə gələk.

Başqa bir fəhlə üzünü Eltona tutdu:

— Sağ ol... Sən adamlara, əməyə dəyər verən olacaqsan. Allah da sənin dəyərini verəcək.

— Mən neyləmişəm, əmi? Bu istidə siz əziyyət çəkib bizə məktəb tikirsiz. Mən də sizə bir az meyvə gətirmişəm. Sizin xeyirxahlığınız bizimkindən çox-çox böyükdü.

Yaşlı fəhlə:

— Xeyriyyəçiliyin böyük-kiçikliyi olmur. Bizi burda işləyən çox adam görür. Onlardan təkcə sən...

— Bu mənim borcumdu, əmi...

Pambıq yığımı başlanmışdı. Həmin mövsüm bol məhsul yetişmişdi. Doqquzuncu sinif şagirdlərini də yığıma cəlb eləmişdilər. Axşam düşdüyündən kolxozçular tarladan yığışır, dolu xaralları lapetə, arabalara yığır, — düşməsinlər — deyə onları kəndirlə arabaya bağlayırdılar. Elton da qadınlara köməyə gəldi. O, aşağıdan dolu xaralları qaldırır, sürücü Cəmil də (ad şərtidi) alıb arabada yerləşdirirdi. Gözlənilmədən Cəmilin ayaqları altından xaral sürüşdü. O, müvazinətini saxlayanmayıb gubbultuyla yerə çırpıldı. Gubbultuya atlar hürkdü. Arabanın arxa təkəri Cəmilin bir qıçının üstündən keçdi. Cəmil "Öldüm, ana!" deyə var gücüylə qışqırdı. Adamları dəhşət bürüdü. Bir anlığa hamı başını itirdi. Elton qaçıb Cəmilin başını qucaqladı. Cəmil dedi:

— Ehtiyatlı ol, Elton. Qıçım sınıb. Məni tərpətmə. Ağrıdan az qala ürəyim çatlasın. Atamı! Atamı çağırtdır gəlsin.

Elton tez düşərgəyə qaçdı. Vəziyyəti briqadirə, ordakı adamlara xəbər verdi. Sonra özüylə dörd taxta parçası gətirib hərəsini Cəmilin sınan qıçının bir tərəfindən qoydu. Sonra da öz köynəyinin qollarını cırıb taxtaları oğlanın qıçına sarıdı. Elton adamların köməyi ilə Cəmili arabaya qoyub kəndə çatdırdı. Ordan da rayon mərkəzi xəstəxanasına apardılar. Elton Cəmili tək buraxmadı. Bir neçə gün o da xəstəxanada qaldı. Bir müddət keçdi. Cəmil sağalıb yavaş-yavaş gəzməyə başladı. Elton onu yoluxmağa gələndə Cəmil onu ən əziz adamı kimi qarşıladı və dedi:





— Elton, sən olmasaydın, o taxta parçalarıyla yaramı sarımasaydın, çox güman ki, vəziyyətim ağır olardı. Bəlkə də qıçımı kəsərdilər.

— Nə minnətdarlıq, Cəmil? Mən borcumu ödəmişəm. Bəyəm kimsə, sənin vəziyyətinə düşsəydi, sən ona əlindən gələn yardımı eləməyəcəkdin?..

Cəmil daha bir söz demədi...

Hərdən adam düşünür. Böyüklük yaşda deyil, el arasında deyildiyi kimi başdadı. İnsanın əməllərindədi. Xeyirxahlığındadı. İnsanlara xoş münasibətindədi. Qədirbilənliyindədi. Bunun üçün gərək insanın qanı təmiz ola. Əsli-nəcabətin, əməli-salehliyin ola. Halal süd əmmiş ola, yoxsa, hər ayağı yer tutandan insani sifət, xilqət gözləmək çətindi. Çox zaman da mümkünsüzdü. Kim nə deyir, desin, nə düşünür, düşünsün. Necə qəbul eləyir, eləsin. Ləyaqət də, şərəf də, məslək də, əxlaqi-mənəvi dəyərlər də ailədə formaşlaşan tərbiyəylə, bir də Allahın sənə bəxşiş elədiyi köklə bağlıdı...

Yeniyetməlik dövrünə qədəm qoyan Elton bəzən romantik duyğularla yaşayırdı. O, doğulduğu kəndin isti-soyuğunu da, şirin-şor torpaqlarını da sevirdi. Bir sözlə, o, kəndin romantik həyatına bağlıydı. Aylı-ulduzlu, bəyaz gecələrdə xəyala dalmaqdan doymurdu. Yazda hər tərəfin yaşıl dona bürünməsindən, əlvan güllərlə, rəngbərəng çiçəklərlə bəzənən yamacların seyrindən, yayda söyüdün altında oturub cırcıramaların çırıltılı səsindən, payızın barlı-bəhərli bağlarından, şaxtalı, qarlı qışın insanı riqqətə gətirən nəfəsindən ləzzət alırdı. O, öz-özünə deyirdi:

— Təbiətin insanı özünə valeh eləyən qüdrəti önündə baş əyməyən, onun səcdəsinə enməyən bəşər övladlarının içində yüz il axtarasan, inci tapanmazsan...

Təbiət gözəldi. Elton insan əlləriylə yaranmışlara qayğıyla yanaşardı. Xoşuna gələnləri insanın yaratdığı möcüzə sanardı...

O, daim — Həyat qəribəliklərlə doludur — deyə düşünərdi, yeniyetməlik çağlarını yaşayan Elton. Gözləri önündə baş verən hadisələr bir-birini əvəzlədikcə istəyindən asılı olmadan fikir dəryasına atılırdı. Atasından çox eşitmişdi: Qədimlərdən üzü bəri süzülə-süzülə gələn fəlsəfi traktatlar, yeni məzmun və mahiyyət kəsb eləyən əxlaqi-mənəvi dəyərlər, pedaqoji və psixoloji ideyalar... Hər dəfə bir ampulada özünü büruzə verir. İnsan gərək kiçik, xırda-xuruş fikirlərin başına ip atmasın. Hər kiçik cövhər çox güman qızıl külçənin zərrəsidir. Tarixin sınaqlarından mərdanəliklə çıxan bəşəri ideyalardır. Hər bir dəyər böyük dühaların, zəka sahiblərinin dönə-dönə sınaqdan keçirdiyi tam külliyyatıdır. Eltonun beynində bir fikir çözələndi: Tarixi yaradan, onu nəsillərdən-nəsillərə ötürən insandır. Bu kəlamlar onu göstərir ki, insan öz missiyasını yerinə yetirib getsə də, izi qalandır.

## Uşaqlıq illərinin qanadlarında

Uşaqlıq illərinin acılı-şirinli xatirələrinin tam təfərrüatlarını ins an iqtidar çağlarında duyur. Tez-tez yaşadığı, ancaq fərqinə varmadığı o illərə qayıtmaq, yaşadığı sirli-sehirli aləmə atılmaq istəyir. Ən şirin duyğularına qovuşmaq arzusunda olur. Ancaq nə fayda. Keçən keçir. Onu bir də geri qaytarmaq olmur. Olsa da əvvəlki duyğulardan, onların əvəzedilməz rahiyyəsindən həmin ləzzəti çəkmək, onun ağuşunda cilvələnmək mümkünsüzlüyə çevrilir. Qəm, qüssə, kədər, yaxud sevinc, fərəh, şən əhval nəsib eləyən o anlar röya kimi, xəyal və xülya təki hərdən bir təsəvvürdə canlanır. Bəzən təəssüf, təəccüb və şaqraq hisslərlə yenidən keçmişinlə təmasa girişmək istəyirsən. Çox çəkmir ki, o istəklər də arzulara, arzular da xəyallara, xülyalara dönür... An keçir. Ətrafında elə bil hər şey sönür. O illərin qayıdacağının mümkünsüzlüyünü anlayırsan. İçini dərin kədər, nəhayətsiz niskil bürüyür. Dumana, çənə bürünürsən... Təkcə onu anlayırsan ki, hər şey keçib. Çox şey itib. Ən ülvi, ən titrək hisslərin təxti-tacından düşüb. Tarixə çevrilib. Əlacın kəsilir. Özünə qayıdırsan. Qayıda-qayıda da gələcəyindən nagüman suallar verməli olursan. O illər mənə nə verdi? Nələr götürənmədim? O çağlara təkrar qayıda, o hisslərlə dübarə yaşaya bilərəmmi? Təkrar yaşama dəyərmi? Tutalım yaşadım. O ətri, o rahiyyəni bir də dadmaq olarmı? Suallar çox, cavabları yox. İnsan qəribə məxluqdu. Ağlına nə desən gəlir. Zəki əqidə sahibləri yaxşı deyiblər: "Axar suya bir dəfə girmək olar", "Atılan güllə geri qayıtmaz", "Zaman öz axarından dönməz", "İnsan Allahın, yaxud Allah insanın kəşfidir". Bəli, insan zəkasının bu qənaətləri tarixdə möcüzədi... Hər zamanın, hər yaşın öz hökmü var. Elə olmasaydı, yəqin ki, insan ömrü mənasız bir şeyə çevrilərdi. İnsan tez bir zamanda yaşamdan bezərdi. Hər dəfə yaş üstə yaş gəldikcə qayıdıb keçmişinə boylanırsan. Hər kəsin həyatının hər anı özünündü. Özünə məxsusdu. Elton hərdən özünə qayıdanda uşaqlıq illərinin cazibəsinə düşür, o illəri xatırlayır. Çox şey kino lenti tək birər-birər gəlib durur gözləri önündə. Xəyal onu çəkib hara gəldi aparır. Uşaqlığının ayrı-ayrı ilmələri çözələnir. Nəvələrinin şən qəhqəhələri xəyalən onun özünün ötən illərin arxasında qalan qəhqəhələrinə qoşulur. Eltonun ürəyi fərəhlə dolur. Nə eləyəcəyini, kimə nə deyəcəyini bilmir. Dərindən ah çəkir. İçində — Kaş o illəri geri qaytara biləydim — deyir. Sonra da nəvələrini bağrına basır, saçlarından öpür... Handan-hana özünə qayıdır. Gülümsəyir:

— Dünyanın işinə bax, nəsillər bir-birini necə də tez əvəz eləyir. Babalar, nənələr, atalar, analar öz keçən yerlərini necə də həvəslə övladlara, nəvələrə ötürürlər. Özü də sevinclə, fərəhlə, iftixar hissiylə. Eh... Gör nə günə düşür, necə hallar keçirir insan. Axı o keçən illər də mənimdi: pisdi-yaxşıdı, acıdı-şirindi,

axır ki, başıma gələnlərdi; ötən o illər də; yaranan qəmli, qüssəli, sevincli, fərəhli xatirələr də; xatirələrin qübarlı tarixçəsi də; onlardan əldə elədiyim təcrübə də... Bir zaman övladlarım, uşaqlıq illərinin dərdi-sərsiz ümmanında covlan eləyiblər, indi də nəvələrim eləməkdədilər. Sabah da nəticələrim ömür tarixçilərini yazacaqlar.

Elton uşaqıydı. Hələ məktəbə getmirdi. Əzizlənən vaxtlarıydı. Şirin dili vardı. Danışanda bəzi sözləri də qırırdı... Buna baxmayaraq, danışırdı... Gülürdü. Suallarının ardı-arası kəsilmirdi. Bir az da ərköyünüydü. O da Eltonun sərbəstliyinə, kimsədən çəkinəcəyinin olmamasına dəlalət eləyirdi. Atası Arzuman işdən yorğun-arğın gəlmişdi. Eltona elə gəldi ki, o atasının diqqətindən kənardadı. O, gözucu atasına baxdı. Atadan səs çıxmadı. Elton küskün hala düşdü. Oğlunun küskünlüyü atasının da diqqətindən yayınmadı. Arzuman müəllim — Sənə nə olub, yenə xatirinə kim dəyib — deyə soruşanda oğul ağlamsına-ağlamsına bildirdi:

— Ata, axı mən səni çox istəyirəm, səndən ötrü darıxıram. Harda qalmışdın?

— Oğlum, mən də səni çox istəyirəm. Mən məktəbdəydim. Mən işləməsəm, onda çörəyimizi kim qazanar?

— Gələndə niyə üzümə baxmadın. Həmişə — Balam! — deyib başımı sığallardın.

Arzuman müəllim güldü. Onu bağırına basıb saçlarından öpdü. Eltonun uşaq qəlbi yumşaldı:

— Ata, axı biz çoxuq. Sən təksən. Yorulmusan. İş tap, qardaşlarım da, mən də işləyək.

Beş yaşlı uşağın dediklərinə Arzuman müəllim az qala inanmadı. Onu qəhər boğdu. Handan-hana bildirdi:

— Mənim ağıllı balam, siz hələ uşaqsız. Siz də böyüyərsiz, yaşa dolarsız. Gücünüz, qüvvətniz artar. Oxuyarsız, onda sizə iş taparam. İşləyib həm mənə kömək eləyərsiz, həm də ailəmizin





çörəyinizi qazanarsız.

Elton daha bir söz demədi. Atası soruşdu:

— Elton, daha sualın varmı?

— Yox... Ancaq...

— Nə ancaq?... Saxlama, sözünü de...

— Qonşumuz Məsmə nənə (adı şəridi) bizə gəldi. Cicimə dedi ki, o gün borc aldığın bir sini unu niyə qaytarmırsan? Onda cicimə yazığım gəldi. Elə də qonşu olar? Nə tələsirdi? Cicim borcunu qaytaracaqdı da.

Eltonun sözləri Arzuman müəllimi tutdu. Sanki kişinin başına dünya dolandı. Ancaq keçirdiyi bu halını Eltondan gizlətməyə çalışdı. Sonra bir şey olmamış kimi dedi:

— Oğlum, Məsmə xalangil də kasıbdılar. O gün varıydı, borc vermişdi. Görünür, indi onun da unu yoxdu. O da çörək bişirib balalarının qarnını doydurmaq istəyib. Sən hələ balacasan, çox şeylərdən xəbərsizsən. Axı alınan borc qaytarılmalıdı. Borcu alanda yaxşıydı, qaytaranda pis? Adam hər kiçik şeydən ötrü inciməz, oğlum...

— Cicim qaytaracaqdı da.

— Axı onun da uşaqları yemək gözləyirlər.

Elton daha bir söz demədi.

Qızılı payızın bağ-bağçaya əlvan çalar bəxş eləyən və kəskinləşməkdə olan nəfəsi təbiətin sonuncu donunu da soyundurmaqdaydı. Evlərdə peçlər yandırılmışdı. Arzuman müəllimin oğlanları Nəriman, Ziya, Elton, Loğman, İldırım, qızları Məhbubə, İlahə və Validə isti sobanın ətrafına toplaşmışdılar. Şirinnaz xanım sobaya bir neçə odun parçası atdı. Soba alışmağa başladı. Övladlarına şam yeməyi hazırlayan ana dedi:

— Uşaqlar, sobaya çox yaxın durmayın. Əl-ayağınızı yandıra, paltarınızı alışdıra bilərsiz. Odla oynamaq olmaz... Sobadan od düşər, ev-eşik yanar, soyuqda qalarıq eşikdə.

Uşaqların dilli-dilavəri Elton atıldı:

— Qorxma. Atam gələr, bizə təzə ev alar.

Nəriman:

— Havayı ev var? Əlimizdəkini yandıraq, deyirsən, sonra da düşək qapı-qapı?

Ziya cicisinə üzünü tutdu:

— Sən nədən narahatsan? Həmişə atamı tərifləmirsən? Elə əri olan da qorxar?

Şirinnaz xanım:

— Mən heç nədən qorxuram, oğlum. Ancaq istəmirəm ki...

İlahə:

— Qorxan gözə çöp düşər...

Hamı gülüşdü.

Elton altı yaşına yenicə qədəm qoymuşdu. Həyətdə uşaqlarla oynayırdılar. Bir də səs yayıldı ki, transformatorda işləyərkən həmyaşıdı Valehin atası Vasifi elektrik cərəyanı vurub. Vasif yerindəcə dünyasını dəyişib. Bunu eşitcək adamlar hadisə yerinə axışdılar. Eltonla Valeh da adamlara qoşuldular. Hamı təəssüfləndi. Valeh də, onun baba-nənəsi də, anası da, bacıları da hönkürtüylə ağlayırdılar. Günahsız Vasifin ölümü kəndi yasa batırmışdı. Dəfndən sonra Valeh ağlamsına-ağlamsına Eltona yaxınlaşdı.

— Elton, mən indi yetiməm, hə? Bacılarım da? Atamsız biz necə yaşayacağıq? Anam işləmir. Acından ölərik ki.

Valehin sözləri Eltonun uşaq qəlbinə çox təsir elədi. Eltonun ürəyi yumşaldı. O da özünü itirdi. Gözlərindən iki damcı yaş yanaqlarına süzüldü:

— Sən niyə yetim olursan, Valeh? Axı sənin baban, nənən, anan var. Hər gün biz birlikdə olarıq. Sizdə də, bizdə də.

Aradan bir neçə gün keçmişdi. Valehin ayaqqabısı deşilmişdi. Barmaqları bəzən ayaqqabıdan çıxırdı. Bunu görən Elton heç bir söz demədən evə qayıtdı. O, özünə axşam alınan ayaqqabısını gətirib Valehə verdi. Valeh geymək istəmədikdə Elton dedi:





— Valeh, axı biz dostuq. Götür ayaqqabıları. Atama axşam deyərəm, yenə mənə alar.

Sonralar bunu eşidən Arzuman müəllim Eltona dedi:

— Sağ ol, oğlum, eynən babanın nəvəsisən.

Eh... Uşaqlıq illəri... Uşaqlıq illəri... Dərdi-sərsiz keçən anlar. Uşaqlıq dostları. Heç nədən küsüb, tez də barışmalar. Heç vaxt unudulmayan mehriban, səmimi xatirələr. Yaddaşlarda nəqşlənən pozulmaz izlər. Sən nə qədər əziz, nə qədər təravətlisən?! Əsrarəngsizsən?!

## Orta məktəb illəri

Tanıdığı və tanımadığı yaşıdları. Şən, gurultulu, qəhqəhəli, unudulmaz məktəb illəri. İlk qədəmlər. Sinif otağı. Səliqə-sahmanla düzülən partalar. Məktəbli forması geymiş uşaqlar. Hərəsi bir könüldən pərvazlanan arzular. Bir sözlə, yeni dünya, yeni aləm. İlk andan yaddaşlara köçən deyimlər, duyumlər, gəzişmələr... Nə qədər ürəkaçan, nə qədər gözəl, nə qədər cazibədar?! Heç vaxt unudulmayacaq, yaddaşlara həkk olacaq izlər... Bunları oturub-durub düşünəndə ixtiyarsız halda dillər susur, hisslər, arzular oyanır. Beyinlərdə silinməz izlər nəqş olunur... Elton da yaşıdları arasındaydı. Onun əlindən tutub məktəbə gətirən atası Arzumanıydı. Arzumanın müəllimlik təcrübəsi yetərincə olsa da, nədənsə bu gün ona daha qəribə, daha ünyetməz görünürdü. Bu görüntünün məzmunu sevinc, şadlıq, fəxranəlik... duyğularıyla doluydu. Hərdən bir də özünün uşaqlıq dünyasına qayıdırdı. Özünün şagird həmkarları, ilk müəllimi, "Ana" sözünü yazıb-oxuduğu sinif otağı, əyləşdiyi parta... nələr gəlib durmurdu gözləri önündə. Keçirdiyi hissləri elə bil yenidən keçirirdi. Kişi hardansa qarmaqarışıq, ziddiyyətli, qəmli, hardansa sevincli, fərəhli, şadyanalı hisslərin toqquşması burul-

ğanına düşdü. Dərindən köksünü ötürdü Arzuman müəllim. Oğlunun başına, saçlarına sığal çəkdi və qabaq partalardan birində əyləşdirdi onu. Sonra — Tələsmə, əyləş, indi müəlliminiz gələcək — dedi, özü də sinifdən çıxdı. Çox çəkmədi ki, uzun zəng çalındı. Süleymanov Əlif müəllim sinfə daxil oldu. Hamı ayağa qalxdı, müəllim təzə şagirdlərinə üzündə təbəssüm salam verdi, hər birinə yanaşdı, "oğlum", "qızım" deyə onlarla bircə-bircə tanış oldu. Çalınan ilk zəngin cingiltisi, müəllimin aram-aram, səmimi və mehriban söhbəti indi də Eltonun yadındadı. İlk andan Eltonda müəllimə, sinfə, həmkarlarına xoş münasibət oyandı. Müəllim zəngin bilik və bacarığına güvənərək müxtəlif yollarla şagirdlərinin fiziki durumunu, nitqinin xüsusiyyətlərini, hazırlıq səviyyəsini öyrəndi, kimlərə necə, hansı yollarla yanaşmaq lazım olduğunu müəyyənləşdirməyə çalışdı. Eltonun fəallığı, eşitmə, görmə analizatorlarının, anlama, başa düşmə qabiliyyətlərinin inkişafı, hadisələrə çevik və cəld münasibəti müəllimin diqqətindən yayınmadı... Tədricən o, Eltonun yaxşı şagirdlərdən biri ola biləcəyinə inanmağa başladı. O, tez-tez bu sevimli şagirdinə yaxınlaşır, yeri gələndə, ehtiyac duyduqda ona əlavə tapşırıqlar verirdi. Qəribəydi. Tez bir zamanda Elton məktəbə, müəllimə, şagird həmkarlarına isinişdi, onda kitaba, dəftərə maraq, oxumağa həvəs oyandı. Beləcə günlər arxada qalırdı. Tədris ilinin sonunda Elton yaşıdlarını qabaqladı, ikinci sinifdə bütün fənlərdən "5" alan üç şagirddən biri oldu. Bəli! Müəllim səhv etməmişdi. Balaca Elton onun ümidlərini doğruldurdu. Bu, müəllimi çox sevindirirdi. Çağırdığı valideynlər iclasında Əlif müəllim uşaqların təlim vəziyyəti, biliklərinin keyfiyyət göstəriciləri, özlərini necə aparmaları, nizam-intizam qaydaları barədə danışdı. Hər bir şagirdin psixoloji xüsusiyyətləri, maraq dairələri, daha nələr, nələr barədə valideynləri bilikləndirdi. Ən axırda üzünü həyəcan keçirən Arzuman müəllimə tutdu. Müəllimin üzündə bir təbəssüm doğdu:





— Arzuman müəllim, mən Eltondan çox şey gözləyirdim. Sevinirəm ki, o, ümidlərimi doğrultdu. Oxuyub-yazmasına, məsələ və misal həllinə, ətraf aləm haqqında təsəvvürlərinə, təsvirləri "oxuma", musiqi duyumuna, baş verən hadisələrə şüurlu münasibətinə, müstəqil düşünmə və fikrini əsaslandırma bacarığına görə mən ondan çox razıyam. Səliqə-sahmanı, davranış qaydalarını gözləməsi, tay-tuşlarına diqqətli və qayğılı münasibəti onu göstərir ki, Elton yaşıdlarından çox-çox qabaqdadır. Mənim bir müəllim kimi Sizdən təvəqqem odur ki, onun üstündə bundan sonra da dayanasız. Ona köməyinizi əsirgəməyəsiz. Sizli, mənli çalışaq ki, o, həvəsdən düşməsin. Məktəbə marağı sönməsin. Axı Elton məntiqli təfəkkür sahibidi...

Oğlu barədə xoş sözlər eşidən Arzuman müəllimin qəlbi fərəh hissiylə dolurdu. Ona elə gəldi ki, o, Eltonu indicə görür. Düşündü, müəllim düz dəyərləndirir və mənə haqlı məsləhət bilir: "Uşağın fəaliyyəti üzərində məsuliyyəti daha da artırmaq. Onu bir çox şeylərdən qorumaq. Sağ ol, oğlum. Sən məni bu gün nə qədər sevindirdin..."

Arzuman müəllim evə gələndə qaş qaralırdı. Axşam öz nazik və qaralmaqda olan örpəyini ətrafa yaymaqdaydı. O, qapını açıb içəri keçəndə uşaqlar süfrə ətrafındaydılar. Şirinnaz xanım soruşdu:

— Hə... Nə oldu? Elton barədə nə dedilər?

Elton sıxıldı və başını aşağı saldı. Atası qəsdən suala cavabı gecikdirdi. Elton utana-utana başını qaldırdı, düz atasının gözlərinin içinə baxdı. Arzuman müəllim:

— Nə deyəcəklər? Elton görün kimin oğludu? Hamısı beş. Məktəbdə özünü aparmasına da, nizam-intizamına da söz olanmaz. Oğlum məni utandırmadı. Əksinə, sevindirdi.

Şirinnaz sevincək halda:

— Yaxşı oğul elədi də. Ata-anasını sevindirər.

Qadın üzünü uşaqlarına tutaraq:

— Uşaqlar, görürsüz də, atanız Elton barədə nə deyir? Gərək siz də elə oxuyasız. Hamıya nümunə olasız. Axı sizin atanız müəllimdi.

Nəriman dilləndi:

— Elton lap balacalıqdan qoçaqdı.

Loğman:

— Görərsən, cici, məktəbə gedəndə mən də elə oxuyacam.

Ziya özünəməxsus bir tərzdə:

— Görün, Elton kimin qardaşıdı. Mənim qardaşım elə də olmalıydı, ata. Yoxsa, iki qardaş bizim dostluğumuz tutmazdı?

Hamı gülüşdü.

Arzuman müəllim:

— Gərək Elton arxayınlaşmasın. Daha yaxşı oxusun, cicisini gələcəkdə də beləcə sevindirsin.

Elton:

— Oxuyacam, ata.

— Mən də sabah sənə təzə kostyum, köynək, ayaqqabı alacam...

Bəzən həyatda elə hadisələr olur ki, adam özü baş verənlərə mat-məəttəl qalır. Oturub-durub fikirləşir. Öz-özünə suallar verir: Bu hadisə necə yarandı? O baş verməyə bilərdimi? Yoxsa, bu, təbii prosesdi? Suallara cavab tapanmayanda çaşıb qalırsan. Yaxud, onu əcaib uydurmalarınla, şəxsi ehtimallarınla cavablandırmalı olursan.

Elton ikinci sinifdə oxuyanda dərslər ikinci növbəydi. Payızın son günləriydi. Havadan qış qoxusu gəlirdi. Ağaclar son yarpaqlarıyla vidalaşırdılar. Onlar rəngbərəng yarpaqlarını bağlara, bağçalara xalı kimi sərmişdi. Gəzərkən adamın ayaqları altında qəribə xışıltılar eşidilirdi. Dərs qurtaran tək uşaqlar kitab-dəftərlərini yığışdırıb, çantalarını götürüb bağa dağılışdılar. Elə bu an güclü gurultu qopdu. Əvvəl-əvvəl nə baş verdiyini bilmədilər. Hamı çaş-baş qaldı. Tələm-tələsik gurultu qopan tərəfə qaçdılar. Küçədə iki maşın — yaşıl rəngli "Jiquli"ylə ağ "Jiquli" toqquşmuşdu. Sürücülər və ağ "Jiquli" maşının arxa salonunda əyləşən məktəbli, on bir yaşlı Natavan yaralanmışdı. Qızın boyunboğazı qana boyanmışdı. Bunu eşidən kənd əhli də hadisə yerinə axışdı. Yaşlı sürücü belini tutmuşdu. O, hey ufuldayırdı. Yaşlı Gülnisə qarı Natavanı qucaqladı, — Can bala, özünü qorxutma, döz, bu saat qanı kəsərik — deyib qızın saçlarının arasını nəzərdən keçirtdi. Sonra qarı özünün baş yaylığıyla Natavanın başını bərk-bərk bağladı. Adamlar çaş-baş qalmışdılar. Adamların sir-sifətindən aydın oldu ki, hamı qorxu, həyəcan, təlaş hissi keçirirdi. Elton Natavana yardım üçün kənd tibb məntəqəsinə qaçıb vəziyyəti tibb işçilərinə çatdırdı. Onlar da lazım ola biləcək tibbi ləvazimatlarını götürüb Eltonla hadisə yerinə gəldilər. Yaralı məktəbli qıza ilkin yardım etdilər. Qan axımının qarşısını aldılar. Məntəqə işçilərinin çağırışıyla təcili tibbi yardım maşını gəlib Natavanla sürücünü rayonun mərkəzi xəstəxanasına apardılar. Gözləri önündə baş verənlər balaca Eltonu bərk sarsıtdı. Hadisənin səhəri günü onun təklifiylə uşaqlar xəstəxanaya — Natavanla sürücünün yanına getmək, onların vəziyyətlərini öyrənmək qərarına gəldilər. Elton düşündü ki, bu işi müəllimlə də razılaşmaq gərəkdi. O, riyaziyyat dərsində əlini qaldırıb — Olar, müəllim — deyə danışmaq üçün icazə istədi. Müəllim:

— Buyur, oğlum.

— Müəllim, bilirsiz ki, dünən Natavangil qəzaya düşüb. Biz uşaqlar istəyirik yığışıb onların yanına gedək.

Müəllim Eltonu ayaqdan-başa süzdü. Sonra gülümsündü:

— Çox yaxşı fikirləşmisiz, oğlum. Siz deyənlər mənim də ürəyimcədi. Onda bu gün mənə imkan verin, xəstələr barədə məlumat toplayım. Hallarını xəbər alım. Əgər həkimlər onlarla görüşməyə icazə verərlərsə, mən də sizinlə gedərəm.

Müəllimin dedikləri uşaqların ürəyincə oldu. Həmin gün müəllim xəstəxanayla əlaqə saxladı. Səhəri gün birinci dərsdə

bildirdi:

— Uşaqlar, hadisə olan gün xəstələri görəndə mən də çox qorxdum... Şükürlər olsun ki, onların vəziyyətləri yaxşıdı. O, qorxu-hürkülər arxada qaldı. Bu gün direktorla da danışdım. Belə qərara gəldik ki, iki dəstə gül, bir az da meyvə şirəsi, su alaq, hamımız birlikdə xəstələrə dəyməyə gedək...

Uşaqlar çox sevindilər. Dərsdən sonra onlar kənd avtobusuyla yığışıb xəstəxanaya yollandılar. Qayıdanda Fuad belə təklif verdi:

— Müəllim, Elton yaxşı dostdu. Biz hamımız onu sevirik. O da bizi. Yaxşı oxuyur, intizamlıdı, çətinliyə düşəndə, dərsdən geri qalanda bizə kömək eləyir. Xəstələrə ən çox köməyi də o elədi. Mən sinif nümayəndəliyindən çıxıram. İstəyirəm, mənim əvəzimdən sinfimizin nümayəndəsi Elton olsun.

Uşaqlar Fuadın təklifinə şərik çıxdılar. Müəllim fikrə getdi. Handan-hana o, qızların üzünə baxdı. Qızlar da bir ağızdan bildirdilər:

— Biz də razıyıq Fuadın təklifinə. Elton hamının xatirini istəyir.

Səhəri gün müəllim uşaqların istəyinə yenidən qayıtdı. Yüksək intizamına, həmkarlarının diqqətinə, əla oxumasına görə Elton sinif nümayəndəsi seçildi... Müəllim öz-özünə dedi:

— Bəli, uşaqlıq illərinin ilkin xarakter rüşeymləri münbüt torpağa səpilən saf toxumdan zəmi dalğalanır. Ağıllı adam ilk addımından məlum olur...

Səkkizinci sinifdə Qazqumlaq kəndinin klubunda məktəbin özfəaliyyət qrupunun üzvləri S.Vurğunun "Vaqif" pyesi əsasında hazırladıqları eyni adlı tamaşadan bir parçanı oynayırdılar. Həmin tədbirdə şagirdlər, direktor, müəllimlər iştirak edirdilər. Bir neçə valideyn də tədbirə dəvət olunmuşdu. Elton pyesdə Vaqif obrazını ifadə edirdi. Tədbir başlamazdan hamı bərk həyəcan keçirirdi. Ədəbiyyat dərnəyinin rəhbəri Simuzər müəllimə tez-tez iştirakçılara məsləhət və göstərişlərini verirdi. Nəhayət, vaxt çatdı. Hamı zalda öz yerini tutdu. Həyəcan ifadə eləyən gözlər səhnəyə dikildi. Əvvəl musiqi sədaları zala həzin-həzin, pərdə-pərdə yayıldı. Aparcı qız pərdə araxasından çıxdı. Tamaşanın başlanmasını elan elədi:





— Əziz müəllimlər, hörmətli valideynlər və sevimli şagirdlər. Qazqumlaq kənd orta məktəbi "Dram dərnəyi" üzvlərinin S.Vurğunun "Vaqif" pyesi əsasında hazırladığı tamaşa başlanır.

Aparıcı sözünü dedi və pərdə arxasına keçdi. Gurultulu alqışların sədaları altında səhnə açıldı. Vaqif obrazında Elton, Qacar obrazında Fuad səhnəyə çıxdılar. Zala sükut çökdü. Milçək uçsaydı, səsi eşidilərdi. Obrazlar qarşılaşdı. Hadisələr, dialoqlar, replikalar bir-birlərini əvəzlədikcə, əsərdə yürüdülən ideya xətti, ziddiyyətlər üzə çıxdıqca dramatizm də artırdı. Onlar obrazları elə həvəslə, məharət və sevgiylə ifa edirdilər ki, tamaşaçılar mat-məəttəl qalırdılar.

Qacarın "hakimi-mütləq" obrazı, qərəzli və intiqam hissiylə dolu hərəkətləri Vaqifin ağır-ağır, təmkinli gəzişmələri, dialoqları önündə olduqca cılız və cansıxıcı görünürdü. Obrazların xarakterləri açıldıqca seyrçilərdə qəribə hisslər yaranırdı... Tamaşanın sonunda məktəbin direktoru Gülpəri Əhmədova iftixar hissiylə söz aldı:

— Hörmətli seyrçilər, dram dərnəyi üzvlərinin çıxışları doğrusu, zalda böyük əhvali-ruhiyyə yaratdı. Elton dəqiq, tətbiqi, Fuad isə humanitar elmlər sahəsində çox fəaldılar. Fəallıqları nəticəsində onların elmə, ədəbiyyata, incəsənətə münasibətləri özünü bu zalda da açıq-açığına göstərdi. Mən dram dərnəyinin bütün üzvlərini, o cümlədən Vaqif və Qacar obrazlarının ifaçılarını kollektivimiz adından təbrik eləyirəm.

Elton Məmmədov oxuduğu fənlərin məzmununu dərindən mənimsəməklə daim əlavə ədəbiyyat oxumaqla da məşğul olur. Uşaqlar, belə şagirdlər elmi tez dərk eləməklə yanaşı, gələcək

həyat yollarını da düzgün müəyyənləşdirirlər. Təsadüfi deyildir ki, o, yeddinci sinifdə "Kəndimizin sabahı", səkkizinci sinifdə "Biz gələcəyin övladlarıyıq", "Vətən mənə oğul desə, nə dərdim" mövzularında inşa yazarkən birincilik qazanmışdır. Bu il isə rayonda yuxarı sinif şagirdləriylə təşkil olunan bilik yarışında ilk yeri tutub. Məktəbimizin adını yüksəldib. Onun fəaliyyəti bütün şagirdlərimizə nümunədi...

Bu tərifləri eşidən Elton başını aşağı saldı. O, qürrələnmədi. Əksinə, tədbir iştirakçılarına təzim eləyib səhnədən düşdü. Heç şübhəsiz ki, bu, onun sadəliyindən, aldığı əxlaqi-mənəvi tərbiyədən, nəsli-nəcabətindən irəli gəlirdi. O zamanlar yeniyetmə Elton ağlına da gətirməzdi ki, uşaqlıq dostu, eyni sinifdə oxuduğu şagird həmkarı, sonralar rayon təhsil şöbəsinin müdiri işləyən Fuad İsrafilov onun barəsində öz şəxsi təəssüratlarını bildirəcəkdi:

— Elton lap uşaqlıqdan dostlarına güzəştə getməyi bacarandı. Diqqət və nəzakətiylə nüfuzunu qoruyub saxlayandı. İctimai-siyasi hadisələri düzgün dəyərləndirməsi, obyektiv nəticələr çıxarması, dərin elmi axtarışları, səmərəli və perspektivli fəaliyyəti, təşkilatçılıq bacarığı onun böyük səriştəliliyinə, yetkinliyinə dəlalət eləyir. Vətənə, xalqa, el-obaya sevgisi Allaha eşq və məhəbbətindən doğur. Gördüyü işlər qibtə olunandır. Xoşbəxt və səadətli adamdır. Heç şübhəsiz ki, bu da ona kökdən, doğulub boya-başa çatdığı müqəddəs ocaqdan gəlir. Sözün həqiqi mənasında, uşaqlıq dostum, şagird həmkarım, elminə, məsləkinə hörmət bəslədiyim, əxlaq və mənəviyyatına güvəndiyim görkəmli alim, böyük vətənpərvər, bənzərsiz xarakter sahibi, gözəl ailə başçısı... Elton Məmmədov hər cür tərifə layiqdir. O, yaşadığı ömür üçün şərəf duya bilər...

Rayon bələdiyyəsinin sədri Səhrab Kamalovun dediklərindən:

— Mən Elton müəllimi və onun ailəsini yaxından tanıyıram.





Bu zəhmətkeş ailə yalnız halallıqla dolanıb. Atası Arzuman müəllim kimsədən minnət götürməyib. Təmizliyi, şəffaflığı, saf vicdanının səsi onun ailəsinə nəsli-nəcabətindən gəlib. Kəndin xeyrində-şərində ürəklə iştirak eləyib. Öz işi, davranışıyla qədirbilən el ağsaqqalı olub... Sözün əsl mənasında hamı onu gözəl, təmənnasız ziyalı sanır. Kənd adamları anası Şirinnazı, atası Arzumanı ailəcanlılığına görə daim başqalarına nümunə göstərir. Övladlarını vətənə, xalqa, el adət-ənənələrinə sevgi, məhəbbət ruhunda tərbiyə eləyən valideynlərinin əməyi cəsarətlə deyirəm ki, hörmət və ehtirama layiqdir. Heç şübhəsiz ki, o ailənin övladları da sağlam əqidəyə sahib olmalıydılar. Oldular da...".

## Arzuların qanadında...

Elton yeniyetməlik dövründən yenicə gənclik dünyasına atılırdı. İndi onun qarşısında sonu görünməyən yollar, qədəmlərini atdıqca məchul nöqtələr peyda olurdu. O, hara, necə üz tutacağını bilmirdi. Bircə onu anlayırdı ki, saysız nöqtələr arasında gözlə görünən və görünməyən ilgilər dilemmavari cizgilər, onların təsəvvürolunmaz çeşidləriylə üz-üzə dayanacaqdı. Bəli, köhnə həyat, köhnə izlər, köhnə gedişlər, hamısı, hamısı arxada qalırdı. Olsa-olsa acılı-şirinli xatirələrə çevrilirdi. Düşündü Elton: Kənddə qala bilməz. Əkin-biçin, heyvandarlıq, bir sözlə, sakit kənd həyatı xarakterinə uyuşmurdu. İçində doğan arzu, istək onu qaynar şəhər həyatına səsləyirdi... Elton bu səsi xeyli vaxtıydı eşidirdi. Onun xəyallarıyla yaşayırdı. Atalar yaxşı deyib: "Niyyətin hara, mənzilin ora", "Nə əkərsən, onu da biçərsən..."

Doğma məktəbinin qaynar, qəhqəhəli qoynundan dostlarıyla öpüşüb-görüşüb vidalaşan Elton şəhərə getmək, oxuyub təhsil

almaq arzusunu ata-anasına, bacı-qardaşlarına bildirəndə kimsə ona — Ayaq saxla — demədi. Əksinə, hamının çöhrəsinə təbəssüm qondu. Ona uğur arzuladılar...

Ata-ana ağuşundan isti qaynar şəhər həyatına atılmazdan Eltonu cicisi üz-gözündən öpüb ona xeyir-dua verdi. Üstü cadar-cadar, rəngi bozarmış köhnə çamadana pal-paltarlarını, kitab-dəftərlərini yığdı, az məvaciblə şəhərə yollanmalı oldu. Ürəyi dözməyən Şirinnaz xanım, hətta, oğlunun arxasınca su atıb göz yaşı da axıtdı. Xanımının göz yaşlarını görən, kənddə rus dili müəllimi işləyən Arzuman dözməyib qadına irad da tutdu.

— Sən niyə ağlayırsan, bəyəm, Elton evdən-ailədən acıq eləyib? Biz sevinək ki, oğlumuz elm, mərifət ardınca gedir.

— Eh, mən anayam, Arzuman. Gözlərimdən kənarda uşaqları təsəvvür eləyə bilmirəm. Ürəyim dözmür.

Şirinnaz xanım kövrəldi. Gözləri yaşardı. Arzuman müəllim dedi:

— Sil gözlərinin yaşını, uşaq yol üstədi. Qəlbini kövrəltmə.

— Eh... Danışırsan... Mənim keçirdiyim hissləri də nəzərə al.

Arzuman müəllim gülümsündü:

— Bəs mən kiməm? Mən də atayam, Şirinnaz. Ata qəlbi...

— Yox, mən elə demirəm ki? O, özünə necə baxacaq? Yemək-içmək hazırlamaq, pal-paltarını səliqəyə salmaq, elə bilirsən asandı? Ona çətin olacaq.

— Heç bir şey olmaz... O, mənim oğlumdu... Özünə yol tapacaq. Əziyyət çəkməsən, bəhrə görməzsən. Bizim yaşıdlarımız təhsil almaq üçün şəhərə gedəndə yaşam indikindən on qat ağırıydı. İndi nə var ki?...

— Şəhərdə yaşamağa nə yeri var, nə də ona həyan olacaq ürəyi yananı.

— Narahat olma. Həmişə yanında olub. Ona uşaq kimi baxmısan. Əslində, Elton böyük kişidi. Maşallah, boyu-buxunu.





Sağlam canı... Mən ondan çox şey gözləyirəm...

Şirinnaz xanım ərinin sözünü daha çevirmədi. O, birincisi oğluna xeyir-dura verir, onu böyük ümidlərlə təhsil, elm dalınca yola salırdı. Hardasa, özlüyündə fəxranəlik duyurdu. İkincisi isə təxmin elədiyi çətinlikləri, ağır-yüngüllüyü, isti-soyuqluğu gözləri önünə gətirirdi. O, yola salacağı oğluna çətinlikləri qıymırdı. Xanım öz-özünə düşündü: Eh... Ana qəlbi! Ana ruhu! Nələr düşünmürsən?! Nələri götür-qoy eləmirsən?! Övlad nə qədər şirin, nə qədər əzizmiş?! Hər dəfə onlar barədə düşünəndə hal-ba-hal oluram... Sevincləri şən həyat verir mənə, ağrı-acıları bir tikan kimi sancılır ürəyimə. Onda lap başımı itirirəm. Neylədiyimi bilmirəm... Dünyanın qəribə işləri varmış... Eh... Mən də qəribə adamam. Öz arzumuzla, öz istəyimizlə yola salırıq. Sonra da barəsində gör nə fikirləşirəm?..

Şirinnaz beləcə götür-qoy, çəh-çöhrlər içərisində cabalayırdı ki, qonşu Nabat qarının həyətdə — Ay Şirinnaz, ay Şirinnaz — deyə səsi eşidildi.

Şirinnaz xanım evdəncə Nabat qarının səsinə səs verdi.

— Hə... Eşidirəm... Gəlirəm...

Şirinnaz eyvana çıxdı:

— Gəl evə.

— Yox, gəlmirəm. Eşitdim Eltonu şəhərə oxumağa göndərirsən?

— Hə... Ancaq ürəyim dözmür.

— Gözün aydın. Niyə dözməsin? Oxumayanların, a qızım, aqibətlərin görmürsən? Hamı deyir: Şirinnazın oğlu məktəbi yaxşı oxuyub. Qiymətlərinin də hamısı beşdi. İndi yola salacaqsan, papağını fırladacaqsan, vaxt çatacaq, deyə-gülə, sevinə-sevinə qayıdacaq yanına. Buna ürəyin niyə darıxmalıdı ki? Arzumanın oğlu oxumasa, ona eldə nə deyərlər? Uşağı həvəsdən salma. Qoy getsin.

Şirinnazın tərəddüdlərini hiss eləyən Nabat qarı fikrini bir

qədər də qətiləşdirdi və inamla bildirdi:

— Sevin Şirinnaz, sevin. Çırağın gur yansın. Özünə toxtaqlıq ver. Qoy uşaqlar oxusunlar. El-obaya da faydaları dəyər, ailəyə də. Xoşbəxt yaşarlar. Cavan uşaqlardılar, day da şəhərdə gözləri açılar. Burda kənd aşağı-kənd yuxarı gəzməkdən, kolxozda ağır işləməkdən savayı nə var?..

Qarının sözündən sonra Şirinnaz çıqqırığını çıxarmadı. Onun dediyi sözlər Şirinnazın ruhuna bir sakitlik, sərməstlik gətirdi...

Ürəyi təhsil almaq, elmə sahib olmaq, dünyagörüşə yiyələnmək eşqiylə döyünən gənc Elton tez bir zamanda sənədlərini hazırladı... Bakı Energetika Texnikumunda oxumaq qərarını son dəfə ata-anasına, qardaş-bacılarına çatdırdı. Hamısının xeyir-duasını aldı...

## Qaynar həyatın astanasında

İyulun sonlarıydı. Axşam qaş qaralanda Eltonun atası Arzuman müəllim, qardaşları Nəriman və Ziya onu Əlikənd dəmir yolu stansiyasına gətirdilər. Bürkülü yay axşamı. Səma aydın. Parlaq ay. Onun da ətrafında böyüklü-kiçikli sayrışan ulduzlar. Səfərə çıxan adamların stansiyaya tək-tək gəlişi. Daxilən narahatlıq, sıxıntı, həyəcan... keçirən Arzuman müəllim üzünü oğlanlarına tutdu:

— Hələ Tbilisi-Bakı qatarının gəlişinə xeyli vaxt var. Ayaq üstə durmayaq. Gedəyin, bir stəkan çay içəyin. İstidi. Özüm də bərk susuzlamışam...

Oğlanları etiraz eləmədilər. Onlar stansiyanın tinində yerləşən çayxanaya getdilər. Çay içdilər. Elton dedi:

— Cicim də qəribə adamdı. Neçə gündü elə hey mənə deyir, oğlum, şəhərdə hər cür adam var. Özünü gözlə. Hər adamı özünə yaxın buraxma. Pis adamlarla oturub-durma. Bir də hey kövrəlir, gözləri dolur...





Arzuman müəllim dərindən köksünü ötürdü.

— Oğlum, cicini qınama. Analar elə olurlar... Sənsizliyinə öyrəşincə gecəsi də, gündüzü də sən olacaqsan...

Nəriman gülümsündü.

— Son vaxtlar fikri-zikri Eltondu cicimin. İndi də çamadanı yemək-içməklə doldurub... Elə bil Bakıya oxumağa gedən təkcə bunun oğludu...

Ziya:

— Cici üçün oğul oğuldu. Hamımız onun ruhundan-canından qopmuşuq. Onun üçün nə fərqi var hansımızıq?

Arzuman müəllim başını qalıdırıb endirməklə Ziyanın sözünü təsdiqlədi:

— Uşaqlar, bir əldə beş barmaq var. Hansı kəsilsə, eyni ağrını verir, ürəyi sızladır. Cicinizin yuxusuz gecələrini təsəvvürünüzə gətirirsizmi? O, bacılarınızı da çox istəyir. İnanız, sizinlə yaşayır. Sizsiz məndən, eləcə də cicinizdən nə olar ki? O, ailədə məndən də çox əziyyət çəkir... Çalışın, cicinizin ümidlərini, inamını qırmayasız. Valideynin kim olduğunu inşallah, özünüz valideyn olanda biləcəksiz. Cavanlıqda adam bəzən hər şeyin öz dəyərini verə bilmir. Zaman keçir, insan buraxdığı səhvləri anlayır. Anladıqca yerə-göyə sığmır. Valideynini onda dəyərləndirir. Onda da gec olur. Heç özümü demirəm. Cicinizi sevin, onda Allahınız da sizinlə olar...

Söhbətin şirin yerində Tbilisidən Bakıya gedən qatar fit verdi. Çayçı — Qatar gəldi, — demişdi ki, adamlar tələm-tələsik çay pullarını verib ayağa qalxdılar. Nərimanla Ziya çamadanla vaqona mindilər. Kupeyə yaxınlaşıb qapını açmışdılar ki, içəridə yerlərin tutulduğunu gördülər və təəccübləndilər. Stola qəzet sərmişdilər, üstünə də kolbasa, qaynadılmış toyuq, çörək və araq şüşəsi qoymuşdular. Hər birinin əlində də yarıyacan araq süzülmüş stəkan vardı. Spirt qoxusu, papiros tüstüsü kupeni dol-

durmuşdu. Pəncərənin sağında əyləşən kişi köntöycəsinə dilləndi:

— Ayə, qapını örtün. Görürsüz, kupedə dörd yer, dörd də adam var.

Nəriman:

— Siz əyləşən çarpayı bizimdi. Zəhmət çəkin...

Kupedəkilər Nərimanı ayaqdan başa süzdülər. Nəriman dərhal vaqon bələdçisini səslədi:

— Bizim yerimizi...

Bələdçi bir Nərimanın əsəbi üzünə, bir də kupedəkilərin həyasız və sırtıq sifətlərinə baxdı. Sonra Nərimana dedi:

— Bəlkə, sizə başqa vaqonda yer eləyək.

Nəriman:

— Xeyr, biz öz yerimizdə...

Elə bu vaxt Arzuman müəllimlə Elton da özlərini Nərimangilə yetirdilər. Mübahisə getdiyini başa düşcək Arzuman müəllim dilləndi:

— Başqasının yerini tutmusuz. Araqdan vurub özünüzü də elə aparırsız, "bişmiş toyuğun gülməyi gəlir".

Söhbətin ciddiliyini görən bələdçi əlində araq stəkanı tutan kişiyə dedi:

— Əşi, sənə dedim axı, yerin sahibi gələcək. Əyləşmə. Dedin gələndə qalxaram. Zəhmət çək ayağa qalx. Yoxsa, milis çağıracam.

Bunu eşidən kişinin əlindəki stəkanı stolun üstə qoyub ayağa qalxmaqdan savayı çarəsi qalmadı. Qapıdan çıxanda bildirdi:

— Bu düz olmadı, lələ. Bir qurtum araq içmişdim, o da gözümdən töküldü.

Elton kupedə çamadanını yerbəyer elədi. Atasıyla, qardaşlarıyla görüşüb-öpüşdü. Qatar yavaş-yavaş hərəkətə gəlməyə başlayırdı ki, Arzuman müəllimgil qatardan düşdülər. Qatar aramla sürətini artırıb stansiyadan çıxdı... Elton kupedə yerini rahatlayıb başını balınca qoydu. Səhər diktorun səsinə oyandı: Tbilisidən gələn qatar saat yeddi sıfır-sıfırda Bakı Dəmir Yolu Vağzalına daxil olur... Elton qalxıb yuyundu və paltarlarını geyindi. Heç vaxt görmədiyi, lakin qoynunda yaşamaq arzusunda olduğu şəhərə qovuşdu. Vağzal adamla doluydu. Adamlar qaynaşırdılar. Elton çox cavanıydı. Şəhər həyatına naşılığı onu xeyli düşünmək qarşısında qoydu. Bəli! İndi kənddən şəhərə qədəm qoyan bu cavan oğlan — Elton öz-özünə qapılar açmalıydı. Nə qədər dumanlı, müəmmalı, çiskinli və çətin olsa da, özünün həyat, yaşam çərçivəsini cızmalıydı. Bunları düşünən Elton onu da açıq-aydın təsəvvür eləyirdi ki, getdiyi yolun sonu onu yalnız və yalnız işığa, aydın sabaha aparır. Bu sahədəki arzuları, xəyalları onu qırılmaz tellərlə gələcəyə bağlayır... Eltonda gələcək həyat çətinliklərindən qurtulmağa böyük inam və mübarizə əzmi, sinə gərəcək iradə, cəsarət vardı. Əlbəttə, hələ cəmiyyətin ziddiyyətlərini görüb dərk eləməyən, həyat sınaqlarından keçməyən, onun dolanbac yollarıyla addımlamayan gənc Eltonda bu eləbelə yaranmamışdı. Valideynlərinin ailədə yaratdıqları mükəmməl tərbiyə sisteminin tətbiqində formalaşmışdı. Cəsarətlə demək olar ki, o, valideynlərindən bilik, mərifət və ədəb-ərkan, kişilik, ərənlik dərsi almışdır. Doğruluğu, halallığı, sədaqəti, xeyirxahlığı... onun həyat kredosuydu. Ailəsindəki saf əxlaqi-mənəvi mühit təkcə Eltonun deyil, digər uşaqların da xarakterlərinin möhkəmlənməsinə təsir göstərmişdir. Bunun nəticəsidir ki, ailədə böyüyən, yaşa dolan uşaqların hamısı yüksək insani keyfiyyətlərə yiyələnərək bütün fəaliyyətlərində haqq, ədalət, həqiqət mövqeyini özləri üçün başlıca meyar seçmişdilər. Tərbiyə işinin yüksək şəkildə aşılanması və mənimsədilməsi ailədə yetişən uşaqların hər birini ləyaqətli insan kimi formalaşdırmışdır. Gənc Elton şəhərə gələn kimi kəndçisi Şamili tapır, ondan şəhər həyatının bəzi xüsusiyyətlərini öyrənir, yaşamaq üçün yer tapır, qəbul imtahanlarına hazırlaşmalı olur. Çox çəkmir ki, "Ri-

yaziyyat"dan yazılı və şifahi, "Azərbaycan dili və ədəbiyyat" fənlərindən müvəffəqiyyətlə imtahan verir, alnıaçıq-üzüağ kəndə — ailəsinə qayıdır. Onun bu nailiyyəti gələcək müvəffəqiyyətlərinin rəhninə çevrilir. Başqa sözlə, gələcək həyatının bünövrəsinə atılan qranitə dönür. Bir neçə gün kənddə istirahət eləyən Elton yenidən şəhərə qayıtdı.

## Bakı Energetika Texnikumunda

Sentyabr ayının biriydi. Saat doqquza xeyli qalır. Texnikumun böyük, təmtəraqlı zalı. Başlanğıc kursun tələbələri valideynləriylə zala axışırlar. Zal dolmaq üzrədi. Hamı təzə, təmiz paltarda. Üzlərdə təbəssüm, gözlərdə sevinc. Gələnlər istədikləri yerdə keçib əyləşirlər. Elton da atasıyla ikinci cərgədə əyləşib. Nəsə hərdənbir ata-oğul pıçıldaşırlar. Şəndirlər. Saat doqquz tamamda zalın kürsü hissəsindən qapı açıldı. Direktor qabaqda, bir neçə nəfər də onun ardınca içəri daxil oldular. Gəlib stullarda əyləşdilər. Direktor yanındakına nəsə dedi, sonra ayağa qalxıb hamını salamladı. Altmış yaşı olar-olmaz ucaboylu, dolubədənli, saçlarına dən düşmüş, zəhmli bu kişi təmkinlə ayağa qalxdı. Əynindəki göy, yüngül kostyum, ağ köynək, qırmızıya çalar qalstuk işıqlı üzünə cazibədarlıq gətirirdi. Səliqəli geyimi-keçimi ziyalılığına az-çox dəlalət eləyirdi. Hiss olunurdu ki, bu adam texnikumun direktorudu... O, sözə başladı. Səsi də bir qədər qalınıydı. Zalı ötəri nəzərdən keçirdi. Sonra dedi:

— Hörmətli valideynlər, əziz tələbələr! Əvvəla, icazə verin Sizi Bakı Energetika Texnikumuna qəbul olunmanız münasibətiylə  təbrik eləyim. Hər birinizin ailənizə sağlamlıq və uğurlar arzulayım...

İstərdim biləsiz ki, təşrif buyurduğunuz bu təhsil ocağı bütün ölkənin sosial-iqtisadi həyatının inkişafına təkan verəcək yüksək səviyyəli kadr hazırlığıyla məşğuldur. Ölkədə güclü, ixtisaslı kadrlar nə qədər çox olarsa, əhalinin maddi rifahı o qədər yüksələr. Ağır zəhmət tələb eləyən işlər tədricən aradan qalxar. Onu da bilməliyik ki, geniş miqyaslı infrastrukturun yaradılmasına təkan vermədən cəmiyyətin sosial-iqtisadi həyatında nailiyyətlər əldə etmək mümkünsüzdü. Məcburən üstündən keçsək də, baş verənlərə göz yumsaq da, etiraf etməliyik ki, bizdən fərqli olaraq xarici ölkələrdə elmin başlıca strateji vəzifəsi sosial-iqtisadi həyatın durmadan modernləşdirilərək davamlı iqtisadi inkişafın təmin edilməsinə yönəlmiş fəaliyyət olmuşdur. Hansı ki, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının təkmilləşdirilməsi və formalaşdırılması daha keyfiyyətli mühəndis kadrlarının hazırlanmasını təmin eləyir. Burada bizim ümdə məqsədimiz yetişməkdə olan gənclərimizin hərtərəfli inkişafı, onların zəruri bilik və bacarıqlarla silahlandırılmasıdır...

Gənclərimiz ciddi-cəhdlə çalışmalıdırlar ki, onların bütün fəaliyyəti əhalinin rifahının yaxşılaşmasına, sağlam həyat tərzinin formalaşmasına, ətraf mühitə fəal təsir göstərməyə var qüvvələrini sərf eləyə bilsinlər.

Bunun üçün tələbələrimiz nizam-intizamı gözləməklə texnikumun maddi-texniki bazasından bacarıqla istifadə etməli, auditoriyalarda aldıqları nəzəri biliklərin laborator məşğələlərdə və istehsalatda düzgün tətbiqinə nail olmalıdırlar. Uşaqlar, bundan sonra texnikumda hər şey sizin ixtiyarınızdadır. Sizin bacarıqlı mütəxəssis kimi yetişmənizə yönəldiləcək. Gərək bu sahədə sizli-bizli qüvvələrimizi birləşdirək. Xalqımızın, millətimizin inkişafı naminə işimizi qura bilək...

Direktorun proqram xarakterli bu çıxışından sonra şöbə müdirləri, müəllimlərdən bir neçəsi qısa və yığcam danışdılar.

Direktor üzünü valideyn və başlanğıc kurs tələbələrinə tutub — Kimin nə sözü, arzusu var, buyura bilər — deyəndə Elton yanında əyləşdiyi atasına tərəf döndü, pıçıltılı səslə soruşdu:

— Ata, mən direktora sual verə bilərəmmi?

Gözlənilməz sualı Arzuman müəllim oğlundan eşidəndə əvvəl nə "hə", nə də "yox" dedi. Bir an fikirləşdi. Sonra bildirdi:

— Ver, ancaq tələsmə.

Elton dərhal əlini qaldırdı. Direktorun izniylə əvvəl özünü təqdim elədi:

— Məmmədov Elton Arzuman oğlu. Birinci — başlanğıc kurs tələbəsi. Mən bu texnikum barədə çox eşitmişəm. Çox oxumuşam. Siz çıxışınızda yataqxana barədə bir söz demədiz. Hörmətli direktor, texnikumun yataqxanası yoxdu, yoxsa var, yaşamaq üçün otaq çatışmır?

Direktor şöbə müdirlərinin, şöbə müdirləri də zaldakıların üzlərinə baxdılar. Sonra direktor bildirdi:

— Yataqxana var. Ancaq tələbələrimiz çoxdu, cavan oğlan. Biz birinci kurs tələbələrindən yalnız əla qiymətlərlə texnikuma qəbul olunanları yerləşdiririk. Növbəti ildən isə hamısını.

— Mən fərqlənmə attestatıyla orta məktəbi bitirmişəm. Qəbul imtahanlarından da əla qiymətlər almışam. Sözünüzdən belə çıxır ki, hörmətli direktor, mənim hüququm pozulur. Niyə?

Sual direktoru çaşdırdı. Eltonun ilk sualına verdiyi cavabda direktor öz məntiqsizliyini duyub acı-acı gülümsündü, üzünü şöbə müdirinə tutdu:

— Araşdırın. Elədisə...

Şöbə müdiri ayağa qalxdı:

— Oldu.

Sonra da direktorun göstərişiylə əyləşdi. Direktor Eltona dedi:

— Başqa sualın varmı?

Elton suala sualla cavab verdi:

— Mən də çıxış eləyə bilərəmmi?

Bu cavan oğlanın sualı valideynlərin rəğbətdən doğulan təbəssümlərinə səbəb oldu. Zalda yüngül oyanış yaratdı. Direktor





da gülümsündü. Sonra da başıyla Eltona — Kürsüyə qalx — işarəsini verdi. Arzuman müəllim oğlunun necə danışacağını düşünüb həyəcanlandı. Elton cəld kürsüyə qalxdı.

— Hörmətli direktor, hörmətli müəllimlər, əziz valideynlər və tələbələr. Bugünkü toplanışın səbəbləri və onlara rəğmən sevincimiz üçün Sizin hamınızı təbrik eləyirəm.

Yəqin ki, hörmətli valideynlər də, tələbələr də mənim fikrimə şərik olarlar ki, direktorumuzun dedikləri bizim hər birimizin ürəyincədi. Texnikumun rəhbərliyi tam əmin ola bilər, biz tələbələr ciddi-cəhdlə çalışacağıq ki, bütün fəaliyyətimizdə qüdrətli dövlətimizin ideya-siyasi xəttinə sadiqliyimizi, əqidə sağlamlığımızı qoruyaq, qazandığımız bilik və bacarığımızı xalqımızın inkişafına yönəldək. Təhsil alacağımız bu tədris ocağının nüfuzunu başımız üzərinə qaldıracağıq. Hamıya şərəfli işlərində müvəffəqiyyət arzulayıram.

Elton son sözünü demişdi ki, zalı alqış bürüdü. Adamlar üzlərində gülüş yanında əyləşənlərlə Eltonun ekspromt çıxışından aldığı təsir altında fikrlərini bölüşürdülər: "Ağıllı oğlandı", "Gələcəyi var", "Gözü toxdur", "Hamını ram elədi", "Valideynləri xöşbəxtdi"... Nələr, nələr...

Nəhayət, direktor Eltona müraciətlə:

— Cavan oğlan, sənin gələcəyin var. Valideynlərin səninlə öyünə bilərlər.

O, sonra üzünü şöbə müdirinə tutdu:

— Eltonu bu gündən yataqxanayla, təqaüdlə təmin eləyin.

Oğlu barəsində deyilənlərdən Arzuman müəllimin ürəyi köksünə sığmırdı...

Beləcə, dərslər başlandı. Elton təhsil ocağının müxtəlif aspektlərdə fəaliyyət proqramına qoşuldu. Nəzəri və təcrübi bilik və bacarığını artırmaq üçün daim çalışırdı. Gah texnikumun, gah o zamankı Politexnik İnstitutunun, gah da Azərbaycan Neft və Kimya İnstitutunun kitabxanalarında olur, ixtisasına uyğun ki-

tablar oxuyur, laboratoriyalarda sınaqları müşahidə eləyir, bəzən də praktik işlərin iştirakçısına çevrilirdi. Yoxlama və kurs işlərini yerinə yetirir, layihələr hazırlayırdı. Bu nəzəri bilik və bacarıq tələb eləyən tədbirlərə qoşulması Eltonu daxilən zənginləşdirir, onu adi tələbəlikdən tədricən tədqiqatçılıq səviyyəsinə qaldırırdı. Bunu tələbə həmkarları da, müəllimləri də görürdülər, duyurdular və tez-tez də öz aralarında etirafa məcbur olurdular. Kursdan-kursa gedən inkişafını Elton özü duysa da, bircə dəfə də olsun ondan qürrələnməzdi. Çalışıb təkkəbbürdən qaçardı.

Elton texnikumun ictimai-siyasi tədbirlərində də fəal iştirakçıya çevrilmişdi. Qrup nümayəndəsi, komsomol təşkilat katibi kimi gördükləri işlər, təşkil elədiyi tədbirlər həmişə diqqəti cəlb eləyirdi. Məsələlərə kollegial baxışı, qərarların hamını təmin edəcək bir şəkildə qəbulu onun maraq dairəsindəki leytmotivini təşkil edirdi. Bu da şübhəsiz ki, onun demokratik düşüncəsinə, bütünlükdə azadlığının təmin olunmasına öz bəhrəsini verirdi... Semestr imtahanlarından aldığı "əla" qiymətlər tələbə dostlarının və müəllimlərinin gözlərində onun dəyərini daim artırır, ona tələbə şərəfi, gənclik ləyaqəti təlqin eləyirdi. Beləcə, rəhbərliyin də yanında böyük nüfuz qazanmasına gətirib çıxarırdı.

Tələbə dostlarına diqqəti, təmənnasız köməyi, saatlarla onların layihələri üzərində oturması, verdiyi məsləhətlər heç vaxt Eltonu yormazdı. Əksinə, o, bu işlərindən məmnunluq hissi duyardı, kollektiv tədbirlərdə, kitab müzakirələrində, elmi-praktik konfranslarda, seminarlarda yaxından iştirakı onu daim gündəmdə saxlardı.

İnsanlarla ünsiyyətə girmək istəyən Elton bir yerdə dayanmırdı. Daim digər texnikum və ali məktəb tələbələriylə əlaqələr qurur, yazışmalar eləyirdi. Beləcə, çalışqanlığı və nümunəvi davranışı ilə dostlarının və müəllimlərinin diqqət və qayğısına nail olurdu. Tez-tez tələbə-gənclərin respublika yarışlarında iştirak eləyirdi. Tanıyanlar ona etimad göstərməli olurdular. Nəticədə Elton Məmmədov Bakı Energetika Texnikumunu fərqlənmə diplomuyla bitirdi. Rus dili və ixtisas fənlərinin nəzəri və praktik əsaslarını dərindən mənimsədiyindən və ümid verən mütəxəssis olacağından texnikum rəhbərliyi onun təyinatını Rusiya Federasiyasının (o zamankı Sovet Sosialist Respublikaları İttifaqının) Tomsk şəhərinə verdi. Bu təyinatdan Elton özü də çox məmnun oldu. Beləcə, gənc, təcrübəsiz, dünyanın gərdişlərinə, fəlakətlərinə tam bələd olmayan Eltonun həyatında yeni dövr, yeni yaşam başlandı.





## Qatarda

Avqustun gethagetiydi. Bütün günü ağzından od püskürən günəşin nəfəsi təngişdikcə dənizdən axan sərin hava adamda ürək sakitləşdirici hal yaradırdı. Kassadan Tomsk vilayətinə getmək üçün iki bilet götürən Arzuman müəllim gözləmə zalında əyləşən oğluna yaxınlaşdı:

— Bu işimiz də belə düzəldi, oğlum. Qalxaq yuxarı.

Ata-oğul çanta-çamadanlarını götürüb eskalatorla vağzalın ikinci mərtəbəsinə qalxdılar. Oradan da birbaşa dəmir yolu xəttinə çıxdılar. Axşam qaranlığı yaxınlaşdıqca gözündən nur çiləyən əbədi günəşin şüaları yavaş-yavaş əriyirdi. Onu vağzalın ağ, qırmızı, sarı, yaşıl işıqları əvəzləyirdi. Hər tərəf adamlarla doluydu. Hamı harasa tələsirdi. Kimisi əllərində dolu çanta-çamadan, kimisi arabacıqlarda yük. Tələskənlikdən adamlar addımbaşı ya bir-birlərinə toxunur, ya da qarşıdan gələnlərlə toqquşurdular. Onların da bəziləri mane olduqlarından ya qarşısındakılardan üzürxahlıq eləyir, ya da özlərini heç bir şey olmamış kimi aparırdılar. İnsafən, bu şəxslər heç kəsdən maneəçiliyinin fərqinə də varmırdılar. Sanki belə də olmalıydı. Hamı öz işindəydi.

Kimsə kiminsə barəsində düşünmürdü. Bəlkə, heç düşünmək də istəmirdi. Gəlib-gedənlərin hər biri öz dərdi-sərlərindəydi. Ata-oğul platformayla xeyli getdilər. Arzuman müəllim əlindəki çamadanı yerə qoyub, tənkişmiş halda Eltona dedi:

— Təqribən bizim minəcəyimiz vaqon buralarda dayanar.

Elton çiyinlərini çəkdi. Handan-hana bildirdi:

— Onda burda gözləyək.

— Hə... Gözləyək.

Aradan az keçmişdi ki, birinci platformadakı ikinci yola qatar verildi. Elə bu dəm vağzalın radio qovşağından diktor qızın səsi eşidildi: Hörmətli sərnişinlər, Bakıdan Tomska gedən qatara birinci platformadan, ikinci yoldan minik başlanır. Sərnişinlərdən xahiş olunur, yerlərini tutsunlar... Ata-oğul yüngül-ağırlarını götürüb vaqona qalxdılar. Gedib kupedə yerbəyer oldular. Ata-oğul xeyli susdular. Elə bil danışmağa söz tapanmırdılar. Hər ikisi öz aləmlərinə qapılmışdılar. Elton gözucu atasını ayaqdan-başa seyr elədi. Sanki kişi özündə deyildi. Ağlı söz kəsəndən atasının çəkdiyi əzab-əziyyətlər gəlib durdu bu cavan oğlanın gözləri önündə. Özlüyündə atasına təşəkkürünü bildirdi. İndisə Arzuman müəllimin sükut içində ağır-ağır aldığı nəfəs də, beynində doğan düşüncələri də, keçirdiyi hisslər də duyumlarıyla ona aydın olurdu. Ona  görə də o, atasını bürüyən düşüncələrin, keçirdiyi hisslərin ağuşundan ayırmaq istəmədi. O, yaxşı bilirdi ki, dünyalarla sevdiyi atası indi pırtlaşıq duyğularla, hələ tam möhkəmlənməyən, beynində yerli-yataqlı rişələrini atmayan düşüncələrinin toqquşmasından doğan əzablı, iztirablı hal keçirir. Eyni zamanda, atası onun gələcək məçhul həyatının qaranlıq nöqtələrinin götür-qoylarını eləməkdədi... Elton nə fikirləşdisə, yüngülcə gülümsündü, sonra astadan atasından soruşdu:

— Nə yaman fikirlisən, ata? Mən hara gedirəm ki? Qarşıdakı həyatım üçün bu qədər düşünməyə, sarsılmağa dəyərmi? Dostlarım, müəllimlərim bu səfərim üçün məni təbrik eləyirlər, sən-





sə...

— Oğlum, insan heç vaxt təkcə özüyçün yaşamamalıdı. Özünü düşünməməlidi. İnsan hər şeyə məsuldu, cavabdehdi... İnanıram ki, qarşında açılan qapı səni xoşbəxtliyə aparan yolun başlanğıcıdı. Biz də ona doğru hərəkətdəyik. Qətiyyən sarsılmıram. Çox demişəm, indi də deyirəm, mən atayam. Mən sənin gələcək xoşbəxtliyinə aparan yolların çətinlikləri barədə düşünüb həyəcan keçirirəm. Bu sarsılmaq sözü hardan ağlına gəldi?

Elton daha bir söz demədi. Kupenin kiçik pəncərəsindəki köhnə, qara, çirkli pərdəni kənara sıyırıb çölə baxdı. Əlli-altmış metrdən bir dirəklərin başında qoyulan lampaların işığında yenə o tərəf-bu tərəfə qaçan, tələsən, qatara minib-düşən adamların seyrinə daldı. Ata da oğlunun boy-buxununa tamaşa elədi. Onu yenə də nagahan duyğular bürüdü. Kişinin qəlbi kövrəldi. Ürəyi yumşaldı. İçində doğan duyğular sanki birdən-birə qarışdı. Onu hardan doğduğu bilinməyən müəmmalı fikirlər bürüdü. O, istədi oğluna desin: "Gəl, qatardan düşüb qayıdaq evimizə. Gözlərimin qabağında işlərsən, Bakıda təhsilini davam etdirərsən. Ali təhsili Tomskda aldın, burda aldın, nə fərqi var?.." Kişi qamətini düzəldib boğazını arıtlamışdı ki, dartına-dartına, ləhləyə-ləhləyə, yorğun-arğın, qara, heybət div kimi bir az əvvəl gələn qatar sərnişinlərini götürüb, yükünün ağır- yüngülünə məhəl qoymadan ağır-ağır, sürünə-sürünə, zil qaranlığı yara-yara başını aşağı salaraq tarak-turukla getməyə başladı. Ata da bayaqdan oğlunun baxdığı pəncərədən çölü seyr elədi. Sərnişinlərin doğmaları, tanış-bilişləri qatar sakinlərini nigaran, niskilli baxışlarıyla və əllərini yelləməklə "Sizə yaxşı yol!", "Uğur olsun!" sözlərini deyə-deyə yola salırdılar. Qatarsa getdikcə sürətini artırırdı. Qaynar şəhərdən qopub gecənin qaranlığında ucu-bucağı görünməyən düzəngaha düşdü. Ata-oğul baxdılar, baxdılar, nəhayət, gözlərini uzandıqca uzanan bu düzəngahdan ayırdılar. Sakitcə pərdəni yerinə qaytarıb kupedə üz-üzə, göz-gözə oturdular. Nə

danışacağını, uzun yola necə körpü atacağını təsəvvür eləyən-məyən ata dərin bir istək və məhəbbətlə oğlunun gözlərinin içinə baxdı. Nəsə fikirləşib gülümsədi. Oğul atanın keçirdiyi hissləri, qəlbində qopan təlatümləri, fırtınaları duyub geri çəkildi. Qəhərləndirməmək üçün gözlərini atanın gözlərindən ayırdı. Bunu ata da başa düşdü. Elə bu vaxt vaqon bələdçisi, əlli-əlli beş yaşlı qadın kupenin qapısını açıb başını içəri soxdu:

— Sizə nə lazımdı? Çay... Su... Limonad...

Arzuman müəllim dərhal dilləndi:

— Çay...

Çox çəkmədi ki, bələdçi sifarişi yerinə yetirdi. Elton süfrə sərdi. Cicisinin yol üçün hazırlayıb çantaya qoyduğu bükülünü açdı. Xiyar turşusunu, soyutma əti, toyuğu, çörəyi, meyvələri süfrəyə düzdü. Ata-oğul çörək kəsdilər... Yedilər, içdilər. Oğul yol uzunu atanı qəmli, qüssəli, kədərli düşüncələrdən ayırmaq xatirinə gah dağdan, gah da arandan söhbət açdı. Uşaqlıq illərindən danışdı. Bacı-qardaşları arasında gedən söhbətləri, gülməli xatirələri yada saldı... Oğlunun nə üçün elə danışdıqlarının səbəbini ata da başa düşürdü. Özünü o yerə qoymayıb hamısını maraqla dinləyirdi... Əlbəttə, bu, atayla oğlun ilk uzaq yol səfəri olsa da, son səfəri olmayacaqdı...

Nahardan sonra Arzuman müəllim bir də pərdəni sıyırıb pəncərədən çölə baxdı. Gecə gecədən keçirdi. Oğluna — Yataq — dedi və ağır-ağır qalxıb kupedən çıxdı. Geri qayıdanda yatağını açılmış gördü. Ata yatağına uzanıb gözlərini yumdu. Oğul işığı söndürdü və soyunub yatağına uzandı. Çox çəkmədi ki, ata oğlunun sakit-sakit, ağır-ağır gedib-gələn nəfəsini eşitdi. Onun sanki hissləri dondu, ağlına yüz cür fikirlər gəldi. Sanki zülmətdə bəyaz yuxular görməyə başladı Arzuman müəllim. Darıxdı. Qalxıb yatağın ortasında oturdu. Gecənin bu vədəsində yenidən pəncərədən çölə baxdı. Beş dəqiqə qabaq beynində rişələr atan fikirlər onu yenidən qamarladı. Dərindən nəfəs aldı. Peşman-peşman başını buladı: "Gərək, uşağın istəyinə məhəl qoymayaydım. Bakı hara, Tomsk hara? Getməsinə razılıq verməyəydim. O, tanımadığı, birdən-ikiyə görmədiyi, halına-xislətinə bələd olmadığı, yad, uzaq bir şəhərdə nələrlə qarşılaşacaq? Hansı çətinliklərlə üzləşəcək? Nə olsun ki, onu göndərirlər... O qədər anasının əmcəyini kəsənlər var ki... Kimsədən kömək umsa, ona dayaq duran tapılacaqmı? Oğlum gözlərimizin qabağında oxuya, işləyə bilməzdimi? Yanımızda işləməsi də vətənə xidmət deyildimi? Eh... Gecənin bu vaxtında... Görünür, Bakıdan Rusiyanın ucqar yaşayış məntəqələrinə, Rusiyadan ölkənin bir başqa diyarına — Özbəkistana, Qazaxıstana... hara, hara — gənc kadrlar göndərməkdə də düşünülmüş ruslaşdırma siyasəti var. Yoxsa, niyə göndərirdilər ki? Bəli! Ruslaşdırma siyasəti. Nə əcaib, nə qəraib siyasət?! Bu, işğal elədiyi ölkələri, xalqları öz içərisində əritməkdi. Dillərini assimlyasiyaya uğratmaqdı. Özününküləşdirmədi... Nəticəsi xalqlara, millətlərə xəyanətdi. Ən böyük bəşəri cinayətdi. Kimə nə deyəsən? Böyük bir imperiyanın siyasətinə qarşı necə çıxasan?! Lap çıxdın, nəticəsi nə olacaq? Ailənin çökməsi özünün fəlakətin. Qanan da, qanmaz da səni qınayacaq. Səni töhmətləndirəcək...

Bu və buna bənzər düşüncələr Arzuman müəllimi çalxaladıqca kişi haldan-hala düşürdü. O, beləcə məyus-məyus, ağır-ağır, özünə qapana-qapana, içində danışa-danışa, əriyə-əriyə yenidən yatağına uzandı. İndi onun dərdini bölüşməyə, ürəyini açmağa nə yeri vardı, nə kimsəsi. Kənddə qalan ailəsini, doğmalarını, tanış-bilişlərini xatırladı. Dodaqları əsə-əsə, səsi titrəyə-titrəyə, Şirinnaz xanımın göz yaşları axıda-axıda oğlunu yola salanda dedikləri yadına düşdü: "Sənə dedim axı, uşağı gözümüzdən uzağa qoyma, cavandı. Hələ çox şeydən xəbərsizdi. Nə çox axmaq adam. Uşağa..."

Cansıxıcı, uzun gecənin bağrını dələn qatarın tarak-turukunda fikirlər zəncirini belədən belə çevirən Arzuman müəllimin

uzandığı yatağa sanki qor tökülmüşdü. Kişi fikirlərini o üz-bu üzə çevrilməkdən bezmişdi. O, yenidən yatağından qalxdı. Vaqonun açıq pəncərəsindən səmtlənən yel onun üz-gözünü, boyun-boğazını yalayırdı. Bu yel sanki ağır sarsıntıdan üstünə uçaraq altında qaldığı dərdi-sər qalaqlarından qurtarmaq üçün ona əlahiddə sərməstlik gətirirdi. Gətirdikcə də Arzuman müəllim yavaş-yavaş özünə qayıdırdı... Elə bil Arzuman müəllim qatara uzandığı çağdan dərin yuxuya getmişdi, indiysə kiminsə dümsükləriylə oyandı... Handan-hana o, dedi:

- Yox... Mən düz fikirləşmirəm. Oğlum cavan olsa da, təsəvvürləri aydındı. Həyata münasibəti ölçülü-biçilidi. Hər şeyi götür-qoy eləyib. Bütün gücüylə həyat uğrunda mübarizəyə atılan vaxtıdı onun. Mənsə, bəlkə də məsələlərə mühafizəkarcasına yanaşıram. Heç nədən özüm üçün də problem yaradıram. Onun gələcək fəaliyyəti, arzuları qarşısına sipər çəkmək barədə düşünürəm. Yaxud, atalar yaxşı deyib: "Əziyyətsiz bəhər yoxdu". Hər kəs həyatını özü qurur, xoşbəxtliyini özü əldə eləyir, Sənə uğur olsun!.. Bu da mənim sənə xeyri-duam.

## İlk təəssürat

Elton marağını gizlədənməyib pəncərədən çölə boylandı. Qarşısında təsəvvür eləmədiyi tamam başqa bir aləm açıldı. Avqust ayının sonları olsa da, hava tutqun və dumanlıydı. Çisəngi yolların, cığırların asfalt döşəməsini islatmışdı. Havada təmiz və sərin bir rahiyyə duyulmaqdaydı. Nuh aləmindən qalmış iki-üç, bəzən də dördmərtəbəli binalar sıralanırdı. Yolların kənarlarına əkilən yolka, küknar, kiçik bağçalarda diqqəti cəlb eləyən gavalı, alma... ağacları vardı.

İkimərtəbəli, üstündə oraq-çəkicli, qan rəngli sovet bayrağı dalğalanan dəmiryol stansiyasına girhagirdə qatar uzun bir siqnal verib sürətini yavaş-yavaş azaltdı. Ata-oğul yüklərini götürüb qatardan düşdülər. Bu şəhər, onun görünüşü və sakinləri onlar üçün tamam yeniydi... Ata-oğul bu şəhərin adını radio və televiziyada eşitsələr də, oxuduqları qəzet və kitablardan onun coğrafi şəraiti — ərazisi, əhalisi, sənayesi, adamlarının məşğuliyyəti, təsərrüfatı... — barədə müəyyən bilgilər əldə eləsələr də, etiraf olunmalıydı ki, bu şəhərin onlar üçün hələ çox gizlinləri vardı. Vağzal adamlarla doluydu. Tək-tək başqa millətin, xalqların nümayəndələrinə rast gəlinsə də, hamının danışacağı yeganə dil vardı: o da ədəbiyyat, tarix kitablarında yazıldığı kimi, böyük Puşkinin, Lermontovun... diliydi.





Ata-oğul vağzalın yeməkxanasındaca ilk loxma kəsdilər: şəhərin çörəyini yedilər, suyunu içdilər. Sonra da taksiyə əyləşib birbaşa təyinatları üzrə Tomsk Vilayəti Mərkəzi Energetika Birliyinə getdilər. Birliyin rəhbəri Vladimir Rudyakovla görüşdülər. Onun altmışa yaxın yaşı olardı. Ucaboy, cantaraq, sarışın bir kişiydi.

Ata-oğlun Bakıdan gəldiklərini eşitcək Rudyakovun üzündə təbəssüm yarandı. Arzuman müəllim gəlişlərinin məqsədini açıqladı. Elton təyinat məktubunu və digər sənədlərini papkadan çıxarıb ona verdi. Rudyakov sənədləri alıb diqqətlə nəzərdən keçirtdi. Sonra özü-özüylə danışırmış kimi dedi:

— Bakı... Xəzər… Azərbaycan... Təsərrüfatı olduqca zəngindir. Nefti... Qazı... Balığı... Pambığı... Nəyi, nəyi, hansını deyəsən? Deyirlər, adamları da istiqanlı, qonaqpərvərdilər. Çox istərdim orda olam.

Elton dərhal atasının üzünə baxdı. Sanki Arzuman müəllimə çatdırdı ki, bu xoş üzlü kişiylə deyəsən söhbətimiz tutdu. Arzuman müəllim dərhal bildirdi:

— Hörmətli Rudyakov, mən öz övladımı bu qərib ölkədə sizə əmanət eləyirəm. İş-gücdən nə vaxt imkan əldə eləyə bilsəniz Eltona deyin. Biz sizi Bakıda qarşılaya bilərik. Azərbaycan

dünyanın ən gözəl ölkələriylə rəqabətə girəcək respublikadır.

— Hə... Azərbaycan barədə çox oxumuşam. Sağlıq olsun, Azərbaycana getmək qismətimizdə olsa, sizinlə də görüşərik. İndi başlıca məsələ Eltonun yerləşdirilməsidir. Cavan oğlandı. Bizdə də əksərən cavanlar işləyirlər. Biz Eltonu neft nümunələrinin reoloji və termik xassələrini öyrənən laboratoriyaya, yaxud da ilkin ekspertizanın araşdırılması laboratoriyasına göndərə bilərik. Güman eləyirəm, həmin laboratoriyalarda işləməklə, bu sahədə zəngin nəzəri və təcrübi biliklər qazana bilər. Və bu qazanc gələcəkdə Eltonun qarşısında daha böyük perspektivlər açar. Onu da nəzərə alsaq ki, Azərbaycan neft-qaz diyarıdı. Eltonun burdakı fəaliyyəti gələcəkdə Azərbaycanda yaxşı mütəxəssis kimi işləyib yaşaması, yetişməsi üçün daha önəmli olar... Bir-iki ay işləyib təcrübə qazansın, etimadı doğrultsa, oğlunuz barədə fikirləşərik.

Elton dərhal cavab verdi:

- Mən sizin etimadınızı doğruldacam. Atama da, sizə də söz verirəm.

Eltonun cəsarəti və qətiyyətlə dedikləri Rudyakovun da, Arzuman müəllimin də xoşlarına gəldi. Hər ikisi gülümsündü. Handan-hana Rudyakov dedi:

— Həqiqətən də, müəllim övladısan, Elton. Səliqə-sahmanın da ona dəlalət eləyir. Cəsarətin qafqazlı cəsarətidi... Danışdıq. Elə isə Arzuman müəllim, etiraz etməsəniz Eltonu "Neft nümunələrinin reoloji və termik xassələrini öyrənən laboratoriyası"na göndərək.

— Məsləhət sizindi.

Rudyakov sellektorun düyməsini basdı. Mikrofondan məlahətli səs eşidildi.

— Eşidirəm.

— Marina Maksimovna, xahiş eləyirəm, mənim yanıma zəhmət çəkəsiz.





Rudyakov sellektoru söndürüb astadan dedi:

— Elton, Qafqazla Tomskdakı yaşam tərzi arasında ciddi fərqlər var. Fərqlərin ən mühümü yerlərin təbiətindədi. Sizdə təbiət bura nisbətən mülayimdi, Tomskda isə olduqca sərt və amansızdı. Xüsusilə, qışda. Təbiətin bu amansızlığı sakinlərə də təsir eləməyə bilməz. Gərək, buranın təbiətinə öyrəşə biləsən. Dözəsən. İkincisi də, burda bir çox millətlərin nümayəndələri yaşayırlar. Onların da hərəsinin bir adət-ənənələri var. Özlərinə məxsus dünyagörüşləri var. Xasiyyətləri də bir cürə. Mən özüm Çelyabinskdənəm. Mən də sənin yaşda olanda təyinatla bura gəlmişəm. Sənin kimi. Gərək adamlarla yola getməyi bacarasan. Bacardınsa, buranı öz evin, adamlarını da öz millətin sanacaqsan. Belə çoxmillətli şəhərdə özünü qorumaq, iş, təhsil məsələlərini həll etmək, daim gələcək inkişafın barədə düşünmək, bu istiqamətdə addım-addım irəlləmək ağıllı, uzaqgörən gənclərimizin fədakarlığı sanılmalıdı. Bu bünövrə nə vaxtsa, doğulduğun yerə üzağlığıyla getmək, doğmalarını sevindirmək üçün ən böyük əsas olacaq. Mənim dediklərim, Elton, sənin üçün böyük, müəllim və ata nəsihətidi.

— Oldu...

— Atanın yanında deyirəm, doğma el-obandan bura min kilometrlərlə yol qət eləmisən. Səni geridə gözləyənlərin var. Sənin həyatın üçün çox narahatdılar. Mən milliyyətcə rus olsam da, sənə çox ümid bəsləyirəm...

Elə bu vaxt qapı açıldı. Otuz yaşı olar-olmaz, sarışın saçları çiyinlərinə tökülmüş, dolu bədənli, bəstəboy rus qızı içəri girdi. Rudyakov onun üzünə baxmadan — Marina Maksimovna dedi:

— Bu cavan oğlan — Elton Arzumanoviç bizim şirkətə Azərbaycandan təyinatla gəlib. Xahiş eləyirəm, onu "Neft nümunələrinin reoloji və termik xassələrini öyrənən laboratoriya"ya aparasız. Əməkdaşlar və görəcəyi işlərlə laboratoriya müdiri özü onu tanış eləsin... Sonra yataqxanada Eltona ən yaxşı otaq-

lardan birini ayırtdırın. Qeydiyyata salın. Mənim adımdan komendanta de, Arzuman müəllimə qonaq evində yer ayırın.

— Oldu...

— Ayın sonuna cəmi-cümlətanı beş gün qalır. Bu vaxt ərzində Elton şəhərlə tanış olar. Sentyabrın birindən işə çıxar.

Bu göstərişdən sonra Arzuman müəllimlə Elton əl verib Rudyakovla xudahafizləşdilər. Marina Maksimovna qabaqda, onun ardınca Arzuman müəllim və Elton kabineti tərk etdilər. Həmin gün Arzuman müəllimlə Elton iş yerində, yataqxanada oldular. İşlərin çətinliksiz-filansız yerbəyer olunduğunu görən Arzuman müəllim gülümsünərək Eltona dedi:

— Hə... Oğlum, cicinin duaları müstəcəb oldu.

## Kişi sözü

Ata-oğlun Tomska gəldiklərinin səhəriydi. Hava açıqıydı. Göydə tək-tük görünən boz, lopa-lopa buludlar bir yerdə dayanmadan cənuba doğru uçuşurdular. Onlar yataqxanadan çıxıb pay-piyada şəhəri gəzməli oldular. Küçələri, parkları, bağları gəzir, hökumət binalarına tamaşa eləyir, kinoteatrlara, təhsil ocaqlarına baxırdılar. Rəssamlıq muzeylərində, sərgilərdə olurdular. Hər birindən aldıqları təəssüratlar Eltonda qəribə hisslər yaradırdı. Elton hərdən bir atasına suallar verir, onunla öz təəssüratlarını bölüşməyə çalışırdı. Oğlunun duyumu, müşahidə elədiklərinin mahiyyətinə varma qabiliyyəti, bir çox məsələlərə yanaşma tərzi, hadisələri, faktları təhlil eləmə bacarığı, məntiqi atasını çox sevindirirdi. Ata onu da hiss eləyirdi ki, bu şəhərin hər daşı, hər kəsəyi oğlunu özünə bağlayırdı. Deməli, bağlayırsa, Elton bu şəhərə tezliklə alışacaq, kənd-kəsək, ev, doğmaları üçün o qədər də darıxmayacaqdı...

Heç yadından çıxmaz Eltonun atasıyla vaxt tapıb kinoteatrda





olmaları. Boy-buxunlu, incə görkəmli, sarı saç, sarışın rus qızlarının ona yaxınlaşması, sir-sifəti qızaraq atasından özünün utanıb çəkinməsi. Qızları özündən uzaqlaşdırmaq üçün guya rus dilini başa düşmürmüş kimi çiyinlərini çəkməsi...

Parkda işləyən yer qazana cavan oğlanın göstəriş verməsi, sürücünün ehtiyatsızlıq ucbatından göstərişçini maşının təkərləri altına salması. Qıçlarını qırması. Qadının çantasını götürüb qaçan yeniyetmənin ardınca milis nəfərinin yüyürməsi...

Bütün bunlar Eltonun yaddaş xəritəsində cızılırdı.

Arzuman müəllim dedi:

— Oğlum, bu yerlərin, doğrudan da təbiəti gözəldi. İnsan harda yaşayırsa, harda ömür sürürsə, orda kriminal var. Bura da elə, hər yerin düzü də var, əyrisi də. Oğrusu da var, düzü də... Gərək, özünü qoruya biləsən. Bizdən xeyli uzaqda yaşamalı olacaqsan. Ancaq onu bil ki, mən hələ özümü, qardaşlarını demirəm, cicinin, bacılarının ürəkləri səninlə olacaq. Onlar outrub-durub sənin barəndə fikirləşəcəklər. Təsəvvür elə ki, bir kiçik səhvinə görə onlar nə hala düşə bilərlər... Gələcək taleyin özündən asılı olacaq. Biz nə desək, artıqdı. Birlikdə gəlmişik, bir neçə gündən sonra mən tək geri qayıdacam...

Tomska gəlişlərinin üçüncü günüydü. Ata-oğul günortadan sonra pay-piyada şəhərin mərkəzi parkına gəlib çıxdılar. Hava aydınıydı. Neçə gündə səmada ala-tala görünən buludlardan xəbər-ətər yoxuydu. Şam, küknar ağaclarının uzanan qaramtıl kölgələri yerdə hərəsi bir qəbir daşını xatırladırdı. Günəş də öz parlaq, ılıq şüalarını parkdakı yaşıl bəzək kollarının, gömgöy otların, tək-tək yarpaqları saralan ağacların boyun-boğazına səpir, saralıb solmaqda olan çiçəkləri, gülləri öz ziyasında çimizdirirdi. Parkda qoyulan heykəllər, fıyxıran fantanlar, su ilə doldurulmuş hovuzlarda sakit-sakit üzən yaşılbaş ördəklər... ata-oğlun gözlərini oxşayırdılar. Nəvələrinə isti paltarlar geyindirib-keçindirib parka gətirən nənələr quşlara çörək qırıntıları səpir, onların

ac qarınlarını doydurmağa çalışırdılar. Atayla oğul ağır-ağır addımlayırdılar. Hərəsi öz aləmindəydi. Bircə kəlmə deməsə də, Arzuman müəllim oğlunu bu şəhərdə qoyub gedəcəyi, oğul isə kənddə "sənə yaxşı yol" deyən cicisi, bacı-qardaşları barədə düşünürdü.

Elə bu vaxt yetmiş yaşı olar-olmaz ucaboy, qarayanız, qalın saçları, bığı çallamış, üzü təzəcə təraş olunmuş, qaragözlü bir kişi Arzuman müəllimin üç-dörd addımlığında dayanıb Azərbaycan dilində salam verdi. Salamı eşitcək Arzuman müəllim ani olaraq təəccübləndi. Salamı alıb ətrafına göz gəzdirdi. Kişi gülümsünüb bir qədər də irəli yeridi. Arzumanla Eltona əl verdi. Eltona elə gəldi ki, bu kişini hardasa, nə vaxtsa görüb. Onunla kəlmə də kəsib. — Siz qonaqsız? — sualını eşitcək ata-oğul başa düşdülər ki, kişi bu şəhərdə doğulub böyüməsə də, buranın sakinidi. Onunla atası arasında da heç bir tanışlıq-filan yoxdur. Bu görüş sırf təsadüfidir. Arzuman müəllim astadan kişinin sualını cavablandırdı:

— Bəli, qonağıq. Üç gündü gəlmişik.

Kişi:

— Hardansız? Xeyirdimi?

— Azərbaycandanıq.

— Azərbaycanlı olduğunuzu bildiyim üçün də sizə ana dilimizdə salam verdim.

— Ucardanıq.

Arzuman müəllim Eltonu göstərərək sözünün ardını saxlamayıb dedi:

— Oğlumu təyinatla bu şəhərə göndəriblər. Allah xeyrisindən eləsin.

Kişi gülümsündü:

— Mən də azərbaycanlıyam. Lənkəranda doğulmuşam. Orda orta məktəbi qutarmışam. Adım Əfqandı. Qırx altıncı ildən burda yaşayıram. Tomsk sakit şəhərdi. Özüm də ali təhsilli iqtisadçıyam.

— Sizinlə tanışlıq üçün şadıq. Adım Arzumandı. Qazqumlaq kəndində rus dili müəllimiyəm. Oğlumun da adı Eltondu.

— Böyük oğlandı. Üz-gözündən ağıllı, çalışqan, zəhmətsevər olduğu duyulur.

Əfqana bir söz deməsə də, Eltonun üzündə təbəssüm duyuldu. Tez də əriyib yox oldu. Onlar yavaş-yavaş yaxınlıqdakı skamyaya tərəf getdilər. Kişi skamyaya çatar-çatmaz ayaq saxladı. Dönüb parkı nəzərdən keçirdi. Sonra soruşdu:

— Vaxtınız var?

Arzuman müəllim:

— Var! Yaxşı qarşılaşmışıq. Sənlə söhbət bizim ürəyimizcədi.

Əfqan dedi:

— Arzuman müəllim, bəlkə bu skamyada oturub dincələk. Çoxdandı Azərbaycana, Lənkərana getmirəm. O yerlərdən ötrü burnumun ucu göynəyir. Darıxıram... Vaxtıyla bura əsgəri xidmətə gəldim. Xidməti başa vurub Ninayla evləndim. İki qızım, bir oğlum dünyaya gəldi. İşlədim, uşaqları böyütdüm, onlara ali təhsil verdim. İndi üçü də ailəlidi. Bütün bunlarla yanaşı, həmişə özümü vətənsiz tənha sanmışam, kimsəsiz hiss eləmişəm. Heyf deyil vətən? İndi tək yaşayıram. Arvad yoxdu, elə bil qanadları sınmış quşam. Doğulduğun torpaqda ömür sürmək, o torpaqda uyumaq heyf deyil? Atalar deyib: "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı!.."

Əfqan dərindən ah çəkdi. Arzuman müəllim fikrə getdi. Gözləri məchul bir nöqtəyə zilləndi. Handan-hana Eltonun üzünə baxıb gülümsündü:

— Dünyagörmüş bu qocanın dediyi sözlər çox böyük mətləblərdən xəbər verir, oğlum. Gərək o sözlərdən hər kəs özünə lazım olanı götürə bilə. Neçə illərdi Əfqan kişi vətən həsrətiylə yaşayır. İndi də el-obasını, doğmalarını unutmayıb. Onların həs-

rətindədi. Elə olmasaydı, "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı" deməzdi.

Elton:

— Narahat olma, ata, sənin dediklərin mənimçün qanundu. Əfqan əminin dediklərinə bənzər fikirləri mənə cicim də xatırladıb.

Əfqan dərindən köksünü ötürüb dedi:

— Arzuman müəllim, mən yaxınlıqda yaşayıram. Bəlkə, gedəyin evə. Sizə azərbaycanlı sayağı çay hazırlayım, içəyin. Müsəlmanınkı çaydı.

— Ağsaqqal, sizi gördük, çox sevindik. Xoşhal olduq. Sağlıq olsun. Elton burdadı. Sizinlə əlaqə saxlar. Növbəti dəfə ayağım bu yerlərə dəysə, qonağınız olaram, onda çayınızı da içərik. Oturub söhbət elərik.

— Mən Kutuzov küçəsi 26-da yaşayıram.

Əfqan üzünü Eltona tutub, sözünün ardına davam elədi:

— Ünvanımı dəftərçənin bir qırağına yaz. Nə vaxt, nə lazım olsa, utanma, gəl yanıma. Bu şəhərdə məni yaxşı tanıyırlar... Azərbaycanlılar da burda çoxdu. Hər deyilən sözə inanma. Səni çox yerə çəkərlər. Şirnikdirərlər. Dəqiq bilmədiyin şeyin ardınca getməyə can atma. Səni aldada bilərlər. Cinayətə sürükləyərlər. Sonra da özləri qaçıb cinayətlərinin altından çıxarlar, sən qalarsan əldə. İşdə sənə çox şey təklif eləyəcəklər... Doğulduğun torpağı, ailəni unutma...

Elton Əfqanın sözlərinə başını endirib qaldırmaqla razılığını bildirdi. Bu söhbət Arzuman müəllimin də ürəyincə oldu.

Xeyli söhbətdən sonra ata-oğul Əfqanla xüdahafizləşib yataqxanaya getdilər. Yataqxanada uzanıb rahatlandılar...

Neçə gündəki gəzinti ata-oğlun şəhər barədəki təsəvvürlərini xeyli zənginləşdirmişdi...

Artıq Arzuman müəllimin qayıdacağı gün gəlib çatmışdı. Ata qayıtmalı, oğulsa bu yad şəhərdə qalmalı və müvəqqəti də olsa,





onun sakininə çevrilməliydi. Yaşdanmı, işin çoxluğundanmı, ailənin durumundanmı, ya nədəndi, doğma torpaq, kənd-kəsək Arzumanı özünə çəkirdi. Yola düşmək vaxtı daraldıqca kişi həyəcanlanırdı. Axşam ata-oğul Tomskın ən yaxşı restoranlarından birində əyləşdilər. Sifariş verdilər. Yedilər, içdilər. Atayla oğul ayrılıqdan söz açmasalar da, hər ikisinin qəlbində ayrılığın nigarançılığı, niskili duyulmaqdaydı. Handan-hana Arzuman müəllim Eltonun üzünə baxdı. Tez də gözlərini Eltonun üzündən çəkdi. Bunu Elton da başa düşdü. Arzuman müəllim dərindən köksünü ötürdü və təmkinlə dedi:

— Oğlum, artıq ayrılacağımız vaxt yetişməkdədi. Səndən ayrılmaq mənim üçün ağırdı. Ancaq başqa çarəm də yoxdu. Cavan oğlansan. Üzünə demək istəməzdim, neyləyim, deməyə məcburam. Ağıllısan... Cəsarətlisən... Yaşın az olsa da, özünü idarə eləməyə iradən var. Gücün var. Adamlarla dil tapmağı bacaransan. Sevinirəm ki, rus dilini də mükəmməl bilirsən. İndiki halda bu, çox yaxşıdı. Çalış bu dili daha yaxşı mənimsə. O, sənin qolundan çox tutacaq. Nəzərə al ki, sənin burda keçən hər günkü xoş həyatın bizi — məni də, cicini də, qardaş-bacılarını da çox sevindirəcək. Ailə, qohum-əqrəba səndən çox şey gözləyir. Gərək ümidlərimizi doğruldasan.

Ata sözünə ara verdi. Elton dedi:

— Ata, mən ailəmizi çox istəyirəm. Tərbiyəni də, elmi də sizdən almışam. Ağlım söz kəsəndən etiraf eləyirəm ki, səni özümə ideal seçmişəm. Sənin keçdiyin yol mənim üçün nümunədi. Arxayın ola bilərsən, mən heç vaxt valideynlərimin, bacı-qardaşlarımın dilini gödək eləyəcək, sizə utanc gətirəcək addım atmaram. Sənə deməsəm də, bu şəhərə gələli iki dəfə cicimi yuxuda görmüşəm. Narahat olmayın... Mənim düşüncəm, ata, sizsiz, ailəmdi. Mən bu şəhərdə işləyə-işləyə təhsilimi davam etdirəcəm. Sizə baş ucalığı gətirəcəm...

Arzuman müəllimin gözləri doldu. Handan-hana əlini oğlu-

nun əlinin üstünə qoydu və sıxdı. Deyəsən kövrəldi də. Dodaqları arasından pıçıltı qopdu: Kişi sözü!

Arzuman müəllim daha söhbəti uzatmağa lüzum görmədi...

Xidmətçinin pulunu ödəyib restorandan çıxdılar. Taksiyə oturub qatar ayağına gəldilər. Qatara bilet götürüb gözləmə zalına keçdilər. Çox çəkmədi ki, qatara minik başlandı. Ata-oğul qucaqlaşdılar. Öpüşdülər. Ata ayağını vaqonun pilləkəninə qoyanda oğluna baxıb gülümsündü:

— Kişi sözü!

— Hə... Ata, kişi sözü!..

## Tək-tənha

Axşamdan xeyli keçmiş atasını qatarla yola salan Elton dəmir yolu vağzalından tək-tənha necə çıxdığını bilmədi. Bir anlığa özünü kimsəsiz, dal-daldasız sandı. O, düşündü: əcəb işdi. Bir neçə gün əvvəl bizi Bakıdan Tomska çəkib gətirən qatar bir az əvvəl atamı sinəsi üstə alıb hay-küylə, tarak-turukla aparırdı. Oğulsa başqaları kimi, sərnişin daşıyan bu qatarın arxasınca həsrətlə baxırdı. Ata qatarda, oğulsa vağzalda nədənsə qəm, qüssə, kədər içindəydilər. Hər ikisinin içində elə bil nəsə qopub düşmüşdü. Qatar onları bir-birlərindən nə qədər uzaqlaşdırsa da, qəlbləri, hissləri, duyğuları bir o qədər yaxınlaşırdı. Hər ikisi dərindən köksləini ötürürdülər. Ata gecənin bağrını yaran qatarda, oğul isə çirkli-paslı, tozlu-torpaqlı vağzalda. Ata çox narahat, niskilli, özündən narazı halda — Allah nəzərlərini üstündə eləsin. Ananın duaları müstəcəb olsun, — deyə yavaşca qapını açıb kupedən çıxdı. Dəhlizdə dayandı. Darıxdığından pəncərəni açıb təmiz hava uddu. Balaca özünə gəlib yenidən kupeyə qayıtdı.

Bəxtindən kupeyə başqa sərnişin gəlməmişdi. Bu, Arzuman





müəllimin ürəyincə oldu. Əziz övladını, ciyərparasını yad bir şəhərdə qoyub gedən atanın ürəyi dolmuşdu. O, hər şeydən çox öz-özüylə danışmaq, dərd-səriylə baş-başa qalmaq, içini göynədən fikirlərini bir də götür-qoy eləmək, pisləri birdəfəlik silib beynindən atmaq, yaxşıları yaddaşında möhkəmləndirmək istəyirdi. Oğul da təqribən atası, anası, bacı-qardaşları, doğma el-obası barədə və onların dövrəsində fırlanan düşüncələrin qoynunda çabalayırdı... Atada da həmçinin. Bir ağaca qonub civildəşən eyni qanadlı quşlar bir daşa, selbəyə məəttəl kimi necə uçub dağılışırlarsa, axşamla gecənin qovuşduğu sərhədin ayrılan bu çağında Eltonun hissləri, duyğu və düşüncələri birdən-birə pərəm-pərəm oldu. Ona elə gəldi ki, ətrafı yenə də tamam boşaldı. Bir an yenə kimsəsizləşdi. Tənhalıq hissi onu yenə bürüdü. Nə yaxşı ki, dərhal da mənəvi gücü, iradəsi harayına çatdı. O, özünə qayıtdı. — Mənə nə olub, elə bil uşaqlaşıram - deyə düşündü. Sonra heç bir şey olmamış kimi gülümsündü.

— Qəribə adamam, gör nələr düşünürəm?! Nədən qəmlənirəm, kədərlənirəm?! Axı mən bura öz istəyimlə gəlməmişəm. İşləyim, oxuyum, ümid verən mütəxəssis olum, üz ağlığıyla el-obama qayıdım. Mən də bir işin qulpundan yapışım. Həm öz adımı yüksəldim, həm dostlarım, məni tanıyanlar arasında nüfuzumu qaldırım, həm də valideynlərimi sevindirim. Onlara dayaq olum...

Elton öz-özüylə danışırdı ki, birdən vağzal mühafizəçilərindən biri ona yaxınlaşdı.

— Qatar gedib, burda nə gəzirsən, cavan oğlan?

— Atamı qatarla yola salırdım.

— Hardansan?

— Azərbaycandan.

— Adın nədi?

— Elton.

— Bura nə məqsədlə gəlmisən?

— Mən energetikəm. Bu şəhərə təyinatla işləməyə gəlmişəm.

— A ha... Deməli, sən bu şəhərin sakini olacaqsan.

— Artıq sakiniyəm.

— Pasportunu görüm.

Elton pasportunu və digər sənədlərini mühafizəçiyə təqdim elədi. Mühafizəçi sənədləri alıb o üz-bu üzünə çevirdi. Diqqətlə gah Eltonun üzünə, gah da pasportdakı şəklinə baxdı. Sonra dedi:

— Bu şəhər bizim olduğu kimi, Elton, həm də sizindi. Xoş gəlmisən. Cavan oğlansan, istəyin olsa, bu şəhərdə ömürlük yaşaya bilərsən. Yerli xalq qonaqpərvərdi. Meşə çaqqalsız olmur. Burda da içkiyə meyillilər, oğrular var. Heç nədən yolkəsənlər çoxdu. Çalış, onlardan uzaq ol. Özünü qoru. Elənçiklərdən yataqxanalarda yaşayanlar arasında da var. Gecə belə tək gəzmə. Sənə həm cismani, həm də maddi xətər yetirə bilərlər... Gedə bilərsən...

Təşəkkürünü bildirib mühafizəçidən ayrılan Elton birbaşa yataqxanaya gəldi. Qapını açıb otağa girdi. Bir neçə dəfə otaqda o tərəf-bu tərəfə var-gəl elədi. Gedib pəncərənin qarşısında dayandı. Pəncərədən çil-çıraqbanlı şəhər olduqca cazibədar görünürdü. Bir anlığa ona elə gəldi ki, ulduzlar öz mehvərindən qopub, təzəcə sakini olduğu bu şəhərin üzərində bərqərar tutub. Geniş prospektlərdə şütüyən böyüklü-kiçikli maşınlar, pəncərələrindən işıq seli axan binalar təsəvvürolunmaz mənzərələr yaradırdı. Bu şəhər gecələr daha sakit, daha səmimi, daha cazibədar olur. İctimai binaların — idarə və təşkilatların, kino-teatrların, məktəblərin, institutların, universitetlərin... — üzərində vurulan reklamlar, parklarda qoyulan rəngbərəng lampaların işıqları... nələr, nələr, hamısı göz oxşayır. Adamın qəlbini riqqətə gətirirdi. İlk gündən şəhər də, şəhərin adamları da Eltonu özünə çəkirdi. Maraqlıydı ki, içində yaranan bu istək onun özünə də





qəribə görünürdü... Elton fikirləşdi: "Yəqin bu da bir möcüzədi..."

Elton pəncərədən şəhərə xeyli tamaşa elədi. Gecə yarıdan keçirdi. Saatına baxdı. Saat üçü addamışdı... — Sabah tezdən işə getməliyəm — deyib, yorğun-arğın adamlar kimi soyunub yatağına girdi. Ancaq yuxusu elə bil ərşə çəkilmişdi. Kənddəki evləri, anası, ailə üzvləri bircə-bircə gözləri önünə gəldi. Ailədəki çatışıb-çatışmayanları xatırladı. Ürəyi yumşaldı. Dərindən "ah" çəkib öz-özünə dedi:

— Eh... Cici!.. Cici! Sən mənim üçün, bacı-qardaşlarım üçün nələr çəkməmisən?! Sənin yuxusuz gecələrin indi də gözlərim önündədi. Min bir əzab-əziyyətlə bizi böyütmüsən, ərsəyə çatdırmısan. Başımız ağrıyanda, bir yerimizdən şikayət eləyəndə sən hansı hissləri keçirmirdin, cici?! Heç yadımdan çıxmaz, qardaşım İldırımın futbol oynamasından sonra soyuqlayıb xəstələnməsi. Hərarətinin qalxması. Evə həkim çağırtdırıb, onu müayinədən keçirtdirmən... Qardaşım özünə gəlincəyədək sənin keçirdiyin həyəcan. İztirab. Təlaş. Əsim-əsim əsmən. Sən nə qədər cəfakeşsən?! Nə qədər həssassan?! Nə qədər kövrəksən, mənim cicim. Bilirəm, indi də oturub-dürüb mənim barəmdə fikirləşirsən. Məndən sənə düz-əməlli cavab yetirsin deyə indi də atamın yolunu gözləyirsən. Səbirsizliklə. Narahatçılıqla. İnanıram, gecələr mənə görə yuxuların da ərşə çəkilib. Bəlkə də təkliyə çəkilib mənim üçün göz yaşları da axıdırsan. Axıtma, cici... Sən varsan, elə bilirəm, mənim üçün dünya var. Sən mənim gücüm, qüdrətimsən, cici. Sənin ətrini min kilometrlərlə məsafədən duyuram... Mən bura elmə, təhsilə sahib olmaq üçün gəlmişəm. Atam da, sən də əmin ola bilərsiz, sizin adınıza, arzularınıza layiq övlad olacam. Burda sizin istəyinizlə hərəkət eləyəcəm. Mənə bu yad şəhərdə təkcə sizin simanız gərəkdi... Bacı-qardaşlarım vuran ürəyim, düşünən beynimdilər. Onu da bilirəm, siz bizim, biz də sizin üçün yaşayırıq...

Qarşıdakı illər, o illər ərzində energetika sahəsində görəcəyi işlər, fiziki və mənəvi gərginliklər Eltonu qorxutmurdu. Onun iradəsi möhkəm, əqidəsi sağlamıydı. O, çətinliklərə, fiziki təzyiqlərə də özünü hazırlayırdı. O, bilirdi ki, tək-tənha yaşayan insan həyatında hər cür hal baş verə bilər. Arzu olunan da, olunmayan da. İnsanın böyüklüyü ondadı ki, hər cür gözlənilməzliyə hazır olsun.

Çətinliklərə dözümü, prinsipiallığı, qarşısına qoyduğu məqsədə çatmaq əzmi daim ona güc və qüvvət verirdi. Onu yeni-yeni addımlar atmağa cəsarətləndirirdi. Elton ilk gündən öyrənmişdi ki, xoşbəxtlikdən onun işləyəcəyi kollektivin əksər üzvlərini gənclər təşkil edir. O, düşündü: Gözəl iş şəraiti var. Gənclərlə dil tapmaq asandı. İstirahət də öz yerində. Qarşıda nə qədər çətinliklər olsa da, nəyin bahasına olur-olsun, öz üzərimdə işləyib yüksək ali təhsil alacam...

Bax beləcə, düşünə-düşünə Elton nə vaxt yuxuya getdiyini bilmədi...

## Ali məktəb illəri

Böyük həvəslə Tomskda əmək fəaliyyətinə başlayan Elton heç özü də bilmədən bu şəhərin qaynar həyatına asanlıqla — gözləmədiyi bir tərzdə alışdı. Bir anlığa ona elə gəldi ki, bu şəhərdə doğulub, bu şəhərdə yaşa dolub. İndi də onun doğmaca sakinidi. Vaxt tapdıqca şəhəri baş-ayaq eləyirdi Elton. Onun təbii şəraitini, yerləşdiyi coğrafi ərazisini, relyefini, əhalisinin tərkibini, eləcə də adət-ənənələrini öyrənirdi. Özünə müxtəlif xalqlardan — rus, özbək, qazax, gürcü, çeçen... dostlar tapırdı. Onlar da hər gün bir yerə toplaşar, baş verən gündəlik hadisələrdən, özlərinin dərd-sərlərindən, gördükləri işlərdən, istirahətlərindən danışardılar. Kinoteatrlara gedərdilər. Futbol oynayardılar. Meşə gəzintisiylə, göbələk yığmaqla, balıq tutmaqla... başlarını qatardılar. Elton bütün bunlarla yanaşı, mütaliədən də əl çəkməzdi. O, fizika, riyaziyyat elmlərini dərindən öyrənməyə çalışırdı. Sovet və dünya ədəbiyyatını oxuyurdu. Tez-tez elmdə dostlarının köməyinə də arxalanırdı. O, qarşısına məqsəd qoymuşdu ki, gecəni gündüzə qatmaqla da olsa, hazırlaşıb Tomsk İnşaat Mühəndisləri İnstitutunun "Mexanika" fakültəsinə qəbul olsun. Bu məqsədlə o, 1985-ci ildə istəyinə çatmaq üçün sənədlərini həmin instituta verdi. Riyaziyyatdan yazılı və şifahi, fizikadan şifahi və rus ədəbiyyatından yazılı qəbul imtahanları verdi. Dörd imtahandan on altı bal topladı və müsabiqədənkənar instituta daxil oldu. Bununla da o, ali təhsil almaq üçün qarşısında əlverişli perspektivlər açdı. Neçə vaxt çəkdiyi əməyinin sevincini daddı. Həmin axşam da Tomsk telefon danışıq məntəqəsindən doğma Qazqumlağa telefon açdı. Qələbə sevincini ata-anasıyla, bacı-qardaşlarıyla bölüşdü. O günlər gənc Eltonun yaddaşında pozulmaz naxışlar salırdı. Həyat barədə hələ kifayət dərəcədə təcrübə qazanmasa da, bu cavan oğlan bilirdi ki, insan zəhmət üçün doğulub. Zəhmətsiz heç nəyə nail olmaq mümkün deyil. Dünyanın ən böyük şəxsiyyətləri, dühaları, zəki əqidə sahibləri ağır zəhmətdən, kədərdən keçib öz sevinclərinə qovuşublar. Bunun üçün ələlxüsus, həyata inam, yaşamağa sevgi gərəkdi.





Atası oğlunun instituta qəbul olunmasını eşitcək sanki sevincdən uçmaq istədi.

— Sağ ol, oğlum. Sən bu qabiliyyətinlə kişi sözünü doğrultdun. Mən və ailəmizə ürək dolusu şadyanalıq gətirdin. Mən belə də bilirdim. Sən mənim ümidlərimi doğrultdun. Cicin yanımdadı. Danışdıqlarımızı eşidir. Verirəm dəstəyi ona. Ananla da danış...

Bərk həyəcan keçirən, ürəyi oğluyla danışmaq üçün qəşş eləyən ana:

— Elton, mənim oğlum, səni təbrik eləyirəm... — dedi.

Qadının səsi titrədi. Qəhərləndi. Deyəsən, cicisinin keçirdiyi hissləri oğul da duydu. O da təsirləndi.

— Nə olub, gülməkdənsə, qəhərlənirsən?

— Kaş yanında olaydım, oğlum. Səni bağrıma basaydım.

Elton qəsdən dedi:

— Yanımda olub neyləyəcəkdin ki?

— Necə neyləyəcəkdim. Doyunca üz-gözündən öpəcəkdim.

Çici heç cürə özünü saxlayanmayıb ağladı. Oğul dərhal:

— Yaxşı, yaxşı, cici, ona görə telefon açmadım ki, səni ağladım. Gələrəm, onda nə sözün var deyərsən. Atamdan muğayat ol.

— Pulun-paran varmı? Yoxsa, de... Özünə korluq vermə.

— Sağ ol, öpürəm, cici.

— Mən də dəstəyi verirəm bacı-qardaşlarına. Çoxdandı onlar sənin səsini eşitmir. Onlarla da danış.

Şirinnaz xanım əvvəl dəstəyi Məhbubəyə verdi. O da qardaşını təbrik elədi, ona arzularını bildirdi. Sonra da dəstəyi Nərimana ötürdü. Qardaşlar, bacılar bircə-bircə danışdılar. Elton özündə bir yüngüllük, sərbəstlik duydu... Danışıq məntəqəsindən çıxıb hara gedəcəyini bilmədi. Düşündü ki, gedib Əfqan kişiylə görünsün. O, belə də elədi. Ali məktəbə qəbul olunduğunu deyəndə kişi çox sevindi. Nə eləcəyini bilmədi. Handan-hana dedi:

— Elton, sən böyük iş görmüsən. Deyə bilərsən, Əfqan əmi, ali məktəbə qəbul olunan tək mən deyiləm. Doğrudu, sənin bu sözündə də çox böyük həqiqət var. Ancaq nəzərə al ki, Tomsk kimi bir şəhərə gəlib rus dilində fikrini yazılı və şifahi ifadə eləmək, bağışla məni, gəlib deyəcəm, yüngül-dingil, yaramaz adamlara qoşulmamaq, özünü qoruyub saxlamaq hər təcrübəsiz adamın işi deyil. Üstəgəl nəhəng bir ölkənin ucqar kəndində doğulan kasıb, imkansız bir uşağın böyük çalışqanlıqla hazırlaşıb





başqa dildə — rus dilində instituta qəbul imtahanı verməyə özündə cəsarət tapması və yüksək nəticə əldə eləməsi çox böyük fədakarlıqdı. Səni təbrik eləyirəm, Elton! Buna öz qabiliyyətinlə nail olmusansa, deməli, sən hər cür qələbəyə qadirsən. Sənin gələcəyin var, oğlum! Bu şəhərdə mən çox şeyin şahidi olmuşam. Açıq danışaq. Azərbaycandan bura sənin kimi fərəh doğuracaq, adına, əsli-nəcabətinə, elə, obasına şöhrət gətirən gənclərlə fəxr eləyirəm. Ancaq elə gənclərimiz də bura ayaq basırlar ki, adam — Mənim millətimin nümayəndəsidi — deməyə utanır. Sıxılır. Ondan qaçmağa məcbur olursan. Fikir ver: ailəsini, ev-eşiyini atıb bura gəlirlər; neçəsi müxtəlif cinayətlər — oğurluq, cibgirlik, bıçaqlaşmaq, zorlama, adam öldürmək... — üstə həbsə düşürlər; Qız üstə öldürülürlər... Sənin gördüyün işləri ona görə də mən fədakarlıq kimi dəyərləndirirəm. Ailənin, millətin adına layiq iş görmüsən... Deyəsən, çox danışdım. Bu qələbəni yaxşıca yumaq lazımdı.

Elton gülümsünə-gülümsünə Əfqana təşəkkür elədi. Kişi ayağa qalxdı. Yan otağa keçib əlində iki qədəh və bir viski şüşəsiylə qayıtdı. Stolun üstə qoymuşdu ki, Elton dedi:

— Əfqan əmi, mən içən deyiləm.

— Heç içməmisən?

— Xeyr.

— Sufisən?

Hər ikisi gülüşdülər. Kişi qarderobuna yaxınlaşdı. Qapını açıb təzəcə aldığı qalstuku götürdü.

— Bunu Əfqan əmindən gərək qəbul eləyəsən, yoxsa, inciyərəm — dedi.

Elton Əfqandan ayrılanda axşam qaranlığı düşürdü...

İnstitutda ilk dərslər başlandığı günü Elton ömrü boyu unutmayacaqdı. Bura Sovet İttifaqının bir çox respublikalarından — Özbəkistandan, Qazaxıstandan, Gürcüstandan və müxtəlif şəhərlərindən — Mahaçqaladan, Tuladan, Kazandan — oğlan

və qızlar gəlmişdilər. Bu, Eltonda qəribə təəssüratlar yaradırdı. Bunlara baxmayaraq, Eltonu ancaq oxumaq, öyrənmək, diplom almaq və sağ-salamat Azərbaycana qayıtmaq, ailəsiylə görüşmək, ata-anasının ümidlərini doğrultmaq, ailənin dayağına çevrilmək... düşündürürdü. O, yaxşı bilirdi ki, bu arzusu, bu istəyi ancaq çalışqanlıqla, qarşısına çıxan çətinliklərə ayıq və çevik münasibəti və müdaxiləsiylə, düşünülmüş hərəkətləriylə, gərgin mübarizə əzmiylə nail olmaq mümkündür. Bunun da əsasında oxumaq, intizamlı və məsuliyyətli olmaq dayanır. Bu illər ərzində qaynar institut həyatı, gənclik çağları, tələbəlik illəri Eltonun əxlaqi-mənəvi inkişafında başlıca məsələ oldu. O, müxtəlif xalqların nümayəndələriylə, tələbələrin güzəranlarıyla, dövlətin onlara qayğısıyla, qarışıq millətlərin ailə-məişət məsələləriylə, görkəmli alimlərlə, yazıçı və şairlərlə, incəsənət adamlarıyla, artistlərlə, müğənnilərlə, bəstəkarlarla, ictimai xadimlərlə... görüşlərdi. Tez-tez iştirak etdiyi seminarlar, elmi-praktik konfranslar gənc Eltonun daxili aləminə, dünyagörüşünə əsaslı təsir göstərirdi. O, "Mühəndis-mexanik" ixtisası üzrə tədris olunan əsas fənləri öyrənməyə çalışırdı. Eyni zamanda o, ictimai-siyasi elmləri də öyrənməyə vaxt ayırır, bəzən müəyyən diskussiyalara, mübahisələrə girişməkdən çəkinmir, özünün siyasi hazırlığını yüksəltməyə var gücünü sərf eləyirdi. Bunun nəticəsidir ki, Elton Məmmədov institutun ikinci kursunda fakültə komsomol təşkilatının, üçüncü kursunda isə fakültə həmkarlar təşkilatının sədri seçildi. Az sonra institut üzrə Tələbə Elmi Cəmiyyətinin üzvü oldu. Elmi fəaliyyətə qoşuldu. Bilik və bacarığı, özünə diqqəti və başqalarının əməyini qiymətləndirmək sayəsində institutun rəhbərliyinin diqqətini cəlb elədi. Getdikcə Eltonun xarakterindəki keyfiyyət cizgiləri, hadisələrə obyektiv baxışı, elmi fəaliyyətə olan yüksək qabiliyyəti üzə çıxdı. Şəxsi səyi nəticəsində mükəmməl mütaliə mədəniyyətini formalaşdıra bildi. Tələbə dostlarına, müəllimlərə özünü ciddi, sərt, sözünə bütöv,





məqsədi aydın, məsuliyyətli, ləyaqət və şərəf sahibi kimi göstərməyə müvəffəq oldu...

Adi günlərdən biriydi. Böyük zalda Tomsk vilayəti üzrə ali təhsil müəssisələrinin tələbə elmi-praktik konfransı keçirilirdi. Konfransda Tomsk vilayət partiya və komsomol təşkilatlarının, digər nüfuzlu komitə və idarə nümayəndəliyinin, institutut rəhbərliyinin nümayəndələri iştirak edirdilər. İclasda Elton "Lay suyunun sıxlığının və dinamik özlülük əmsalının təcrübi tətbiqi" mövzusunda məruzə oxumalıydı. Çıxış üçün söz veriləndə o, ağır-ağır kürsüyə qalxdı. Sözləri aydın və anlaşıqlı şəkildə tələffüz etməklə, fikrini məntiqli ifadə eləməyə başladı. Elə ilk andan təmkinli çıxışıyla iştirakçıların diqqətini özünə cəlb eləyən Elton nəzəri məsələlərin praktikaya tətbiqi, bu zaman qarşıya çıxan çətinliklər, onların aradan qaldırılmasının necəliyini bacarıqla şərh etdi... İki günlük konfransın nəticələri yekunlaşdırılarkən Tomsk Vilayət Partiya Komitəsinin nümayəndəsi Sergey Şabatkin, əsasən, üç məruzə üzərində dayandı. Məruzədəki faktların elmi və inandırıcılığı, həyatiliyi, müəlliflərinin isə ümidverən olduqlarını bildirdi. Hər üç məruzə Tomsk Vilayət Komsomol Komitəsinin mükafatına layiq görüldü. Onlardan da biri gənc azərbaycanlı, haqqında bəhs olunan qəhrəman Elton Məmmədov oldu. O, əldə elədiyi nailiyyətə görə öyünmədi. "Mən də, mən də varam" eləmədi. Bütün bunlar Eltonun xarakterinin sadəliyindən, insani münasibətlərinin kökə bağlılığından xəbər verirdi...

Sonuncu kurs. Eltonun institutla vidalaşdığı vaxta lap az qalırdı. Qarşıda Dövlət Attestasiyası imtahanları vardı. Elmi işlər üzrə prorektor, texnika elmləri doktoru, professor Aleksandr Qumerov onu yanına çağırıb dedi:

— Sən bizim ümidverən tələbəmizsən. Səndən çox şey gözləyirik. Elmi-praktik konfranslardakı çıxışların da, institutdakı fəaliyyətin də xoşa gələndi. Şəxsən rektor səninlə danışmağı

özü mənə həvalə elədi. Onun fikri səni institutda saxlamaq, elmi tədqiqata cəlb etməkdi.

Gözlənilməz təklif Eltonu əvvəl çaşdırdı. O, handan-hana Aleksandr Qumerova dedi:

— Etimadınız üçün sizə də, rektorumuza da dərin təşəkkür eləyirəm. Ancaq mən istehalatda işləmək, təcrübə qazanmaq fikrindəyəm. Nə qədər ki, nəzəriyyəni təcrübəyə tətbiq etmək bacarığına tam yiyələnməmişəm, güman eləyirəm, məndən yaxşı elm adamı da olmaz...

Professor xeyli fikrə getdi. Ani olaraq üzündə təbəssüm oyandı.

— Bəlkə fikirləşəsən, Arzumanoviç?

— Fikrim qətidi, professor. Sizə də, cənab rektorumuza da təkrarən təşəkkür eləyirəm.

Professor daha söhbəti uzatmağa lüzum görmədi. Elton xudahafizləşib prorektorun kabinetindən çıxdı. İmtahanlardan yüksək qiymət alması, müəllimlərinin ona böyük etimadı gənc Eltonda belə fikir oyatdı ki, institutun rektorunun adına ərizə yazıb təyinatını bu şəhərə alsın, bir müddət təhsil aldığı bu şəhərdə yaşasın və professorlardan mənimsədiyi nəzəri biliklərinin təcrübəyə tətbiqinə nail olsun. Təcrübəsini zənginləşdirsin. O, bu barədə çox fikirləşdi. Niyyətini reallaşdırmaq üçün valideynlərinə belə bir məktub yazdı:

"Salam!

Ömrüm boyu dərin hörmət bəslədiyim atam və anam! Mən yaxın vaxtlarda institutu qutarıram və hələlik Tomskda qalıb işləmək fikrindəyəm. Burada bir çox millətlərin nümayəndələri dostcasına yaşayır, işləyirlər. Həyat olduqca qaynardı. Gənclərlə işləmək həvəsim böyükdür. Razılıq versəniz, müəyyən müddətə əvvəlki iş yerimdə əmək fəaliyyətimi bərpa eləyərdim...

Ürəyim sizinlədi. Hər birinizin üzünü görmək, səsini eşitmək istərdim. Qəlbim bacı-qardaşlarımla döyünür...





Hörmətlə: oğlunuz Elton".

Çox çəkmir ki, Elton valideynlərindən cavab məktubu aldı.

"Əzizimiz Elton! Sənin ağlına, düşüncənə yaxşı bələdik. Davranışların ürəyimizcədi. Bilirik ki, şəxsiyyətinə və ləyaqətinə söz olanmaz. Bir halda ki, niyyətin nəzəri və təcrübi bilik və bacarığını artırmaq, vətəninə, xalqına və ailənə layiqli övlad olmaqdı, onda biz də sənin fikrinə şərikik.

Bacı-qardaşlarının da ürəkləri səninlədi.

Atan Arzuman, anan Şirinnaz".

Valideynlərindən xeyir-dua alan Elton institutun rektorunun adına ərizə yazdı. Təyinatını Tomsk şəhərinə verən rektor bildirdi: "Bizim Elton Arzuman oğlu Məmmədov kimi hazırlıqlı, bacarıqlı, əzmkar və mübariz gənclərə ehtiyacımız böyükdür..." Eltonun təyinatı ilk dəfə işlədiyi idarəyə verildi. Bir müddət keçdi, istehsalatdakı mübarizliyinə, əməksevərliyinə, yüksək əxlaqi davranışına, elmlə təcrübə arasında yüksək bağlılıq yaratma bacarığına və millətlərarası dostluq fəaliyyətinə görə 2009-cu ildə o, "Tomsk şəhərinin fəxri sakini" adına layiq görüldü. İki il sonra Tomsk Dövlət İnşaat Arxitektorları Universitetinin fəxri professoru seçildi. O zaman universitetin rektoru demişdir: "Elton Arzuman oğlu Məmmədovu tanıyan hər kəs tam əmindir ki, bu xeyirxah, təmənnasız insan böyük ləyaqət və şərəf sahibidi. Dostluqda möhkəmdi. İnsanlarla tez ünsiyyət və ülfət saxlamağı bacarır. Təvazökardır. Örnək keyfiyyətlərə malikdir. İnsanları duyma, tanıma, dəyərləndirmə qabiliyyəti yüksəkdir. Zəhmətkeşlik və mübarizlik ruhunu daim qoruyub saxlayandır. Ürəyi genişdir... Eltonun insani keyfiyyətlərini xeyli sadalamaq mümkündür. Biz çox şadıq ki, Elton Arzuman oğlu Məmmədov bizim universitetin fəxri professoru seçilmişdir. Onu təbrik edirik..."

Beləcə, onun karyera ulduzu parlamağa başladı.

# Etimad

Xeyli vaxtıydı ki, Novruz arxada qalmışdı. Soyuqlu-sazaqlı, yağışlı-yağmurlu hava olacağından əsər-əlamət hiss olunmurdu. Parlaq yaz günəşinin ılıq şüaları torpağın canına hopduqca təbiət atlas libasa bürünürdü. Havanın coşan rayihəsi əlvan güllərin, rəngbərəng çiçəklərin ətrinə qovuşur, bağ-bağçada tez oyanan, üzə gülən ağacların, onların təzə, tər yarpaqlarının göz oxşayan yamyaşıl görünüşü adamın qəlbini riqqətə gətirir, canına yağ kimi yayılırdı. Yazın nəfəsindən, təbiətin ecazkar gözəlliyindən nəşət alan göyərçinlər, təzəcə qonaq gələn qaranquşlar, cək-cək vuran sığırçınlar, balaca, alabəzək quşlar şıltaq, sevincək uşaqlar tək bir yerdə qərar tutanmırdılar. Belədən belə uçuşur, budaqlardan budaqlara atılır, həzin, oynaq nəğmələrini oxuyur, xoş əhvali-ruhiyyə yaradırdılar. Qış yuxusundan yenicə ayrılan xırda cücülər, böcəklər, min bir əziyyətlə qaynaşa-qaynaşa yem axtarışına çıxan qarışqalar, pətəklərindən çıxıb vızha-vızla uçuşan arılar öz aləmlərindəydilər. Bunları görən balaca uşaqlar da sevinclərini gizlədənmirdilər. Səs-küyləri hər tərəfi bürüyən bu balacalar gah quşların səsinə səs verir, gah əlvan çiçəklərdən dərib dəstə bağlayır, gah da xallı kəpənəklərin ardınca qaçırdılar. Tutduqlarına da həvəslə tamaşa eləyirdilər. Qəribəydi. Təbiətin bu təması hərəyə bir cürə təsir eləyir, onlarda ruhlarına uyğun zövq yaradırdı. Adamlarda yaşamaq, yaratmaq, çalışmaq... istək və arzularını, ehtiraslarını birə-beş artırırdı. Üzlərdə təbəssüm oyadır, könülləri şadlandırır, hamıda hədsiz bir canlanma yaradırdı. Gözəllik vurğunu, təbiət aludəçisi, xalq elçisi, həssas qəlbli insan... Elton Arzuman oğlu Məmmədov bəzən səhər, bəzən axşam vaxt ayırıb əlləriylə saldığı bağına gəlir, tapdığı nadir ağacları öz əlləriylə əkir, diblərini boşaldır, suvarır, gübrələyirdi. Bütün bağı ələk-vələk eləyir, ağaclara başdan-ayağa (torpaqdan uclarına qədər) baxır, qurumuş budaqlarını kəsir, artıqlarını budayırdı. Qəfəsdəki quşları, dovşanları yemləyir, onların hər birinə qayğı göstərirdi... Yorulub əldən düşəndə bir kənara çəkilib rahatlanırdı. Beləcə, əsəblərini boşaldır, ağrı-acılarını götürməyə çalışırdı. Bir gün bağa baş çəkməyəndə — ağaclara baxmayanda, quşları, heyvanları... bəsləməyəndə elə bilirdi ki, həmin gün çox şey itirib...





Adi günlərdən biriydi. Milli Məclisdə müzakirə olunan məsələnin gərgin çəh-çöhründən çıxmışdı. O, birdən canında əsəbilik, hardasa sıxıntı hiss elədi və bir anlığa düşündü: "Bu sıxıntını, əsəbiliyi ancaq bağda çıxara bilərəm". O, belə də elədi. Milli Məclisin binasından çıxıb xidməti maşınına tərəf addımladı. Maşına çatıb dayandı. Başını qaldırıb göylərə baxdı. Səma aydın və təmiziydi. Havada xoş bir rayihə duyulurdu. Dərindən nəfəs aldı. Sonra qapını açıb arxa salonda əyləşdi. Sürücüyə — Bağa — dedi. Maşın yerindən sürət götürdü Elton çox yorğunarğın olduğundan başını arxalığa dirəyib yol uzunu gözlərini yumdu. Gah Milli Məclisin növbəti iclasında müzakirə olunacaq məsələni, həftə sonu seçiciləriylə görüşünü, hər həftənin üç günü Texniki Universitetdə mühazirə oxuduğu tələbələrini xatırladı. Gah dünyanın qabaqcıl ölkələrindən alıb gətirdiyi mötəbər avadanlıqlarla, cihazlarla yaratdığı mərkəzdə aparılan eksperimentləri gözləri önünə gətirdi. Gah da evdə, ailədə görəcəyi işləri təsəvvüründə canlandırdı. Dərin fikirlər ağuşuna atıldığından o, maşının bağa necə çatdığını hiss eləmədi. Sürücünün — Çatdıq, düşə bilərsiz — deməsi professoru sanki yuxudan oyatdı. Elton müəllim nə qədər yorğun olsa da, özünü o yerə qoymadı, maşından cəld atıldı və çevik addımlarla bağın içərilərinə doğru irəllədi. Mavi Xəzərdən axan yüngül meh onun üz-gözlərini, boyun-boğazını yalayır, canına bir sərməstlik gətirirdi. O, əlləriylə əkib becərdiyi qızılgül kollarına yaxınlaşdı. Budaqda pardaqlanan gülə tərəf əyildi, onun ətrini qoxulayıb ciyərlərinə

çəkdi. — Həyat necə də gözəldi. Gərək onu duya, dəyərləndirə biləsən — deyə düşündü. Sonra asta-asta yolunu dəyişdi. Hiss olunurdu ki, professor bağda nə eləyəcəyini, hansı işləri görəcəyini əvvəlcədən düşünməmişdi... O, bağın ortasında tikdirdiyi güləfrənginin ikinci mərtəbəsinə qalxdı. Oradan qocaman, tarixlər şahidi, varlığıyla sevib bağlandığı Xəzər apaydın görünürdü. Yüngül meh əsdikcə ağ, köpüklü dalğaların şırıltısı eşidilirdi. Özündən asılı olmadan professoru romantik xəyal bürüdü.

— Eh... Mənim mavi Xəzərim. Neçə min illərdi ömür sürürsən. Gah sakit, lal, səssiz-səmirsiz, gah da coşursan, çalxalanırsan, haray-həşir qoparırsan. Fırtınan, nəriltin adamın canına vəlvələ salır... Mənim doğma Xəzərim...

Professor handan-hana özünə gəldi. Rahat hərəkət eləyə bilməsi üçün kostyumunun yaxasını açdı. Qalstukunu balaca dartışdırdı. Yeldən pırpızaqlanmış saçlarını əlləriylə daraqladı. Xeyli güləfrəngidə dayandı. Xəyal yelkənli gəmiyə dönüb onu eldənelə apardı: Əmək fəaliyyəti. Tomsk şəhərindəki tələbəlik illəri. Sonralar müxtəlif təşkilatlarda və sənaye müəssisələrində məsul vəzifələrə çəkilməsi. Milli Məclisə deputat seçildiyi vaxtlar, namizədlik və doktorluq dissertasiyalarının müdafiələri, xarici ölkələrə səfərləri, beynəlxalq təşkilatlardakı çıxışları... nələr, nələr...

Elton xeyli güləfrəngidə dayandı. Yenə üzünü bağa tutdu. Dərindən ciyər dolusu nəfəs aldı. Ailə və qohumcanlı olan professor anası, xanımı, övladları, bacı-qardaşları barədə düşündü. Öz-özünə dedi:

— Vaxtları imkan versəydi, bu günlərdə yığışardıq bağa. Təmiz hava, ecazkar təbiət. Sağlam ruh. Möhkəm əqidə. Zəngin əxlaq-mənəviyyat. Xalq, millət üçün döyünən ürək... Ailə, övlad sarıdan bəxti gətirən Elton anası Şirinnazdan, qardaşları Nərimandan, Ziyadan, Loğmandan, İldırımdan, bacıları Məhbubədən, İlahədən, Validədən, onların övladlarından xəbər tutmasaydı, həmin gün rahat olanmazdı. Ürəyi onlar üçün əsirdi.





Elton Bakını çox sevirdi. O, hər gün Bakı axşamlarının seyrinə dalmaqdan yorulmazdı. Şəhərin son vaxtlardakı görkəmi onu özünə çəkirdi. Keçmişiylə indiki görünüşünü müqayisə eləyəndə, inkişafı gözləri önünə gətirəndə heyrətlənirdi. Yenicə tikilən göydələnlər, salınan parklar, yollar, körpülər, inşa edilən məktəblər, xəstəxanalar, muzeylər... onda iftixar hissi oyadırdı. Qaynayan həyat, yaradılan şərait… nələr, nələr. Bir sözlə, ölkənin zəngin enerji resursları.... Bu, görkəmli alimdə gələcəyə olan inamı daha da gücləndirirdi. O, şəhəri, şəhərətrafı yerləri dönə-dönə gəzsə də, gördüklərindən doymurdu. Özünə qarşı olduqca tələbkar olan Elton hamıdan da işinə, hərəkətlərinə məsuliyyət və tələbkarlıq umurdu. O, çox ölkələr, çox şəhərlər gəzmişdi. Hər gördüyündən də bir şey əxz eləmişdi. Elmi simpoziumlarda, müxtəlif siyasi-ictimai tədbirlərdəki çıxışları onun dünyagörüşünə, elmi məfkurəsinə, siyasi baxışlarına, insani münasibətlərinə, intellektual inkişafına çox təsir eləmişdi. Getdikcə o, xalqa, el-obaya, vətənə xidmətinin faydasını daha dəqiq dəyərləndirir, dəyərləndirdikcə də onda öz işinə həvəs artırdı... Bir dəfə anası Şirinnaz xanım narazı halda Eltona demişdi:

— Oğlum, bu qədər qaçmaq, işləmək olmaz. Ailənlə, uşaqlarınla çox az-az görüşürsən. Gah xarici ölkələrdə, gah da rayonlarda olursan. Ürəyincə nə ailənə diqqət yetirə bilirsən, nə də özünə... Mən də həsrət qalmışam üzünə. Bu qədər çalışmaq olar? Arada ailəni də, özünü də düşün. Çəkdiyin əziyyətlərdən mən də xəbərdaram. Özünə deyənməsəm də, hər dəfə səni görəndə yanıb yaxılıram.

— Niyə, cici? Mənə nə olub ki? Nədən narazısan?

— Dedim axı, sən nə evinə, ailənə lazımınca baxa bilirsən, nə də özünə. Sən deputat seçiləli elə bilirəm gözlərim önündə hər gün qocalırsan. Axı mən anayam. Səninlə söhbətə oturmaq, səsini eşitmək, nəfəsini duymaq, dərdindən hali olmaq istəyi-

rəm. İşlərini azalt, ailənə, uşaqlarına vaxt ayır. Onsuz da nə qədər əlləşib-vuruşsan da iş qurtaran deyil...

Elton cicisini dinlədi. Gülə-gülə — Nəticə çıxararam — dedi. Sonra da vaxtıyla el-oba ağsaqqallarının, ziyalılarının nümayəndələrinin yanına gəlişlərini xatırlatdı cicisinə.

Axund dedi:

— Oğlum, el-obanın sahibi olmalıdı. Atalar deyib: "Sahibsiz yerdə çaqqallar ulaşar". Bizi yanına camaatımız göndərib. Deyiblər get danış Elton müəllimlə, razılığını versin, biz də onun Milli Məclisə deputatlığını namizəd verək. Bizim el-obanı o hamıdan yaxşı tanıyır. Qanunçuluqdan da yaxşı xəbərdardı... Dilin də var, dilçəyin də, oğlum. Adamlarımız da sənə etibar eləyirlər. Zəhmət çək. El oğlusan, el-obana sahib dur. Adamların sözünü yerə salma...

Bir zamanlar el ağsaqqallarının, ziyalıların dedikləri, ona ürək qızdırmaları bərk təsir elədiyindən Elton da onların sözlərini yerə salmamışdı, etimadlarına can-başla razılıq vermişdi. Cicisiylə söhbət zamanı Eltonun qəlbindən gizli bir duyğu keçdi.

- El yolunda ağaran saç baş ucaldar, üz ağardar, mənim cicim!

## Görülən işdən gül qoxusu gələr

Yayın istisi adamı təngişdirirdi. Hər tərəf od-alov saçırdı. Sürətlə hərəkət eləyən maşın döngəni burulub geniş asfalt yola — Qazqumlaq kəndinə yan aldı. Yolun hər iki tərəfində yaşıl çinar, küknar ağacları sıralanırdı. Yolun solundakı ağacların kölgələri yolu yarıyacan tutmuşdu. Maşın irəlilədikcə qarşıda yaşıllıqlara qərq olmuş iki-üç mərtəbəli, müasir tipli qırmızı, göy örtüklü malikanələr görünürdü. Yorğun-arğın Elton sürücüyə dedi:





— Cavan oğlan, sürəti azalt, əməllicə-başlıca baxa bilim, bir zaman gəzib-dolaşdığım, oynadığım bu yerlərə. Neçə vaxtdı bu torpağa, suya həsrətəm. Hərdən kəndimizi, doğma məktəbimizi düşünəndə az qala özümü unuduram...

Maşın yavaş-yavaş Qazqumlağın mərkəzinə doğru süründükcə Elton ilk dəfə görürmüş kimi o yerlərin otuna-əncərinə də, daşına-kəsəyinə də köks ötürə-ötürə baxırdı. O, öz-özünə düşündü:

— Aman Allah, doğulduğun, gəzib-dolaşdığın torpaq nə qədər güclüdü. Əvəzedilməzdi. Mən Tomsk şəhərində işləyəndə də, orda ali təhsil alanda da, bu yerlər üçün nə qədər burnumun ucu göynərdi. İndi Bakıdayam. Tez-tez bu yerlərə gəlib-gedirəm. Yenə də darıxıram. Nə qədər əzizmiş, möhtəşəmmiş insanın üzərində doğulduğu, boya-başa çatdığı torpaq, kənd-kəsək. Qoynunda təhsil aldığı məktəb...

Elton aludəliklə, yüz dəfələrlə tamaşa elədiyi, gördüyü yerlərə bir də baxdı. Maşın Heydər Əliyev parkının qarşısına çatanda Elton dedi:

— Ver kənara, saxla maşını.

Maşın dayandı. O, maşından düşüb parka girdi. Rayon mərkəzindən aldığı gül buketini ulu öndərin məzarı üstə qoydu. Səcdə elədi. Sonra da o böyük şəxsiyyətə rəhmət diləyib geri çəkildi. Parkı gəzdi. Xidmətçilərlə söhbət elədi. Dərdi-sərlərini öyrəndi. Hətta, onlara müəyyən tövsiyələrini də verdi. Yüngül söhbətdən sonra deputat Elton Məmmədov yaxınlıqdakı məsciddə baş çəkdi. Kəndin axunduyla, din xadimiylə görüşdü. Hal-əhval tutdu. Bir şeyə ehtiyacı olub-olmamalarını soruşdu. Onda axund dedi:

— Ay Elton müəllim, biz sənə nə deyə bilərik? Sən kənddə özünə yox, Allaha ev tikdirmisən. O boyda istirahət parkı, Bayraq Meydanı, xəstəxana, məktəblər tikdirməyə nail olmusan. O poçt, o bələdiyyə, o kitabxana, o da ki, səadət sarayı. Hələ kən-

dimizə çəkilən qaz, su, kanalizasiya xətlərini demirəm. Buna bir ömür bəs eləməzdi. Bu qədər işdən sonra deyirsən indi də səndən nəsə tələb eləyək?

— Yox... Axund, biləsiz ki, o görülənlər tək mənim işim deyil. Hökumətimizin xalqa qayğısıdı. Tikinti-abadlıq işləri ölkəmizin hər tərəfində aparılır. Məktəblər, xəstəxanalar tikilir. Hələ görüləsi işlərimiz çoxdu. İcazənizlə axund, mən gedim. Məktəblərdə də görüşəcəyim şəxslər var. Onların problemlərini öyrənmək istəyirəm. Deyiləsi sözləri çoxdu.

Elton məsciddən çıxıb birbaşa məktəbə gəldi Direktorla, müəllimlərlə görüşdü, sinif otaqlarını gəzdi. Axırda da doqquzuncu sinfin fizika dərsini dinlədi. Uşaqlarla söhbət elədi, arzu və istəklərini dinlədi, müəllimlərin nələrə ehtiyacları olduğunu öyrəndi. Sonra da üzünü direktora tutdu:

— Sizin məktəb üçün on kompyuter ayırtdırmışam. Onları rayon təhsil şöbəsindən götürün. Gələcəkdə yenə baxarıq. Bilirsiz ki, indi informasiya-kommunikasiya texnologiyaları əsridi. Kompyutersiz nə dərs, nə iş?! Şagirdlərlə işləmək gərəkdi... O, sonra üzünü şagirdlərə tutaraq:

— Bunlar bizim gələcəyimizdi... Elmsiz, təhsilsiz nə inkişaf, nə də gələcək ola bilər.

Hamının üzündə təbəssüm yarandı. Yerbəyerdən əl qaldırıb təşəkkürünü bildirmək istəyən şagirdlərə Elton müəllim dedi:

— Əzizlərim, nəyə görə mənə təşəkkür eləməlisiz. Axı bu kənd də, camaat da, yetişməkdə olan nəsil də... mənimdi. Məktəb məbəddi. Hamımız bu divarlar arasında təhsil almışıq. Bir zaman gözlərimiz açılan bu məbəddən indi dünyaya baxırıq. Müasirləşmə, hər şeydən əvvəl, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının köməyilə mümkündü. Bunsuz elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların sosial-iqtisadi həyata uğurlu tətbiqindən söhbət açanmarıq. Dünya sürətlə inkişafdadı. Siz artıq bu inkişafın içərisindəsiz. Gələcəyin böyük yaradıcılar





nəsli sizin yetişməkdə olan nəsilləriniz olacaqlar...

Elton üzünü direktora tutaraq dedi:

— Siz məktəbə lazım olacaq avadanlıqların, dərsliklərin siyahısını tutub mənə verin. Mən aidiyyatı təşkilatlarla danışım. Çatışmayanlardan mümkün olanları, ələlxüsus da zərurilərini əldə eləyək... Təkcə bizim kənd deyil, hələ rayon mərkəzində də, digər kəndlərimizdə də çox iş görməliyik. Hər şeyi mərkəzdən istəyənmərik. Özümüz də çalışıb-vuruşub iş görməliyik. Atalar yaxşı deyib: "Tək əldən səs çıxmaz". Çalışaq əl-ələ verək.

Qazqumlaq hamımızın doğulub ərsəyə çatdığımız məkandı. Kəndimizdə tikilən müasir tipli xəstəxana adamlarımızı bir çox qayğılardan xilas eləyib. Görürsüz, gül-çiçəyə bürünən park, "Bayraq Meydanı", göz oxşayan "Səadət sarayı" adamın qəlbini riqqətə gətirir. Bizim məqsədimiz kəndimizi şəhərə çevirməkdi...

Universiteti xatırladan orta məktəb binasından sakit addımlarla çıxan Elton Məmmədov maşına əyləşdi. Sürücüyə dedi:

— Rayon mərkəzinə. Neçə gündü orda inşa olunan xəstəxana binasında görülən işlərdən xəbərsizəm.

Elton başını oturacağın arxasındakı yastıqçaya qoyub gözlərini yumdu. Xəyalı onu Qarabörk, Qazyan, Məlikballı kəndlərində inşasına başlanan məktəblərə, Ramalı, Lək, Bağman, Bərşad kəndlərindəki təmirə ehtiyaclı tikililərə çəkib apardı. İnşaatçıların ağır, ağır olduğu qədər də xeyirxah əməllərinin nəticələrini xatırladı. Öz-özünə düşündü:

— Eh... Sadə adamların sadə və tükənməz istəkləri. Hamı özüyçün firavan həyat arzulayır. Ziyalılar, elin başbilənləri, iş adamları qabağa düşməsələr, ömrünü əkin-biçinə, mal-qaraya həsr eləyən əmək adamları öz arzu və istəklərinə çata bilərlərmi? O gün cənab nazir necə dedi: "Xalqın, el-obanın rifahı üçün döyünməyən ürək, cəhaləti görüb ağlamayan göz, sevgiylə sərf

olunmayan qüvvə kimə gərəkdi?! Bunlar insandan təmiz niyyət, zəngin mənəviyyat, qüdrətli ruh, saf vicdan tələb eləyir. Xalqın, el-obanın ehtiyacı varsa, onun qeyrətli oğlu da, əməlisaleh qızı da varlığını həmin ehtiyacın ödənməsinə sərf etməyə borcludur..."

Cənab nazirin dedikləri nə qədər həqiqətdir?! Nə qədər yerindədir?!

Elton daxili götür-qoylar içərisindəydi ki, sürücü dilləndi:

— Çatdıq, cənab deputat!

Deputat maşından düşdü. Başa çatmaqda olan Mərkəzin tikintisinə göz gəzdirdi. Müxtəlif inşaat materialları daşıyan kimlər, inşa eləyənlər kimlər, həyət-bacanın qaydaya salınmasında işləyən kimlər, Bayraq Meydanında səliqə-sahman yaradan, ağac əkib gül kollarını basdıran kimlər... Hər tərəfdə coşqunluqla gedən işlər deputatı razı salmaya bilməzdi. O, tikinti obyektini gəzdi. Çatışıb-çatışmayanları öyrəndi, lazımi göstərişlərini verdi. Sonra da maşına əyləşib mobil telefonla kəndlərdə aparılan quruculuq işləriylə maraqlandı. Özlüyündə fikirləşdi ki, rayonun mərkəzində tikintisi nəzərdə tutulduğu xəstəxanaya, Təzə Şilyan, Çiyni və başqa kəndlərdə tikilən xəstəxana binalarına baş çəksin, imkan daxilində seçiciləriylə görüşsün, onların istək və arzularını öyrənsin. Əlbəttə, bu işlər Elton müəllimin rayonda görəcəyi yarım günün planlaşdırmasıydı.

Ucar şəhərində və regionda analoqu olmayan Mərkəzin tikilməsi, abadlıq işlərinin aparılması adamlarda maraq doğurmaqla gənc nəsil üçün bir nümunəyə, örnək məktəbinə çevrildi. Heç şübhəsiz ki, bu işlər yeniyetmələrin xəlqilik, vətənpərvərlik duyğularının yaradılması məntəqəsinə dönürdü. Şəhər və kənd orta məktəblərində ulu öndərin həyat və fəaliyyətinə, siyasi görüşlərinə, dövlət quruculuğu sahəsindəki ensiklopedik biliklərinə, fenomen bacarığına həsr olunan yaradıcı (inşa) yazıları bunun bariz nümunələridir... Deputat Elton Məmmədovun bu ideyası və təşəbbüskar fəaliyyəti özünün gərgin fiziki-mənəvi gücü, təbliğatı, inandırıcı və qəti sözüylə bütün kəndlərdə rezonans verirdi. Adamlarda və xüsusiylə gənclərdə quruculuq işlərinə inam və böyük həvəs yaradırdı. Bunun nəticəsidir ki, hazırda Ucar şəhərində üç, rayonun Qazqumlaq kəndində üç, Məlikballı. Ramalı, Çiyni, Yuxarı Şilyan, Küçəkənd kəndlərinin hər birində bir müasir tipli məktəb binaları inşa olunmuşdur. Digər kəndlərdə məktəb binaları əsaslı təmir edilmişdir. Ucar şəhərində, neçə-neçə kənddə xəstəxana binaları istifadəyə verildi. Məktəb və xəstəxanaların hər biri yeni avadanlıqlarla təchiz edildi. Yüksək səviyyəli kadrlara ehtiyac ödənildi. Düşüncəsini, həyatını xalqının rifahına yönəldən deputat Elton Məmmədovun ciddi səyi və gərgin əməyi sayəsində hazırda rayonun elektrik işığına qərq olmayan yaşayış məntəqəsi yoxdur. Şəhərdə və Qazıqumlaq kəndində kanalizasiya sistemi çəkilib xalqın istifadəsinə verilmişdir. Qaz və su problemləri bir sıra kəndlərdə həll olunmaqdadır. O da qeyd edilməlidir ki, xalqın rifahı naminə rayonda aparılan quruculuq və abadlıq işləri hamıda fərəh hissi doğurur. Ölkə rəhbərinə, onun yürütdüyü siyasi xəttə ucarlıların inamını və sədaqətini daha da möh-kəmləndirir. Onlarda vətənə, torpağa sevgi hisslərini artırır... Hə, onu da qeyd etmək yerinə düşər ki, dövlət başçısının "Qara qızılın insan kapitalına", "Kəndin şəhərə çevilməsi" kimi möhtəşəm ideya və göstərişlərinə əsasən Qazıqumlaq kəndi hal-hazırda şəhər libasını geyinməkdədir.

Geniş və işıqlı məktəb binaları, uşaq bağçaları, gül-çiçəkli parklar, möhtəşəm "Bayraq Meydanı", möhtəşəm muzey və qarşısında qoyulan əzəmətli heykəl, gecələr işıqlandırma sistemi... Hansını deyəsən? Könül oxşayan, fərəh doğuran bu qeyri-adi mənzərələr adamı möcüzələr aləminə salır. Bəli, bütün bunlar dövlət rəhbərinin göstəriş və tələblərinə sözün əsl mənasında cavabdı. Onun dediyi kimi: "Qazıqumlaq kəndi şəhərə çevri-

lir!" "Ürək yanmasa, gözdən yaş çıxmaz" ideyasıdı. Əlbəttə, bu təntənə ölkə rəhbərliyinin diqqətini vaxtında cəlb etməyə bilməzdi. Odur ki, görülən işlər nazirlərin, komitə sədrlərinin, Milli Məclis üzvlərinin, ziyalıların, əmək qabaqcıllarının müşayiətiylə iki dəfə dövlət rəhbərinin kəndə təşrif buyurmasına səbəb oldu. Onları rayon icra başçısı Yaşar Əliyev, Milli Məclisin deputatı Elton Məmmədov və xalq qarşıladı. Ölkə rəhbəri əhaliylə görüşdü. Meydan görüşə gələn izdihamla doluydu. Adamlar əllərində bayraqlar tutmuşdular. Görüş yeri bayram libasına bürünmüşdü. Sonra da dövlət rəhbəri izdiham qarşısında çıxış etdi. Adamların arzu və istəklərini dinlədilər. Bunları müşahidə edən böyük vətənpərvər professor, deputat, ictimai-siyasi xadim Elton Məmmədovun qəlbi fərəh hissiylə dolurdu.

## Fədakarlığın ilk rüşeymləri

Ən böyük yaşam məskənlərindən olan Qazqumlağın yaranış tarixi çox dərinliklərə gedib çıxır. Tarixçilər bu barədə müəyyən fikirlər və mülahizələr söyləsələr də, sakinlərindən heç kim onun ilkin çağlarından doğru-dürüst söz açanmır. Bu barədə nə şahidinin, nə də o dövrün uydurmaçılarının ağıllı-başlı inandırıcı qənaətləri var. Bir həqiqət odur ki, əvvəli uçuq-sökük daxma, qazma və komalarda yaşayıb bu el-elatın sakinləri. Adamlarının da məşğuliyyəti, deyirlər, əkin-biçin, heyvandarlıq olub. Bir müddət sonra onlardan da bəziləri dəmiryolçuluğu özlərinə peşə seçərək ailələrini dolandırıblar. Müəyyən tarixi yol keçən bu kənd camaatının nəsli-kökünün yaratdıqları zaman-zaman kök salan, kristallaşan adət-ənənələri, nəsil-nəsil zənginləşdirdikləri mənəvi-əxlaqi dəyərləri bugünkü günə gətirib çatdıra bilmişdir. Yaşadıqları çətin şəraitdə qismətlərinə düşən, talelərinə yazılan ağır güzəran adamların fiziki görünüşün-





də, psixologiyasında öz izlərini buraxmışdı. Tarixən ömürləri ləyaqət və şərəfdən yoğrulan bu kənd adamlarının yaşam tərzi bütövlükdə sakinlərinin münasibətlər müstəvisində öz yerini daim möhkəmləndirməkdədir. Cəsarətlə demək olar ki, mərdlik, comərdlik, el-obasını sevmək, bir-birlərini tutmaq, hamılıqla yas, toy məclislərində iştirak, yıxılanı qaldırmaq... nələr, nələr xarakterlərinə çevrilmişdir Qazıqumlaq kənd sakinlərinin. Qonşu Məlikballı, Şahlıq, Əlıkənd, Ramal, Çiyni kəndlərinin camaatı da, uzaqdan-yaxından gələnlər də, ta yaranış dövründən bu yaşam məskəninə məbəd, adamlarına abid kimi baxırdılar. Vaxtıyla bu kənddə doğulub boya-başa çatan, Şərqdə təhsil alan, böyük ilahiyyatçı alim Yəhya Əfəndini xalq sevirdi. O, nə desəydi, uşaqdan-böyüyə hamı onu eşidirdi, sözlərini qanun kimi qəbul eləyirdi. Elton da onu mənən özünə məsləhətçi, götür-qoyçu bilirdi. Ulu Şərqdə dini və dünyəvi təhsil alan bu şəxs Uca Allahın yerə nazil elədiklərini, İbrahimin, Musanın, İsanın, Məhəmməd-əleyhissalamın buyurduqlarını səmavi kitabələrdən oxuyub böyük bir mahala ötürürdü. Yəhya Əfəndi öz xərcinə kənddə məscid inşa etdirmişdi. Özü də daim həmin məscidə gələr, adamları başına yığar, onlara əxlaq və mənəviyyatdan söhbətlər açardı. İnsanlara göstərdiyi fədakarlıqlar el arasında indi də minnətdarlıq hissiylə xatırlanır. Allahını sevən bu mömün özündən sonra bir irs qoyub getmişdir. Elton Arzuman oğlu Məmmədovun başlıca mənəvi gücü, qüdrəti də bu Allah adamının şəcərəsindən olmasıydı... Yəhya Əfəndiylə Elton Məmmədov arasında bir ruhi yaxınlıq da duyulur. Yəhya Əfəndi el-obasını, xalqını sevən, bütün varlığıyla Allaha bağlı, həqiqət və ədalətə, halallığa əsaslanan, dərin məfkurəli, saf düşüncəli şəxsiydi. Mərhəmət və sədaqət onun ruhundan süzülüb gəlirdi... Bu keyfiyyətləri çox sadalamaq olar. Elton Məmmədovun da ruhuna Yəhya Əfəndinin xeyirxahlıq, humanizm, insansevərlik, geniş düşüncə tərzi, hər şeyi ağılla həll eləmə bacarığı hopmuş-

du. Diqqət yetirsən, hər ikisinin fəaliyyətində Allaha bağlılığın açıq-aydın təzahür elədiyini görərsən...

XX əsrin 20-ci illərinin ortalarında Şura Hökumətinin yaratdığı ictimai-siyasi ideologiya ölkənin hər yerində olduğu kimi, Qazqumlaq kəndinin də qabaqcıl, ayıq, oxumuş adamlarını repressiya maşınının dəmir zirehləri altına aldı, şüurlarda yeni əcaib bir ideologiya yaratdı. Düşünməyi bacaran baş sahiblərini bircəbircə dənlədi. Öldürdüyünü öldürdü, qalanlarını da uzaq Sibirə, Qazaxıstan səhralarına sürgün elədi. Onları ac-yalavac işlədib məhvlərinə nail oldular. Kasıb-kusubları, əlsiz-ayaqsızları ağır, qul əməyi tələb eləyən işlərdə gecə-gündüz işlətdilər. Öz buxovlarında saxladılar. Dinlərinə, iman və inanclarına qarşı çıxdılar... Əlbəttə, nüvəsi çürük olan bu ideologiya çox gedə bilməzdi. Əsrin sonunda ölkədə yeni hərəkatın başlanması SSRİ adlanan böyük imperiya kabusunu darmadağın elədi. İmperiya çökdü. Ayrı-ayrı xalqlar öz azadlığına, müstəqilliyinə, suverenliyinə nail oldular. Abı-hava dəyişdi. Ölkədə yeni bir ictimai, siyasi, iqtisadi və sosial sfera yarandı. Yeni mərhələ başlandı. Elmin, təhsilin, səhiyyənin, mədəniyyətin dünya səviyyəsində inkişafına yollar açıldı. İnsanların ölən inamı, itməkdə olan inancı özlərinə qaytarılmağa başlandı. Azad ölkənin azad vətəndaşlarının formalaşdırılması cəhdi önə çəkildi. Xalq ölkənin dirçəliş yolunu tutdu. Elton Məmmədov da ölkədə gedən bu keyfiyyət dəyişmələrinə öz töhfələrini verməkdəydi. O, həm Bakıda, həm də Ucar rayonunda, rayonun kəndlərində olur, ölkədə baş verən hərəkatın mahiyyətini adamlara açır, başa salır, onları yeni-yeni məlumatlarla silahlandırırdı. Bu məsələlərdə Eltonun qabiliyyət və bacarığını yaxından dərk eləyən el-oba sakinlərində ona dərin rəğbət yaranırdı. Getdikcə hamıda belə bir fikir formalaşırdı: Elton Məmmədov dərin elmi təfəkkür sahibidi, elm adamıdı. Natiqlik məharəti var; el-obasına bağlıdı; kənd adamlarının dərdi-səriylə yaşayandı; iradəsi dönməzdi; dediyi sözün





sahibidi; ayıq və cəsarətli adamdı... Ölkədə başlanan quruculuq işlərinin ilk vaxtlarından Eltonda belə ideya formalaşdı ki, doğma kəndi Qazıqumlaqda xalqın güzəranı ağırdı. Kənd öz köhnə, uçuq-sökük simasını dəyişməlidi. Məktəb, xəstəxana və digər sosial binaların inşasına kənddə ciddi ehtiyac var. Bu barədə təxirə salınmadan məlumatlar ölkə rəhbərliyinə, dövlət başçısına çatdırılmalıdır...

Respublikanın hər bir nöqtəsində baş verən hərəkat Qazqumlaqda ciddiliyiylə üzə çıxdı. Yeni abı-hava, yeni düşüncə hadisələrə yeni baxış tələb eləyirdi. Kəndi baş-ayaq gəzən, adamlarla hər gün söhbətə oturan, onların vəziyyətlərini, arzu və istəklərini öyrənən Elton da özlüyündə ciddi götür-qoylar eləyirdi. O, bir an da rahat olanmırdı. Onun gecəsi də, gündüzü də doğma kəndiydi, kəndin sakinləriydi. Bəli, Elton müəllim, eləbelə adi adam deyildi. Quruculuq sayəsində o, böyük təcrübə toplamışdı. Nədən, necə başlamaq lazım gəldiyini bilirdi. Onu da çox aydın dərk edirdi ki, adicə təkliflə iş bitməyəcək, kəndin səviyyəsini qaldırmaq üçün ellə əl-ələ vermək, onların faydalı təkliflərini nəzərə almaq və hər vasitəylə dövlətin razılığını almaq lazımdır. Belə olarsa, bu abadlaşma, xalqın güzəranını qaldırmaq üçün dövlət də yardım eləyər. Bunlar bir günün, beş günün işi deyil, bəlkə də on illərin işidi. Odur ki, o, kənd ağsaqqallarını, başbilənlərini, məktəb direktorlarını bir yerə topladı. Onlarla ölkədə gedən dəyişiklik, kəndin vəziyyəti, adamların psixoloji durumu barədə söhbətə başladı. Axırda da yaranmış şəraitdən asılı olaraq qarşıda duran vəzifələri açıqladı. — Nədən, necə başlamaq? — sualını qoydu. Doğrudu, Eltonun səsinə səs verənlərlə yanaşı, suala ilk andan ağız büzənlər də oldu, - Əşi, o məsələlər bizlik deyil, ona dövlət əl qoymalıdı — cavabını verənlər də tapıldı. Ancaq Elton onu da yaxşı bilirdi ki, özlərinə qarşı pessimist olan bu adamların münasibəti təbiidi.

Elton öz fikrində qaldı və dedi:

— Əzizlərim, biz özümüz iş görməsək, kimsə gəlib bizə əl tutmayacaq. Fəallıq, təşəbbüs bizdən olmalıdı. Yuxarıların da yadına özümüzü özümüz salmalıyıq. Dərdimizi çatdırmalıyıq. Atalar yaxşı deyib: "El bir olsa, dağ oynayar yerindən!". Mən bir aydan sonra şəhərdən qayıdacam. İstərdim, kəndimizin sabahı, yetişən nəslin gələcəyi barədə siz də papağınızı qarşınıza qoyub düşünəsiz...

## Örnək ömür

Texnika elmləri doktoru, professor, Milli Məclisin üzvi, ictimai-siyasi xadim Elton Arzuman oğlu Məmmədovun kimliyi, fəaliyyəti, xalq və vətən naminə xidmətləri adi əmək adamlarından tutmuş ziyalılara, iqtidar mənsublarına, dövlət adamlarınadək çoxlarına bəllidi. Dostları həmişə ona — Bizim Elton — deyə müraciət eləyirlər. Hansı müdriksə yaxşı deyib: "İnsanlar cürbəcür, insanlar min-min"dir. İnsan var — "Xalq", "Millət" — deyəndə özünü, ailəsini, "Vətən" deyəndə evini görür. Onu, onun məhdud idrakının məhsulunu olsa-olsa ailəsi, qohum-əqrəbası dadır. Belələrinin ömür yolu məhəllə daxilində çərçivələnir. Heyvan anlamı yaradan belələrinin keçdiyi ömür yolu barədə söz demək, fikir söyləmək həm olduqca asandı, həm də asan olduğu qədər əhəmiyyətsizdir. Onların düşüncə və əməlləri nəinki xalq, hətta nəsli-zatları üçün də fayda verəcək əxlaqi-mənəvi dəyərlər nümunəsi olmur. Ancaq elələri də var ki, az iş görüb çox tanınmağa ciddi-cəhd göstərirlər. Unudurlar ki, bu fəaliyyətləri əbəsdir. Xalq, millət onları görür, tanıyır. Ağlına bələddir. İçi boş dağarı xatırladan belələri yalnız ucuz şan-şöhrət ardınca qaçırlar. Onların yeganə istəyi özləri barədə yersiz, yüngül xoş sözlər eşitməkdi və canlarına yayılan quru və saxta təbliğatdı. İnsan da var, qəlb evinin qapılarını fəzilətlər və





fəzilətlilər üçün açır, mücrüsünü daim əxlaqi dəyərlərlə doldurmaqdadır. Axtarışdadır. Təkmilləşdirmədədir. Mənəvi aləmini saflaşdırmadadır. Ömrünün mənasını xalqa xidmətdə görmədədir. Yıxılana dayaq durmadadır. Başqalarının ağrı-acısını, dərdisərini özününkü bilmədədir. Fəaliyyətlərini fərq qoymadan, təmənna ummadan insanların xoşbəxtliyinə yönəltmədədir. O, yaxşı bilir ki, əməlinin nəticəsi haqdı, ədalətdi. Ləyaqət və şərəfdən yoğrulan xidmətlə həmişə, hər yerdə özünün üzünü ağartmaqdadı. Hamının yanında alnını açıq etmədədi. Özündə də, doğmalarınında da fərəh, qürur hissi doğurmadadır. Belə şən əhval, yüngül ruh, ani xoşbəxtlik təlqin eləyən düşüncə və əməllər sahibinə hörmət və ehtiram gətirmədədir... Məhz barəsində söhbət açılan Elton sonunculardandır. Onun halallıq üzərində qurulan ömür yolu haqqa, ədalətə və həqiqətə əsaslanır... Vicdan təmizliyi, məslək aydınlığı, mərhəmət hissi, xeyirxahlıq duyğuları onun həyatını rövnəqləndirir. Uca boylu, səliqəli, saçları ağarmaqda olan bu professorun qonur gözlərindən daim səmimiyyət və mehribanlıq yağır. O, işdə, rəsmi danışıqlarda tamam başqa adama çevrilir. Onu yaxından tanıyanlar — həmkarları; qohum-əqrəbası, dostları deyirlər: Elton nə qədər səmimi, mehribandırsa bir o qədər də sərtdir, ciddidir. O, təkcə özünə deyil, başqalarına qarşı da elədi. Onun nitqindəki söz və ifadələrin ölçü-biçiliyi, dəqiqliyi, fikrinin aydınlığı, məntiqinin gücü çoxlarına nümunədir. Elmi konfranslarda, toplantı və çıxışlarda ilk andan auditoriyanı bacarıqla ələ almasının, nitqinin ifadəliliyinin emosional təsir gücünə, həssaslığına və natiqliyinə dəlalət elədiyini duymamaq olmur. Uzun müddət hüquq-mühafizə orqanlarında çalışan, bacarıqlı hüquqşünas, hazırda Ucar rayon İcra Hakimiyyətinin başçısı Yaşar Əliyevə görə, Elton Məmmədov elə şəxsiyyətdir ki, o, söz xatirinə söz demir, söz tapmaq üçün vaxt itirmir, dağa-daşa düşmür. Danışarkən açıq-aydın hiss olunur ki, o, daim fikir, düşüncə axtarışlarındadır. Bu axtarışla-

rın əsasında da təfərrüat və həqiqət dayanır. O, hər hansı problemə gerçək prizmadan yanaşır. Ona görə də onun çıxışları elmidir, məntiqlidir. Köklüdür, rasionaldır. Həyat, məişət, ictimai-siyasi hadisələr, elm, texnika, təhsil, mədəniyyət... sahəsində müasir problemləri qaldırması, məzmunun açılışı, onları obyektiv və subyektiv mülahizələr əsasında üzə çıxarması, bir növ xüsusi tədqiqata cəlb edərək araşdırması, aradan qaldırılması yollarının, istiqamətlərinin müəyyənləşdirilməsi və elmi şərhi açıq-aydın sübut edir ki, bu istedad sahibi Elton Məmmədov tədqiqinə girişdiyi məsələnin mahiyyətinə dərindən varır, ona başdansovdu yanaşmır. Rayonumuzun elə bir problemi yoxdur ki, Elton müəllimlə biz birlikdə onu araşdırmayaq, həllinə nail olmayaq. O, sözün həqiqi mənasında işinin bilicisidir. Bu sətrlərin müəllifinin əqidəsincə, görkəmli alim Elton Məmmədovun keşməkeşli ömrünün ayrı-ayrı səhifələrini vərəqlərkən onun mənəvi-əxlaqi keyfiyyətləri, hadisələrə münasibəti, elmi dünyagörüşü, nəzəri və praktiki hazırlığı, insanlara yanaşma tərzi, nəyə qadirliyi... açıq-aşkar üzə çıxır.

Millət vəkili, elm fədaisi Elton Arzuman oğlu Məmmədov özünün çoxşaxəli fəaliyyətində qarşısına çıxan hər bir hadisədən düzgün nəticə çıxarmağı bacarır. Onun əhatəsində demək olar ki, qohum-yad yoxdur. Hamısına insanlıq çərçivəsindən baxır. İnsanlara diqqət və nəzakət onun həyatının başlıca kredosudur. Həyatının bir parçası onun uşaqlıq və məktəb illərini çox aydın xatırladır. Quş qanadlı illərin sorağıyla uşaqlıq dostlarını, şagird həmkarlarını yada salanda bəzən kövrəlir, bəzən qəhərlənir, bəzən də xoşlanır. Onun aləmində insanın ən gözəl, ən sevincli dövrü qalsız-qadasız uşaqlığıyla bağlıdı. Çünki əziz, mehriban, sən və qəhqəhəli uşaqlıq illəri hər kəs üçün bir dünyadı. Yaşın indiki zirvəsindən geriyə qanrılanda, o illəri təsəvvürdə canlandıranda yaşanan ömür başdan-başa adama boş və mənasız görünərdi. Orta məktəbdə atası Arzuman müəllimdən rus dili





dərsi alan və həmin dilin incəliklərini dərindən mənimsəyən Elton rus klassiklərinin, görkəmli elm və mədəniyyət xadimlərinin əsərlərini, təfəkkürlərinin elmi məhsullarını böyük aludəliklə oxumuş, rus məişət və mədəniyyətinə mükəmməl yiyələnmişdir. O, əvvəllər atasının yoluyla getmək, rus dili müəllimi olmaq arzusunda bulunsa da, sonralar fikrindən dönərək onun dəqiq elmlərə marağı artmışdır. Bunun nəticəsidir ki, Elton elmi-texniki sahəyə üstünlük verərək həmin sahə üzrə mütəxəssis olmağı qərarlaşdırdı. Ailəyə də qəti fikrini bildirdi. Bu fikir ailənin də sevincinə səbəb oldu. Gənc Elton atasının məsləhətini nəzərə alaraq gələcək həyatını elə də qurmağa çalışdı. Nəticədə ilbəil Eltonun qarşısında yeni-yeni perspektivlər açıldı...

## Elm yollarında

Yaranış tarixindən ikili səciyyə daşıyan və minilliklərin arxasından əks-səda verən "Həqiqət" nidası daim insanları düşündürmüş və indi də öz hiss və idrakının təsir gücünü tam mənasıyla qoruyub saxlamaqdadır. Bu sədanın möhtəşəmliyi cəsarətlə demək olar ki, onun (həqiqətin) ikili — elmi və ilahi — dini səciyyəsindədir. Böyük ülamələrə görə, elm idrakın, ilahi-dini isə qəlbin qüdrətiylə öyrənilir. Elm maddi dünyanın gizli xəzinəsidir. İlahi-din isə Allaha etiqaddır. Həqiqətin hər iki səciyyəsi özlüyündə insanın özünü özüylə qarşılaşdırır. Özünü özünə tanıdır. Tanıtdıqca da insanın əlçatmaz, ünyetməz ruhunda, təfəkküründə daha əzəmətli, daha möhtəşəm, daha qüdrətli sirləri açmaq, dünyanın kəşfinə doğru irəliləmək, can atmaq ehtiyacı və ehtirası yaradır. Elmi və ilahi-dini özündə ehtiva eləyən baxışlar həqiqət tülünə bələnir, bir-birindən ayrılmaz olur... Səmavi kitabələrdə deyildiyi kimi, insan böyük hikmətdir... Doğrudur, həqiqətin ikili səciyyəsi haqqında müxtəlif mülahi-

zələr söylənmişdir. Alimlərin bir qrupu sırf materialist, digərləri idealist mövqedə dayanırlar. Üçüncülərsə, bütün fəaliyyətlərində bu iki mövqeyi birləşdirirlər. Məhəmməd-əleyhissəlam deyir: "Bir saat elm öyrənmək altmış illik ibadətdən üstündür", elm də, ilahi-din də Allahın hökmünə tabedir. Bu müqəddəs kəlam elmin qüdrətini təsdiq etməklə onun misilsiz rəhninin təcəssümüdür. Elm də, ilahi-din də insanların xoşbəxtliyi, səadəti, firəvan yaşamı üçündür. Həqiqətin hər iki səciyyəsi intuisiya və inama möhtacdır. Onlar da insanın daxili və xarici duyğularından doğur və idraka qida verir. Elton Məmmədovu tanıyanlar onun barədə düşünəndə gözləri önündə böyük Yaradanını başının üstündə görən, varlığını, şövq və şücaətini canında və ruhunda gəzdirən bir obraz canlanır. Bu alimin həqiqətin ikili səciyyəsi barədə öz mülahizələri vardır. Ona görə, elm Allahın istəyiylə insan tərəfindən toplanmış və məntiqə əsaslanan biliklər sistemidir. Varlığı dərk etməyə yönəlmiş insan fəaliyyəti nəticəsində yaranır. Eltona görə, elm elə mənəvi istehsal sahəsidir ki, insan real həyatdan faktları məqsədyönlü şəkildə seçir və sistemləşdirir; fərziyyələr irəli sürür, onları təcrübədə məntiqi üsullar vasitəsiylə yoxlayır, köhnə nəzəriyyələrə söykənməklə yenilərini ortaya qoyur. Elm dünyanın gələcəyidir. Onsuz təbiət və cəmiyyət qanunlarına müdaxilə eləmək olmaz. İşdi-şayətdi, olarsa, böyük fəlakətlər qopar. Bir sözlə, normal insan fəaliyyətindən söhbət gedə bilməz...

Elmin köməyi olmadan nə insanın indiyə qədər keçdiyi yolu dəyərləndirmək, nə bu günkü inkişafına obyektiv baxış, nə də gələcəyə proqnoz vermək olar...

Sevindirici haldır ki, Elton Məmmədov bir alim kimi tədqiq elədiyi elminin fəlsəfəsini yaradanlardandır. Onun aləmində elmin iki başlıca funksiyası özünü daha qabarıq şəkildə göstərib: birincisi, tədqiq olunan sahənin mahiyyətinə nüfuz edən idrak-təfəkkür funksiyası; ikincisi, praktik-fəaliyyət funksiyası. Yəni





insan və cəmiyyətin dəyişdirici fəaliyytində elmin rolu.

Yaradıcılığa çox erkən başlayan Elton keçdiyi ömür yolunu gözləri önünə gətirərkən həmişə sual verərdi: "Bu illər ərzində keçdiyim ömür yolunu hədərə verməmişəm ki?", "Azdan-çoxdan üzərimə düşən işi görə bilmişəmmi?", "Gördüyüm işlər cəmiyyət tərəfindən necə qarşılandı və necə qəbul olundu?". Mübaliğəsiz demək olar ki, bütün hallarda sualların cavabları müsbətdir. Onun ərsəyə gətirdiyi kitab, monoqrafiya və məqalələri yuxusuz gecələrdə böyük yaradıcı zəhmətin, səmərəli fəaliyyətin nəticəsidir. Bu əsərlər neft məhsullarının keyfiyyət dərəcələrinin müəyyənləşdirilməsinə və bu məhsullardan xalqın necə istifadə etməsi problemlərinə həsr edilmişdir. Onun yaratdıqları, gərgin düşüncələri, alim ömrü, eridusiyası barədə düşünəndə fərəhlənməmək olmur... Adi insan ömrünün əzəmətinə iftixar hissi keçirirsən.

Əməyi, geniş aspektli elmi fəaliyyəti, insani münasibətləri Eltonu ölkə daxilində və xaricində tanıtmağa imkan vermişdir. Azərbaycan elmini dünyanın bir çox ölkələrində tanıdan, təbliğ edən ideyalarından bəhərlənən bu alimlə həmkarları daim hesablaşırlar. Bir-birləriylə fikir mübadilələri aparırlar. Tədqiqatlarının nəticələrindən istifadə edirlər. O, Tomsk, Sank-Peterburq, Moskva, Kiyev, Alma-Atı, Daşkənd şəhərlərində Azərbaycan elminin nailiyyətlərini yüksək səviyyədə alim həmkarlarına çatdırmağa müvəffəq olmuşdur.

Müxtəlif ölkələrdə təşkil olunan elmi simpoziumlarda, elmi-praktik konfranslarda söylənmiş fikirlər qızğın ehtiraslardan kənar, soyuq başla, dərin məntiqlə, xüsusi bir yaradıcılıq üslubuyla həmişə seçilir, hər dəfə də alimə haqq qazandıraraq şöhrət gətirirdi. Onun irəli sürdüyü orijinal ideyalar heç vaxt düşünülməmiş fikirlər və uydurulmuş konsepsiya deyildir. O, real faktlardan, təcrübələrdən, laborator sistemlərdə dönə-dönə sınaqlardan çıxan, eksperimentdən doğan təəssüratlar və qənaətlər əsa-

sında söylənmiş mülahizələr və mükəmməl nəticələrdir. Şübhəsiz ki, alınan ideyalar gənc tədqiqatçıların da elm yoluna işıq saçasıdı.

Daim öz üzərində çalışan Elton Məmmədov həm də elmi dünyagörüşünün formalaşması qayğısına qalmışdır. Həyat ona təqdim olunan müşahidə predmeti, öyrənmə, araşdırma obyekti funksiyası daşımışdır. Yaranmış şərait, ətraf mühit, özünə olunan müsbət və mənfi təsirlər, əzmkarlıq qabiliyyəti, hadisələrə, vaqilərə nüfuz etmə bacarığı, eşidib-gördüklərini təhlil orbitinə çıxarma... qabiliyyəti... nələr, nələr onun daxili aləmini zənginləşdirmiş, əxalqi-mənəvi ruhunun təmizlənməsinə və təkmilləşməsinə öz əvəzsiz töhfəsini vermişdir. O, adi məişətdə də, rəsmi tədbirdə (siyasi, ictimai, elmi, mədəni yığıncaqlarda...) də etik norma və təbiiliyi yüksək səviyyədə gözləyir. Harda olmasından asılı olmayaraq, hər şeyə alim, yetkin insan, həssas müşahidəçi... gözləriylə baxmağı bacarır. Ulu öndərin təbirincə desək, "Burada başlıca cəhət alimlərdə şəxsi məsuliyyət hissinin formalaşdırılmasının vacibliyidir. Cəmiyyətdə və hər bir alimdə elmi problematikanın həllinin və alınan nəticələrin bəşəriyyətə ziyanı və xeyri baxımından nə verəcəyinə görə məsuliyyət hissi əsas keyfiyyət hesab olunmalıdır".

Elton Məmmədovun elmi fəaliyyətinin tərkib hissəsi nədən ibarətdir? O, nəyi tədqiq etmişdir? Bu sualların dolğun cavabı məşğul olduğu elmin, tədqiqat sahəsinin mahiyyətini açıqlamasıyla, fundamental nəzəri problemlərin həllinə girişməsi, onların nəzəri və təcrübi məsələlərinin şərhi ilə bilavasitə əlaqədardır. — Tədqiqatda qarşıya qoyduğu məsələlər hansı sahələrdə, hansı sferada və hansı dərinlikdə işə həsr olunur? — sualı daim Eltonu düşündürür. Onun fikrincə, tədqiqatlarını yalnız texniki nailiyyətlər baxımından dəyərləndirmək düz olmazdı. Onun gəldiyi nəticələrdən bir çox fundamental elmlərin araşdırılmasında, onların nəzəri və praktik sahələrinin formalaşdırılmasın-





da da istifadə oluna bilər. Bu bir həqiqətdir ki, alimlər problemə eyni cürə yanaşmırlar və eyni cürə fikirləşmirlər. Əslində bu, çox təbii prosesdi. Plagiatdan, biri digərini təqlid eləmək mövqeyindən uzaqlaşmaqdı. Eltonun tədqiqatlarının fərqli cəhəti odur ki, orda konseptual yanaşma mövcuddur. Açıq etiraf olunmalıdır ki, bu cəhət alimin yaradıcılığının başlıca və ümdə xüsusiyyətidir. Elmdə novatorluqdur. Bu rasional varlığın modelini, quruluşunu, qeyd-şərtsiz həqiqəti axtarmağa yönələn yeganə cəhdi. Çoxluqlar içərisində zəruri və özünə lazım olanı axtarıb tapmaq yanaşmasıdı. Təcrübə sübut eləyir ki, gerçəkliyin və ictimai praktikanın keyfiyyət müxtəlifliyi eyni zamanda elmi biliyin müxtəlif sahələrini müəyyənləşdirir. Bu sahələrdən birincisi neft məhsullarının fiziki-kimyəvi xassələri probleminin aşkarlanması, ikincisi isə maye yanacaqlarının istilik xassələrinin tədqiqidir. Həmçinin introskopiyanın istilik üsul və vasitələri, lay sularının təmizlənməsində metal nanohissəciklərinin təsirinin üzə çıxarılması bir zərurət kimi qarşıda dayanır. Bu sahələr şübhəsiz ki, bir-biriylə üzvi şəkildə bağlıdır.

Bu gün elmi-texniki tərəqqinin bir hissəsini də bu işlər təşkil edir. Elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələri Elton Məmmədovun fundamental tədqiqatlarında əsaslandırılmışdı. Hazırda bu uzaq görən alim öz ideyasını davam etdirməkdədir. Bu gün respublikamızda nəhəng ölçüdə və böyük sürətlə baş verən elmi-texniki tərəqqinin nəticələri təkcə neft sahəsində yox, həyatın bütün sahələrində və insan fəaliyyətinin bütün sferalarında hiss olunacaq dərəcədə özünü büruzə verməkdədir.

İnsanlar müxtəlif xarakterə malikdirlər. Elələri var ki, onlar bu dünyaya ancaq xeyirxahlıq üçün gəlirlər. Elm həqiqət axtarmaqdır, bu isə öz-özlüyündə xeyirxahlıqdır. Deməк, Elton müəllimdə iki xeyirxahlıq əlaməti özünə yer alıb, birincisi, insani xeyirxahlıq, ikincisi isə elmə xidmət xeyirxahlığı. Bəşər övladında hər iki xeyirxahlıq birləşəndə insan midrikləşir, əxlaqi

dəyərlərə yiyələnir. Bu xeyirxahlıqlar Elton müəllimin cəmiyyətin elmi-mədəni həyatında yerini müəyyənləşdirir. Odur ki, bu xeyirxahlıqlar çərçivəsində Elton müəllim daim elmi düzgünlük, elmi obyektivlik tələbi ilə çıxış edir. O, yaxşı bilir ki, əks halda, dəyər münasibəti elmdə mənfi emosiya yarada bilər; elmə zidd müddəaların meydana gəlməsinə şərait yaradar. Bu baxımdan onun çoxplanlı tədqiqatları göstərir ki, o, elmi-etik norma kimi həmişə həqiqəti müdafiə etməyə çalışır və buna tam müvəffəqiyyətlə nail olur.

İndiki zamanda alimin sosial məsuliyyəti elm və texnikanın dünya nizamının dərin, fundamental (təmiz) fiziki, kimyəvi və s. laylarına nüfuz etməsi ilə bağlıdır. Bu bağlılıq gün-gündən ölçülməz dərəcədə artır. Bu sahələrin qeyd edilən zəruri problemləri ilə məşğul olan Elton Məmmədov heç də ehtiyatsız, naşı addım atmır. O, yaxşı bilir ki, ehtiyatsız iş həm elm, həm də insanlar üçün həddən artıq təhlükəli ola bilər.

Bu cəmiyyətdə hər kəsin öz adı, öz şəxsiyyəti var. Elton müəllimin də öz adı, öz şəxsiyyəti, öz ləyaqəti var. O, hamıyla ləyaqətlə davranır və şəxsiyyətini qorumağı bacarır.

Təsvir obyekti kimi, Elton müəllimin portretinin önəmli, daha gözəl cizgiləri var. Bu alimin əsrarəngiz insani keyfiyyətləri, yüksək elmi potensialı, təkrarolunmaz elmi təşkilatçılığı, doğma vətəninə, torpağına xalqına, millətinə bağlılıq dərəcəsi yüksək insani münasibətlərindən doğur. O, ağıl və dərin təfəkkür yiyəsidir. Elmin təəssübkeşidir. Müşahidələr göstərir ki, Elton müəllim çalışdığı müəssisələrdə öhdəsinə götürdüyü bütün tapşırığı və vəzifələri ilhamla, həvəslə yerinə yetirən zəhmətsevər bir alim, xalqına bağlı ziyalıdır.

Qarşıma qoyduğum məqsəd Elton Məmmədovun keçdiyi keşməkeşli həyat yoluna nəzər salmaq və onun bir insan, bir alim, bir ictimai xadim kimi böyüklüyünü dəyərli oxucuların diqqətinə çatdırmaqdır.





Onun böyüklüyü, bir çoxları kimi üzərinə düşən missiyası mənsub olduğu xalqın neft sərvətinin özünəməxsus xassələrini, üstünlüklərini mükəmməl araşdırmaqdan ibarətdir.

Azərbaycan neft sənayesinin öyrənilməsinin inkişafında o, xüsusi xidmətlər göstərmiş, ən mürəkkəb problemlərin açılmasında önəmli rol oynamışdır. Fəaliyyəti dövründə o — neft kapitalını insan kapitalına çeviririk - ideyasını rəhbər tutmuşdur. Sözsüz ki, ölkənin inkişafı intellektual inkişafla bağlıdır. Elton müəllim də bir intellektual şəxsiyyət kimi bu ideyanı əzmlə yerinə yetirir, neft kapitalını insan kapitalının bir hissəsi sayır.

Elton müəllim hələ gənclik illərindən öz böyük amalı və əməlləri ilə kimliyini sübut edib. Elm tarixinə cəsarətlə deyərdim ki, adını yazıb. Elmdə gəldiyi nəticələr mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib. Gələcək nəsillər ondan bəhrələnə biləcəklər...

Eltonun özünəməxsus davranış və danışıq tərzi, milli mənlik hissi vardır. İnsanı razı salan onda dərin biliklərlə yanaşı, zərrə qədər eqoizm hissinin olmamasıdı.

Həm insan kimi, həm Azərbaycan cəmiyyətinin ləyaqətli üzvü, həm alim, həm də ziyalı kimi o, özünəməxsusdur. Başa düşürəm ki, Elton müəllimin çoxşaxəli elmi, pedaqoji, ictimai və s. fəaliyyətini təhlil etmək, onun şəxsiyyətinin mühüm cizgilərini olduğu kimi üzə çıxarmaq insandan böyük məsuliyyət və xüsusi qabiliyyət tələb edir. Onu da deyim ki, Eltonun haqqında sığallı sözə ehtiyac yoxdur. Aqillərin bir fikri yadıma düşdü: "Mən böyük ağıl qarşısında baş əyirəm, böyük ürək qarşısında diz çökürəm". Elton müəllim, həqiqətən həm böyük ağıl, həm də geniş ürək, kövrək qəlb sahibidir. Azərbaycan Texniki Universitetinin bir tələbəsindən onun necə müəllim olmasını soruşanda belə dedi: "Biz Elton müəllimə çox şey borcluyuq. İndiyə kimi qazandıqlarımız arasında nəyi sadalasam, onda Elton müəllimin də payı var".

## Dərin intellekt sahibi

Elm və təhsil, səhiyyə və mədəniyyət, din və islam… İnsan amilinin, onun intellektual inkişafının təminatçısıdır. Onlarsız bəşəriyyət tarixinin öyrənilməsi, mahiyyətinin dərk olunması əlçatmaz və mümkünsüzdür. O keyfiyyətlərə yiyələnmədən savadsızlar diyarında insanın normal yaşamından, onun intellektual inkişafından danışmaq əbəsdir. Köhnə, burjua imperiyasının buxovundan canını qurtaran xalq özünü və eləcə də bəşəriyyətin əldə elədiyi mənəvi-əxlaqi dəyərlərə arxalanaraq yeni məzmunlu intellek səviyyəsini qaldırmaq üçün fəaliyyətinə maneyə yarada bilən hər cür çərçivəni qırıb dağıtmağa nail oldu. Dünyaya açılan pəncərə xalqın görmə üfüqlərini genişləndirirdi. İnsanların gözləri önündə əlvan mənzərələr canlandırdı. Dünyaya baxış bucağı genişləndickə insanların təmas nöqtələri də çoxaldı. Əlaqələr genişləndi. Bu əlaqələr ölkəmizdə elmin, təhsilin, mədəniyyətin… inkişafına geniş imkanlar açdı. Ölkəyə yeni komputer, informasiya və komunikasiya texnologiyalarının axını başlandı. Tətbiqi (riyaziyyat, fizika, neft kimyası, giyalogiya və biologiyanın…) və humanitar (tarix, ədəbiyyat, dil, iqtisadiyyat, hüquq) sahələri üzrə yaranan elmi məktəblərin inkişafına hüquqi dövlətin möhkəmlənməsinə təkan verildi. Xalqın mədəni səviyyəsi, incəsənət sahəsindəki fəaliyyəti yüksəldi. Bütün bunlar alim Məmmədovun ümumi hazırlığına, onun mənəvi aləminin formalaşmasına təsir göstərməyə bilməzdi. Cəsarətlə demək olar ki, barəsində bəhs olunan qəhrəman dərin intellekt sahibidir. O, hər şeyə bəşəri mövqedən yanaşmağa çalışır. Dərin müşahidəçilik qabiliyyəti ona imkan verir ki, həyatda hamının diqqətini cəlb eləyənləri deyil, eyni zamanda görünməyənləri də sezməyə qabildir. Bu bacarığı onu əşya və hadisələrin mahiyyətinə nüfuz etməyə, ilk dəfə gördüyü insanı dəqiq və dürüst xa-





rakterizə eləməyə imkanlar açır, əsas verir. Çox zaman da ehtimallarında yanılmır. Faktlar sübut edir ki, o, elm aləmində yüksək mövqe qazana bilmişdir. Onda çoxlarından fərqli bir üstünlük də var: elmi yeniliyi vaxtında görüb qiymətləndirmək bacarığı. Ruhən elmə bağlı olan Elton Məmmədov hələ gənclik illərindən çətinliklərdən qorxmazdı. Qorxanlara da yaxşı baxmazdı. Eltonda gənclikdən gəlmə bir çox cəhətlər də özünü göstərməkdəydi: istiqanlılıq; deyiləni tez tutma bacarığı; görmə və eşitmə analizatorlarının itiliyi; hadisələrdən tez başçıxarma; çevik və cəld münasibət; soyuqqanlılıqla yanaşı, bəzən coşqunluq; liderlik; əliaçıqlıq. Bunları xeyli uzatmaq olar. Ən böyük arzusu alim olmaqıydı. Onu da bilirdi ki, böyük alim adını qazanmaq asan iş deyil və əziyyət tələb edir, bəzən isə nələri qurban vermək lazım gəlir. Əlbəttə, belə bir yolu təkbaşına qət etmək həm çətin, həm də darıxdırıcı olardı... Onunsa köməyi yoxıydı. O, arzusuna əzmkarlıqla çatmalıydı. O, gənclik illərindən gələn zəhmətə qatlaşan, səxavətli, dürüst adamdır. Bu baxımdan ömür dediyimiz yalnız yaşanmış illərin kəmiyyəti ilə ölçülmür, həmin illər ərzində görülən işlərin siqlətin, arzuların, diləklərin əks-sədasını, harayını da yaradır. Bu səda, haray ömrümüzü, günümüzü işıqlandırır, dünənimizi bu günə, bu günümüzü sabaha istiqamətləndirir, zaman adlı bir karvanın ləngərli ahənginə qovuşaraq uzaq bir yolun yolçusuna çevirir insanları... Ömrü illərlə deyil, ömürlə illəri ölçmək lazımdır... Üzü ümidə sarı addımlayan bu yolun hansı dayanacağındasa ayaq saxlayaraq uzaq, həm də yaxın görünən o illərə nəzər saldıqda, ömrün sətir-sətir, vərəq-vərəq yazılmış xatirələri düşür yada. Və bir də nə vaxtsa eşitdiyin o sədanın, o harayın hənirtisi gəlir qulağına...

Bir həqiqətdir ki, elmi alimlər yaradır, ancaq alimi yaşadan və ona əbədiyyət qazandıran isə elmdir. Elm öz zəka sahiblərinə, aydınlara borclu qalmır. Tam inamla demək olar ki, Elton Məmmədov ağlı, zəkası, iradəsi, inamı, zəhməti və əzmkarlığı

ilə bütün bunlara nail ola bilmişdir.

Nəzakətli rəftara və eləcə də mənəvi-psixoloji-əxlaqi dəyərlərə üstünlük verən və onları daim yaşam devzinə çevirən Məmmədov həyatın bütün sahələrinin inkişafına özünün fəal təsir mövqeyini göstərməyə çalışır və ona da müvəffəqiyyətlə nail olur. Siyasi şüurunu yüksəltmək naminə həmişə öz üzərində çalışır. Elmi dünyagörüşünü formalaşdırma cəhdləriylə yanaşı, ailə-məişət münasibətlərinin sağlamlığına və saflığına önəm verir, təcrübə və biliyini zənginləşdirməyi başlıca ideyasının qayəsinə çevirir. O yaxşı başa düşür ki, həyat mövqeyi insanın içində yaşadığı cəmiyyətdəki yeri və rolunu müəyyənləşdirir. Bunsuz insani münasibətlər şəbəkəsində siyasi şüurluluq, vətənə, xalqa, millətə… sədaqət mümkün deyil. İdeya, mənəvi düşüncə və keyfiyyətlər insanlıq sərvətlərinə yiyələndikcə daha mükəmməlləşir və həyatı zərurətə çevrilir. Müasir şərait hər bir insandan elmə yiyələnmək, öyrəndiyini təcrübəyə tətbiq etmək bacarığı formalaşdırmaqla onlarda sosial-iqtisadi və ideya-əxlaqi-mənəvi-psixoloji keyfiyyətlərə kompleks şəkildə yiyələnməyi təmin edir. O, əldə elədiyi bilikləri, qazandığı təcrübəni özündə yığıb saxlayanlara, xalqın əmlakına çevirmək istəməyənlərə yaxşı baxmır, elənçikləri kəskin qınaq obyektinə çevirir və başa salmağa çalışır ki, xalqdan, millətdən, ümumən insandan əxs olunan hər şey içərisində yaşadığı cəmiyyətindir, vətənindir. O, gec-tez sahibinə qaytarılmalıdır… Elm, mədəniyyət bəşəri sərvətdir. Başlanğıcını ulu tarixdən götürən bu sərvətlər tarixlər boyu cilalana-cilalana gəlib bu günkü kristiallaşmış səviyyəsinə çatmışdır. Bundan sonra bəşər durduqca o da duracaq və büllurlanacaq… Eltonun özünəməxsus xarakteri cizgiləri vardır. O, tez-tez böyük uzaqgörənliklə deyir: "elm həqiqət, həqiqətsə elmdir. Elmdən böyük xeyirxahlıq yoxdur. Ona görə də bu yolun nailiyyətləri düzgünlükdən, dəqiqlikdən, obyektivlikdən, qərəzsizlikdən və məntiqdən keçir. Bunun əksi ən azından elmin etik normasını pozmaqdır. Belə olanda səhv müddəalar, yanlış təsəvvürlər, saxta mülahizələr ortaya çıxar". Heç şübhəsiz ki, belə olmasaydı Elton Məmmədov böyük əhəmiyyəti olan ideyalarının həyata tətbiqinə girişməzdi.





Gərgin, hədsiz zəhmət tələb eləyən ümid və inamına güvənərək axtarışlara atılan Elton elmdə özünün fərəh doğuran ixtiralarını ortaya qoydu. O, yuxusuz gecələri sayəsində istilik texnikası və neft sənayesində görkəmli mütəxəssis kimi yetişdi. Məmmədov Azərbaycan neft sənayesinin inkişafında yüksək xidmət göstərən, ən mürəkkəb problemlərin həllində öz sözünü deyən geniş spektrli, tələbkar alimdir. O, neft kapitalının insan kapitalına necə çevrilməsində ilk sözünü deyən və çoxsahəli yaradıcılıq axtarışları olan siyasi xadimdir.

Elton analitik təfəkkürə, fenomenal yaddaşa malikdir. Səbrli və uzaqgörəndir. Diqqətli və nəzakətlidir. Cəsarətlidir. Çətin məqamlardan çıxış nöqtəsi tapmağı bacaran insandır. Bu adamın elmdən siyasətə yol alması bəlkə də elmi idiologiya ilə bağlıdır.

Elton Arzuman oğlu Məmmədovun ömür yolu da beləcə, o sədayla, o harayla başlanıb. Maye yanacaqların istilik-fiziki xassələrini, istilik-fiziki hadisələri, istilik sıralanmasının növlərini, şualanma mənbələrini və qəbuledicilərini, lay sularının təmizlənməsinə metal nanohissəciklərin təsirini, həmçinin də parafinli neftlərin və neft məhsullarının fiziki-kimyəvi xassələrinə nanohissəciklərin təsirini və s.-ni aramağa, araşdırmağa çağırıb bu səda, bu haray onu. Aradıqca, tədqiq etdikcə, müxtəlif xassələrin təsir dairəsini üzə çıxardıqca, sehirli bir aləmə qovuşub. Axtardıqca texniki, fiziki qanunların xarüqələr yaratdığı onu heyrətə gətirib, düşündürüb, düşündükcə xəyal onu texnikanın, fizika, kimya elmlərinin qanun və qanunauyğunluqlarını öyrənməyə yönəldib.

Qeyd etmək lazımdır ki, Elton Məmmədovun tədqiq etdiyi sahə qlobal səviyyəsi ilə seçilir. Belə ki, müasir dövrdə dünya-

nın qlobal məsələlərindən ən vacibi enerji resurslarından düzgün istifadə etmək yollarının öyrənilməsidir.

İqtisadiyyatda və sosial sahədə yalnız dövlətin aparıcı rol oynaması vətəndaşların ümumi rifahını istənilən qədər təmin edə bilməz və yaxud, əksinə, sosiallaşmanın artması dövlətin rolunun ixtisar olunması ilə avtomatik surətdə baş vermir.

Bir sözlə, dünya yalnız liberal demokratiya zəminində birləşməlidir. Qlobal problemlər eyni zamanda bu və ya digər şəkildə hər bir insanın, hər bir sosial qrupun mənafeyinə də toxunur. Onlar indi yaşayan insanların, həm də gələcək nəsillərin taleyinə təsir göstərir və mahiyyətcə gələcəkdə insanların və bütün bəşəriyyətin həm maddi, həm də mənəvi sahəsində hələ mövcud olacaq problemlərdir.

Elton Məmmədov qloballaşma dedikdə, beynəlxalq aləmdə baş verən bir sıra mühüm sosial-siyasi və iqtisadi prosesləri nəzərdə tutur: iqtisadiyyatın beynəlmiləlləşməsini, dünyada vahid rabitə sisteminin formalaşmasını, milli dövlətin funksiyasının dəyişməsi və zəifləməsini, transmilli qeyri-dövlət təşkilatlarının, o cümlədən etnik diasporanın, dini hərəkatların, mafioz qrupların fəaliyyətinin güclənməsini.

Qeyd edək ki, üçüncü minilliyə qədəm qoyan bəşəriyyət demək olar ki, hər yüzillikdə müəyyən nailiyyətlər əldə etmişdir. Bu baxımdan XX yüzilliyin ən mühüm cəhəti qloballaşmadır. Qloballaşma eyni vaxtda həm dövlətlərarası, həm də transmilli formalarda inkişaf edən ikili prosesdir.

Elton Məmmədov qlobal poblemlərin bütün dünyanı narahat etdiyini deyir. Onu da deyir ki, insanların qlobal ümumbəşəri səviyyədə bir-biri qarşısında məsuliyyət zərurəti zamanın, həyatın özünün, mürəkkəb çağdaş problemlərin tələbidir. İndiki dünyada qlobal problemlərin meydana gəlməsi və kəskinləşməsi — dəyərləri və ictimai inkişafın məqsədlərini yenidən qiymətləndirməyi irəli sürür.





Müasir texnoloji inqilab şəraitində qloballaşma tamamilə yeni məzmun kəsb etmişdir. Bu prosesdə həlledici rolu informasiyanın işlənib hazırlanması, yazılması və ötürülməsinin rəqəm üsulu oynadı... İnformasiya axını deyəsən nizamını itirmək üzrədir.

Elton müəllimin bu fikirlərinin inanılası olub-olmamasını demək çətindir, həqiqətən də həddən artıq informasiya axınının nəzarətdən çıxma qorxusu yaranıb. "Əsrin müqavilələri" haqqındakı informasiyalar da bütün dünyanı dolaşır.

"Əsrin müqaviləsi" ilə Azərbaycanda neft strategiyasının təməli qoyulmuş və bir çox uğurlu neft müqavilələri, xüsusilə də "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri haqqında sazişin imzalanması və həyata keçirilməsi alimlər — elmi mütəxəssislər qarşısında da ümdə vəzifələr qoydu və onlar qloballaşma şəraitinə uyğun tədqiqat əsərləri yazmağa başladılar. Müəyyən qanunauyğunluqlar, özəlliklər ilə müşayiət edilən bu proseslər dünya ictimaiyyətinin, elminin diqqəti qarşısındadır. Elmin qloballaşmasından danışan R.Skott cəmiyyətin bu vacib sahəsinə müxtəlif cür təsir göstərməsi qərarına gəlir və göstərir ki, "...qloballaşma ətraf mühitin qlobal dəyişiklərinin toplusu kimi qiymətləndirilə bilər və o, milli ənənələrin qarışdırılması, hibrid dünya mədəniyyətinin yaranmasıdır" (Scott R. The Globalization of Higher Education. The Society for Research into Higher Education and Open University Press, 1998, s. 27).

Azərbaycanda da bu dəyişmə, qloballaşan şərait köhnə neft sektorunun yenisi ilə əvəzlənməsi prosesində meydana çıxdı. Gerçəkliyə çevrilən və respublikanın neft ixracı potensialında başlıca yer tutan Əsas İxrac Boru Kəmərinin istifadəyə verilməsi və neftin son nöqtə kimi Ceyhan terminalına çatdırılması mühüm iqtisadi və siyasi önəm kəsb edən hadisə olmaqla, neft strategiyasının qələbəsi kimi dəyərləndirildi. Bu informasiya dünyaya yayıldı.

Bu gün artıq Elton Məmmədov respublikamızda, həmçinin də onun hüdudlarından kənarda tanınan, seçilən, dəyərləndirilən, neft elmi sahəsində çalışan görkəmli alimlərdən biridir. O, göstərilən və təhlilə cəlb edəcəyimiz sahələrin araşdırılmasında çoxcəhətli və səmərəli fəaliyyət göstərir. Elton müəllimin texniki elmlərin, neft elminin aktual problemlərinə həsr olunmuş araşdırmaları öz orijinallığı, elmi dəyəri ilə seçildiyi kimi, fiziki qanunları, qanunauyğunluqları, fakt və hadisələri yüksək elmi-nəzəri səviyyədən dəyərləndirmək qabiliyyətinə, bacarığına malik bir tədqiqatçının yaradıcılıq axtarışlarının bəhrəsi kimi də nəzəri çəkməkdədir.

## Uğurlu tədqiqatlar

Ölkədə aparılan fundamental tədqiqatlar xalqın mədəni və mənəvi təşəkkülündə və içtimaidə olan akademik elmin nüfuzunu qaldırır və onu inkişafın təminatçısına çevirildiyini təsdiqləyir. Müasir şəraitdə fundamental elmi biliklər yanacaq-enerji komplekslərinin, neft-kimya sənayesinin inkişafına öz töhvələrini verir. İqtisadiyyatın inkişafı, onun iqtisadi təhlükəsizliyi, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, ictimai-siyasi problemlərinin, insan hüquqlarının araşdırılması BMT, Avropa Şurası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və bir sıra qrumlarla əlaqələr yaradılması anlamında E.A.Məmmədovun maye yanacaqlarının istilik-fiziki xassələri ilə bağlı araşdırmaları xüsusi aktuallıq kəsb eləyir. Onun bu sahədəki araşdırmaları 2000-ci illərdən başlanır. Məhz 2007-ci ildə Elton müəllim həmin mövzuda namizədlik dissertasiyası müdafiə edərək texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2004-cü ildə Mübariz Hüseynovla müştərək "Maye yanacaqların istilik-fiziki xassələri" (Bakı, 2004, 124 s.) kitabını





nəşr etdirmişlər. Həmin kitabın məziyyətlərindən danışmaq Elton müəllimin zəhmətindən, elmi təcrübəsindən söhbət açmaq deməkdir. Kitab giriş, 4 fəsil və ədəbiyyat siyahısından ibarətdir. Kitabın annotasiyasında oxuyuruq: "Kitabda H.Əliyev adına Bakı Neft Emalı Zavodunun istehsal etdiyi çox işlənən maye yanacaqların dörd növünün sıxlığı və dinamik özlülük əmsalı geniş temperatur və təzyiq intervalında tədqiq edilmişdir".

4 fəsildən və xeyli sayda yarımparaqraflardan ibarət olan bu kitabda yüngül maye yanacaqlarının istilik-fiziki xassələrinin tədqiqinin müasir vəziyyəti (I fəsil), hidrostatik çəki üsulunun maye yanacaqlarının sıxlığının təyininə tətbiqi (II fəsil), maye yanacaqların dinamik özlülük əmsalını təcrübi yolla təyin etmək üçün kapillyar vickozimetr üsulunun təsviri (III fəsil), maye yanacaqların istilik-fiziki xassələrinin tədqiqi (IV fəsil) problemlərinə münasibət bildirilir. Həmin fəsillər çərçivəsində problemin araşdırılmasından öncə benzinin əsas komponentləri, onun hazırlanmasının və istifadəsinin texniki şərtləri haqqında lakonik elmi məlumatla kifayətlənən müəllif müxtəlif tərkibli benzinin əsas texniki şərtlərinə nəzər yertirir. Qlobal miqyaslı və problemlə bağlı dünya təcrübəsinə, özünəqədərki fundamental konsepsiyalara, ideyalara əsaslanır, tutuşdurur, təsnifləndirir, elmi qənaətlərə gələrək özünün mülahisələrini şərh edir. Geniş aspektli araşdırmalarına əsasən avtomobil benzinlərinin texniki şərtlərini göstərən, benzinlərin, eləcə də ən keyfiyyətli benzinlərin fiziki-kimyəvi xassələrini əks etdirən cədvəllər verir.

Elton Məmmədov bu sahədəki elmi-texniki ədəbiyyatı təhlil edərək belə fikrə gəlir ki, çox mürəkkəb tərkibli mayenin — benzinin əsas xüsusiyyətlərindən biri olan sıxlıq ancaq dar temperatur və təzyiq sahəsində məlumdur. Halbuki, benzinin istifadəsi yüksək temperatur və təzyiq intervalında baş verir. Bu zaman belə bir sual meydana çıxır. Görəsən, yüksək temperatur və təzyiqdə bu yanacağın sıxlığına aid məlumat olmadan istər mü-

hərrikin iş rejimi, istərsə də benzinin özündən istifadə necə hesablanır və belə təxmini hesablama nə dərəcədə effektli hesab edilə bilər?

Cavab belədir. Məlumdur ki, yanacağın (benzinin) özlülüyü kifayət qədər olmasa mühərrikin hissələri qızar və sıradan çıxar. Bu vəziyyət isə tələb edir ki, benzinin özlülüyü haqqında ətraflı məlumata malik olmalıyıq. Özlülük sahəsindəki məlumat kiçik ölçülü və iqtisadi cəhətdən faydalı olan mühərrik və avadanlığın yeni, az enerji sərf edən növlərinin layihələndirilməsi işinə xeyli kömək edər.

Elton Məmmədov maraqlı bir məsələ üzərində də dayanır. Nəqliyyatda işlədilən benzinin, eləcə də dizel yanacağının əsas cəhətləri, onların yanma prosesi zamanı mümkün qədər çox istilik törətməsidir. Yanacaqlar, məhz bu cəhətinə görə daim təzələnir, onlara yeni aşqarlar vurulur və istilik törətmə qabiliyyəti artırılır. Bu isə yanacağın istilik tutumu haqqında yeni, dəqiq məlumat tələb edir. Benzin tipli maye yanacaqların isə istilik tutumu haqqında məlumat yoxdur və olduqca azdır. Ona görə də bu sahədə elmi-tədqiqatın gələcəkdə aparılmasının lazım olduğunu Elton müəllim nəzərə çatdırır. Bu da onun apardığı tədqiqatın çox dəyərli və perspektivli olmasından xəbər verir.

Elton müəllimin təcrübi tədqiqatları hidrostatik çəki və kapilyar vickozimetr üsulu ilə aparılmışdır. Bu məqsədlə dörd maye yanacaq üçün dəqiq hal tənliyi tərtib edilmiş və onların vasitəsi ilə bir çox kalorik, termik və akustik kəmiyyətlər təyin edilmişdir.

Müsbət haldır ki, Elton Məmmədovun müəllifi olduğu bu kitabın girişində respublikamızda enerji ehtiyatlarından düzgün istifadə etmənin aktuallığı, funksiyaları, gələcək perspektivləri elmi şəkildə əsaslandırılır, tədqiqatın məqsədi, həyata keçirilməsinin aspektləri vurğulanır. Həmin istiqamət və yollardan birinin haqlı olaraq, neft məhsullarının istilik-fiziki xassələrinin





araşdırılması göstərilir. "Hazırda maddənin maye halının konkret quruluş nəzəriyyəsi olmadığından, bir çox praktik tələbləri ödəmək üçün lazım olan mühüm istilik-fiziki məlumatları nəzəri yolla həll etmək mümkün deyildir. Elə buna görə də praktikada geniş tətbiq olunan bəzi texniki maddələrin (xüsusi ilə mayelərin) istilik-fiziki xassələri haqqında məlumatı indi ancaq təcrübə yolu ilə əldə etmək mümkündür".

Neft amilini tədqiqat prosesində önə çəkən alim bu sərvətin ölkələri bir-birinə yaxınlaşdıran, bağlayan və eləcə də qlobal konfliklərin səbəbi kimi dünya siyasətinə təsir göstərən bir vasitə kimi nəzərə çatdırır.

E.Məmmədovun tədqiqatında maye yanacaqların istehsalı ilə yanaşı, ondan qənaətlə istifadə edilməsi və həmin enerji növü ilə çalışan maşın və aparatların intensiv, səmərəli fəaliyyəti daim diqqətə çəkilmiş və həmin məhsulların istilik-fiziki xassələrinin təcrübə və nəzəri statistika vasitələri ilə araşdırılması və proqnozlaşdırılmasının mühüm iqtisadi səmərə verməsi problemləri qaldırılmışdır.

Onun əsərlərində bir maraqlı məqamla rastlaşırıq ki, keçmiş SSRİ ərazisində olan böyük neft yataqları içərisində ən az araşdırılan Azərbaycan neftidir. Bu neft öz tərkibinə və keyfiyyətinə görə dünyada ən keyfiyyətli neft hesab edilir. Bu fakt Elton müəllimi tədqiqat prosesində daha da ruhlandırmış, Azərbaycan iqtisadiyyatının başlıca sahələrindən biri olan neft sənayesinin gələcəyi üçün əsaslı tədqiqatlar aparmağa sövq etmişdir.

E.Məmmədovun bu əsərində əsas qayə yüngül maye yanacaqlarının istilik-fiziki xassələrinin tədqiqinin müasir durumuna, onlara verilən texniki tələblərə, hidrostatistik çəki üsulunun maye yanacaqların sıxlığının təyininə, onun inkişaf mərhələlərinə, nəzəri əsaslarına, təcrübə qurğusunun təsvirinə yönəlmişdir. Bununla belə, tədqiqatda maye yanacaqların dinamik özlülük əmsalını təcrübi yolla təyin etmək üçün kapillyar vickozimetr

üsulunun təsvirinə, maye yanacaqların entalpiyasının dəyişməsinin və izobar istilik tutumunun təyininə və s. kimi problemlər geniş aspektdən elmi dəlillərlə önə çəkilmişdir.

E.Məmmədovun sözügedən problemin təcrübi tədqiqi sahəsində apardığı araşdırmalar sübut edir ki, neft məhsullarının istilik-fiziki xüsusiyyətlərinin araşdırılması geniş, çoxplanlı nüfuzetmələr və axtarışlar tələb edir. Bu tələb nəticəsində alim Azərbaycan neftininin sözügedən xassələrini dərindən öyrənir. Bu, onun elm qarşısında ən əlamətdar, xüsusi qeyd ediləsi xidmətlərindəndir.

Maye yanacaqların istilik-fiziki xassələrinin araşdırılmasına həsr edilmiş əsərlərin də təhlili sübut edir ki, müxtəlif regionların xam neftindən alınan benzin fraksiyalarının istilik-fiziki xassələri bir-birindən kəskin şəkildə seçilir. Bu səbəbdən də çağdaş zamanda benzin fraksiyalarının istilik-fiziki xassələrinin praktik tədqiqi öz aktuallığını qoruyub saxlaya bilmişdir. Bunları nəzərə alan müəllif belə bir qərara gəlmişdir ki, Bakı Neft Emalı Zavodunun istehsal etdiyi çox işlənən maye yanacaqlarının 4 növünün (Benzin A-80, A-93, A-95 və dizel yanacığı) sıxlığını, dinamik özlülük və istilikkeçirmə əmsallarını geniş temperatur və təzyiq aralığında praktik istiqamətdə araşdırsın. Müəllif məqsədinə müvəffəqiyyətlə və uzaqgörənliyiylə nail olaraq belə bir fikrə gəlir ki, maye yanacaqlar mürəkkəb maye sistemləri olduğundan onları fərdi mayelər kimi təsvir etmək mümkün deyil. Onların tərkibi aydın olmadığından bunlara mexaniki qarışıqlar kimi də yanaşmaq düzgün deyil. Odur ki, maye yanacaqlar bu mənada xüsusi yanaşma üsulu tələb edir ki, onun əsasında alınan təcrübi nəticələri təhlil və ümumiləşdirmək mümkün olsun.

Elton Məmmədovun maye yanacaqlarının sıxlığı və dinamik özlülük əmsalı barədə əldə etdiyi, üzə çıxardığı təcrübi nəticələr də göstərir ki, onların sözügedən xassələri fərdi mayelərin və onların qarışıqlarının əlamət və xüsusiyyətlərinə daha çox





bənzəyir. Müəllif buna əsaslanaraq təcrübədə tədqiq etdiyi maye yanacaqlar üçün maraqlı və dəqiq ödənilən iki termik hal tənliyi və dinamik özlülük əmsalını geniş temperatur və təzyiq aralığında hesablamaq üçün emprik ifadə tərtib etmişdir.

O, tərtib etdiyi hal tənliyindən yararlanaraq, maye yanacaqlar üçün entalpiyanın dəyişməsini müəyyənləşdirmiş, oradan da izobar istilik tutumunu ətraflı temperatur və təzyiq sahəsində təyin edə bilmişdir. Statistik hesablama metodu burada müəllifə çox yardım etmişdir.

Elton Məmmədov Bakı Neft Emalı Zavodunun istehsal etdiyi satış üçün istifadə olunan maye yanacaqların sıxlığını (benzin A-80, A-93, A-95 və dizel yanacağı) geniş temperatur və təzyiq intervalında təcrübi yolla təyin etmişdir. O, bu zaman hidrostatik çəki üsulunun son variantlarından istifadə etməyə müvəffəq olmuşdur. Ölçmələr izotermalar üzrə (3000-500) K temperatur intervalında təzyiqin 5 qiymətində (0, 1; 5; 10; 20; 30 Mra) aparılmışdır.

Elton müəllimin özündən əvvəlki tədqiqatlara hörməti və etirafları da xüsusi olaraq qiymətləndirilməlidir. Məsələn, o, yazır ki, ədəbiyyatda bizim tədqiq etdiyimiz maye yanacaqların sıxlığı haqqında heç bir məlumat olmadığından biz alınan nəticələri ədəbiyyat nəticələri ilə müqayisə edə bilməmişik (s.32).

Elton müəllim maye yanacaqların dinamik özlülük əmsalını təyin etmək üçün kapillyar vickozimetr üsulunun təsvirindən istifadə edir. Bu metodun ilk dəfə Qolubev və Petrov tərəfindən tətbiqini göstərir. Puazeyl qanununa əsaslanan həmin metodun iş prinsipini müəyyənləşdirir, onların həndəsi ölçüləri barədə cədvəllər vasitəsi ilə informasiyanı dərinləşdirir. "Hesablama düsturunun müəyyən edilməsində irəli sürülən əsas şərtlərdən biri axının laminar olmasıdır. Silindrik borularda laminarlıq Reynolds kriteriyalarının özünün kritik qiymətindən az olduqda ödənilir. Onda laminar axın üçün Re=2300 şərti ödənilməlidir.

Bizim tədqiqatımızda bu kriteriyanın qiyməti Re=2300 şərtini ödəmişdir (s. 42)". Dəlillər, sübutlar, rəqəmlər, hesablama düsturları Elton müəllimin elmi tədqiqatlarının mühüm tərkib hissələrinə çevrilir, alimin mühakimələrinin həqiqiliyini göstərir.

Araşdırma göstərir ki, Elton müəllimin tədqiqatlarına qədər maye yanacaqların dinamik özlülüyü əmsalının təcrübi təyinində müəyyən xətalara da yol verilmişdir. Bu xətalar da onun tərəfindən təhlil-tərkib olunaraq qiymətləndirilir, xətaların mahiyyəti statistik hesablamalar yolu ilə müəyyənləşdirilir.

Beləliklə, Elton Məmmədovun maye yanacaqların istilik-fiziki xassələri barədəki araşdırmaları, fikrimizcə, zamanın sınağından uğurla çıxmışdır. Həmin əsər həm də istilik texnikası sahəsində çalışan elmi işçilər, doktorantlar, tələbələr, neft mühəndisləri üçün də ən faydalı vəsaitlərdən sayılır.

Elton Məmmədovun elmi araşdırmalarında istilik — fiziki hadisələrin də tədqiqi əhəmiyyətli yerlərdən birini tutur. Bu mövzuda alim həmkarlarının birgə səyi nəticəsində maraqlı bir monoqrafiya (E.A.Məmmədov, E.M.Qocayev, M.A.Hüseynov, T.R.Musayev) 2010-cu ildə çap edilmişdir. "İntroskopiyanın istilik üsul və vasitələri" adlanan bu kitabda, hər şeydən öncə, istilik keçirmənin mexanizmi təhlil edilir. Bu mexanizm çərçivəsində şüalanma, şüaudma və konveksiya kimi bir çox məsələlərə aydınlıq gətirilir. Elton müəllimin ayrı-ayrı faktları ümumiləşdirmək, başlıca əlamətləri ikinci dərəcəli cəhətlərdən ayıra bilmək qabiliyyəti və elmi erudisiyası bu qəbildən olan tədqiqat əsərlərində də özünü bariz şəkildə göstərir. O, bu məsələlərdə ardıcıl, müntəzəm məşğul olduğu üçün qənaətləri dürüst və əhəmiyyətlidir.

Eltonun əsərləri ölkəmizin "qara qızıl" sərvətinin neft məhsullarının keyfiyyətinin müəyyənləşdirilməsi və bu məhsullardan xalqın necə istifadə etməsi barədə düşünəndə alimin zəhmətinin böyük faydası göz önünə gəlir… Bu, inkar olunmaz həqiqətdir ki, həyatda hər bir insan kimliyini özü müəyyənləşdirir. Zəhmətlə istedad birləşəndə sahibinin əzəməti, — hətta, onu istəməyənlər tərəfindən — görünür, etiraf olunur. Cəsarətlə qeyd edilməlidir ki, Eltonun elmi, ictimai-siyasi fəaliyyəti böyük əməksevərliyinin, həyata yetkin baxışlarının, yaşamaq eşqinin bəhrəsidir. Təbii ki, onun başqalarına nümunə ola biləcək nailiyyətləri, şəxsi istedadı, həyatdan topladığı bilik və bacarıqlarının nəticəsidir. Elton təşəbbüskar alim, fədakar ziyalıdır. Bu yaradıcı insanın aləmində sağlam və yetkin düşüncə insanın hərəkətlərini tənzimləyir, fəaliyyət dairəsini genişləndirir, ona istiqamət verir. O bir yaradıcı alim olaraq görəcəyi işləri, həyata keçirəcəyi məsələləri uğur sferasında həll etməyi bacarır.





27 elmi məqalənin, 4 elmi monoqrafiyanın, 1 ixtiranın və 1 ali məktəb dərsliyinin müəllifi olan Elton Məmmədov geniş yaradıcılıq diapazonuna malik tədqiqatçı-pedaqoqlardandır. Bir ali məktəb müəllimi kimi də onun maraq dairəsi genişdir.

Elton müəllim gənc elmi kadrların hazırlanması işində də qüvvə və bacarığını əsirgəməmişdir. Onun yetişdirdiyi çoxsaylı tədqiqatçılar dəstəsi ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda fəaliyyət göstərir, sözügedən sahənin inkişafını müəyyənləşdirir.

Elton müəllimi onu tanıyanlara doğmalaşdıran insani keyfiyyətlər çoxdur. Oxucular, mütəxəssislər onun kitablarını vərəqlədikcə bu keyfiyyətləri ilə də tanış olurlar. Mühitdən-mühitə düşdükcə, vəzifə nərdivanına yüksəldikcə, psixoloji və mənəvi durumlarında cürbəcür dəyişikliklərin baş verdiyi adamlardan Elton Məmmədovu fərqləndirən başlıca cəhət mənəviyyatca, xarakterсə sabit olmağı, hansı məqamda olmağından asılı olmayaraq, sadəliyini, səmimiliyini və təvazökarlığını qoruyub saxlamağıdır.

Elton müəllimə çalışdığı kollektivlərdə və ünsiyyətdə olduğu cəmiyyət üzvləri arasında hörmət və nüfuz qazanması, fəaliyyət

göstərdiyi texniki sahədə tanınmış alim və cəmiyyətdə təbliği gözəl ailə başçısı olması ilə də səciyyələndirmək olar. Bu və ya digər ləyaqətlər onu bir şəxsiyyət kimi ucaldır.

Məlumdur ki, ətrafda baş verənləri, ümumiyyətlə, həyatı hərə bir cür dərk edir. Elton müəllimin həyatı dərketmə tərzi özünəməxsusdur. Onun düşüncəsinə görə, insanın böyüklüyü düşünmək qabiliyyəti ilə hesablanır, ölçülür. İnsanda ilk növbədə düşüncə mədəniyyəti yetərincə formalaşmalıdır. Elton müəllim öncə insanda sağlam düşüncənin olmasının tərəfdarıdır. Sağlam düşüncə həyatın hər tərəfinə-elmə, təhsilə, mədəniyyətə və s. nüfuz edə bilir. Elə düşünüb yaşamaq lazımdır ki, bundan təkcə özün xeyir götürməyəsən. Elton müəllimin düşüncəsinə görə, insana ömür payı ona görə verilmir ki, yalnız özü üçün yaşaya. Ömür həm də onun üçündür ki, başqalarına kömək edəsən, əl uzadasan. Təəssüf ki, çoxları cəmiyyətdə bunu dərk etmək istəmir.

Elton Məmmədov nə qədər bilikli və məlumatlı olsa da, özünü təvazökar göstərməsi onun mənəvi-əxlaqi gözəlliyi, əqidə sağlamlığı sayıla bilər. O, zəngin əxlaq, təmiz mənəviyyat, təmənnasız və xeyirxah... insani keyfiyyətlərlə də xarakterizə edilir.

Elton müəllimdə professional alimə xas olan bütün xüsusiyyətlər toplanıb: yüksək savad, geniş dünyagörüşü, böyük həyat təcrübəsi, onda olan bilik xəzinəsini tələbələrə mənimsətmək bacarığı, nəzakətli davranış... Məhz bu xüsusiyyətlərinə görədir ki, Elton müəlliimin mühazirələrini dinləmiş tələbələr onu unuda bilmir. Müəllim üçün bundan şərəfli, bundan önəmli nə ola bilər?

Elmi-texniki tərəqqi, iqtisadi, sosial-siyasi inkişaf Elton Məmmədovun çalışdığı Texniki Universitetin qarşısında ciddi vəzifələr qoymuşdur. Ən başlıcası, Azərbaycanın başqa ali məktəb ocaqları kimi Texniki Universitet də dünyada gedən proses-





ləri dərk edən, rəqabətə dözümlü olan kadrların hazırlanmasına xüsusi fikir verir.

Xüsusilə, neft sənayesi kadrlarının hazırlığı işinin məsuliyyəti daha böyükdür. Yaxşı neftçi olmaq üçün təkcə elmlərin sirlərini dərindən öyrənmək kifayət etmir, həm də dünya təcrübəsi ilə tanış olmaq, müasir texnologiyalardan istifadə etmək bacarığına yiyələnmək lazım gəlir.

## Alimin pedaqoji fəaliyyəti

Bilik və bacarıqlarını gənc nəslə ötürmək, gənclərin sağlam əqidələrini daha da möhkəmləndirmək, dünyagörüşlərini formalaşdırmaq, mənəviyyatlarını zənginləşdirmək professor Elton Məmmədovun çoxcəhətli işinin, o cümlədən, pedaqoji fəaliyyətinin mühüm istiqamətlərindəndir. O, Azərbaycan Texniki Universitetində mühazirələr oxuyur. Tələbələrə, magistrlərə, doktorantlara Azərbaycanda neftin, onun istehsalı metodları… barədə dünya təcrübəsindən və özünün eksperimental tədqiqatları nəticəsində əldə elədiyi qənaətlərini müxtəlif üsul və vasitələrlə çatdırır. Bunun üçün o, əvvəlcə tələbələrin ümumi-nəzəri hazırlıq səviyyəsini, onların idraki imkanlarını, təfəkkürlərinin çeviklik dərəcəsini, nəyə qadir olduqlarını araşdırıb üzə çıxarır. Hər kəsə fərdi yanaşma əsasında mühazirələrinin elmi yükünü müəyyənləşdirir. Şərh eləyəcəyi fikirlərin məntiqi, anlaşıqlı olmasına çalışır. Onun aləmində hər bir mühazirə, seminar və labarator məşğələdə öyrənənə çatdırılan məsələlər təfəkkür metodlarına — analiz və sintezə əsaslanmalıdır. Onun əqidəsincə, təfəkkürdə yaranan yeni fikir yeni ideya deməkdi. Bunsuz əməl yoxdur. Elmdə hər hansı yeni ideyanın, texnoloji sistemin öyrənənə ötürülməsi müxtəlif situasiyalarda mahiyyətdən doğan rəngarəng priyomlarla yönəldilməlidir və bu əsasa is-

tinad edilən təfəkkür daha gərgin, daha dərin səmərəli fəaliyyətə cəlb olunmalıdır. Belə olan təqdirdə şübhəsiz ki, yeni elmi nailiyyətlərin mənimsənilməsinə əlverişli şərait yaranır. Təfəkkür aktı yeni texnoloji biliklərin əldə edilməsinə gətirib çıxarırsa, alınan texnoloji biliklər də öz növbəsində təfəkkürün istinad mənbəyinə çevrilir. Dünya pedaqoji-psixoloji təcrübəsinə mükəmməl yiyələnən və fəaliyyətində ona əsaslanan professor bilik və bacarıqların ötürülməsində bu konsepsiyaya əsaslanır.

Vətəndaş təəssübkeşliyi Elton müəllimin pedaqoji fəaliyyətinin ayrılmaz bir hissəsini təşkil edir.

E.Məmmədovun tələbələrinin, onun pedaqoq həmkarlarının dilindən söylənmiş məlumatlar əsasında demək olar ki, o, bu sahədə də öz dəst-xətti ilə seçilən, dərin pedaqoji üsullar, metodlar sisteminə yiyələnmiş bir müəllim kimi tanınır.

Elton müəllimin tələbələri ilə dostluğu məndən ötrü yeni bir aləm idi. O, tələbələrinə qayğı göstərir, dərdi-sərlərini öyrənir, çətinliklərinin aradan qaldırılmasında köməkçilərinə çevrilir...

Elton müəllim təbiətindən süzülən işıqla, Allahın bəxş elədiyi mərhəmət və qayğıyla, rəhmdilliliklə onun tanıyanların qəlbində özünə yer tutmağı bacarır.

Müəllim olmaq asan deyil. Müəllim olmaq yalnız dörd divar arasında — auditoriyada materialları öyrətmək deyil. Əsl müəllim tələbələrini mükəmməl biliklərə yiyələndirməklə yanaşı, onların əxlaqi-mənəviyatını zənginləşdirmək, hər birini xalqa, millətə, vətənə məhəbbət ruhunda tərbiyə etməkdir. İnsanlara qayğılı münasibət bəsləməkdir.

E.Məmmədovun çoxsahəli elmi-pedaqoji fəaliyyətini bütöv nəzərdən keçirdikdə aydın olur ki, görkəmli alim həmişə axtarışda olmuş, neft strategiyasının hansı sahəsində tədqiqat aparmışsa, orada texniki elmimiz üçün yeni olan, elmi önəm kəsb edən nəticələr əldə etməyə nail olmuşdur.

Fikrimcə, o, daim öz elmində liderlik mövqeyində durmağa





çalışan, həmin mövqeyə layiq olmasını sübut etməyi bacaran bir alim və müəllim. Eltonun elmə, elm adamlarına arqumentli tələbkarlığı həmişə çoxları üçün bir meyara çevrilmişdir. O, bu tələbkarlığı hər zaman həyata keçirmişdir. O, bu tədqiqatları ilə geniş spektrli alim olmasını da sübut etmiş, istedadlı elm adamı kimi özünü tanıda bilmişdir. Elton Məmmədov nəzəriyyə ilə təcrübənin vəhdətini gərəyincə gerçəkləşdirməyi bacarır.

Böyük bir həyat məktəbi keçən Elton müəllimin maraqlı elmi əsərlərindən biri də "Lay sularının təmizlənməsinə metal nanohissəciklərinin təsirinin tədqiqi" (Bakı, 2011) monoqrafiyasıdır.

Bu gün çağdaş dünyanın qlobal problemlərindən başlıcası enerji ehtiyatlarından ekoloji və iqtisadi baxımdan səmərəli istifadə etmək yollarının araşdırılmasıdır. Bu gün dünyada maye yanacaqların istehsalına olan tələbatlar get-gedə artmaqdadır. Yuxarıda qeyd olunduğu kimi, bu cəhətdən neft ölkəsi kimi tanınan respublikamızın enerji resurslarının fiziki-kimyəvi xüsusiyyətlərinin araşdırılması qarşıda ən mühüm bir vəzifə kimi durur. Ayrı-ayrı tədqiqat əsərlərinin təhlili göstərir ki, bu problemin həlli neft məhsullarının və həmçinin onlara aid olan lay sularının istilik-fiziki xassələrini özündə birləşdirən mühitin, şəraitin əlamətlərindən çox asılıdır. Bu asılılığı nəzərdə tutan Elton Məmmədov neft məhsulları ilə lay sularını müqayisəli-təcrübi aspektdə araşdırır və alınan nəticələri istehsal sahələrinə tətbiq edir.

Müəllif tədqiqatını ARDNŞ-də apararaq müəyyənləşdirmişdir ki, "Bibiheybətneft" NQÇİ-nin bir sıra quyularının istismarında rentabellik xeyli aşağı düşmüş və sərf olunan enerjinin dəyəri hasil olunan neftin dəyərindən xeyli artıq olmuşdur. Bu kimi faktlara əsaslanan müəllif monoqrafiyasında nanotəsirdən öncə və sonra sözügedən müxtəlif quyulardan əldə edilmiş rəngarəng tərkibə malik lay sularının fiziki-kimyəvi və reoloji xassələrinin temperatur asıllığını əsaslı şəkildə öyrənə bilmişdir.

Praktik olaraq tərkibi müxtəlif olan lay suları üçün nanotəsirdən öncə və sonra özlü axının aktivləşmə parametrlərinin temperatur asılılığı statistik üsulla dəqiqləşdirilmiş və alınan nəticələr təhlilə cəlb edilmişdir.

Bilik dairəsi, düşüncə çevikliyi imkan vermişdir ki, Elton Məmmədov respublikamızın neft yataqlarında su basmış kiçik debitli quyuların texniki və texnoloji göstəricilərinin çari durumunu dərindən öyrənsin və elmi cəhətdən təsvir etsin. Bu sahədə araşdırmasını Bibiheybət yataqları üzərində quran alim yazır ki, hal-hazırda Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində fəaliyyətdə olan 6.7 min quyu vardır. Neft quyularının işlək fondunun 65%-i kiçik debitli və sulaşmış quyulardır. Bundan əlavə, bu gün çıxarıla bilən ehtiyatların 20%-i aşağı keçiriciliyə malik laylarda yerləşən yüksək özüllüklü neftlərdir. Buna görə də, neftçıxarmada nanotexnologiyaların bu gün və gələcəkdə tədqiqinə və tətbiqinə böyük ehtiyac vardır. Fikrini davam etdirən tədqiqatçı lay suları haqqında belə bir informasiya da verir: "Lay suları tərkibində mineral komponentlər, duzlar, müxtəlif tullantılar, üzvi birləşmələrin müxtəlif siniflərinə aid maddələr olan mürəkkəb çoxkomponentli sistem olaraq, əksər hallarda çox aqressiv xassəyə malikdir, neft-mədən avadanlığının intensiv korroziyasına səbəb olur, quyularda kirləyici qovşaqların hermetikliyini pozur, nəticədə suyun yığılması, hazır-lanması və laya vurulması prosesində avadanlıqların iş qabiliyyətini aşağı salaraq əngəllərə səbəb olur" (s.5).

Çox fərəhli haldır ki, E.Məmmədovun yaradıcılığında neft sənayesi elminə geniş baxış izlənilir. 4 fəsli əhatə edən sözügedən kitabı bu baxımdan xüsusilə fərqlənir. Fəsillərdə müxtəlif tərkibli lay su nümunələrinin fiziki-kimyəvi göstəriciləri və reoloji parametrləri nanotəsirdən əvvəl və sonra təcrübi yolla tədqiq edilir, həmin göstəricilər və parametrlərin temperatur asılılığı təyin olunur, həmçinin də müxtəlif tərkibli lay sularının təmizlənməsində metal nanohissəciklərin təsirinin praktik tədqiqi həyata keçirilir.





Elton müəllimin bu qədər böyük işlərin öhdəsindən gələ bilməsinin, zənnimizcə, üç başlıca səbəbi ola bilər. Birincisi, Elton müəllim mənə elə gəlir ki, praqmatik düşüncəyə, bitməz-tükənməz müsbət enerjiyə, həyat eşqinə, çalışma əzminə sahib və bədbinlikdən uzaq olan dinamik bir insandır. O, sahib olduğu müsbət enerjini, biliyini və bütün öhdəliklərini ailəsiylə və aurasında yer alanlara mütənasib bir şəkildə paylaşır. Və həmin müsbət enerjinin ona və cəmiyyətimizə dönüşü də çox olur. Məsələn, yetişdirdiyi tələbələrin, kömək etdiyi adamların gördüyü işlərinin və elmi yaradıcılığının timsalında! Bu böyük uğurların qazanılmasının ikinci səbəbi ailəsində olan səmimiyyət, üçüncüsü isə böyük pedaqoqluğudur. İnsanlarla dil tapıb ünsiyyətə qoşulmasıdır. İnsan mənəviyyatına verdiyi dəyərdir.

Beləliklə, onu tanıyan hər kəs əmindir ki, bu xeyirxah, təmannasız insan böyük ləyaqət və şərəf sahibidir. Dostluqda möhkəmdi və insanlarla tez ülfət, ünsiyyət saxlamağı bacarır. Təvazökardır. Örnək keyfiyyətlərə sahibdir. İnsanları duyma, tanıma, dəyərləndirmə qabiliyyəti yüksəkdir. Zəhmətkeşlik və mübarizlik ruhunu daim qoruyb saxlayandır. Ürəyi genişdir.

Elton müəllimin insani keyfiyyətlərini xeyli sadalamaq mümkündür. Təkcə onu demək kifayətdir ki, Elton Məmmədovun xalqa, el-obaya sevgisi Allaha eşq və məhəbbətindən doğur. Deyilənlər tam əsas verir ki, Elton Məmmədov xoşbəxtdir. Heç şübhəsiz ki, bu da ona kökdən, doğulub boya-başa çatdığı müqəddəs ocaqdan gəlir. Sözün həqiqi mənasında bu adam - görkəmli alim, böyük vətənpərvər, bənzərsiz xarakter sahibi, gözəl ailə başçısı… hər cür tərifə layiqdir… O, yaşadığı ömür üçün şərəf duya bilər.

## Həyat eşqi

Belə bir həyat eşqi E.A.Məmmədovun 2013-cü ildə çap edilmiş "Parafinli neftlərin və neft məhsullarının fiziki-kimyəvi xassələrinə nanohissəciklərin təsirinin təcrübi tədqiqi" adlı kitabının yazılmasına təsir göstərdi. Müəllif parafinli neftlərin fiziki-kimyəvi xassələrinin yaxşılaşdırılmasında istifadə olunan nanokompozitlər və nanotexnologiyalar haqqında ədəbiyyat materialını təhil edərək belə nəticəyə gəlir ki: Metal nanohissəciklər əsasında qazma məhlulların hidrodinamik göstəricisini müəyyən edən sıxlıqların saxlanılması şərti çərçivəsində istifadə metodikası təklif olunmuşdur; Təklif olunan metal nanohissəciklərin qazma məhsullarına əlavəsinin optimal miqdarı təyin edilmişdir; Eksperimental tətqiqatlar əsasında göstərilmişdir ki, metal nanohissəciklərin əlavəsi qazma məhsullarının sürtünmə əmsalını 3, 5-4 dəfəyə qədər azaldaraq, məlum yağlayıcı əlavələrlə müqayisədə friksion xassələri yüksək tənzimləmə imkanlarını nümayiş etdirir (s.15).

Bundan savayı, tədqiqatçı qətran və təbii bitumların fiziki-kimyəvi xassələri haqqında ədəbiyyat məlumatlarını, N.Nərimanov adına NQÇİ-nin parafinli neft istehsal edən quyularının texniki və texnoloji göstəricilərinin cari vəziyyətini təhlil edir, nümunələr hazırlayır, ölçmə metodlarını seçir və s. Bu prosesi alim belə təsvir edir: "Elmi-tədqiqat işi aparmaq üçün N.Nərimanov adına NQÇİ-nin əmtəə rezervuarından, 405 və 456 saylı quyularından götürülmüş parafinli neft nümunələri tədqiqat obyekti kimi seçilmişdir. Təcrübi tədqiqatlar aparmaq üçün parafinli neft nümunələri maqnit qarışdırıcısının köməyi ilə 0,5 saat müddətində mexaniki qarışdırılır və 1 saat gözləməyə saxlanılır. Sonra bu parafinli neftlərin mexaniki qarışıqlardan təmizlənməsi üçün onlar filtrdən süzülür, parafinli neftlərin fiziki-kimyəvi





göstəricilərinə və reoloji parametrlərinə metal nanohissəciklərin təsirinin təcrübi tədqiqini aparmaq üçün bu neftlərə müxtəlif kütlə nisbətində nanohissəciklər əlavə olunur və maqnit qarışdırıcısı vasitəsi ilə 0,5 saat qarışdırılaraq 4-5 saat gözləməyə saxlanılır..."

Təcrübi tədqiqatlar aparmaq üçün nümunələr hazırlandıqdan sonra laboratoriya şəraitində parafinli qeyri-nyuton neftlərinin nanotəsirdən əvvəl və sonra karbohidrogen tərkib analizi, orta qaynama temperaturu, neftin tərkibində parafinin miqdarı, molekulyar kütləsi, səthi gərilmə əmsalı, sıxlığı, kinematik və dinamik özlülük əmsalları təcrübi yolla öyrənilmişdir.

Müəllif təcrübi tədqiqatların aparılma üsullarını da müəyyənləşdirmiş və təqdim etmişdir: "Səthi gərilmə əmsalı maye-hava sərhədində damçı üsulu ilə. Maye-maye sərhədində isə İFNİİ stalaqmometrindən istifadə etməklə təcrübi təyin edilmişdir. Sıxlığı təcrübi təyin etmək üçün müxtəlif həcmli pikno- metrlərdən istifadə olunmuşdur. Reoloji parametrlər müxtəlif diametrli vickozimetrlərdən istifadə etməklə təcrübi təyin edilmişdir... Təcrübələrin aparılmasında istifadə olunan bütün cihaz və avadanlıqlar hər bir standartın tələb etdiyi etalon maddələrlə yoxlanılmışdır. Yoxlamaların nəticəsi göstərmişdir ki, etalon maddələrlə təcrübə zamanı bizim təcrübədən hər bir parametr üçün aldığımız qiymətlər etalon maddələrin ədəbiyyatdan məlum olan qiymətlərinə uyğundur. Təcrübə və ədəbiyyat qiymətlərinin bir-birindən fərqi hər bir standartın icazə verdiyi buraxıla biləcək xəta tərtibindədir" (s.26).

Ümumiyyətlə, elmi üslubun xarakterik əlamətlərindən biri orada istifadə olunan terminlərin, cədvəl, şəkil, diaqram və şəkillərin kəmiyyət və keyfiyyətindən də asılıdır. Bacarıqlı elm adamı Elton Məmmədov apardığı təcrübələri çox yaxşı haldır ki, şəkillərdə, cədvəllərdə, sxemlərdə əyaniləşdirə bilmişdir. "Məhlul", "Gel" tipli bitumların müxtəlif rəngli şəkillərdə təsvi-

rini verir, deyilmiş nəzəri və təcrübi bilikləri ümumiləşdirir, əyaniləşdirir, konkretləşdirir. Bitumların fiziki xassələrini əks etdirən cədvəllər, N.Nərimanov adına NQÇİ-nin əmtəə miqdarından götürülən neft nümunəsinin fraksion tərkib təhlilinin xromatoqramması (müxtəlif saylı quylarardan əldə edilmiş nümunələr əsasında), kütlə miqdarının karbon atomlarının sayından asılılığını göstərir. Parafinli neft nümunəsində karbohidrogenlərin fraksiyalara görə paylanmasının və ümumi miqdarının göstəricisini əks etdirən çoxsaylı cədvəllərlə elmi-nəzəri, təcrübi fikri əyaniləşdirir və dəqiqləşdirir.

Elton müəllimin kitabları ilə tanış olandan sonra belə qənaətə gəldim ki, onun elmi yaradıcılığında böyük bir xətt var. Bu xətt hardan gəlib, hardan keçir…

## Elmi-tədqiqat mərkəzi

Azərbaycan Texniki Universitetində "Elmi-tədqiqat mərkəzi" fəaliyyət göstərir. Həmin mərkəzin yaradıcısı Azərbaycan Respublikası Milli Məclisinin deputatı, professor Elton Məmmədovdur.

Müasir dövrdə dünyanın qlobal problemlərindən biri də enerji resurslarından ekoloji və iqtisadi cəhətdən səmərəli istifadə etmək yollarının öyrənilməsidir. Dünyada maye yanacaqlarının istehsalına olan tələbatlar getdikcə artır. Bu baxımdan neft ölkələri sırasına daxil olan Azərbaycanın müxtəlif bölgələrində çıxarılan neftin fiziki-kimyəvi xassələrinin araşdırılması olduqca aktualdır. Bu deyilənləri nəzərə alan professor E.Məmmədov Azərbaycan Texniki Universitetinin "Fizika" kafedrasının nəzdində Təhsil Nazirliyinin 29.12.2007-ci il 1313 saylı əmri əsasında "Neft və neft məhsullarının istilik-fiziki xassələri" elmi-tədqiqat mərkəzini yaratmış, az bir müddətdə mərkəzi xarici firmaların istehsal etdiyi cihaz və texniki avadanlıqlarla təchiz etmiş, indi də uğurla ona rəhbərlik etməkdədir. Ötən illər ərzində mərkəz Azərbaycan Respublikası Standartlaşdırma, Metereologiya və Patent üzrə Dövlət Agentliyinin akkreditasiya attestatını almışdır. ETM təyinatı üzrə ölkədə bir sıra təşkilatlarla elmi əməkdaşlıq edir və həmin sahənin inkişaf konsepsiyasına müvafiq olaraq işini qurur.





Bu işə rəhbərlik onun — Elton müəllimin ilk inzibati vəzifəsi idi; bu zamana qədər nə eləmişdisə, ancaq öz nüfuzunun, elminin və mədəniyyətinin gücünə etmişdi. İndi bilavasitə onun rəhbərliyi ilə mərkəz öz fəaliyyətini yeniləşdirməkdədir. Mərkəzin əsas fəaliyyət istiqamətlərini belə müəyyənləşdirdi: regional problemlərin həllində tələb olunan fundamental və tətbiqi tədqiqatların aparılması; beynəlxalq təhsil, elmi-texniki və ekoloji proqramlarda iştirak; texnoloji proseslərin təkmilləşdirilməsi məqsədi ilə istehsalçılarla birgə elmi-texnoloji işlərin aparılması; regionda fəaliyyət göstərən laboratoriya və mərkəzlərlə elmi-texniki avadanlığın seçilməsində, alınmasında, quraşdırılmasında, işə salınmasında, elmi-metodiki işlərin aparılmasında və tərtibində kömək.

Mərkəzin beynəlxalq təcrübəsi olan, 2-3 xarici dil bilən yüksək ixtisaslı kadr potensialı var. Mərkəzin, eyni zamanda, böyük həcmli işlərin yerinə yetirilməsi üçün cəlb ediləcək mühəndis, texnik və ekspertlərinin siyahısı olan informasiya bankı da var. Mərkəzdə hal-hazırda 3 elmlər doktoru və 5 elmlər namizədi çalışır.

Mərkəzin analitik cihazları və kompyuter texnikasını təmir edən, sazlaya və işə sala bilən, kompyuter proqram təminatlarını işləyən təcrübəli mühəndis qrupu var.

Mərkəzin ABŞ-ın PerkinElmer şirkətinin beynəlxalq standartlara — ISO 9001 cavab verən analitik cihazları mövcuddur.

Qeyd edək ki, Elton müəllimin təşkil etdiyi bu mərkəz nəinki

respublikamızda, həmçinin MDB məkanındakı alimlərin də diqqətini cəlb etməkdədir. Onun bu işinə yüksək qiymət verən rəylər bu səbəbdən çox maraqlıdır. Rəy verənlərin fikirlərindən də məlum olur ki, E.Məmmədovun böyük zəhmətinin məhsulu olan həmin elmi-tədqiqat mərkəzində gələcək tədqiqatçılar, alimlər yetişir. Burada fundamental və tətbiqi tədqiqatlar aparılır, texnoloji proseslər təkmilləşdirilir, mərkəzin işi beynəlxalq əlaqələri də gücləndirir.

E.Məmmədovun elmi-pedaqoji əlaqələrinin bir hissəsi Tomsk Dövlət Arxitektur-İnşaat Universiteti ilə bağlıdır. Elmi əlaqələr onun çalışdığı universitetlə birgə həyata keçirilmiş, bu işləri əlaqələndirdiyi üçün Elton müəllim Tomsk Dövlət Arxitektur-İnşaat Universitetinin dəfələrlə mükafatına, orden və medallarına layiq görülmüşdür.

## İxtiralar müəllifi

Texnika elmləri doktoru, professor Elton Məmmədov bir sıra ixtiraların da müəllifidir. İxtiralarından birinin adı belədir: "Parafinli neftlərin emalı üsulu".

İlkin ekspertizanın müsbət nəticəsi haqqında bildirişdə oxuyuruq: "Patent haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra Qanun) 29-cu maddəsinin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq a 2011 0119 nömrəli ixtiraya dair iddia sənədlərində göstərilən ixtira düsturunun bir bəndi üzrə ilkin ekspertiza aparılmışdır.

İlkin ekspertiza mərhələsində Qanunun 28-ci maddəsinə uyğun olaraq iddiaçı tərəfindən istənilən ilkinliyin düzgünlüyünün yoxlanılması üzrə işlər də həyata keçirilmişdir. İddiaçı tərəfindən istənilən ilkinliyin qanuniliyi aşağıdakı hallarda müəyyən ediləcəkdir:





Qanunun 29-cu maddəsminin 3-cü bəndinə uyğun olaraq, müəyyən edilən ödənişin edilməsi şərti ilə iddia sənədi üzrə məlumatların rəsmi bülletendə dərci və Qanunun 32-ci maddəsinə uyğun olaraq üçüncü şəxs tərəfindən əsaslandırılmış etiraz mövcud olmadığı halda patentin qeydiyyatı və ya Qanunun 29-cu maddəsinin 3-cü bəndinə uyğun olaraq müəyyən edilən ödənişin ödənilməsi şərti ilə, iddia sənədinin verildiyi tarixdən 18 aydan gec olmayaraq iddiaçının vəsatəti əsasında.

İxtiraların mahiyyəti də göstərir ki, neft elmini praktikada sınaqdan çıxararkən bəzi mexanizmləri nəzərə almaq lazım gəlir. Onlardan biri yeni texnoloji prosesdə, yeni avadanlıqda və s. öz praktik ifadəsini tapan bu və ya digər elmi kəşf ilə səciyyələnir. İkinci halda isə, əksinə, praktikada meydana çıxan və həll edilməsi üçün elmi biliklərin xüsusi blokunun yaradılmasını zəruri edən hər hansı problem başlanğıc nöqtəsi sayıla bilər.

Bəllidir ki, elmdə, yaradıcılıq fəaliyyəti sahəsi kimi, şəxsiyyətin rolu olduqca böyükdür. Elton müəllimin çoxcəhətli elmi fəaliyyəti onu bir şəxsiyyət kimi də səciyyələndirir Müasir texnologiya, belə demək mümkünsə, onun tədqiqatlarının əsas faktoruna çevrilib. Göründüyü kimi, nanohissəciklər, istilik üsul və vasitələri, daşıyıcıları, əks əlaqələr və reaksiyalar onun elmi tədqiqatının sevimli obyektinə çevrilib. Elton müəllim onu da sözarası qeyd etdi ki, biz elm adamları elmin insan həyatın-da, hətta gündəlik həyatımızdakı yerinin gündən-günə artdığını görürük. Başa düşürük ki, həyatın çox problemləri, eləcə də neft sektoru elm tərəfindən daha tez, daha az qüvvə və gərginliklə həll edilir. Bu baxımdan Elton Məmmədovun tədqiqatları da göstərir ki, o, tədqiq etdiyi elmdə ideya yarada bilib, bu, həqiqətdir, lazım olan ideyanı ortaya qoyub, sonra onu praktikada yoxlayıb, sınaqdan keçirib. Yeri gəlmişkən, o, qəbul etdiyi qərarların hamısına şəxsən məsuliyyət daşıyır. O da məlumdur ki, həmin qərarlar, nəticələr nəzarətdə saxlanılır və son həddə qiy-

mətləndirilir. Bu dəyərin xarakteri artıq hər hansı "şəxsi qərar"-dan ibarət deyil, "alimlərin açıq cəmiyyətində" fəaliyyətdə olan rasional mühakimə qanunlarından asılıdır.

Beləliklə, Elton Məmmədovun yuxarıda geniş bəhs etdiyimiz parafinli neftlərin və neft məhsullarının fiziki-kimyəvi xassələrinə nanohissəciklərin təsirinin təcrübi tədqiqi əsəri ilə yanaşı, bu sahədə etdiyi kəşf və ixtiralar da bu böyük alimin ciddi axtarışlarından soraq verir.

## Elmi məqalələri və konfranslarda iştirakı

Elton müəllim tədqiq etdiyi sahəni öz dəyərli elmi məqalələri ilə də zənginləşdirmişdir.

Professor Elton Məmmədov bir çox samballı elmi məqalələrin müəllifidir. Onun məqalələri təkcə respublikamızın elmi jurnallarında deyil, həmçinin xarici nüfuzlu toplularda işıq üzü görmüşdür. Beynəlxalq elmi jurnal olan "Alternativ energetika və ekologiya" jurnalında alimin rus dilində "Применение минеральных и органических реагентов в процессе очистки нефтезагряненных земел", "Экспериментальное исследование поверхностного натяжения парафиновой нанонефти, перспективной для применения в нефтяной промышленности", "Исследование эффективности применения местных реагентов для очистки и повторного использования нефтепромысловых сточных вод", "Экспериментальное исследование влияния металлических наночастиц различных содержаний и диаметров на физико-химические показатели и реологические параметры парафиновой нефти", "Изучение влияния наночастиц на поверхностное натяжение растворов пав" adlı çox dəyərli məqalələri dərc edilmişdir.





Bundan əlavə, "Проблемы нефтегазовой и угольной промышленности", "Энергетика и экология", "Наноструктуры", "Инженерно-физический журнал" jurnallarında da müəllifin tədqiq etdiyi mövzu ilə əlaqədar məqalələri çap olunmuşdur. Bu məqalələrdə qoyulmuş eksperimental təcrübələrin nəticələri öz əksini tapmış, neft sənayesinin və nanotexnologiyaların mühüm müasir problemləri, neft məhsullarının fiziki-kimyəvi təbiəti və s. perspektivləri əsaslandırılmışdır.

Elton müəllimin əksər məqalələri Azərbaycan Texniki Universitetin fundamental elmlərə həsr olunmuş "Elmi əsərlər"-ində, Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəşrlərində çap edilmişdir. Bu məqalələrdə neft sənayesinin ekoloji və texniki problemlərinin həll edilməsində metal nanohissəciklərin tətbiqi yolları, mayenin kompleks istilik-fiziki kəmiyyətlərinin təyin edilməsinin bir sıra üsulları, metilkarbonatların teplofiziki vasitələri, Abşeron yarımadasında neftlə çirklənmiş torpaqların təmizlənməsində fazaların ayrılma prosesinin intensivləşdirilməsi üçün müxtəlif reagentlərin tətbiqi məsələləri, parafinli neftlərin fiziki-kimyəvi göstəricilərinə və reoloji parametrlərinə metal nanohissəciklərin təsvirinin təcrübi tətbiqi, amilpropionat-izoamilpropionat sisteminin dinamik özlülü axının aktivləşmə parametrləri, ftalat turşusunun, mürəkkəb efirlərinin sıxlığının yüksək hal parametrlərində təcrübi tətbiqi, izoamilpropionatın özlü axınının aktivləşmə parametrləri və termik xassələri; lay suyunun sıxlığının və dinamik özlülük əmsalının təcrübi tətbiqi; Samux rayonundan götürülmüş neft nümunəsinin reoloji və termik xassələri və s. problemlər əsaslı şəkildə öyrənilmişdir.

Məqalələrdə qeyd olunur ki, Elton Məmmədovun tədqiqat prosesində istifadə etdiyi araşdırma qurğusu öz konstruktiv quruluşu, burada tətbiq olunan yeni elementlər baxımından həmin məqsədlə istifadə olunan tədqiqat qurğularından fərqlənir. Bu

yeniliklər əlavə olunmuş qurğunun konstruksiyası elədir ki, onun bütün hissələri temperaturu eyni olan bir mühitdədir. Bu cəhət imkan verir ki, təcrübi nəticələrin hesablanmasında daha sadə dəqiq hesablama disturlarından istifadə edilsin.

Professor Elton Məmmədovun elmi tədqiqatlarının yayılmasında simpozium və konfransların da rolunu xüsusi qeyd etmək olar. Onun dəyərli məruzələri Azərbaycan Texniki Universitetində təşkil olunmuş "Nanotexnologiyalar və onların texnikada tətbiqi" mövzusunda I Beynəlxalq konfransda ("Lay sularının reoloji xassələrinə nanotəsirin tədqiqi". Materiallar, 15-16 dekabr 2010, s. 112-116), Bakı Dövlət Universitetinin Fizika Problemləri İnstitutu ilə birgə keçirdiyi "Fizikanın müasir problemləri" ("Neft-mədən tullantı sularının fiziki-kimyəvi göstəricilərinin və reoloji parametrlərinin temperatur asılılığının təcrübi tədqiqi" (VI Respublika konfransının materialları), "Orto, nanoelektronika, kondensə olunmuş mühit və yüksək enerjilər fizikası" (14-15 dekabr, Bakı, 2002, s.101-103) dinlənilmiş və çap edilmişdir.

Elton müəllim iki ixtisas üzrə — istilik texnikasının nəzəri əsasları və nanotexnologiya və nanomateriallar üzrə "Neft sənayesinin ekoloji və texniki problemlərinin nanotexnoloji aspektləri" mövzusunda uğurla doktorluq dissertasiyasını müdafiə etdi. Texnika elmləri doktoru alimlik dərəcəsini aldı. Elmi məsləhətçi, əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor E.M.Qocayev, rəsmi opponentlər, texnika elmləri doktoru, professor S.O.Hüseynov, texnika elmləri doktoru M.Ə.Mürsəlova, fizika-riyaziyyat elmləri doktoru, prorfessor F.F.Əliyev onun bu əsərinə çox yüksək qiymət verdilər.

Elton Məmmədov Azərbaycan neft sənayesi elminin inkişaf etdirilməsi sahəsində indi də öz gərəkli araşdırmalarını davam etdirməkdədir. Mirzə Cəlil vaxtı ilə demişdir: "Qələmin, fəaliyyətin bir məqsədi var, o da xalqa xidmət etməkdən ibarətdir".





Mənim aləmimdə bu müdrik kəlamda Elton müəllimin işıqlı həyat məramı ifadə olunmuşdur. O, təkcə qələmi ilə deyil, ağlı, aydınlığı, düşüncəsi, fəaliyyəti, mənəviyyatı ilə tələbələrinə, doktorantlarına, həmkarlarına, dostlarına, qohumlarına, yaxınlarına qol-qanad verir, özünün bütün varlığı ilə xalqına xidmət göstərir.

Tam inamla deyə bilərəm ki, bu mərtəbələrə Elton müəllim öz zəhmət və istedadı, qolunun və zehninin gücü ilə yüksəlib. Bu məqamda bir şeir parçası yada düşür:

Vaxt var ikən,
Elə yaşa, elə alış
Hər kəsə aydın görünsün
Yerində qalan boşluq (R.Rza).

Gələcəyə inam hissi, həyat və gözəllik duyğusu ilə yaşayan-yaradan Elton müəllim əsl ziyalı təfəkkürü ilə, son dərəcə mədəni rəftarı ilə, səmimilik və qayğıkeşliyi, xeyirxahlığı ilə hamının ürəyinə yol tapa bilmişdir. Elmi ictimaiyyətimiz onu respublikamızın istedadlı alimlərindən biri kimi tanıyır və sevir.

Elton müəllim elə bir şəxsiyyətdir ki, onun yaratdığı əsərlər təkcə elm fədaisinin faydalı əməyini, böyük zəhmətini deyil, həm də ürəyi vətən sevgisi ilə dolu olan bir vətəndaşın hərarətli duyğularını ifadə edir. O, yalnız bir sahə ilə kifayətlənməyən, tədqiqat dairəsi çox geniş olan məhsuldar bir alimdir. Təsadüfi deyil ki, onun elmi tədqiqatlarının diapazonu maye yanacaqların istilik-fiziki xassələrini öyrənməkdən tutmuş parafinli neftlərin və neft məhsullarının fiziki-kimyəvi xassələrinə nanohissəciklərin təsirinin təcrübi tədqiqinə qədər çox geniş bir sahəni əhatə etdirir.

Doğrudur, Elton Məmmədovun tədqiqatlarında hər bir alimdə olduğu kimi, mübahisə doğuran cəhətlər də vardır, lakin ilk

dəfə olaraq hədəfə doğru o düzgün irəliləyib və həm də hamıdan çox irəliliyib. Bunlar onun böyuk xidmətləridir. Onun elə xidməti də vardır ki, heç kəs onun bu sahədəki xidməti üzərinə kölgə sala bilməz. Düzgün təsəvvür etmək üçün ortaya alternativsiz arqumentlər qoyub. İlk dəfə olaraq... Onun son dərəcə məhsuldar yaradıcılığı bizə belə bir nəticəyə gəlmək üçün faktik material vermişdir.

Neft yataqlarının elmi tədqiqi bəzən bir qədər asan görünür. Lakin nəzərə alanda ki, parafinli neftlərin və neft məhsullarının fiziki-kimyəvi xassələrinə nanohissəciklərin təsirini bütün genişliyi ilə gərgin araşdırmasında üzə çıxara bilir və bunlar həmin sahənin tədqiqatçısından yüksək səviyyə, yüksək enerji, kamil tədqiqatçı səviyyəsi qədər bələdlik tələb edir, üzldə olanları yox, dərin qatlardakı prosesi başa düşmək lazım gəlir, o zaman sözügedən sahənin tədqiqinin çətinlikləri də aşkar görünür. Dörd qiymətli əsər, saysız məqalələr, konfrans materialları bu sahəyə — neft və neft məhsullarının istilik-fiziki xassələrin təyini probleminə həsr edilmiş və neft yataqlarının işlənməsi işini təkmilləşdirmişdir. Ona görə də neft yataqlarının işlənməsini təkmilləşdirmək məqsədilə neftdə, suda həll olunan səthi aktiv maddələrin və nanohissəciklərin ayrılıqda və yaxud tərkibi onların birgə kombinasiyasından ibarət nanokompozitlərin, neft, su, qaz və süxur sərhədində axın prosesinə təsirinin öyrənilməsi də müasir dövrün aktual məslələrindən sayılır. E.Məmmədovun baxış və düşüncələri bu sahədəki gerçəkliyi yaxından dərk etməsi ilə birbaşa əlaqədardır.

Elton müəllim öz əlaqələrinin genişliyi ilə də diqqəti cəlb edir. Neft elminin inkişafı üçün o, Tomsk şəhərində, Çelyabinsk vilayətində və s. ölkələrlə elmi və dostluq əlaqələri qura bilib.

O, uzun müddətdir ki, istilik fizikası sahəsində elmi fəaliyyətlə məşğuldur. Bu sahədə bir çox elmi məqalələrin və monoqrafiyaların müəllifidir.





Bir insan kimi də individual xarakteri ilə fərqlənir. Daim qolunun gücü, təmkin və iradəsi, fərdi ideal və zəkası ilə irəliləmiş, şərəfli yüksəliş yolu keçmişdir. Öz halal çörəyinə qane olmaqla, haram tikə yeyənlərin sırasına qarışmamış, qatılmamışdır...

## Doktorluq müdafiəsi

Soyuqlu, sazaqlı qış günü. Azərbaycan Texniki Universitetinin geniş və yaraşıqlı akt zalı izdihamla doludur: alimlər, elmi işçilər, doktorantlar, qonaqlar, tələbələr, iddiaçının dostları, qohum-əqrəbaları. Hamının içində sevinc həyəcanı, üzündə təbəssüm, əllərində gül-çiçək. Saat on bir.

Universitetin rektoru, texnika elmləri doktoru, professor Havar Məmmədov, birdəfəlik fəaliyyət göstərən Dissertasiya Şurasının üzvləri, onların da arasında iddiaçı ağır-ağır zala daxil oldular. Sədr də, iddiaçı da öz yerlərini tutdular. Sədr təmkinlə ayağa qalxdı. Şura üzvlərinin iclasda iştirakını müəyyənləşdirdi. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nanotexnologiyalar Departamenti tərəfindən universitetin Dissertasiya Şurasına müdafiə üçün təqdim olunan "Neft sənayesinin ekoloji və texniki problemlərinin nanotexnoloji aspektləri" mövzusunda iki şifrə üzrə (3343.01 və 3347.01) texnika elmləri doktoru dərəcəsi almaq üçün təqdim olunan doktorluq dissertasiyası işinə başlanmasını elan etdi və sözü doktorant Elton Arzuman oğlu Məmmədova verdi. İştirakçıların nəzərləri iddiaçıya dikildi. O, ağır-ağır, təmkinlə kürsüyə qalxdı. Əvvəl sakit tərzdə, aram-aram, aydın dillə fikirlərini israr eləməyə başladı. Güclü yaddaşı, aydın təfəkkürü, qeyri-adi məntiqi ilə dünya siyasi xəritəsində enerji resurslarına, o cümlədən neft sənayesində hasil olunan tələbat aspektindən irəli gələn problemin geniş eridusiyası, həqiqi alim hissiyyatı və eksperimental tədqiqatlar nəticəsində əldə

elədiyi faktların köməyi ilə mövzunun aktuallığını əsaslandırdı.

Qlobal dünyanın enerji resursları fövqündə sərhəd tanımayan neft sənayesinin ekoloji və texniki problemlərinin nanotexnoloji aspektlərinin araşdırılıb üzə çıxarılmasında görüləcək işlərin imkanlarının üzə çıxarılması, bu sahədə aparılacaq işlərin məzmununun müəyyənləşdirilməsi, qarşıya çıxa biləcək çətinliklərin araşdırılması yollarını konkret dəlillərlə göstərdi. Özünün neft sənayesindəki çoxillik eksperimental tədqiqatlarının nəticələrinə və dünya təcrübəsindən gəldiyi nəzəri və təcrübi qənaətlərə görə müzakirəyə təqdim olunan dissertasiyanın başlıca məqsədini şərh elədi.

Məqsədin həyata keçirilməsinin vəzifələrini, elmə gətirdiyi yenilikləri, onların nəzəri və praktik əhəmiyyətini, müdafiəyə təqdim olunan müddəaları, apropasiya fəaliyyətini şura üzvlərinə tam mənasıyla çatdırdı və onların diqqətini dissertasiya işinin məzmununa yönəltdi.

Doktorant problemi baxımından dünya alimlərinin fikirlərini saf-çürük edərək, özünün elmi konsepsiyasını formalaşdırdığını və böyük alim mədəniyyətiylə, həssaslığıyla onların ideyalarından bəhrələndiyini, özünün elmi ideyalarının daha dərin köklərə əsaslandığını göstərdi.

Real faktları, mükəmməl, səlis və dəqiq dəlillər əsasında gündəmə söykənikli tədqiqatlarının nəticələrini şərh elədikcə kürsüdə doktorant daha inamlı görünürdü. O, yaxşı bilirdi ki, elmdə əldə elədiyi nailiyyətlərin bütövlükdə texnika elmlərinin, xüsusilə Azərbaycanda neft sənayesinin inkişafında böyük rolu var. Onun elmi tövsiyələri gələcəkdə həm texniki elmlərin formalaşmasına, həm də Azərbaycan iqtisadiyyatına güclü təkan verəcək...

Təqdimatdan sonra şura üzvləri, alimlər, praktik mütəxəssislər doktoranta yerbəyerdən suallar verdilər.

Böyük hazırlığa, zəngin təcrübəyə, geniş erudisiyaya malik





Elton Məmmədov tələsmədən, heç bir həyəcan-filan keçirmədən sualları qeyd etdi, sonra da hər birini dəqiq, ətraflı, doğru-düzgün cavablandırdı.

Bundan sonra aparıcı müəssisənin rəyi oxundu, daha sonra elmi məsləhətçi, əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru professor E.M.Qocayev söz aldı. Dissertasiyanın müsbət məziyyətlərindən, doktorantın yüksək hazırlığından, alim mədəniyyətindən, dissertasiyanın məqsəd və vəzifələrinin tamlıqla həyata keçirilməsindən danışdı. Azərbaycan elminə böyük alim, xalqına zəngin mənəviyyatlı ziyalı gəldiyini şura üzvlərinin nəzərinə çatdırdı. Onu da qeyd etdi ki, Elton Məmmədova səs versək, həm elmimiz, həm də xalqımız qazanar.

Rəsmi opponentlər növbəylə tribunaya qalxdılar: texnika elmləri doktoru, professor S.O.Hüseynov, texnika elmləri doktoru M.Ə.Məmmədov və fizika-riyaziyyat elmləri doktoru, professor F.F.Əliyev əvvəlcədən yazılmış rəylərini oxudular. Əsərin məziyyətlərini açdılar. Hər biri əsərə və doktorantın hazırlığına, şəxsiyyətinə, ictimai mövqeyinə münasibətlərini bildirdilər. Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasına ünvanladılar ki, müdafiə olunan dissertasiya böyük elmi məziyyətlərinə görə dövrün və sizin (AAK) tələblərinizə uyğundur.

Yekdilliklə səs alan Elton Məmmədova şura texnika elmləri doktoru alimlik dərəcəsi qərarını verdi.

Ona elmi, ictimai, siyasi fəaliyyətində yeni-yeni uğurlar arzuladılar.

Tanınmış neft mütəxəssisinin möhkəm, davamlı, milli mövqeyi müstəqillik dövründə ölkənin inkişafına xidmətdədi. O proqram çıxışları ilə bir daha sübut etdi ki, bütün elmi fəaliyyəti xalqa, milli dövlət quruculuğuna xidmətdən ibarətdir.

O, hazırda elmi fəaliyyətinin qaynar dövrünü yaşayır. Dünən olduğu kimi, bu gün də Elton Məmmədov məşğul olduğu elm sahəsinin aparıcı güclərindəndir. O, ciddi tədqiqatları ilə irəlilə-

yir...

İnsan yaşayış, dolanışıq üçün lazım olandan savayı, bir iş görməlidir. Bu baxımdan Elton müəllim cəmiyyətə olduqca faydalı adamdır. Təbii ki, gördüyü işlər ona hörmət və şöhrət qazandırmış və qazandırmaqdadır. Bir-birindən dəyərli kitabları, monoqrafiyaları, məqalələri, ixtiraları və s. onun xalqa, vətənə bağlılığından soraq verir.

Elton Məmmədov bilik və bacarığı ilə bərabər, çalışdığı kollektivdə də öz nizam-intizamı, ağlı və şəxsi keyfiyyətləri ilə seçilən bir şəxsdir.

## İctimai-siyasi fəaliyyət

Deyirlər, insanın çoxcəhətli fəaliyyəti onun zənginliyi ilə ölçülür. Həyatda, cəmiyyətdə bir çox fəaliyyət sahələri ilə məşğul olanlar azdır. Bu azlıq içərisində Elton müəllimin də öz yeri görünür.

Elton Arzuman oğlu Məmmədovun ictimai fəaliyyətinin əsas hissəsi doğulub boya-başa çatdığı Ucar rayonu ilə bilavasitə bağlıdır. Ucar... Azərbaycanın sayılıb-seçilən bölgələrindən biridir. Ölkə prezidenti Ucarda olarkən bu ərazinin insanlarının fədakarlığı, respublikamızın həyatında oynadığı mühüm rolu dilə gətirmişdir: "Ucarlılar zəhməti sevən insanlardı, onlar müstəqilliyimizin qorunması və inkişafında əllərindən gələni əsirgəmirlər".

Elton Məmmədovun deputat platforması üç tərkib hissədən ibarətdir: demokratiya, sərbəst iqtisadiyyat, azad sahibkarlıq.

Onun proqramının əsasları 5 mühüm sahəni əhatə edir:

1. Sosial-iqtisadi; Aqrar; Rəqabətin genişləndirilməsi; Təhsil sistemi; Səhiyyə.

SSRİ dağılandan sonra Azərbaycan da yeni ictimai-siyasi hadisələrin burulğanına düşdü. Bu hadisələrdən baş çıxarmaq, hadisələrin içərisində olmaq, onu məcrasından çıxmağa qoymamaq üçün çoxları kimi Elton müəllim də öz fikrini, məqsədini hər an deyə bildi. Elton Məmmədov ölkədə gedən ictimai-siyasi hadisələrə açıq münasibəti, vətəndaşlıq qeyrəti, haqq yolundan dönməzliyi ilə fərqlənir. Hər şeydən əvvəl, o, vətəndaşlığın səmimi göstəricisidir. Ziyalılığını, daxili mədəniyyətini, ləyaqətini hər məqamda qoruya bilir. O, özünün milli məsələlərlə bağlı siyasətini uğurla həyata keçirən ideoloqdur. Respublikanın mədəni, ictimai və siyasi həyatına cəsarətlə qoşularaq milli dövlət quruculuğu prosesində fəal iştirak edir. O, elmə, xalqa, insanlara xidmət etməkdən sonsuz mənəvi ləzzət duyur.

Elton müəllimin ideyaları mənsub olduğu xalqın tarixi ideyalarının tərkib hissəsi, davamı və inkişafıdır...Bu isə o deməkdir ki, bir insan olaraq hələ yaşamağa dəyər...

El-oba, camaat arasında böyük hörmət qazanan Elton Məmmədova Ucar rayonu ziyalılarından, kənd ağsaqqallarından birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizədliyinə razılıq verməsi təklif gəlir. Əvvəl E.Məmmədov həmin işin böyük məsuliyyətini duyaraq razılığını vermək istəmir. Sonradan onların təklifi ilə razılaşmağa məcbur olur... Həmin il Milli Məclisə birinci çağırış deputat seçilir. Bütün varlığını, gücünü rayonun, yaşayış məntəqələrinin abadlaşdırılmasına, çətinliklərin aradan qaldırılmasına sərf edir. Adamlar arasında tez-tez deyilirdi: Rayon əhli Milli Məclisə sözünü deyəcək, özünə lazım olan adamını deputat seçib. Ona səs verib... Sücaətini, cəsarətini, işgüzarlığını və mübarizliyini dərk eləyən Ucar əhli onu 2000-ci ildə ikinci çağırış, 2005-ci ildə üçüncü çağırış, 2010-cu ildə dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçmişdir. O, hazırda Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavinidir. E.Məmmədov olduqca diqqətli, təşəbbüskar, yenilikçi

adamdır. O, daim öz üzərində çalışır. Ona görə də o, qanun yaradıcılığı prosesində öz dəyərli, orijinal tövfələrini verə bilir. Qanunvericilik bazasının təşkilləşməsi işində fəal iştirak edir.

Beynəlxalq və parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində Elton Məmmədovun öz yeri, öz mövqeyi, öz yanaşma tərzi, öz üslubu vardır. Başqa sözlə, onun bu sahədəki səmərəli fəaliyyəti danılmazdır.

E.Məmmədovun MDB Parlamentlərarası Assambleyasının aqrar siyasət, təbii ehtiyatlar və ekologiya məsələləri daimi komissiyasının sədr müavini kimi dövlət və dövlətçiliyin inkişafında böyük xidmətləri də olmuşdur. Bunun nəticəsidir ki, professor, deputat səmərəli fəaliyyətinə görə "Sodrujestvo" (Əməkdaşlıq) ordeni, GUAM Parlament Assambleyası və Baltik Assambleyası arasında əməkdaşlığın inkişafındakı xidmətlərinə əsaslanaraq Baltik Assambleyasının medalı, "Tomsk vilayət həmkarlar komitəsinin fəal üzvü" medalı, Çelyabinsk Traktor Zavodunun "Əməkdə fərqlənməyə görə" qızıl döş nişanıyla təltif olunmuşdur.

Böyük iftixar hissi ilə qeyd olunmalıdır ki, E.Məmmədov GUAM-ın Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Assambleyanın iqtisadi və maliyyə məsələləri komitəsinin sədri, həmçinin Azərbaycan-İsveç parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri, Azərbaycan-Bolqarıstan, Azərbaycan-İsveçrə, Azərbaycan-Misir, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi və dostluq qrupunun üzvüdür.

Onun millət vəkili olduğu illər ərzində ölkəmiz, o cümlədən Ucar bölgəsi iqtisadi uğurlar qazanır, ona görə də bu illəri iqtisadi uğurlar illəri də adlandırmaq olar.

Ucarlılar səslərini layiqli bir namizədə — Elton Arzuman oğlu Məmmədova etibar etdilər. 91 saylı Ucar seçki dairəsindən Elton müəllim Azərbaycan Respublikasının Milli Məclisinə deputatlığa namizəd verildi. Azərbaycanın gələcəyi naminə birləşək! — şüarı ilə öz platformasını həyata keçirdi.





## Deputat fədakarlığı

Doğma el-obasından Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilən alim, böyük təcrübə sahibi Elton Məmmədovun qarşısında çox böyük və həlli zəruri olan vəzifələrin həyata keçirilməsi problemləri dayandı. Əslində o, bu çətinlikləri xalqının səsinə səs verməkdə görürdü. Ona görə də o, özünün seçki platformasında da camaatın üzləşdiyi çətinliklərin aradan qaldırılması yolunda bütün qüvvə və bacarığını sərf edəcəyini deməkdən çəkinməmişdi... Bəli, indi onu düşündürən problemlərin həlli üçün haradan və necə başlamaq dururdu. O, bu yolda təsadüfi adam deyildi.

Beləcə, deputat getdikcə seçicilərinin inamını, etibarını qazanır, qazandıqca da o, güvənc yerinə çevrilirdi. Nəticədə adamlar da onun mənəvi-əxlaqi dəyərlərinin, əqidəsinin nəyə qadir olduğunu, nəyə xidmət etdiyini, ziyalılığını, aydın şəxsiyyət olduğunu və başqa sahələrdəki yüksək vətəndaş mövqeyini duyur, dərk edirdilər.

Mənəvi stimul və mənəvi qələbə ondaydı ki, rayon və kənd adamlarının psixoloji düşüncəsinin nəyə qadir olduğunu, həyat tərzini, məşğul olduqları sahələri və digər problemlərini dərindən mənimsəyirdi. Hər hansı işdə onların köməkliyinə arxalanırdı. Bütün bunların nəticəsiydi ki, müəyyən dövr ərzində Elton Məmmədov rayon mərkəzində çoxmərtəbəli müasir tipli, dünya standartlarına uyğun orta, ümumtəhsil məktəblərin inşasına kömək göstərdi. Qazqumlaq, Məlikballı məktəbləri yenidən inşa edildi. Digər kənd məktəblərinin tikintisi başlandı. Rayon mərkəzində üçkorpuslu, çoxmərtəbəli, Qazqumlaq kəndin-

də və digər kəndlərdə tikilən xəstəxanalar adamların istifadəsinə verildi. Rayon mərkəzində nəhəng muzey binası ucaldıldı. İndi demək olar ki, onların hər biri müasir texniki avadanlıqlarla təmin olunmuşdur. İaşə xidmətləri obyektləri də Ucarın simasını dəyişdirmişdir. Poçt, bələdiyyə, kitabxana binaları göz oxşayır. Rayon və Qazqumlaq kəndinin mərkəzində park salındı, "Şadlıq sarayı" inşa edildi. Bunlar hər axşam sakinlərin istifadəsindədir. Toy şənliklərinin keçirilməsinə xidmət edir. Uzun dövr yasaq olunan köhnə məscid binası yenisiylə əvəzləndi.

Rayon mərkəzi bütünlüklə, kəndlərin 90-95-%-i qazlaşdırılmışdır. Əhalinin rahatlığının təmin olunmasında Elton Məmmədov bir Milli Məclis üzvü kimi öz üzərinə düşən işləri ləyaqətlə yerinə yetirməkdədir.

İndi Ucarda elə bir yaşayış məntəqəsi tapılmaz ki, elektrik işığına qərq olmasın. Rayon mərkəzində geniş və yaraşıqlı, hər tərəfi gül-çiçəyə qərq olan "Bayraq Meydanı" yerli əhalinin vüqar, qürur mənbəyinə çevrilmişdir. İstər rayon, istərsə də kəndarası yollar asfaltlaşdırılmışdır. Hazırda on mindən artıq əhalisi olan Qazqumlaq kəndi şəhərə çevrilmişdir. Ucar şəhəri kimi bu kənd də vüqarlı, əzəmətli görünür.

Azərbaycanın milli iqtisadiyyatının müxtəlif sferalarına yönələn investisiyaların qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması, vətəndaşların sosial müdafiəsi dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir. Elton Məmmədovun fəaliyyətinin diqqət çəkən mühüm amillərindən biri də qarşıya qoyulan hər bir hədəfin gerçəkləşməsi üçün konkret fəaliyyət proqramlarının işlənib hazırlanmasıdır. Bu baxımdan ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı aparılan işlərin əhəmiyyətini xüsusi qiymətləndirmək olar. Çünki keçid dövrünə xas bir sıra köklü problemlərin həlli prosesinə məhz bu fərmanlarla start verilmiş, konseptual əhəmiyyətli həmin sənədlər qısa





zaman ərzində ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyillərinə təkan vermişdir.

Elton Məmmədov rayonda işsizlik problemini qismən aradan qaldırmışdır.

Onun deputat olduğu müddətdən Ucar bir rayon kimi tarazlı inkişaf yoluna qədəm qoymuşdur.

Rayonda qeyri-neft sektoruna diqqət artmışdır.

Sahibkarlığın inkişafı yeni iş yerlərinin açılması istiqamətində konkret nəticələrlə müşayiət olunmuşdur.

Ucar bir rayon kimi sosial-iqtisadi yüksəliş dövrü keçirir. Ucar rayonu respublikada aparılan məqsədyönlü dinamik inkişafdan geri qalmır. Deputat Elton Məmmədov da başqa cavabdehlər kimi rayon əhalisi ilə müntəzəm əlaqə saxlamış, onların qayğı və problemlərinin həllinə müvafiq köməklik göstərmişdir.

Bu mühüm sahələri əhatə edən deputat proqramı E.Məmmədovun uzun illər ərzində topladığı həyat təcrübəsinə əsaslanmış, onun alim-ziyalı intellektinə, dünyaya baxışına uyğun olaraq hazırlanmışdır.

Heç vaxt unudulan deyil Qazıqumlaq kəndində keçirilən bayram tədbirində müxbir Eltona yaxınlaşdı.

— Siz deputat secildiyiniz Ucar rayonunun gələcəyini necə görürsünüz?

— Ucarın gələcəyini bizim Azərbaycandan kənarda təsəvvür etmək olmaz. Ucar hər bir sahədə respublikanın dinamik inkişaf etmiş rayonlarındandır. Rayonun və onun sakinlərinin işgüzarlığı, zəhmətsevərliyi və s. bu rayonun gələcəyinin daha parlaq olacağını göstərir.

— Elton müəllim, indi də qayıdaq sizin doğulub, boya-başa çatdığınız Qazqumlaq kəndinə. Bu kənd göz dəyməsin, bizdə şəhər təəssüratı yaradır. Necə oldu ki, Qazqumlaq kəndinin belə firavan şəhər görkəmi almasına nail oldunuz?

— Bunun bir neçə səbəbi var. Birincisi, respublika prezidenti

cənab İlham Əliyevin ölkədə həyata keçirdiyi ideya-siyasi xətt. İkincisi, dövlətin, xalqın, millətin rifahına göstərdiyi yardım. Üçüncüsü, kənd ziyalılarının, ağsaqqallarının təşəbbüskarlığı. Dördüncüsü, kənd camaatının əməl birliyi. Özlərinə xidmət eləmə arzusu, istəyi uğrunda dönməz, müntəzəm mübarizəsi. Bir sözlə səbəbləri çoxdu. Mən hamısını sadalamaq istəmirəm. Ancaq gözəl el deyimləri də var: "El bir olsa, dağ oynadar yerindən". "Güc birlikdədir". Gərək istədiyini həyata keçirmək niyyətin ola. Xalqın səsinə səs vermək ruhun ola. Böyük Səməd Vurğun necə deyib?

Hərə bir əl qoysa abadanlığa.
Kəndimiz böyüyüb bir şəhər olar…

Şair demişkən:

Biz gəldi gedərik, sən yaşa dünya!

Bax, kənd adamlarının fikirlərinin başlıca qayəsi və prinsipləri bunlar olub.

## Sosial problemlərə baxış

Ölkənin hər bir rayonu kimi Ucarda da müəyyən sosial problemlər mövcuddur. Bu problemlərin nədən ibarət olduğunu dəqiqləşdirən Elton müəllim, sözün həqiqi mənasında, Ucarın sosial tərəqqisi üçün xeyli işlər görmüş və görməkdədir. Hiss olunur ki, bu bölgədə sosial tərəqqi pərakəndə, dolaşıq deyil, elə prinsipə əsaslanır ki, yeni cəmiyyət bütün fundamental-iqtisadi, sosial, siyasi və mədəni göstəricilərinə görə əvvəlkilərdən keyfiyyətcə üstünlük təşkil edir.





Ucarın bir rayon kimi sosial tərəqqisinin əsas göstəricisi burada iqtisadiyyatın yüksəlməsi, kənd təsərrüfatı məhsullarının maya dəyərinin artması, ucarlıların maddi rifah halının yaxşılaşdırılması ilə yanaşı, bu əhalinin demokratik, müstəqillik arzularının dəyərə çevrilməsi və yeniliyi ilə bərqərar olmasıyla xarakterizə oluna bilir. Bütün bunlar ucarlıların maddi və mənəvi inkişafını ümumi şəkildə müəyyənləşdirir. Mühüm həyat, məişət problemlərinin həll olunmasına çalışan millət vəkili rayonun digər rəhbərləri, seçiciləri ilə mütəmadi görüşlər keçirir, birlikdə tərəqqinin, dəyişikliyin, bütövlükdə inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilirlər.

Deputat proqramı çox mühüm konseptual yeniliklərdən ibarətdir.

Bu sahədə ümumi konseptual xətt ölkə rəhbərinin qarşıya qoyduğu inkişaf xəttinə əsaslanır. Ölkə başçısı — Mən hesab edirəm ki, biz Azərbaycanda elə bir model yarada bildik ki, həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılır — demişdir. Həqiqətən də, dövlətin siyasi xətti əsasında müəyyənləşən bu model, sözün həqiqi mənasında yaradıldı. Bu fikir Elton müəllimin proqramının ümumi konsepsiyasında mühüm sitat-epiqraf kimi səslənir. Həmin düşüncə tərzini əldə rəhbər tutan deputatın fikrinə nəzər salaq: "Dövlətcilik ideyasının bacarıqla tətbiqi nəticəsində Heydər Əliyevin ideoloji əsasları Azərbaycanda tam şəkildə bərqərar olmuşdur. Güclü dövlət, güclü iqtisadiyyat, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq fəlsəfəsi, azərbaycançılıq ideologiyası, güclü milli dəyərlər əsasında müasir dövlətin qurulması... bütün bu proseslər Azərbaycanda böyük uğurla yerinə yetirilmişdir. Artıq Azərbaycan keçid dövrünü başa vurmuşdur. Ölkəmizdə aparılan islahatlar təkcə Azərbaycan xalqı tərəfindən deyil, dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir. Mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda gedən islahatları çox yüksək dəyərlən-

dirirlər. Dünya İqtisadi Forumunun hesablamalarına əsaslansaq, rəqabət qabiliyyətinə, informasiya-kommunikasiya texnologiyalarının inkişafına görə Azərbaycan MDB məkanında lider dövlətdir. Baxmayaraq ki, dünyada maliyyə və iqtisadi böhran hələ başa çatmayıb, ancaq bu yaxınlarda Azərbaycan mötəbər reytinq agentlikləri tərəfindən çox yüksək qiymət alıb. Bu, indiki şəraitdə çox böyük əhəmiyyət kəsb edir. Çünki dünyada baş verən maliyyə böhranı bir çox ölkələr qarşısında böyük problemlər yaradır.

Elton Məmmədovun deputat proqramının ümumi konsepsiyasında daha sonra deyilir ki, ölkəmizin bütün regionlarında müvəffəqiyyətlə quruculuq işləri aparılır. İkinci regional inkişaf proqramının uğurlu icrası nəticəsində ölkə qarşısında duran əsas infrastruktur, sənaye, iqtisadi və sosial məsələlər öz həllini tezliklə tapacaqdır. İqtisadi inkişafın dinamikası onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün məqsədlərə vaxtından əvvəl çatacağıq.

Hazırda ölkədə mikroiqtisadi sabitliyin təmin edilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlıq üçün əlverişli, münbit mühitin yaradılması prosesi milli iqtisadiyyatımızı inkişafın artıq yeni mərhələsinə qaldırmışdır. Bir sözlə, müstəqil olaraq sosial-iqtisadi inkişaf yolunda inamla addımlayan Azərbaycan Respublikasının ümumi təsərrüfat həyatının iqtisadi inkişafı, onun ayrı-ayrı sahələr üzrə struktur göstəricilərinin artım tempi konsepsiya cizgilərinin bir daha gerçəkliyindən, ardıcıllığından və davamlılığından xəbər verir. Şübhəsiz ki, yerli istehsalın genişlənməsi, daxili bazarın qorunması, azad sahibkarlığın və sivil biznes fəaliyyətinin canlandırılması yönümündə iqtisadi artım strategiyasının təkmilləşdirilməsinə yenə də böyük ehtiyac vardır. Çünki ölkəmiz sosial təminatı və iqtisadi artımı təmin edən mövcud potensial və variantlardan istifadə edərək, iqtisadiyyatın kompleks tərəqqisi yönümündə cəsarətli addımlar atmaq imka-





nına malikdir.

Millət vəkilinin proqramında ölkənin sosial-iqtisadi problemləri də əsas, prioritet yerlərdən birini təşkil edir. Deputat seçildiyi rayonun sosial-iqtisadi sahədə görüləcək işlərini əvvəlcədən planlaşdırmış və bu istiqamətdə mühüm işlər həyata keçirilməkdədir: "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli Fərmanına əsasən dövlət investisiya proqramı çərçivəsində Ucarın yeni qurulmuş su və kanalizasiya sistemininin müntəzəm fəaliyyətinin təmin edilməsi; Rayonun qaz və elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə sovet dövründən qalma, köhnəlmiş cihaz və avadanlıqların yenisi ilə əvəz edilməsi, bu sahədə israfçılığın qarşısının alınması üçün tədbirlərin görülməsi, respublikanın ən müxtəlif bölgələrində modul tipli elektrik stansiyalarının qurulması, əyalətlərin mavi yanacaqla təchizatı; Rayon əhalisinin və təsərrüfat subyektlərinin içməli və suvarma suyuna olan mövcud tələbatının həll edilməsi; Rayon ərazisindəki çirkab suların utilizasiyası və texniki məqsədlər üçün istifadə edilməsi; Əkinə yararlı torpaqların herbisidlər və pestisidlərlə çirklənməsinə nəzarət etmək üçün rayon ərazisində vaxtaşırı monitorinqlərin aparılması; Rayon ərazisindən keçən dəmiryol xətti boyunca neft tullantıları ilə çirklənmənin ekoloji mühitə təsirinin aradan qaldırılması istiqamətində müvafiq işlərin görülməsi; Kimsəsiz və tənha şəxslərin, əlillərin həyat şəraitinə qayğı ilə yanaşılması; Şəhid ailələrinə hərtərəfli köməkliyin göstərilməsi; Rayon ərazisində təbiətin mühafizəsi və yeni yaşıllıq zolaqlarının salınması; rayonda abadlıq işlərinin davamlı aparılması və tikinti işlərinin memarlıq üslubuna uyğun görülməsi; rayonun giriş və daxili yollarında göstəricilərin təşkil edilməsi; gənclər üçün idman mərkəzinin tikintisinə nail olunması; gənc istedadların respubli-

ka səviyyəsində tanınmasına yardım göstərilməsi.

Elton Məmmədova görə təbii mühit insanın yaşaması üçün tələb olunan zəruri şərtdir. Təbii şərait insan üçün yalnız onun orqanizminin normal fəaliyyət göstərməsinə hesablanmayıb, həm də onun tarixən formalaşan tələbatlarının bütün müxtəlifliyi ilə birlikdə normal fəaliyyət göstərməsi üçün, onun mədəni varlıq kimi yaşaması, özünün fiziki və mənəvi həyatının mənbəyi kimi təbiətdən hərtərəfli istifadə etmək üçün şəraitdir.

Elton müəllim təbii mühit anlayışını, fikrimizcə, fəlsəfi yöndə şərh edir. Ona görə ki, Milli Məclisin deputatı əməli fəaliyyətində dövrün, cəmiyyətin qanunauyğunluqlarının fəlsəfi əsaslarına dərindən bələd olmalıdır, həyata keçirəcəyi problemlərin fəlsəfi mahiyyətini dərk etməlidir. Elton Məmmədov şübhəsiz ki, təbiət və cəmiyyət qanunlarını, coğrafi mühitin insana təsiretmə gücünü dərk etməsəydi, bu zaman ərzində bu qədər uğurlar qazana da bilməzdi.

Millət vəkili Elton Məmmədov rayonun təhsil və səhiyyə sahəsində aşağıdakı görüləcək işləri planlaşdırmış və həyata keçirməkdədir: Rayonda təməli qoyulmuş şahmat məktəbinin tikintisinin başa çatdırılması; Rayon mərkəzində və kəndlərdə xəstəxanaların tikintisi.

Qoca Şərqin dünyaya bəxş etdiyi birinci maraqlı oyun şahmatdır. Əsrlər keçmiş, qərinələr dəyişmiş, bütün dövlətlər dağılmış, şəhər və səltənətlər puç olmuşsa da, şahmat oyunu bütün bu keşməkeşlərdən keçərək bizə olduğu kimi gəlib çatmışdır.

Azərbaycanda da bütün xalq oyunlarına, o cümlədən şahmat oyununa ümumbəşəri mədəniyyətin kiçik də olsa bir sahəsi, milli mənəvi sərvət kimi baxılır, mədəni-tarixi əhəmiyyəti qeyd edilir, daha geniş yayılması üçün hərtərəfli şərait yaradılır. Ucarda da şahmat mədəni məişətin ən sevimli və maraqlı əyləncə vasitələrindən biri kimi sevlir. Xüsusən də Ucar gənclərinin mədəni səviyyəsinin durmadan yüksəlməsi ilə bağlı olaraq, xüsusilə son vaxtlarda şahmat oyununa maraq xeyli artmışdır.





Bunları nəzərə alan deputat Ucarda bünövrəsi qoyulmuş şahmat məktəbinin tikinisini öz şəxsi təşəbbüsü ilə başa çatdırmış, Ucar balalarının bu məktəbdə oxumaları üçün müəyyən şərait yarada bilmişdir: Rayonun səhiyyə və təhsil ocaqlarının təmiri və yenilərinin tikintisinə nail olunması; Çirkab suların və məişət tullantıları ilə çirklənmənin qarşısının alınmasına dair tədbirlərin görülməsi; Səhiyyə və təhsil işçilərinə hərtərəfli qayğı göstərilməsi, qabaqcıl ziyalıların rayonun ictimai həyatında fəal iştirakını təmin etmək əsas vəzifələrdən biridir.

Elton Məmmədov Ucar əhalisinin sosial rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi yönündə Prezidentin məqsədyönlü siyasi kursuna sadiq qalaraq insanların sosial problemlərinin həlli üçün əlindən gələn işləri görür. Ucarlıların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönələn işlər aparır, müəyyən tədbirlər görür.

Millət vəkili sözügedən rayonun əhalisinin maddi rifah halının yaxşılaşdırılması sahəsində də bir sıra işlərin həyata keçirilməsini kardinal işlərdən biri kimi nəzərdə tutmuş və həyata keçirməkdədir.

Ucar vətəndaşlarının rifahının yüksəldilməsi Elton müəllimin diqqət mərkəzindədir. Bu yöndə sosial proqramlar həyata keçirilir. Ölkə rəhbərinin dediyi kimi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının rifah halını yaxşılaşdırmaq üçün güclü iqtisadi əsaslar olmalıdır və bu əsasları yaradırıq.

Ölkədə həyata keçirilən bütün proqramların məqsədi odur ki, Azərbaycan vətəndaşı daha yaxşı yaşaya bilsin. Elton müəllim rayonun kəndlərində aztəminatlı ailələrlə maraqlanır, onların siyahısını tutdurur, lazım olan maddi köməkliyi göstərir.

Millət vəkilinin proqramında aşağıdakı işlərin də görülməsi məqsədyönlü şəkildə planlaşdırılmışdır: rayonda köhnə işlərin

bərpası ilə yanaşı, yeni iş yerlərinin təşkili; bələdiyyə torpaqlarından səmərəli istifadə etməyə və fermer təsərrüfatı üçün ayrılmış torpraqlarda fermerlərin normal işləməsinə şərait yaradılması; əhalinin ərzaqla təminatı üçün heyvandarlıq komplekslərinin yaradılması.

Ucarda gənc istedalar yetişir. Bu gənclər təhsildə, incəsənət sahəsində tanınırlar. Gənc istedadların respublika səviyyəsində tanınmasına yardımçı olmaq olduqca vacib məsələdir. Elton Məmmədov deputat olduğu rayonun belə fəal gəncləri ilə vaxtaşırı, tez-tez görüşlər keçirir. Əyalətin gəncləri onunla məsləhətləşmələr aparır, gənclər öz layihə və ideyalarını gerçəkləşdirirlər. Ucar gənclərinin də səsi respublikanın hər yerindən gəlir. Elton Məmmədov əyalət gənclərinə yüksək şərait yaradır. Onlar bu gün ictimai-siyasi, sosial-mədəni və başqa sahələrdə uğurla fəaliyyət göstərirlər. Görülən tədbirlər Ucar gənclərinin də inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsinə böyük imkanlar yaradır.

Bu gün ölkəmiz müstəqillik tarixinin olduqca dinamik inkişaf mərhələsini yaşayır. Elton Məmmədov gənclərin inkişafına xüsusi dəstək verir.

## Ucarda təhsilə qayğı

Dövlət başçısı İlham Əliyev demişdir ki, təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir.

Təhsil insanın fərdi azadlıqlarının əsas mənbəyidir. Cəmiyyətin hər bir üzvü təhsil sisteminin içində yetişir. Sosial-iqtisadi həyatın maarifləşməsində təhsilin rolu danılmazdır.

Hələ Tomsk vilayətində əmək cəbhəsinə atılarkən böyük fədakarlıqlar göstərmişdir. Böyük şəriştə sahibi olmuşdur. Onun





təşəbbüsü rayon mərkəzində və kəndlərdə təhsilin vəziyyətini öyrənmək oldu.

O, tez bir zamanda hiss etdi ki, əyalətdə təhsilin keyfiyyəti olduqca aşağı səviyyədədir. Bu vəziyyətlə heç cür razılaşmaq mümkün deyil. Problemi doğuran səbəbləri təcili araşdırdı. Gördü ki, bunun səbəbləri çoxdur. Öncə təhsilin infrastrukturunun və həmin infrastrukturun zəruri avadanlıqlarla təchizatıdır.

Elton Məmmədov dəqiq və hərtərəfli araşdırmalar nəticəsində belə qənaətə gəldi ki, əgər bir rayonda vəziyyət belədirsə, deməli, respublikanın başqa bölgələrində (şəhər və kəndlərdə) fəaliyyət göstərən təhsil müəssisələrində də göstəricilər buna bənzərdir. Odur ki, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların geniş və hərtərəfli tətbiqi olmadan təhsil sisteminin, prioritet istiqamətlərini müasir tələblər səviyyəsinə qaldırmaq, görüləcək işləri insan kapitalının inkişafına yönəltmək mümkünsüzdür. Təhsil sisteminin institusional əsaslarının, infrastrukturunun və insan resurslarının inkişafına nail olmaq üçün təhsil müasir həyatın önündə getməli və qazanılan bütün nailiyyətləri yetişən nəslə ötürmək qüdrətini özündə ehtiva etməlidir. Bir alim, təcrübəli mütəxəssis, pedaqoq və psixoloq kimi deputat yəqin elədi ki, bütünlükdə təhsilin qarşısında duran funksiyalar, prioritet istiqamətlər dərindən araşdırılmalı, təhlil olunaraq xüsusi fəaliyyət proqramı hazırlanmalıdır. Deputat ilk növbədə seçildiyi rayonda və kəndlərdə təhsil quruculuğuna başlamalıdır. Əgər bir rayonda, yaxud bölgədə belə bir işə başlanılarsa, istənilən nəticələri əldə eləmək mümkün olarsa, o zaman bu təcrübə qabaqcıl örnək kimi başqa rayonlarda da tətbiq oluna bilər. Bu, əslində bir rayonun yox, ümumiyyətlə, Azərbaycan təhsilinin, elminin inkişafına böyük töhfədir.

İstəyinə nail olaraq o, secicisi olduğu yaşayış məntəqələrində təlim-tərbiyənin keyfiyyətini yüksəltmək naminə dövrün tələb-

lərinə uyğun tədris binalarının, sinif otaqlarının tikilməlisini də planlaşdırdı. Bu baxımdan deputat optimal yollar arayıb-axtarır, götür-qoy edirdi. Rayona mütəxəssislər dəvət elədi. Məktəblərdən hansılarının əsaslı təmirə ehiyac olduğunu, hansılarının sökülərək yenidən inşa edilməsini müəyyənləşdirdi. Sonra respublika rəhbərliyi, aidiyyatı nüfuzlu şəxslərlə danışıqlara getdi. Maliyyələr hazırlandı. Maliyyə orqanlarının hərəkətə gəlməsinə təsir göstərdi. Axır ki, inadından dönməyən deputat məqsədinə nail oldu.

Onun böyük əməyi, fədakarlığı sayəsində seçicisi olduğu yaşayış məntəqələrində geniş imkanlı tədris-təcrübə bazaları yaradıldı. Fənn kabinələri, neçə-neçə kompyuter və idman zalları, açıq havada idman meydançaları inşa edildi.

Millət vəklinin — Elton Məmmədovun təhsil sistemi ilə əlaqədar deputat proqramında bu inkişaf strategiyasının əsaslarına toxunulmuşdur: "Hər bir tarixi mərhələdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Bütün dövrlərdə cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi-texniki tərəqqi isə təhsil sistemi qarşısında həlli vacib daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, habelə zaman keçdikcə təbii resursların azaldığı müasir dövrdə təhsilin rolu artmaqdadır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan etmişdir. Qətiyyətlə demək olar ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu danılmazdır.

Bəllidir ki, Azərbaycan təbii ehtiyatlarına görə zəngin bir ölkədir, amma uzun müddət bu ehtiyatlar ölkənin milli maraq və mənafeyinə xidmət göstərməmiş, əsasən keçmiş ittifaqın cari ehtiyaclarına sərf edilmişdir. Təkcə müstəqillik illərində həmin





təbii ehtiyatların Azərbaycanın indiki və gələcəyi üçün lazım olan insan kapitalına çevrilməsi imkanları əldə edildi. Bu faktorun nə qədər aktual olduğunu yaxşı bilən ölkə prezidenti bütün enerji və infrastruktur layihələrinin təhsilin yenidən qurulmasına və inkişafına istiqamətləndirilməsi kursunu məqsədyönlü və ardıcıl formada davam etdirməyə nail oldu. Təhsilə çox böyük maliyyə vəsaitləri ayrıldı. Ordu xərclərindən sonra təhsil xərcləri ikinci yerdə dayandı. Bu, bizə imkan verir ki, həm təhsilin maddi-texniki bazası möhkəmlənsin, həm də tədris proqramları, dərslik və digər vəsaitlər ən qabaqcıl dünya səviyyəsinə uyğunlaşdırılsın.

Elton Məmmədov göstərir ki, bu gün ölkəmizdə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilir. Biz gərək ölkəmiz üçün hazırlıqlı, bilikli kadrlar yetişdirək, bunun üçün uşaqlar gənc yaşlarından bütün müasir texnologiyalara, informasiya resurslarına tam bələd olmalıdır. Bu məqsədlə bütün məktəblərdə müasir dünyada əvəzolunmaz kompyuterlər quraşdırılmalıdır.

Elton müəllim BMT ekspertlərinin insan inkişafı üzrə apardığı tədqiqatın nəticələrini xatırladır: "Azərbaycan əhalinin savadlığı baxımından dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisə edilə bilər və ölkə üzrə bu indeks 99 faiz təşkil edir. Təhsil Nazirliyi əldə edilmiş bu nailiyyətin qorunub saxlanması və inkişafı yönündə öz strategiyasını müəyyənləşdirmiş və zəruri tədbirləri həyata keçirməkdədir".

Elton Məmmədov bu sahədə Təhsil Nazirliyinin gördüyü işlərə də qiymət verir: "Nazirlik ən ciddi problemlərlə əlaqədar strateji təhlillərə əsaslanmış inkişaf proqramlarını əzmlə həyata keçirir. Təhsil tariximiz üçün yeni və çox önəmli bir haldır ki, hazırda təhsil sisteminin müxtəlif sahələri üzrə ümumilikdə 14 inkişaf proqramı hazırlanmış və həyata keçirilməkdədir. Həmin proqramlar təhsilin məzmun və quruluşunun yeniləşdirilməsi,

yeni proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması, təhsilin təşkilinin, idarə olunmasının təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, tədrisdə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması, kadrla təminat, məktəbəqədərki təhsilin yeniləşdirilməsi, texniki peşə təhsilinin təkmilləşdirilməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, istedadlı uşaq və gənclərin yaradıcılıq potensialının inkişafı və digər önəmli sahələri əhatə etmişdir".

Danılmaz faktdır ki, son illər ölkəmizin təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərin baş verməsi, inkişaf yönümlü proqram və layihələrin həyata keçirilməsi dövlətimizin başçısının təhsilə göstərdiyi müntəzəm diqqət və qayğısı nəticəsində mümkün olmuşdur. Ölkə prezidentinin "Təhsil Nazirliyində düşünülmüş proqram, konsepsiya vardır" fikri təhsil işçilərinin fəaliyyətinə verilən yüksək qiymət olmaqla yanaşı, çevik idarəetmə modellərinin tətbiqi sahəsində səyləri daha da artırmağa istiqamətləndirilir. Təqdirəlayiq haldır ki, beynəlxalq və yerli ekspertlər analitik təhillərə əsaslanmış proqramlar vasitəsilə idarəetməni ölkə prezidentinin müasir idarəetmə metodu kimi qiymətləndirirlər. Bununla bağlı milli ideologiya ilə əlaqədar tədris proqramlarında xırdaçılıqlara uymadan, dünyəvi ictimai inkişaf formalarını nəzərə almaqla təhsil sisteminin qurulması zəruridir.

Millət vəkili Elton Məmmədovun təsəvvüründə bu cür təhsil sistemi deputat olduğu Ucar rayonunda da bir sıra məqsədləri güdməlidir: ölkənin bütün təhsil ocaqlarında müasir kompyuterlərdən təlim prosesində geniş istifadə etməklə təlimdə yeni texnologiyaların tətbiqinə nail olmaq; təhsil sisteminin strateji mənaya malik olduğunu nəzərə alaraq, inkişafını təsbit etməyə imkan verən etibarlı baza yaratmaq, elm və mədəniyyətinin inkişafı, demokratik vətəndaş cəmiyyətinin qurulması, modernləşdirilmiş istehsalat mülkiyyət sistemi əsasında dayanıqlı iqtisadi artıma nail olmaq; demokratikləşdirmə prinsiplərinə əsaslanaraq ümumtəhsil məktəblərinin orta siniflərində "Biznesin idarə olunmasının əsasları", "Menecment", "Sahibkarlıq mədəniyyəti" və s. fənlər tədris planlarına gətirmək; mövcud təhsil sistemində toplanmış təcrübənin müsbət, mütərəqqi əsaslarını saxlamaq, strateji məqsədləri həyata keçirməyə qadir olan intellektual potensial formalaşdırılmaq və elmi-pedaqoji ictimaiyyətin qəbul etdiyi ənənədən istifadə etmək; müəllimlərin və digər pedaqoji işçilərin fəaliyyəti üçün əlverişli şərait yaratmaq, onların sosial müdafiəsini təmin etmək; təhsil sisteminin yeni iqtisadi modelini qurmaq, resurs təminatını möhkəmləndirmək və onu optimallaşdırmaq.





Təcrübə göstərir ki, Ucar əyalətindən də ali məktəblərə qəbul olunmuş tələbələrin bir qismi maddi vəziyyətlərinin çətinliyi ucbatından ödənişləri verə bilmir, bu zaman bir deputat kimi Elton Məmmədov öz əməli köməkliyini göstərir.

***2014***

# İçindəkilər

**General..............................................................3**

## Tənha çinarın pıçıltıları

*Proloq əvəzi*..................................................................157
*Özünü tanımayan gələcəyi*............................................160
*Bir gecənin təlatümü*.....................................................164
*Tənha ömür*..................................................................170
*Qaradan tünd rəng*........................................................174
*Vəhşilərin xisləti*...........................................................181
*Şarlatanlar vadisində*.....................................................185
*Qütab bəhanədi*.............................................................189
*Yersiz gəldi yerli qaç*.....................................................193
*Ziyanxorlar*....................................................................205
*Taleyin oyunu*.............................................................. 211
*Nala-mıxa vurma*......................................................... 224
*Rəzil qadın*....................................................................230
*Ömür zənciri qırılsa*......................................................244
*Zülmə dözməzlər*...........................................................247
*Əsəb gərginliyi*..............................................................251
*İncitmə qızcığazı*............................................................257
*Göynərti*........................................................................263
*Mənim dəlisov qardaşım*...............................................268
*İnilti*..............................................................................272
*Şirinlik, yoxsa nəzir-misaf*........................................... 277
*Müəmma*...................................................................... 282
*Hislərin qovuşması*........................................................290





*Erkən "gəlin"*...............................................................294
*Heyrət və tərəddüd*........................................................295
*"Ölüm hökmü"*..............................................................306
*Doğan səhər*...................................................................314
*Özü yıxılan ağlamaz*......................................................318
*Epiloq əvəzi*...................................................................322

## Bir ömrün akkordları

*Qəlb evi*........................................................................328
*Sədaqət*.........................................................................333
*Arzuman şəxsiyyəti*........................................................340
*Dünyanın cövhəri anadır, ana!*......................................345
*Sevgi dolu həyat*.............................................................352
*Həyata baxışı*..................................................................359
*Uşaqlıq illərinin qanadlarında*.......................................364
*Orta məktəb illəri*......................................................... 369
*Arzuların qanadında*..................................................... 377
*Qaynar həyatın astanasında*..........................................380
*Bakı Energetika Texnikumunda*.....................................384
*Qatarda*..........................................................................389
*İlk təəssürat*...................................................................394
*Kişi sözü*.........................................................................398
*Tək-tənha*.......................................................................404
*Ali məktəb illəri*.............................................................408
*Etimad*...........................................................................416
*Görülən işdən gül qoxusu gələr*....................................420
*Fədakarlığın ilk rüşeyimləri*..........................................426
*Örnək ömür*...................................................................430
*Elm yollarında*...............................................................433
*Dərin intellekt sahibi*.....................................................440
*Uğurlu tədqiqatlar*.........................................................446

*Alimin pedaqoji fəaliyyəti*................................................*455*
*Həyat eşqi*..................................................................*460*
*Elmi-tədqiqat mərkəzi*....................................................*462*
*İxtiralar müəllifi*...........................................................*464*
*Elmi məqalələri və konfranslarda iştirakı*.......................*466*
*Doktorluq müdafiəsi*.......................................................*471*
*İctimai-siyasi fəaliyyət*...................................................*474*
*Deputat fədakarlığı*.........................................................*477*
*Sosial problemlərə baxış*................................................*480*
*Ucarda təhsilə qayğı*.......................................................*486*





**Ağarəhim (Nüsrət oğlu Rəhimov)**
Bakı, BQU, 2014, 494 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 02.12.2013*
*Çapa imzalanıb: 28.02.2013*
*Həcmi: 31 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**

Ağarəhim Rəhimov Əsərlər

Ağarəhim Rəhimov Əsərlər



338

*Ağarəhim Rəhimov* *Əsərlər*

339

*Ağarəhim Rəhimov* *Əsərlər*

340

*Ağarəhim Rəhimov* *Əsərlər*

341

*Ağarəhim Rəhimov* *Əsərlər*


342

*Ağarəhim Rəhimov* *Əsərlər*

343

Ağarəhim Rəhimov Əsərlər
344

Ağarəhim Rəhimov Əsərlər

345

*Ağarəhim Rəhimov* *Əsərlər*

346

*Ağarəhim Rəhimov* *Əsərlər*

347

*Ağarəhim Rəhimov* *Əsərlər*

348

*Ağarəhim Rəhimov* *Əsərlər*

349

Ağarəhim Rəhimov Əsərlər

350

*Ağarəhim Rəhimov* *Əsərlər*


351

Ağarəhim Rəhimov Əsərlər

352

*Ağarəhim Rəhimov* *Əsərlər*

353

Ağarəhim Rəhimov Əsərlər

354

*Ağarəhim Rəhimov* *Əsərlər*

355

Ağarəhim Rəhimov Əsərlər

356

*Ağarəhim Rəhimov* *Əsərlər*

357

*Ağarəhim Rəhimov* *Əsərlər*

358

*Ağarəhim Rəhimov* *Əsərlər*



359

*Ağarəhim Rəhimov* *Əsərlər*

360

*Ağarəhim Rəhimov* *Əsərlər*

361

*Ağarəhim Rəhimov* *Əsərlər*

362

*Ağarəhim Rəhimov* *Əsərlər*

363